Маркс К. Капитал, т. 1. К.Маркс и Ф. Энгельс. Соч., т. 23.

Энгельс Ф. Диалектика природы. К. Маркс и Ф. Энгельс. Соч., т. 20.

Энгельс Ф. Развитие социализма от утопии к науке.

К.Маркс и Ф. Энгельс. Соч., т. 19.

Энгельс Ф. Принципы коммунизма. К.Маркс и Ф.Энгельс. Соч., т. 4.

Ленин В. И Империализм как высшая стадия капитализма. Полн. собр. соч., т. 27.

Ланин В. И. Рабочий класс и неомальтузианство. ПСС, т. 23.

Программа Коммунистической партии Советского Союза, М., 1976.

Материалы XXV съезда КПСС. М., 1976.

Материалы XXVI съезда КПСС. М., 1981.

Конституция (Основной закон) Союза Советских Социалистических республик. М., 1977.

Балацкий О. Ф. Экономика чистого воздуха. М., 1979.

Взаимодействие методов естественных наук в познании жизни. М., 1976.

Диалектика и современное естествознание. М., 1970.

Будыко М. И.Глобальная экология. М., 197:1.

Вернадский В. И. Биосфера. М., 1967.

Давидам Ф.Ф. Атмосфера и биосфера – прошлое, настоящее, будущее. Л., 1975.

Дажо Р. Основы экологии. М., 1975.

Дорст Ж. До того, как умрет природа. М., 19.68.

Дювинью П., Танг М. Биосфера и место в ней человека. М., 1973.

Кутырин И.М. Охрана воздуха и поверхности вод от загрязнений. М., 1980.

Комаров В. Д. Научно-техническая революция и социальная экология. Л., 1977:

Коммонер Б. Замыкающийся круг. Л., 1974.

Лось В. А. Человек и природа. М., 1978-

Материалистическая диалектика и методы естественных наук. М., 1968.

Мамедов Н. М. Экологическая проблема я технические науки. Баку, 1982.

Манин Ю. М. НТР и экологизация производства. Минск, 1979.

Моисеев Н. Н. Человек, общество, среда. М., 1982.

Никитин Д. П.. Новиков Ю. В. Окружающая среда и человек. М., 1980.

Новик И.Б. Концепция оптимизации биосферы. В кн. «Методологические аспекты исследования биосферы». М., 1975.

Одум Е. Экология. М., 1968.

Одум Ю. Основы экологии. М., 1975.

Природа и общество. М., 1968.

Методологические аспекты исследования биосферы. М., 1975.

Охрана окружающей среды и ее социально-экономическая эффективность. М., 1979.

Проблема окружающей среды в мировой экономике и международных отношениях. М., 1976.

Соколов В. А. Американский капитализм и охрана окружающей среды. М., 1979.

Сен-Марк Ф. Социализация природы. М,, 1977.

Синтез современного научного знания. М., 1973.

Смирнов И.Н. Эволюция живой природы как диалектический процесс. М., 1975.

Современное естествознание и материалистическая диалектика. М., 1977.

Тугаринов В. П. Природа, цивилизация, человек. Л.,

1978.

Федоров Е. К. Экологический кризис и социальный прогресс. Л., 1977.

Фролов И. Т. Прогресс науки и будущее человека. М., 1975.

Федосеев II. Н. Диалектика современной эпохи. М., 1979.

Федосенко Н. П. Природопользование в системе социалистического воспроизводства. М., 1979.

Человек и природа. М:, 1980.

Хачатуров Т. С. Интенсификация и эффективность в условиях развитого социализма. М., 1978.

Жукова И.Ю. и др. Экономические проблемы охраны окружающей среды. М., 1981.

## Тема 17
## НАУКА В ЭПОХУ РАЗВИТОГО СОЦИАЛИЗМА

Наука – особое социальное явление, ее функционирование возможно уяснить на основе рассмотрения следующих проблем: социальной сущности науки; причин ее возникновения и развития; особенностей функционирования в зиму НТР и развитого социализма. Появление науки обусловлено потребностями общественно исторической практики, материального производства, отделением труда умственного от физического, накоплением на уровне обыденного сознания определенного минимума эмпирических знаний. Как общественное явление, наука характеризуется в качестве системы знаний о мире, как особая форма деятельности по производству знаний. Научное знание характеризуется следующими признаками: объективной истинностью; системой и описанием эмпирических фактов, образующих исходную базу научного исследования; логическим выражением научных знаний (логические понятия, язык науки), которые адекватно отражают существенное в явлениях. Эти знания образуют логически непротиворечивые системы – научные теории. Наконец, научное знание обладает прогностическими, предсказательными функциями, которые невозможно установить эмпирическим методом, опытным путем. Для решения своих проблем наука использует определенную методологию, методы исследования, которые можно подразделить на общие и частные.

Общим методам науки принадлежит стратегическая роль в исследовании. Диалектический материализм суть общая методология современной науки. В наши дни становится все более ясным, что исходные принципы научного познания по своей объективной сущности, (т. е. вне

зависимости от убеждений самих ученых) являются диалектико-материалистическими. Основанием для такого заключения служит убежденность ученых в объективном существовании объектов исследования, стихийное применение ими диалектики как наиболее перспективного метода познании явлений природы.

Частные методы науки в современной практике исследования все более и более математизируются. К частным методам науки можно отнести: генерализации, обособления, аксиоматический, формализации, гипотетический, экспериментальный, моделирования, математической логики, теории множеств, теории графов, теории подобий, интерполяции, экстраполяции, исследования операций, теории массового обслуживания, вариационного исчисления, математической статистики, теории вероятностей, кибернетический, аналитический, синтетический, дедукционный, индукционный и т. п.

Важную особенность науки составляет научная деятельность. Ее назначение – собирание данных, и создание научного знания. Познавательная деятельность в науке тесно связана с общественной практикой, с производством. Главнейшей причиной развития науки являются потребности общественно-исторической практики людей, в первую очередь материального производства. В этом процессе следует учитывать вопросы соотношения науки и идеологии. Современный ревизионизм, буржуазная социология пытаются обосновать концепцию противопоставления идеологии и науки, трактуют науку с надклассовых позиций, подрывают учение марксизма о том, что в условиях капитализма наука служит интересам буржуазии, используется для милитаризации страны, для «научной» эксплуатации трудящихся и. извлечения максимальной прибыли- Однако, связи науки и идеологии, науки и производства не

однозначны. Если, естественные науки Испытывают прямое воздействие потребностей производства, то по отношению к общественным наукам следует подчеркнуть опосредственный характер действий потребностей производства, указать, что это воздействие проявляется через экономические общественные отношения.

Действительно, наука в своем развитии, обладает относительной самостоятельностью, которая возрастает по мере накопления знаний. Относительная самостоятельность науки проявляется в процессах дифференциации и интеграции научных знаний и. отдельных научных дисциплин. Ф. Энгельс, указывал, что рост научного знания испытывает постоянное ускорение. (См. К.Маркс и Ф. Энгельс. Соч., т. 1, с. 568). Это приводит к тому, что, несмотря на решающее воздействие материального производства на науку в условиях НТР, само производство все реже и реже ставит перед, наукой непосредственные познавательные задачи. В современном мире наука стала производительной силой общества, и задачи совершенствования материального производства в настоящее время в основном возникают внутри самой науки, а их решение технологически используется производством. Современная НТР привела к громадному возрастанию роли науки в жизни общества. Процесс превращения науки в непосредственную производительную силу общества, как особенность современной НТР, требует решения проблемы роста эффективности науки. Между тем, современные научные. изыскания предполагают огромные капиталовложения. Отсюда, эффективность науки суть рациональное использование этих средств, что требует правильных экономических расчетов, четкой организации науки, планирования исследовательской работы, качественной подготовки и использования научных кадров, оптимального использования аппаратуры,

сырьевых ресурсов, четной системы информации и т. д.

В современном мире НТР проникла во все сферы производства и жизни, научные открытия активно вторгаются в общественный быт, в экономику и оказывают влияние на политику. Все это предполагает марксистский анализ функций науки. Буржуазные идеологи, характеризуя науку эпохи НТР, выдвигают различные апологетические концепции о ролевых функциях науки в условиях капитализма. Например, в теориях «индустриалистской» социологии научный прогресс рассматривается абсолютистски, вне связи с социальной системой государства. Наука и техника фетишизируются, им приписывается роль панацеи от всех классовых противоречий. Ясно, что указанные теории проявляют свою никчемность в условиях экономических и энергетических кризисов и депрессий, которые довольно часто возникают в капиталистическом мире второй половицы XX века. Распространены в буржуазной социологии и разного рода элитарные «теории» общественного развития. В этих теориях ролевые функции капиталиста в современном производстве и. классовой структуре общества заменены научно-технической интеллигенцией. Последняя трактуется как «надклассовая прослойка общества», способная не только «двигать науку», но и «мирным путем», без ликвидации частной собственности», «без революции», примирить буржуазию и пролетариат, сделать всех людей «лояльными членами» нового – «потребительского общества».

В своих «теориях» буржуазные социолога сознательно обходят вопрос о том, что в условиях капитализма и социализма наука развивается неодинаково. При .капитализме, возникает неравномерность в развитии отдельных наук, общественные науки, как правило, отстают от естественных. Капитализм препятствует полному

использованию научных достижений, направляет научно-технический прогресс против самих производителей, против народных масс. Наука милитаризуется, монополизируются научные знания. С развитием научно-технических знаний, усиливается процесс концентрации капитала, усугубляются его противоречия, которые проявляются в разного рода кризисах: экономических, политических, моральных, глобального и частного масштабов. Именно эти особенности развития науки в условиях капитализма и затушевывают буржуазные философы и социологи. Так, континууисты (П.Дюгем) утверждали, что развитие науки исключает Какие-либо перевороты, кризисные общественные ситуации. К.Поппер и его исследователи, полагают, что революции в науке – обыденное явление, не связанное с какими-либо аномалиями или кризисами. Метафизичность подобных взглядов очевидна, ибо говорить о развитии науки без учета особенностей социальный структур, в которых она развивается, без учета функционирования самих этих структур, значит отказаться от исследования коренных факторов и условий, стимулирующих или затрудняющих развитие науки. Следует указать, что даже те буржуазные социологи и философы, которые пытаются выявить механизм и стимулы развития науки, зачастую анализируют аспекты научных революций в отрыве от материального производства, экономики и. социальной структуры общества. Например, некоторые из этих ученых постулируют независимость научных открытий от материального производства, другие (см. Т. Кун. Структура научных революций. М., 1975) пытаются выявить эту связь на основе разного рода формалистических моделей. В основном буржуазные идеологи, обуславливают причины научных революций факторами культуры и психологии и, как правило, не вскрывают истинного характера связей

науки и материального производства, обходят вопросы обусловлен нести процесса развития науки производственными отношениями, различия в функционировании науки при капитализме и социализме. Действительно, вопрос обусловленности; процесса развития науки производственными отношениями особенно наглядно проявляется для нас в условиях социализма. При социализме открывается широкий простор для творческой деятельности, создаются материальные и духовные предпосылки для интенсивного развития науки, для ее эффективного применения в материальном производстве. Особенно важно проанализировать процесс развития науки, в условиях развитого социализма, в условиях создания материально-технической базы коммунизма. В этот период КПСС и Советское государство ставят перед наукой ряд важнейших общественно экономических проблем, успешное решение которых способно ускорить наш путь к коммунизму. Проблемы, стоящие перед наукой нашей страны следующие: определение перспектив и особенностей дальнейшего развития социалистической государственности, форм и методов идеологической работы, нравственного воспитания трудящихся; исследование проблем охраны окружающей среды и роста народонаселения; уяснение аспектов мирового развития, международных отношений, мирового революционного процесса, его особенностей в различный странах и регионах; вопросы разоружения, предотвращения атомной и других войн, проблемы сочетания борьбы за мир с борьбой за социализм и демократию; проблемы приобщения стран третьего мира к борьбе за социально-экономические преобразования, за выбор социалистического пути развития; проблемы сочетания борьбы за социалистическое преобразование общества с борьбой против колониализма, расизма,

различных форм империалистического порабощения, с борьбой за национальную независимость; решение ряда прочем фундаментального характера в естественных науках (проблемы: термоядерного управляемого синтеза, эффективного освоения космоса, глубин океане, недр земли, развития комплекса энергосистем, робототехники, лечение раковых и сердечный заболеваний, функционирования агропромышленных комплексов, решение продовольственной программы, программ укрепления обороноспособности страны и т.д.) и общественных науках (обобщение опыта революционно-преобразующей деятельности КПСС, международного Коммунистического и рабочего движения, исследование вопросов развитого социализма, разработка проблем социальной структуры общества, создания материально-технической базы коммунизма, совершенствования производственных отношений и т.д.). Все эти вопросы были рассмотрены XXVI съездом КПСС, и нашли отражение в его решениях и в дальнейших постановлениях пленумов ЦК КПСС, (ноябрьский (1982 г.) и июньский (1983 г.) пленумы ЦК КПСС).

## Учебные вопросы

Общая характеристика пауки как формы общественного сознания и как вица человеческой деятельности. Роль науки в строительстве коммунизма. НТР и создание материально-технической базы коммунизма. Особенности науки как формы общественного сознания. Наука и материальное производство. Наука мак непосредственная производительная сила общества. Общие и частные методы научного исследования. Диалектический материализм как общая методология современной науки. Понятие о научной деятельности и ее функциях. Особенности развития науки в

условиях социализма и капитализма. Критика буржуазных концепций. развитая пауки. Наука и ее задачи в условиях развитого социализма.

Примерные темы докладов и рефератов

1. Программа КПСС, решения XXVI съезда КПСС о задачах развития советской жуки.
2. Вопросы взаимодействия науки и материального производства.
3. Социальные условия развития науки.
4. Особенности науки как формы общественного сознания.
5. Наука как непосредственная производительная сила общества.
6. Развитие современной науки и экономическое Лавирование.
7. Пути создания материально-технической базы коммунизма и роль, науки в этом процессе.

## Литература


Программа Коммунистической партии Советского Союза. М., 1976.

Материалы XXVI съезда КПСС. М., 1981.

Андропов Ю. В. Речь на пленуме ЦК КПСС 22 ноября 1982 г. «Правда», 1982, 23 ноября.

Материалы июньского. (1983 г.) пленума ЦК КПСС.

Аитов Н.А, и др. Научно-техническая революция и образование. М., 1980.

Ильичов Л.Ф. Философия и научный прогресс. М., 1977.

Концепции науки в буржуазной философии и социологии. М., 1973.

Королев Б. Н., Целищев Д. П. НТР и производительные

силы развитого социализма. М., 1982-

Кедров Б. М. Научные революции. М., 1980.

Лапшин Н.П., Макаров И. В. Совершенствование форм связи науки с производством. М., 1981.

Медведев В.А. XXVI съезд КПСС и актуальные проблемы теории и практики Коммунистического строительства. М., 1981.

Мостепаненко М.В. Философия и методы научного познания. Л., 1972.

Методологические проблемы науки. М., 1979-

Материалистическая диалектика как методология. Алма-Ата, 1981.

Поспелов Г. С., Баришполец В. А. Интеграция науки и производства. М., 1978.

Парыгин Б. Д. Научно-техническая революция и личность. М., 1978.

Современные изменения в науке и технике и их социальные последствия. М., 1978.

Синтез современного научного знания- М., 1973.

Ракитов А. И. Философские проблемы науки. М., 1977.

Философия и современность. М., 1971.

Философская борьба в современном естествознании. М., 1977.

Федосеев П.Н. Диалектика современной эпохи. М., 1975.

Афанасьев В.Г. Научно-техническая революция, управление, образование- М., 1972.

Ахмедли Дж. Т., Рагимов А.А. Рабочий в эпоху НТР. Баку, 1976.

Ахиезер А. С. НТР и некоторые социальные проблемы производства и управления. М., 1974.

Волков Г. Н. Человек и научно-техническая революция. М., 1972.

Дряхлев Н. И, Социальные проблемы НТР. М., 1972.

Малахов В. Г. НТР и ее социальные последствия. М.,

1975.

Марков Н.В. Научно-техническая революция: анализ, перспективы, последствия. М., 1973.

Зворыкин А. Наука, производство, труд. М., 1965.

Лютика и методология науки. М., 1967.

Матвеев А.К. Развитие пауки как общественного способа познания. Воронеж, 1974.

Социализм и наука. М., 1981.

# ОГЛАВЛЕНИЕ

ВВЕДЕНИЕ ........ 11
Тема 1. НАУКА ОБЩЕСТВО. ПРИНЦИП ПАРТИЙНОСТИ В РАЗВИТИИ НАУКИ ........ 14
Тема 2. НАУЧНО-ТЕХНИЧЕСКАЯ РЕВОЛЮЦИЯ И ВОПРОСЫ СООТНОШЕНИЯ ФУНДАМЕНТАЛЬНЫХ И ПРИКЛАДНЫХ НАУК В УСЛОВИЯХ РАЗВИТОГО СОЦИАЛИЗМА ........ 24
Тема 3. ПРИРОДА И ОБЩЕСТВО ........ 33
Тема 4. ДИАЛЕКТИЧЕСКИЙ МАТЕРИАЛИЗМ И СОВРЕМЕННОЕ ЕСТЕСТВОЗНАНИЕ ........ 37
Тема 5. ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ СОВРЕМЕННОЙ ФИЗИКИ ........ 49
Тема 6. ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ СОВРЕМЕННОЙ ХИМИИ ........ 74
Тема 7. ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ СОВРЕМЕННОЙ БИОЛОГИИ ........ 84
Тема 8. ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ КИБЕРНЕТИКИ ........ 101
Тема 9. ТЕОРИЯ И ЭКСПЕРИМЕНТ ........ 113
Тема 10. ПОЗНАВАТЕЛЬНЫЕ АСПЕКТЫ МАТЕМАТИЗАЦИИ НАУЧНОГО ЗНАНИЯ ........ 123
Тема 11. ВЕРОЯТНОСТНЫЕ МЕТОДЫ ИССЛЕДОВАНИЯ И СТАТИСТИЧЕСКИЕ ЗАКОНОМЕРНОСТИ ........ 135
Тема 12. ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ НАУЧНОГО ПРОГНОЗИРОВАНИЯ ........ 144
Тема 13. НТР И ПРОИЗВОДИТЕЛЬНЫЕ СИЛЫ РАЗВИТОГО СОЦИАЛИЗМА ........ 156
Тема 14. ФИЛОСОФИЯ И ПОЛИТИЧЕСКАЯ ЭКОНОМИЯ ........ 165
Тема 15. ПРИНЦИП СИСТЕМНОСТИ И ЭКОНОМИЧЕСКИЕ НАУКИ ........ 183
Тема 16. ЭКОЛОГИЧЕСКАЯ ПРОБЛЕМА И ЭКОНОМИКА ........ 196
Тема 17. НАУКА В ЭПОХУ РАЗВИТОГО СОЦИАЛИЗМА ........ 205

Подписано к печати 9.XII.1983 г. ФГ 14103. Формат 60х84.
Заказ 260.
Объем 9 п.л. Тираж 500. Цена 35 коп.
Типография АзИНХ им. Д. Буниатзаде.
Баку-370022, ул. 26 бакинских комиссаров, 10.

# İNSAN və CƏMİYYƏT

**10-cu sinif üçün**
**dərslik**

***Fəlsəfə elmləri doktoru, professor,***
***əməkdar elm xadimi***
**Cəmil Əhmədlinin redaktəsilə**
***Azərbaycan***
***Respublikası Təhsil Nazirliyi***
***təsdiq etmişdir***

**«ÖYRƏTMƏN» NƏŞRİYYATI**
**Bakı-1994**

İnsan və cəmiyyət (10-cu sinif üçün dərslik).
Bakı.: «Öyrətmən», 1994, 120 səh.

İnsan cəmiyyət
*(Orta ümumtəhsil məktəblərinin
10-cu sinfi üçün dərslik)*
Bakı— «Öyrətmən» — 1994

Redaktoru *Tahirə Muxtarova*
Bədii redaktoru *Eldar Cəlilov*
Texniki redaktoru *Nisə Nağıyeva*
Rəssamı *Azər Cabbarlı*
Korrektorları *Aləmzər Zabir qızı, Ülviyyə Qasımova*

Yığılmağa verilmiş 01.02.94. Çapa imzalanmış 12.07.94. Kağız formatı. 60x90 1/16. Ofset çapı. Ofset kağızı №2. Məktəb qarnituru. Fiziki və şərti çap vərəqi 7,5. Uçot nəşr vərəqi 7,59. Tirajı 60000, Sifariş 169. Qiyməti 280 man.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
«Öyrətmən» nəşriyyatı

Bakı şəhəri, 370006, Bəşir Səfəroğlu küçəsi, 34. *«Öyrətmən» nəşriyyatının kompüter mərkəzində İradə Hüseynova yığmış və Nikolay Şvarov səhifələmişdir*

# GİRİŞ

Orta məktəbin 10-cu sinfi üçün yazılan bu dərslik insanla onun yaşadığı ictimai mühit arasındakı qarşılıqlı əlaqə və təsirin açılmasına həsr edilmişdir. İnsanın yaşadığı ictimai (sosial) mühitin iki başlıca tərəfi vardır — cəmiyyətin maddi həyatı və cəmiyyətin ruhi həyatı. Hər iki mühit müxtəlif amillərdən ibarətdir. Məhz maddi amilin mahiyyətinin açılması, insanın həyatına onun təsirinin və əksinə, maddi mühit amillərinin formalaşmasında hər bir insanın yeri və rolunun aydınlaşdırılması dərsliyin başlıca məqsədidir. Maddi həyat sahələrinin qarşılıqlı münasibəti, bunların hər birinin insanın həyatına təsirinin açılması da əsas yerlərdən birini tutur.

«İnsan və cəmiyyət» fənni təhsil sisteminə iki ildir daxil edilib. Təbiidir ki, fənnin dərsliyi də ilk dəfə yazılır və heç şübhəsiz ki, bir sıra nöqsan və çatışmazlıqlardan xali deyildir. Məhz ona görə də bütün oxucuların, xüsusilə də fənni tədris edən müəllimlərin xeyirxah irad və təkliflərini minnətdarlıqla qəbul edəcəyik.

Dərsliyin yazılmasında Cəmil Əhmədli, Əbdül Əlizadə, Əli Əhmədov, Səlahəddin Xəlilov, Həmzə Xəlilov, Nizami Qəhrəmanov, Hüseyn Məmmədov, Aydın Şirinov, Qabil Hüseynli iştirak etmişlər.

# İNSAN VƏ CƏMİYYƏTİN MADDİ HƏYATI

*İnsanlar cəmiyyətə deyil,*
*cəmiyyət insanlara xidmət edir.*
*(Herbert Spenser, ingilis sosioloqu).*

## İNSANLARIN BİRGƏ FƏALİYYƏT ÜSUL VƏ FORMALARI

### § 1. Cəmiyyət nədir?

Cəmiyyəti təşkil edən insanlar xarakterlərinə, peşələrinə, baxışlarına və digər əlamətlərinə görə fərqli olsalar da birgə yaşayır və fəaliyyət göstərirlər. Müxtəlif xarakter və keyfiyyətlərə malik olan insanlar tayfa, xalq, millət halında birləşir, müəyyən bir dövlətin ərazisində yaşayırlar. İnsanların bu cür birgəyaşayış və birgəfəaliyyət formasını ifadə etmək üçün cəmiyyət anlayışından istifadə edilir. Bəs cəmiyyət nədir, onu təşkil edən ünsürlər hansılardır?

Cəmiyyət hər şeydən əvvəl ayrı-ayrı insanların cəmidir. Konkret insan, şəxsiyyət olmasa, cəmiyyət də mövcud ola bilməz. Lakin cəmiyyət insanların sadəcə mexaniki cəmi deyil. Cəmiyyəti təşkil, edən insanlar mürəkkəb və müxtəlif əlaqə və münasibətdə olduqlarına görə cəmiyyət Özü də mürəkkəb bir sistemdir. Onu təşkil edən ünsürlər bir-birilə əlaqəyə girməklə yeni sosial birliklər (ailə, etnos, xalq, millət, sinif, partiya və s.) yaradırlar. Bu birliklərin hər birinin də öz yeni keyfiyyəti, olur. Nəsirəddin Tusi. "Əxlaqi-Nasiri" kitabında yazır ki, hər mürəkkəb varlığın özünə xas səciyyəvi, ümumi bir qanuniyyət, xüsusiyyət, quruluş və sistemi olar ki, bu onun tərkibinə daxil olan ünsür və elementlərdə ayrı-ayrılıqda təsadüf edilməz; insan icmalarında, da elə bir qanuniyyət, xüsusiyyət, quruluş və sistem

var ki, o ayrı-ayrı tək adamda ola bilməz.

Deməli, cəmiyyət təkcə hansı ünsürlərdən təşkil olunması ilə səciyyələnmir. Bununla yanaşı cəmiyyəti həmin ünsürlərin bir-biri ilə necə əlaqədə olması da xarakterizə edir. Ayrı-ayrı adamlar ümumi və fərdi mənafe və baxışlara, dostluq, ya rəqiblik münasibətlərinə, məqsəd birliyi, ya ayrılığına və s. malik ola bilərlər. Məhz bu əlamətlərə görə də insanlar müəyyən sosial birliklərə daxil olur, milləti, sinfi, kollektivi təmsil edir. Buradan görünür ki, cəmiyyət həm də müxtəlif insan birliklərinin — siniflərin, millətlərin, xalqların, kollektivlərin və s. məcmusu kimi çıxış edir. Sadalanan insan birlikləri cəmiyyətin ikinci qrup ünsürlərini təşkil edir.

Cəmiyyətin üçüncü qrup ünsürünü ictimai əlaqə və münasibətlər sistemi təşkil edir. İnsanlar özlərinin maddi və mənəvi həyatlarını təmin etmək, maddi istehsal fəaliyyətlərini həyata keçirmək üçün müxtəlif cür obyektiv əlaqə və münasibətlərə girirlər. Bu münasibətləri maddi və mənəvi münasibətlərə ayırmaq olar. İstehsalla bağlı olan maddi istehsal münasibətləri nəticə etibarı ilə ictimai münasibətlər sistemində təyinedici rol oynayır. Bu baxımdan cəmiyyəti ictimai münasibətlər sistemi də adlandırmaq olar.

Nəhayət, cəmiyyətin mövcudluğu üçün daha bir ünsür - maddi ünsür də zəruridir. Məşhur fransız sosioloqu E.Dyürkheym yazır: «Belə hesab etmək düzgün olmaz ki, cəmiyyət yalnız fərdlərdən ibarətdir; onun maddi ünsüıləri də vardır və həmin ünsürlər cəmiyyət həyatında mühüm rol oynayır. Maddi ünsürlərsiz insanın mövcudluğu mümkün olmadığı kimi, cəmiyyətin də mövcudluğu mümkün ola bilməz. Cəmiyyət dedikdə biz eyni zamanda insanların yaşayışını və həyatını təmin edən yolları, evləri, fabrik və zavodları, dəzgahları və s. nəzərdə tuturuq".

Söylədiklərimizi ümumiləşdirərək cəmiyyətə belə bir tərif vermək olar. Geniş mənada cəmiyyət insanların əlaqə və münasibətlərinin, qarşılıqlı fəaliyyət üsullarının və birlik

formalarının məcmusudur. İnsanların həyat və fəaliyyət sistemi həmin münasibətlərin, üsul və formaların vəhdəti kimi meydana çıxır. Bu halda cəmiyyət məfhumu bəşəriyyətin bütün tarixi inkişaf pillələrini, fəaliyyət üsullarını və insanların birlik formalarım əhatə edir.

Dar mənada cəmiyyət insanların tarixən müəyyən olunmuş ünsiyyət və birlik forması kimi başa düşülür. Qədim cəmiyyət, feodal cəmiyyəti, müasir cəmiyyət, yaxud Azərbaycan cəmiyyəti, Amerika cəmiyyəti dedikdə «cəmiyyət» anlayışı dar mənada işlədilir.

Cəmiyyətin inkişafının qanunauyğun xarakteri. İndi görək cəmiyyət özü bitkin bir sistem kimi necə inkişaf edir? Bu inkişaf təsadüfi hadisələr yığınıdır, yoxsa qanunauyğun prosesdir?

Cəmiyyətin inkişafı təbiətin inkişafından fərqlənir. Təbii proseslər və hadisələr insanların iradəsindən və fəaliyyətindən asılı deyil, əbədi və sonsuzdur. Təbiət hadisələrini insan nə yaradar, nə də məhv edə bilər, onları dərk etməklə ya sürətləndirə, ya da ləngidə bilər. Göründüyü kimi insan təbiət hadisələrinin gerçəkləşməsində yalnız icraçıdır, obrazlı desək, insan təbiət dramında yalnız aktyor rolunda çıxış edə bilər.

Cəmiyyətdə baş verən bütün hadisə və proseslər insanların fəaliyyəti ilə bağlıdır. İnsan ictimai prosesin həm subyekti, həm də obyektidir. Tarixi qanunlar onun fəaliyyətinin nəticəsi olmaqla yanaşı insanın özü vasitəsilə təsir göstərir, çünki cəmiyyətdəki hadisələr insanın özünü dəyişdirir, onun həyatına, baxışlarına, əxlaqına nüfuz edir.

Cəmiyyətin inkişafı fərdlərin şüurlu fəaliyyətinin nəticəsidir. Onun əsasında ayrı-ayrı adamların, kiçik və ya böyük insan birliklərinin tələbat və mənafeləri durur. Lakin bu heç də o demək deyildir ki, ictimai inkişaf insanların iradəsindən, istək və arzularından asılıdır, heç bir qanunauyğunluğa tabe olmur. İlk baxışda tarixi tərəqqi prosesi son dərəcə rəngarəng, sanki təkrar olunmayan hadisələrin zahirən xaotik, mexaniki xronologiyası təsiri bağışlasa da

burada daxili məntiq, səbəb və nəticə əlaqələri mövcuddur. İnsanlar öz tarixini istədikləri kimi deyil, həyatlarının maddi şəraitinə uyğun surətdə və ondan çıxış edərək yaradırlar. Başqa sözlə, ictimai inkişaf insanların iradəsindən asılı olmayan obyektiv qanunauyğun bir prosesdir.

Zahirən, təkrarolunmaz hadisələrin düzümü kimi görünən bəşər tarixi daxilən müəyyən ümumi cəhətlərə, meyllərə, istiqamətlərə malikdir. Bunların hamısının əsasında mənafelərin toqquşması, çarpazlaşması və uyğunluğu durur. Məsələn, tarixi sivilizasiyaların yaranması, çiçəklənməsi və süqutu, nıüharjbələr, üsyanlar, inqilablar, ictimai inkişafa az-çox təsir göstərən bütün digər proseslər, cəmiyyətin maddi və mənəvi həyatında yaranan şəraitin, cəmiyyətdəki qüvvələrin məqsəd və mənafe ziddiyyətinin doğurduğu hadisələrdir. Birbaşa təzahür formalarına, məzmun çalarlarına görə onlar təkcə və təsadüfi görünsələr də, mahiyyətcə qanunauyğun surətdə baş verirlər. Qədim dünyanın Spartak üsyanı, orta əsrlərin kəndli üsyanları, XVIII-XX əsrlər Avropa inqilabları formaca müxtəlif olsa da məzmun və mahiyyətinə görə oxşar və eyni cəhətləri çoxdur. Bu cəhətlər isə onlardakı qanunauyğun xarakterin əsasını təşkil edir. Müxtəlif xalqların ayrı-ayrı tarixi dövrlərdə mahiyyətcə eyni inkişaf pillələrini keçməsi, ictimai tərəqqinin başlıca meyl və istiqamətinin ümumiliyi və s. bu kimi hallar tarixin obyektiv qanunauyğun proses olduğunu göstərən dəlillərdir.

Cəmiyyətin qanunauyğunluqları daxilən ona xasdır və özü ilə birlikdə meydana gəlmişdir. Cəmiyyətin inkişafı əksərən onun özündə baş .verən proseslərin nəticəsidir, cəmiyyətin ayrı-ayrı ünsürlərinin və strukturlarının fəaliyyəti ilə bilavasitə əlaqədardır.

Tarixi inkişafın qanunauyğunluğu cəmiyyət həyatının dəyişkənliyindən irəli gələn bir sıra xüsusiyyətlərə malikdir. Təbiətdəki dəyişikliklər çox ləng getdiyindən onun qanunları uzun müddət fəaliyyət göstərir. Cəmiyyət həyatı isə daha sürətlə dəyişir. Ona görə də tarixi prosesdə fəaliyyət göstərən

qanunauyğunluqlar da sürətlə dəyişir. İctimai inkişaf qanunauyğunluqları əsas etibarilə müəyyən ictimai-iqtisadi sistemdə fəaliyyət göstərən qanunauyğunluqlardır. Hər yeni ictimai-iqtisadi quruluşda ictimai sistemin elementləri arasında yaranan əlaqə və münasibətlər yeni qanunlarla tənzim edilir. Bununla belə cəmiyyətin inkişafının bütün mərhələlərində özünü göstərən qanunauyğunluqlar da mövcuddur. Bəşəriyyətin tərəqqisinin baş xətti həmin qanunauyğunluqların fəaliyyəti nəticəsində müəyyən edilir. Maddi istehsalın ictimai tərəqqinin həlledici amili olması, istehsal münasibətlərinin məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılılığı və s. cəmiyətin indiyədək bütün tarixi, pillələrində fəaliyyət göstərən qanunauyğunluqlardır.

Cəmiyyətin qanunauyğun surətdə inkişaf edən ictimai sistem kimi fəaliyyəti özünü onda göstərir ki, bu sistemin elementləri olan həyat sahələri (iqtisadi, sosial, siyasi, mənəvi) bir-biri ilə həm üfüqi, həm də şaquli əlaqədədir. Üfüqi əlaqələr onların bir-birinə qarşılıqlı təsirini, şaquli əlaqələr isə onlarda birinin digərini törətməsini, aralarında olan asılılığı göstərir. Birinci növdən olan əlaqələrə koordinasiya, ikinci növdən olan əlaqələrə isə subordinasiya əlaqələri deyilir.

İnsanların birgə yaşamaq zərurəti. Cəmiyyət ictimai sistem kimi insanların birgə yaşaması və fəaliyyəti sayəsində mümkün olmuşdur. Bəşəriyyətin tarixini səciyyələndirən cəhətlərdən biri də insanların birgəyaşayış formalarının daim təkmilləşməsidir. İnsan öz tarixinin ilk günlərindən birgə yaşamaq məcburiyyəti ilə qarşılaşır. İbtidai insanlar sürü halında yaşayır, birlikdə qida toplamaqla məşğul olurdular. Sonrakı mərhələlərdə insanlar yeni, daha əlverişli formalarda birləşir, ailələr, qəbilə və tayfalar meydana çıxır.

Bəs insanları birgə yaşamağa nə məcbur etmişdir? İnsanların birgəyaşayış formaları hansı amillərdən asılı olmuşdur?

Tanınmış qərb tədqiqatçısı P.Kuusi yazırdı ki, qida

toplanması və ovçuluq dövrü haqqında ziddiyyətli məlumatlar verən antropoloji tədqiqatlar bir məsələ barədə yekdil fikir söyləməyə əsas verir: bəşəriyyətin uğurlarının kökü insanların öz səylərini birləşdirmək sahəsində daim artan qabiliyyətlərindəndir. İctimai həyat tərzinə getdikcə artan meyl və güclənməkdə olan qarşılıqlı kömək hissi həyatı təmin edən başlıca şərtlərdir.

Buradan aydın olur ki, insanların birgə yaşamaq zürurəti onların həyat tərzindən irəli gəlmişdir. Gündəlik üzləşdikləri təbiət qüvvələrinə qarşı mübarizə aparmaq və öz təhlükəsizliklərini təmin etmək üçün insanlar birləşməyə məcbur idilər. Yalnız kiçik kollektivlərdə birləşməklə onlar özlərini vəhşi heyvanların hücumundan, təbii fəlakətlərdən qoruya bilərdilər... Digər tərəfdən, ibtidai insanlar biosferdə özlərinə yer tapmaq, başqa humanoid növlərdən özlərini müdafiə etmək üçün kollektivlər halında birləşirdilər. Kollektivin sayı dəyişkən olmaqla yanaşı, konkret şəraitlə müəyyən edilirdi. Məhz bu birgəyaşayış və kollektiv həyat tərzi, insanların bir-birinə yardımı onların təbii seçmə prosesinin ağır sınağından çıxmasına imkan vermişdir.



Platon (e. ə. 428/7, Afina–348/7, orada) – qədim yunan idealist, filosofu. Kratilin, sonralar Sokratın tələbəsi və Platon akademiyasının yaradıcısıdır. Platon təqribən 30 dialoq və məktubun müəllifidir: «Fedon», «Pir», «Fedr», «Dövlət»,

«Trest», «Parmenid», «Sofist», «Politik», «Fileb», «Tiey», «Kritiy» və s.

Platona görə ideyalar ilkindir, mühümdür, materiya isə törəmədir, qeyri-mühümdür. Materiyanın heç bir forması və digər xarakteristikası yoxdur, o yalnız ideyanın daşıyıcısı, təcəssümüdür.

Siyasi görüşlərinə görə Platon Afina aristokratiyasının nümayəndəsi idi. Cəmiyyət haqqında təlimdə ideal aristokratik dövləti təsvir etmişdir. Həmin dövlətin ilkin şərti qul əməyidir. Dövləti filosoflar idarə etməlidirlər; onu mühafizə dəstələri, yaxud döyüşçülər qorumalıdır.

İnsanların birgə yaşamaq zərurəti həm də onların digər canlılardan fərqli olaraq əmək fəaliyyətilə məşğul olmasından irəli gəlir. Ən sadə, primitiv əmək belə, insanları bir-birindən asılı edir. Öz həyatını təmin etmək üçün əməklə məşğul olan insanlar qida toplamaq, ov etmək üçün birlikdə fəaliyyət göstərir və yalnız bunun sayəsində öz tələbatlarını ödəyə bilirdilər. Böyük mütəfəkkir İbn-Sina yazırdı, ki, tənha insan ona lazım olur şeyləri təklikdə özü əldə edə bilməz. Onları yalnız cəmiyyət vasitəsilə əldə edə bilər.

Əmək prosesi mürəkkəbləşdikcə tədricən əmək bölgüsü yaranır və getdikcə inkişaf edir. Bunun sayəsində insanların birgə yaşaması və birgə fəaliyyəti zərurəti daha da güclənir. Əməkdə baş verən ixtisaslaşma və müxtəlif fəaliyyət sahələrinin yaranması insanları bir-birinə daha sıx tellərlə bağlayır. Cəmiyyət getdikcə birlikdə fəaliyyət göstərən tam bir orqanizmə çevrilir.

Müasir cəmiyətdə insanların birgə yaşaması həm cəmiyyətin, həm də ayrıca bir fərdin mövcudluq üsuludur. Əmək və istehsal tələbatından irəli gələn kollektivçilik meylləri başqa bir amillə daha da möhkəmlənir. Müasir insanları birgə yaşamağa sövq edən səbəblərdən biri də ünsiyyət tələbatıdır, insanın təbii-sosial mahiyyətində mənəvi başlanğıc mühüm yer tutur. Fərdin özünüifadəsi, öz mahiyyətini reallaşdırması digər

fərdlərlə ünsiyyət vasitəsi ilə mümkün olur.

Cəmiyyət inkişaf etdikcə insanlar arasındakı ünsiyyət formaları da təkmilləşir. Müasir kommunikasiya sistemləri insanlararası ünsiyyətin miqyasını, əhatə dairəsini genişləndirmişdir. Ünsiyyət nə qədər intensiv, çoxşaxəli olarsa, insanların, xalqların və millətlərin inteqrasiyası, yaxınlaşması prosesi də o qədər sürətlənər. Təyyarələrlə uzaq məsafələr tezliklə qət edilir, telefon-teleqraf vasitəsilə dünyanın istənilən guşəsilə istənilən vaxt əlaqə yaratmaq mümkün olur. İndi nəinki ayrı-ayrı fərdlər, habelə bütöv xalqlar bir-birilə müxtəlif formada əlaqə və ünsiyyətdə olmadan keçinə bilməz.

## §2. İctimai münasibətlər və ictimai mühit

**İctimai münasibətlərin, obyektiv xarakteri.** Əvvəlki paraqrafdan bilirsiniz ki, bəşəriyyətin meydana gəlməsinin mühüm şərtlərindən biri insanların birgəyaşayış vərdişi olmuşdur. Məhz birgəyaşayış fəaliyyət insanların və bütövlükdə cəmiyyətin mövcudluğu üçün əsas şərt olmuşdur. Deməli, cəmiyyət meydana zamandan insanlar bir-birindən asılı olmuş, onlar arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq formalaşmışdır. Cəmiyyət üzvü olun hər bir fərd həmin əlaqələr çərçivəsində fəaliyyət göstərdiyindən, onun daşıyıcısı olur, mürəkkəb əlaqə və münasibətlər sisteminin bir ünsürünə çevrilir.

İnsanlar arasındakı əlaqə və münasibətlər ictimai xarakter daşıyır. Ayrı-ayrı fərdlərin fəaliyyəti və həyatı ilə əlaqədar olsa da, bu əlaqələr bütövlükdə cəmiyyətin həyat fəaliyyətinin zəruri nəticəsi və şərtidir. Məsələn, kəndli öz həyatində yetişdirdiyi məhsulu bazarda konkret alıcıya satırsa, bu əməliyyat zahirən şəxsi, yəni ikitərəfli münasibətlər təsiri bağışlayır. Əslində isə həmin münasibətlər ictimai xarakter daşıyır, çünki cəmiyyətdə mövcud olan mürəkkəb əlaqələr sisteminə daxildir (istehsalçı əmək alətlərindən istifadə edir, bu alətləri isə başqaları yaradıb,

alıcı isə başqa bir yerdə işləyib, başqa insanlarla əlaqəyə girməklə kəndlinin təklif etdiyi məhsulu almaq üçün lazım olan pulu qazanıb və s.).

Əlaqə və münasibətlərin ictimai mahiyyəti insan fəaliyyətinin digər sahələrində də təzahür edir. Alimin kəşfi onun əvvəlki nəsillərin topladığı bilikləri mənimsəməsi sayəsində mümkündür, eyni zamanda bu kəşf digər insanların və gələcək nəsillərin fəaliyyətində maddiləşərək ictimai xarakter alır.

Məhz ona görə də fərdlər arasındakı, fərdlərlə cəmiyyət və sosial qruplar arasındakı əlaqələri «ictimai münasibətlər» anlayışı ilə ifadə edirlər. Yuxarıda dediklərimizə əsaslanaraq ictimai münasibətlərə belə bir tərif vermək mümkündür: ictimai münasibətlər insanların həyat *və* fəaliyyəti prosesində onlar arasında meydana gələn və müxtəlif formalarda təzahür edən mürəkkəb əlaqələr sistemidir.

İctimai münasibətlər öz təbiətinə görə obyektiv hadisədir. İnsanlar arasındakı ictimai əlaqələr sistemi onların fərdi arzusuna, istəyinə görə yaranmır, cəmiyyətin mövcudluq şəraitindən irəli gəlir. İnsanlar yaşamaq üçün istehsal etməli olduqları kimi, istehsal etmək üçün də bir-biri ilə müxtəlif əlaqələrə girməyə məcburdurlar. Cəmiyyətdə yaşayan hər bir fərdin öz məqsədləri, istəkləri, arzulan və niyyətləri vardır. Hər kəs də məhz özünün məqsədlərinə nail olmaq üçün çalışır, səy göstərir, müxtəlif vasitələrdən istifadə edir. Lakin ictimai prosesin nəticəsi fərdi səylərə uyğun olmur, sanki ortalaşmış bir nəticə alınır ki, buna da tarixi proses deyilir. Həmin prosesin özəyini ictimai münasibətlər təşkil edir.

İctimai münasibətlər mürəkkəb quruluşa malik olan hadisədir. İnsan fəaliyyəti zəngin və çoxcəhətli olduğundan onun nəticəsi kimi meydana gələn əlaqə və münasibətlər sistemi də çoxşaxəli və çoxlaylıdır. İctimai münasibətlərin nüvəsini istehsal münasibətləri təşkil edir. Maddi istehsal fəaliyyəti ictimai fəaliyyətin özəyi olduğundan, sistemə daxil olan digər

ictimai münasibətlərin (siyasi, hüquqi, əxlaqi, dini və s.) formalaşması da nəticə etibarilə məhz istehsal münasibətlərindən asılıdır.

Sosial münasibətlər insanların sosial birlikləri arasında, yaxud həmin qruplar içərisində meydana gələn əlaqələr sistemidir. Siyasi münasibətlər, hakimiyyətin ələ alınması və həyata keçirilməsi ilə əlaqədar insanlar və ya sosial qruplar arasında formalaşan münasibətlərdir. İctimai münasibətlərin bu forması siyasi fəaliyyətin bütün növlərində, xüsusilə də dövlətin fəaliyətində reallaşır.

Siyasi münasibətlər hüquqi münasibətlərsiz mümkün deyildir. Hüquqi münasibətlər isə insanların hüquqları və vəzifələrinin reallaşması prosesində əmələ gələn hüquqi praktikanın mühüm tərkib elementidir.

Beləliklə, cəmiyyətdəki münasibətləri iki yerə ayırmaq olar. Maddi münasibətlərə istehsal, bölgü, mübadilə və istehlakla bağlı münasibətləri, mənəvi münasibətlərə isə cəmiyyətin mənəvi həyat sahələrində formalaşan münasibətləri aid edirlər.

Nəhayət, bir cəhəti də qeyd edək ki, insanların fəaliyyətinin nəticəsi kimi formalaşan ictimai münasibətlər eyni zamanda insana, onun fəaliyyətinə və həyat tərzinə ciddi təsir göstərən bir amildir. Məhz bu səbəbdən də o, insanın formalaşdığı ictimai mühitin tərkib hissəsidir.

**İctimai mühit nədir?** İctimai mühit, yaxud sosial mühit anlayışı fəlsəfə elminə XVIII əsrin fransız maarifçiləri tərəfindən gətirilmişdir. İnsanın ictimai mühitin məhsulu olması ideyasını ilk dəfə irəli sürən və əsaslandıran da onlar olmuşlar.

Artıq sizə bəllidir ki, insanlar cəmiyyətdən kənarda mövcud ola bilməz. Hər bir konkret fərd müxtəlif adamların əhatəsində yaşayır. Bu adamlar ailə üzvləridir, dost-tanışlardır, məktəb və yaxud iş yoldaşlarıdır və s. Bundan əlavə, insanlar gündəlik həyatda hər an, hər dəqiqə baş verən zəruri və ya təsadüfi hadisələrlə də əhatə olunmuşlar. Bir sözlə, şəxsiyyətə bu və ya digər dərəcədə təsir göstərən sosial amillər sistemi onun ictimai

mühitini təşkil edir.

İctimai mühit anlayışı cəmiyyət anlayışı ilə sıx əlaqəlidir, onun bir növ konkret təzahürüdür. İctimai orqanizm olan cəmiyyət konkret subyektə nəzərən xarici şərait kimi təzahür edir və həmin təzahür ictimai mühit məfhumu ilə ifadə olunur.

İctimai mühit anlayışı insanların həm maddi, həm də mənəvi həyat şəraitini özündə birləşdirir. Bu o deməkdir ki, ictimai mühit mürəkkəb sosial hadisədir. Cəmiyyətdəki maddi və mənəvi münasibətlər, siyasi, hüquqi və ictimai-iqtisadi təsisatlar, sosial birliklər və qruplar, birgəyaşayış formaları və prinsipləri, təhsil sistemi, ictimai rəy, əmək kollektivləri onun başlıca tərkib hissələridir.

İctimai mühit insanların ətrafında baş verən sosial proseslərin sintetik məcmusudur. Buradan da ictimai mühitin daha bir spesifik cəhəti irəli gəlir: o, insana təsir göstərən xarici amillər toplusudur. İnsanın bioloji varlığının əsası təbii mühit, sosial varlığının əsası isə məhz ictimai mühitdir.

İctimai mühitin makro və mikro səviyyələri vardır.

Makromühit insanı əhatə edən ən ümumi xarakterli ictimai münasibətlər sistemi, onların reallaşması ilə bağlı olan təsisatlar, ictimai əhəmiyyətli hadisələr və hərəkatların məcmusudur. Buraya ictimai-iqtisadi sistem, ictimai münasibətlər və təsisatlar, ictimai şüur və mədəniyyət daxildir.

Makromühitin özü də müxtəlif səviyyəli olur. Bütövlükdə cəmiyyət miqyasında formalaşan ictimai mühit konkret sosial birliyin həyat və fəaliyyət şəraiti çərçivəsində qərarlaşan ictimai mühitə nisbətən daha ümumi səciyyəlidir. Məsələn, Azərbaycan cəmiyyəti səviyyəsində ictimai mühit hər birimizi əhatə edən, hər birimizə təsir göstərən ümumictimai əhəmiyyətli hadisələrdir, ictimai əlaqə və münasibətlərdir, dövlətdir, yəni bütövlükdə xalqın həyat və fəaliyyət şəraitidir.

Bundan əlavə, nisbətən kiçik həcmli sosial birliklər miqyasmdakı ictimai mühit də mövcuddur ki, bu da özlüyündə makromühit kimi təzahür edir. Bu mənada makromühit,

məsələn, böyük şəhərlərdə, siniflər və ya millətlər çərçivəsində insanı əhatə edən spesifik sosial şəraitdir.

Makromühit anlayışı çox geniş olduğundan, onun insana təsiri əsas etibarilə ümumi səciyyə daşıyır. Bunlar arasında əlaqə yaratmaq, birincinin ikinciyə təsirini daha məqsədyönlü etmək üçün xüsusi bir vəsilə, tələb olunur. Həmin vəsilə rolunu mikromühit yerinə yetirir.

Mikromühit insanın ən yaxın sosial əhatəsidir. O da öz mahiyyətinə görə obyektivdir, çiinki bütövlükdə ictimai mühitin spesifik təzahür formasıdır. Mikromühitin xarakteri, fəaliyyətinin əsas prinsipləri mövcud ictimai mühitin bilavasitə təsiri altında formalaşır. Cəmiyyətdəki sosial- iqtisadi, mənəvi-psixoloji və digər münasibətlər əslində mikromühit vasitəsilə, onun prizmasından keçərək insanın formalaşmasına təsir göstərir. Öz növbəsində insan mikromühit vasitəsilə onu əhatə edən daha geniş miqyaslı makromühitlərlə əlaqəyə girir.

Mikromühitin mahiyyəti onun fiziki miqyası ilə deyil, insanın yaşadığı və fəaliyyət göstərdiyi bilavasitə sosial şəraitin olması ilə müəyyən olunur. O, miqyasca geniş də ola bilər, məhdud da insanın bilavasitə əhatəsi daimi, uzunmüddətli və ya qısamüddətli olur. İnsan, həyatı boyu, müxtəlif mikromühitlərin təsirinə məruz qalır. Həm də hər bir konkret fərd eyni zamanda bir neçə mikromühitə daxildir.

Mikromühit yaranma üsullarına, əhatə dairəsinə, ona daxil olan fərdlərə təsir göstərmə imkanlarına, ictimai mühitin xüsusiyyətlərini əks etdirmək qabiliyyətlərinə və digər əlamətlərinə görə fərqlənir. Bu mənada insanın işlədiyi kollektiv, oxuduğu təhsil müəssisəsi, ailəsi, dost və tanışlarının əhatəsi, daxil olduğu digər az və ya çox sabit kiçik birliklər müxtəlif qəbildən olan mikromühitlərdir.

Mikromühitin formalaşmasında sosial-iqtisadi amillərlə yanaşı, psixoloji amillər də iştirak edir. Şəxsiyyətin onu əhatə edən ən yaxın mühitlə bilavasitə təması zamanı şəxsiyyətlərarası əlaqələr, psixoloji momentlər az rol oynamır.

Bundan əlavə, fərdin əhatəsi bilavasitə xalis subyektiv meyllər zəminində də formalaşa bilər. Kiçik sosial, qrupların bəzi qismi, məsələn, ailə, dostlar və tanışların əhatəsi sosial-psixoloji əlaqələr əsasında yaranır. Digər kiçik sosial qruplarda isə mikromühit obyektiv olaraq yaransa da, onun fəaliyyət göstərməsində psixoloji əlaqələr həlledici əhəmiyyət kəsb edir. İdman kollektivləri, yaradıcılıq birlikləri buna misal ola bilər.

**İnsan ictimai mühiti dəyişdirə bilərmi?** İctimai mühitin əsas funksiyası insanın formalaşdırılması, şəxsiyyətin tərbiyə edilməsidir. İctimai mühit obyektiv reallıqdır, buna görə də onun, şəxsiyyətin tərbiyəsinə təsiri obyektiv səciyyə daşıyır. İnsanlar ictimai mühiti özləri seçmirlər, zəruri olaraq meydana gəlmiş ictimai mühitdə doğulur və böyüyürlər. Şəxsiyyətin fərdi şüuru, davranışı, dəyərlər yönümü mahiyyətcə onun həyatının sosial şəraiti ilə müəyyən edilir. Bu mənada məşhur filosof R.Holbaxın belə bir fikri çox maraqlıdır: «Quldurlar arasında böyüyən uşaq yalnız qəddar bir adam ola bilər; əgər o, xeyirxah adamlardan tərbiyə almış olsaydı, xeyirxah adam kimi böyüyərdi".

Dünyaya gələn hər bir fərd mütləq ondan asılı olmayaraq mövcud olan müəyyən, ictimai münasibətlər və əlaqələr sisteminə daxil olur. Onların necə yaranması artıq sizə məlumdur. Şəxsiyyətin həmin ictimai sistemə məcburən daxil olması onun özünün sosial mahiyyətindən irəli gəlir. Onu əhatə edən mühitə daxil olmaqla fərd həmin mühiti səciyyələndirən münasibətlər sisteminə qoşulur, fəaliyyət formalarını, davranış normalarını və prinsiplərini əxz edir.

İnsan öz davranışında və baxışlarında ictimai mühitin təsirini çox vaxt dərk edə bilmir. Lakin əslində hər kəsin hərəkəti bu və ya digər dərəcədə onu əhatə edən şəraitlə şərtlənir. Ən dahi, unikal şəxsiyyətlərə belə xas olan irsi keyfiyyətlərin əksəriyyəti başqaları ilə təmas nəticəsində inkişaf edir. İnsan öz fəaliyyətində nə qədər müstəqillik, orijinallıq göstərməyə cəhd etsə də, nəticə etibarilə onun davranışı, ideyaları ictimai mühitin

tələbləri ilə formalaşır və ona uyğun olur.

Belə bir kəlam da vardır: "İnsan valideynlərindən daha çox zəmanənin övladıdır". Əlbəttə, bu deyilənlərdən belə bir nəticə çıxarmaq olmaz ki, insanlara ictimai mühitin təsiri birtərəflidir, yəni eyni ictimai, mühitdə tərbiyə alan insanlar eyni keyfiyyətlər qazanırlar. Reallıq heç də belə deyildir. Vahid ictimai mühitdə müxtəlif keyfiyyət və xarakterə malik insanlar yetişir. Hətta, çox məhdud sosial mühit şəraitində belə tamamilə eyni düşüncəli, eyni baxışlı, eyni xarakterli fərdlərin formalaşması mümkün deyildir. Bu o deməkdir ki, şəxsiyyətin tərbiyəsi onu əhatə edən ictimai mühitin təsirinin birbaşa nəticəsi deyildir. İctimai mühit fərdin sosial keyfiyyətlərinin formalaşmasının ümumi əsası, ümumi zəmini funksiyasını yerinə yetirir. Lakin bu proses ictimai mühitlə şəxsiyətin qarşılıqlı təsirində baş verir. Hər bir insan ictimai baxışları, normaları, dəyərləri və s. fərdiləşdirir, özünün daxili tələbatları sistemilə əlaqəli şəkildə qavrayır və praktik fəaliyyət motivlərinə çevirir. Məhz elə bu mərhələdə konkret ictimai mühitdə tərbiyə alan fərdin xarakterində ictimai normalardan uzaqlaşmalar baş verir.

Göründüyü kimi, sosial mühit-şəxsiyyət sistemində insan passiv tərəf deyildir. Şəxsiyyət mühitin təsiri altında formalaşır, eyni zamanda ictimai mühit insanların fəaliyyətinin nəticəsi kimi meydana gəlir. Deməli, insan onu əhatə edən mühitdən asılı olduğu kimi, bu sonuncu da fərdlərin praktik fəaliyyətinin təsirinə cavabsız qala bilməz. İctimai mühitin dəyişməsi, yeni keyfiyyətlər qazanması insanların ictimai mühitə fəal təsirinə əyani misaldır.

İnsanın ictimai mühitə təsiri makromühit və mikromühit səviyyəsində eyni deyildir. Makromühit səviyyəsində insanın onu əhatə edən şəraitə təsiri ümumi səciyyə daşıyır. Yəni insanların həyat və fəaliyyətinin ictimai şəraiti onların praktik fəaliyyətindən kənarda mövcud olmur. Bu mənada qarşılıqlı təsir və şərtlənmə haqqında danışmaq olar. Lakin makromühitə, daxil olan konkret fərdin ona bilavasitə fəal təsiri özünü açıq

büruzə vermir.

Mikromühitə gəldikdə isə, vəziyyət, tamam başqadır. Şəxsiyyətin ən yaxın və bilavasitə əhatəsi onun praktik fəaliyyətinin daha intensiv təsirinə məruz qalır. Ailə və yaxud, digər kiçik sosial qrup kimi mikromühitə daxil olan fərdlər ona güclü təsir göstərə bilirlər, çünki burada mühitlə fərdin əlaqələri birbaşadır, ictimai əlaqələr psixoloji və intim momentlərlə tamamlanır. Məsələn, uşağın tərbiyəsi ailə mikromühitində baş verir. Eyni zamanda uşaq yaşlaşdıqca onun ailə mühitinə təsiri artır, ailənin fəaliyyəti xeyli dərəcədə onun davranışı, tələbatları ilə uzlaşır. Yaxud başqa bir sosial qrupda mühitin xarakteri ona daxil olan konkret fərdin davranış və mövqeyinə uyğun olaraq dəyişikliyə uğrayır.

İnsanın onu əhatə edən, ictimai mühitə təsiri onun fəallığından, fikir və ideyalarının orijinallığından, savadından, mədəni səviyyəsindən, şəxsiyyətlərarası əlaqələrindən, kollektivdəki mövqeyindən və s.-dən asılıdır. Güclü şəxsiyyətlər insanların yaşadığı şəraiti əhəmiyyətli dərəcədə dəyişdirməyə qadirdir.

## §3. Cəmiyyətin strukturu

**Cəmiyyətin təşkilinin əsas ünsürləri.** Cəmiyyət mürəkkəb quruluşa malik olan sosial orqanizmdir. Onun təşkilində bir çox ünsürlər iştirak edir. Bunların qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri cəmiyyətin strukturunu müəyyənləşdirir. Lakin cəmiyyətin strukturunu təkcə onu təşkil edən ünsürlərin məcmusu kimi başa düşmək düz olmaz. Struktur dedikdə cəmiyyətin tərkib hissələrinin müəyyən qaydada yerləşməsi, qarşılıqlı asılılığı, qarşılıqlı surətdə bir-birini şərtləndirməsi və onun bitkin bir sistem kimi fəaliyyəti nəzərdə tutulur.

**Qasımov** Mehbalı Məhəmməd oğlu (1906-1963)–Azərbaycan filosofu, fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi. Elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur, Azərbaycan fəlsəfi fikir tarixi üzrə tədqiqatlar aparmışdır. Çoxcildlik

"Fəlsəfə tarixi" əsərinin müəlliflərindən biridir. "M.F.Axundov və XIX əsr rus inqilabi-demokratik estetikası" (1954), "XIX əsrdə Azərbaycan xalqının mütərəqqi fəlsəfi və ictimai-siyasi fikir tarixindən oçerklər" (1959) və s. əsərlərin müəllifidir. Fəlsəfə üzrə elmi kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur.

Cəmiyyətin strukturunun nüvəsi onun mövcudluğunun ilkin şərti olan istehsal və istehlakdan ibarətdir. Obrazlı şəkildə deyilsə, bunlar insan birliyinin skeletidir və cəmiyyətin bütün digər ünsürləri, onların yerləşməsi və fəaliyyəti həmin skeletin ətə-qana dolmasına xidmət edir.

İstehsal insanların mövcudluğunu təmin etmək üçün maddi nemətlər yaradılması prosesidir. İstehsalın baş verməsi üçün bir sıra vacib amillər tələb olunur. Əvvəla, istehsal o vaxt mümkün ola bilər ki, insanların tələbatını ödəyən hər hansı bir şeyi yaratmaq üçün müəyyən xammal – əmək cismi olsun. Bu məqsədlə adətən, insanlar təbiətdən, onun sərvətlərindən istifadə edirlər. İkincisi, istehsal prosesi üçün müvafiq əmək alətləri zəruridir. Bunları insanlar qismən təbiətdən hazır şəkildə götürür, əksər hallarda isə özləri hazırlayırlar. Əmək alətləri insanın məqsədyönlü fəaliyyətində köməkçi rolunu oynayır və onların başlıca funksiyası xammala təsir göstərməkdir. Nəhayət, istehsal üçün zəruri üçüncü ünsür müəyyən əqli və fiziki qabiliyyətə malik olan iş qüvvəsidir. Bu üç ünsürün məqsədyönlü birləşməsi əməkdir.



İstehsal prosesində iki qəbildən olan, münasibətlər formalaşır; birincisi, insanların təbiətə münasibətidir ki, buna məhsuldar qüvvələr deyilir; ikincisi isə, insanların özləri

arasında yaranan münasibətlərdir ki, bu da istehsal münasibətləri adlandırılır.

İstehsal cəmiyyətdə son məqsəd deyildir. O, yalnız, deyildiyi kimi, cəmiyyətin mövcudluq şərtidir. Buradan cəmiyyətin strukturunun daha bir ünsürü – istehlak meydana gəlir. İnsanlar müəyyən maddi, fizioloji tələbatlarını ödəmədən bioloji varlıq kimi mövcud ola bilməzlər. Deməli, cəmiyyət istehlaksız mümkün deyildir. İstehlak isə öz növbəsində istehsalı şərtləndirir, yəni istehsal olmasa istehlak mümkün ola bilməz. İnsanlar yeməyə, geyməyə, onlara lazım olan digər əşyalara tələbatlarını ödəmək üçün ən əvvəl həmin əşyaları yaratmalıdırlar. Buradan belə çıxır ki, istehsal özü üçün deyil, istehlak üçün mövcuddur. İstehsal insanın, bütünlükdə cəmiyyətin fəaliyyətinin ilkin, başlanğıc nöqtəsidir. Onun son nöqtəsi isə istehlakdır. Lakin bu heç də o demək deyildir ki, cəmiyyət həyatında həlledici amil istehlakdır. Əksinə, həlledici amil istehsaldır, çünki istehlakı o müəyyən edir. Cəmiyyətin tələbatlarının ödənilməsi və strukturu həlledici dərəcədə maddi nemətlərin istehsalının həcmindən, onun xarakter və üsulundan asılıdır.

Lakin bu dediklərimiz belə bir qənaətə gəlməyə də əsas vermir ki, istehlak cəmiyyətdə yalnız insanların tələbatını ödəməklə öz rolunu yerinə yetirir. Məsələyə bu cür yanaşsaq əslində istehlakın mahiyyətini təhrif edərik, ictimai tərəqqidə onun fəal təsirinin əhəmiyyətini azaldarıq. İstehlak istehsalla müəyyən olunsa da, o özlüyündə nisbi müstəqilliyə malikdir. Bu müstəqillik özünü istehlakın ictimai həyatın bütün sahələrinə, o cümlədən də istehsala fəal təsirində göstərir.

İstehlakın istehsala təsirini başa düşmək üçün tələbat anlayışını bir qədər açıqlamaq lazımdır. Tələbat subyektin normal fəaliyyəti üçün zəruri olan ehtiyac və onun ödənilməsinin dərk olunmasından irəli gələn münasibətlər sistemidir. İstehlak tələbat yaradır. İnsanların bir qrup ehtiyacı ödənildikdə, yeni ehtiyaclar meydana gəlir. Adamların qidaya

olan ehtiyacı ödəndikdə, geyimə olan tələbat ortaya çıxır, bu ehtiyac da ödəndikdə, deyək ki, ziynət şeylərinə tələbat yaranır və beləliklə, zəncirvarı tələbatlar pilləkəni formalaşır. Bu isə, öz növbəsində, istehsalın inkişafı üçün stimul yaradır. İstehsalın genişləndirilməsi, istehsal prosesinin təkmilləşdirilməsi isə cəmiyyətdə meydana gələn yeni tələbatlara məhsuldar qüvvələrin müvafiq reaksiyasıdır.

Bir anlığa belə təsəvvür edək ki, cəmiyyətdə avtomobilə, radio və televiziya cihadlarına, müasir texniki kommunikasiya və əyləncə vasitələrinə tələbat yoxdur. Onda həmin avadanlıqların istehsalı mənasız olardı, çünki istehsal nəticə etibarilə istehlaka xidmət edir. Əgər insan əməyi nəticəsində yaradılmış hər hansı bir əşya istehlaka xidmət etməsə, heç kim onun istehsalı ilə məşğul olmaz. O şeylər istehsal olunur ki, ona cəmiyyətdə tələbat yaranır.

İstehsalla istehlak arasındakı əlaqələr, göründüyü kimi, labüddür, lakin bu əlaqə birbaşa deyildir. Bu əlaqə və münasibətləri müəyyən istiqamətə yönəldən, konkret formaya salan xüsusi aralıq vəsilə mübadilə və bölgüdür.

Mübadilə əmək bölgüsünün zəruri nəticəsi kimi yaranan və müxtəlif istehsalçılar arasında təzahür edən münasibətdir. Maldarların əkinçilik məhsullarına olan tələbatı yalnız mübadilə vasitəsilə ödənilir. Və yaxud əkinçilər, parça toxuyanlar istehsal üçün lazım olan maşın və avadanlıqlar özləri hazırlamırlar. İstehsalın mümkün olması üçün birinci qrup istehsalçılar öz məhsullarını ikinci qrup istehsalçıların–maşın və avadanlıq yaradanların əməyinin nəticələrinə mübadilə etməyə məcburdur.

Mübadilə istehsal halqasını istehlak halqası ilə birləşdirir. Eyni zamanda mübadilə fəaliyyətinin genişlənməsi istehsalın özünün stimullaşdırılmasına təsir edən amildir. Yalnız mübadilə vasitəsilə geniş istehlak bazarı yaradılır, istehsal məhsulları istehlakçıya çatdırılır və beləliklə də istehsalın genişləndirilməsinə tələbat yaranır.

Bölgü istehsal olunan dəyərlərin istehlakçıya çatdırılması

üsuludur. Mahiyyət etibarilə bu da cəmiyyətin fəaliyyətinin iki halqasını əlaqələndirmək məqsədinə xidmət edir. Mübadilədən fərqli olaraq bölgü istehsalçılarla istehlakçılar arasında xüsusi münasibətlər sistemidir. Bölgü başlıca olaraq iki pillədə həyata keçirilir: o, əvvəla, istehsal vasitələrinin bölgüsü kimi, sonra isə istehsal məhsullarının bölgüsü kimi fəaliyyət göstərir. İkinci bölgü birinci bölgüdən asılıdır, yəni hazır məhsulların cəmiyyət üzvləri arasında necə paylanması həlledici dərəcədə istehsal vasitələrinin necə bölünməsi ilə müəyyən olunur.

**Bazis və üstqurum;** Cəmiyyətin strukturunu səciyyələndirmək üçün bazis və üstqurum anlayışlarından istifadə edilir. Bazis cəmiyyətin iqtisadi quruluşunu ifadə edir. Onun əsasında isə obyektiv surətdə mövcud olan istehsal münasibətləri dayanır.

Cəmiyyətin iqtisadi həyatının struktur ünsürlərinin özəyi məhsuldar qüvvələrdən təşkil olunmuşdur. Sonuncu öz növbəsində istehsalın həm maddi, həm də şəxsi amillərini birləşdirir. İstehsalın maddi amilləri istehsal prosesində istifadə olunan əmək cismindən, əmək alətlərindən, əmək vasitələrindən ibarətdir. Bunların üzvi surətdə birləşməsindən cəmiyyətin iqtisadi həyatının keyfiyyətcə yeni bir struktur ünsürü–istehsal vasitələri yaranır.

Məlumdur ki, istehsal vasitələri insanların məqsədyönlü təsiri olmadan, heç bir istehsal təşkil etməyə qadir deyildir. Yuxarıda sadalanan maddi amillər yalnız insanın onlara təsiri nəticəsində hərəkətə gələ bilər. Deməli, istehsal vasitələrinin yeni bir ünsürlə birləşməsi zərurəti ortaya çıxır. Bu ünsür insanın əmək fəaliyyətidir. Onların birləşməsi cəmiyyətin iqtisadi həyatının daha ümumiləşmiş struktur ünsürünü–məhsuldar qüvvələri yaradır. Cəmiyyətin inkişaf səviyyəsi məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə ölçülür. İctimai tərəqqini səciyyələndirmək üçün cəmiyətdə nə qədər məhsul istehsal edildiyi yox, həmin məhsulların necə istehsal edildiyi əsas götürülür. Təsəvvür edək ki, təbii qida maddələri ilə zəngin bir

ölkədə əhalinin ərzağa olan tələbatı tam ödənilir. Lakin bu o demək deyildir ki, həmin cəmiyyət ictimai tərəqqidə böyük nailiyyətlər əldə etmişdir. Cəmiyyətin iqtisadi və mədəni inkişafının yüksək səviyyəsindən o halda danışmaq olar ki, məhsuldar qüvvələr, xüsusilə də onun tərkib hissəsi olan istehsal vasitələri yüksək təkmillik dərəcəsinə çatmış olsun.

İstehsalın digər struktur ünsürü istehsal prosesində insanlar arasında yaranan münasibətlərdir. İnsan cəmiyyətdən kənarda mövcud ola bilmədiyi kimi, istehsal prosesində də təkbaşına fəaliyyət göstərə bilməz. Hətta, hər hansı bir xırda istehsalçı təklikdə işləsə belə, bu onun ictimai istehsal prosesindən kənarda qalmasını sübut etmir, çünki həmin istehsalçı, əvvəla, öz məhsulunu yaratmaq üçün başqa adamların yaratdığı alətlərdən istifadə edir; digər tərəfdən isə, yaratdığı əşyanı mübadilə etməyə məcburdur. Beləliklə, istehsal prosesində insanlar zəruri olaraq müəyyən münasibətlərə girirlər. Həmin münasibətlər istehsal münasibətləri adlanır.

İstehsal münasibətləri insanlar arasında iqtisadi əlaqələrin və qarşılıqlı fəaliyyətin bütün formalarım əhatə edir. Başqa sözlə desək, istehsal münasibətləri insanlar arasında maddi nemətlərin istehsalı – mübadiləsi – bölgüsü – istehlakı prosesində meydana çıxan münasibətlərin məcmusudur.

İstehsal münasibətləri cəmiyyətin iqtisadi quruluşunu, yəni bazisini təşkil edir. Onu müəyyənləşdirən ən mühüm cəhət bazisin müəyyən iqtisadi münasibətlərin məcmusu olmasıdır. Cəmiyyətin iqtisadi strukturu müəyyən texniki amillər yox, həmin amillərin fəaliyyəti sayəsində meydana gələn münasibətlərdir. Cəmiyyətin bazisi dedikdə fabrikləri, zavodları, yolları, maşın və avadanlıqları düşünmək düzgün olmazdı. İbtidai cəmiyyətdə insanlar istehsal prosesində əksər hallarda təbiətdən hazır şəkildə götürdükləri əmək alətlərindən istifadə edirdilər. Buradan belə bir nəticə çıxmır ki, həmin dövrdə təbiət cəmiyyətin bazisi rolunu oynayırdı.

Cəmiyyətdəki iqtisadi münasibətlər insanlar arasında digər

əlaqə və münasibətlərin meydana gəlməsinə səbəb olur. Bu münasibətlər üstqurum anlayışı ilə ifadə edilir. Cəmiyyətin üstqurumu: a) siyasi-ideoloji münasibətlərin (hüquqi, siyasi, ideoloji), b) mənəvi-əxlaqi münasibətlərin (əxlaq, elm, din, incəsənət, ideyalar, ənənələr, hisslər və s.) məcmusudur. Üstqurum cəmiyyətin siyasi, sosial və mənəvi həyatını, insanlar arasında bu sahədə meydana gələn qarşılıqlı münasibətləri səciyyələndirir.

Siyasi, əxlaqi və mənəvi münasibətlər insanların maddi həyatının bir növ inikası kimi üzə çıxır. Buna görə də iqtisadi münasibətlər – bazis üstquruma nəzərən müəyyənedicidir. Düzdür, ideyalar, hisslər, emosiyalar və s. insanların mənəvi fəaliyyətinin məhsuludur, lakin bu fəaliyyət cəmiyyət həyatının maddi əsaslarından və münasibətlərindən ayrı təsəvvür edilə bilməz. Ciyasi ideyalar və münasibətlərin mənşəyi haqqında da həmin sözləri demək mümkündür.

Üstqurumu təşkil edən qarşılıqlı əlaqə və münasibətlərin reallaşması müvafiq ictimai təsisatların yaradılmasını şərtləndirir. Siyasi təsisatlar (dövlət, partiyalar), hüquqi təsisatlar (məhkəmələr), mənəvi fəaliyyət təsisatları cəmiyyətin üstqurum hissəsini təşkil edən münasibətlərin maddiləşmiş ifadələridir.

Üstqurum, dediyimiz kimi, cəmiyyətin maddi həyatının müəyyənedici təsiri sayəsində yaranır. Lakin bu o demək deyildir ki, üstqurum passivdir, fəaliyyətsizdir. Cəmiyyətin bu struktur ünsürü nisbi muxtariyyətə malikdir, insanların iqtisadi həyatına, maddi münasibətlərin xarakterinə əks təsir göstərməyə qadirdir. İnsanların fəaliyyəti və davranışı onların həyatinin maddi şəraiti ilə müəyyən edilir, lakin bunların arasında xüsusi vəsilə var. Yəni insanların maddi həyatı onların beynindən keçərək fəaliyyəti şərtləndirən amil olur. Üstqurumun fəal təsiri həmin vəsilənin xüsusi rolunda özünü göstərir. İctimai həyatın dərk edilməsi ictimai mənafelərdə, ictimai ideyalarda və baxışlarda öz əksini tapır, bu sonuncu isə cəmiyyətin həyatına

güclü dəyişdirici təsir göstərir. Məsələn, elm üstqurum hadisəsidir, onun inkişafı nəticə etibarı ilə cəmiyyətdəki maddi amillərin təsirindən asılıdır. Eyni zamanda, o, iqtisadiyyatın, maddi münasibətlərin inkişafına təsir göstərir. Siyasi münasibətlər, mənəvi münasibətlərin digər amilləri də, eynilə bu cür cəmiyyətin iqtisadi münasibətlərinin təkmilləşməsinə mühüm təkan verir. Cəmiyyətin bu iki fundamental tərəfinin qarşılıqlı təsiri və qarşılıqlı şərtlənməsi insanların həyatının maddi və mənəvi amillərinin dialektikasında özünün hərtərəfli əksini tapır.

**Cəmiyyətin maddi və mənəvi həyatı.** Cəmiyyət maddi və mənəvi amillərin məcmusu kimi fəaliyyət göstərən sistemdir. Bir az əvvəldə maddi və mənəvi münasibətlər, cəmiyyət həyatının təşkilində onların rolu haqqında ətraflı söhbət açmışıq, insanların həyatının maddi və mənəvi amillərinə gəldikdə isə, bunlar cəmiyyəti təşkil edən və insan fəaliyyətinin nəticəsi kimi çıxış edən ünsürlərin məcmusudur.

Cəmiyyətin maddi həyatı hər şeydən əvvəl maddi nemətlərin istehsalı ilə təyin edilir. Buraya istehsal prosesi ilə yanaşı həm istehsalı təşkil etmək üçün zəruri olan alət və cisimlər, həm də istehsalın nəticəsi kimi meydana gələn məhsullar daxildir. Cəmiyyətin maddi həyatını təşkil edən ünsürlərə habelə zavod və fabriklər, yollar, binalar, nəqliyyat vasitələri, cihazlar, avadanlıqlar və s. aiddir. Ümumiyyətlə, bizi əhatə edən, insanlar tərəfindən bu və ya digər məqsədlə istifadə olunan əşyalar cəmiyyətin maddi həyatının ünsürləridir. Bunlar öz mənşəyinə görə təbii və ya sonradan yaradılma ünsürlərə bölünür.

Cəmiyyətin inkişafı onun maddi amillərinin təkmilləşməsindən asılıdır, insanların praktik fəaliyyəti özünün maddiləşmiş ifadəsini müvafiq əşyalarda, ünsürlərdə tapır.

Cəmiyyət həyatının mənəvi amilləri insanların fəaliyyətinin xüsusi sferasını səciyyələndirən ünsürlərdən ibarətdir. Bu ünsürlərin məcmusu insanların mənəvi həyatını təşkil edir.

İdeyalar, baxışlar, hisslər, emosiyalar, bütövlükdə insanın fəaliyyəti nəticəsində yaradılan və maddi olmayan dəyərlər cəmiyyətin mənəvi amillərini təşkil edir. Bunların sırasına din, ideologiya, elm, incəsənət, ədəbiyyat, əxlaq, adət və ənənələr, mərasimlər və s. daxildir.

Cəmiyyətin maddi və mənəvi amilləri bir-biri ilə qarşılıqlı əlaqədə vahid sistem təşkil edirlər. Mənəvi amillər maddi amillərdən asılıdır, onların güclü təsirinə məruz qalır. Cəmiyyətin maddi həyatının inkişafı, maddi istehsalın yüksək pilləyə çatması insanların mənəvi fəaliyyətinin geniş inkişaf tapmasına zəmin olur. Bəşəriyyətin tarixində əksər hallarda o xalqlar böyük mədəni irs qoymuşlar ki, onlar məhsuldar qüvvələrin və maddi istehsalın inkişafında da yüksək səviyyələrə nail olmuşlar. Qədim Çin, Hindistan, Yunanıstan, Roma mədəniyyətləri həmin ölkələrdə cəmiyyətin maddi həyatının inkişafı nəticəsində mümkün olmuşdur. Bu gün də insanların həyatının maddi amilləri mənəvi ünsürlərin fəaliyyətinin genişlənməsini şərtləndirir. Mənəvi fəaliyyətin maddiləşməsi prosesi gücləndikcə cəmiyyət həyatının bu iki struktur ünsürü arasında qarşılıqlı asılılıq artır. Mənəvi amillər maddi amillərin köməyi ilə fəaliyyət göstərir. Məsələn, elm laboratoriya və institutlarda, təhsil müvafiq təhsil müəssisələrində inkişaf edir, siyasi ideyalar müvafiq təsisatlar vasitəsilə reallaşdırılır, incəsənət tablolarda, kino lentlərində, notlarda özünün maddi əksini tapır.

Beləliklə, cəmiyyət özünün təşkilinə görə maddi və mənəvi amillərin qarşılıqlı şərtlənməsi və qarşılıqlı fəaliyyəti nəticəsində meydana gəlmiş struktur kimi təzahür edir. Bunların daxili vəhdəti cəmiyyətin bütövlüyünü, bitkinliyini təmin edir.

# CƏMİYYƏTİN GENEZİSİ VƏ TARİXİ PROSES

## §4. Cəmiyyətin mənşəyi

**Cəmiyyət necə yaranmışdır.** Məşhur ingilis filosofu Herbert Spenserin belə bir kəlamı var: "Cəmiyyət insandan əvvəl mövcud olmuşdur". Əvvəlki fəsildən gördüyümüz kimi, insanın sosial bir varlıq kimi formalaşması, ictimai keyfiyyətlər kəsb etməsi yalnız və yalnız cəmiyyətdə mümkün ola bilər. Cəmiyyətdən kənarda və ya ondan əvvəl insan yetişə bilməz. Elmə elə hallar məlumdur ki, körpə vaxtında müəyyən səbəblər üzündən insanlardan ayrı düşüb heyvanların əhatəsində böyümək məcburiyyətində qalan uşaqlar, sosial varlıq kimi insana xas olan keyfiyyət və əlamətlərin demək olar ki, heç birini özlərində inkişaf etdirə bilmirlər.

Buradan belə bir nəticə çıxarmaq olar ki, insan təbiətin yox, cəmiyyətin yetirməsidir. Bununla yanaşı, qeyd etdiyimiz kimi, cəmiyyət insanlardan təşkil olunmuşdur, deməli o, insanlardan əvvəl meydana gələ bilməz. Daha doğrusu, nə cəmiyyət insandan əvvəl mövcud olmuşdur, nə də insan cəmiyyətdən. Bunların hər ikisi bir-birilə bağlı hadisələrdir, insanın meydana gəlməsi prosesi həm də cəmiyyətin meydana gəlməsi prosesidir və əksinə.

İnsan insanabənzər meymunlardan təbii seçmə yolu ilə ayrılmışdır. Çətin və uzunsürən proses nəticəsində ilkin insanlarda onların əcdadlarına xas olmayan bir sıra keyfiyyətlər yaranmışdır. Siz artıq bilirsiniz ki, təxminən 3-2 milyon ilə yaxın əvvəl ən qədim insan hesab olunan ayaq üstə gəzən insan (Homo erectus), 700-600 min il əvvəl pitekantrop, 110-100 min il əvvəl neandertal adamı və nəhayət, 40-30 min il əvvəl isə müasir tipli insan—Homo Sapiens meydana gəlir. Həmin prosesin əsasını insanların əcdadlarının həyat şəraitində baş verən köklü dəyişikliklər, ilk növbədə əmək təşkil edir.

Əmək prosesində fərdlər arasında yeni tipli əlaqələr

formalaşır. Əmək kollektiv fəaliyyətdir, insanları birləşdirir. Birgə əmək fəaliyyəti nəticəsində insanların bir-birindən asılılığı üzə çıxır: ovçunun ov alətlərinə ehtiyacını bu alətləri hazırlayanlar ödəyir və sonuncuların qidaya olan tələbatını, öz növbəsində, ovçular ödəyir. Beləliklə də, insanlar arasında ictimai münasibətlər, kollektivçilik hissləri formalaşır. Kollektivçilik insan cəmiyyətinin yaranmasında həlledici rol oynayan amillərdən biridir.

Əmək prosesində fərdlər arasında ünsiyyət ehtiyacı yaranır. Birgə əmək–ovçuluq, əkinçilik, digər fəaliyyət növləri insanlara öz fikirlərini başqalarına çatdırmağı tələb edir. Bunun nəticəsində insanın nitqi meydana gəlmiş, fərdlər ayrı-ayrı hərəkətləri, əşyaları müəyyən işarələrlə–səslərlə ifadə etməyə başlamışlar.

İnsanın və eyni zamanda cəmiyyətin meydana gəlməsində vacib rol oynayan amillərdən biri, habelə insanı heyvandan fərqləndirən keyfiyyətlərdən biri qidanın fərdlər arasında bölünməsidir. Bu proses fərdlər arasında, bir tərəfdən, yeni münasibətlərin cücərdiyini, onların bir-biri ilə genetik yaxınlığını, tək özünün yox, həm də başqalarının yaşamasının zəruriliyini dərk etdiyini göstərir. Heyvanlardan fərqli olaraq insan özünü kollektivə qarşı qoymur, əksinə, onun bir hissəsi olduğunu başa düşür.

Sadalanan səbəb və amillər insanın sosial bir varlıq kimi formalaşmasının, cəmiyyətin meydana gəlməsinin ümumi mənzərəsini yaratmaqda kömək edir. Lakin cəmiyyətin meydana gəlməsi prosesini hərtərəfli qavramaq üçün daha bir məsələnin nəzərdən keçirilməsi də vacibdir.

**Sürü və kollektiv.** Cəmiyyətin meydana gəlməsi heyvan sürüsündən ilk bəşər kollektivinə keçid nəticəsində baş vermişdir. Uzun tarixi bir dövrü əhatə edən bu proses heyvan sürüsü üçün xarakterik bioloji əlaqələrin tədricən yüksək səviyyəli ictimai əlaqələr sistemi ilə əvəzlənməsilə müşayiət olunmuşdur. Heyvan sürüsündən insan kollektivinə keçid

təbiətdə olan ən böyük keyfiyyət dəyişikliklərindən biridir. Sürünün meydana gəlməsi öz növbəsində canlı təbiətidən yeni bir inkişaf xəttinin ayrıldığını göstərir. Sürü halında yaşayan fərdlər, bir tərəfdən, heyvanat aləmi ilə sıx bağlıdır, digər tərəfdən isə, tədricən onlarda yeni həyat tərzinin bəzi xüsusiyyətləri formalaşır. Təbiətdən bilavasitə istifadə edilməsi həlledici dərəcədə olsa/ da, getdikcə təbiət predmetlərinə qarşı qeyri-heyvani münasibətin güclənməsi ilə öz rolunu itirməyə başlayır.

İnsan cəmiyyətinin meydana gəlməsi və inkişafında ilk ictimai instinkti məhz sürü formasının daxilində yaranmışdır. Buna görə də ilkin bəşər kollektivinin yaranmasına doğru aparan prosesdə sürü həyat tərzinin formalaşmasını vacib keçid mərhələsi kimi qiymətləndirmək olar. Sürüdə fərdləri heyvanat aləmindən fərqləndirən, lakin hələ sözün əsl mənasında insan hesab etməyə tam əsas verməyən bəzi keyfiyyətlər qərarlaşmağa başlayır. Sonuncunun inkişafı sayəsində sürünün heyvanlara xas əlamətləri tədricən zəifləyir, əvəzində yeni tipli sürü meydana gəlir. Antropoloji tədqiqatlar sübut edir ki, pitekantropların və neandertalların ilkin sürüləri artıq heyvan sürüsü deyildi, lakin onları tanı əsasla ictimai ünsür–qəbilə icması da hesab etmək olmazdı.

İlkin bəşər cəmiyyətinə keçmək üçün aralıq mərhələ hesab olunan sürünün tərkibində və funksiyalarında mühüm dəyişikliklər baş verməsi lazım idi. Sürünün dağılması, ictimai orqanizmə çevrilməsi onun daxilində kollektiv əlaqələrin, kollektiv fəaliyyət sisteminin meydana gəlməsi sayəsində mümkün olmuşdur. Bəs sürüdən kollektivə keçid mexanizmi necə baş vermişdir?

İstehsalın xarakterinin dəyişməsi ilə əlaqədar olaraq fərdlərin təbii imkanlarından ən səmərəli şəkildə istifadə etmək məqsədi ilə sürü məcburi olaraq iki əsas qrupa–kişilər və yeniyetmələr, qadınlar və uşaqlar kimi qruplara bölünür, birinci qrup ovçuluq, ikinci qrup isə qida toplamaq və yemək

hazırlamaq funksiyalarını yerinə yetirirlər. Bununla əlaqədar bu qruplar arasında yeni funksiya bölgüsü yaranır –birincilər sürünü qida ilə tənıin edir, ikincilər isə məişətin təşkili qayğısına qalır. Nəticədə sürünün iki yarımqrupu arasında fəaliyyət və ərzaq mübadiləsi zəminində yeni münasibətlər meydana çıxır. Kollektiv əmək və onunla birlikdə qərarlaşan ictimai həyatın ilkin formaları sürünün qəti olaraq parçalanmasına gətirib çıxarır, əvəzində insanların birgə yaşayış formaları–ailə, tayfa əmələ gəlir. Bəzi təlimlərdə isə ilk ictimai birlik forması kimi icma qəbul edilir. Əslində isə bunların hər üçü ibtidai insanların müxtəlif səviyyəli birlik formaları kimi qiymətləndirilməlidir.

Ailənin, qəbilə və icmanın yaranması ilə canlı aləmdən insan cəmiyyətinin yaranmasına gətirib çıxaran uzun və mürəkkəb təkamül prosesi başa çatır.

## §5. İnsanların tarixi birlik formaları

**Qəbilə və tayfa.** Bəşər cəmiyyətinin meydana gəlməsi insanların birgəyaşayış formalarının qərarlaşması ilə müşayiət olunmuşdur. Bəşəriyyətin ilkin çağlarında insanlar qəbilə və tayfa şəklində birləşmişdilər. İnsanların ilk ictimai birlik forması qəbilə hesab edilir. Ən qədim insan icmalarında mövcud olmuş birgəyaşayış formasının meydana gəlməsi bir sıra səbəblərlə əlaqədardır. Qəbiləni təşkil edən başlıca amillərdən bir qrupu qan qohumluğuna əsaslanan əlaqələrin həlledici rolundan irəli gəlirdi. Antropoloji tədqiqatlar sübut edir ki, ilk qəbilələr qadın və kişi birlikləri (matriarxat, patriarxal) formasında meydana çıxmışdır. Bu birliklərin belə adlanması onların bir-birindən ayrı formalaşmasından deyil, nəslin ana və ata xətti ilə hesab edilməsilə əlaqədardır.

Qəbilənin meydana gəlməsi ilkin insanların maddi həyat . şəraitindən irəli gələn səbəblərlə də əlaqədar olmuşdur. Buna görə də qəbilə birgəyaşayış formasında yalnız qan qohumluğu əlaqələri deyil, həm də iqtisadi- təsərrüfat əlaqələri özünü büruzə

verirdi. Təsərrüfatın kollektiv şəkildə idarə olunması, təbii qüvvələrə qarşı birgə mübarizə aparmaq zərurəti insanların ilkin birlik formasının yaranmasını tələb edən amillər olmuşdur.

Qəbilə ilk insan icmalarının bütün üzvlərinin qarşılıqlı münasibətlərini tənzimləyir, onların birgəyaşayış normalarını müəyyənləşdirib, icmanın vəhdətini təmin edən başlıca, amil kimi çıxış edirdi. Qohumluq əlaqələri icma üzvləri arasında qarşılıql münasibətlərin inteqrativ (birləşdirici) forması kimi fəaliyyət göstərir, təsərrüfat həyatında, toplanılmış və ya istehsal edilmiş qidanın bölünməsində, qocaların və uşaqların qida ilə təmin edilməsində, digər məsələlərdə həlledici rol oynayırdı.

Qəbilədə icma həyatının idarə olunması prinsipləri və. formaları da qan qohumluğu əlaqələrinin təsiri altında qərarlaşırdı. İcma başçılarının və ağsaqqallarının seçilməsi, onların «hakinıiyyətinin» formalaşması üsulları və mexanizmi ilkin insan birliyinə daxil olan bütün fərdlərin özlərinin mənşə ümumiliyini dərk etməsi hisslərindən irəli gəlirdi.

Zaman keçdikcə qəbilə üzvlərinin sayı artmağa başlayır, insanların yeni birgəyaşayış formalarının yaranması üçün zəmin yetişirdi. Qəbilə birlik forması insanların məhdud sayını əhatə edirdi. Fərdlərin sayı artdıqca qəbilə üçün səciyyəvi olan yaxın qohumluq əlaqələri həlledici rol oynaya bilmir və buna görə də qan qohumluğuna əsaslanan ictimai münasibətlərin yeni formasına ehtiyac yaranır. Digər tərəfdən, icma üzvlərinin sayının artması həm də təsərrüfat fəaliyyəti ilə bağlı əlaqələrin başqa səviyyədə qurulmasını tələb edir. Bu səbəblərdən qəbilələrdən əvvəlcə yeni-yeni birliklər ayrılır, sonralar isə bunlar da öz növbəsində müxtəlif formalarda birləşirlər. Beləliklə, aralıq mərhələ kimi fratriyalar (qardaşlıq birlikləri) və tayfalar meydana gəlir.

Tayfa yüzlərcə, bəzən hətta, minlərcə adamı birləşdirirdi. İnsanların bu birlik formasında da həlledici amil qohumluq əlaqələri idi. Tayfanı müəyyən ərazidə yaşayan, eyni dildə danışan, eyni mədəniyyətə, adət və ənənələrə malik qəbilələr

təşkil edirdi. Tayfa birliyinin üzvü olmaq fərdin hüquqlarını müəyyənləşdirən əsas amil idi. Ümumi mülkiyyətdən istifadə etmək, istehsal olunmuş məhsulun bölünməsində iştirak etmək, icma üzvləri ilə bərabərhüquqlu əlaqələrə girmək hər bir fərdin tayfaya məxsus olub-olmamasından asılı idi.

Tayfa icmanın idarə olunması formalarında da bir sıra özünəməxsus cəhətlərlə seçilirdi. İcmanın ictimai həyatı kortəbii demokratiya prinsipləri üzərində qurulmuşdu. Tayfanın bütün yaşlı üzvləri ümumi işlərə rəhbərlik etmək üçün tayfa yığıncağında şura seçirdi. Şuraya seçilmək üçün müəyyən normalar mövcud idi və bu normalara ciddi əməl olunurdu. Tayfa işlərinə rəhbərlik etmək icmanın ən nüfuzlu və bacarıqlı üzvlərinə, çox zaman isə ağsaqqallara həvalə edilirdi.

İbtidai insan icmalarının bəsit sosial struktura malik olması öz əksini onların inteqrativ, birləşdirici funksiyalar yerinə yetirməsində tapmışdı. Qəbilə və tayfa icma üzvlərinin əlaqə və münasibətlərinin bütün çağlarını və cəhətlərini əhatə edirdi. İctimai birlik forması kimi onları etnik, iqtisadi, sosial əlaqə və münasibətlər səciyyələndirirdi. Başqa sözlə desək, qəbilə və tayfa həm entosdur (etnos insanların tarixən formalaşmış və nisbi sabit mədəniyyət, dil, psixologiya ümumiliyi, habelə mənşə eyniliyilə səciyyələnən birliyidir), həm də digər ictimai əlaqələrin məcmusudur.

Cəmiyyətin sonrakı inkişaf mərhələlərində geniş əraziləri əhatə edən tayfalar ittifaqının yaranması sayəsində insanların birliyini şərtləndirən qan qohumluğu əlaqələri zəifləməyə, onun yerini ərazi ümumiliyindən irəli gələn əlaqə və münasibətlər tutmağa başlayır. Beləliklə də insanların yeni ictimai birlik forması–xalq meydana çıxır. Tədqiqatlar göstəri ki, qədim insan məskənlərindən hesab olunan Azərbaycan ərazisində də bir çox tayfa birlikləri mövcud olmuşdur. İqtisadi və siyasi həyatda baş verən köklü dəyişikliklər nəticəsində insanların sosial-siyasi və etnik əlamətlər zəminində birləşməsi meyli güclənmiş və beləliklə də gələcəkdə Azərbaycan xalqının formalaşması

prosesinin əsası qoyulmuşdur.

**Xalq və millət.** Cəmiyyətin təsərrüfat həyatının dəyişməsi sayəsində ictimai münasibətlərin yeni keyfiyyət halına keçməsi insanların birgəyaşayış formalarına təsirsiz qalmamışdır. Yeni ictimai əlaqələr yalnız yeni forma daxilində reallaşa bilərdi. Böyük əraziləri və insan kütləsini əhatə edən tayfa ittifaqları qohumluq əlaqələri zəminində davam gətirə bilməzdi, çünki əlaqələrin bu forması ictimai münasibətlərin çoxcəhətli məzmununu əhatə etmək imkanlarından məhrumdur. İnsanları birləşdirən, toplayan yeni bir əlaqələr sisteminin meydana gəlməsi tarixi zərurətə çevrilmişdi. Bu cür birləşdirici amil ərazi ümumiliyi oldu.

İnsanların keyfiyyətcə yeni birlik forması olan xalqın meydana gəlməsi iqtisadi və siyasi amillərin təsiri altında baş vermişdir. Müxtəlif tayfalar və tayfa ittifaqları arasında iqtisadi və təsərrüfat əlaqələrinin genişlənməsi onların birgə yaşamasını şərtləndirən ilkin səbəb olmuşdur. Sonralar buna daha bir amil–siyasi amil də əlavə olunmuşdur. Dövlətin meydana gəlməsi ərazi əlamətinə görə insanların birliyini əhəmiyyətli dərəcədə sabitləşdirmişdir.

Müxtəlif adətlərə, ənənələrə, psixologiyaya, tayfa dillərinə malik olan insanlar yuxarıda sadalanan səbəblər üzündən uzun müddət birgə yaşadıqlarından onlarda ərazi ümumiliyindən başqa bir sıra vahid keyfiyyətlər qərarlaşmışdır. Xalqı səciyyələndirən vahid dil, ümumi mədəniyyət və psixoloji keyfiyyətlər, ictimai-əxlaqi xarakter, məişət və ənənələrin eyniliyi, tarixi tale və mənafe ümumiliyi insanların yeni ictimai birlik formasının meydana gəldiyi tarixi dövrün məhsuludur və xalqı səciyyələndirən ən mühüm cəhətlərdir.

Xalqların yaranması uzun sürən tarixi bir proses olmuşdur. Bir sıra xalqlar icma quruluşunun dağılması nəticəsində antik dövlətlərdə (qədim Misir, yunan, Roma və s.) yaranmışdır. Digər xalqların formalaşması isə tarixin sonrakı qatlarının payına düşmüşdür. Avropa xalqlarının əksəriyyəti orta əsrlərin

müxtəlif dövrlərində meydana gəlmişdir.

Azərbaycan xalqı ölkəmizin ərazisində yaşayan etnik birliklərin uzun müddət birgəyaşayışı və qarşılıqlı təsiri nəticəsində təşəkkül tapmışdır. Bu prosesdə Azərbaycanın qədim dövlətləri mühüm rol oynamışdır. Lakin bir sıra daxili səbəblər və xarici təsiriri güclü olması Azərbaycan xalqının təşəkkül prosesini xeyli ləngitmişdir. Bizim eramızdan əvvəl və eramızın ilk yüzilliklərindən başlayaraq Qafqaza türk tayfalarının axını bu prosesə güclü təsir göstərmişdir. Bir neçə yüz il davam edən təşəkkül prosesi nəticəsində Azərbaycan xalqının formalaşması prosesi başa çatmışdır. Türk dili, vahid mədəniyyət, mənəvi-əxlaqi xarakter, məişətin və psixologiyanın ümumiliyi həmin dövrdə bu ərazidə yaşayan əhalini səciyyələndirən başlıca etnik keyfiyyətlər olmuşdur.

Orta əsrlər üçün xarakterik olan təsərrüfat-iqtisadi əlaqələrin və siyasi mərkəzləşmənin zəifliyi, feodal pərakəndəliyi, dövlət siyasi birliyin olmaması insanların tarixi birlik forması kimi xalqın sabitliyini təmin edə bilmədi. Tarixdə elə hallar olmuşdu ki, bütöv xalqlar etnik birlik kimi yoxa çıxmış, digərləri isə bir neçə etnik qrupların və ya millətlərin yaranması üçün bir növ xammal rolunu oynamışdır.

Cəmiyyətdə sosial-iqtisadi və siyasi inkişafın sonrakı gedişi insanların tarixi birlik formasının daha da sabitləşməsinə, möhkəmlənməsinə doğru aparırdı. Təsərrüfat əlaqələrinin genişlənməsi və möhkəmlənməsindən irəli gələn yeni iqtisadi münasibətlər millətin yaranmasının həlledici amilidir. Həmin münasibətlər milli bazarın və buradan da mərkəzləşmiş milli dövlətin meydana gəlməsini şərtləndirmişdir. Bu sonuncular isə öz növbəsində müəyyən ərazidə məskunlaşmış xalqın iqtisadi və siyasi cəhətdən birləşməsi prosesini gücləndirmiş, daha sabit tarixi birlik forması olan millətin yaranması ilə nəticələnmişdir.

Millətin təşəkkülü əsasən vahid mərkəzləşmiş dövlət və iqtisadi bazar vasitəsilə birləşmiş, eyni etnik tərkibə malik xalqın inkişafı əsasında baş verir. Lakin elə hallar da olmuşdur

ki, müxtəlif dildə danışan bir neçə xalq mərkəzləşmiş dövlətdə uzun müddət yaşayaraq vahid millət halında təşəkkül tapa bilmişdir.

Millətin təşəkkülü prosesində milli ideologiya və milli özünüdərketmə mühüm rol oynayır. Milli mənafelərin dərk edilməsi, xalqın milli birliyinin güclənməsinə güclü təkan verir. Bu proseslər nəticəsində, adətən, milli mərkəzləşmiş dövlət meydana çıxır və o da öz növbəsində əhalinin və ərazinin təmərküzləşməsinə, milli fərqlərin silinməsinə doğru aparır.

Bir çox nəzəriyyələr millətin formalaşmasında mərkəzləşmiş dövlətin xüsusi rolunu həlledici amil kimi qələmə verir. Amerika sosioloqu Karl V.Deyq millətin funksional nəzəriyyəsini irəli sürmüşdür. Onun təliminin əsas qayəsini belə bir fikir təşkil edir ki, milləti səciyyələndirən müəyyən əlamətlərin məcmusu deyil, başlıca olaraq intensiv sosial kommunikasiyadır (əlaqələrdir). Bu əlaqələr isə dövlətin mövcudluğu sayəsində mümkündür. Onun fikrincə, xalq siyasi və sosial birləşmə sayəsində öz dövlətini yaratdıqda və həmin dövlətdə hakimiyyəti öz əlinə aldıqda millət olur. "Millət dövləti olan xalqdır".

Əlbəttə, milli dövlət millətin formalaşmasının vacib şərti, habelə" onu səciyyələndirən çox mühüm əlamət olsa da, insanların bu tarixi birlik forması digər xüsusiyyətlərə də malikdir. Ümumiləşmiş şəkildə həmin əlamət və xüsusiyyətlər də aşağıdakılardan ibarətdir. Millət-insanların özündə ictimai inkişafın xüsusi formasını əks etdirən, iqtisadi və siyasi həyatın ümumiliyi, vahid dövlət, ərazi, dil, mədəniyyət, psixologiya, məişət, milli şüur və milli xarakter zəminində təşəkkül tapan sabit birliyidir.

**Milli özünüdərketmə və vətənpərvərlik hissi.** Yuxarıda deyilənlərdən aydın oldu ki, millətin meydana gəlməsi cəmiyyətin iqtisadi və siyasi həyatında baş verən obyektiv proseslərin nəticəsidir. Bununla yanaşı insanların sabit birliyinin təşəkkülü zamanı onların şüurunda, hisslərində müvafiq

dəyişikliklər baş verir. Milləti təmsil edən bütün fərdlərə eyni etnik birliyə aid olmaq hissi, ümumi milli mənafeləri dərk etmək, şəxsi mənafeləri milli mənafelərlə əlaqələndirmək xasdır. Mahiyyətcə subyektiv meyllər olan bu hisslər milli özünüdərketməni təşkil edir. Millətin təşəkkülü, milli birliyin möhkəmləndirilməsi milli özünüdərketmədən kənarda mövcud ola bilməz.

Millətin tərəqqisi milli mənlik şüurunun inkişafından, milli özünüdərketmə səviyyəsindən çox asılıdır. Milli-subyektiv hisslərin müsbət mənada güclənməsi sayəsində ayrı-ayrı xalqların qısa dövr ərzində iqtisadi, siyasi və mənəvi həyatda böyük sıçrayışlara nail olmasına dair çoxlu misallar vardır. ABŞ-ın, Yaponiyanın iqtisadi qüdrətində bu ölkələrin xalqlarının milli şüurunun, milli xarakterinin xüsusi payı olmuşdur.

Milli özünüdərketmə xalqın həyatının xüsusi dövrlərində–müharibələr, iqtisadi və siyasi yüksəliş zamanı daha fəal şəkildə özünü büruzə verir.

İnsanlara xas olan ən dərin hisslərdən biri yurdsevərlik, vətənpərvərlikdir. Millətin təşəkkülü bu hissin inkişafı ilə bağlıdır. Yurdsevərlik qədim köklərə malikdir. O, tarixin bizdən çox uzaq qatlarında insanların yaşadığı torpağa, ailəsinə, tayfasına, dövlətinə, adət-ənənələrinə məhəbbəti kimi formalaşmışdır.

Vətənpərvərlik hissinin məzmununu vətənə məhəbbət, onun tarixi keçmişi, adət və ənənələrilə fəxr, vətənin, millətin mənafeyini öz mənafeyi kimi dərk etmək ə onun müdafiəsinə hazır olmaq təşkil edir. İnsan vətənsiz mövcud ola bilmədiyi kimi, vətən də məhəbbətsiz yaşaya bilməz.

Vətənpərvərlik millətin və vətənin tarixinə, mədəniyyətinə dərin hörmətdə, milli ənənələrə əməl olunmasında, torpağın, onun altında və üstündə olan sərvətlərin göz bəbəyi kimi qorunmasında təzahür edir. Fəhlə öz vətənpərvərliyini yaxşı işləməklə, alım maraqlı elmi kəşfləri ilə, kəndli bol məhsul

yetişdirməklə, əsgər torpağı və dövləti fədakarlıqla müdafiə etməklə izhar edir. Yetişməkdə olan gənc nəslin vətənpərvərliyi isə təhsildə müvəffəqiyyəti, tariximizi, mədəniyyətimizi dərindən öyrənməsi, ümumiyyətlə, cəmiyyətin layiqli vətəndaşı kimi yetişməsi üçün səy göstərməsi deməkdir.

**Sual və tapşırıqlar:**

1. Qəbilə və tayfa birlikləri nəyə əsaslanır?
2. İctimai birlik forması kimi xalqın hansı əlamətləri vardır?
3. Millət nədir və o necə yaranmışdır?

## §6. Ailə və cəmiyyət

Sənə nə eyləsə övladın, inan.
Onu görəcəkdir öz övladından.

*(Nizami)*

Öyünərsə ər öyünsün. Lovğalanmaq arvad üçün nöqsandır.

*("Kitabi-Dədə Qorqud"dan)*

Qadın gözəl olmasa da olar. O, xoş üzlü və xoşxasiyyət olsa, böyük sərvətdir. Bədxasiyyət, bədrəftar, çirkin övrətin olsa, vay sənin halına; malın, canın və ömrün fənaya gedəcək.

*(M. M. Nəvvab, Azərbaycan maarifçisi)*

Ailə münasibətlərinin hüququ tərəfi olsa da, onlar mənəvi tərəfə, məhəbbət və etibar prinsipinə tabedir.

*(G. Hegel, alman filosofu)*

Cəmiyyətin ayrılmaz tərkib hissələrindən biri də ailədir. Tarixi prosesin enişli-yoxuşlu yollarında cəmiyyət sosial-iqtisadi cəhətdən inkişaf etdikcə, ailə də inkişaf etmiş, keyfiyyətcə yeni xüsusiyyətlər kəsb etmişdir.

Ailə... Analı-atalı, bacılı-qardaşlı, oğullu-qızlı dünyamız... Bu möcüzəli dünya həmişəyaşar hisslərdən hörülüb, sehrində insanlar ata qanı, ana südü ilə doğmalaşırlar.

Ailə kiçik qrupdur. Kiçik qruplar üçün səciyyəvi olan başlıca xüsusiyyətlər ailəyə də aiddir. Lakin, ailənin özünəməxsus xüsusiyyətləri də var.

Ailə dedikdə, bir-birilə məişət birliyi və qarşılıqlı məsuliyyət hissiylə bağlı olan adamların nikaha və ya qan qohumluğuna əsaslanan birliyi nəzərdə tutulur.

Bu tərifdə ailəni səciyyələndirən üç mühüm xüsusiyyət ayrıca qeyd olunur.

L.Məişət birliyi. Ailə məişəti çoxcəhətlidir: çörək almaq, bazara getmək, uşağı yatırtmaq, paltar yumaq... Ailənin məişət həyatında ananın, atanın, uşaqlardan hər birinin öz yeri var. Ancaq ailədə, necə deyərlər, bir qazan asılır. Ailə üzvləri bir siifrə arxasına toplaşır, birlikdə yeyir, birlikdə istirahət edirlər. Onlar ailənin məişət qayğılarını da birlikdə çəkirlər.

2. Qarşılıqlı məsuliyyət. Ailə üzvləri bir-birinin sağlamlığı və xoşbəxtliyi üçün qarşılıqlı məsuliyyət daşıyırlar. Ata-ananın qayğısına qalmaq, ailənin şərəfini uca tutmaq, özünün uğurları ilə onun ad-sanını artırmaq uşaqların borcu, vəzifəsidir. Valideyn haqqı isə bənzərsizdir. Ata-analıq borcu təkcə uşaqları yaxşı geyindirib-kecindirməklə, yedizdirib-doyuzdurmaqla məhdudlaşmır. Xoşbəxt ailə uşaqları boya-başa çatdırıb yerbəyer edir, yəni bir tərəfdən vaxtında yaxşı peşə-sənət, digər tərəfdən ailə sahibi olmasına nail olur.

**3. Nikah və qan qohumluğu.** Ər-arvadın qarşılıqlı münasibətləri hüquqi cəhətdən nikahla müəyyən olunur. Ailə münasibətləri isə nikah münasibətlərinə görə daha mürəkkəbdir. Ailə təkcə ər-arvadı deyil, həm də uşaqlan, eləcə də yaxın qohum-əqrəbanı əhatə edir. İlk uşağın doğulması ilə ər-arvad ata-anaya çevrilir və onların qarşılıqlı münasibətlərində qan qohumluğu ilə şərtlənən yeni xüsusiyyətlər meydana çıxır. Ailə (ana-övlad, ata-övlad, ata-ana və s.) münasibətləri doğma adamların münasibətləridir. Bu münasibətlər qan qohumluğuna əsaslandığı üçün son dərəcə emosional xarakter daşıyır. Bizim həyatımızda ana-ata, bacı-qardaş və b. bənzərsiz yer tutur; heç kəs onların yerini verə bilmir.

Ailə üçün səciyyəvi olan bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir. Ailəni səciyyələndirəndə bu xüsusiyyətləri birlikdə

nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətlərinə görə ailə başqa kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, yataqxanada eyni otaqda yaşayan tələbə qızlardan, birlikdə işləyən manqa üzvlərindən və s.-dən) fərqlənir.

Ailənin özünəməxsus ömür-gün yolu var. Bu enişli-yoxuşlu yolun müxtəlif mərhələlərini fərqləndirmək olar:

— nikahın bağlanması;
— ilk uşağın doğulması;
— sonuncu uşağın doğulması;
— sonuncu uşağın ailə qurması;
— ərin və ya arvadın vəfat etməsi.

Bu mərhələlərdən hər birinin öz xüsusiyyətləri var. İlk uşağın doğulması ilə ailənin həyatında mahiyyətcə yeni mərhələ başlayır. Bu mərhələni valideynlik mərhələsi adlandırırlar. Uşaqlar Azərbaycan ailəsinin effektiv (emosional) mərkəzini təşkil edir. Ata-ana öz həyatının mənasını uşaqların xoşbəxtliyində axtarır.

Ailə tədricən şaxələnməyə, qol-budaq atmağa başlayır. Oğullar böyüyüb ata olur, qızlar yetişib ana. Üç uşaq üç evə, beş uşaq beş evə, yeddi uşaq yeddi evə çevrilir. Ata-ana Ömrümüz fərəhli baba-nənə sevincinə qovuşur. "Dövlətdə dəvə, övladda nəvə" – atalarımız belə deyiblər.

Xalqımızın gözəl adət-ənənələri var. Böyük oğlanlar evləndikcə ailədən ayrılırlar. Kiçik oğul isə ata evində qalır; evdə təkcə ata yurdunun çırağını yandırmır, həm də ata-anaya qoca vaxtında həyan olur.

Bəzən isə... Bir də görürsən ki, uşaqlar pərvazlanıb hərəsi öz yuvasına qonub. Evdə bir qoca ana, bir də qoca ata qalıb... Ailə həyatının bu mərhələsini obrazlı şəkildə boş yuva adlandırırlar. Boş yuva—ailə həyatının payız çağları... Divarlar da adamı sıxır, ev də soyuq görünür. Bu dövrdə qoca ana və ata bir-birinə həyan olsalar da, onların həyatı «uşaqlardan»– gözlərinin nuru ilə böyütdükləri oğullarından və qızlarından, eləcə də gəlinlərindən və kürəkənlərindən, nəvələrindən

bilavasitə asılıdır. Ata-anaya həyan olmaq övladın şərəfli borcudur. Azərbaycan anlamında ana haqqı –tanrı haqqı qədər ucadır.



Göyüşov Ziyəddin Bahadur oğlu (1920-1985)–Azərbaycanın görkəmli filosofudur. Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan EA müxbir üzvü. O, Həsən bəy Zərdabinin seçilmiş əsərlərini ilk dəfə tərtib və çap etdirmişdir. Respublikada filosof kadrlarının hazırlanmasında böyük xidmətləri olmuşdur. "Azərbaycan maarifçilərinin etik görüşləri" (1960), «XX əsrin əvvəllərində "Azərbaycan maarifçilərinin əxlaq məsələləri" (1964), "Əxlaqi sərvətlər" (1966), «Fəzilət və qəbahət" (1972), "Daxilə pəncərə" (1978) və s. əsərlərin müəllifidir.

Müasir ailə monoqam, yəni təkkəbinli ailədir. Ailənin müxtəlif tarixi formalar məlumdur. Monoqam ailə onlardan biri sayılır. Adından göründüyü kimi, monoqam ailədə nigah bir kişi ilə bir qadın arasında bağlanır. Onlar öz istəkləri ilə ailə qurur, doğub-törəyir, əl-ələ verib uşaqları ərsəyə çatdırırlar, böyüdüb ev-eşik sahibi edirlər.

Monoqam ailə tarixən ibtidai icma cəmiyyətinin dağılması dövründə əmələ gəlmişdir. Əvvəlki dövrlərdə isə ailə poliqam, yəni çoxkəbinli ailə kimi yaranmış və özünəməxsus inkişaf yolu keçmişdir.

Ailənin inkişafının ilk mərhələlərində qadınla kişinin, ana ilə övladların qarşılıqlı münasibətləri tayfa və qəbilə adət-ənənələri ilə tənzim olunurdu. Əxlaqın, dinin, sonralar isə dövlətin əmələ gəlməsi ilə ailə həyatı əxlaqi, dini və hüquqi ölçülərlə tənzim olunmağa başladı. Poliqam ailənin bəsit

formaları tədricən aradan çıxdı, xüsusi mülkiyyətin inkişafı zəminində monoqam ailə bərqərar olub əsas nikah forması kimi inkişaf etməyə başladı.

Monoqamiyanın ilkin tarixi forması patriarxal (yunanca *pater–"*ata", *arxo* –"idarə edirəm", "hökmranlıq edirəm") ailə sayılır. Bu ailə ata xətti ilə bir-birinə qohum olan bir neçə kiçik ailənin üzvlərini– 50-60 və daha çox adamı əhatə edirdi.

**Patriarxal ailə cəmiyyətin əsas.** ictimai-iqtisadi özəyi kimi əmələ gəlmişdi. Əmək məhsuldarlığı çox aşağı idi. Hər hansı bir kiçik ailə təsərrüfatı müstəqil idarə edə bilmirdi. Bu şəraitdə yeganə təsərrüfat vahidi patriarxal ailə ola bilərdi.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da patriarxal ailə uzun müddət mövcud olmuşdur. Ailənin başçısını «kişi», «ağa», «ağadadaş», «baba» və başqa cür adlandırırdılar. Ağsaqqalın sözü qanun idi. Hamı onun idarəsi ilə oturub-dururdu.

Ailədə açıq-saçıqlığa qətiyyən yol verilmirdi. Başqalarının yanında ər öz arvadı barəsində bir kəlmə də danışmazdı, hətta onun adını belə çəkməzdi. Zəruri hallarda onlar bir-birini «uşaqların anası", «filankəsin qızı», «uşaqların atası", «evin yiyəsi" adlandırırdılar. Ailədə qadının xüsusi mövqeyi vardı. Ananın nüfuzu böyük idi. Kiçiklər böyüklərə hörmətlə yanaşırdılar. Uşaqlar ata- anaya həvəslə kömək edirdilər. Böyüklərin yanında ucadan danışmaq, gülmək, uzanmaq və s. ədəbsizlik sayılırdı.

XIX yüzilliyin sonu—XX yüzilliyin əvvəllərində Azərbaycanda patriarxal ailənin özünəməxsus formasına—üç nəsildən (baba və nənə, ata və ana, uşaqlar) ibarət olan ailələrə daha geniş təsadüf olunurdu. Demoqrafiyada bu ailə tipi mürəkkəb ailə adlanır. XX yüzilliyin 40-50-ci illərindən etibarən respublikamızda, xüsusilə şəhərlərdə və şəhərtipli qəsəbələrdə nuklear ailə vüsətlə inkişaf etməyə başlamışdır. Latınca nukeus—nüvə deməkdir. Nuklear ailənin nüvəsini ər-arvad təşkil edir. Nuklear ailə əsasən iki nəsildən—ana-ata və

uşaqlardan ibarət ailədir. Uşaqsız ‘ailə də nuklear ailə sayılır.

Müasir dövrdə ölkələrin böyük əksəriyyətində monoqam ailə qanuni ailə hesab olunur. Bizim respublikamızda qanunla ancaq monoqam ailə tipi tanınır.

Beləliklə, ailəni tarixi yöndə nəzərdən keçirəndə məlum olur ki, o, poliqam ailədən monoqam ailəyə doğru inkişaf etmişdir. Monoqam ailənin formalaşması öz mahiyyətinə görə vəhşilikdən və barbarlıqdan sivilizasiyaya keçid demək idi.

Ailə cəmiyyətin güzgüsüdür. Mövcud ictimai-iqtisadi formasiyanın xüsusiyyətləri həmişə öz əksini ailə münasibətlərində tapır. Monoqam ailədə də müxtəlif ictimai-iqtisadi formasiyalarda məhz həmin formasiya üçün səciyyəvi olan özünəməxsus xüsusiyyətlər əmələ gəlir.

## §7. Ailənin funksiyaları

Ailənin özünəməxsus funksiyaları və ya vəzifələri vardır. Ailənin funksiyaları dedikdə, onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan ailənin təsərrüfat-iqtisadi, nəsilartırma, tərbiyə və emosional funksiyalarını fərqləndirmək olar. Ailənin funksiyaları bir tərəfdən, ailənin cəmiyyətlə, digər tərəfdən, şəxsiyyətlə qarşılıqlı əlaqələrini sistemli şəkildə əks etdirir. Bu funksiyaların uğurla həyata keçirilməsi ailə möhkəmliyinin başlıca şərtidir.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar hər şeydən əvvəl, ailənin sosial mahiyyətini əks etdirir. Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır. Bu funksiyaların məzmunu ilk növbədə sosial amillərlə—ailəyə cəmiyyət tərəfindən verilən tələblər, ailə hüququ və əxlaqı, mədəni normalar, cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olunur. Ailə üçün səciyyəvi olan bütün xüsusiyyətlər özünün həyati mənasını onun funksiyalarında tapır.

**Ailənin təsərrüfat-iqtisadi funksiyası** onun həyatının müxtəlif tərəflərini—ailə təsərrüfatını, ailə, büdcəsini, əmək mühitini, evdə kişi və qadın əməyinin xüsusiyyətlərini, uşaqların vəzifələrini və s. əhatə edir. Gənclərin çoxu ailə həyatına kifayət qədər hazır olmadığı üçün bu sahədə köklü çətinliklərlə rastlaşırlar. Onlar, ilk növbədə ailə büdcəsini səmərəli planlaşdıra bilmirlər, öz maaşlarını elə xərcləyirlər ki, çox vaxt ayın son günlərində hətta çörək almağa pullan çatmır.

Ailə xərcləri onun gəliri ilə bağlıdır. Ailə həyatının bu mühüm sahəsinin özünəməxsus qızıl qanunu var: ailənin xərci onun gəlirindən az olmalıdır. Əgər ailənin xərci onun gəlirindən çoxdursa, ailədə ciddi maddi çətinliklər yaranacaqdır. Ailənin xərclərini dəqiq ölçüb- biçmək lazımdır. Simiclik pis keyfiyyətdir. Qənaətcillik isə yaxşı məziyyətdir. Şey almaq bacarığına, da yiyələnmək vacibdir.

Gənc ailələrdə iş bölgüsü üstündə də tez-tez söz-söhbət əmələ gəlir. Bu gün ev işlərində qadına kömək edən kişilərə daha çox təsadüf olunur. Kişilər ən çox hansı işlərdə qadına kömək edirlər? Bu baxımdan bir anket sorğusunun nəticələri maraqlıdır.

Müəyyən edilmişdir ki, ailə şəraitində paltarın yuyulması, xörəyin bişirilməsi ilə əsasən qadınlar məşğul olurlar. Kişilər evin təmirində, bazarlıq işlərində, həyətyanı sahədə, bitkilərə qulluq göstərməkdə daha çox iştirak edirlər. Onların xeyli hissəsi döşəmənin təmizlənməsində, çirkli paltarın camaşırxanaya verilməsində və s.-də öz əməklərini əsirgəmirlər. Son zamanlar uşaqların tərbiyəsində də kişilərin rolu artmışdır. Evdə «kişi işi» ilə «qadm işinin” meyarlarını dəqiq müəyyənləşdirmək, ailənin ümumi mənafeyi naminə əl-ələ verib məişət problemlərini vaxtında həll etmək, həyat yoldaşına qayğı ilə yanaşmaq xoşbəxtliyin rəhnidir. Bir ailə kimi yaşamaq üçün ev-eşiyin sevinc və fərəhi kimi, dərd-sərini də birlikdə çəkmək vacibdir.

Ailənin nəsilartırma funksiyası onun həyatının mühüm bir hissəsini—uşaqların doğulması sahəsini əhatə edir. Ata-ananın

xoşbəxtliyi, ev-eşiyin bar-bərəkəti uşaqlarla bağlıdır. Onlar ana südü ilə dil açır, ata çörəyi ilə boy atırlar. Azərbaycan xalqı uşaqcanlıdır. Ata-babalarımız uşaqları evin yaraşığı hesab ediblər. Uşaq olan evdə söz-söhbət, qeybət olmaz,—deyiblər. Uşaqların çox olmasından da ehtiyat etməyiblər. Evdə hər dəfə körpə qığıltısı eşidiləndə nəinki özlərini xoşbəxt sayıblar, həm də elə bil cavanlaşıblar. Uşaqların rüzusunu həmişə Allah onlardan qabaq yetirir—deyiblər.

Müasir ailədə uşaqların sayı artıq kəskin surətdə azalmağa başlayıb. Bu müxtəlif səbəblərlə—şəhər həyat tərzinin xüsusiyyətləri, mənzil şəraiti, qadının işləməsi, təhsil-peşə səviyyəsinin artması və s.-lə izah edilir. Ər-arvadın psixoloji yetkinliyi və hazırlığı da böyük əhəmiyyətə malikdir. Ailədə neçə uşağın—bir, iki, üç, dörd və ya daha çox uşağın olması yaxşıdır? Mütəxəssislər 3-4 uşaqlı ailəni daha optimal ailə sayırlar. Əgər uşaqcanlı valideynlər daha çox uşaq böyüdürlərsə, bu ancaq təqdir oluna bilər. Çoxuşaqlı ailələrdə uşaqlar boya-başa çatdıqda hər birisi ailəyə, ata-anaya həyan olur. Çoxuşaqlı ailələrdə boşanmaya daha az rast gəlinir. Azuşaqlı ailələrə nisbətən çoxuşaqlı ailələrdə böyümüş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətraf dakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı və səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz ailədən gəlir.

Uşaqların sayı köklü sosial məsələdir. Əhali artımı bilavasitə ailənin bu funksiyası ilə şərtlənir.

Ailənin tərbiyə funksiyası onun nəsilartırma funksiyası ilə qarşılıqlı əlaqədədi. Ana və ata ilk tərbiyəçidirlər. Onlar uşaqları, ilk növbədə, öz nümunələri ilə tərbiyə edirlər. Uşaqlar öz ata və analarının söz-söhbətini müşahidə etməklə şeyləri, hadisələri, ətrafdakı adamları qiymətləndirməyi öyrənirlər. Valideynlər uşaqların tərbiyəsində soykökümüzə arxalanır, Azərbaycan nağıllarından, xalq oyunlarından, bənzərsiz tapmaca və ya yanıltmaclardan məharətlə istifadə edir, oğlan və qızlarımıza xalqımızın yüksək qiymətləndirdiyi keyfiyyətləri

aşılayırlar. Lakin, bununla belə, bir çox ailələrdə uşaqların həddən ziyadə əzizlənməsi halları müşahidə olunur. Bu, görünür, ailədə uşaqların sayının azalması ilə bağlıdır. Evdə aman-güman bir qız, yaxud bir qızla bir oğul olünda, valideynlər çox vaxt onun (onların) üstündə yarpaq kimi əsir, ərköyün böyüdür, əslində həyata hazırlamırlar. Tərbiyə işi səmərəli olmaqdan ötrü uşağın bir şəxsiyyət kimi formalaşması üçün ailədə əlverişli psixoloji şərait yaradılmalı, uşaqda əməyə, başqalarına, özünə, şeylərə düzgün münasibət tərbiyə olunmalıdır. Valideyn-bağçada tərbiyəçilərlə, məktəbdə müəllimlərlə həmişə yaxından əlaqə saxlamalıdır.

Ev-eşik, doğma adamlar insan üçün sağlamlaşdırım mühitdir. Ailənin emosional funksiyası dedikdə bu cəhəti nəzərə alırlar. Biz öz dərdimizi, kədərimizi ailədə unuduruq. İşdə nə qədər yoruluruqsa-yorulaq, evə gələndə, uşaqlar «ata» deyib qucağımıza atılanda, boynumuza sarılanda və biz də onun üz-gözündən öpəndə gözlərimizdə dünyanın mənası dəyişilir, qolumuza yeni qüvvət gəlir, həyat yoldaşının bir xoş sözü və ya qılıqlı baxışı adama dünya dolu sevinc bəxş edir. Ana, ata və uşaqların ünsiyyəti, onların istirahəti üçün mənəvi-psixoloji şəraitin yaradılması, asudə vaxtın səmərəli təşkili—ailənin emosional funksiyası müxtəlif yollarla belə həyata keçirilir.

Beləliklə, biz qısa şəkildə olsa da ailə funksiyalarını nəzərdən keçirdik. Onlardan hansı əsasdır? Hər biri. Bu funksiyalar ayrı-ayrılıqda ailə həyatının müəyyən bir tərəfini əhatə edir, əslində isə onlar bir-birilə üzvi surətdə bağlıdır. Ailənin möhkəmliyi onun öz funksiyalarını düzgün yerinə yetirməsindədir. Ailənin mənzil şəraiti, maddi imkanları və s.-nin əhəmiyyəti bu baxımdan. şübhəsiz ki, böyükdür. Lakin ailənin öz funksiyalarını uğurla həyata keçirib-keçirməməsini təkcə mənzil şəraiti və ya maddi imkanlarla izah etmək birtərəfli olardı. «Neynirəm qızıl teşti ki, içində qan qusum»,—deyimini xatırlasanız, fikrimiz aydın olar. Bu baxımdan, ailə münasibətlərinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Ailə

həyatının ilk günündən təkcə həyat yoldaşı ilə deyil, həm də qohum-əqrəba, ilk növbədə, qayınana və qayınata, baldız və qayınlar ilə münasibətləri düzgün qurmaq lazımdır. Ata-babalarımız necə dəqiq deyiblər: gəlin gəlin olmaz, düşdüyü yer gəlin olar.

**Sual və tapşırıqlar:**

1. Ailənin hansı funksiyaları vardır?
2. Ailə büdcəsi barədə nə deyə bilərsiniz?
3. Çoxuşaqlı və azuşaqlı ailə. Bunlardan hansı daha yaxşıdır? Nə üçün?

# MADDİ İSTEHSAL VƏ TEXNİKİ TƏRƏQQİ

## §8. İstehsalın və texnikanın meydana gəlməsi

Texnika dedikdə XX əsrdə yaşayan adamların ağlına ilk növbədə elektronika, traktor, bilgisayar (kompüter), raket, mürəkkəb avtomat qurğular gəlir. Lakin müasir həddə gəlib çatanadək texnika uzun tarixi inkişaf yolu keçmişdir. Sanki biz xışın, kotanın, hətta belin, toxanın, rəndənin, çəkicin texniki tərəqqidə nə kimi böyük bir rol oynadığını unuduruq. Halbuki onlar bu gün də istifadə olunmaqda davam edir.

'Texnikanın tarixi maddi istehsalla bir vaxtdan başlayır. Onu yaradan əsas səbəb insanın təbii ehtiyaclarıdır. insan yaşamaq üçün yeməlidir, geyməlidir. Təbiətin dəyişkən və bəzən də sərt iqlimindən qorunmaq, daldalanmaq üçün özünə münasib yer tapmalıdır. Lakin insan bütün ehtiyaclarını təbiətdə hazır şəkildə olan şeylərlə ödəyə bilməz.

Heyvanlar alətsiz fəaliyyət göstərirlər. Onlar yalnız öz təbii orqanlarının—pəncənin, ağızın köməkliyi ilə özlərini təbiətdə hazır olan qidalarla təmin edirlər. İnsan isə alətlərdən istifadə etməklə öz təbii imkanlarını artırır.

İnsanın ilkin istifadə etdiyi vasitələr təbiətdə hazır şəkildə mövcud olan şeylər idi. Ucu iti daş parçaları, düz, hamar və möhkəm ağac budaqları insan əlinin imkanlarım artırmaq üçün istifadə olunurdu. Sonralar tədricən bu vasitələr digər təbii vasitələrin köməyilə istifadə üçün daha yararlı vəziyyətə salındı.

İstehsal vasitələrinin—istehsal alətlərinin hazırlanması və təkmilləşdirilməsi prosesi bəşəriyyətin bütün sonrakı tərəqqisinin əsasında durur. Təbiətdə hazır şəkildə olan şeylərdən istifadə edə bilmək üçün əvvəlcə əl özü təkmilləşir. İnsan alətdən istifadə etmək vərdişləri qazanır. Sonra alətlərin özünü təkmilləşdirmək üçün insan digər alətlərin köməyindən istifadə edir və yeni əməliyyatlar aparmalı olur. Bu proses dəfələrlə təkrar olunduqda yeni əməli vərdişlər formalaşır.

İnsanın ilk tarixi inkişaf dövründə əldə etdiyi əməli vərdişlərin çoxu onun özündə instinktiv şəkildə mövcud idi. Bəzi vərdişlər isə heyvanlar, quşlar və hətta həşərat üçün instinktiv fəaliyyətin əsasını təşkil edir. Belə ki, hörümçək tor qurmağı, arı pətək toxumağı, qarışqa yeri qazaraq ev tikməyi və s. kortəbii surətdə bacarır. Lakin bütün bu əməliyyatlar zamanı onlar ancaq özləri ifraz etdikləri maddələrdən və öz təbii orqanlarından istifadə edirlər. Siçan, ağacı hər hansı bir alətlə yox, öz dişləri ilə kəsir. İnsanın təbii orqanları—əli, ayağı, ağızı və s. isə hər hansı xüsusi bir fəaliyyətə nisbətən az uyğunlaşmışdı. O öz təbii orqanlarının imkanını artırmaqla müxtəlif məqsədlər üçün müxtəlif əşyalardan istifadə etməli olurdu. Alətlər isə çox müxtəlif idi. Bu da insanın daha hərtərəfli, universal fəaliyyət göstərməsinə meydan açırdı.

İnsanın istifadə etdiyi bütün təbii vasitələr içərisində onun sonrakı həyatında ən çox rol oynamış olan vasitə oddur. Təbii şəkildə mövcud olan odun bəzi xüsusiyyətləri–qızdırmaq, işıq salmaq heyvanat aləminə də bəlli idi. Lakin onlar üçün od ancaq qorxu hissi doğururdu.

İnsanın odu ram etməsi, yəni istədiyi vaxtda od əldə etməsi onun bütün heyvanat aləmi ilə müqayisədə ən böyük üstünlüyü

oldu. Nağıllarda, hekayələrdə, cizgi filmlərində insanın dostu və başlıca silahı kimi təsvir olunan «qırmızı çiçək" məhz odun metaforik işarəsidir. Oddan vəhşi heyvanlara qarşı mübarizə vasitəsi kimi, qızınmaq üçün, qidanın bişirilməsi üçün istifadə etmək və bununla bağlı əməli vərdişlərin qazanılınası texniki tərəqqinin bir istiqamətidir. Lakin əsas məsələ oddan istifadə etməzdən əvvəl, onu əldə etmək qaydasını bilməkdir. Sürtmə yolu ilə od əldə edilməsi o dövrdə insanın ən böyük texniki nailiyyəti idi.

Od sonralar əmək alətlərinin düzəldilməsində, metalların istənilən formaya salınmasında mühüm vasitə oldu, daha mükəmməl alətlər yaradılmasına xidmət etdi.

Od insanın tarixən ilkin praktik fəaliyyət prosesində əldə etdiyi əməli biliklərin tədricən toplanaraq gerçəklik haqqında daha geniş, hərtərəfli və sistemli biliklər toplusuna çevrilməsi üçün əsas oldu. İnsan ətrafındakı şeylərin xassələrini öyrəndikcə, özünün daha böyük əməli nailiyyətlər əldə etdiyini gördükcə gerçəkliyi məqsədli surətdə öyrənməyə başladı. İlk nəzəri biliklər yarandı. Əməli və nəzəri biliklərin bölgüsü getdikcə dərinləşdi. Gerçəkliyi dəyişdirmək deyil, sadəcə olaraq öyrənmək istəyən adamların sayı getdikcə artdı. İlk elmi biliklər və alimlər yarandı. Əldə edilmiş biliklər gec və ya tez əməli fəaliyyətdə istifadə olunmağa başladı. Elmlə texnikanın tarixi ittifaqı belə başlandı.

İnsanın öz maddi tələbatını ödəmək üçün göstərdiyi fəaliyyət getdikcə daha çox vasitəli xarakter daşımağa başladı, insanlar daha yalnız bugünkü ehtiyaclarını düşünməklə kifayətlənmədilər. Gerçəklik haqqında daha çox bilik əldə etdikcə, səbəbiyyət əlaqələrini dərk etdikcə bir qisim hadisələrin necə cərəyan edəcəyini irəlicədən görmək, onları proqnozlaşdırmaq imkanı açıldı.

Yuxarıda qeyd edildiyi kimi, yaşayış üçün zəruri olan məhsullar təbiətdə heç də həmişə hazır şəkildə olmur. Lakin bu məhsulların təbiətdə necə yetişdiyini və onların xassələrini

öyrəndikcə insan məhz özünə lazım olan məhsulların yetişməsi üçün lazımi şərait yaratmağa çalışır. İnsanın ilkin təminat vasitəsi olan ovçuluq heç də həmişə uğurlu olmurdu. Ov alətləri nə qədər təkmilləşsə də burada təsadüf həlledici rol oynayırdı. Bəzi heyvanların tədricən əhliləşdirilməsi insanların həm qidaya olan tələbatını ödəmək, həm də onlardan işçi qüvvə kimi istifadə etmək imkanı yaradırdı. Digər tərəfdən, təbii yolla bitən bitkilərin məhv olmasının qarşısını almaq cəhdləri, onların məqsədyönlü surətdə əkilib çoxaldılması, sivilizasiyanın çox mühüm şərtlərindən biri olan əkinçiliyin yaranmasına səbəb oldu. Vəhşi heyvanların əhliləşdirilməsi, müxtəlif faydalı bitkilərin əkilib-becərilməsi–əkinçiliyin və maldarlığın yaranması bəşər tarixində, odun sürtmə yolu ilə əldə edilməsindən sonra, ən böyük nailiyyətlər idi. Bununla da ictimai miqyasda əmək bölgüsünün əsası qoyulmuş oldu.

Maldarlığın və əkinçiliyin inkişafı iki mühüm şərtlə bağlı idi. Birincisi, heyvanları qoruyub saxlamaq, ikincisi, onların yalnız ətindən deyil, verdikləri əlavə məhsullardan da (süd, yun və s.) müntəzəm surətdə istifadə etmək üçün, əvvəlcə onların üzərində müşahidələr aparmaq, onların necə çoxaldığını, nəkimi xassələrə malik olduqlarını öyrənmək lazım idi. Daha sonra bitki və heyvanat aləmində öz məqsədlərinə uyğun dəyişikliklər yaratmaq üçün insan həmin bilikləri tətbiq etməli, yeni əməli vərdişlər qazanmalı idi. Həm əkinçilik, həm də maldarlıq sahəsində müəyyən məqsədlərə çatmaq üçün yeni tipli əmək alətləri lazım idi. Beləliklə, həmin dövrdə yeni əməli vərdişlərin və əmək alətlərinin yaranması–texnikanın inkişafı da əsasən, yeni əmək sahələrinin–əkinçilik və maldarlığın tələblərinə uyğun surətdə baş yerirdi.

İnsanın təbiət haqqında bilikləri artdıqca və bilavasitə istehlakdan, vasitəli istehlaka keçdikcə alətlərin növü də artır, zənginləşirdi. Alətlərin nədən və hansı materiallardan düzəldilməsinin də çox böyük əhəmiyyəti var idi. Təbiətdə hazır şəkildə tapılan daş, sümük, ağac və s.-in emalı mürəkkəb texniki

qurğuların yaradılması üçün kifayət deyildi.

Yeni daş dövründə, neolitdə (e. ə. 5000-3000 illər) adamlar artıq hamarlanmış, pardaqlanmış daş alətlərdən istifadə edirdilər. Əmək alətlərinin yaradılması xüsusi əməli vərdişlər və biliklər tələb etdiyindən bu işlə daha hamı yox, onu daha yaxşı bacaran və ancaq alət düzəltməklə məşğul olan adamlar– sənətkarlar məşğul olmağa başladılar. Sənətkarların meydana gəlməsi şəhərlərin yaranmasına və inkişafına böyük təkan verdi. İlk tam əmək bölgüsü də bu vaxtdan başlandı.

Sənətkarlığın müstəqil əməli fəaliyyət sahəsinə çevrilməsi, şəhərlərin yaranması, digər tərəfdən alətlərin düzəldilməsində metallardan istifadə olunmasına başlanması texnikanın inkişafında yeni bir mərhələ açdı. Sivilizasiyanın təməli qoyuldu.

Metallardan istifadə edilməsi, əlbəttə, birdən-birə metal alətlərin düzəldilməsindən başlanmayıb. Metallar əvvəlcə qədim insanları öz parıltısı ilə cəlb edib, onlardan əyləncə və zinət şeyi kimi istifadə olunub. Həm də ki, bütün metallara təbiətdə həmişə saf halda rast gəlinmir. Ən çox qızıla və misə ayrılıqda, külçə halında təsadüf olunur. Onları tapmaq da asan məsələ deyildi. Təsadüfi deyil ki, «metal» sözünün özü də yunan dilində «axtarmaq» deməkdir. İnsanlar təbiətdə hazır şəkildə əldə etdikləri şeyləri tədricən öyrənir, onlardan hansı məqsədlə istifadə etmək mümkün olduğunu müəyyənləşdirməyə çalışırdılar. Qədim yunan alimi Teofratm dediyi kimi, əldə olunan şeylər ya əyləncə, ya da fayda üçün istifadə olunurdu. Daş alətlər daha bərk olduğundan, insanlar mis əldə edildikdən sonra da uzun müddət daş alətlərdən istifadə edirdilər. Misin əridilib başqa metallarla qarışığından alınan bürünc əldə edilənədək beləcə davam edirdi. Amma bürünc alətlər keyfiyyətinə görə daş alətlərdən üstün olduğundan e.ə. III-II minilliklərdə onlardan daha çox istifadə etməyə başladılar. Bununla da daş dövrü bürünc dövrü ilə əvəz olundu.

Metalların əridilməsi və onlardan tökmə üsulu ilə müxtəlif

formalı alətlər düzəldilməsi texniki vasitələrin yeni növlərinin yaradılmasına imkan verdi. Metaldan düzəldilən kəsici alətləri yaxşı itiləmək mümkün idi. Bunun nəticəsində metal alətlərin düzəldilməsi və təmir edilməsi yeni bir peşə sahəsinin yaranmasına səbəb oldu ki, müasir dövrdə bu sənət dəmirçilik kimi məlumdur.

Bu dövrdə təkərlərin düzəldilməsi, heyvanların gücündən istifadə edilməsi yük daşınmasını xeyli asanlaşdırdı və insanların fəaliyyət dairəsini genişləndirdi.

Yeni əməli vərdişlər qazandıqca insan təbiətdə baş verən və özünün yaratdığı hadisələr haqqında bilikləri qaydaya salmağa və qeydə almağa ehtiyac hiss edirdi. Müxtəlif simvolların, rəqəmlərin, heroqliflərin və daha sonra yazının üzə çıxması, ölçü əməliyyatlarından istifadə edilməsi, ilk hesab üsullarının kəşfi əməli biliklərlə yanaşı elmi biliklərin də tədricən formalaşdığına dəlalət edirdi. Elmi biliklərin sonrakı inkişafı müasir sivilizasiyanın artıq daha çoxfiərarlaşdığı dövrə–e.ə. I minilliyə təsadüf edir.

Şüurun nisbi müstəqillik əldə etməsində, biliklərin və nitqin yaranmasında neytral müşahidənin rolu böyük olmuşdur. Seyr özünə maddi fəaliyyətdən fərqli olan ikinci çıxış yolu tapır. Bu yol məntiqi təfəkkürdən və onun nəticəsi olan biliklərdən keçərək, dil və nitq vasitəsilə maddi dünyaya gətirib çıxarır. Biliklər sözlə ifadə olunduqdan sonra ayrıca bir fərdə mənsub olaraq qalmır–ictimailəşir. Bu mərhələdə biliklərin ictimai sintezi və tətbiqi yeni səviyyəli və, yeni mahiyyətli praktika doğurur. Mənəvi və maddini özündə üzvi surətdə birləşdirən və bir fərd miqyasında həyata keçən praktika indi getdikcə daha böyük ictimai miqyas alan mürəkkəb proseslə–praktikadan başlanan və çoxpilləli idrak yolu keçərək yenə də praktika ilə tamamlanan spiralvarı hərəkətlə əvəz olunur. İdrak mərhələsindən yeni keyfiyyətli praktika mərhələsinə keçid prosesi isə müasir dövrdə elmi-texniki tərəqqi ilə bağlıdır. Əvvəllər bu keçid bir fərd miqyasında həyata keçirdi. Hər kəs öz

zehni biliklərini əməli fəaliyyətə tətbiq etmək üzərində özü düşünürdü. Lakin müasir dövrdə bütöv sosial sistem olan elmdən maddi istehsala keçidin təmin olunması ictimai miqyaslı xüsusi fəaliyyət tələb edir.

**Sual və tapşırıqlar:**

1. İlkin istehsalın xarakteri necə olmuşdur?
2. Texnika necə yaranmışdır?
3. Texnikanın inkişafındakı mərhələləri izah edin.

## §9. Tarixdə elmlə texnikanın qarşılıqlı münasibəti

Maddi fəaliyyətdən doğan və yalnız təcrübə şəklində yeni nəslə ötürülən əmək vərdişləri müasir dövrdə də istehsal prosesində mühüm yer tutur və icraçılıq işinin, fəhlə əməyinin əsasını təşkil edir. Lakin ictimai istehsal yalnız bilavasitə icraçılıq fəaliyyəti ilə məhdudlaşmır. Onun mühüm xüsusiyyətlərindən biri maddi fəaliyyətlə bilavasitə bağlı olmayan, ona nəzərən müəyyən müstəqilliyə malik olan zehni biliklərin maddi fəaliyyətlə əlaqələndirilməsidir. Bu proses müasir dövrdə elmi-texniki tərəqqi sayəsində həyata keçir və onun funksional səciyyəsini verməkdə mühüm rol oynayır. Lakin elmi-texniki tərəqqinin daha dolğun mənzərəsini yaratmaq, onun mahiyyətini və funksiyalarını daha dəqiq müəyyənləşdirmək üçün yenə də keçmişə qayıtmaq, «müstəqil şüurun», zehni biliyin və onun maddi fəaliyyətlə əlaqəsinin inkişaf yolunu izləmək lazım gəlir. Yalnız elmi-texniki tərəqqinin yox, elm və texnikanın genezisi də məhz bu yoldan başlanır.

Elm tarixinin tədqiqi göstərir ki, elmin praktik məqsədlərə xidmət edən sistem kimi formalaşması, əsasən XVII–XVIII əsrlərə təsadüf edir. Yaranmaqda olan kapitalizm cəmiyyəti sənayeni inkişaf etdirmək məqsədilə elmdən istifadə olunmasına təkan verir. Elmin inkişaf etdirilməsində daha təkcə elm adamları deyil, həm də istehsal müəssisələrinin sahibkarları və

onların mənafeyini müdafiə edən dövlət özü maraqlı olur.

Cəmiyyət, elmi məhz onun praktik istifadə imkanlarına görə inkişaf etdirir, bu məqsədlə müxtəlif sosial institutlar fəaliyyət göstərməyə başlayır. Elm getdikcə fərdi hadisədən və ya kiçik qruplar miqyasından böyük sosial sistemlər miqyasına keçir, ümumcəmiyyət hadisəsinə çevrilir.

Elm dövlət miqyasında təşkil olunmuş ictimai hadisə kimi formalaşmazdan qabaq dtı elmi fəaliyyət var idi.

Ayrı ayrı adamlar bu zaman elmlə öz daxili mənəvi ehtiyaclarını ödəmək üçün məşğul olurdular. Qədim yunanların bəziləri elmlə məşğul olsa da, onun tətbiqi ilə, praktik məsələlərlə məşğul olmağı özlərinə yaraşdırmır, mənsub olduqları yüksək ictimai təbəqənin əxlaqi meyarlarından çıxış edirdilər. Nəzəri fikir sahiblərinin təcrübəyə həqarətli münasibəti o dərəcədə kəskin idi ki, məsələn, Aristotel qadının dişlərinin sayının kişininkinə nisbətən az olduğunu iddia etmiş, lakin iki dəfə evlənməsinə baxmayaraq, onları saymağı heç ağlına da gətirməmişdir. Aristotelin törəmə nəzəriyyəsi və sürətin qüvvə ilə mütənasib olması haqqındakı nəzəri müddəası da nə onun özü tərəfindən, nə də xələfləri tərəfindən yoxlanmamış; iki min ildən artıq kor-koranə surətdə qəbul edilmişdir.

Orta əsrlərdə elmin geri qalması, sxolastik (cəfəngiyyat) hüdudlarını keçə bilməməsi onun praktika ilə əlaqəsinin zəifliyindən irəli gəlir ki, bu da ən çox o dövrün ümumi mənəvi atmosferi, hakim əxlaq normaları İlə izah olunmalıdır. Kübar ailədən çıxmış adamlar cəmiyyətin mənəvi meyarlanna uyğun olaraq praktik məsələlərlə məşğul olmağı özlərinə sığışdıra bilmirdilər. Bu dövrdə ixtiralar da çox vaxt «təhsil görməmiş və hakim sxolastikanın təsirinə düşməmiş sadə işçilər, sənətkarlar tərəfindən edilirdi» (V.İ.Vernadski). Kübar cəmiyyətinin nümayəndələri əmək adamlarma yuxandan aşağı baxdıqları kimi, məqsədəuyğun əməli fəaliyyətin məhsulu olan yeniliklərə də həqarətlə baxırdılar, insan ağlının açdığı yolları keçmədən,

birbaşa mənəvi yetkinlik zirvəsinə çatmaq, əxlaqı ağıldan nəinki yüksək tutmaq, hətta ona qarşı qoymaq, əməli fəaliyyətdən ayrılmış abstrakt əxlaq etiketləri yaratmaq və bunları mütləqləşdirmək–aristokratiyanın mənəvi və sosial süqutunun əsas səbəblərindəndir. Orta əsrlərdə hökm sürən cəngavərlik psixologiyası və aristokrat mənəviyyatının rasional biliyə və praktikaya münasibəti Don Kixotun yel dəyirmanına münasibətində öz əksini obrazlı surətdə çox gözəl tapmışdır.

Aristokratiya tərəfindən qəbul edilməyən praktik elm burjuaziyanın mənəvi xüsusiyyətlərinə və maddi ehtiyaclarına tamamilə uyğun gəlirdi. Elmin məhz kapitalizm cəmiyyətində intensiv surətdə inkişaf etməsinin əsas səbəblərindən biri də məhz bu idi.

İntibahla açılan yeni dövr ilk çağlarında antik mədəniyyətin yenidən canlanması təsirini bağışlasa da, tezliklə burjua mədəniyyətinə qapı rolunu oynadı. Kapitalizm cəmiyyəti mənəvi etalonlarla təcrübi biliyin; ağlın qarşılaşdırılmasında ikinci qütbü seçdi: ülvi, toxunulmaz olan heç bir hiss, heç bir əxlaqi norma ilə hesablaşmadan rasional düşüncənin, empirik elmin açdığı geniş yola çıxdı və sürət götürdü. Mənəvi meyarla elmi-praktik meyar, hiss ilə rasional təfəkkür arasındakı ziddiyyət indi də ikincilərin mütləqləşdirilməsi nəticəsində kəskinləşməyə başladı, adət-ənənənin hökmranlığı öz yerini pulun, iqtisadi amillərin hökmranlığına verdi. Uzaqgörən adamlar bu ziddiyyətdə Avropanın süqutunun başlanğıcını gördülər. Rasional düşüncəyə, elmi-praktik fəaliyyətə və onun gətirdiyi yeniliklərə düşmən münasibətdən irəli gələn Don Kixot faciəsi mənəvi saflığa, insani hisslərə etinasızlıqdan irəli gələn burjua faciəsi ilə əvəz olundu. Əlbəttə, burada yenə də bədii obraza müraciət etmək yerinə düşərdi. Lakin Don Kixotun faciəsi təbii və real olsa da kapitalizm cəmiyyətinin və burjua təfəkkür tərzinin ziddiyyətləri bir burjua fərdiyyətinin faciəsində tam mənası ilə ifadə oluna bilmir. Təkcə ona görə yox ki, böyük faciələr yalnız zəngin mənəviyyatlara sığışa bilər, həm də ona

görə ki, burjuaziyanın utilitar-praktik təfəkkür tərzi əslində onun bütün nailiyyətlərinin başlıca hərəkətverici qüvvəsidir. Nəyi isə qurban vermədən, nəyə isə nail olmaq mümkün deyil. Burjua cəmiyyətinin sənaye sahəsindəki sürətli yürüşü də orta əsrlərin mənəvi əxlaqi normalarını tapdayıb keçmək hesabına mümkün olmuşdu.

Kapitalizm cəmiyyətinin müəyyən mənada mütərəqqi xarakter daşıdığı ilk əsrlərdə onun məhsuldar qüvvələrin, inkişafı üçün açdığı geniş imkanlar və bu imkanları şərtləndirən yeni təfəkkür tərzi, təbii ki, həmin dövrün fəlsəfi fikrində də öz əksini tapmışdı. Bununla yanaşı, biliklərin utilitar-praktik istifadəsinə üstünlük verən bu yeni təfəkkür intibah dövrünün düşüncə tərzi simasında həm də mənəvi sələfə malik idi. İntibah dövrünün mənəviyyatı feodal cəmiyyətinin təfəkkür tərzindən köklü surətdə fərqlənməklə bərabər, antik dövrün mənəviyyatmı da sadəcə təkrar etməyərək, praktik fəaliyyətə münasibət məsələsində ona nisbətən xeyli qabağa getmişdi.

Məhz İntibah dövründə elm və praktikanın qarşılıqlı əlaqəsinə olan zərurət tam mənasilə dərk edilmiş, onların bir-birini tamamlamasına dair dahiyanə fikirlər söyləmişdi. Özünün çoxsahəli şəxsi fəaliyyəti ilə fəlsəfə və incəsənətin, elm və praktikanın vəhdətinə parlaq nümunə olan Leonardo da Viıçi təcrübəni dəqiq biliyin atası hesab edir, praktikadan doğmayan elmləri əsassız və qüsurlu sayırdı. Böyük mütəfəkkir eyni zamanda elmin də praktika üçün mühüm şərt, olduğunu nəzərə alaraq yazırdı: «EImsiz praktikaya aludə olan adanı gəmini sükansız və kompassız idarə etmək istəyən kapitana bənzər; o hara üzdüyünü özü də bilməz».

Yeni dövr fəlsəfəsində elmin praktika üçünmü yoxsa praktikanın elm üçünmü həlledici olması İntibah dövründə qərarlaşmış olan vahid mövqeyin haçalanmasına gətirib çıxardı. Daha doğrusu, elmin praktika üçün rolunun qiymətləndirilməsində yekdillik əldə olunsa da, praktikanın, təcrübənin elmin inkişafında rolu iki müxtəlif mövqedən şərh

edilməyə başladı.

İngilis filosofu F.Bekon tərəfindən əsası qoyulan birinci istiqamətə–empirizm fəlsəfəsinə görə, hər cür elmi bilik yalnız təcrübə yolu ilə, praktikadan əldə edilə bilər. Antik dövrdə və orta əsrlərdə təcrübəyə olan böyük etinasızlıqdan sonra ona belə xüsusi diqqət verilməsi əlbəttə, təqdirəlayiq hadisə idi. Lakin F.Bekon və. onun davamçıları şüurun fəal xarakterini nəzərə almır, intuisiyanın idrakda rolunu araşdırmırdılar. Daha dəqiq məlumat əldə etmək üçün təcrübəni təkmilləşdirmək tələbi irəli sürüldüyü halda, bu təcrübənin nəticələrini zəka işığında nəzərdən keçirmək tələbi qoyulmurdu və əksinə, zəkaya həqiqi bilik əldə edilməsi üçün bir maneə kimi baxılırdı. F.Bekon yazırdı: «...zəkaya qanad yox, qurğuşun bağlamaq lazımdır ki, onun sıçrayış və uçuşunun qarşısını almaq mümkün olsun». Zəkanın özü insanın bütün əvvəlki təcrübələrinin yekunu kimi, onun mənəvi və maddi həyatının vəhdətindən hasil olan nəticə kimi qəbul edilmirdi.

Fransız filosofu və riyaziyyatçısı R.Dekart və onun davamçıları olan rasionalist filosofların mövqeyisə isə, ayrı-ayrı təcrübi faktlardan çıxış edərək qəti və ümumi hökmlər vermək məntiqi baxımdan qüsurludur. Bu hadisənin yüz və ya min dəfə eyni cür təkrar olunması bizə belə düşünməyə tam əsas vermir ki, yüz birinci və ya min birinci dəfə də bu hadisə məhz həmin cür təkrar olunacaq. Bu hökmü yalnız müəyyən ehtimalla vermək olar. Tam yəqinlik məziyyətinə malik olan qəti elmi biliklər isə ancaq zəkanın məhsulu ola bilər.

Bu iki təlim arasındakı bütün ciddi fərqlərə baxmayaraq, onlar hər ikisi yeni dövrün–yaranmaqda olan kapitalizm cəmiyyətinin hakim təfəkkür tərzinə uyğun olaraq elmin praktik rolunu əsas tutur, məhz pozitiv elmi bilikləri, utilitar-praktik məqsədlərə xidmət edən təlimləri inkişaf etdirməyi lazım bilirdilər. Elmi biliklərin mənbəyi məsələsində empirizmə (empiriya–təcrübə sözündəndir) qarşı çıxan R.Dekart onun istifadəsi məsələsində praktik tələbləri rəhbər tutaraq yazırdı:

«Mücərrəd fəlsəfə əvəzinə praktik fəlsəfə yaratmaq olar və onun köməyi ilə odun, suyun, havanın, ulduzların, göylərin və bizi əhatə edən bütün digər cisimlərin qüvvə və təsirlərini aydın surətdə, ustaların öz sənətlərini bildiyi kimi öyrənmək olar. Bu zaman biz bu qüvvələrdən onların tətbiq oluna bildiyi bütün sahələrdə istifadə edər və beləliklə, təbiətin əsl sahibkarı və hakimi ola bilərdik». Burada bircə onu dəqiqləşdirmək lazımdır ki, R.Dekart «praktik fəlsəfə» dedikdə əslində də «tətbiqi elmləri» nəzərdə tuturdu. «Elm» yox, «fəlsəfə» dəyilməsi o dövrdə elmlərin fəlsəfədən hələ tam ayrılmadığını göstərir.

Klassik alman fəlsəfəsində mühüm terminlərdən biri kimi işlədilən «praktik zəka» anlayışı isə utilitar-praktik fəaliyyəti ifadə etməkdən çox uzaqdır. O dövrdə Almaniyada ictimai münasibətlərin mürəkkəbliyinə və daxili zidiyyətlərinə uyğun olaraq praktika anyışı da, bir tərəfdən, yeni dövr fəlsəfəsində əsas tutulan təcrübi fəaliyyəti əks etdirirdisə, digər tərəfdən, orta əsr fəlsəfəsi, xüsusən Şərq fəlsəfi fikrinin ənənələrinə uyğun olaraq əxlaq, ədəb mənasmda işlədilirdi. Daha doğrusu, praktik zəka yalnız insanın təbiətə fəal münasibəti ilə məhdudlaşdırılmır, insanın özünə olan dəyişdirici təsiri, özünütərbiyə problemi də nəzərə almırdı. Həm də ikinci birinciyə nisbətən daha yüksək məziyyət hesab olunur, fəlsəfi tədqiqat obyekti olmağa daha çox layiq bilinirdi.

Utilitar-praktik fəaliyyətin əsasən hakim kəsildiyi pozitiv elmlərin formalaşdığı və sürətlə inkişaf etdiyi bir dövrdə (XVII–XVIII əsrlər) Qərbi Avropa gerçəkliyi ilə Kantın praktik zəka təlimi arasında ciddi əlaqə tapmaq çətindir. Bu təlimin kökləri Şərq gerçəkliyi və orta əsrlərin Şərq fəlsəfəsi zəminində daha aydın surətdə üzə çıxır.

Orta əsrlərdə nəzəri-elmi biliklə praktik fəaliyyət arasındakı ayrılıq Şərq üçün də səciyyəvi olmuşdur. Lakin Şərqdə bu iki tərəf arasındakı münasibət daha mürəkkəb və çoxcəhətli idi. Məsələ burasındadır ki, əgər o dövrün Şərq ədəbiyyatına, ictimai-fəlsəfi fikrinə nəzər salsaq, biliyin əməllə bağlılığı

probleminə geniş yer verildiyini görərik.

**Sual və tapşırıqlar:**

1. Elmi biliyin yaranmasını izah edin.
2. Elmlə texnikanın münasibətlərinin hansı mərhələləri vardır?
3. Fəlsəfədə bu məsələ necə izah edilir?

## §10. Orta əsr Şərqində elm və texnika

Elmin, biliyin, yoxsa işin, əməlin ilkin və əsas olması problemi o dövrdə Şərq fəlsəfi fikrinin mərkəzində dayanırdı. İslam dinində bilik çox vaxt inamla, əqidə ilə bağlandığından ilkinlik bir qayda olaraq biliyə verilirdi. Dini mövqeyə görə belə qəbul olunurdu ki, əməl, fəaliyyət insanlara xas olduğu halda, bilik Allahın insan qəlbinə saldığı işıqdır. Qeyd etmək lazımdır ki, burada bilik heç də yalnız etiqad mənasında işlənmir. Dini ayinlərin icra edilməsi biliyə yox, əmələ aid edilir, lakin yenə də bilik ondan yüksək tutulurdu. Abidlə müqayisədə alimə üstünlük verilirdi.

O dövrdə Şərqdə bilik–əməl alternativinin həllində ictimai fikir heç də yalnız islam dinindən çıxış etmirdi. Orta əsr alimləri bilik, və əməlin dialektikasını açmağa və biliyin, elmin əhəmiyyətini və üstünlüyünü məntiqi yolla konkret misallar, hadisələr, hekayətlər vasitəsilə sübut etməyə çalışırdılar.

Yeni dövrdə biliyin, yoxsa gücün, kəlamın, yoxsa əməlin əsas olmasına dair mübahisələr orta əsr Şərq fəlsəfəsindən Qərb ictimai fikrinə keçir. Neçə əsrdən sonra həmin sualı İ.Hötenin qəhrəmanından eşidirik.

İnsan həyatının əsasını təşkil edən, bəşərin inkişafı üçün ilk başlanğıc rolunu oynayan hadisə nədən ibarətdir? Bu sual üzərində dərin düşüncələrə dalan Faust ilkinliyi gah sözə, gah zəkaya, gah da qüvvəyə verir. Lakin nəhayət, işin, əməlin

üzərində dayanır.

İnsan yalnız təbiətə fəal münasibət sayəsində, əməli fəaliyyət prosesində başqa insanlarla ünsiyyətə girir–söz yaranır. Lakin insan sözlə fikrini, düşündüklərini ifadə edir. Deməli, söz ağıldan, zəkadan əvvəl gələ bilməz.

—Ağıl əmr edəni dil bəyan edər,

—deyən Xaqani də ağlı sözdən əvvəl hesab edir, dili fikrin ötürülməsi üçün Vasitə sayırdı. Dil, söz həm də fərdi fikirlərin ictimailəşməsinə və ümumictimai hadisə olan elmin yaranmasına xidmət edir.

İnsan əqli qabiliyyətlərinin ilkin inkişafı isə yalnız məqsədəuyğun əməli fəaliyyətin, əməyin nəticəsidir. Gerçəkliyə fəal, dəyişdirici münasibət bəsləmədən təkcə seyr sahəsində hadisələrin, şeylərin mahiyyətini dərk etmək, dünyanın sirlərinə bələd olmaq mümkün deyil. Deməli, zəka seyrlə yanaşı, həm də əməli fəaliyyətin məhsuludur.

İnsanın ağlı, düşüncə qabiliyyəti nə qədər çox inkişaf etsə, gerçəklik haqqında o qədər dəqiq, düzgün bilik əldə edir, hiss orqanlarının verdiyi zahiri məlumatla kifayətlənməyərək daxili, sabit, zəruri əlamətləri üzə çıxarır, ümumilərin nə dərəcədə əlaqəli olduğunu öyrənir. Ayrı-ayrı konkret hadisələr, təkcələr arasındakı əlaqə adi şüur səviyyəsində də üzə çıxarıla bilər, elmi bilik isə, Feyerbaxın dediyi kimi, ümumilər arasındakı əlaqəni əks etdirir.

Biliklərin əsasında əməli fəaliyyət dayansa da, bilik, öz növbəsində fəaliyyət meydanını genişləndirməyə xidmət edir. Lakin hər bir konkret fəaliyyət üçün müəyyən konkret biliklər tələb olunur. Esxil deyir ki, əsas məsələ çox bilməkdə deyil, lazım olanı bilməkdədir. Görkəmli alimimiz Xudu Məmmədov öyrədirdi ki, alim olmaq üçün yadda saxlamaqdan daha çox, yaddan çıxarmağı bacarmaq lazımdır. Başqa sözlə, elmi fəaliyyət biliyə seçki ilə yanaşmasını, müəyyən bir fikrin, ideyanın aydınlaşması, kristallaşması üçün zəruri olan ən mühüm biliklərin ön plana çəkilməsini, xüsusi müstəviyə

köçürülməsini tələb edir. Fikrin müəyyən problemə fokuslan masına mane olan, həmin anda «yaddan çıxarılmalı" olan biliklər isə başqa bir problemin həlli zamanı ön plana çəkilir və s.

Çox pulu olan, lakin ondan istifadə etməyi bacarmayan adamlar olduğu kimi, çox biliyi olan, lakin lazım gəldikdə onu saf-çürük edərək müəyyən istiqamətə yönəldə bilməyənlər də var. Çox bilmək hələ alim olmaq deyil. Elmi xidmət hər bir alimin ümumi bilik xəzinəsindən nə qədər pay götürməsi isə deyil, bu xəzinəyə nə qədər pay verməsi ilə müəyyən olunur.



**İbn Sina** Əbu Əli Hüseyn ibin Abdullah (latınlaşdırılmış adı Avisenna) (980, Buxara yaxınlığındakı Əfşanak kəndi 1037)–alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. Orta Asiyada və iranda yaşamış, ömrünün axırlarında saray həkimi və vəzir olmuşdur. Aristotel təliminə əsaslanaraq antik fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır. «Kitab ül-işarət və -t-tənbihat» («Göstərişlər və qeydlər kitabı»), «Danişnamə» («Bilik kitabı"), «Kitab əl-insaf («Ədalət kitabı") İbn Sinanın əsas fəlsəfi əsərləridir. Materialist meyllərlə teoloji idealist prinsipləri uzlaşdırmağa cəhd göstərmişdir.

Yuxarıda göstərildiyi kimi, iki cür bilik sahəsi var. Bilavasitə insanların maddi fəaliyyətinə xidmət edən biliklər (əməli biliklər), vasitələndirici mərhələsiz tətbiq oluna bilməyən biliklər. «İnsansızlaşdırılmış» dünyanın obyektiv qanunauyğunluqlarını əks etdirən koqnitiv biliklərdən

praktikada istifadə etmək üçün bir fərdin fəaliyyət miqyasından kənara çıxan xüsusi sosial mexanizm, xüsusi qüvvə tələb olunur. Deməli, yeni bilik əldə etmək insanın güc-qüvvəşini öz-özünə artırmır. Əksinə, bu biliyin qüvvəyə çevrilməsi üçün ilkin qüvvə, xüsusi maddi vəsait, fəaliyyət lazımdır.

Bəzən maddi fəaliyyət imkanı məhdud olduqda, güc-qüvvə çatmadıqda insanın ən vacib arzu və niyyəti həyata keçməmiş qalır. Müdrik adam gücsüz olduqda dünyadakı pozuntuları, çatışmazlıqları duyur, dərk edir, amma onları aradan qaldıra bilmir. Dünyanı məqsədəuyğun şəkildə dəyişmək üçün nə etmək lazım olduğunu .bilir, lakin buna qüvvəsi çatmır. Bu, müdrik adamın faciəsidir. Başqa birisinin isə maddi imkanı, gücü-qüvvəsi var, lakin nə etmək lazını olduğunu bilmir, daha doğrusu, onun lazını bildiyi əsl həqiqətdən çox uzaqdır. Buna baxmayaraq, güclü olan «haqlı» çıxır. Bu–nadan adamın xoşbəxtliyidir.

Orta əsr Şərq fəlsəfəsində müdrik adamın faciəsi nadanın xoşbəxtliyindən üstün tutulurdu. Maraqlıdır ki, bu ideya təkcə əxlaqi baxımdan deyil, həm də ümumiyyətlə faydalılıq baxımından irəli sürülür: «Bilik əməlsiz də faydalı ola bilər, halbuki biliksiz (elmsiz) əməlin faydası yoxdur». Burada biliyin, elmin təkcə məhsuldar qüvvə yox, həm də sosial-mədəni sərvət olması fikri çox gözəl ifadə olunmuşdur. Elmə arxalanmayan fəaliyyətin puçluğu ideyası Füzulinin məşhur misralarında öz poetik tərənnümünü belə tapmışdır:

Elmsiz şer əsası yox divar olur,
Əsassız divar qayətdə bietibar olur.

Şərq fəlsəfəsi hər bir işin elm, bilik əsasında görülməsini zəruri sayır. Yüz ölçüb bir biçmək hikmətini əsas götürür. Güclə görülə bilməyən işlər bilik və fərasətlə görülə bilər. Ərəb filosofu Əl-Qəzali yazırdı: "Fəlsəfənin həqiqi məqsədi xoşbəxtliyə aparan yolu göstərməkdir ki, o da elm və əməlin birləşdiyi nöqtədən keçir".

Sual oluna bilər ki, elm ilə əməl arasındakı əlaqənin həlli kimi mühüm bir problem orta əsr Şərqində düzgün həll olunmuşdursa, bəs nəyə görə sonrakı dövrlərdə Şərq ölkələri elmi-texniki tərəqqi sahəsində geri qaldı?



**Bəhmənyar ibn Mərzban** Əbülhəsən (?—1066)–Azərbaycan filosofu, Şərq rıpateizminin nümayəndəsi, İbn Sinanın şagirdi və davamçısı. Bəhmənyara görə hər şeyin əsasını ən ümumi mənada varlıq təşkil edir. Bəhmənyar bir sıra elmi əsərlərin müəllifidir. Onlardan «Təhsil kitabı", «Məntiqə dair zinət kitabı", «Gözəllik və səadət kitabı", «Musiqi kitabı", «Metafizika elminin mövzusuna dair traktat", «Mövcudatın mərtəbələri" və s. əsərlərinin adlarını çəkmək olar. Orta əsrlərdə müsəlman Şərqində fəlsəfi fikrin inkişafında Bəhmənyarın böyük rolu olmuşdur.

Nəzərə almaq lazımdır ki, əvvəla, Şərqdə elm, bilik dedikdə daha çox humanitar sahələr: fərqli, əxlaq nəzəriyyəsi, didaktika və s. nəzərdə tutulurdu. «İnsansızlaşmış» dünyanın deyil, insan dünyasının öyrənilməsinə üstünlük verilirdi. Məhz bu cəhət elmlə, fəlsəfə ilə poeziyanın məqsədini yaxınlaşdırdığından, çox vaxt sinkretik formalar yaranır, fəlsəfi və elmi fikirlər də poeziyada ifadə olunurdu. Poeziya fikri insana bilavasitə çatdırmaq üçün çox əlverişli idi. Təbiət haqqındakı fikirləri, zehni bilikləri əməli fəaliyyətə tətbiq edərək təbiət qüvvələrinin praktik ifadəsi şəklində insanların ixtiyarına vermək, görünür başqa cür düşüncə tərzi tələb edirdi.

O dövrdə elm müstəqil surətdə də inkişaf edir, elmi traktatlar yaranırdı. Lakin belə əsərlər daha çox müstəqil bir

sərvət kimi qiymətləndirilirdi. Elm bir növ öz-özünün məqsədinə çevrilmişdi.

Əməl dedikdə isə ilk növbədə insanın insani fəaliyyəti: əxlaqi keyfiyyətləri, özünü insanlar arasında necə aparması, mövcud cəmiyyətdə qərarlaşmış olan mənəvi normalara nə dərəcədə əməl etməsi nəzərdə tutulurdu. Anlayışın əhatə dairəsi məhdudlaşdırılmışdı.

Şərq fəlsəfəsi alimi-biəməlləri ifşa edir və ya yalnız o adamları həqiqi mənada müdrik hesab edirdi ki, sözü ilə əməli düz gəlsin. Təsadüfi deyil ki, Sədi öz dediklərinə əməl etməyən alimi əlində çıraq gəzdirən kora bənzədir. Elm nuru ilk növbədə alimin öz mənəvi dünyasını işıqlandırmalı, onun əməllərinə düzgün istiqamət verməlidir.

Lakin bəşəriyyətin keçdiyi tarixi yol əslində elm və biliyin əxlaqla, insani keyfiyyətlərlə çox az əlaqədar olduğunu isbat etmişdir. İnsan nəinki ümumiyyətlə elmlərə, hətta etikaya, əxlaq haqqındakı biliklərə nə qədər mükəmməl yiyələnirsə-yiyələnsin, bu hələ onun real əxlaqı haqqında, insani keyfiyyətləri haqqında heç nə demir. İnsanı tərbiyə etməyin yolları daha mürəkkəbdir. O dövrdə isə (bəzən elə indi də) elm, bilik əxlaqi-mənəvi kamilliyin əsas açarı hesab edilirdi. XIV əsrdə Marağalı şair Əvhədi yazırdı:

Nursuz göz kimidir elmsiz ürək,
Nadan insanlıqdan uzaqdır, gerçək.

Elmdən əsas məqsəd dünyanı dəyişdirmək deyil, insanı dəyişdirmək, onu daha kamil etmək idi. İnsanı dəyişdirmək üçün ilk növbədə dünyanı, mühiti dəyişmək lazım olduğu nəzərdən qaçırılırdı.

İnsan ən çox mənəvi gücü ilə fəxr edir, maddi gücü isə arxa plana keçirir, ona ona yaddır. O həm də fərdi məhdudiyyət üzündən artmır, öz-özünü inkişaf etdirmir, ən başlıcası, sükansız (ağıl qüvvə üçün sükan olmalıdır) hərəkət edir və son nəticədə öz-özünə qarşı çevrilir. Yunan şairi Horatsinin dediyi kimi, hikmətlə birləşməyən kobud qüvvə öz məxsusi ağırlığı altında

məhv olmağa məhkumdur. Əksinə, hikmətə istinad etdikdə qüvvə qüdrətə çevrilir. H.Cavid gözəl demişdir:

Qüvvət üstündə varsa əqli-səlim,
Sənə həp kainat olur təslim!

Gücün, qüvvənin hikmətlə, qılıncın tədbirlə cilovlanması ideyası müasir dövrdə—nüvə müharibəsi təhlükəsinin dünyanı bürüdüyü bir şəraitdə, xüsusi aktuallıq kəsb edir. Burada həmçinin yeni təfəkkürün əslində qədim köklərə malik olduğu, lakin məhz bu gün qlobal miqyas kəsb etdiyi aşkara çıxır. Lakin çox təəssüf ki, antik dövr və orta əsr fəlsəfəsi biliklə əməlin, hikmətlə qüvvənin qarşılıqlı münasibətini ümumən düzgün işıqlandırsa da, bu ideyanı çox vaxt bir fərdin fəaliyyət dairəsinə tətbiqlə məhdudlaşdırırdı. Dövlət miqyasında elmin maddi qüvvəyə çevrilməsi imkanları nəzərdən keçirilmirdi.

Şərq fəlsəfəsində hər hansı bir qüvvənin biliklə tənzim olunması, idarə edilməsi ideyası ilə yanaşı, biliyin özünün qüvvə kimi'çıxış etməsi ideyası da irəli sürülürdü. İnsanı bütün canlıların ən qüdrətlisi edən fiziki qüvvə deyil, biliyin qüvvəsidir. Sözün geniş mənasmda azadlıq qazanmaq, nəinki təbiətdə, həm də öz üzərində hökmran olmaq üçün zərurətləri dərk etmək, elmlərə vaqif olmaq lazımdır. Hələ XII əsrdə böyük Nizami insanın əsl qüdrət və qüvvətini elmlə əlaqələndirərək deyirdi:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz.

Bu misralar F.Bekonun məşhur «bilik qüvvədədir” aforizmindən 5 əsr əvvəl yazılmışdır. Lakin o dövr məhsuldar qüvvələrin inkişaf səviyyəsi belə bir ideyanın böyük miqyasda həyata keçirilməsi üçün imkan vermirdi. Elm həqiqətən F.Bekon dövründən (hətta bir qədər sonra) Qərb ölkələrində ümumictimai miqyaslı maddi bir qüvvə kimi çıxış etməyə başlamışdır.

Orta əsr Şərq təfəkkür tərzi ayrı-ayn istisnalara baxmayaraq, elmlə istehsal arasında sərhəd çəkirdi. Elmə tam müstəqil bir

sahə kimi baxıldığından, o, maddi həyatın tələblərindən getdikcə daha çox uzaqlaşırdı. Qərb intibahının və sonralar kapitalist ictimai-iqtisadi müna sibətlərinin məhsulu olan “elmin qanadlarına qurğuşun bağlamaq”, «onu yerə endirmək” hikməti Şərqin təfəkkür tərzinə uyğun gəlmirdi. Nəticədə elm mövcud texniki inkişaf səviyyəsinə nəzərən xeyli qabağa getdiyindən onun qoyduğu problemlərlə gerçək tələbat və real texniki imkan arasında böyük uçurum yaranırdı. Kimyam əlkimya, astronomiyanı astrologiya əvəz edirdi. Nəzəri fikrin məhsulları praktikadan qidalanmır, praktikada yoxlana bilmirdi. Nəzəri təbiətşünaslıq öz dövrünə görə elə yüksək səviyyəyə çatmışdı ki, Nəsirəddin Tusi hesablamalar əsasında Amerika qitəsini kəşf edə bilərdi, amma onu əməli olaraq kəşf etmək üçün müvafiq texniki inkişaf səviyyəsi və dünyəvi işgüzarlıq atmosferi yox idi. Mövcud təfəkkür tərzinə müvafiq olaraq buna bəlkə heç maraq da göstərilmirdi.

**Nəimi** (əsl adı Şəhabəddin Fəzlullah Təbrizi Astrabadi, təqr. 1339/1340—təqr. 1393/1394)—Azərbaycan mütəfəkkiri və şairi. Yaxın və Orta Şərqdə şöhrət qazanmış, yaradıcılığının ilk dövrlərində mütərəqqi sufilik mövqeyində durmuş, sonra hürufilik təriqətinin əsasını qoymuşdur. Buna görə də Nəimi Şərqdə «əl-Hürufi» adı ilə də məşhurdur. Nəimi hürufiliyin nəzəri əsaslarını «Cavidani-Səcir», «Məhəbbətnamə», «Ərşnamə», «Nohinamə» əsərlərində və «Divan»ında şərh etmişdir. Hürufilikdə, Allah eyni zamanda söz-kəlam şəklində təcəssüm edilir, sözlər isə hərflər vasitəsilə ifadə olunur. Nəimiyə görə ərəb əlifbasındakı 28 və fars əlifbasindakı 32 hərf məhəbbət və gözəlliyin əsasıdır.

Burada biz «təmənnasız elm», dünyəvi məqsədlərdən uzaq olan elm ideyası ilə qarşılaşırıq. Belə ideya bizim dövrün təfəkkür tərzinə, elmə olan utilitar-praktik münasibətə uyğun gəlməsə də, ayrı-ayrı alimlər tərəfindən bəzən indi də irəli sürülür. XX əsrin elmi korifeylərindən biri olan A.Eynşteyn əsl elm adamını belə səciyyələndirir: «Elm məbədi mürəkkəb

quruluşa malikdir. Buraya gələn adamlar da, onları bura gətirən mənəvi qüvvələr də müxtəlifdir. Bəziləri elmlə intellektual üstünlük hissinin təsiri ilə məşğul olurlar. Bu mənada elm idman kimidir, hansı sahədə üstünlüyün üzə çıxmasına, şöhrətə xidmət edir. Başqaları isə öz fikirlərinin məhsullarını utilitar məqsədlərə həsr edirlər. Əgər Allahın göndərdiyi mələk hər iki kateqoriyaya mənsub adamları məbəddən uzaqlaşdırsa idi, onda məbəd tamamilə boşalmış olardı. Lakin burada yenə də tək-tük adam qalmış olardı. Bunlar həmin o adamlardır ki, onlarsız elm məbədi mövcud yüksəkliyə qalxa bilməzdi. Onlar maddi dünyanın cari qayğılarından uzaqlaşaraq elm məbədinə tam təmənnasız gəlmiş adamlardır".

A.Eynşteynin göstərdiyi hər cür kateqoriyanın nümayəndələrinə elm aləmində indi də rast gəlmək mümkündür. Lakin müasir dövrün hakim təfəkkür tərzi elədir ki, böyük əksəriyyəti məhz ikinci kateqoriyadan olan alimlər tutur. Antik dövrdə, heç şübhəsiz, birinci, orta əsr Şərqində isə üçüncü kateqoriyadan olan alimlər əksəriyyət təşkil edirdilər.

Antik dövrdə insanların fiziki imkanları ilə yanaşı, əqli imkanları da bir növ yarış obyektinə çevrilmişdi. Lakin bəzən bir-birindən ayrılır, ya yalnız fiziki qabiliyyətlərə, ya da yalnız əqli qabiliyyətlərə xüsusi üstünlük verilirdi. Bu bölgü özünün formasını Sparta və Afina məktəblərində tapmışdı.

Qədim Yunanıstanda əqli qabiliyyətləri üzə çıxarmağın, onları müqayisə etməyin xüsusi üsulları da formalaşmışdı. Canlı mübahisə elmin normativləri sırasına daxil olmuşdu. Tamaşaçılar qarşısında fikirlərin toqquşması səhnələri ənənəyə çevrilmişdi.

Lakin antik dövrdə əqli qabiliyyətlərin yarışı elmin yeganə motivi deyildi. Biz həmin dövrün təfəkkür tərzi üçün səciyyəvi olduğuna görə bu cəhəti ön plana çəkirik. Əslində qədim yunan mədəniyyəti elmi fəaliyyətin sonrakı dövrlərində səciyyəvi olan müxtəlif motivlərini ya aşkar şəkildə, ya da rüşeym halında özündə saxlayırdı. Orta əsr Şərqinin hakim təfəkkür tərzi də

antik fəlsəfənin təsirindən kənarda qalmamışdı.

**Sual və tapşırıqlar:**

1. Elm va texnikaya münasibətdə Şərq və Qərb mövqeyini izah edin.
2. İslam dini elmə necə qiymət verir?
3. Azərbaycan mütəfəkkirləri elm və texnika haqqında hansı müdrik fikirləri söyləmişlər?

## §11. Elmlə texnikanın qarşılıqlı nisbəti

Böyük yunan filosofu Pifaqorun apardığı maraqlı bir müqayisədə o dövrdə elmə və fəlsəfəyə münasibət çox gözəl ifadə olunur. Pifaqor adamları məqsəd və fəaliyyətinə görə üç qrupa bölür və onları obrazlı şəkildə səciyyələndirmək üçün Olimpiya oyunlarına gələnlərlə müqayisə edir. Burada bir qisim adamlar öz fiziki imkan və qabiliyyətlərini nümayiş etdirərək yarışırlar. Digərləri buraya ticarət məqsədilə gəlirlər. Uçüncülərsə yalnız müşahidə edirlər. Pifaqora görə, həyatda da belədir. Kimlərsə şöhrətin, kimlərsə var-dövlətin qulu olurlar. Lakin elələri də var ki, yalnız kənardan seyr edirlər və yeganə məqsədləri həqiqəti aşkara çıxarmaqdır. Bu üçüncüləri Pifaqor filosof adlandırır. Burada fəlsəfə həm də «təmənnasız elm» mənasında başa düşülür. Son məqsəd əldə olunan biliklərdən hansı sahədə isə istifadə etmək yox, həqiqətin özüdür. İnsan həqiqətlə qovuşanda mənən saflaşır. Dünyanı, təbiəti dəyişdirmək məqsədini qarşıya qoymasa da, heç olmazsa dünyanın, təbiətin ahəngini dərk edir və bu ahəngə uyğunlaşmaq imkanı əldə edir. Burada qədim yunan materialist-filosofu, Heraklitin məşhur «həmahənglik» prinsipi yada düşür...

Lakin insan hər cür fəaliyyətin subyekti olduğundan dəyişdirilmiş insan mənəviyyatı istər-istəməz dünyanın da dəyişdirilməsinə gətirir. Lakin bu tarixi proses birdən-birə həyata keçmir. Təməli qədim Şərqdə qoyulan antik dövr və orta əsr Şərq təfəkkür tərzinin süzgəcindən keçən bilik-əməl

problemi yeni dövrdə yeni çalarlarla zənginləşərək bir çox müvəffəqiyyətlər qazansa da özünün tam elmi həllini hələ də tapmamışdır. Tarixi vərəqləmək onun dərslərini nəzərə almaq bu problemin həlli üçün mühum şərtdir.

Bütün bu deyilənlərdən sonra bir daha orta əsr Şərqində bilik və əməl probleminin necə həll olunması məsələsinə qayıtsaq görərik ki, məsələnin bu gün düzgün sayılan həlli elmi biliyə üstünlük və müstəqillik verilməsi, o dövr üçün hələ tez idi. Elmin texniki tərəqqini qabaqlaması yalnız XX əsr üçün səciyyəvi olan bir hadisədir və əksər tədqiqatçılar elmi-texniki inqilabın mahiyyətini məhz bununla izah edirlər.

Elmi yalnız mədəni sərvət kimi başa düşmək, ondan heç bir maddi səmərə və tətbiq gözləməmək, ona tam təmənnasız münasibət bəsləmək ayrı-ayrı adamlara xas ola bilər, lakin dövlət belə mövqedən çıxış edə bilməz. Alimə ola bilsin ki, yalnız hikmət, dövlətə isə həm də güc lazımdır.

Şərqin ənənəvi təfəkkür tərzini müasir dövrdə dövlət siyasəti miqyasında təbliğ edən mütəfəkkirlərə hələ də rast gəlmək mümkündür. Görkəmli hind filosofu və siyasi xadimi M.Qandi elmdən maddi qüvvə mənbəyi kimi, texniki tərəqqi naminə istifadə etməyin əleyhdarı olmuşdur. Onun fikrincə, insanlara qüvvət deyil, şəfqət lazımdır. Zorakılığın qarşısını zorakılıqla almaq mümkün deyil.

Lakin bəşər tarixi, həyat təcrübəsi göstərir ki, zorakılığa qarşı düzgün mübarizə apara bilmək üçün də güclü olmaq lazımdır. XX əsrin böyük mütəfəkkir şairi H.Cavid ənənəvi Şərq fəlsəfəsini real həyat mövqeyindən nəzərdən keçirərək zorakılıq ideyası ilə yanaşı maddi təməldən ayrılmış həqiqət ideyasını da tənqid etmiş, bütün yaradıcılığı boyu kitabla qılıncın, həqiqətlə gücün vəhdəti ideyasını bədii şəkildə tərənnüm etmişdir. Ən başlıcası isə H.Cavid yaradıcılığında bu ideya orta əsrlər üçün səciyyəvi olan fərdi bilik vəhdəti ideyasından fərqli olaraq bir şəxs miqyasından kənara çıxaraq, ictimai qrup, xalq, ölkə miqyasında irəli sürülür.

Elə hadisələr vardır ki, onlar yalnız böyük miqyasda həyata keçirilir. Sənət əsərləri çox vaxt fərdi yaradıcılığın məhsulu olduğu halda, elm-ümumcəmiyyət hadisəsidir. Elmdən praktikada istifadə edilməsi də ancaq böyük ictimai miqyaslarda həyata keçirilə bilər. Müasir cəmiyyətdə elm yalnız dövlət səviyyəsinə yüksəldikdə real qüvvəyə çevrilir. Ona görə elm adamının nisbi müstəqilliyini və şəxsiyyət bütövlüyünü təmin etmək də müvafiq dövlət siyasəti tələb edir.

Sənətkarla onun əsərinin «istehlakı», mənimsənilməsi arasındakı sosial məsafə nisbətən qısadır, ona görə də sənət adamının sərbəstlik dərəcəsi nisbətən yüksəkdir. Elm, texnika və təhsil sahələrində isə bu məsafə böyük olduğundan burada ciddi sosial-mənəvi problemlər ortaya çıxır.

Bu gün elmi-texniki tərəqqisahəsindəki nailiyyətləri ilə bütün dünyanı heyrətləndirən Yaponiya Şərq və Qərb düşüncə tərzinin üzvi surətdə birləşməsinə nail olan, əsrlər boyu formalaşmış əxlaq-məişət ənənələrini istehsalatda uğurla tətbiq edə bilən yeganə ölkədir. Dövlətin iqtisadi siyasəti ilə xalqın ənənəvi təfəkkür tərzi arasındakı ziddiyyət minimuma endirilmişdir.

Elm qlobal hadisədir. Hər yerdə, hamı üçün vahid bir elm var. İstehsal müəssisələri isə konkretdir, özünəməxsus xüsusi şəraitə malikdir. Burada sosial mühit də, mənəvi iqlim də özünəməxsus ola bilər. Deməli, elmin praktik tətbiqi hadisəsi hansı pillədə isə yenidən cəmiyyət miqyasından fərdi miqyasa enir, fərdin düşüncə tərzi, biliyi, fiziki imkanları, əməli iş qabiliyyəti ilə səciyyələnir.

Elmi-texniki tərəqqi insandan başlanır, insanla da qurtarır. İstər-istəməz ortaya belə bir sual çıxır ki, bu prosesin başlanğıcında və sonundakı insanlar bir-birindən nə ilə və necə fərqlənirlər? Bunlardan hansı elmi-texniki tərəqqinin təsirinə daha çox məruz qalır? Bu prosesdə iştirak edənlər nə qazanır və nə itirirlər?

Elmi-texniki tərəqqi prosesində insan öz fiziki və əqli

qabiliyyətini həm bilavasitə, həm də süni vasitələrlə təkmilləşdirmək imkanı əldə edir. Əgər təbiət qüvvələrindən istifadə insanın maddi güc və qüdrətini artırırsa, müasir kibernetikanın nailiyyətləri insanın intellektual imkanlarını genişləndirir. Hər iki qabiliyyətin sayəsində insanın əməli iş imkanları da artır və obyektiv gerçəkliyi, təbiəti məqsədəuyğun surətdə dəyişdirmək üçün daha böyük perspektivlər açılır.

# CƏMİYYƏTİN İQTİSADİ HƏYATI

## §12. İnsanların iqtisadi fəaliyyəti və onun təkamülü

İnsanların iqtisadi fəaliyyəti. Məlumdur ki, insanların fəaliyyət sahələri çoxşaxəlidir. Cəmiyyət həyatında insanların iqtisadi fəaliyyəti mühüm yer tutur. O, insanların maddi tələbatlarının ödənilməsinə yönəldilən maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı ilə bağlı fəaliyyət növlərini əhatə edir.

Cəmiyyətdə iqtisadi fəaliyyət dairəsinin formalaşması uzun bir tarixi inkişaf yolu keçmişdir.

İbtidai insanlar özlərinin ən zəruri maddi tələbatlarım ödəmək məqsədilə təbiətin məhsullarını mənimsəyirdilər. Bu məqsədlə onlar daş və ağac alətlər hazırlayır və istifadə edirdilər. Məhz buna görə də əmək alətlərinin düzəldilməsi və istifadə edilməsini cəmiyyətin iqtisadi fəaliyyətinin başlanğıcı kimi qiymətləndirmək lazımdır. Əmək alətlərinin hazırlanması və istifadəsilə bir zamanda cəmiyyətin iqtisadi fəaliyyət dairəsi də formalaşmağa başlayır. Həmin fəaliyyət növü bəsit əmək alətlərinin hazırlanması ilə yanaşı onların ibtidai icma üzvləri arasında bölgüsü və istifadəsini də əhatə edir.

**Mülkiyyət münasibətləri.** İbtidai icmalarda istehsalın meydana gəlməsi mülkiyyət münasibətlərinin də yaranması

deməkdir, çünki mülkiyyət münasibətləri insanların istehsal vasitələrini və istehlak şeylərini mənimsəmələrini səciyyələndirən münasibətlər sistemidir. Mənimsəmənin məzmununa müvafiq olaraq mülkiyyətin xüsusi və ictimai növləri vardır. Mülkiyyət istehsal vasitəsilə reallaşdırılır. Eyni zamanda mülkiyyət münasibətləri bölgü və istehlakm xarakterini də müəyyən edir.

İbtidai icmalarda məhsulun bölgüsü və istehlakın sosial əsasını əmək alətlərinin bütünlükdə icma üzvlərinə məxsus olması təşkil edirdi. Burada istehsal olunmuş məhsul üzərində icmanın kollektiv mülkiyyəti mövcud idi. İlk ustalar tərəfindən hazırlanmış əmək alətləri icmanın digər üzvləri arasında bölüşdürülürdüsə, ovçuların, yabanı bitki və meyvə toplayanların birgə əməyinin məhsulu da bütün icma üzvlərinə, o cümlədən əmək aləti hazırlayan ustalara da verilirdi.

**Əmək bölgüsü və insanların iqtisadi fəaliyyətinin təkamülü.** Cəmiyyətin inkişafının sonrakı dövrlərində insanların iqtisadi fəaliyyəti məzmunca zənginləşir. Əmək alətləri təkmilləşir, insanlar təbiətdə rast gəldikləri məhsulları istehsal etmək üsullarına yiyələnirlər. Hələ əvvəldən mövcud olan təbii əmək bölgüsünə (qadınlar-kişilər, yaşlılar-cavanlar və s.) əlavə olaraq, cəmiyyətdə ictimai əmək bölgüsü meydana gəlir–ictimai istehsal müxtəlif növlərə bölünməyə başlayır. Belə hesab edilir ki, ilk böyük ictimai əmək bölgüsü maldar tayfalarının əkinçi tayfalarından ayrılması olmuşdur. Bu bölgü nəticəsində heyvandarlıq və əkinçilik istehsalın iki müstəqil bölməsi kimi fəaliyyət göstərməyə başlayır. Daha sonra isə ikinci böyük əmək bölgüsü nəticəsində sənətkarlıq əkinçilikdən ayrılır.

Cəmiyyətdə əmək bölgüsünün meydana gəlmədi insanların əmək məhsuldarlığının yüksəlməsinə səbəb olmuşdur. Əməyin məhsuldarlığının artması istehsalda baş verən ixtisaslaşma ilə də bağlı idi. İstehsalçı (maldar, əkinçi, sənətkar) məhdud sahədə işlədiyinə görə əməyi daha səmərəli olur. Lakin onların hər biri

başqasının istehsal etdiyi məhsula da ehtiyac duyduğundan maddi tələbatlarını ödəmək məqsədilə onların öz məhsullarını bir-birilə mübadilə etmək zərurəti meydana çıxır. Məhsulların bir hissəsi əmtəə kimi, yəni bilavasitə istehsalçıların öz tələbatlarını ödəmək üçün deyil, satış üçün, başqa məhsullara mübadilə etmək üçün istehsal olunur. Beləliklə, insanların iqtisadi fəaliyyətinin yeni sahəsi olan mübadilə inkişaf etməyə başlayır. Ticarət iqtisadi fəaliyyət sahəsi kimi formalaşır.

Mübadilənin meydana gəlməsi müxtəlif növ məhsul istehsal edən insanlar arasında qarşılıqlı əlaqələrin yaranmasına və inkişaf etməsinə səbəb olur. Bunun nəticəsində cəmiyyət miqyasında insanların iqtisadi fəaliyyəti daxilən yeni keyfiyyətlər kəsb etməyə başlayır. İstehsalla məşğul olanların hamısı bir-birindən az və ya çox dərəcədə asılı olan subyektlərə çevrilirlər.

İctimai əmək bölgüsünün inkişafı həm də bu və ya digər məhsul istehsalının daha əlverişli ərazilərdə cəmləşdirilməsini tələb edir. Belə bir şəraitdə məhsulları mübadilə etmək üçün yerli bazarlarla yanaşı məhəlli bazarlar da formalaşır. Nəticədə məskunlaşmış müxtəlif ərazilər arasında iqtisadi əlaqələrin genişlənməsinə zəruri tələbat yaranır. İqtisadi əlaqələr şəbəkəsinin genişlənməsi cəmiyyətdə nəqliyyatın meydana gəlməsinə və inkişafına təkan verir, insanların iqtisadi fəaliyyətinin müstəqil sahəsinə çevrilən nəqliyyat mühüm rol oynamağa başlayır.

Cəmiyyətin inkişafının sonrakı mərhələlərində insanların iqtisadi fəaliyyətinin yeni-yeni sahələri meydana gəlməklə yanaşı məhsuldar qüvvələrin ardıcıl surətdə təkmilləşdirilməsi baş verir. Maddi istehsalın təkmilləşdirilməsi zərurəti elmin inkişafını, onun istehsala tətbiqini irəli sürür. İstehsalın maddi-texniki əsaslarında irəliləyişlər baş verir. Əmək məhsuldarlığının yüksəldilməsi üçün sənətkar texnikasından prinsipcə fərqlənən texnikanın yaradılması və istifadəsinə ehtiyac yaranır. Maşınlı istehsala keçidlə əlaqədar dərin texniki

və texnoloji çevriliş hazırlanır.

Maşınlı sənayenin meydana gəlməsi və inkişafı cəmiyyətdə əmək bölgüsünün sürətlə dərinləşməsinə səbəb olmuşdur. İstehsalın, xüsusən sənaye istehsalının yeni sahələri meydana gəlmişdir. Bu proses elmi-texniki tərəqqi nəticəsində daha da sürətlənir. Texniki tərəqqi yeni istehsal sahələri yaradır, istehsal müəssisələrini artırır, onlar arasındakı iqtisadi əlaqələrin məzmun və xarakterinə yeni keyfiyyətlər gətirir.

Elmi-texniki tərəqqi eyni zamanda insanların iqtisadi fəaliyyətinin digər sahələrində də dərin dəyişikliklərə səbəb olur. İstehsalın inkişafı ilə yanaşı ona xidmət edən sahələr (nəqliyyat, rabitə, informatika, bank-maliyyə sistemi) də genişlənir. Həm də bu sahələrin inkişaf sürəti bilavasitə maddi istehsalın inkişaf sürətini qabaqlayır. Əvvəlki tarixi dövrlərdə əhalinin çox hissəsi bilavasitə maddi istehsal sahələrində məşğul olurdu. İqtisadi fəaliyyətin tərəqqisi gedişində xidmət sahəsində çalışan adamların xüsusi çəkisi yüksələn xətlə artır.

İstehsal və digər fəaliyyət sahələrinin tərəqqisi cəmiyyətdə mülkiyyət münasibətlərinin inkişafı ilə qarşılıqlı əlaqədə baş verir. Bununla əlaqədar olaraq insanların iqtisadi fəaliyyətinin təşkili, onun bütün tərəflərinin tənzimlənməsi mexanizmi də müvafiq dəyişikliklərə rnəruz qalır.

Söylədiklərimizdən aydın olur ki, cəmiyyətin iqtisadi fəaliyyətinin inkişafı istehsal sahələrinin həcmcə genişlənməsi ilə səciyyələnir, iqtisadi fəaliyyət şaxələnərək yeni məzmun alır, iqtisadi fəaliyyət sahələri arasında qarşılıqlı münasibət yaranır, nəhayət, iqtisadi fəaliyyət sahələri arasında əlaqələrin çoxalması və onların dinamikliyi cəmiyyətdə vahid iqtisadi sistemin, vahid iqtisadi orqanizmin yaranması ilə nəticələnir.

**Suallar və tapşırıqlar:**

1. İnsanların iqtisadi fəaliyyəti dedikdə nəyi başa düşürsünüz?
2. İctimai əmək bölgüsünün insanların iqtisadi fəaliyyətinin inkişafına təsirini aydınlaşdırın.

3. Əmtəə nədir?

## §13. İqtisadiyyat anlayışı. İqtisadi resurslar

İqtisadiyyat anlayışı. İnsanın yaşaması, yəni cəmiyyətin mövcud olması üçün insan, ilk növbədə, özünü yaşayış vasitələri ilə təmin etməlidir. Bu məqsədə yönəlmiş sahələr, yəni maddi nemətlərin və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi, istehlakı ilə bağlı fəaliyyət sahələri iqtisadiyyata daxildir.



**Hüseynov** Heydər Nəcəf oğlu. (1908, indiki Yerevan şəhəri–1950, Bakı) — Azərbaycan filosofu, Azərbaycan EA akademiki, ictimai xadim. Fəlsəfə və fəlsəfə tarixinə dair əsərlərin müəllifidir.

H.Hüseynov Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir.. 1939-cu ildən Bəhmənyar, N.Gəncəvi, M.Füzuli, A.Bakıxanov, Kazımbəy, M.F.Axundov, H.Zərdabi və b. haqqında tədqiqat aparmışdır. «XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» (1949) əsərində Azərbaycan xalqının fəlsəfi və ictimai-siyasi fikrinin əsas inkişaf mərhələləri müəyyənləşdirilmiş, M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundov və başqalarının dünya görüşü səciyyələndirilmişdir. Onun ədəbiyyatşünaslığa dair də əsərləri vardır. («Ədəbi qeydlər», «Vətənpərvər şair S.Vurğun» kitabçaları, C.Cabbarlı və b. haqqında məqalələri).

H.Hüseynov «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi»nin redaktorlarından biri, rusca-azərbaycanca, azərbaycanca-rusca

lüğətlərin redaktoru idi.

«İqtisadiyyat» sözü əsasən, iki mənada işlədilir: birinci mənada «iqtisadiyyat» (yunanca, ev təsərrüfatının idarə olunması mənasımı verən «oikonomia» sözündən əmələ gəlmişdir) dedikdə, ilk növbədə cəmiyyəti zəruri nemətlər və xidmətlərlə təmin edən təsərrüfat sahələrinin toplusu başa düşülür. İqtisadiyyatın bütün sahələri bir-birilə əlaqəli şəkildə fəaliyyət göstərir. Onlar birlikdə ölkənin vahid təsərrüfat orqanizmini təşkil edirlər..

İkinci mənada «iqtisadiyyat» dedikdə cəmiyyətin, iqtisadi həyatını öyrənən elm sahəsi başa düşülür.. Bu mənada iqtisadiyyat bilik sahəsidir. İnsanlar «iqtisadi varlıq nədir?" sualı üzərində hələ qədim zamanlardan düşünməyə başlamışlar. Əmək bölgüsünün, ticarətin meydana gəlməsi ilə insanların bu sahədəki bilikləri yığcam xarakter almışdır. Hələ yunan filosofu Aristotelin əsərlərində pul, dəyər kimi anlayışların nisbətən bitkin izahı verilmişdir. «Oikonomia» sözünü elmə ilk dəfə Aristotel daxil etmişdir. Müasir iqtisad elmi geniş şaxələrə malikdir. Onun tərkibində iqtisadi nəzəriyyəni, ayrı-ayrı sahələrin iqtisadiyyatını və iqtisadi inkişafın funksional cəhətlərini öyrənən bölmələr mövcuddur.

İqtisadi resurslar və onlardan istifadə. İnsanlar öz maddi tələbatlarını ödəyən məhsulların və xidmətlərin–ərzağın, geyimin, mənzilin və s.-in istehsalı üçün özlərinin fiziki və əqli qabiliyyətlərindən, onları əhatə edən maddi sərvətlərdən istifadə edirlər. Maddi nemətlərin və xidmətlərin istehsalı üçün istifadə edilən insan resursları, təbii resurslar və adamlar tərəfindən istehsal olunmuş resurslar iqtisadi resursları təşkil edirlər. Bunların tərkibinə əmək qabiliyyətli insanlar (iş qüvvəsi), binalar, qurğular, maşınlar, avadanlıqlar, əmək alətləri, nəqliyyat və rabitə vasitələri, torpaq, faydalı qazıntılar və s_. daxildir.

İqtisadi resurslar iki yerə bölünür: maddi resurslar və insan resursları.

Maddi resursların tərkibində təbii resursları və istehsal olunmuş istehsal vasitələrini, yaxud da kapitalı-fərqləndirmək lazımdır. Təbii resurslara istehsal prosesində istifadə edilən təbii sərvətlər–torpaq, meşə, mineral ehtiyatlar, su və s. aid edilir. İstehsal olunmuş istehsal vasitələrinə isə insanlar tərəfindən yaradılmış, əmtəələrin və xidmətlərin istehsalı və istehlakçılara çatdırılmasında tətbiq edilən resurslar aiddir. Onlara kapital da deyilir.

İstehsal vasitələri əmək vasitələrinə və əmək cisimlərinə bölünür. Maddi nemətlər istehsal etmək üçün insanlar əmək vasitələrilə əmək cisimlərinə təsir edirlər. Əmək vasitələrinə əmək alətləri–maşınlar, dəzgahlar, alətlər və əmək prosesinin ümumi maddi şərtləri–istehsal binaları və qurğular, yollar, kanallar, nəqliyyat vasitələri, rabitə kanalları, torpaq daxil edilir. İstehsal vasitələrinin inkişaf səviyyəsi texniki tərəqqinin mühüm göstəricisidir. Buna görə də bəşəriyyətin inkişaf mərhələləri insanların nə istehsal etmələri ilə yox, nə ilə və necə istehsal etmələri ilə (yəni hansı əmək alətləri vasitəsilə) müəyyən edilir.

Əmək cisimləri insanların əmək prosesində təsir göstərdikləri bütün təbiət Maddələri və əşyalarıdır. Əmək cisimləri gələcək məhsulun maddi əsasım təşkil edir. Bunlara xammal, material, yanacaq, enerji aiddir. Müasir elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi sayəsində təbiətdə rast gəlinməyən yeni əmək cisimləri yaratmaq mümkün olur.

Əmək vasitələri və əmək cisimlərinin məcmusu istehsalın maddi amilini təşkil edir.

İnsan resurslarına (bunlara istehsalın şəxsi amili də deyilir) iş qüvvəsi və sahibkarlıq qabiliyyəti daxildir. İş qüvvəsi insanların maddi nemətlərin və xidmətlərin istehsalında tətbiq etdikləri fiziki və ruhi qabiliyyətlərinin məcmusudur. İş qüvvəsi əmək prosesində, habelə təhsil sistemində işçinin öz ixtisasını yüksəltməsi nəticəsində inkişaf edir. İş qüvvəsinin sərfi–əmək prosesidir. Əmək düşünülmüş, məqsədəuyğun proses kimi ancaq insanlara məxşusdür.

İqtisadi resursların tərkib hissəsi kimi sahibkarlıq qabiliyyətini də ayırmaq məqsədəuyğundur. Sahibkar maddi məhsul yaradılması üçün istehsal resurslarının birləşdirilməsi təşəbbüsünü öz üzərinə götürməklə, istehsalın hərəkətverici qüvvəsi kimi çıxış edir.

**İqtisadi resursların nisbi məhdudluğu.** Cəmiyyətin inkişafı prosesində onun maddi tələbatları daim artır. Bu da əslində istehsalın inkişafını şərtləndirən başlıca amildir. Ümumiyyətlə, istehsalla tələbat arasındakı ziddiyyət və onun həlli cəmiyyətin inkişafının təyinedici amilidir. Lakin ictiimai inkişafın hər bir mərhələsində iqtisadi resursların nisbi məhdudluğu tələbatları tam şəkildə ödəməyə imkan vermir. Bir qayda olaraq, cəmiyyətin maddi tələbatlarının cəmi bütün mövcud iqtisadi resursların istehsal imkanlarından çox olur. Bununla əlaqədar olaraq iqtisadi sahədə başlıca vəzifə insanların maddi tələbatlarının maksimum ödənilməsinə nail olmaq məqsədilə istehsal resurslarından səmərəli istifadə yollarını tapıb istifadə etməkdir. İqtisadi elmlər də bu vəzifənin həlli yollarını araşdırır.

**Sual və tapşırıqlar:**

1. İqtisadiyyat nədir?
2. İqtisadi resurslara nələr daxildir?
3. İqtisadi resurslardan necə istifadə edilməlidir?
4. İstehsal vasitələrinə nə daxildir?
5. Sahibkarlıq qabiliyyətini izah edin.

## §14. İqtisadi sistemlər

İqtisadi sistem anlayışı. İqtisadiyyatın bütün vəsilələri bir-birilə qarşılıqlı əlaqə və asılılıq şəraitində fəaliyyət göstərir. Hər bir ölkənin iqtisadiyyatı bütöv sistem təşkil edir. Bu o deməkdir ki, iqtisadiyyatın bütün ünsürləri bir-birilə vəhdətdədir. İqtisadiyyat mürəkkəb bir sistemdir, onun tərkib elementlərinə istehsal, bölgü, mübadilə və istehlak daxildir. Göründüyü kimi

bu sistemin girişini maddi və mənəvi resurslar, bu resurslara nəzərən formalaşan iqtisadi münasibətlər təşkil edir. Sistemin çıxışını isə yekun maddi məhsul və xidmət, onların istehlakı təşkil edir. İqtisadi sistemlər idarə olunan sistemlər sırasına daxildir. İqtisadiyyatın inkişafının məqsədini formalaşdırmaq və bu məqsədə mail olmağın yollarını müəyyənləşdirmək mümkündür. Bu isə deməkdir ki, həmin məqsədi gerçək surətdə həyata keçirmək üçün iqtisadiyyat tənzimlənməlidir.

İqtisadi sistem cəmiyyətin sosial-iqtisadi sisteminin tərkib hissəsidir. Ölkənin iqtisadi sistemində üç səviyyəni fərqləndirmək lazımdır: ailə iqtisadiyyatı, firma iqtisadiyyatı və milli iqtisadiyyat. Hər bir ölkənin tam və vəhdət halında götürülən iqtisadiyyatına onun xalq təsərrüfatı da deyilir.

İqtisadi sistemin tipləri. Daxili struktur ünsürlərinin xarakterinə, onlar arasındakı əlaqələrin xüsusiyyətlərinə və bu ünsürlərin fəaliyyət mexanizminə görə iqtisadi sistemlər müxtəlif tiplərə bölünür. İstehsal vasitələri üzərində mülkiyyətin formasına, iqtisadi fəaliyyətin əlaqələndirilməsi və idarə edilməsi üsuluna və işləmə mexanizminə görə iqtisadi sistemlər sərbəst bazar iqtisadiyyatı, mərkəzləşdirilmiş inzibati komanda iqtisadiyyatı, qarışıq iqtisadiyyat və ənənəvi iqtisadiyyat tiplərinə ayrılır.

Sərbəst bazar iqtisadiyyatı. İqtisadi sistemin bu tipi əsasən istehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanır. Cəmiyyətdə ayrı-ayrı istehsal subyektləri arasında iqtisadi fəaliyyətin əlaqələndirilməsi sərbəst bazar mexanizmi vasitəsilə həyata keçirilir. Azad bazar, həm istehsal resurslarının, həm də əmtəə və xidmətlərin sərbəst tədavülünü, kapitalın iqtisadiyyatın müxtəlif sahələri üzrə yerləşməsi və axınını təmin edir.

Sərbəst bazar iqtisadiyyatı əmtəə-pul münasibətlərinin təşəkkül tapdığı dövrlərdən formalaşmağa başlamışdır. Bu sistemin fəaliyyətində və tənzimlənməsində dövlətin rolu məhdud sahələri əhatə etdiyindən həlledici olmur.

Mərkəzləşmiş inzibati komanda iqtisadiyyatı. Bu sistemdə

istehsal vasitələrinin əsas hissəsi üzərində ictimai mülkiyyət hakim olur. İqtisadiyyatdakı əlaqələr direktiv qaydada mərkəzləşdirilmiş planlaşdırma vasitəsilə tənzim olunur. İqtisadi sistemin hərəkətinin ilkin nöqtəsini istehsal fəaliyyətinin təşkilk üzrə dövlət qərarları və planları təşkil edir.

Komanda iqtisadiyyatı şəraitində istehsal vasitələri bir mülkiyyətçinin–dövlətin əlində olduğundan məhsulların bazar vasitəsilə mübadiləsi mümkün olmur. Bu sistem öz-özünü tənzimləmə mexanizminə malik deyildir. O, müəssisələrin işinin bütün tərəflərinə direktiv göstərişlərlə müdaxilə edən güclü bürokratik aparatın yaradılması şəraitində fəaliyyət göstərir. Komanda iqtisadiyyatı keçmiş SSRİ-də, vaxtilə sosializm sisteminə daxil olan ölkələrdə mövcud idi.

Qarışıq iqtisadiyyat. İqtisadi sistemin bu tipi istehsal vasitələrinin əsas hissəsi üzərində mülkiyyət formalarının müxtəlifliyinə əsaslanır. Cəmiyyətin iqtisadi fəaliyyətinin əlaqələndirilməsi və tənzimlənməsi işində sərbəst bazar mexanizmilə dövlət mexanizmi uzlaşdırılır.

Qarışıq iqtisadiyyat yuxarıda göstərilən digər iqtisadi sistemlərin hər ikisinin fəaliyyət mexanizmində olan üstün cəhətlərə istinad edir. O, müasir cəmiyyətin mürəkkəb iqtisadi, sosial və ekoloji problemlərini düzgün həll etməyə imkan verən yeni bir sistem kimi çıxış edir. İqtisadi sistemin bu tipi orta və yüksək səviyyədə inkişaf etmiş Ölkələrdə formalaşmışdır. Ölkələrin konkret xüsusiyyətlərindən asılı olaraq qarışıq iqtisadiyyatın müxtəlif modelləri mövcuddur.

Ənənəvi iqtisadiyyat. Bu sistemdə iqtisadi həyatın təşkili formalarını ölkədə tarixən qərarlaşmış ənənə və adətlər müəyyən edir. İstehsal texnikası, resurslardan istifadə, gəlirlərin bölüşdürülməsi qaydaları zamanın sınağından çıxmış adətlərə əsaslanır. Hazırda ənənəvi iqtisadiyyat sistemi bir çox zəif inkişaf etmiş ölkələrdə mövcuddur.

## Müasir şəraitdə Azərbaycanda yeni iqtisadi sistemin formalaşması xüsusiyyətləri.

SSRİ-nin tərkibində olduğumuz 70 il ərzində Azərbaycanda da inzibati komanda iqtisadiyyatı mövcud olmuşdur. Azərbaycan ümumi mərkəzi iqtisadiyyatın bir halqası olduğundan onun sənayesi və kənd təsərrüfatı birsahəli olmuş, sahələr arasında ahəngdarlıq pozulmuş, respublikamız əsasən xammal mənbəyinə çevrilmişdi. Bu vəziyyəti aradan qaldırmaq və nizamla işləyən iqtisadiyyat yaratmaq üçün yeni demokratik cəmiyyət quruculuğu prosesində səmərəli qarışıq iqtisadiyyat sistemi formalaşdırılmalıdır. Bu problemin müvəffəqiyyətli həlli üçün ilk növbədə dövlət mülkiyyətinin geniş miqyasda özəlləşdirilməsi, iqtisadiyyatın idarə edilməsi sisteminin yenidən qurulması zəruridir.

Ölkənin iqtisadi sisteminin modeli onun təbii sərvət potensialını, tarixi təsərrüfat ənənələrini, demoqrafik xüsusiyyətləri və digər əsas amilləri nəzərə almaqla yaradılmalıdır. Azərbaycanda qarışıq iqtisadiyyat sisteminin xarakterik cəhətləri əhəmiyyətli dərəcədə onun formalaşmasının ilkin şəraiti ilə şərtləndiriləcəkdir. İstehsal vasitələrinin tam dövlət mülkiyyətində olduğu indiki vəziyyətdən qarışıq iqtisadiyyat sisteminə, mülkiyyət formalarının müxtəlifliyinə keçid tədricən və müəyyən mərhələlərlə həyata keçirilməlidir. Qərarlaşmış şəraitdə Azərbaycanın iqtisadi sistemində dövlət bölməsinin rolu xeyli müddət yüksək olacaqdır. Dövlətin tənzimləyici funksiyaları daha çox iqtisadiyyatda azad sahibkarlıq bölməsinin təşəkkül və inkişafı vəzifələrinə yönəldilməlidir.

## §15. Bazar və bazar iqtisadiyyatı

Bazarın iqtisadi mahiyyəti. Cəmiyyətin iqtisadi sistemi çox sayda subyektləri əhatə edir. İqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün həmin subyektlər arasında əlaqələr nizama salınmalıdır. Müasir iqtisadi sistemlərdə belə nizamlayıcı funksiyasını bazar mexanizmi həyata keçirir.

Bəs bazar nədir? Ən ümumi şəkildə desək, bazar, konkret məhsulun və ya xidmətin istehsalçıları ilə istehlakçıları, alıcıları ilə satıcıları arasında əlaqə yaradan, onları ortaq vahidə gətirən mexanizm və ya təsisatdır. Bazar alqı-satqı yeridir. Bazarı bizə yaxşı tanış olan kolxoz bazarları ilə eyniləşdirmək düzgün olmaz. Bazar münasibətləri istehsalın, mübadilənin, bölgünün və istehlakın bütün pillə və səviyyələrini tənzimləyən münasibətlər sistemidir. Eyni zamanda bu münasibətlər kiçik ticarət köşkündən tutmuş iri universal mağazalara, supermarketlərə, birjalara, auksionlaradək müxtəlif qurumları da əhatə edir. Bazarların fəaliyyət dairəsi müəyyən rayonu, şəhəri, bölgəni, bütünlükdə ölkəni və hətta dünyanı da əhatə edə bilər.

Bazar münasibətlərini səciyyələndirən cəhətlər iqtisadiyyatda bütün şəxsi asılılıq formalarının dağıdılması, sahibkarlıq sahəsində tam azadlığın təmin edilməsi, hər kəsin fəaliyyətini öz mənafeyinə uyğun qurmasıdır.

Bazar iqtisadiyyatı, təkcə bazarla və ya iqtisadiy- yatdakı bazarların riyazi cəmi ilə eyniləşdirilə bilməz. Bazar iqtisadiyyatı iqtisadi sistemin bütünlükdə bazar prinsipləri, bazar qanunları, bVızar mexanizmi əsasında qurulmasıdır.

Necə olur ki, bazar iqtisadiyyatı tənzimləyə bilir? Bu funksiya bazar mexanizmi vasitəsilə yerinə yetirilir. Həmin mexanizmin əsas elementləri bazar qiymətləri, tələb və təklifdir.

Qiymət məhsul və ya xidmət vahidi üçün verilən— ödənilən və alınan pulun miqdarıdır. Bazar qiymətlərinə istinad etməklə istehsalçılar və istehlakçılar iqtisadi sahədə müəyyən qərarlar qəbul edirlər. Qiymət siqnalları vasitəsilə iqtisadi agentlər

istehlakçıların tələbatlarını və istehsalçıların maddi və texniki imkanlarını öyrənirlər. Bazar qiymətlərinin hərəkəti öz. növbəsində **tələb** və **təklifin** nisbətilə bağlıdır.

**Tələb** məhsula və ya xidmətə pulla təmin olunmuş ehtiyacın həcmidir. Tələb istehlakçının almağa imkanı olduğu məhsulun miqdarını ifadə edir. Tələbin kəmiyyəti məhsulun qiymətilə tərs mütənasibdir. Azad bazar rəqabətində hər hansı məhsulun qiymətinin aşağı düşməsi həmin məhsula olan tələbin kəmiyyətinin artmasına səbəb olur və əksinə. Məsələn, bazarda almanın qiyməti yüksəldikcə təbii olaraq, bir tərəfdən, almaq imkanı olan alıcıların sayı məhdudlaşır, digər tərəfdən, hər bir alıcı nisbətən az miqdarda alma almağa meyl göstərir. Nəticədə tələb aşağı düşür. Qiymətlə tələb arasındakı bu asılılığı qrafiklə də ifadə etməsək olar. Əgər ordinat oxu üzərində məhsulun qiymətini, absis oxu üzərində isə tələbin kəmiyyətini göstərsək aşağıdakı kimi tələb əyrisi almar (1-ci qrafik).



Təklif bazarda mövcud ol;. məhsulun və ya xidmətlərin kəmiyyətidir. Başqa sözlə, təklif istehsalçıların istehsal edib bazarda satmağa çıxardıqları məhsulun miqdarını ifadə edir. Azad rəqabət şəraitində təklifin həcmi məhsulun qiymətilə düz mütənasibdir. Qiymətlər yüksəldikcə təklif—istehsalçıların satmaq üçün bazara çıxardıqları məhsulun həcmi də artır və əksinə. Əgər ordinat oxu üzərində məhsulun qiymətini, absis oxu üzərində isə təklifin kəmiyyətini işarə etsök, təklifin aşağıdakı qrafik təsvirini alarıq (2-ci qrafik).




Aydındır ki, bazarda istehlakçılar məhsulu daha ucuz qiymətə almağa, istehsalçılar isə əksinə, daha baha qiymətə satmağa çalışırlar. Lakin bütün hallarda onların hər biri üçün müəyyən qiymət həddi mövcud olur. İstehlakçılar məhsula müəyyən məbləğdən artıq vermək imkanına malik olmur, istehsalçılar üçün isə öz məhsullarını müəyyən səviyyədən aşağı qiymətə satmaq əlverişli olmur.

Nəticədə hər bir konkret şəraitdə alıcının və satıcının mənafeyinə uyğun olan qiymət formalaşır. O, tarazlı qiymət adlanır. Qrafik təsvirdə, tarazlı qiymət tələb və təklif əyrilərinin kəsişdiyi nöqtəyə müvafiq gəlir (3-cü qrafik)

qrafik).




Tarazlı qiymət qərarlaşdığı zaman həm istehsal və satışın, həm də alış və istehlakın məqsədəuyğun həcmləri müəyyənləşir və onlar bir-birinə tən gəlir. Bu vəziyyətdə istehsalçılara qiymətləri daha da qaldırmaq və təklifi artırmaq sərfəli olmur. Çünki onda məhsul alınmayacaq. İstehlakçılar isə qiymətləri aşağı salmaqla daha çox məhsul almağa nail ola bilmirlər. Əks təqdirdə istehsalçıların mənafeyi tapdalanmış olardı.

Aydındır ki, müxtəlif amillərin təsiri altında müəyyən məhsula olan tələb artır. Bu isə öz növbəsində bazarda qiymətlərin yüksəlməsinə səbəb olur. Nəticədə istehsalçılar məhsulun istehsalım və satışının həcmini artırmağa başlayırlar.

Tələb aşağı düşdüyü halda isə, əksinə, bazarda qiymətlər aşağı düşəcək, bu da müvafiq məhsul istehsalının həcminin azalmasına gətirib çıxaracaqdır.

Beləliklə də, bazar mexanizmi istehsala fəal tənzimləyici təsir göstərmiş olur.

Rəqabət iqtisadiyyatın tənzimlənməsində mühüm rola malikdir. Rəqabət iqtisadiyyat sferasının ayrı-ayrı subyektləri arasında məhsulların və xidmətlərin daima əlverişli istehsal və satış şəraiti uğrunda bəhsləşməsidir. Rəqabət mübarizəsinin güclənməsi öz rəqiblərilə eyni səviyyədə dura bilməyən subyektlərin-firmaların, şirkətlərin, fermerlərin müflisləşməsinə

gətirib çıxarır. Nəticədə, daha güclü, çevik, bazarda yaranmış vəziyyəti yaxşı bilən və ona uyğunlaşan subyektlər öz mövqelərini qoruyub saxlayır və daha da möhkəmlənir. Rəqabət məhsulun keyfiyyətinin yüksəldilməsində, istehsal məsrəflərinin həcminin azalmasında, texniki, və texnoloji yeniliklərin sürətlə mənimsənilməsində həlledici rol oynayır. Bununla da, rəqabət iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə, istehlakçıların tələbatının daha dolğun ödənilməsinə ciddi təsir göstərir.

İqtisadiyyatda fərdi qaydada qəbul edilən çoxlu qərarlar bazar vasitəsilə bir yerə cəmlənir, qarşılıqlı surətdə tarazlaşdırılır. Bunun sayəsində cəmiyyət bütünlükdə iqtisadi sistemin inkişafına dair qərarlar qəbul etmək imkanına malik olur.

Bazar iqtisadiyyatı və dövlət. İqtisadiyyatın tənzimlənməsi sahəsində bazarın imkanları heç də hüdudsuz deyildir. Müasir şəraitdə bazar mexanizmi cəmiyyətin bütün sosial-iqtisadi problemlərinin səmərəli həllinə təminat yaratmır. Bazar münasibətləri bir qayda olaraq mövcud şəraitin əsasında qərarlaşır. Onların vasitəsilə perspektiv, strateji əhəmiyyət daşıyan vəzifələri nəzərə almaq mümkün olmur. Məhz ona görə də bəzən bazar tənzimləmə metodları elmi uzaqgörənliklə müəyyənləşdirilən perspektiv vəzifələrin həyata keçirilməsi ilə ziddiyyətə girir. Digər tərəfdən istehsalın və sosial-iqtisadi proseslərin son dərəcə mürəkkəb olduğu bir şəraitdə iqtisadiyyatın tənzimlənməsi vəzifəsinin bütün cəhətlərini eyni müvəffəqiyyətlə həyata keçirmək mümkün olmur. Xüsusilə, sosial və ekoloji problemlərin həllində bazar münasibətləri işləmir.

Göstərilən vəzifələrin həlli iqtisadiyyatın tənzimlənməsinə dövlətin fəal nüfuz etməsini tələb edir. Başqa sözlə, həmin vəzifələrin həlli bazar tənzimləmə mexanizmilə dövlət tənzimləməsinin uzlaşdırmasını tələb edir.

Dövlətin iqtisadi fəaliyyətinin əsas istiqamətləri

aşağıdakılardır:

1. Təsərrüfata aid qanunverici aktların hazırlanması, qəbulu və onların yerinə yetirilməsinin təşkili. Dövlət iqtisadiyyatın hüquqi əsaslarının təminatçısı kimi çıxış etməlidir.

2. Bazar mexanizminin normal işləməsi üçün zəruri şəraitin təmin edilməsi. Dövlət rəqabətin həyata keçirilməsi üçün inhisar əleyhinə mübarizə aparmalı, sabit pul siyasəti həyata keçirməli, habelə maliyyə sisteminin normal vəziyyətdə olmasına nəzarət etməlidir.

3. Bazar mexanizmi vasitəsilə kifayət qədər səmərəli həyata keçirilə bilinməyən iqtisadi, sosial, ekoloji, mənəvi vəzifələrin həlli. Bu vəzifələrin sırasına ekoloji təhlükəsizliyin təmin edilməsi, gəlirlərin daha ədalətli bölgüsünə təminat verilməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və s. daxildir.

Dövlətin iqtisadiyyata təsiri iki yolla həyata keçirilir: müstəqim və dolayı. Müstəqim təsir xüsusi qanunvericilik aktları və icra hakimiyyətinin onlara əsaslanan fəaliyyəti vasitəsilə həyata keçirilir.

İqtisadiyyata dövlət təsirinin dolayı metodu müxtəlif maliyyə, büdcə-vergi və pul-kredit vasitələrinin istifadəsinə əsaslanır. Bu vasitələrin köməyilə hökumət iqtisadiyyatın qeyri-dövlət bölməsinə daxil olan firmaların fəaliyyətinə təsir göstərir.

Müxtəlif ölkələrdə iqtisadiyyatın dövlət tənzimləməsinin özünəməxsus xüsusiyyətləri olur. Bu xüsusiyyətlər iqtisadi inkişafın spesifikliyi, iqtisadiyyatın strukturu, dövlət quruluşunun formaları ilə şərtlənir. Bununla belə, praktiki olaraq bütün inkişaf etmiş ölkələrdə iqtisadiyyatın dövlət tənzimləməsi büdcə-vergi və pul-kredit vasitələrinin, iqtisadi alətlərin, habelə iqtisadiyyatın proqramlaşdırılmasının bu və ya digər nisbətdə istifadə edilməsi üzərində qurulur.

**Sual və tapşırıqlar:**

1. Bazarın mahiyyətini izah edin.
2. Bazar mexanizminin əsas ünsürləri hansılardır?
3. Aşağıdakı hallarda bazarda qiymət necə dəyişəcək?

a) təklif artır, tələb sabit qalır;

b) təklif sabit qalır, tələb azalır;

c) təklif azalır, tələb sabit qalır.

4. Tarazlı qiyməti nə müəyyən edir?

## §16. Bazarın növləri

İnkişaf etmiş müasir iqtisadi sistemlərdə bazar əlaqələri bütün təsərrüfat sahələrini əhatə edir. Həmin əlaqələr cəmiyyətin iqtisadi orqanizminin bütün hüceyrələrinə nüfuz edir. Eyni zamanda iqtisadiyyatda bazarın müxtəlif növləri formalaşır. Onların arasında ilk növbədə əmtəə və xidmötlər bazarını ayırmaq lazımdır.

Əmtəə və xidmətlər bazarı. Əmtəə və xidmətlər bazarında alğı-satqının obyekti müxtəlif çeşidli məhsullar, həmçinin ayrı-ayrı xidmət növləri olur. Bazarın bu növündə alıcı və satıcı kimi məhsulun istehsalı və istehlakı ilə məşğul olan sənaye, kənd təsərrüfatı müəssisələri və firmaları, xidmət dairəsinin müəssisələri və ticarət müəssisələri, ayrı-ayrı vətəndaşlar çıxış edirlər.

Müasir dövrdə əmtəə və xidmətlər bazarının mütəşəkkil formaları inkişaf etmişdir. Bu formalar içərisində əmtəə birjalarının rolu xüsusilə böyükdür.

Əmtəə birjası. Birja əvvəlcədən təyin edilən qaydalar əsasında, müəyyən olunmuş yerdə alğı-satqı aparan təşkilatdır. Onun əsas növləri əmtəə birjası, qiymətli kağızlar birjası və əmək birjasıdır.

Əmtəə birjasında malların nümunələr və standartlar üzrə topdan satışı həyata keçirilir. O, bazarın müntəzəm fəaliyyət göstərən, inkişaf etmiş formasıdır. Əmtəə birjasında satılan

malların hamısı alıcıya təqdim edilmir. Alğı-satqı mövcud nümunələr və müqavilədə göstərilən keyfiyyət göstəricilərinə əsaslanmaqla aparılır.

Əmtəə birjası məhsullar üzrə böyük həcmdə tələb və təklifi bir yerə cəmləşdirməyə imkan verir. Bunun nəticəsində mövcud əmtəə ehtiyatları, qiymətlərin səviyyəsi və onların dəyişməsi meylləri haqqında real məlumatlar əldə etmək xeyli asanlaşır. Birjada qiymətlər qeydiyyatdan keçirilir və mətbuatda dərc edilir. Beləliklə, əmtəə birjasında əslində iqtisadiyyatın nəbzini dəqiq tutmaq olur.

Müvəffəqiyyətlə fəaliyyət göstərmək üçün firmalar əmtəə və xidmətlər bazasında yaranan gündəlik vəziyyəti, onun dinamikasını diqqətlə izləməli və dəqiq nəzərə almalıdırlar. Bu vəzifəni müvəffəqiyyətlə həyata keçirmək üçün marketinq sistemindən istifadə edilir.

**Marketinq nədir?** Marketinq təsərrüfat fəaliyyətinin təşkili və idarə edilməsinin bazarın tələblərinə, istehlakçıların tələbatının maksimum ödənilməsinə yönəldilən sistemdir. Marketinqin səmərəli tətbiqi üçün alıcıların tələbatı əvvəlcədən diqqətlə öyrənilir, həmin tələbatda baş verə biləcək dəyişikliklər proqnozlaşdırılır və bütün bu informasiya əsasında buraxılan məhsulun keyfiyyətinə və onun satışı üçün zəruri olan ticarət formalarının təşkilinə dair mümkün optimal tədbirlər proqramı hazırlanır.

Marketinqin başlıca məqsədi maksimum mənfəət əldə etməkdir. Bununla yanaşı firmalar marketinqin vasitəsilə başqa vəzifələri də, yeni bazara uyğunlaşmaq, rəqibləri sıxışdırmaq, mümkün olan kommersiya riskini minimuma endirmək və s.-i həll edirlər. Hər bir konkret vəziyyətdə firmanın qarşısında duran vəzifələrə uyğun olaraq onun rəhbərliyi marketinq proqramı tərtib edir. Bu proqramda təsərrüfat fəaliyyətinin məhsulun satışı ilə birbaşa və ya dolayı yolla bağlı olan müxtəlif cəhətləri öz əksini tapır. Marketinq proqramı, adətən, konkret əmtəə növü və ya mal qrupu üzrə hazırlanır.

**Qiymətli kağızlar bazarı.** Bazarın bu növündə qiymətli kağızlarla əməliyyat aparılır. Qiymətli kağızlar öz sahibinin müəyyən əmlaka və ya pul məbləğinə mülkiyyət hüququnu təsdiq edən sənəddir. Qiymətli kağızların əsas növləri **səhmlər** və **istiqrazlardır. Səhm** öz sahibinin səhmdarlar cəmiyyətinin işində iştirak etdiyini təsdiq edən və həmin cəmiyyətin mənfəətinin bir hissəsini divident şəklində almağa . hüquq verən qiymətli kağızdır. Səhmdarlar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə müxtəlif firmaların və vətəndaşların əmanətlərini, səhm buraxılışı vasitəsilə birləşdirməklə yaradılan təşkilatlardır.

**İstiqraz**—sahibinə nəzərdə tutulan vaxtda öz nominal qiymətinin və müəyyən edilən faizin ödənilməsi öhdəliklərini təsdiq edən qiymətli kağızdır. İstiqrazlar müəssisələr və əhali arasında könüllü yaydır.

Qiymətli kağızlar bazarının iki dairəsi bir-birindən fərqləndirilir. Birinci dairədə qiymətli kağızların buraxılışı və yerləşdirilməsi həyata keçirilir. Qiymətli kağızlar bazarının ikinci dairəsində isə əvvəllər buraxılmış səhmlərin və istiqrazların alğı-satqısı həyata keçirilir. Qiymətli kağızlar bazarının əsas təşkilat forması fond birjasıdır. Fond birjasında əvvəldən müəyyən edilmiş qaydalar üzrə səhmlərin və istiqrazların müntəzəm alğı-satqısı həyata keçirilir. Həmin alğı-satqı gedişində qiymətli kağızların məzənnəsi müəyyənləşdirilir.

Əmək bazan. Əmək bazan iş qüvvəsinə olan tələb və təklifin formalaşdığı dairədir. Əmək bazarının təşkilində əsas məqsəd adamları məcburi əməkdən azad etməkdir. Əmək bazarının mövcudluğu ictimai fəaliyyətdə əməyin tam könüllülüyünü təmin etməklə iş qüvvəsinin ölkə daxilində azad axını və yerləşməsi üçün real imkan və şərait yaradır. Əmək bazarı hər bir fərdin öz iş qüvvəsini azad surətdə satmaq hüququna əsaslanır.

İş qüvvəsi bazar qiyməti əsasında işçi ilə iş verən arasında bağlanan müqavilə üzrə satılır. Həmin müqavilələr əsasında

işçilərin əmək haqqı müəyyənləşdirilir. Əmək haqqını müəyyən edərkən iş qüvvəsinin təkrar istehsalı, yəni işçinin normal yaşaması üçün lazım olan xərclər və işçinin istehsal prosesində sərf etdiyi əməyin keyfiyyəti və kəmiyyəti, yəni necə və nə qədər işləməsi hökmər, hesaba alınmalıdır. Başqa sözlə desək, bazar iqtisadiyyatında əmək haqqı istehsalda sərf edilən iş qüvvəsinin dəyərinin ifadəsi olmalıdır.

Əmək haqqı kəmiyyətinin müəyyənləşdirilməsi üçün ilkin şərt onun minimum həddinin təyin olunmasıdır. Əmək haqqının minimum bəddi yaşayış minimumuna uyğun olaraq müəyyənləşdirilir. Bazar iqtisadiyyatına keçid şəraitində əmək haqqının minimum səviyyəsi bütün müəssisələr üçün dövlət tərəfindən qanunvericilik yolu ilə təsdiq edilir. Əmək haqqının konkret səviyyəsi isə rəhbərliyin nümayəndələri, ilə işçilərin nümayəndələri arasında bağlanan müqavilələrlə tənzim edilir. Həmin müqavilələr işçi qüvvəsinin təkrar istehsalı üçün əlverişli şərait yaratmalı və əmək fəaliyyətinin yüksəldilməsini stimullaşdırmalıdır.

Pul formasında alman əmək haqqı nominal əmək haqqı adlanır. Yaşayış vasitələrində ifadə olunan əmək haqqı isə real əmək haqqıdır. Real əmək haqqı nominal əmək haqqının səviyyəsindən və istehlak mallarının qiymətlərindən asılıdır.

**Əmək birjası.** Əmək bazarının əsas təşkilat formas: əmək birjasıdır. Əmək birjası iş qüvvəsinin alqı-satqı üzrə sövdələşmələrinin reallaşdırılmasında işçilərlə sahibkarlar arasında müntəzəm vasitəçiliyi həyata keçirən dövlət idarəsidir. Əmək birjası işsizlərin işə düzəlməsində, həmçinin iş yerlərinin dəyişdirilməsində vasitəçilik xidməti göstərir. Birjada iş qüvvəsinin tələb və təklifi öyrənilir. Ona tələb olan müəssisələr haqqında məlumatlar verilir. Əmək birjası eyni zamanda işsizləri qeydiyyatdan keçirir və onlara işsizliyə görə müavinət verik

Əmək birjası rəsmi qeydiyyatdan keçmiş işsizlərin iş qabiliyyətli əhalinin ümumi sayına görə xüsusi çəkisini

müəyyənləşdi) inəklə ölkədə işsizliyin səviyyəsini təyin edir. Bu əsasda dövlət işsizliyi azaltmaq üçün əmək bazarını tənzimləyən geniş tədbirlər sistemi həyata keçirir. Bu tədbirlər sırasında boş olan iş yerləri haqqında mötəbər informasiya sisteminin hazırlanması və onun daim təkmilləşdirilməsi, işçilərin ixtisaslarının dəyişdirilməsi məsələsinin həlli, iş qüvvəsi bazarında vəziyyət üzərində daima nəzarətin həyata keçirilməsi əsas yerləri tutur. Dövlət eyni zamanda təzə iş yerlərinin açılmasına imkan verən texniki və texnoloji yeniliklərin geniş tətbiqini həvəsləndirməli, yeni iş yerlərinin yaradılmasını tərnin edən kiçik biznesin inkişafına maliyyə yardımı göstərməlidir. Əmək bazarının tənzimlənməsi tədbirləri içərisində gənclərin işlə təmin edilməsinə yönəldilmiş dövlət proqramı xüsusi əhəmiyyətə malikdir. Bu proqramın həyata keçirilməsi bir sıra sosial, hüquqi, əxlaqi və s. (ailə, cinayətkarlıq, təhsil və s.) problemlərin həlli üçün səmərəli dayaq ola bilər.

**Sual və tapşırıqlar:**

1. Bazarın asas növlərini göstərin.
2. Aşağıdakı tezisin düzgünlüyünü izah edin: Su elektrik stansiyası üçün turbinlər əmtəə birjasında satıla bilməz.
3. Səhmlər və istiqraz vərəqəsinin ümumi və fərqli cəhətlərini göstərin.
4. əmək birjasının əsas funksiyaları hansılardır?

## §17. Sahibkarlıq və onun formaları

Sahibkarlığın mahiyyəti. Bazar iqtisadiyyatının zəruri ünsürlərindən biri azad sahibkarlıqdır. Bazar prinsiplərinə əsaslanan səmərəli təsərrüfat sisteminin yaradılmasında ilk mərhələ cəmiyyət üçün faydalı olan sahibkarlıq fəallığının və iqtisadi davranış azadlığının təmin edilməsidir. Ayrı-ayrı şəxslərə, ailələrə, sosial qruplara və müəssisələrə ölkənin qanunları çərçivəsində, bütün sahələr üzrə təsərrüfat

fəaliyyətində sərbəstlik verilməsi hər bir subyektin iqtisadi həyatda ən fəal surətdə iştirakına, öz potensial imkanlarından daha dolğun istifadə etməsinə səbəb olur. Azad sahibkarlığa geniş meydan verilməsi, hər bir vətəndaşa fəaliyyət göstərmək üçün şərait yaradılması müasir dövrdə cəmiyyətin tərəqqisinin zəruri şərtlərindən biri kimi çıxış edir.

Sahibkarlıq ayrı-ayrı şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət əldə edilməsinə yönəldilən müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Sahibkarlar öz adlarından çıxış edirlər və fəaliyyətlərinin nəticələri üçün nıəsuliyyət onların öz üzərinə düşür.

Sahibkar və ya sahibkarlığın subyekti ölkənin fəaliyyət qabiliyyəti olan hər bir vətəndaşı, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər, hər bir xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs, xarici hüquqi şəxslər ola bilərlər.

Sahibkarlığın iki əsas forması vardır: fərdi sahibkarlıq və kollektiv sahibkarlıq. Bu formalar sahibkarlıq subyektləri tərəfindən vətəndaşların mülkiyyəti əsasında, habelə qanuni əsaslarla əldə olunan və istifadə edilən əmlakla həyata keçirilir. Bütün hallarda sahibkarlıq fəaliyyəti üçün təşəbbüskarlıq, mənfəət götürməyə çalışmaq, risk etmək, «özünü yoxlamaq» istəyi səciyyəvidir.

Həyata keçirildiyi sahəyə görə sahibkarlıq fəaliyyətinin istehsal, kommersiya və maliyyə növləri fərqləndirilir. Real praktikada sahibkarlığın bu növləri bir-birini qarşılıqlı surətdə tamamlayır.

Sahibkarlar təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək hüququna malikdirlər. Sahibkarlar əldə etdikləri mənfəətdən vergilər və digər məcburi ödənişləri verdikdən sonra yerdə qalan hissəsini sərbəst istifadə edirlər. Bu zaman onlar həmin vəsaitdən sahibkarlıq fəaliyyətini genişləndirməklə yanaşı xeyriyyəçilik, maarifçilik məqsədləri,

habelə müharibə və başqa fövqəladə hadisələr zamanı dövlətə lazımi yardım göstərilməsi məqsədləri üçün istifadə edə bilərlər.

Sahibkarlar eyni zamanda qüvvədə olan qanunvericilikdən və bağladıqları müqavilələrdən irəli gələn vəzifələri yerinə yetirməlidirlər. Onlar birinci növbədə işçilərə əmək haqqını ölkənin qanunvericiliyi ilə müəyyən olunmuş səviyyədə ödəməli, ekoloji təhlükəsizliyin, istehsal gigiyenasının və sanitariyanm təmin edilməsi, memarhq abidələrinin və tarixi abidələrin mühafizəsi kimi zəruri şərtlərə əməl etməlidirlər.

Müasir şəraitdə azad sahibkarlığın inkişafı həm iqtisadi, həm də sosial və siyasi əhəmiyyətə malikdir. Buna görə də dövlət sahibkarlığın inkişafı üçün əlverişli şərait yaratmalı, bu işə hərtərəfli yardım göstərməlidir. İlk növbədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi sahəsində lüzumsuz məhdudiyyətlərin aradan qaldırılması təmin edilməlidir. Hər cür qadağanlar sahibkarlıq mənafeyinin güclü daxili enerjisindən dolğun istifadəyə imkan vermir.



Sahibkarlığın sürətli inkişafını təmin etmək məqsədilə dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətləri üçün güzəştlər sistemi müəyyənləşdirir. Dövlət sahibkarlığa kömək məqsədilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə sistemi yaradır, vergi ödənişlərinin güzəştli dərəcələrini təyin edir.

Mədəni sahibkarlığın bir çox etik ənənələri mövcuddur. Bunların içərisində işgüzar münasibətlərdə düzgünlük, təmizlik, müqabil tərəflə qarşılıqlı etibarlılıq xüsusi yer tutur. Bu güzəştlərə malik olmayanların bütün hallarda sahibkarlıq

fəaliyyətində ciddi uğur qazanmaları sadəcə olaraq mümkün deyildir.

Azərbaycanda sahibkarlığın inkişaf zəminləri. Müasir şəraitdə Azərbaycanda sahibkarlığın inkişafı üçün əlverişli, milli, tarixi və iqtisadi zəminlər mövcuddur. Ölkəmizdə tarixən milli təsərrüfatçılıq ənənələri əsasında sahibkarlığın müxtəlif növləri geniş təşəkkül tapmışdır. Bu proses XIX əsrdə, xüsusən də XX əsrin əvvəllərində geniş miqyas almışdır. Bu dövrdə Azərbaycanda H.Z.Tağıyev, Ş.Əsədullayev kimi iri sahibkarlar fəaliyyət göstərmişlər.

Tağıyev Hacı Zeynaladdin Tağı oğlu (1838-1924) – Azərbaycanda iri sahibkarlığın görkəmli nümayəndəsi. Əvvəllər bənna işləmişdir. 1872-ci ildə neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. İqtisadiyyatın müxtəlif sahələrində Özünün müəssisələrini yaratmış və böyük müvəffəqiyyətlərə nail olmuşdur.

H.Z.Tağıyev Azərbaycanda məktəblər açdırmış, milli teatr binasını tikdirmiş, qəzet və jurnalların nəşrinə, mədəni-maarif cəmiyyətlərinin, milli kadrların hazırlanmasına vəsait sərf etmişdir. O, dövrünün məşhur xeyriyyəçisi kimi tanınmışdır.

Hazırda bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq mülkiyyətin geniş miqyasda dövlətsizləşdirilməsi və özəlləşdirilməsi yurdumuzda sahibkarlıq ənənələrinin dirçəldilməsi üçün əlverişli imkanlar açır.

**Sual və tapşırıqlar:**

1. İqtisadi fəaliyyət azadlığının əhəmiyyəti nədir?
2. Sahibkarlığın formaları və növlərini göstərin.
3. Sahibkarlığa dövlət köməyi necə həyata keçirilməlidir?

## §18. Pul və pul sistemi, inflyasiya

**Pul və onun funksiyaları.** Pul cəmiyyətdə hamı tərəfindən qəbul edilən alış-veriş (tədavül) vasitəsidir. Pulun meydana gəlməsi məhsulların mübadiləsi prosesini qat-qat asanlaşdırmış və iqtisadiyyatın inkişafında misilsiz rola malik olmuşdur. Bu baxımdan pul həqiqətən böyük sosial kəşflərdən biri kimi qiymətləndirilə bilər.

Pulun mahiyyəti onun yerinə yetirdiyi funksiyalarda ifadə olunur. Pul hər şeydən öncə tədavül vasitəsi funksiyasını yerinə yetirir. Puldan bütün məhsulların alqı-satqısı zamanı istifadə etmək olur. Bununla da cəmiyyət malların birbaşa (yəni barterüsulu ilə) mübadiləsilə əlaqədar meydana çıxan çətinliklərdən xilas olur və insanlar əmək bölgüsünün üstünlüklərindən bəhrələnə bilirlər.

Pul eyni zamanda dəyər ölçüsü, həm də dəyərin saxlanması (yığım) funksiyalarını yerinə yetirir. Cəmiyyət pul vahidindən müxtəlif növ maddi nemətlərin dəyərlərim ortaq ölçüyə gətirmək üçün istifadə edir. Bununla da hər bir məhsulun qiymətini onun mübadilə oluna biləcəyi bütün digər məhsullar vasitəsilə ifadə etmək ehtiyacı aradan qalxır. Pulla istənilən vaxtda istənilən malı almaq və ya maliyyə öhdəliklərini yerinə yetirmək mümkün olduğu üçün, o, eyni zamanda dəyəri saxlama (yığım) vasitəsi kimi istifadə edilir.

Pulun digər mühüm funksiyası onun borc ödəmə (tədiyyə) vasitəsi olmasıdır. Müəyyən olunmuş vaxt çatdıqdan sonra alınmış borcların qaytarılması və həmin borclara görə faizlərin verilməsi pul vasitəsilə həyata keçirilir.

Müasir iqtisadi sistemlərdə istifadə olunan pullar uzun təkamül yolu keçmişdir. Tarixəm pul kimi ayrı-ayrı yerlərdə duz, mal-qara, balıqqulağı, xəz və s. işlədilmişdir. Sonralar yuxarıda göstərilən funksiyaları daha münasib formada yerinə yetirməyə imkan verən metal və kağız pullar meydana gəlmişdir.

Pul sistemi. Hər bir ölkədə pul tədavülünün tarixən qərarlaşmış forması həmin ölkənin pul sistemini .təşkil edir. Pul sisteminin əsasları qanunvericiliklə təsbit,edilir. Pul sisteminin başlıca ünsürləri aşağıdakılardır: pul vahidi, qiymət miqyası, pul nişanlarının növləri, pulun emissiyası və tənzimlənməsi qaydası.

Pul funksiyasını nəcib metalların yerinə yetirdiyi pul sisteminə monetar sistem deyilir. Onun bimetalizm və monometalizm formaları mövcud olmuşdur. XX əsrin 30-cu illərindən bütün ölkələrdə pul sistemi kredit və kağız pul nişanlarının tədavülünə əsaslanır. Bu halda pul sistemi pul nişanlarının rəsmi qızıl məzmununun ləğv edilməsi və pul dövriyyəsindən qızılın çıxarılması ilə səciyyələnir. Eyni zamanda nağdsız hesablamaların inkişafı hesabına nağd pul dövriyyəsi ixtisar olunur. Pul buraxılışı dövlətin inhisarında olur.

İnflyasiya və onun səbəbləri. Tədavüldə olan pulun miqdarı mal və xidmətlərin alış-verişi üçün tələb edildiyindən çox olduqda inflyasiya baş verir. İnflyasiya-tədavüldə olan pulun ümumi kütlərinin əmtəə qiymətlərinin məbləğindən artıq olması nəticəsində pulun qiymətdən düşməsi və əmtəələrlə təmin olunmayan pul kütləsinin meydana gəlməsidir. İnflyasiya əmtəələrin qiymətlərinin qalxmasına gətirib çıxarır.

Gedişinin sürətinə görə inflyasiyanı sürünən, sürətli və hiperinflyasiyaya bölürlər. Sürünən inflyasiya zamanı pulun qiymətdən düşmə sürəti çox da yüksək olmur (ildə 10-12%). Lakin o, durğun səciyyə daşıyır. Sürətli inflyasiya iqtisadi vəziyyətin qeyri-sabitliyini əks etdirir. Bu zaman pulun qiymətdən düşməsinin artım sürəti sıçrayışlı (ildə 10-12%-dən 200-300%-dək) xarakter alır. Hiperinflyasiya üçün pulun qiymətdən düşməsinin çox yüksək sürətilə (ildə 1000%-dən çox) baş verməsi səciyyəvidir.

Bəzən iqtisadiyyatda pulun qiymətdən düşməsi istehsalın həcminin azalması, istehsalatda durğunluq və işsizliyin artması ilə müşayiət olunur ki, bu hala da staqflyasiya deyilir.

İnflyasiyanın başlıca səbəbləri iqtisadiyyatın müxtəlif sahələri arasında tarazlığın pozulması, dövlətin xərclərinin onun gəlirindən çox olması, hərbi xərclərin böyük sürətilə artması, əsaslı vəsait qoyuluşunun həcminin çox böyük olması, qiymətlərin və əmək haqqının əsassız olaraq artırılmasıdır.

İnflyasiyanın nəticələri və antiinflyasiya tədbirləri. İnflyasiyanın genişlənməsi müasir dünyanın ciddi problemlərindən birinə çevrilmişdir. İnflyasiyanın güclənməsi geniş əhali kütlələrinin həyat səviyyəsinə mənfi təsir göstərir, cəmiyyətdə sosial gərginliyin artmasına səbəb olur.

İnflyasiyanın nəticələrini zərərsizləşdirmək məqsədilə dövlət antiinflyasiya tədbirləri sistemini həyata keçirir. Həmin tədbirlərə ilk növbədə qiymətlərin və əmək haqqının tənzim edilməsi, maliyyə sisteminin sağlamlaşdırılması, pul buraxılışının (emissiyasının) məhdudlaşdırılması və s. daxil edilir.

**Sual və tapşırıqlar:**

1. Pulun əsas funksiyalarını sayın.
2. Aşağıdakı tezisin düzgünlüyünü izah edin:«Pul cəmiyyətin özü tərəfindən müəyyən edilir.Cəıniyyətin alış-veriş (tədavül) vasitəsi kimi qəbul etdiyi hər şey puldur.
3. İnflyasiyanın əsas səbəbləri hansılardır?
4. Azərbaycanda hazırkı şəraitdə inflyasiyanın vəziyyəti haqqında sizin fikriniz necədir? İnflyasiya sizin ailənin həyatına necə təsir göstərir?

## §19. Banklar və iqtisadiyyatda onların rolu

Banklar və onların əsas funksiyaları. Banklar—əsas funksiyası pul vəsaitlərinin toplanılması, kreditlərin verilməsi, pul hesablaşmalarının həyata keçirilməsi olan kredit-maliyyə idarələrinə deyilir. Banklar eyni zamanda qiymətli kağızlarla əməliyyatlar aparır, iqtisadi subyektlərə maliyyə məsləhətləri və ümum iqtisadi informasiyalar verir.

Bütün bank idarələrinin məcmusu ölkənin bank sistemini təşkil edir. İqtisadi proseslərin mərkəzləşdirilmiş surətdə tənzimlənməsi üçün bank sistemindən geniş istifadə olunur.

Bank sistemi. Bank sistemi iki pilləli quruluşa malikdir. Birinci pilləni mərkəzi bank tutur. O, bank sisteminin aparıcı vəsiləsini təşkil edir. Mərkəzi bank ölkədə pul tədavülünün vəziyyəti üçün tam məsuliyyət daşıyır və ayrı-ayrı ölkələrdə milli, emissiya və yaxud da ehtiyat bankı da adlandırılır. Ölkəmizdə mərkəzi bank Azərbaycan Respublikasının Milli Bankı adlanır.

Mərkəzi bank pul emissiyasını həyata keçirir və bu sahədə inhisarçıdır. Bununla yanaşı mərkəzi bank digər kredit idarələrinin pul ehtiyatlanın və ölkənin rəsmi qızıl, valyuta ehtiyatlarını saxlayır, dövlət qiymətli kağızlarını satın alır və klirinq hesablaşmalarını həyata keçirir. Bu funksiyalar mərkəzi banka pul vahidinin möhkəmləndirilməsi, qiymətlərin sabitləşdirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi kimi ümumiqtisadi vəzifələrin həyata keçirilməsi üçün pul kütləsini və faiz normasını tənzimləməyə imkan verir.

Mərkəzi bank kreditin həvəsləndirilməsi və ya məhdudlaşdırılması üçün tədbirlər görür. Bununla da o, tədiyyə qabiliyyətli tələbin, investisiyaların, xarici ticarət və valyuta əməliyyatlarının həcminə təsir göstərir.

Mərkəzi bankın pul-kredit tənzimləməsində istifadə əsas vasitələr faiz dərəcələrinin dəyişdirilməsi, açıq maliyyə bazarında əməliyyatların aparılması, digər bankların. məcburi surətdə mərkəzi bankın hesablarında saxlamalı olduqları ehtiyatlar normasının dəyişdirilməsidir.

Bank sisteminin ikinci pilləsini kommersiya bankları təşkil edir. Kommersiya bankları bir qayda olaraq təsisçilərin pay haqlarını birləşdirmək yolu ilə yaradılan müstəqil kredit-maliyyə idarələridir. Kommersiya banklarının başlıca məqsədi müəssisələrin, təşkilatların, vətəndaşların, digər bankların müvəqqəti sərbəst olan vəsaitlərini toplamaq və onları kreditə

verməkdir. Kommersiya bankları digər maliyyə-kredit əməliyyatlarını da yerinə yetirirlər. Kommersiya bankları öz ehtiyatlarının bir hissəsini mərkəzi bankda saxlamalıdırlar.

Apardıqları əməliyyatların xarakterinə görə banklar universal və ixtisaslaşmış banklara bölünür. Universal banklara müxtəlif növ kredit-hesablaşma əməliyyatları aparan kommersiya bankları aiddir. İxtisaslaşmış banklar məhdud kredit sferasında əməliyyatlar aparırlar. Bunlara ipoteka (torpaq və digər əmlakları girov götürməklə kredit verən), investisiya (əsaslı tikinti üçün kredit verən), innovesiya (elmi və texniki yeniliklərin tətbiqini maliyyələşdirən), əmanət, (əhalinin pul əmanətləri əsasında kredit verən), bankları aiddir.

Bank əməliyyatları. Bankın apardığı əməliyyatlar iki yerə bölünür: passiv və aktiv əməliyyatlar.

Passiv əməliyyatların gedişində bank öz ehtiyatlarını yaradır. Onların tərkibinə bankın xüsusi vəsaiti, cəlb edilmiş və emissiya olunan vəsait daxildir. Əsas yeri cəlb adilmiş vəsait, yəni müştərilərin əmanətləri (depozitlər) tutur Bank əmanətləri cari və müddətli əmanətlərə bölünür. Cari əmanətlər sahibləri tərəfindən istənilən vaxt götürülə bilər. Müddətli əmanətlər isə yalnız müəyyən edilmiş müddət keçdikdən sonra götürülə bilər. Bankın ehtiyatlarının mühüm mənbələrindən biri emissiya və onun cari hesablara borc formasında birbaşa köçürülməsidir.

Aritiv əməliyyatlar vasitəsilə banklar öz sərəncamlarında olan vəsaiti yerləşdirirlər. Bu əməliyyatlara bank kreditlərinin verilməsi, veksellərin uçotu və qiymətli kağızların əldə edilməsi üzrə əməliyyatlar aiddir.

Banklar pul hesablaşmalarını nağd və nağdsız formada aparır.

Bank mənfəəti. Bank verdiyi kreditlərə görə faiz şəklində gəlir əldə edir. Eyni zamanda bank cəlb edilmiş vəsaitə, yəni əmanətə görə faiz verir. Bankın aldığı faizlə verdiyi faiz arasındakı fərq onun mənfəətini təşkil edir. Mənfəət hesabına bank xərclərini ödəyir və öz kapitalını artırır.

**Sual vs tapşırıqlar:**

1. Bankların hansı növləri vardır?
2. Mərkəzi bank digər banklardan nə ilə fərqlənir?
3. Hansı bank əməliyyatlarını bilirsiniz?
4. Aşağıdakı tezisin doğruluğunu izah edin: «Adamların öz pul qənaətlərini evdə deyil, banklarda saxlamaları onlar üçün daha sərfəlidir.
5. Bank faizi ilə bank mənfəəti arasındakı asılılığı izah edin.

## §20. Milli sərvət və onun tərkibi

Milli sərvət, onun mahiyyəti və tərkibi. Milli sərvət cəmiyyətin malik olduğu maddi nemətlərin məcmusudur. Milli sərvət keçmiş və indiki nəsillərin əməyi ilə yaradılmış maddi nemətləri (istehsal vasitələrini və istehlak şeylərini), həmçinin təsərrüfat dövriyyəsinə cəlb edilmiş təbii resursları əhatə edir. Milli sərvət ölkənin iqtisadi imkanlarının və iqtisadi gücünün başlıca göstəricisidir.

Milli sərvət iki hissədən ibarətdir: ictimai, yəni insan əməyi ilə yaradılmış sərvətlər və təbii sərvətlər. Bunlardan birincisi xüsusilə böyük rola malikdir. Cəmiyyətin malik olduğu ictimai sərvətin kəmiyyət və keyfiyyəti həmin cəmiyyətdə təbii resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi və onların səmərəli surətdə istifadə olunması imkanlarını müəyyən edir.

Əməklə yaradılmış və milli sərvətin tərkibinə daxil olan maddi nemətlər cəmiyyətin iqtisadi həyatındakı əhəmiyyətinə görə aşağıdakı tərkib hissələrə bölünür:

1. Əmək vasitələri (maşınlar, dəzgahlar, qurğular, istehsal binaları və s.) və ilkin emala məruz qalan əmək cisimləri (xammal, material, yanacaq və s.).

2. Xalq təsərrüfatı əmtəə ehtiyatlan. Bunlara birincisi, tədavül fondları—müəssisələrin və ticarət təşkilatlarının hazır məhsul ehtiyatları, ikincisi, xalq təsərrüfatının sığorta

ehtiyatları—xüsusi şəraitlərdə təkrar istehsal prosesinin fasiləsizliyini təmin etmək üçün nəzərdə tutulmuş məhsulların bir hissəsi daxildir.

3. Qeyri-istehsal fondları—yaşayış fondu, mədəni-məişət təyinatlı fondlar (məktəblər, xəstəxanalar, teatrlar, kinoteatrlar, muzeylər və s.).

4. Əhalinin şəxsi əmlakı: yaşayış evləri, mənzillərin avadanlığı, məişət qurğuları, geyim şeyləri və s.

Göstərilənlərlə yanaşı milli sərvətin tərkibinə təbii resurslar–torpaqlar, meşələr, çaylar, göllər, hidroenerji ehtiyatları, kəşf edilmiş faydalı qazıntı ehtiyatları daxildir.

Nəhayət, ən geniş mənada milli sərvət özündə cəmiyyətin malik olduğu qeyri-maddi dəyərləri də birləşdirir. Bunlara insanların istehsal təcrübəsi, onların təhsil səviyyəsi, elmi-texniki fikrin nailiyyətləri, informasiya ehtiyatları, mədəni dəyərlər daxildir. Elmi-texniki inqilabın təsiri nəticəsində cəmiyyət həyatında qeyri maddi sərvətlərin əhəmiyyəti və rolu getdikcə artmaqdadır.

Milli sərvətin strukturu həmçinin onun istehsal, tədavül və istehlak sahələri arasında bölgüsü ilə səciyyələnir. Müxtəlif amillərin təsiri ilə milli sərvətin strukturunda dəyişikliklər baş verir.

İqtisadiyyatın intensiv inkişaf yoluna keçirilməsi resurslardan səmərəli istifadənin əhəmiyyətini artırır, istehsal vasitələrinin tərkibində mütərəqqi dəyişikliklərin aparılmasını tələb edir. Bu dəyişikliklər elmi-texniki inqilabın nailiyyətlərinin adiləşməsinə, sosial sahənin inkişafını təmin edən qeyri-istehsal fondlarının artırılmasına şərait yaratmalıdır.

Milli sərvət, onun struktur ünsürlərinin keyfiyyəti, ictimai təkrar istehsalın mühüm amili, ölkənin iqtisadi gücünün başlıca göstəricisidir. Milli sərvətin həcminin artırılması xalqın həyat səviyyəsinin yüksəldilməsinin zəruri şərtlərindən biridir.

Azərbaycanın təbii sərvət potensialı. Azərbaycan Respublikasında keçmiş və indiki nəsillərin əməyi ilə zəngin

milli sərvət yaradılmışdır. Ölkəmiz eyni zamanda böyük təbii sərvət potensialına malikdir. Respublikamız məhsuldar torpaqlara, su ehtiyatlarına, neft, qaz, dəmir filizi, alunit, müxtəlif tikinti materialları yataqlarına malikdir.

**Sual və taıışırıqlar:**

1. Milli sərvət nədir?
2. Müasir Şəraitdə milli sərvətin strukturunda hansı dəyişikliklər baş verir?
3. Milli sərvət hansı tərkib hissələrinə bölünür?

## §21. Beynəlxalq iqtisadi əlaqələr

Dünyanın bütövlüyü müasir şəraitdə daha aydın izlənilməkdədir. Bütün dünya ölkələri bu və digər dərəcədə beynəlxalq əmək bölgüsünə qoşulmuşlar. Məhsuldar qüvvələrin inkişafı gedişində əmək bölgüsünün bu növünün dərinləşməsi labüddür. Bu isə ölkələrin iqtisadi əlaqələrinin genişlənməsini zəruri edir.

Beynəlxalq iqtisadi əlaqələrdə iştirak etmək bütün ölkələr üçün sərfəlidir. Bu əlaqələr onların öz tələbatlarını daha dolğun və az xərclə ödəmələrinə imkan yaradır. Məhz ona görə də beynəlxalq əmək bölgüsünün iştirakçıları arasında qarşılıqlı əlaqələrin inkişafına maraq getdikcə güclənir.

Müasir dövrdə elmi-texniki tərəqqinin sürətlənməsi, informasiya vasitələrinin rolunun yeni keyfiyyət alması və digər amillərin təsiri ölkələr arasında iqtisadi əlaqələr daha da genişləmi.

Beynəlxalq iqtisadi əlaqələrin əsas formaları. Beynəlxalq iqtisadi əlaqələri əsas formaları aşağıdakılardır.

1. Beynəlxalq ticarət;
2. Kapitalın və xarici investisiyaların hərəkəti,
3. Iş qüvvəsinin miqrasiyası;
4. Elmi-texniki əməkdaşlıq;
5. Valyuta kredit əlaqələri.

Dünya bazarı oraya daxil olan ölkələrin daxilində istehsalın həcminə və quruluşuna, beynəlxalq əmək bölgüsünə əhəmiyyətli dərəcədə təsir göstərir. Dünya birliyinə daxil olan ölkələr arasındakı iqtisadi münasibətlər daha çox bazarın təsiri ilə formalaşır və inkişaf edir. Bununla yanaşı dünya təsərrüfat əlaqələrinin yüksək inkişafı istehsal amillərinin sürətlə hərəkət etdiyi bir dövrə təsadüf edir. Kapital milli sərhədləri aşır, iş qüvvəsinin mühacirəti və beynəlxalq əmək bölgüsünün formalaşması prosesi güclənir. Bu onu göstərir ki, beynəlxalq iqtisadi əlaqələrin inkişafı məhsuldar qüvvələrin inkişaf məntiqindən doğur, yəni məhsuldar qüvvələr milli hüdudları aşaraq obyektiv olaraq istehsalın beynəlmiləlləşməsinə aparır.

Müasir şəraitdə elmi və texnoloji biliklərin mübadiləsi sürətlə genişlənir. Çox zaman ölkə üçün lazım olan bütün texnologiyaları işləyib hazırladığı bu '"və" digər əmtəənin istehsalını müstəqil surətdə təşkil etmək əlverişli olmur. Bunun üçün beynəlxalq mübadilədən istifadə edilir.

Əmtəələrin, iş qüvvəsinin, maliyyə vəsaitlərinin fasiləsiz və yüksək sürətlə milli sərhədləri aşması ümumdünya infrastrukturunun inkişafını və təkmilləşdirilməsini sürətləndirir. Çox mühüm nəqliyyat sistemi (dəniz, çay, hava, dəmiryol nəqliyyatı) ilə yanaşı dünya iqtisadiyyatının inkişafı üçün informasiya rabitə şəbəkəsi də böyük əhəmiyyət kəsb edir. Obrazlı şəkildə nəqliyyat sistemini dünya təsərrüfatının damar sistemi, informasiya sistemini isə—əsəb sistemi adlandırmaq olar.

Beynəlxalq ticarət, xidmətlər mübadiləsi və digər ümumdünya təsərrüfat əlaqələri pul vasitəsilə həyata keçirilir. Lakin, bu və ya digər milli pul yalnız onun buraxıldığı ölkədə qanuni hesablaşma vasitəsi hesab olunur. Bununla əlaqədar olaraq müxtəlif ölkələr arasında ticarət-iqtisadi əlaqələr həyata keçirilərkən onların valyutalarının bir-birinə dəyişdirilməsi (konversiyası) zərurəti meydana çıxır. Beləliklə, pul münasibətlərinin yeni sahəsi-valyuta münasibətləri formalaşır.

Valyuta və valyuta məzənnəsi. Bəs valyuta nədir? Valyuta dedikdə ölkənin pul vahidi (manat, dollar, funt-sterlinq, rubl və s.jz həmçinin xarici pul vahidində ifadə olunan və beynəlxalq hesablaşmalarda istifadə edilən kredit və tədiyyə vasitələri (veksellər, çeklər və s. ) başa düşülür.

Tətbiq olunma rejiminə və sahəsinə görə bütün ölkələrin valyutaları dönərli və dönərsiz valyutalara bölünür. Dönərli valyutalara elə valyutalar aiddir ki, müvafiq ölkənin qanunvericiliyi həmin valyutalarla həm öz vətəndaşlarının, həm də xarici ölkə vətəndaşlarının istənilən növ əməliyyat aparmalarına heç bir məhdudiyyət qoymur.

Dönərsiz valyutalarla isə müxtəlif növ əməliyyatların aparılmasına ölkənin qanunvericiliyi ilə müəyyən məhdudiyyətlər qoyulur.

Valyuta məzənnəsi hər bir ölkənin pul vahidinin digər ölkələrin pul vahidlərində ifadə olunmuş qiymətidir. Milli pul vahidinin xarici pul vahidlərinə nəzərən valyuta məzənnəsinin əsasında onların alıcılıq qabiliyyətləri, yəni müəyyən miqdar əmtəələrə və xidmətlərə mübadilə oluna bilmək qabiliyyəti durur. Lakin bir çox həm iqtisadi, həm də qeyri-iqtisadi amillərin təsiri altında valyuta məzənnəsi dəyər əsasından əhəmiyyətli dərəcədə kənarlaşa bilər..

Ölkənin tədiyyə balansı. Ölkənin beynəlxalq iqtisadi əlaqələri özünün ümumiləşdirilmiş kəmiyyət ifadəsini tədiyyə (ödəmələr) balansında tapır.

Tədiyyə (ödəmələr) balansı müəyyən müddət (il, ay) ərzində və ya, müəyyən vaxt bu ölkənin başqa xarici ölkələrə pul ödəncləri ilə xaricdən həmin ölkəyə daxil olmuş vəsait məbləğinin nisbətini ifadə edir. Daxil olmuş vəsaitin məbləği ödəmələrdən artıq olduqda tədiyyə (ödəmələr) balansı aktiv, əks halda, yəni ödəmələrin məbləği daxil olmuş vəsaitdən çox olduqda isə passiv adlanır. Tədiyyə balansının aktiv və passivliyi ölkənin valyuta-maliyyə vəziyyətinin mühüm göstəricisidir. Tədiyyə (ödəmələr) balansının xroniki passivliyi

zamanı ölkənin xarici borcu artır, onun milli valyutasının məzənnəsi aşağı düşür. Bu bütövlükdə ölkənin iqtisadiyyatına mənfi təsir göstərir. Aktiv tədiyyə (ödəmələr) balansı isə milli valyutanın məzənnəsinin yüksəlməsinə və bunun nəticəsi olaraq, ixrac edilən məhsulların xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olur. Tədiyyə (ödəmələr) balansının tarazlığı ölkənin valyuta-maliyyə vəziyyətinin sabitliyinin əsasıdır.

**Sual və tapşırıqlar:**

1. Beynəlxalq iqtisadi əlaqələr nəyə görə zəruridir?
2. Beynəlxalq iqtisadi əlaqələrin əsas formalarını göstərin.
3. Aktiv tədiyyə (ödəmələr) balansının ölkənin iqtisadi inkişafında əhəmiyyətini izah edin.

# SOSİALİZM İDEALI VƏ REAL SOSİALİZM

## §22. Sosializm ideyası və idealı

Bu vaxta qədər siz azadlıq, bərabərlik, ədalətlilik, xeyirxahlıq haqqında çox eşitmişsiniz. Bu amal uğrunda mübarizə aparan bədii obrazlar və tarixi simalarla çox qarşılaşmış, onların həyat və əməlləri ilə tanış olmusunuz. Hələ uşaqlıqdan nənələrinizdən eşitdiyiniz nağıl və dastanlarda, xeyirxahlıqla yanaşı şər qüvvələrlə də qarşılaşmısınız. Siz hamınız mənən xeyirxahlığın, ədalət və azadlığın daşıyıcısı olan qəhrəmanların «tərəfinə keçərək» həsrətlə onların necə qələbə çaldığını izləmiş və buna nə qədər sevinmisiniz. Onların məğlubiyyətinə isə həmişə kədərlənmisiniz. Lakin inanmısmız ki, ədalətsizlik, zülmkarlıq və fırıldaqçılıq uzun çəkməyəcək, Xeyir mütləq Şərə qalib gələcəkdir. Bu inam olmasa, bu inam uğrunda hər kəs bacardığı qədər mübarizə aparmasa onda insan həyatı darıxdırıcı və mənasız olar. İnsan nə üçün yaşadığını bilməz.

Buna görə də hələ qədim zamanlardan insanlar elə bir cəmiyyət arzusunda olublar ki, bu cəmiyyət azadlıq, ədalətlilik və bərabərlik prinsipləri əsasında qurulmuş olsun. Burada adamlar xeyirxah və ləyaqətli olsunlar. Hamı öz qabiliyyət və bacarığı səviyyəsində sərbəst yaşasın. Heç kim heç kimi haqsız olaraq incitməsin. Adamlar özlərinə layiq ləyaqət və xoşbəxtliyə nail ola bilsinlər, bir-birinə kömək etsinlər, birinin sevincini başqaları da bölüşdürə bilsin. Bütün dünyada geniş yayılan və qədim tarixi olan belə nağıl və əfsanələrdən biri Aralıq dənizi sahillərində yaşayan xalqların yaratmış olduqları «Atlantida» əfsanəsidir. Bu əfsanə haqqında qədim yunan mənbələrindən məlumat alırıq. Bu əfsanəyə görə, Atlantik okeanındakı nəhəng adada mövcud olmuş Atlantida ölkəsində adamlar çox firavan, azad və xoşbəxt yaşayırlarmış. Digər bir əfsanə isə bəşəriyyətin başlanğıc dövrünü «qızıl dövr» adlandırır. Bu əfsanəyə görə həmin dövr adamların ən xoşbəxt və ən firavan yaşadıqları dövr olub. Sonra cəmiyyət bu dövrdən uzaqlaşdıqca, adamlar da bu gözəl həyatdan uzaqlaşıb, ondan ayrı düşüblər.

Belə bir cəmiyyətə adamlar təklikdə nail ola bilməzlər. Bunun üçün adamların birliyi, birgə səyi lazımdır. Çünki adamlar bir-birindən ayrılıqda, bir-birindən təcrid olunmuş halda nə işləyə, nə də yaşaya bilərlər. Biri mal-qara saxlayır, biri pambıq becərir, biri televizor düzəldir, bin paltar tikir, biri vətəni qoruyur, biri şagirdlərə dərs deyir və s. Bu adamların hər birinin başqasının əməyinə ehtiyacı var. Adamların bir-birinə olan bu ehtiyacı cəmiyyət adlanan insan birliyini yaradır. Deməli hər bir adam bu cəmiyyətin üzvünə çevrilərək hər hansı bir faydalı işlə məşğul olur və belə adama latınca «sosium», yəni ümumi, ictimai olanın bir üzvü deyirlər. Deməli, hər bir şəxs öz mövcudluğunda ona məxsus olan fərdi cəhətlərlə yanaşı həm də ümumidir, ictimaidir, cəmiyyətin bir üzvüdür.

Cəmiyyətin bu ictimai məzmununa latınca «sosialis» deyilir. Həmin sözün fransızca yazılışı «sosialisme» formasını alır. Sosializm sözü də elə buradan götürülmüşdür. Gördüyünüz

kimi, sosializm sözü insanların birgə həyatı, birgə yaşayışı mənasını verir. Çünki bu birgə, yaxud ictimai həyat cəmiyyətin müəyyən prinsiplər üzərində qurulmasını tələb edir. Buna görə də sosializm anlayışı cəmiyyətin iqtisadi, siyasi, mənəvi və mədəni həyatını əhatə edir. Bu ideyaya görə cəmiyyət hamıya eyni dərəcədə aid olan vahid prinsip və normalara əsaslanır. Həmin prinsip və normaların nüvəsini isə azadlıq və bərabərlik təşkil edir. Hərçənd bu bərabərliyin və azadlığın dəqiq müəyyənləşdirilməsi həm sosializm haqqındakı müxtəlif nəzəriyyələrdə, həm də yaxın vaxtlaradək sosializm adı ilə mövcud olan cəmiyyətlərdə həmişə mübahisəli olmuş, konkret halda heç kimə məlum olmamışdır. Mövcud olmuş sosializm cəmiyyətində isə bu məlum olmayan şeyi zorla ideoloji ehkam kimi qəbul etdirməyə, yaxud şüarlarla gizlətməyə çalışmışlar.

İlkin sosializm ideyası cəmiyyətin bütün üzvlərinə vahid prinsiplərlə yanaşan dövlət hakimiyyətinə əsaslanmışdır. Dövlət hakimiyyətinin bu yüksək və mütəşəkkil forması isə demokratiyadır.

Lakin demokratiya sözü müxtəlif cür başa düşülür. Bəziləri demokratiyanı xalqın hakimiyyəti kimi başa düşür, digərləri hakimiyyətin xalq tərəfindən seçilməsi kimi, üçüncülər isə özbaşınalıq kimi. Lakin demokratiya ilk növbədə hakimiyyətin eyni prinsiplər əsasında bütün xalqa xidmət etməsidir. Əgər bu prinsip pozulursa, demokratiya boş və mənasız ibarəyə çevrilər. Demokratiya heç də hamının idarəetmə işində iştirak etməsi kimi mənasız və uydurma prinsipə əsaslana bilməz, idarəetmə işini bacarıqlı və bilikli peşəkarlar həyata keçirməlidir. Bu adamlar yüksək bilik və bacarıqla yanaşı yüksək də mənəvi və əxlaqi saflığa malik olmalıdırlar. Burada sosializm anlayışı ilə demokratiya anlayışı vəhdətdə olmaqla sosializm ideyasının mayasını təşkil edir.

Bugünkü dünyamızda müxtəlif ölkələr və cəmiyyətlər müxtəlif demokratik quruluşlara malikdirlər. Lakin bu demokratiya formalarının heç birini hələ kamil demokratik

quruluş adlandırmaq olmaz. Çünki öz ölkəsi daxilində az-çox demokratik prinsiplərə əsaslanan dövlət başqa ölkə və cəmiyyətlərə qarşı münasibətdə də bu prinsipləri gözləmirsə, deməli bu demokratiya hələ kamillikdən çox uzaqdır. Deməli, demokratiyanın mühüm cəhətlərindən biri onun dünya miqyasında özünü göstərməsidir. Bu baxımdan bugünkü demokratiya yetkinləşməmiş, özünün həqiqi məzmununu tapmamış demokratiyadır.

Xalqın adından çıxış edənlərin xeyli hissəsi üçün xalq sözü boş ibarədən başqa bir şey deyil. Onların dilində səslənən demokratiya bəd niyyəti ört-basdır eləmək üçün istifadə, olunan pərdədir. Görünür, ictimai inkişaf hələ uzun zaman demokratiyanın təkmilləşməsi yolu ilə gedəcək və idarəetmə işinin həm sistemində, həm də strukturunda təkmilləşmə prosesi davam edəcəkdir.

Hələ qədim yunan filosofları Platon və Aristotel mövcud idarəetmə formalarının heç birini, o cümlədən demokratiyanı da, qəbul etməyərək öz utopik cəmiyyət formalarım irəli sürürdülər.

Aristotel demokratiyanı ona görə qəbul etmirdi ki, burada çoxluq azlığa qarşı durur və yenə də qarşıdurma var. Buna görə də o, demokratiyanı pis dövlət quruluşu elan edərək ona qarşı o qədər də konkret olmayan politiya quruluşunu qoyurdu. Aristotelin politiyası əslində demokratiyaya məxsus olan ziddiyyətlərin mövcud olmadığı «xalis humanist” qanunlarla idarə olunan bir cəmiyyət idi.

Azadlıq və bərabərlik ideyaları orta əsrlərdə Yaxın Şərqdə, o cümlədən, Azərbaycanda da geniş yayılmışdı. Bu ideyalar içərisində məzdəkizm cərəyanı daha çox diqqəti cəlb edir. Bu cərəyanın yaradıcısı Məzdək (VI əsr) cəmiyyətdə bütün sərvətlərin bərabər bölüşdürülməsi ideyasını yayır və onu həyata keçirmək istəyirdi. Buna görə o, öz tərəfdarları ilə birlikdə şah I Xosrov tərəfindən edam olunmuşdur.

Dahi Azərbaycan şairi və filosofu N.Gəncəvi ədalətli cəmiyyət idealına sadiq qalaraq öz əsərlərində ədalətli cəmiyyət

qurmaq üçün ədalətli şah ideyasını irəli sürmüş, buna nail olmağın müxtəlif yol və vasitələrini göstərmişdir.

«Sirlər xəzinəsi" əsərində zülm və qarətçilikdən, xudpəsəndlik və şöhrətpərəstlikdən əl çəkərək bütün ölkənin, zəhmətkeş adamların qayğısına qalmağa, ölkədə xoşbəxt həyat qurmağa çağırırdı:

Şah ölkənin işini nizama salsın gərək, Hər zaman rəiyyətin qeydinə qalsın gərək...

Lakin şahlar Nizaminin şairliyinə yüksək qiymət verərək, ona hədiyyələr göndərəələr də, onun dərin fəlsəfi ideyalarını dərk etmək səviyyəsində deyildilər. Öz ideyalarının dərk edilmədiyini və buna görə də şahlar tərəfindən heç vaxt həyata keçirilməyəcəyini görən Nizami ömrünün axırında yazmış olduğu «İsgəndərnamə» poemasında artıq hər cür ədalətli şah ideyasından imtina edərək heç bir dövlət strukturuna malik olmayan, mütləq azadlıq və bərabərliyə əsaslanan utopik bir cəmiyyət təsvir etmişdir. Bu cəmiyyətdə nə padşah var, nə də mülkədar. Burada hamı bərabərdir. Buna görə də həmin cəmiyyətin ağsaqqalı İsgəndərə söyləyir:

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil, heç kəsdən heç kəs.

Belə sosial utopiyaların yaranması tarixin sonrakı dövrlərində də davam etmişdir . T.Kampanella, T.Mor, C.Svift, Q.Baböf, J.Russo, Sen-Simon, R.Ouen, P.Prudon, N.Çernışevski və digər mütəfəkkirlərin yaratdıqları utopiyaları buna misal göstərmək olar.

Cəmiyyət həyatında mövcud olan kəskin ziddiyyətləri, həmin ziddiyyətləri törədən səbəbləri hərtərəfli təhlil etmək yolu ilə K.Marksın yaratdığı sosializm nəzəriyyəsi ədalətli cəmiyyət qurmaq haqqındakı nəzəriyyələrdən ən mükəmməlidir. Əlbəttə, K.Marksın nəzəriyyəsində heç də bütün məsələlər öz qəti həllini tapmamışdı və 1apa da bilməzdi. Digər tərəfdən isə, onun nəzəriyyəsinin bu və ya digər cəhəti ilə həmin dövrün öz

xüsusiyyətlərindən çıxış edərək mübahisə etmək, qəbul etməmək olardı. Lakin XIX əsr kapitalizm cəmiyyətinin iqtisadi və siyasi təhlili baxımından şübhəsiz ki, K.Marks bu sahədə dünyanın ən görkəmli alimlərindən biri idi.

Karl Marks (1818—1883)—alman filosofu, iqtisadçı, elmi kommunizmin banisi. Gənc yaşlarından hüquq, fəlsəfə və siyasi iqtisad elmlərinə dərindən yiyələnmişdi. 1843-cü ildən fəhlə və sosialist hərəkatına qoşulmuşdu. 1844-cü ildən öz yaxın dostu və məsləkdaşı F.Engelslə birlikdə nəzəri və siyasi fəaliyyətə başlamışdır. Onların birlikdə yazdıqları «Alman ideologiyası” (1845) əsəri kommunizmin nəzəri əsasları olan dialektik və



tarixi materializmin formalaşmasında mühüm mərhələ idi. 50-60-cı illərdə K.Marks özünün iqtisadi təlimini başa çatdıraraq «Siyasi iqtisadın tənqidinə dair” əsərini nəşr etdirdi. 1867-ci ildə F.Engelslə birlikdə yazdığı «Kapital» əsərinin 1-ci cildi çapdan çıxdı. K.Marks sonrakı cildlər üzərində işi ömrünün sonunadək davam etdirmişdir.

Lakin bu cildlər onun ölümündən sonra, F.Engelsin səyi nəticəsində çap edilmişdir. «Kapital»da şərh edilmiş iqtisadi təlim siyasi iqtisadı elmi zəmin üzərinə keçirdi. O, kapitalizm cəmiyyətinin hərəkətinin iqtisadi qanununu kəşf etdi.

K.Marks daha bir çox elmi əsərin, məqalənin müəllifidi. Onun əsərləri Azərbaycanda XIX əsrin sonundan məlumdur.

Marksm sosializm nəzəriyyəsinə gəldikdə isə bu haqda bu gün də mübahisələr davam edir. Hamının qəbul etdiyi əsas cəhət isə bundan ibarətdir ki, Marksın cəmiyyəti iqtisadi cəhətdən inkişaf etdirmək və yoxsul kütlələrin maddi rifahını

yaxşılaşdırmaqla cəmiyyəti daxildən didib parçalayan ziddiyyətləri həll etmək zərurəti haqqındakı fikirlərindən kapitalist ölkələrində ustalıqla istifadə edilmişdir. Bu isə bir daha göstərir ki, hər hansı bir ideyanı ehkama çevirməkdənsə ondan səmərəli istifadə etmək, onu tətbiq etməyin yollarını və mexanizmini tapmaq daha faydalıdır.

Marksm ictimai idealı, onun cəmiyyət modeli yüksək əmək məhsuldarlığına malik olan, firavan yaşayan adamların mənəviyyatları, ləyaqətləri və ümumi mədəniyyətləri üçün bərabər imkanlar yaradan azad və demokratik bir cəmiyyət idi. Bu cəmiyyət zövqlə işləməyi və zövqlə yaşamağı bacaran işgüzar və xeyirxah adamların cəmiyyəti idi. Burada hər bir adanı öz əməyinin həm özü, həm də digərləri üçün faydalı olması ilə fəxr edirdi. Əqli və mənəvi cəhətdən zəngin olan insanlar öz ləyaqətlərini cəmiyyətin ləyaqəti hesab edirlər. Burada yalan, fırıldaq, kələk və aldatma yoxdur. Buna görə də təsadüfi deyil ki, bəziləri Marksa xristian ruhanisi kimi, onun sosializm nəzəriyyəsinə isə «xristian sosializminin” bir forması kimi baxırlar.

Marks özünün sosializm nəzəriyyəsini XIX əsrdə ən çox inkişaf etmiş ölkələrin timsalında hazırlamışdı və yalnız o ölkələr üçün məqbul sayırdı. Lakin bu nəzəriyyəni V.İ.Lenin və onun tərəfdarları o zaman üçün yarımfeodal ölkə olan Rusiyaya köçürdülər və rus imperiyası ərazisində sosializm cəmiyyəti qurmaq fikrinə düşdülər.

Tarix dərslərindən siz bilirsiniz ki, 1917-ci ilin oktyabr ayında Rusiyada inqilab baş verdi və sonra yaradılan cəmiyyəti sosializm adlandırdılar. İndi aydın görünür ki, o cəmiyyət sosializm yox, totalitar hərbi dövlət kapitalizmi cəmiyyəti idi. Bu quruluşu «ən xoşbəxt cəmiyyət” adı ilə keçmiş Rusiya imperiyasının müstəmləkələrində yaşayan xalqlara da zorla qəbul etdirdilər.

Sosializm nəzəriyyəsi həmin xalqlar üçün, onların tarixi ənənələri, həyat tərzləri, psixologiyaları və şüurunun inkişaf

səviyyəsi baxımından tamamilə yad bir nəzəriyyə idi. Bu nəzəriyyəni ehkam kimi onların həyatına tətbiq etmək hər hansı bir adama onun bilmədiyi bir dildə nəyisə izah etmək, istəmədiyi və bacarmadığı bir işi zorla gördürmək kimi mənasız idi. Adam isə başa düşmədikdə, yaxud meyli olmadığını dedikdə fanatiklər onunla tapança ilə danışırdılar. Beləliklə, xeyirxahlıq mövqeyindən yaranmış bir nəzəriyyə fanatiklərin əlində bədxahlıq, zorakılıq vasitəsinə çevrilirdi. Halbuki, həmin nəzəriyyə bədxahlıq və zorakılığı aradan qaldırmaq üçün yaranmışdı.

Əlbəttə, bu yolla yaranan cəmiyyəti sosializm cəmiyyəti adlandırmaq gülünc idi və şübhəsiz ki, həmin cəmiyyəti sosial utopiya yaradanların hər birinə, o cümlədən, Marksa göstərmək mümkün olsaydı, onların hamısı ədalətli cəmiyyət adı altında yaranan bu cəmiyyətdən imtina edər və onun kəskin tənqidini verərdi. Buna görə də fanatiklər yəqin ki, onları da güllələyərdilər.

Beləliklə, XX əsr tarixə yeni bir zəngin təcrübə verdi. Bu təcrübənin mahiyyəti ondan ibaratdir ki, heç vaxt hər han.-ı bir alimin, yaxud siyasi xadimin verdiyi ictimai nəzəriyyə əsasında cəmiyyət qurmaq mümkün deyildir. Cəmiyyət özünün malik olduğu səviyyə, real baza əsasında həmin cəmiyyətə tətbiq oluna bilən bütün ideyalardan istifadə edərək inkişaf edə bilər. Bu səmərəli ideyalar isə cəmiyyətin inkişafı istiqamətində düşünən hər bir adam tərəfindən söylənilə bilər. Nə elm, nə texnika, nə də cəmiyyət həyatı nəzəriyyə monizmini qəbul etmir. Çünki burada müxtəlif istiqamətli fikirlərdən, onların səmərəliliyi baxımından daha faydalı olanlardan istifadə edilir və İm faydalı fikir sahibləri həmişə qiymətləndirilir.

Sosializmə, yəni ədalətlilik, bərabərlik və demokratik prinsiplərə əsaslanan cəmiyyətə gəldikdə isə onu deyə bilərik ki, xoşbəxt cəmiyyət qurmaq idealı bəşəriyyəti həmişə müşayiət edəcəkdir. Çünki adamlar həmişə həll olunmamış ictimai problemlərlə qarşılaşacaqlar. Hər hansı bir ölkə, hər hansı bir

xalq öz ictimai problemlərini başqaları ilə müqayisədə arzu olunan səviyyədə həll etdikdə belə, başqa ölkələrin və xalqların problemləri onu narahat olmağa məcbur edəcəkdir. Çünki indi dünya ölkələri və xalqları elə problemləri həll etməyə məcbur olmuşlar ki, həmin problemlərin məhəlli həlli ya mümkün deyil, ya da az əhəmiyyətlidir. Adətən, belə problemlərə qlobal problemlər deyilir.

**Engels** Fridrix (1820-1895) alman filosofu, iqtisadçı, mütəfəkkir. Gənc yaşlarından alman fəlsəfəsini öyrənməyə başlamış, inqilabçı, demokrat kimi formalaşmışdır. 1842-ci ildə K.Marksla görüşmüş, bu zamandan etibarən bu iki dostun fəaliyyəti onların ümumi işi olmuşdur. F.Engels çoxsaylı əsərlərin müəllifidir, bu əsərlərin bir çoxu K.Marksla birlikdə yazılmışdır. Mühüm əsərləri—“İngiltərədə fəhlə sinfinin vəziyyəti” (1845), «Təbiətin dialektikası” (1873—86), «Anti-Dürinq» (1877—78), «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi” (1884), «Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu» (1886) və s. K.Marksın ölümündən sonra F.Engels əsas diqqətini «Kapital»ını tamamlamağa vermişdi.



Marksizm nəzəriyyəsinin yaradılmasında, onun işlənib hazırlanmasında F.Engelsin rolu böyükdür.

Beləliklə, sosializm idealı və bu ideal ətrafında mövcud olan nəzəriyyələrə yalnız tarixin bu vaxta qədər keçmiş olduğu yolun məhsulu kimi baxıb, indən belə onların yaranmayacağını güman etmək səhv olardı. Bugünkü dünyamız hələ ictimai bəlalar və kəskin ziddiyyətlər içərisindədir. Biz

onun bir tərəfində insanların maddi və mənəvi tələblərini müəyyən səviyyədə ödəyə bilən cəmiyyətlər görürüksə, əksər hissəsində isə gerilik, vəhşilik, aclıq, dilənçiliklə qarşılaşırıq. Bu problemləri həll etmək üçün şübhəsiz ki, ciddi elmi və siyasi axtarışlar aparmaq zərurəti yaranır. Bu axtarışlar isə elmi və siyasi məsələlərin həlli prosesi ilə yanaşı, yeni-yeni utopiyaların da yaranmasına səbəb olacaqdır. Müxtəlif sosial nəzəriyyələr isə cəmiyyətə hava-su kintu lazımdır. Bu nəzəriyyələr olmasa nə insan, nə də cəmiyyət təkmilləşərək arzu olunan istiqamətdə gedə bilməz. Sosial idealla sosializm idealı isə özünün ilkin mənasmda eynidir.

Sual və tapşırıqlar:

1. Cəmiyyətdə ədalət, bərabərlik, azadlıq ideyaları necə yaranmışdır?
2. Nizaminin ədalətli şah və xoşbəxt cəmiyyətindən danışın.
3. İlk sosializm ideyalarını kimlər irəli sürmüşdür?
4. K.Marksın sosializm nəzəriyyəsinin məzmununu açıqlayın.

## §23. SSRİ-dəki real sosializm

Sosializm cəmiyyəti məsələsi həmişə olduğu kimi, indi də mübahisələr doğurur. Bu cəmiyyət haqqında indi mövcud olan müxtəlif fikirləri qruplaşdırsaq, onları dörd yerə bölmək olar:

1. Sosializm cəmiyyəti keçmiş SSRİ-də və Şərqi Avropa ölkələrində praktik olaraq özünü doğrultmamışdır. Buna görə də nə sosializm nəzəriyyəsindən, nə də hər hansı bir sosializm cəmiyyətindən danışmaq mənasızdır;
2. Sosializm nəzəriyyəsi səmərəli nəzəriyyədir, ondan imtina etmək olmaz. Lakin azadlıq, bərabərlik, demokratiya kimi əsas prinsipləri saxlamaq şərtilə bu nəzəriyyə real problemlər baxımından işlənilməli və həyata keçirilməlidir. Keçmiş SSRİ-də və Şərqi Avropa

ölkələrində isə quru ehkamçılıq əsasında yaranmış bir sxemin zorakılıqla həyata keçirilməsinə səy edildiyindən həyatın gedişi bu zorakılıq sxemini dağıtmışdır. Bəşəriyyətin tərəqqi yolunun inkişaf perspektivi isə yalnız sosializm istiqamətindədir;

3. Kapitalizm və xüsusi mülkiyyətçilik cəmiyyəti hər cür sərvəti qoruyub saxlayan və ardıcıl inkişaf etdirən cəmiyyət olduğundan sosializm quruculuğuna cəhd göstərilən ölkələrdə bu sərvət dağıdılaraq məhv edilmiş, indi isə yalnız geriyə qayıtmaqla həmin sərvətləri bərpa etmək və inkişaf etdirmək olar. Sosializm deyilən şey isə uydurma və utopiyadır;
4. Sosializm quruculuğu haqqında marksizm-leninizm nəzəriyyəsi düzgün nəzəriyyədir, lakin həmin nəzəriyyənin həyata keçirilməsində əyintilərə yol verildiyindən sosializm cəmiyyətində neqativ hallar əmələ gəlmiş, kapitalist ideologiyasının təsirinə məruz qalan keçmiş kommunist partiyasının bəzi keçmiş liderləri marksist-leninçi nəzəriyyəyə və sosializmə xain çıxaraq onu dağıtmışlar.

Göstərilən bu mövqelərin hər birinin bu və ya digər dərəcədə dəlil-sübutu olduğu üçün onların arasında gedən mübahisələr yəqin ki, hələ bir müddət davam edəcəkdir. Buna görə də burada bu mövqelərin hər birinin geniş şərhinə ehtiyac yoxdur.

Real sosializmə gəldikdə isə, o artıq bu vaxtadək olan kütləvi anlama baxımından yoxdur. 90-cı illərin əvvəllərində sosializm adı ilə məlum olan cəmiyyətlər dağılmış, onların yerində isə bu gün hələlik məzmunu və strukturu müəyyənləşməyən, buna görə də hələlik istiqaməti də dəqiq məlum olmayan cəmiyyətlər yaranmağa başlamışdır, indi bu cəmiyyətlərin hamısı keçid dövrünün, yeni ilə köhnənin vidalaşması dövrünün əzab və əziyyətlərini, ziddiyyət və təzadlarını yaşayır. Lakin bu keçid dövrünün nədən nəyə keçid

dövrü olması da hələlik o qədər aydın deyildir. Keçid dövrü tarixin bütün mərhələlərində olmuşdur. Həmişə cəmiyyətlər müəyyən bir mərhələdən başqa bir mərhələyə keçmişlər. Lakin tarixin inkişaf' qanunauyğunluqlarının gedişinə görə bu keçid dövrləri bir dövrün başqasının içərisində inkişaf edərək formalaşması zamanı baş verməlidir. Bu zaman əzab və əziyyətlər, ziddiyyət və təzadlar öz təbii hüdudlarından kənara çıxmayaraq kəskin və gərgin olan siyasi qüvvələr toqquşmasına gətirib çıxarmamalıdır. Cəmiyyətin tarixi inkişaf gedişi adi vətəndaş cəmiyyəti sakitliyini, onun təbii halını pozmamalıdır. İnkişaf elastik və çevik olmalıdır ki, hər bir vətəndaş adi qaydada öz, işini görməklə, öz adı və normal insani həyatını yaşamaqla məşğul olsun və eyni zamanda dəyişən tarixi dövrün axarı ilə dəyişsin. Kəskin iqtisadi, siyasi, mənəvi və ideoloji sarsıntılara məruz qalmasın.Lakin təəssüf ki, bu həmişə belə olmur. Adətən, uzun müddət ideoloji və siyasi diktatura hökmranlıqlarına məruz qalan cəmiyyətlərdə dağılma prosesi partlayışlı olur və bu zaman bəmin prosesi normal idarə etmək mümkün olmur. Keçmişə qarşı adamlarda olan kin və nifrət hissi keçmişdə olan yaxşı cəhətləri qiymətləndirməyə onlara imkan vermir. Adamlar emosiyalarla yaşayırlar. Yaddan çıxarırlar ki, cəmiyyətin obyektiv inkişaf qanunları keçmişi inkar etdiyi kimi, onda olan yaxşı cəhətlərin də qəbul olunmasını tələb edir. Bu tələbə əməl etməmək cəmiyyətin həyatındakı ziddiyyətləri daha da dərinləşdirir. Bunu biz keçmiş SSRİ ərazisində yaranan yeni dövlətlərin, o cümlədən, Azərbaycanın da həyatında açıq-aşkar müşahidə edirik.

Şübhəsiz ki, tarixi proses müxtəlif cəmiyyətlərin inkişafında həm sakit axarlı dövrlərlə, həm də kəskin sarsıntılar, ziddiyyətlərlə müşayiət olunmuşdur. Lakin XX əsrdə cəmiyyət həyatında baş verən kəskin sarsıntılar dünyanın inkişaf etmiş ölkəlöfində deyil, az və ya çox dərəcədə geridə qalmış ölkələrində baş verməkdədir. Əvvəlki əsrlərdə isə belə sarsıntılar müxtəlif məzmunlu və istiqamətli olsa da hər yerdə

baş verirdi. Buradan belə qənaətə gəlmək olar ki, dünyanın bir hissəsində mövcud olan cəmiyyətlərdə (Avropa və Şimali, Amerika) insanların maddi və mənəvi tələbatı qaneedici səviyyədə ödənildiyi üçün bu cəmiyyətlər kəskin sosial-siyasi sarsıntılara məruz qalmırlar. Buna görə də bu cəmiyyətlərə iqtisadi, siyasi, sosial və mənəvi cəhətdən inkişaf etmiş cəmiyyətlər deyirlər. Buna görə də digər ölkələr və xalqlar da, bu və ya digər şəkildə, bu istiqaməti götürməyə şəy göstərirlər. Bu gün müstəqil iqtisadi, siyasi, mədəni'və mənəvi quruculuq yoluna qədəm qoymuş Azərbayca da məhz bu yolu seçmək əzmindədir. Lakin ümumi sivilizasiya meyarları ilə yanaşıldıqda açıq görülən ümumi gerilik bu yolla sürətlə getməyə mane olur. Bu prosesin sürəti müasir elmin, texnikanın, texnologiyanın öyrənilməsi və tətbiqi dərəcəsindən, ümummilli şüurun formalaşması sürətindən asılıdır.

Milli müstəqilliyə qədəm qoymuş bu ölkələrdə yaşayış səviyyəsinin aşağı olduğu bir şəraitdə kütləvi informasiya vasitələrinin qabaqcıl ölkələri təbliğ və reklam etməsində də müəyyən ziddiyyətlər yaranır. Bu informasiya yaxşı olana meyli artırmaq baxımından, şübhəsiz ki, faydalıdır. Lakin bu informasiya əsasən əldə edilən nailiyyətləri nümayiş etdirir. Buna nail olmaq üçün istifadə edilən iş rejimi, metod və üsullar geniş göstərilmədiyindən, geridə qalmış ölkələrin xalqlarını öz mövcud həyatından narazı salır və onlar öz həyatlarının pis olmasının səbəbini yalnız mövcud siyasi quruluşda axtarıb, öz istehsal qabiliyyətləri və şüur səviyyələri haqqında az düşünürlər. Bu isə reallıqdan uzaqlaşmağa, siyasi çevrilişlər oyunu oynamağa gətirib çıxarır. Guya ki, kimsə, yaxud kimlərsə hakimiyyətə gələrsə möcüzə olacaq və hər şey düzələcəkdir. Şüurun bəsitliyi üzündən siyasət, quruculuqdan daha çox, dağıdıcılıq alətinə çevrilməyə başlayır. Adamlarda yarışmaq, qurmaq əvəzinə, uçurmaq, dağıtmaq ehtirası yaranır. Bu adamlar fikirləşə bilmirlər ki, dövlət və siyasi liderlər özlüyündə yüksək mənəviyyata və siyasi, bacarığa malik olsalar belə, xalq

yaradıcılıq əzmi ilə çalışmasa, ölkənin vəziyyəti düzələn deyil. Hərçənd burada cəmiyyətin təşkili və fəaliyyəti üçün nə hakimiyyət, nə də onun başında duran liderlərin keyfiyyətini hesabdan atmaq olmaz.

Sosializin ideyasının xoşbəxtliyə aparan yol kimi həyata keçirilməyə başlaması 1917-ci ilin oktyabrından dünyanın nisbətən geridə qalmış ölkələrindən biri olan Rusiyaya təsadüf etdi. Çünki burada da xalq pis yaşadığından, dövləti və onun liderlərini günahlandırırdı. Bu zaman tarixən gözəl və xoşbəxt həyat qurmaq idealı kimi çıxış edən sosializm xalq kütlələrinin əksər hissəsinin arzu və istəyinə uyğun gəldiyindən, hamı sosializm vəd edənlərin ardınca gedərək mövcud siyasi quruluşu dağıtdı və bu siyasi quruluşu idarə edən qüvvələri qovdu. Sosializm bərabərlik və azadlıq idealı ilə çıxış etdiyindən, elə başa düşüldü ki, bərabər yaşamaq üçün, yığılmış sərvəti talan edib, hamını bərabər etmək lazımdır. Beləliklə, mövcud sərvət qısa müddətdə talan edildi. Azadlığı isə belə başa düşürdülər ki, kim nə istəsə, onu da edə bilər. Bu azadlıq daha çox talançılıq və yoxsulların varlılardan intiqam almaq azadlığına çevrildi.

Beləliklə, cəmiyyət həm iqtisadi, həm də mədəni və mənəvi cəhətdən geri atılmış oldu. O zaman bu prosesi izləyən və bu dağıdıcı inqilabi prosesə rəhbərlik edən Vladimir Ulyanov (Lenin) hərdən özü də dəhşətə gəlir və artıq oktyabr inqilabından bir neçə ay sonra deyirdi ki, sosializm quruculuğunun konkret yolları haqqında heç bir məlum fikir yoxdur, bunu biz özümüz axtarıb tapmalıyıq. Bir az sonra isə deyirdi ki, biz sosializmə aid bütün baxışlarımızı dəyişməliyik, gərgin axtarışlar aparmalıyıq. Lakin Ulyanovun fikirlərində və fəaliyyətində çoxlu ziddiyyətlər olduğundan, onun səmərəli fikirlərini də eşidən və əməl edən yox idi. Sosializm adı ilə heç kimə məlum olmayan zorakılığa və saxtakarlığa əsaslanan bir cəmiyyət qurulurdu. Sosializm cəmiyyəti adlanan bu cəmiyyətin qurulması üçün mövcud olan qüsurlu sosializm nəzəriyyəsinin ən bayağı cəhətləri götürülərək sistemləşdirilmiş və bu sistem üçün əsasən

Marksı və Lenini büt etmişdilər. Beləliklə, onların sağlam fikirləri ilə yanaşı, qüsurlu və ziddiyyətli fikirləri də müqəddəsləşdirilmiş və zorakılıq yolu ilə cəmiyyət üzvlərinə qəbul etdirilmişdir. Sosializm nəzəriyyəsindən başı çıxmayanlar və ümumiyyətlə, nəzəri təfəkkürə malik olmayanlar nəzəriyyəçilik etməyə, başqalarını öyrətməyə çalışmışlar. Çünki sosializm nəzəriyyəsi deyilən nəzəriyyə əsasən bürokratik partiya aparatının yaradıcısı İ.Stalin tərəfindən məhdud çərçivədə olan ehkamlardan ibarət bir sistemə salınmış və onları dərk etmədən belə əzbərləmək mümkün olmuşdur.

Bu nəzəriyyənin əsasını isə ictimai mülkiyyət, yaxud mülkiyyətin. ictimailəşməsi təşkil etdiyindən, mahiyyətinə varmadan ictimai mülkiyyət dövlət mülkiyyəti kimi başa düşülmüş və bu yolla da ictimai mülkiyyət əvəzinə mülkiyyət üzərində mütləq dövlət monopoliyası yaradılmışdır. Bununla da xalq maddi sərvətlərin mənbəyindən və bu sərvətlərin hazır məhsullarından məhrum olmuşdur. Bərabərlik istehsal alət və vəsaitlərdən məhrum olmaq bərabərliyinə, azadlıq isə müstəqil düşünmək və fəaliyyət göstərməkdən azad olmağa çevrilmişdir. Dövlət və onun liderləri bütün xalqın əvəzinə düşünür və sərvəti də hamıya acından ölməmələri üçün bərabər paylayırdılar. «Hər kəsdən bacarığına və hər kəsə əməyinə görə» məşhur şüarı isə sosializmin başlıca prinsipi elan olunsa da, bu cəmiyyətdə işləmirdi. Sosializm adlanmayan cəmiyyətlər isə bu şüarı iqtisadi inkişaf mexanizmini hərəkətə gətirə biləcək səviyyədə tətbiq etməyə başladılar. Ümumiyyətlə, sosializm nəzəriyyəsinin səmərəli ideyaları başqa cəmiyyətlərdə ən səmərəli formada tətbiq edildiyi halda, sosializm cəmiyyətində muzey eksponatına çevrilərək nümayiş etdirilir. Xalq əvvəllər sosializm ideyalarına inanaraq həvəslə işə girişsə də, sonralar hər tərəfdə saxtakarlıq, haqsızlıq görüb geri çəkilir və hərə öz qınına girir.

Beləliklə, ictimai mülkiyyət ideyası işlənib konkretləşdirilmir və o mücərrəd anlayış kimi qalır, yaxud təhrif olunaraq

mütləq dövlət monopoliyası kimi başa düşülür. Əlbəttə, nə qədər ki, bu məsələ işlənməyib, onun ətrafında çoxlu mübahisələr etmək olar. Ancaq yadda saxlamaq lazımdır ki, mülkiyyət mütləq dövlət monopoliyasında ola bilmədiyi kimi, yalnız ayrı-ayrı vətəndaşların mülkiyyəti kimi də mövcud ola bilməz. Çünki mülkiyyətin əsas mənbələri olan torpaq və yeraltı sərvətlər bu və ya digər ərazidə yaşayan bütün vətəndaşlara məxsusdur və onların buna təbii hüquqları var. Bunun özündə isə bir ictimailik var. Deməli söhbət məhsuldar qüvvələrin və mülkiyyət münasibətlərinin elə ahəngdar əlaqəsindən gedir ki, burada xüsusilə ümumi vəhdət təşkil edir, onların qarşılıqlı təsir və əlaqəsi inkişafını təmin edir, istehsal prosesi adamların birliyini tələb edirsə, deməli mülkiyyət də adamların müəyyən birliyini tələb edir. Deməli, həm istehsal, həm də mülkiyyət münasibətlərinə differensial yanaşmaq lazımdır. Hər biri özünün konkret formasını tapmalıdır. Əgər istehsal kəmiyyət baxımından az qüvvə tələb edirsə, şübhəsiz ki, orada mülkiyyət-xüsusiləşə bilər. Lakin bu mülkiyyət başqalarının əməyinin istismarı hesabına deyil, şəxsi təşəbbüskarlıq, bacarıq və əmək hesabına mövcud olmalı və məhsul verməlidir. Əgər kimsə müxtəlif qəbildən olan qeyri-qanuni yolla mülkiyyət ələ keçirib başqalarının istismarı hesabına dövlətlənmək istəyirsə, onda bu mülkiyyəti ləğv etmək lazımdır. Hər hansı mülkiyyət forması yalnız ümumi sərvətin artmasına və onun ədalətli, əməyə görə bölünməsi prinsipinə əsaslanmalıdır. Belə mülkiyyət formaları həm dövlət, həm ictimai, həm kooperativ, həm xüsusi və s. ola bilər.

Sosializm cəmiyyətinin dağılması ilə əlaqədar bəziləri belə düşünürlər ki, indi cəmiyyət kapitalizmə keçir və bu keçid dövrü də sosializmdən kapitalizmə keçməkdən ibarətdir. Lakin yaddan çıxarırlar ki, indi klassik mənada başa düşülən kapitalizm yoxdur. Yaxud, bu kapitalizm geridə qalmış ölkələrdə mövcuddur. Qabaqcıl ölkələrdəki kapitalizm isə, bizim hələ də keçmiş adətlə adlandırdığımız kapitalizmlə çoxdan vidalaşıb.

Söhbət müasir inkişaf etmiş ölkələrin (məsələn, İsveç, Finlandiya, İsveçrə, Fransa, Avstriya və s.) modelini götürməkdən gedirsə, onda yadda saxlamaq lazımdır ki, bu ölkələrdə əvvəlki kapitalizm yoxdur və bu kapitalizm öz ənənələri üzərində inkişaf edərək sosialistləşmişdir. Burada sosializm nəzəriyyəsində olan müsbət və rasional ideyalarla kapitalizmin ən yaxşı cəhətləri birləşmiş, yaxud konvergensiya prosesi getmişdir. Çünki inkişaf məntiqi bunu tələb edirdi.

Rusiyada isə cəmiyyətin real vəziyyətini öyrənmək əvəzinə, sosializm cəmiyyəti haqqında əvvəlcədən söylənilmiş fikirlərdən ibarət ehkam sistemi yaradıldı, mürəkkəb ictimai orqanizm olan cəmiyyəti bu donuq ehkamlar üzərində qurmağa başladılar. Bu ehkamlara şübhə edənləri, yaxud onları həyatın tələblərinə uyğun surətdə dəyişdirmək istəyənləri isə müxtəlif yollarla fiziki və mənəvi cəhətdən məhv etməyə başladılar. Bu isə sosializm nəzəriyyəsinin və sosializm cəmiyyətinin həqiqi faciəsi idi.

İctimai nəzəriyyə dövlət ideologiyasına çevrilərək zorakılıq və silah gücünə həyata keçirilməyə və adamların beyninə yeridilməyə başladı. Bu yolla da canlı nəzəriyyə ehkamlaşdırılaraq quru ideologiyaya çevrilməyə və quru ideologiya modeli əsasında isə cəmiyyət qurulmağa başlandı. Belə eybəcərliyin analoqu doğrudan da tarixdə yox idi və güman etmək olar ki, heç olmayacaqdır.

Bütün bunların sosializm quruculuğu kimi qələmə verilməsi isə doğrudan da faciədir. Bu yolla da sosializm işdə istər sosializmin və istərsə də hər hansı müasir sivilizasiyalı cəmiyyətin qızıl prinsipi olan «hər kəsdən bacarığına görə və hər kəsə əməyinə görə» prinsipindən uzaqlaşır.

Müasir sivilizasiyalı cəmiyyətlərdə sosializm nəzəriyyəsinin bu qızıl prinsipi doğrudan da həyata keçirilməyə başlamışdır. Çünki artıq qeyd olunduğu kimi, cəmiyyətlər irəli getdikcə daha çox sosialistləşirlər. Cəmiyyətin yalnız fərdiyyətçilik və xüsusiyyətçilik psixologiyası və şüuru əsasında

inkişaf edə bilməsi haqqındakı fikirlər isə bugünkü sivilizasiyalı cəmiyyətlər baxımından doğrudan da anaxronizmdir. Lakin cəmiyyətlər bu yolu keçməlidirlər, onlar fərdiyyətçilik və xüsusiyyətçilik psixologiyasının eybəcərliklərini yaşayaraq, onun əzablarını dərk edərək ondan imtina etməlidirlər. Bu təbii prosesi süni yollarla aradan qaldırmağa girişmək sosializm nəzəriyyəsinin keçmiş SSRİ-də və digər ölkələrdə zorla həyata keçirilməsindən doğan acınacaqlı nəticələrə gətirib çıxarar

Sosializm nəzəriyyəsi bəşər həyatının ümumi, obyektiv gedişindən kənarda həyata keçirilə bilməz. Burada söhbət həmin gedişin düzgün başa düşülməsindən doğan prinsiplər əsasında həmin gedişə müdaxilə etməkdən ibarət ola bilər. Burada utopiyaya və zorakılığa əl atmaq olmaz. Bugünkü Avropa ölkələrinin çoxunda utopiyasız və zorakılıq olmadan sosializm nəzəriyyəsinə məxsus ideyaların böyük bir qismi cəmiyyət həyatına tətbiq edilmişdir. Hərçənd bu cəmiyyətlərin heç birini hələ kamil cəmiyyət adlandırmaq olmaz və ümumiyyətlə hər hansı bir cəmiyyətə «kapitalizm», yaxud «sosializm» cəmiyyəti adı verməyin özü mənasızdır. Çünki söhbət sosial ədalətə əsaslanan cəmiyyətdən gedir və belə cəmiyyətin məhək daşını qabiliyyətə görə işləmək və əməyə görə almaq prinsipi təşkil edir. Müasir sivilizasiyalı cəmiyyətlərdə belə bu prinsip hələ özünün optimal səviyyəsində işləmir. Çünki bu cəmiyyətlərdə hələ neqativ hallar çoxdur. Həmin prinsipin tam həyata keçirilməsi gələcəyin işidir və bəşəriyyətin kamillik dərəcəsinə gedən yol bu prinsipin həyata keçirilməsi ilə bağlıdır. Beləliklə, sosializm ideyası heç də cəmiyyət həyatına yad olan, uydurma və qondarma bir ideya deyildir. Söhbət həmin ideyanın həm iqtisadi, həm siyasi, həm sosial, həm də mənəvi və mədəni sahədə necə və hansı yolla, hansı mexanizm vasitəsilə həyata keçirilməsindən gedə bilər. İnsanları isə onların yaşadığı cəmiyyətin adı yox, bu cəmiyyətin onların azad və müstəqil fəaliyyətləri üçün yaratdığı şərait və əldə etdikləri maddi və mənəvi nəticələr maraqlandırır. Əgər bu nəticələr yaxşıdırsa,

deməli başqa yaxşı ideyalar kimi sosializm ideyası da yaxşıdır.

**Sual və tarşırıqlar:**

1. Keçmiş SSRİ-də mövcud olmuş quruluşu sosializm adlandırmaq olarmı?
2. SSRİ-dəki sosializmin əsas cəhətləri hansılar idi?
3. Bu cəmiyyətdəki pozuntuların səbəblərini nədə görürsünüz?
4. Azərbaycan Respublikasının gələcək inkişafını necə görürsünüz?

# MÜASİR DÖVRÜN QLOBAL PROBLEMLƏRİ

## §24. Bütün bəşəriyyəti narahat edən problemlər

Hazırda bəşəriyyət öz inkişafında elə bir mərhələyə gəlib çatmışdır ki, o bir yandan nəhəng məhsuldar qüvvələr yaratmış, bir yandan da onun doğurduğu ciddi nəticələrlə üzləşmişdir. Elmi-texniki tərəqqi və insan zəkasının qüdrəti bizə misilsiz nailiyyətlər bəxş etsə də, ətraf mühitin qorunması, müharibələrin qarşısının alınması, təbii ehtiyatlardan daha səmərəli istifadə olunması və s. kimi problemlər də yaratmışdır. Bütün bunların hamısı qlobal problemlər adlandırılır, onları öyrənən bilik sahəsinə isə qlobalistika deyirlər.

Bəs bu problemlərin qloballığı özünü nədə göstərir?

— Birincisi, bu problemlər olduqca kəskin və aktual problemlərdir, onların həll edilməməsi ictimai tərəqqini ləngidə, sivilizasiyanı məhv edə bilər;

— onlar özündə ictimai, təbii və mənəvi cəhətləri birləşdirdiyinə görə kompleks xarakterli çulğaşıq problemlərdir;

— bu problemlər ölkələri və regionları əhatə etdiyinə, bütün bəşəriyyətin mənafeyinə toxunduğuna görə planetar xarakter daşıyırlar;

— məhz ona görə də bu problemlərin həlli bütün elm sahələrinin və praktik fəaliyyətin bütün növlərinin qovuşuğunda mümkündür;

— onların həll edilməsi bəşəriyyətin bütün qüvvələrini birləşdirən qlobal strategiya hazırlamağı tələb edir.

Göründüyü kimi, müasir dünyanın qlobal problemləri bir-birilə qarşılıqlı surətdə əlaqədədir və bir-birinə təsir göstərir. Və yaxud birinin həllindəki uğurlu addım digər problemlərin də həlli üçün əlverişli şərait yaradır. Məsələn, hərbi təhlükənin artması,, çoxlu maddi və maliyyə vəsaiti, insan zəkası və güc tələb edən sürətlə silahlanma xammal, enerji, ekoloji və digər problemləri kəskinləşdirir. Deməli silahların azaldılması və ləğvi cəmiyyəti müharibə təhlükəsindən azad etməklə yanaşı, geridə qalmış ölkələrin iqtisadi çətinliklərinin həlli, dünya miqyasında ərzaq, xammal və enerji problemlərinin müsbət həlli üçün də geniş imkanlar açar. Beynəlxalq münasibətlərin sülh əsasında inkişafı, təbii ehtiyatlardan səmərəli və kompleks şəkildə istifadə edilməsi, ətraf mühitin qorunması və fəal demoqrafiya siyasətinin yeridilməsi üçün zəmin yaradar.

«Qlobal» termini 3 mühüm mənaya malikdir:

Miqyaslı, geniş; 2) hər şeyi əhatə edən, hər yerdə olan;

3) ümumbəşəri, ümumdünya, planetar, beynəlxalq əhəmiyyətli.

İndi gəlin görək müasir qlobal problemlərin meydana gəlməsinin əsas səbəbləri hansılardır?

Tarixə qısa nəzər salsaq görərik ki, bəşəriyyət öz inkişafının ayrı-ayrı mərhələlərində çox ciddi və ağır nəticəli problemlərlə üzləşmişdir. Təbii fəlakətlər (zəlzələ, vulkan, daşqınlar, quraqlıq), müharibələr, epidemiyalar (vərəm, taun), aclıq və s.

XVII—XVIII əsrlərdə kapitalizmin yaranması ilə təsərrüfat əlaqələrinin getdikcə beynəlmiləlləşməsi və dünya iqtisadiyyatının öz dairəsinə daha çox dövlətləri cəlb etməklə vahid bir sosial orqanizmə çevrilməsi prosesi başlayır. Ümumdünya bazarının yaranması ilə millətlərin və xalqların

təsərrüfat həyatındakı ümumi və oxşar cəhətlər artır. Aydındır ki, nəticədə insanın təsərrüfat fəaliyyətinin güclənməsi təbii sərvətlərdən (su, torpaq, meşə, yeraltı sərvətlər) istifadə edilməsinin həcmini və sürətini artırır. Təbii ehtiyatlardan kortəbiim və amansız istifadə. edilməsi təbiətin ahəngini və müvazinətini pozur, təbiət normal vəziyyətini itirir. Sənaye tullantıları su və hava hövzələrini çirkləndirməyə başlayır. Həm də bu zaman insanlar yalnız iqtisadi mənafe dalınca qaçdıqlarından, təbiətin başına nə gətirdikləri, təbiətin ahənginin pozulması haqqında əsla düşünmürlər. Beləliklə də hər şeyin «ölçüb-biçildiyi», «diqqətlə nəzərə alındığı» təbiətlə insan arasındakı ziddiyyətlərin bünövrəsi qoyulmağa başlayır. Bir mütəfəkkirin dediyi kimi, təbiət üzərindəki qələbələrlə öyünmək lazım deyil, çünki o, hər bir qələbə üçün amansız intiqam alır. Axı təbiət-insan münasibətlərində təbiət həmişə ağ fiqurlarla oynayır, insan həmişə təbiətdən asılıdır.

Elm və texnikanın sonrakı inkişafı əvvəllər mövcud olan bir sıra problemlərin təbiətini dəyişir. Onlardan bəziləri yerli, məhəlli, regional xarakterini itirib ümumi qlobal mahiyyət kəsb edir (əhali artımı, şəhərlərin böyüməsi və s.), digərləri böhran dərəcəsinədək kəskinləşir (müharibə, ətraf mühitin çirkləndirilməsi və s.). Bir sıra yeni problemlər yaranır (irimiqyaslı nəqliyyat qəzaları, partlayış və yanğınlar, spesifik xəstəliklər, və s.).

Deməli, elmi-texniki inqilabın sürətli inkişafı, onun nəticələrinin düzgün tətbiq edilməməsi bir sıra təbii, sosial-siyasi, iqtisadi, sosial-mədəni problemləri çulğaşıq şəkildə kəskinləşdirilməklə hazırda, müşahidə olunan və ciddi təhlükə törədən qlobal problemləri yaratmışdır.

Müasir dövrün qlobal problemləri bir sıra təzahür, xüsusiyyətlərinə malikdir:

Birincisi, onlar daxili məntiqi rabitəyə malik olmaqla vahid bir sistemin ünsürlari kimi meydana çıxır. Buradan da onların kompleks xarakteri təzahür edir.

İkincisi, qlobal problemlər dtfyäşkən, dinamik problemlərdir. Onların kəmiyyət və keyfiyyəti sürətlə dəyişir, ya artırt ya azalır, gah kəskinləşir, gah da zəifləyir.

Üçüncüsü, bu problemlər bəşəriyyət üçün böyük əhəmiyyətə malik olduğundan onların həll edilməsi beynəlxalq əməkdaşlıq əsasında mümkündür.

Söylədiklərimizdən aydın olur, ki, müasir dünyanın qlobal problemlərinin həlli hər cür süni sədlərin, milli hədlərin, ideoloji və sinfi ehkamların aradan qaldırılmasını tələb edir, bütün gücü, vəsait və imkanları birləşdirib onların həllinə yönəltməyi zəruri edir.

İndi də göstərilən bu problemlərin hər biri üzərində ətraflı dayanaq.

## §25. Müharibə və sülh problemi

*Müharibə millətlər və xalqlar arasında elə bir dəhşətli mühakimə üsuludur ki, həm mühakimə edəni, həm də mühakimə ediləni məhv edir.*

*(P. Pikasso, ispan rəssamı)*

Bu gün gərginliyinə, kəskinliyinə və törədə biləcəyi dəhşətli nəticələrinə görə bəşəriyyət qarşısında duran ən ciddi problem müharibə və sülh problemidir. On milyonlarla insan həyatını məhv edən iki dünya müharibəsi, habelə saysız-hesabsız lokal problemlər təsdiq etmişdir ki, onlara son qoymadan sivilizasiyanın normal inkişafını və insanlığın özünün varlığını təmin etmək mümkün deyildir. XX əsrdə kütləvi qırğın silahlarının (atom, kimyəvi, bioloji) yaradılması və onların ehtiyatının həddən artıq toplanması insanı texniki cəhətdən öz varlığına son qoymağa qadir etmişdir. Dünyamızda ölkələr arasında sosial xarakterli ziddiyyətlərin qalması bu təhlükəni daha da artırır. Uzun müddət dünyanın iki sistemə parçalanması,

onların siyasi, ideoloji və hərbi qarşıdurması sürətlə silahlanmaya rəvac vermiş, dünyada müxtəlif növ xeyli silah toplanmasına gətirib çıxarmışdır. 80-ci illərin ortalarında dünyada toplanmış nüvə silahı ehtiyatları Yer kürəsini 18 dəfə dağıtmağa kifayət edər. Sürətlə silahlanma habelə bəşəriyyətin maddi və mənəvi sərvətlərinin boş yerə məsrəf edilmpsi deməkdir. 70-ci illərdə keçmiş Sovet İttifaqı milli gəlirin 40%-ini hərbi məqsədlərə sərf edirdi. Müharibələr dövründə hərbi xərclər daha da artır. Erməni təcavüzünə məruz qalmış müstəqil Azərbaycan illik büdcənin 50%-ə qədərini hərbi məqsədlərə sərf etməyə məcbur olmuşdur.

Müharibələr həmişə olmuş və insanlara böyük məhrumiyyətlər gətirmişdir. Mütəxəssislər hesablamışlar ki, indiyədək dünyada irili-xırdalı 2700-dən çox müharibə olmuşdur. Son 2 minillikdə bəşəriyyət yalnız 264 il müharibəsiz yaşamışdır. Son dövrlər lokal (məhəlli) müharibələrin sayı çoxalmışdır. Hal-hazırda dünyada 70-dən çox məhəlli münaqişə mərkəzi, qaynar nöqtə mövcuddur. Lakin əvvəlki dövrlərdən fərqli olaraq müharibənin qarşısını almaq üçün imkanlar da çoxalmışdır. Son vaxtlar beynəlxalq münasibətlərdə baş verən müsbət dəyişikliklər sülh tərəfdarlarının sıralarını daha da möhkəmlətmişdir.

Bir çoxları müharibələri insan təbiəti ilə bağlayaraq belə hesab edirlər ki, müharibəni insan mənəviyyatmdakı naqisliklər törədir. Guya insan təbiətindəki təcavüzkar instinktlər onu öz həmcinsinə qarşı hərəkətlərə sövq etdiyindən, müharibələr bəşər cəmiyyətinin əbədi yol yoldaşı olmuş və olacaqdır. Hətta, böyük alman filosofu Hegel qeyd edirdi ki, əsən küləklər durğun gölü iyləndirməkdən qoruduğu kimi, müharibələr də bəşər cəmiyyətini çürüməkdən qoruyur.

Əlbəttə, mürəkkəb sosial-siyasi hadisə olan müharibələrin mahiyyətini bu cür ifrat mövqedən aşkarlamaq mümkün deyil. Məsələyə bu cür yanaşmaqla müharibə ilə dövlətlərin siyasəti arasındakı sıx əlaqə unudulur, siyasət və siyasətçilər

məsuliyyətdən azad edilir, müharibənin törətdiyi qırğınlara və dağıntılara haqq qazandırılır.

Hər bir müharibə ölkələr arasında yeridilən siyasətlə qırılmaz surətdə bağlıdır. Ortaya çıxan problemləri, məqsəd və ziddiyyətləri həll etmək üçün siyasi vasitələr səmərəsiz olduqda, zorakı üsullara, müharibə vasitələrinə əl atılır. Ona görə də müharibəni siyasətin digər vasitələrlə, yəni zorakı üsullarla davamı kimi də başa düşmək olar.

Tarixdən müxtəlif müharibələr bəllidir. Qulların quldarlara, kəndlilərin mülkədarlara qarşı müharibələrini misal göstərmək olar. Yeni dövr, yəni kapitalizmin meydana gəlməsi və çiçəklənməsi dövrü müstəmləkələr uğrunda aparılan müharibələr, bunun nəticəsi olaraq müstəmləkə ölkələrinin apardıqları milli azadlıq müharibələri geiiişlənir. Elə I və II dünya müharibələri də yeni torpaqlar, yeni nüfuz dairələri uğrunda müxtəlif dövlətlər qrupunun mübarizəsi kimi baş vermişdir.

1917-ci ildə ilk sosialist dövlətinin yaranması dünyanı bir-birinə zidd olan 2 sistemə parçalayır. Nəticədə siyasi, ideoloji və hərbi qarşıdurmanın sərhədləri daha da genişlənir. On milyonlarla insanın məhvi, minlərlə şəhər və kəndlərin dağılması ilə nəticələnən ikinci dünya müharibəsi başlayır.

İki sistem arasındakı qarşıdurma ikinci dünya müharibəsindən sonra daha da kəskinləşir. Müharibədən qalib çıxmış sovet rejiminin Şərqi Avropada və Cənub-Şərqi Asiyada möhkəmlənməsi sosialist istiqaməti seçmiş ölkələrin sayını artırır. Bu isə dünyada qüvvələr nisbətinin kəskin dəyişməsinə gətirib çıxarır. Nəticə etibarilə, beynəlxalq münasibətlər iki sistemin—kapitalizm və sosializm sistemlərinin kəskin qarşıdurması şəraitində formalaşmağa başlayır. 1946-cı ildə Amerikanın Fulton şəhərində Böyük Britaniyanın o zamankı baş naziri U.Çerçilin çıxışı ilə iki sistem arasındakı mübarizənin təmərküzləşmiş ifadəsi olan «soyuq müharibə»nin bir növ startı verildi. Özündə ideoloji, siyasi, iqtisadi təxribatları, habelə

psixoloji təsir vasitələrini birləşdirən «soyuq müharibə» əslində «isti müharibə»dən, yəni hərbi əməliyyatlardan az fərqlənir.

Güclü ideoloji təxribat vasitələrindən biri olan kütləvi informasiya vasitələri, təbliğat və təşviqat, psixoloji təsir vasitələri, şantaj və açıq hədə, hərbi güc nümayişi, hətta beynəlxalq təşkilatların tribunası—bunlar hamısı qarşıdurmanı, qarşılıqlı ittihamları daha da gücləndirməyə yönəldilmişdi. Adamların beyni, düşüncə və davranışları da bu hava üstə köklənirdi. Bu Zəmində beynəlxalq həyatın ən kiçik bir məsələsi belə ideologiyalaşır, hər bir hadisəyə düşmənçilik siyaşəti baxımından yanaşılırdı. Hədsiz şübhəli, hər şeydə düşmən obrazı axtarmaq meyli dövlətlərarası münasibətlərə geniş ayaq açır. Sosialist dövlətləri sərhədləri daha da möhkəmləndirərək, «dəmir pərdə» ilə özlərini xarici aləmdən tam təcrid etməyə çalışırlar. İdeoloji mübarizəyə sinfi mübarizənin bir forması kimi baxan sosialist ölkələri sosialist inqilabını ixrac etmək sövdasından da əl çəkmirdilər. Belə bir ab-havada beynəlxalq münasibətlərin kəskin militaristləşdirilməsi xətti götürülür, sürətlə silahlanma baş alıb gedirdi. Sosializm və kapitalizm cəbhəsinə daxil olan ölkələr öz büdcələrinin böyük bir hissəsini hərbi xərclərə ayırırdılar. Hərbi və siyasi qarşıdurmanın konkret ifadəsi kimi 1949-cu ildə NATO bloku, 1955-ci ildə isə Varşava hərbi paktı yaranır. Bu axında təcavüzkar hərbi doktrinalara geniş rəvac verilir. Hər iki tərəfdə müharibələrə açıqdan-açığa siyasi məqsədlərə nail olmaq vasitəsi kimi baxılır. Bu bal ABŞ və SSRİ kimi fövqəldövlətlərin hərəkətlərində daha aydın nəzərə çarpır. Koreyaya, Vyetnama, Çexoslovakiyaya, Əfqanıstana və s. ölkələrə hərbi təcavüzlər, onların daxili işlərinə hərbi müdaxilə bu qarşıdurma siyasətinin nəticəsi idi. Karib böhranı (1961) bunun zirvəsi olur. Nəticədə dünya militarist dairələri beynəlxalq hadisələrə «nüvə təfəkkürü” nöqteyi-nəzərindən baxılmasına bəraət qazandırırlar. Nüvə silahının silahlanma balansındakı «tarazlayıcı» rolu barədə sərsəm uydurmalar geniş yayılır. Beləliklə, militarist təfəkkür

tərzi beynəlxalq münasibətlərdə həlledici rol oynayır.

Uzun illər yeni kütləvi qırğın silahları və onları hədəfə çatdıran vasitələrin yeni növləri icad və istehsal olunurdu. Orta və uzaq mənzilli nüvə raketlərindən sonra, kosmosun da sürətlə silahlandırılması proqramları işlənib, həyata keçirilməyə başlayır. Yerin süni peykləri dinc məqsədlərdən çox hərbi məqsədlərə xidmət edirdi. «Ulduzlar müharibəsi" adlandırılan proqramlar hər iki tərəfdə səylə işlənirdi. Maddi və mənəvi ehtiyatların böyük hissəsi bu cür sərsəm proqramların həyata keçirilməsinə yönəldilirdi. Vəziyyətin bu cür davanı etməsi hər hansı bir təsadüf nəticəsində dünyanı nüvə fəlakətinə yuvarlaya bilərdi. Bu zaman isə bəşəriyyəti nüvə selindən heç «Nuhun ikinci gəmisi»də xilas edə bilməzdi.

Belə bir şəraitdə dünyanın yeni siyasi təfəkkürə, beynəlxalq hadisələrə yeni yanaşma tərzinə ciddi ehtiyac meydana çıxmışdır. Bu yeni təfəkkür tərzi beynəlxalq iqlimin sağlamlaşdırılmasına, dövlətlərarası münasibətlərin həlimləşdirilməsinə yönəlmiş siyasətin əsasında durmalıdır. Həmin siyasətin ana xətti belə bir həqiqət olmalıdır ki, beynəlxalq münasibətlərdə zorakılıq son nəticədə insan nəslinin qəbirqazıyanma çevrilə bilər, sivilizasiyanın daşını daş üstə qoymaz.

Son illər dünya münasibətlərində yeni bir reallıq formalaşmağa başlamışdır. Zorakılığa əsaslanmayan nüvəsiz dünya, mübahisəli məsələlərin siyasi yolla həlli ideyası çətinliklə də olsa, yavaş-yavaş özünə yol açmaqdadır. Yaxın və orta mənzilli raketlərin məhvi, strateji hücum silahlarının azaldılması, adi silahların ixtisarı haqqındakı müqavilələr, ordunun sayının azaldılması yuxarıdakı fikri söyləməyə bizə əsas verir. 80-ci illərin ikinci yarısından başlamış beynəlxalq münasibətlərin həlimləşməsi prosesi də buna rəvac verir. Artıq 90-cı illərin əvvəlindən "soyuq müharibə»buzları sürətlə əriməkdədir. Dünya ictimaiyyəti, bunu dünyada gərginliyin zəifləməsi prosesinin uğuru, soyuq müharibə siyasətinin sonu

kimi qəbul edir. Keçmiş Sovet İttifaqı ilə ABŞ arasında orta mənzilli nüvə raketlərinin bütünlüklə, strateji hücum silahlarının əvvəl yarıbayarı, sonra isə daha üçdə biri qədər azaldılması, habelə kimyəvi silah ehtiyatlarının tam ləğv edilməsi barədə bağlanmış müqavilələr planetdə tərksilah prosesini xeyli sürətləndirdi. Nəticə etibarilə, dünyada kütləvi qırğın silahlan ehtiyatı xeyli azaldıldı. Bunun ardınca adi silahların və silahlı qüvvələrin ixtisan sürətlə aparılmağa başlayır. Əgər 1985-ci ildə SSRİ-də orduda 8,5 milyon nəfər əsgər və zabit var idisə, 1992-ci ildə .Rusiyada bu rəqəm 2,5 milyona enir. Bu zəmində dünyada qarşıdurma meylləri xeyli səngiyir, beynəlxalq münasibətlər sivilizasiyalı axara yönəlməyə başlayır. Dünya qarşıdurmadan qarşılıqlı əməkdaşlığa doğru dönüş edir.

Bu prosesdə bəşər cəmiyyətinin mənəvi zənginləşməsi, beynəlxalq münasibətlərdə yeni mənəvi kateqoriyaların formalaşması kimi müsbət dəyişikliklər baş verir. Ümumsülh ideyası utopik baxışlar çərçivəsindən çıxaraq real məzmun və perspektivlər kəsb edir. Qarşılıqlı etimadın güclənməsi beynəlxalq həyatın ab-havasını köklü surətdə dəyişdirir. Dünən regional təhlükəsizlik sistemlərinin yaradılması az inandırıcı görünsə də, bu gün bütün dünyanı əhatə edə biləcək kollektiv təhlükəsizlik sisteminin yaradılmasının real üfüqləri görünməkdədir.

İndi tamamilə aydındır ki, nüvə müharibəsi nə siyasi, nə iqtisadi, nə də ideoloji məqsədlərə nail olmağa kömək edə bilməz. Çünki nüvə silahının hər hansı bir formada tubiq edilməsi son nəticədə-bəşər sivilizasiyasının məhvinə gətirib çıxara bilər. XX əsrin axırlarında siyasətin U.Çerçilin Fultondakı nitqinə, Trumen doktrinasına, ümumdünya proletar inqilabi ideyasına əsaslanan münasibətlər üzərində qurmaq artıq özünü doğrulda bilməz. Çünki ideoloji məqsədlərə baxmayaraq bəşəriyyətin tale ümumiliyi ideyası tədricən formalaşır. Məhz bunun nəticəsində obyektiv şəraitdən doğan bir proses—qarşılıqlı surətdə asılı və bütöv dünyanın təşəkkülü prosesi baş

verir. İndi beynəlxalq problemlərlə məşğul olan təşkilatların səsi daha ucadan eşidilir. Bu səpgidə Birləşmiş Millətlər Təşkilatının rolu daha da artır. 200-ə yaxın ölkənin daxil olduğu bu təşkilat beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində həlledici əhəmiyyət kəsb etməyə başlamışdır. Bir sıra lokal münaqişələrin neytrallaşdırılması, tərksilahın həyata keçirilməsi və qarşılıqlı etimadın gücləndirilməsində BMT-nin təşəbbüslərinin misilsiz əhəmiyyəti vardır.

Bütün bunları bir fakt da təsdiqləyir ki, qlobal problemlər içərisində ən vacibi olan müharibə və sülh məsələsində son zamanlar müsbət dəyişikliklər baş verməkdədir.

## §26. Planet miqyasında təhlükə doğuran ekoloji problemlər

Müasir dövrün qlobal problemləri içərisində təbiətlə insan və cəmiyyət arasındakı çoxsahəli qarşılıqlı münasibətlər, yaxud ekologiya xüsusi yer tutur. Ekologiya iki yunan sözünün birləşməsindən əmələ gəlnäşdir: «eykos» ev, «lokqs» elm, təlim deməkdir. Hərfi mənada *ekologiya* «məskun edilən yer haqqında elm» mənasını verir. Bu mənada ekologiya ətraf aləmlə insan arasındakı münasibətləri tənzimləyən elm sahəsidir.

Bəşəriyyət öz varlığına görə təbiətə borcludur. Dəyişdirilmiş, insan mənafeyinə uyğunlaşdırılmış təbiət onun gələcək inkişafı üçün həlledici şərtdir. Lakin insanın təbiətlə münasibətləri elə tənzimlənməlidir ki, bundan heç bir tərəf ziyan çəkməsin. Söhbət təbii sərvətlərdən istifadənin elə ağıllı üsullarından gedir ki, bunlar təbiətin təmizliyinin və ahənginin pozulmasına gətirib çıxartmasın. Çünki təbiətin israfçılıqla mənimsənilməsi təbii sistemlərin üstünə düşən ağırlığı çoxaldır, onların özünə məxsus səfinin pozulmasına gətirib çıxarır.

Meydana gəldiyi ilk gündən başlayaraq insan təbiəti öyrənir və mənimsəyir. İnsanın təbiətin kortəbii qüvvələrinin təsirindən çıxması, tədricən təbiətdən asılılığının azalması, son nəticədə

onun təbiət üzərindəki hökmranlığını möhkəmləndirir. Lakin təbiətdən istifadə heç də həmişə ağıllı surətdə həyata keçirilmir.

XX əsrin 60-cı illərindən başlayaraq ekoloji böhran, ekoloji təhlükə haqqında xəbərlər tez-tez eşidilməyə başlayır. Həm də ekoloji böhran dedikdə ətraf mühitdə insan fəaliyyəti nəticəsində yaradılmış, həm təbiət üçün, həm də insan və cəmiyyət üçün son dərəcə təhlükəli olan vəziyyət başa düşülür.

Qeyd etmək lazımdır ki, bəşəriyyət keçmişdə də təbii böhranlarla qarşılaşmışdır. Lakin bu böhranları təbiətin kor qüvvələri—zəlzələ, sel, quraqlıq və s. doğurur, təbiətin özü də tənzimləyirdi. Lakin bunlar hamısı məkanca məhəlli, zamanca məhdud xarakter daşıyırdı. Böhranlar xarici qüvvələrin təsiri ilə yaranırdı, insanlar isə bunun səbəbi deyil, qurbanı olurdu. Müasir ekoloji problemlər isə bilavasitə insanların fəaliyyətinin nəticəsi kimi meydana çıxır.

Ekoloji problemləri məhəlli, regional və qlobal hissələrə bölmək olar. Ekoloji problemlərin aşağıdakı növlərini ayırmaq olar:

1) Əsasən cəmiyyətə və insana aid olanlar.
2) Əsasən təbiətə aid olanlar.
3) Həm cəmiyyətə (insana), həm də təbiətə aid olanlar.

Ekoloji böhran üç istiqamətdə təzahür edir: 1—ətraf mühitin çirklənməsi; 2—ehtiyatların tükənməsi; 3—əhali çoxluğu (demoqrafik böhran və şəhərlərin böhranı).

Daha böyük təhlükə doğuran ətraf mühitin çirklənməsi özü də üç istiqamətdə gedir: havanın (atmosferin) çirklənməsi, suyun (hidrosferin) çirklənməsi, torpaq qatının pisləşməsi.

Biosferin üç əsas ünsürü həyat mənbəyi olan sudan, havadan və bir də insanın öz mövcudluğu üçün əsas vasitə olan torpaqdan ibarətdir. Gün ərzində adam orta hesabla, 1 kq yemək, 2-3 litr su və 12-15 kq hava qəbul edir.

Planetimizin, atmosfer ölçüsü çox böyükdür. Yer üzündə hər adama 2,5 milyon tondan çox hava düşür. Hesablanmışdır ki, son 100 ildə 250 milyard ton oksigen məhv edilmiş, əvəzində

havaya 360 milyard ton karbon qazı daxil olmuşdur. Alimlər qeyd edirlər ki, belə bir vəziyyət atmosferdə xüsusi karbon örtüyünün yaranmasına səbəb olmuşdur. Həmin örtük günəş şüalarını yerin səthinə ötürür, əmələ gələn istiliyi isə kənara buraxmır. Bunun nəticəsində planetin orta temperaturu getdikcə yüksəlir. Temperaturun artması buzlaqları və çoxillik qarları əridir və deməli, yer səthindəki düzənlik və çökəklərin su altında qalması təhlükəsini doğurur. Bu hadisəyə «istixana effekti” deyilir.

İndi bəşəriyyət fotosintez hadisəsi nəticəsində yaranan oksigenin 1/10 hissəsini istehlak edir. Oksigenin əsas istehlakçısı texnikadır. Bir iri təyyarə hər saniyədə 700 kq hava udur. Yer üzündə olan 400 milyon avtomobil isə bütün Yer kürəsi əhalisindən çox oksigen istehlak edir.

İnkişaf etmiş ölkələrdə havanı korlayan 100-dən çox maddə qeydə alınmışdır. Onların bir çoxu sənaye 108 tullantılarıdır. Bu maddələr insan orqanizmi iiçün çox təhlükəlidir.

Bəşəriyyət üçün su da ciddi problemlərdəndir. Sön vaxtlar bu problem daha da kəskinləşmişdir. Suyun planetdə baş verən mürəkkəb dövranında müasir insan mühüm rol oynayır. İnkişaf etmiş ölkələrdə su qıtlığı çoxdan hiss olunur. Səbəbi müasir texnologiyada suyun rolunun artmasıdır. Su hövzələrinin çirklənməsi nəticəsində yararlı su ehtiyatları xeyli azalmışdır. Ümumdünya səhiyyə təşkilatının məlumatına görə, suyun çirklənməsi nəticəsində meydana çıxan xəstəliklərdən hər il 5 milyonadək uşaq ölür. Əgər əsrin ortalarında şəhərlərdə adambaşına 25 litr su düşürdüsə, indi bu rəqəm 200—300 litrə, böyük şəhərlərdə isə 500 litrə çatır. Bir sıra alimlər göstərir ki, əgər suyun çirklənməsi indiki sürətlə davam edərsə, onda 2000-ci ildə bəşəriyyətin su ilə təmin olunmasında ciddi çətinliklər ortaya çıxacaq. Planet miqyasında içməli su ehtiyatının təmin edilməsi həm də dövlətlərarası münasibətlərə toxunan siyasi problemdir. Bu mənada onun həllində beynəlxalq təşkilatların, dövlətlərin özlərinin əlbir və birgə fəaliyyəti tələb olunur.

Ekoloji böhran torpaq qatının pisləşməsində də özünü göstərir. Ozü də bununla bağlı aşağıdakı problemlər ortaya çıxır:

—kənd təsərrüfatı üçün yararlı torpaqlar hesabına urbanizasiyalaşmış ərazilərin genişlənməsi (iri şəhərlərin yaranması);

—yararsız torpaqların artması. Bu torpaqların eroziyaya uğraması, sənaye tullantıları hesabına torpağın çirkləndirilməsi nəticəsində baş verir. Suvarılan torpaqların duzlaşması, müxtəlif kimyəvi maddələrlə torpağın yararsız hala salınması da səbəblərdən biridir;

—meşə və otlaqların azalması.

Planetimiz nə qədər böyük olsa da, onun yalnız 13%-i kənd təsərrüfatı işləri üçün, 10%-i isə sırf əkin üçün yararlıdır. Bu 1,5 milyard hektar deməkdir. 2000-ci ildə Yer kürəsində 6 milyard əhali yaşaması ehtimal olunursa, deməli o zaman adambaşına 0,25 hektar sahə düşəcəkdir. Hər il dünyada 7 milyon hektar yararh torpaq itirilir. Bu 21 milyon adamın saxlanmasına kifayət edər. Əhali isə hər 5 gündə təqribən 1 milyon nəfər, yaxud il ərzində təqribən 70 milyon nəfər artır.

Mütəxəssislərin hesablamalarına görə, əgər 2000-ci ilədək torpağın xilas edilməsi üçün ciddi tədbirlər görülməzsə, onda 300 milyon hektar əkilən sahə məhv olacaqdır. Bu isə keçmiş SSRİ-nin əkin sahələrindən çoxdur.

Ətraf mühitin ekoloji tarazlığının pozulmasında səsküy və çirklənmə problemlərini xüsusilə qeyd etmək lazımdır. Müasir elm və texnika insanın çətinliklə uyğunlaşdığı fiziki çirklənmə formalarından plan güclü səs-küy yaratmışdır. Səs-küyün 80%-ni avtomobillər yaradır. Təbabət sübut etmişdir ki, səs-küyün gücü 80 desibeli keçdikdə insan üçün təhlükəli olur. Müasir şəhərlərdə isə nəqliyyatın səsi 100 desibeli keçir.

Müasir ekoloji problemlər içərisində tullantılar məsələsi də diqqəti cəlb edir. Hesablamalar göstərir ki, təbiətdən alınan məhsulun 98%-ə qədəri son nəticədə tullantıya gedir. İnkişaf etmiş ölkələrin iri şəhərlərində ildə hər sakinə 200 kq-dan 1

tonadək tullantı düşür. 1980-ci ildə ətraf mühitə atılan tullantıların ümumi həcmi 40 milyard ton olmuşdur. 2000-ci ildə bu rəqəmin 100 milyard ton olacağı gözlənilir. Bu isə ətraf mühitin korlanması, iqlim, torpaq və su balansının pozulması deməkdir ki, bu da sağlamlıq üçün təhlükəli nəticələr doğurur.

Müasir elmi-texniki inqilab bir sıra ölkələrdə mineral-xammal və enerji böhranları doğurmuşdur. Bəşəriyyətin mineral-xammal ehtiyatlarına tələbatı isə durmadan artır. Son 30 ildə faydalı qazıntıların istismarı 3 dəfə (5 milyard tondan 15 milyard tonadək) artmışdır. XIX əsrdə 50-dək mineral ehtiyatdan istifadə edilirdisə, indi bu rəqəm 100-ü ötüb keçmişdir. Bunlardan 36-sı tükənmək üzrədir. Bu gün yaşayış üçün zəruri olan ehtiyatlardan cəmi 9-u kifayət qədərdir, 7-si nisbətən az miqdarda, 5-i isə qurtarmaq üzrədir, yəni 20—30 ilə bəs edəcəkdir. Belə bir vəziyyət qlobal miqyasda ciddi çətinliklər doğurur. Vəziyyətdən çıxış yolunu tükənməz ehtiyatlara malik olan Dünya okeanından istifadə təşkil edə bilər.

XX əsrdə insanın təbiətə təsirinin sürət və miqyası ölçüyəgəlməz dərəcədə artmışdır. Bununla belə təbiətə münasibət amansız şəkil almış az qala qlobal fəlakətə gətirib çıxarmışdır. Təbiətlə insan və təbiətlə cəmiyyət arasındakı ahəngdarlıq xeyli pozulmuşdur. Eyni zamanda insan belə bir həqiqəti dərk etməyə başlamışdır ki, təbiətlə ehtiyatla davranmadan bəşəriyyətin normal yaşayışını təmin etmək mümkün olmayacaqdır. Belə bir şəraitdə insanın və cəmiyyətin təbiət qarşısında məsuliyyəti ölçüyəgəlməz dərəcədə artır.

Elə bir vaxt gəlib çatmışdır ki, insan təbii ehtiyatları tənzimləməsə, bundan istifadəni ağıllı surətdə idarə etməsə, təbiət du, insan da məhv olar. Odur ki, təbiətlə cəmiyyətin qarşılıqlı münasibətlərinin tənzimlənməsi və idarə olunması getdikcə daha çox aktuallıq kəsb edir.

İnsanın təbiətlə qarşılıqlı münasibətlərinin optimallaşdırılması ilə bağlı vəzifələri, strateji və taktiki olmaqla iki tipə

ayırmaq olar. Bu gün əsas məsələ ekoloji vəziyyətin sosial nəticələrinin baş istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Bəziləri «qorxusuz və şübhəsiz irəliyə» hərəkət etməyi, yəni təbii ehtiyatlardan heç nəyə əhəmiyyət vermədən istifadə etməyi tövsiyə edirlər. Bunun əksinə olanlar isə «Geriyə—təbiətə doğru» getməyi, təbiətin toxunulmazlığını qoruyub saxlamağı məsləhət bilirlər.

Digərləri «Dayanmağı, nəzər yetirməyi» vacib hesab edir. Əlbəttə, indiki şəraitdə bu daha ağlabatandır. Təbiətdən istifadənin elə ağıllı variantları hazırlanmalıdır ki, istehsalla təbiət arasındakı əlaqələrin optimal tarazlığını yarada bilsin. Yəni:

— təbii şəraiti qorumaq üçün təbii ehtiyatlardan istifadəyə kompleks yanaşılması;

— təbii ehtiyatlardan istifadə zamanı kortəbiiliyə və vplyuntarizmə yol verilməməsi;

— təbii ehtiyatlardan istifadə edilməsi prosesində təbiət qanunlarının hərtərəfli öyrənilməsi və nəzərə alınmasının zəruriliyi;

— ətraf mühitin qorunmasının elmlə sıx əlaqəsi;

— təbii ehtiyatların qorunub saxlanılmasının hüquqi prinsiplərinin işlənib hazırlanması.

Son vaxtlar bütün ölkələr planeti hədələyən ekoloji fəlakətin qarşısını almaq üçün səylərini birləşdirirlər. Bu istiqamətdə beynəlxalq əməkdaşlıq formaları artıb genişlənir. Beynəlxalq ekoloji proqramlar hazırlanması xüsusilə böyük əhəmiyyət kəsb edir.

Ətraf mühitin qorunmasında bütün dövlətlərin səylərinin birləşdirilməsi çox böyük əhəmiyyətə malikdir. Çünki ekoloji fəlakət bəzən bütöv, bir regionu əhatə edir və onun qarşısını almaq bir ölkənin imkanları xaricində olur. Məsələn, Böyük Səhra Afrikanın şimalında olan bütün ölkələrin mənafeyinə toxunur. Bundan başqa həmin ölkələrin elmi-texniki potensialı bu nəhəng ekoloji fəlakət rayonunu xilas etmək üçün kifayət

etməz. Deməli, burada dünya dövlətlərinin bir çoxunun iştirakı vacibdir. Atmosferdə müşahidə edilən ozon örtüyünün parçalanmasının qarşısını almaq üçün, qurumaqda olan Aral dənizini xilas etmək üçün də bu cür hərəkət etmək tələb olunur.

Son vaxtlar YUNESKO-nun təşəbbüsü ilə «Təmiz hava», «Təmiz su»beynəlxalq proqramları hazırlanıb həyata keçirilməyə başlanmışdır. Planetdə hava və su hövzələrinin qorunmasında, ekoloji cəhətdən təmiz qidanın istehsal edilməsində beynəlxalq təşkilatların rolu durmadan artır. Bu cəhətdən beynəlxalq «Qrinpis» təşkilatının ətraf mühitin qorunması uğrundakı mübarizəsi xüsusilə diqqətəlayiqdir. Ekoloji hərəkat tərəfdarlarının sıraları durmadan artır, onlar artıq müxtəlif siyasi və ictimai təşkilatlarda birləşirlər. Bir sıra Qərb ölkələrində yaranan «Yaşıllar» partiyaları buna əyani sübutdur. Bu partiyalar cəmiyyətdəki ümumi ovqatı daha yaxşı ifadə edirlər. Almaniyada «Yaşıllar»partiyasmın parlamentdə, hətta, öz deputat yerləri vardır. Bütün bunlar təsdiq edir ki, təmiz və saf təbiət uğrunda mübarizə adamların şüur və düşüncəsinə getdikcə daha sürətlə yol tapır, onları bu işdə sərvaxt olmağa səsləyir.

Yer kürəsinin ekoloji problemlərinə kosmosun mənimsənilməsi ilə bağlı meydana çıxan çətinliklər də daxildir. Həm də kosmosun sürətlə çirkləndirilməsi ilə əlaqədar bu problem xeyli dərəcədə aktuallaşır. Yerin süni peykləri və digər kosmik obyektlər atmosferdə xüsusi ekoloji mühit yaratmışdır. 1990-cı ilin əvvəli üçün kosmosa 16 mindən çox süni obyekt büraxılmışdır. Bunlardan 10 minə yaxını öz ömrünü başa vurduqdan sonra atmosferdə yanmış və hissəcikləri yerə düşmüşdür, xeyli qismi isə hələ də kosmosda dolaşmaqdadır. Yerətrafı kosmik fəzanı öyrənmək məqsədilə aparılan kosmik tədqiqatlar, xüsusilə də Yer səthinin kosmosdan müşahidəsi əsasında işlənib hazırlanan ekoloji tədbirlərin həyata keçirilməsi misilsiz əhəmiyyətə malikdir.

Kosmosda keçirilən tibbi və bioloji təcrübələr səhiyyənin

inkişafındakı praktik əhəmiyyət baxımından xüsusilə qiymətlidir. Belə tədqiqatlar dövlətlərarası əməkdaşlıq üçün real və səmərəli əsas ola bilər.

Son zamanlar kosmos dinc və əməkdaşlıq obyektinə çevrilir, ondan dinc məqsədlər üçün istifadə proqramlarına xüsusi üstünlük verilir. İndi Yerin süni peykləri daha çox rabitə xidmətlərini həyata keçirmək üçün istifadə edilir. Həm də müasir kosmik texnika vasitəsilə ən etibarlı rabitə xidmətlərini təmin etmək mümkündür. Bu sahədə, geniş beynəlxalq proqramlar hazırlanıb həyata keçirilir. «İnterkosmos» proqramı beynəlxalq radio, telefon və televiziya əlaqələrinin tənzimlənməsinə xidmət edir. Yer relyefinin öyrənilməsi, mürəkkəb kartoqrafiya işlərinin aparılması, meteoroloji tədqiqatlar keçirilməsi, Dünya okeanının öyrənilməsi də kosmik əməkdaşlığın predmeti daxildir. Məhz ona görə də iri dövlətlərin kosmik əməkdaşlığa olan meyli durmadan artır.

## §27. Energetika problem

Müasir elmi-texniki inqilab ciddi energetika problemi də doğurmuşdur. Artıq 60-cı illərin axırlarından başlayaraq bu problem açıq-aşkar hiss edilməyə başlayır. 70-ci illərin əvvəllərindən isə planetimiz ilk energetika böhranını keçirir. Neft istehsal edən ölkələrin, ilk növbədə ərəb ölkələrinin, İsrailin təcavüzkar siyasətinə etiraz əlaməti olaraq neft istehsalını azaltmaları, həmin böhranın əsas səbəblərindən oldu.

70-ci illərdən başlamış bütün sahələrdə enerji istehlakının artması son nəticədə onun qıtlaşmasına gətirib çıxarır. Çünki insan fəaliyyətinin bütün sahələri enerji məsrəfi ilə bağlıdır və bu fəaliyyət sahələri sürətlə artmaqdadır. XX yüzillikdə dünya əhalisinin sayı 3 dəfə artdığı halda, adambaşına istifadə olunan enerjinin miqdarı 4 dəfə artmışdır. Mütəxəssislər hesablamışlar ki, enerji istehsalının ümumi həcmi hər il orta hesabla 5% artır. Hazırda enerji əsasən üzvi maddələrin (neft, qaz, daş kömür və

ağac) yandırılması, su elektrik stansiyaları və atom elektrik stansiyaları vasitəsilə istehsal edilir. Lakin Yerin enerji ehtiyatları əbədi və tükənməz deyildir. Hesablamalar göstərir ki, daş kömür ehtiyatları 300 ilə bəs edərsə, neft ehtiyatları cəmi 30 ilə çatar. Neftin çıxarılması və istehlakının durmadan artdığını da hesaba alsaq, hazırda bir sıra ölkələrdə neft məhsullarına kəskin ehtiyac duyulduğunun səbəbi aydın olar.

İkinci dünya müharibəsindən sonra atom energetikası coşğun inkişaf etdirilir. Enerjiyə olan tələbatı qismən ödəməklə yanaşı, atom energetikası öz inkişafı ilə bir sıra mürəkkəb hərbi-siyasi, iqtisadi və ekoloji problemlər də doğurur. 70—80-ci illərdən atom elektrik stansiyalarının sayı durmadan artır. 1970-ci ildə dünyanın 5 ölkəsində AES vardırsa, indi bu ölkələrin, sayı 25-ə çatmışdır. Son məlumatlara görə dünyada 200 milyon kvt gücü, olan 325 nüvə energetikası reaktoru fəaliyyət göstərir. Onlar elektrik enerjisinin 17%-ini istehsal edir. Keçmiş SSRİ ərazisində AES işləyirdi.

Alimlər nüvə enerjisindən daha geniş və daha səmərəli istifadə edilməsini mövcud enerji böhranından çıxmağın mühüm vasitələrindən biri hesab edirlər. Lakin Çernobıl faciəsi göstərdi ki, atom enerjisindən istifadənin hələlik etibarlı sistemi yaradıla bilməmişdir. AES-lərin bir çoxu köhnə texnologiya əsasında tikildiyindən onların ətraf mühiti çirkləndirməsi təhlükəsi böyükdür. Beynəlxalq Atom Enerjisindən İstifadə mərkəzinin verdiyi məlumata görə, hər il AES-lərdə 30-a qədər irili-xırdalı qəzalar baş verir. Həm də bu qəzalar zamanı atmosferə radioaktiv tullantılar atılması ehtimalı böyük olur. Odur ki, son vaxtlar nüvə enerjisindən istifadənin yeni təhlükəsiz texnologiyasının yaradılması uğrunda fəal iş aparılır. Mütəxəssislər belə hesab edirlər ki, nüvə enerjisinin perspektiv inkişaf istiqamətləri bəşəriyyəti kəskin enerji qıtlığından xilas edə bilər. Odur ki, son vaxtlar atom elektrik stansiyalarının yaradılmasına diqqət yenidən artmağa başlamışdır. İstilik nüvə enerjisinin yeni texniki şəkildə həll edilməsi bəşəriyyəti enerji

ilə uzun müddətə təmin etməlidir.

Bəzi mütəxəssislərin fikrincə, bəşəriyyət hələ yaxın zamanlarda qlobal enerji böhranına məruz qalmayacaqdır. Lakin enerji artımının müəyyən sərhədi mövcuddur və alternativ enerji mənbələri axtarılıb tapılmazsa, tezliklə enerji qıtlığı ilə üzləşə bilərik. Özü də, enerji artımının üzləşdiyi çətinliklər içərisində iqtisadi və ekoloji səbəbləri xüsusilə ayırmaq lazımdır.

Gəlin belə bir fakta diqqət yetirək: bəşəriyyətin hər il istehlak etdiyi şərti yanacaq yer səthinə gəlib çatan günəş enerjisinin 0,03%-ini, bitkilərin fotosintez enerjisi isə 0,025%-ini təşkil edir. Deməli, bəşəriyyətin istifadə etdiyi enerjinin miqdarı fotosintez nəticəsində hasil olan enerjidən çoxdur və getdikcə də artacaqdır. Bu isə ciddi ekoloji gərginliklə müşayiət olunacaqdır.

Yaranan bu ekoloji gərginlik ekoloji cəhətdən təmiz, həm də təkrarlana bilən enerji mənbələrinin axtarıb tapılması məsələsini günün ən zəruri vəzifəsinə çevirmişdir. Yeni enerji mənbələri yfifiaıaq mənşəli olmamalı, təbiətin özünün daim təkrarlanan qüvvələrinə əsaslanmalı, səmərəli istifadə əmsalı yüksək olmalıdır. Günəş, külək, qabarma və çəkilmə, geotermal suların istiliyi, suyun oksigenə və hidrogenə parçalanaraq yanacaq kimi istifadə edilməsi və s. məhz belə enerji mənbələridir.

İlin çox vaxtı günəş və küləkli olan respublikamıza onların enerjisi əsasında işləyən müxtəlif qurğulardan istifadə etməklə öz enerji ehtiyaclarını ödəyə bilər. Respublikamızın alimləri bu istiqamətdə çox ciddi addımlar atmışlar. Günəş batareyası vasitəsilə alman elektrik enerjisinin miqdarını artırmaq zəruridir Yaponiyada gün enerjisindən hasil edilən elektrik enerjisinin miqdarı ümumi enerji balansında 5%-ə yaxınlaşır. Elə binalar tikilmişdir ki, onların enerji təchizatının xeyli hissəsi günəş enerjisi hesabına ödənilir. Alimlər belə hesab edirlər ki, ekoloji təmizliyinə, iqtisadi səmərəliliyinə və daha asan başa gəlməsinə görə günəş enerjisinin tayı-bərabəri yoxdur. XX əsrin

axırlarında günəş enerjisi ilə işləyən sənaye əhəmiyyətli ilk elektrik stansiyalarının qurulacağı gözlənilir.

Külək enerjisindən istifadə edilməsi də çox gözəl perspektivlər vəd edir. Nisbətən ucuz başa gələn külək enerjisindən istehsalatın müxtəlif sahələrində istifadə etmək mümkündür. Artıq bir sıra Qərb ölkələrində külək enerjisi ilə işləyən kiçik elektrik stansiyaları fəaliyyət göstərir. Burada Danimarka və Norveçin təcrübəsi daha maraqlıdır.

Dəniz qabarmaları və geotermal sular da çox böyük enerji mənbəyidir. Artıq dəniz qabarmaları əsasında işləyən ilk su elektrik stansiyaları istifadəyə verilmişdir. Yerin təkindən çıxan yüksək temperaturlu geotermal buxar enerjisi əsasında istilik elektrik stansiyalarının yaradılmasının maraqlı layihələri hazırlanmışdır.

Bəşəriyyət alternativ enerji mənbələri axtarmaqda davam edir. Ənənəvi enerji növlərinin tükənməsi təhlükəsinin xeyli çoxaldığı bir vaxtda bu məsələnin aktuallığı durmadan artır. Enerji problemini birdəfəlik həll etmədən bəşəriyyətin qarşısında duran ümdə məsələlərin bir çoxunu həll etmək mümkün olmayacaqdır.

## §28. Demoqrafiya problem

Demoqrafiya yunan sözüdür. «Demos»xalq, «qrafo» yazıram deməkdir. Elmin bu sahəsi əhali artımını, onun tərkibindəki təbii dəyişiklikləri və əhalinin yerləşməsini öyrənir. Buraya doğum, ölüm hadisələri, miqrasiya və urbanizasiya prosesləri daxildir. Demoqrafiya həmçinin əhali artımının və sıxlığının cəmiyyətin inkişafına təsirini də öyrənir.

Əhali artımı ilə əlaqədar meydana çıxan problemlər müasir dövrün ən ciddi problenılərindəndir. XX əsrin ortalarından kəskinləşməyə başlayan bu problem hazırda çox ziddiyyətli nəticələr doğurmuşdur. Əhalinin sürətli artımı sosial ziddiyyətləri kəskinləşdirməklə, cəmiyyətdə gedən proseslərə

əhəmiyyətli təsir göstərir. Bir sıra ölkələrdə əhalinin maddi güzəranının pisləşməsi, aclıq və səfalətin çoxalması, həm də əhali artımı ilə bağlıdır. Statistika göstərir ki, Yer kürəsinin əhalisi indiki 5,5 milyarddan 2000-ci ildə 6,1—6,4 milyarda çatacaqdır. Həm də əhali artımı bütün qitələrdə və bütün ölkələrdə eyni deyildir. İnkişaf etmiş Qərb ölkələrində əhali artımı bir növ sabitləşibsə (burada, hətta, əhalinin azalması müşahidə olunur), Asiya, Afrika və Latın Amerikasının əksər ölkələrində əhali böyük sürətlə artır. Afrika qitəsi xüsusilə fərqlənir. Burada əhali ildə hər 1000 nəfərə 46,4 nəfər artır (Qərbi Avropa ölkələrində—14.1 nəfər). Həmin ölkələrdə iqtisadiyyatın zəif inkişafı, tez-tez baş verən təbii fəlakətlər bir sıra kəskin problemlər doğurur. İşsizlik, antisanitariya və pis qidalanmaqdan doğan xəstəliklər də bu qəbildəndir.

Müasir demoqrafik problemlərdən biri əhalinin tərkibində yaşlı adamların xüsusi çəkisinin artmasıdır. Çoxları bu vəziyyəti, obrazlı tərzdə, əhalinin qocalması kimi qiymətləndirir. Belə bir fakta diqqət yetirək: yaşı 60-dan yuxarı olanlar, yəni pensiya yaşlılar 50-ci illərdə əhalinin 7,7%-ini təşkil edirdisə, indi 11%-dən çoxunu təşkil edir. Bu o deməkdir ki, əhalinin ümumi kütləsində iş qabiliyyətlilərin sayı azalır. Bu vəziyyət bir sıra ölkələrdə iqtisadi və sosial tərəqqinin, səhiyyə xidmətinin yüksəlməsi nəticəsində orta ömür müddətinin xeyli artması ilə əlaqədardır. Əgər orta ömrün müddəti 50-ci illərdə 47 yaş idisə, indi bu rəqəm 57,7-yə çatmışdır. Məsələn, Yaponiya kimi inkişaf etmiş ölkədə orta yaş müddəti qadınlarda 83 il, kişilərdə 79 ildir.

Müasir demoqrafik vəziyyətin səciyyəvi cəhətlərindən biri də dünya miqyasında urbanizasiya prosesinin, yəni səhər əhalisinin xüsusi çəkisinin artmasıdır. Hazırda dünya əhalisinin 48%-i şəhərlərdə yaşayır. Mütəxəssislər hesablamışlar ki, 2000-ci ildə əhalinin 54%-dən çoxu şəhərlərdə yaşayacaqdır. Həm də çoxmilyonlu superşəhərlərin sayı durmadan artır. Mexikonun (Meksika) 35 milyon, San-Paulonun (Braziliya) 29 milyöft,

Tokionun (Yaponiya) 21 milyon əhalisi var. Əhalinin ümumi balansında şəhər əhalisinin üstünlük təşkil etməsi sosial-ekoloji xarakterli çətinliklər doğurur. Artıq bir sıra milyonçu şəhərlər kəskin ziddiyyətlər məngənəsində çırpınmaqdadır.

Demoqrafik problemlər Azərbaycandan da yan keçməmişdir. Vətənimiz əhalinin sürətlə artdığı ölkələr sırasına daxildir. Keçmiş SSRİ-də 1979—1989-cu illərdə əhalinin artımı 9% olduğu halda, Azərbaycanda 17% olmuşdur. Ancaq elmi əsaslarla hazırlanmış uzunmüddətli demoqrafik siyasətin olmaması üzündən əhalinin yerləşdirilməsində xeyli uyğunsuzluqlar yaranmışdır. Bu ilk növbədə şəhər və paytaxtımız Bakı şəhərinə aiddir. Apardığımız müharibə ilə bağlı Ermənistandan və müharibə zonasından olan qaçqınların hesabına Bakının əhalisi xeyli artmışdır. Bu da öz növbəsində bir sıra iqtisadi, sosial problemləri gərginləşdirmişdir.

Əhali artımı ilə bağlı müxtəlif nəzəriyyələr vardır. Bunların içərisində maltusçuluq daha çox diqqəti cəlb edir. Bu nəzəriyyənin banisi ingilis iqtisadçısı T.R.Maltus (1766-1834) olmuşdur. Maltusçuluq əhali artımını pisləyir, təbii artımın qarşısını almaq üçün ən ifrat tədbirlərə belə əl atmağı məqbul hesab edir. Maltusçular müharibələri və başqa qanlı vasitələri əhali artımının qarşısını almağın ən real yolu hesab edirlər. Müasir maltusçular da müharibələri, epidemiyaları, kütləvi aclıqları əhalinin təbii artımını dayandırmağın zəruri vasitəsi hesab edirlər.

Ancaq təçrübə göstərir ki, sosial-iqtisadi problemlərin düzgün həll 'edildiyi ölkələrdə, demək olar ki, demoqrafik problemlər yox dərəcəsindədir. Bütövlükdə dünyada isə əhalinin artan tələbatını ödəmək üçün planetimizin ehtiyatlarından səmərəli istifadə edilmir. Alimlər hesablamışlar ki, Yer kürəsinin ehtiyatları ən azı 10 milyard adamın normal yaşayışını təmin edə bilər. Məsələn, Çində adambaşına 0,6 hektar əkin sahəsi düşdüyü halda, oran əhalinin həyat səviyyəsi, adambaşına 6,4 hektar əkir sahəsinin düşdüyü Rusiyadan xeyli üstündür.

Deməli mütərəqqi və fərasətli sosial-iqtisadi siyasət vasitəsilə əhalinin tələbatını ödəmək mümkündür.

Buradan görünür ki, ölkədə yeridilən demoqrafiya siyasəti sosial siyasətin tərkib hissəsidir. Ümumiyyətlə, əhalinin artımını, onun yerdəyişməsi və yerləşdirilməsini düzgün tənzimləmək üçün elmi surətdə əsaslandırılmış demoqrafik siyasətə çox böyük ehtiyac vardır. Bu işin özbaşına buraxılması əhalinin bütün sosial-demoqrafik təbəqələrinin mənafeyinə zərər vurmaqla bizi xoşagəlməz təzahürlərlə üzləşdirir.

Demoqrafik prosesin tənzimlənməsində müasir ailənin üzərinə çox böyük vəzifələr düşür. Çünki ailə cəmiyyətin ümumi ovqatına əhəmiyyətli təsir göstərir. Cəmiyyətin hissəciyi olan ailə nisbi müstəqilliyə malik olsa da, sosial tanıla (sosial qrupla, millətlə, xalqla) bir çox ümumi əlamətləri vardır. Deməli, cəmiyyətdəki ailə münasibətləri və bu sahədəki uğurlar bütövlükdə ictimai münasibətləri əks etdirir, onun məziyyətlərinin doğru göstəriciləridir. Ailə münasibətləri sağlam olmayan cəmiyyət sağlam ola bilməz.

Əhali artımı və sıxlığı, yeni nəsillərin mənəvi siması və psixofiziki vəziyyəti birbaşa ailə münasibətlərindən asılıdır. Müasir ailə münasibətlərində cəmiyyətin demoqrafik problemləri küll halında öz əksini tapır.

Əhalinin sürətlə artdığı ölkələr üçün çoxuşaqlı ailələr səciyyəvidir. Belə ailələrdə qarşılıqlı mənəvi məsuliyyət və deməli, nikahın mənəvi dayaqları daha möhkəm olur. Digər tərəfdən də, patriarxal adət və ənənələri mühafizəkarlıqla qoruyub saxlayan çoxuşaqlı ailələr müasir sivilizasiyanın təsirinə o qədər məruz qalmır. Həyat səviyyəsinin xeyli aşağı düşməsinə baxmayaraq, onlar dədə-baba adətləri ilə ömür sürməyə daha çox üstünlük verirlər. Belə ailələrdə qadına münasibət çox aşağı səviyyədədir.

İnkişaf etmiş sənaye Ölkələrində isə vəziyyət tamamilə başqadır. Müasir ailənin səciyyəvi cizgiləri bu ölkələrdə daha aydın təzahür edir. Qadın emansipasiyası deyilən proses, yəni

qadınların kişilərlə bərabərhüquqlu olması, onların ictimai həyata qoşulması prosesi burada sürətlə gedir. Qadınlar üzücü və yeknəsək məişət qayğılarından azad olmağa, iqtisadi cəhətdən müstəqilliyə can atırlar. İnkişaf etmiş Qərb ölkələrində məişət təsərrüfatı yüksək inkişaf etdiyindən evdar qadınların sayı çox azdır, deməli, qadınların kişilərdən asılılığı da zəifdir. Bir qayda olaraq ailədə liderlik də onun əlində olur. Odur ki, müasir Qərb ailəsində qadının ailə başçısı kimi tanınması o qədər də təəccüb doğurmur. Müasir ailədə qadının hüquq və imkanları xeyli genişdir. Qadınların ictimai həyatın müxtəlif sahələrində fəal iştirakı onların iqtisadi, sosial və mənəvi mövqelərini möhkəmləndirir, onların ərdən, atadan asılılığını xeyli zəiflədir. Qadınların iqtisadi müstəqilliyi artdıqca, sosial görüş dairələri genişləndikcə, onlar öz şəxsi ləyaqətlərini müdafiə etmək uğrunda da fəal mübarizə aparırlar. «Feminizm» adı almış bu mübarizə bir sıra ölkələrdə geniş vüsət almaqdadır.

Qadınla kişinin hüquq bərabərliyi onların ailə qarşısındakı məsuliyyətlərini də bərabərləşdirir. Lakin bununla bərabər, müasir ailənin mənəvi dayaqları xeyli zəifləmişdir. Bu özünün qabarıq ifadəsini boşanma hallarının artmasında və ailə-məişət münasibətlərində meydana çıxan başqa mənfi hallarda tapır. Bir sıra inkişaf etmiş Qərb ölkələrində boşanma halları 50%-i ötüb keçmişdir. Ona görə də tənha qadınların və kişilərin sayı getdikcə artır, tənhalıq sosial bəlaya çevrilir. Bu hal isə insan psixikasına, fiziki və mənəvi sağlamlığa, sosial fəallığa mənfi təsir göstərir.

Müasir ailələrdə fərarilik hüququ artır və yaxud, arvadın nikah əlaqələrini üzmədən ailəni tərk edib getməsi adi hala çevrilir. Bu halın səbəbləri içərisində iqtisadi məhrumiyyətlərə dözə bilməmək, ailə qayğılarını bölüşməmək istəyi, xarakterlərin toqquşması və s-ni göstərmək olar.

Müasir ailələrdə nikahın «qccalması»müşahidə edilir. Əvvəllər 20—30 yaşında olan gənclərin ailə qurması normal meyl idisə, indi gənclər 30—35 yaşlarında nikaha girirlər.

Bunun başlıca səbəbini iqtisadı vəziyyətin pisləşməsində axtarmaq lazımdır. Gənc oğlan və qız belə hesab edir ki, həyatda müstəqillik əldə etdikdən sonra evlənmək daha məqsədəuyğundur. Belə ailələr bir qayda olaraq azuşaqlı olur. Ümumiyyətlə, müasir ailələr üçün bir və ya iki uşağın olması daha səciyyəvidir. Qərb ölkələrində təkuşaqlı ailələr daha çox dəbdədir. Bu ölkələrdə 3 və daha çoxuşaqlı ailələr nadir hadisədir. Danimarka, Norveç, İsveç və s. kimi ölkələrdə əhalinin azalması meyli bununla əlaqədardır.

Müasir ailələrdə əxlaqi dayaqların zəifləməsi meylləri müşahidə edilir. Pornoqrafiyanın və başqa mənfi əxiaqi keyfiyyətlərin açıq təbliğ edilməsi çox ciddi narahatlıq doğurur, ailə münasibətlərinin mənəvi dəyərlərini xeyli sarsıdır. Bu isə bütövlükdə ailənin sosial funksiyalarına mənfi təsir göstərir, cəmiyyətin mənəvi ab-havasını korlayır. Müasir ailəni hər cür naqisliklərdən uzaqlaşdırmaq üçün bəşəriyyət qarşısında böyük vəzifələr durur.

Müasir Azərbaycan ailəsi sivilizasiyanın bu cür aşındırıcı təsirinə o qədər də uğramayıb. Azərbaycanlılar üçün səciyyəvi olan ailə sədaqəti, böyüklərin və uşaqların qayğısına birgə qalmaq, ağsaqqal sözünə qulaq asmaq, tarixən yaranıb formalaşmış adət və ənənələrə hörmətlə yanaşmaq bu gün də öz əhəmiyyətini saxlayır. Təsadüfi deyildir ki, Azərbaycan dünyada ən az boşanma halları olan ölkələrdən biridir. Burada qurulan hər 100 ailədən yalnız 5-i uğursuz nəticələnir. Xalqın tarixən qoruyub hifz etdiyi əxlaqi sərvətlər və normalar qadına, uşaqlara və kişiyə münasibətin ən ülvi nümunələrini yaşadır. Bugünkü Azərbaycan qadını cəmiyyətin tam hüquqlu üzvüdür; o, ailənin qayğıları ilə bərabər cəmiyyətin bir sıra qayğılarını da öz üzərinə götürmüşdür. Suveren Azərbaycan dövləti yaxşı başa düşür ki, möhkəm ailə möhkəm cəmiyyət deməkdir. Odur ki, cəmiyyətimizdə ailə ciddi qanunlarla qorunur.

## MÜNDƏRİCAT

## İNSAN VƏ CƏMİYYƏTİN MADDİ HƏYATI

**İnsanlarin birgə fəaliyyət üsul və formalari**

§ 1. Cəmiyyət nədir?....................................................221
§2. İctimai münasibətlər və ictimai mühit.........................228
§3. Cəmiyyətin strukturu ..............................................235

**Cəmiyyətin genezisi və tarixi proses**

§4. Cəmiyyətin mənşəyi ...............................................244
§5. İnsanların tarixi birlik formaları ................................247
§6. Ailə və cəmiyyət.....................................................254
§7. Ailənin funksiyaları .................................................259

**Maddi istehsal və texniki tərəqqi**

§8. İstehsalın və texnikanın meydana gəlməsi ...................263
§9. Tarixdə elmlə texnikanın qarşılıqlı münasibəti ............269
§10. Orta əsr Şərqində elm və texnika ............................275
§11. Elmlə texnikanın qarşılıqlı nisbəti...........................284

**Cəmiyyətin iqtisadi həyati**

§12. İnsanların iqtisadi fəaliyyəti və onun təkamülü..........287
§13. İqtisadiyyat anlayışı. İqtisadi resurslar ......................291
§14. İqtisadi sistemlər ...................................................294

**Müasir şəraitdə Azərbaycanda yeni iqtisadi sistemin formalaşması xüsusiyyətləri.**

§15. Bazar və bazar iqtisadiyyatı....................................298
§16. Bazarın növləri .....................................................304
§17. Sahibkarlıq və onun formaları .................................308
§18. Pul və pul sistemi, inflyasiya .................................312
§19. Banklar və iqtisadiyyatda onların rolu.......................314

§20. Milli sərvət və onun tərkibi....................................317
§21. Beynəlxalq iqtisadi əlaqələr..................................319

**Sosializm ideali və real sosializm**
§22. Sosializm ideyası və idealı ....................................322
§23. SSRİ-dəki real sosializm........................................331
MÜASİR DÖVRÜN QLOBAL PROBLEMLƏRİ............340
§24. Bütün bəşəriyyəti narahat edən problemlər ...............340
§25. Müharibə və sülh problemi.....................................343
§26. Planet miqyasında təhlükə doğuran ekoloji problemlər ..........................................................................349
§27. Energetika problem...............................................356
§28. Demoqrafiya problem............................................359

# İNSAN VƏ CƏMİYYƏT

**11-ci sinif üçün**
**dərslik**

*Fəlsəfə elmləri doktoru, professor,*
*əməkdar elm xadimi*
Cəmil Əhmədlinin *redaktəsilə*

*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyi təsdiq*
*etmişdir*

«öyrətmən»nəşriyyatı

**Mathəə, Sənaye və Ticarət LTD. ŞTL**
**Tel: 9852 Fax: 98 38 80**
**Bakı-Azərbaycan**

**İNSAN VƏ CƏMİYYƏT** (11-ci sinif üçün dərslik). Bakı: «öyrətmən», 1994, 192 səh

I 0303040000-018-94

60.R 72

© “Öyrətmən”, 1994

# GİRİŞ

Orta məktəbin 11-ci sinfi üçün yazılan bu dərsliyin əsas məqsədi cəmiyyətin mənəvi həyat sistemini təşkil edən başlıca elementlərin–əxlaqın, incəsənətin, dinin, hüququn və s. mahiyyətinin, şagirdlər üçün açılmasından, mənəvi həyat sahələrinin və onlarda yaranan müvafiq sosial mühitin insanların bir şəxsiyyət, vətəndaş kimi formalaşmalarında və inkişafında oynadıqları rolun araşdırılmasından, habelə insanların cəmiyyətin mənəvi həyat sahələrinin qərarlaşması və təkmilləşməsində rolunun göstərilməsindən ibarətdir.

Müəlliflər mənəvi həyat sahələrinin dialektik əlaqə və asılılığını, onların inkişafındakı varisliyi və harmoniyanı şagirdlərə açıqlamağa çalışmışlar. Bu məqsədlərə nail olub-olmadığımızın və ya nə dərəcədə nail olduğumuzun qiymətləndirilməsini gənc oxucularımızın və onların müəllimlərinin öhdəsinə buraxırıq. Biz onların qeyd və təkliflərini, iradlarını minnətdarlıqla qəbul edəcəyimizi, onları mümkün dərəcədə nəzərə alacağımızı söyləməyi özümüzə xoş bir vəzifə sayırıq.

Dərsliyin yazılmasında Cəmil Əhmədli, Rəfiqə Əzimova, Rəhman Bədəlov, Niyazi Mehdiyev, Mübariz Əmirov və Maarif Babayev iştirak etmişdir.

# İNSAN VƏ CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

## CƏMİYYƏTİN RUHİ-ƏXLAQİ HƏYATI NƏDİR?

### §1. Maddi və ruhi həyat sahələrinin ayrılması şərtidir

İnsan cismani və ruhi varlıqdır. İnsanın maddi həyatı dedikdə biz ilk növbədə onun cismani varlığını saxlamağa yönəlmiş fəaliyyətini başa düşürük. Bura insanın nəsil artırması, qida, paltar, ev və ev əşyaları əldə etmək fəaliyyəti və bunun üçün lazım olan vasitələr–təbii mühit, əmək alətləri, texnika və texnologiya aid edilir. Təbii ki, insanın mövcud olması və inkişafı üçün onun maddi həyatının təmin edilməsi zəruri şərtdir.

Lakin insan təkcə maddi həyatını təmin etməklə məşğul deyil. Əgər onun həyatı təkcə yeməkdən, içməkdən, geyməkdən və yatmaqdan ibarət olsaydı, heyvandan heç nə ilə fərqlənməzdi. İnsan həyatının çox mühüm amili, onu bütün canlılardan fərqləndirən əsas şərti onun şüuru, mənəviyyatı, ruhudur. O mənəvi sərvətləri də yaradır və istehlak edir.

Tarixin bütün dövrlərində ictimai inkişafın hərəkətverici qüvvəsi insanın maddi və mənəvi sərvətlər istehsalına duyduğu tələbat olmuşdur. İstehsalın inkişafını maddi və mənəvi tələbat şərtləndirdiyi kimi, tələbatı da istehsalın nəticəsi olan sərvətlər ödəyir. Beləcə, bir-birinə qarşılıqlı təsir göstərərək onlar sosial inkişaf deyilən prosesi təmin edirlər. Bioloji tələbatların (qidalanma, geyim, ailənin məişəti, nəslin davam etdirilməsi və s.) ödənilməsi insanın fiziki sağlamlığının təmin edilməsi üçün, mənəvi tələbatların (intellektual inkişaf, təbiətin və incəsənətin gözəlliklərini seyr etmək, musiqi dinləmək, şer yazmaq və dinləmək, insanlarla ünsiyyətdə sevinc və kədərini bölüşdürmək, dostluq, məhəbbət, ideal, arzu, istək və s.)

ödənilməsi isə insanın ruhu üçün, mənəvi sakitliyi və saflığı üçün zəruridir. Bu mənada yaşadığımız dünya bizim maddi və mənəvi tələbatlarımızın rəngarəngliyi və müxtəlifliyini təmin edəcək zənginliyə malikdir. Bu zənginlikdən layiqincə istifadə etmək bizim özümüzdən, ictimai-iqtisadi və siyasi quruluşumuzdan asılıdır.

İnsanın mənəvi həyatını onun fiziki varlığından ayrıca təsəvvür etmək olmaz. Onların fərqləndirilməsi nisbi xarakter daşıyır. Məsələn, belə təsəvvür etmək olmaz ki, insan günün 7-8 saatını ancaq fiziki işlə məşğul olur, sonra da mənəvi fəaliyyət sahəsinə keçir. Fiziki işlə məşğul olduğu müddətdə də insan mənəvi hisslərlə yaşayır, mənəvi meyarları gözləyir. Bağda ağacların budanması ilə məşğul olan adam, əlbəttə ki, fiziki işlə məşğuldur. Lakin eyni zamanda o, gördüyü işdən mənəvi zövq alır. Yaxud rəsm əsəri çəkən rəssamın əməyi də, onun əməyinin məhsulu olan rəsm də (məsələn, təbiət mənzərəsi, natürmort, portret və s.) həmin rəssamın özünün, həm də onun gələcək tamaşaçılarının mənəvi tələbatının ödənilməsinə yönəlmişdir. Lakin aydındır ki, rəssamın işi eyni zamanda ən ağır fiziki işdir.

İnsan və cəmiyyətin həyatı maddi və mənəvi tələbatların kəsişməsi, onların bir-birində təzahür etməsi zəminində baş verir.

Öz içimizdə keçirdiyimiz və maddi şəkildə qeydə alınması mümkün olmayan (eşidilməyən, görünməyən və s.) bütün duyğuların cəmini insan ruhunun yaşaması adlandırırıq. Doğrudur, bu yaşama insanın fiziki və fizioloji halında öz əksini tapır. Məsələn, əsəbi adamın üzünün rəngi ağarır, hərarəti olan adam, yaxud utanan adam qızarır, qorxu hissi keçirən adam titrəyir və s. Ümumiyyətlə, sevinc və kədər hissini sifətindən «oxumaq» olur. Lakin bunlar hamısı təzahürlərdir. Əsl ruhi vəziyyətisə (sevinc, kədər, qorxu) bizə görünmür.

Qeyri-maddi olmaqla ruh insanın daxili, şəxsi, təkrarlanmayan halıdır. Bir kəndlidən soruşurlar ki, insanın ruhu nədir? O cavab verir ki, ruh bir insanın ürəyində başqasına yer

olmasıdır. Buna görə deyilmi ki, biz «bu adamın ürəyi yoxdur»dedikdə başqasının sevincinə kədərlənən, kədərinə, dərdinə sevinən, qəddar, işgəncə verməkdən zövq alan qəlbsiz, ruhsuz adamları *(Neronu, Qacarı, Hitleri, Androniki va minlərlə belələrini)* nəzərdə tuturuq.

Hər bir insan sevinc və ya kədər, ümidsizlik və ya möhkəm inam, səadət və ya bədbəxtlik, mərhəmət və ya qəddarlıq, bəzən isə nifrət yaratmağa və ya dağıtmağa meyl duya bilər. Bu mənada insanın mənəvi aləmini konkret sərhədlərlə məhdudlaşdırmaq olmaz. Əgər əsatirlərə müraciət etsək, qədim insanların ruhunun formalaşmasında keçdiyi çətin yolu izləyə bilərik. O dövrün insanlarının «ruhu» XX əsr adamının ruhundan nə ilə fərqlənir? Qədim insanlar həqiqəti, yalanı, ədaləti canlı təsəvvür edir və maddi bir şey kimi qavrayırdılar. «Tabu»nun (haramın) pozulması, yalan, ədalətsizlik oğurluq– bütün bunlar allahların yaratdığı «xeyirxahlıq et, yalan danışma və s. qanunlara bağışlanmaz etinasızlıq kimi qəbul edilirdi. İcma üzvü tərəfindən bu ehkamların pozulması icmadan qovulmaqla cəzalandırılırdı, bu isə ölümə bərabər idi.

Nəsildən-nəslə keçən maddi və mənəvi sərvətlər sayəsində, yəni ümumi varislik qanunu sayəsində cəmiyyət maddi və mənəvi sahələrdə istehsal və təkrar istehsalın mürəkkəb sisteminə çevrilirdi. Məşhur Roma şairi və filosofu Lukresi Kar özünün “Şeylərin təbiəti haqqında» adlı kitabında yığcam surətdə və anlaşılan tərzdə insanların yaratdığı və cəmiyyətin həyatı üçün zəruri olan, lakin daha çox yeni ideyaların, yeni yaradıcılıq məhsullarının meydana çıxmasına kömək edən maddi və mənəvi sərvətləri göstərmişdir. Buraya əkinçilik, gəmiçilik, tikintilər, qanunlar, paltar, silah, yollar, rəsmlər, mahnılar, şerlər, heykəllər və s. daxildir.

Saraylar, körpülər, kanallar, dəmir yolu, atom elektrik stansiyaları və s. də maddi sərvətlərə aiddir. Lakin hər bir maddi sərvətdə, maddi cəhətdən duyulan, hiss edilən yaradıcılıq məhsulunda səmərəli bir ideya öz təcəssümünü tapır.

Mənəvi sərvətlərə insan ruhunun, insan mənəviyyatının tələbatının ödənilməsinə yönəlmiş bütün humanitar sahələrdə yaradılan şeylər aid edilir.

Məhz buna görə də onlar mənəvi sərvətlər adlandırılır. Bədii və musiqi əsərləri, ədəbi və tarixi abidələr, əlyazmalar, elmi kəşflər, adətlər, zövq, əxlaq norma və prinsipləri və s. bütün bunlar mənəvi sərvətlərdir.

Göründüyü kimi maddi və mənəvi sərvətlər arasında keçilməz sədd yoxdur və onları yalnız şərti olaraq ayırmaq olar. L.Karın cəmiyyətin istifadə etdiyi şeyləri sadalayarkən «tikililəri, qanunları, geyimi, silahı bir sıraya qoyması təsadüfi deyildir, çünki bütün bunlar əməli zəkanın məhsuludur. Haqlı olaraq eramızdan əvvəl VI-IV əsrlərdə Yunanıstanda mənəvi mədəniyyətin çiçəklənməsi» yunan möcüzəsi adlandırılan proses buna sübutdur. «Yunan möcüzəsi dedikdə hər şeydən əvvəl burada üç əsr ərzində sürətlə ideyaların toplanması, fəlsəfi və elmi cərəyanların yaradılması prosesi nəzərdə tutulur. Burada bəşər həyatının bir çox sahələrində elmi fərziyyə və fikir irəli sürmək iqtidarında olan ensiklopedist–alimlər yaşayıb-yaratmışlar (Sokrat, Platon, Demokrit, Aristotel və s.).

Yunanlar bir çox həyati əhəmiyyət kəsb edən mühüm məsələlərin həllində öz variantlarını təklif etmişlər: Yer üzərində həyatın yaranması, hər bir şeyin mahiyyətinin nədən ibarət olması və s. Onlar fizika, kimya, astronomiya, etika, bəşər tarixi və dövlət idarəsində hüquqi qanunları və insan davranışı qanunları haqqındakı elmlərin əsasını qoymuşlar.

Belə bir fikir ortaya çıxa bilər: doğrudanmı, yunan mədəniyyəti öz-özünə yaranmışdır? Tarix sübut edir ki, burada ümumi varislik qanunu özünü göstərmişdir. Bunun sayəsində yunanlar məhz şərq aləmindən bir çox şeyləri öyrənə bilmişlər. Antik dünyanın bir çox tədqiqatçıları yunan möcüzəsini bu ölkənin xüsusi coğrafi mövqeyi ilə izah edirlər.

Dəniz və ticarət yollarının kəsişdiyi yerdə yerləşmiş Yunanıstan şərqin bütün şəhər və mərkəzləri ilə daimi və

intensiv əlaqələr saxlayırdı. Bir çox yunan mütəfəkkiri aylarla və illərlə iri Şərq kitabxanalarında işləmək üçün oraya gedirdi. Rəvayətə görə Demokrit bir neçə il Şərq şəhərlərində olmuş, vaxtının çox hissəsini zəngin Şərq kitabxanalarında keçirmiş və atasından miras qalmış var-dövlətini buna sərf etmişdir. Yunanıstanın qaydalarına görə, oğulun atasından ona miras qalmış var-dövləti sağa-sola səpələməyə ixtiyarı yox idi. O, bu varı gərgin əmək sayəsində yalnız artıra bilərdi. Odur ki, Demokrit Yunanıstana qayıtdıqdan sonra onu məhkəmə və həbs gözləyirdi. Buna görə də Demokrit Afinanın qanunvericilik nümayəndələrinə müraciətlə ona Şərq ölkələrində olarkən yazdığı «Böyük Diakosmos» kitabını afinalıların qarşısında oxumağa icazə verilməsini xahiş edir. Ona icazəni verirlər. Açıq səma altındakı teatra yığılan afinalılar bir neçə gün ərzində Kainatın sirr və böyüklüyünü onlara açan həmyerlilərinə qulaq asır bu kitabı yüksək qiymətləndirirlər. Nəticədə Demokrit məhkəmə təhlükəsindən qurtarır.

Yunan mədəniyyəti qədim Şərq mədəniyyətinin dərinliklərindən boy atırdı. Məsələn, eramızdan əvvəl VIII-VII əsrlərdə yunanların riyaziyyat sahəsində bilikləri demək olar ki, yox dərəcəsində idi. Halbuki bu dövrdə Misirdə artıq həndəsi təsəvvürlər yaranmışdı, Babilistanda kvadrat tənliklər həll edilir və kub tənliklərin həllində xüsusi cədvəllərdən istifadə olunurdu. Finikiyalılar öz əlifbalarını yaradır, onu sonralar yunanlar mənimsəyir və saitlər əlavə edirlər. Eramızdan əvvəl III minilliyin əvvəllərində misirlilər günəş təqvimini icad edirlər və bu təqvim bəzi astronomik hesablamaları sürətləndirir. Yunanlar dövr üçün ən dəyərli dahi bilikləri mənimsəyərək onlardan çox səmərəli surətdə istifadə edə bilmişlər. Alman dramaturqu K.F.Hebbel yunanların mənəvi həyatını bu cür ifadə etmişdir:

«Siz yunanlar, çox hiyləgər xalqsınız: başqaları Sizin üçün ayırır, Siz isə bu iplikdən öz qızıl parçanızı toxuyursunuz».

Həqiqətən, yunanlar mənimsədikləri bilikləri heç də

mexaniki surətdə tətbiq etməyərək, öz sələflərindən bir neçə pillə yuxarı qalxmış və onlardan, fərqli olaraq toplanmış bilikləri sistemləşdirməkdə böyük bacarıq nümayiş etdirmişlər. Yunanların simasında bəşəriyyət yalnız intellektual potensialın toplanmasında deyil, həm də insan ruhunun və şəxsiyyətin mənəvi aləminin formalaşmasında sürətli sıçrayış etmişdir.

Beləliklə, mənimsədiklərinə əsasən, müqayisə edib ən rasional, ən səmərəli olanını seçən insan yeni ideyalara, kəşflərə və sənətlərə gəlib çıxırdı. Mənimsəmə, yadda saxlama və yeni kəşflər etmə prosesi insan təfəkkürünün, intuisiyasının sadə biliklərdən daha mürəkkəb biliklərə, bir həqiqətdən o birisinə, daha dərin həqiqətə doğru hərəkətinin mahiyyətini təşkil edir. Lakin təsəvvür edin ki, orta əsrlərdə bəşəriyyət qədim Şərqdən və antik Yunanıstandan qalmış bütün hər şeyi özü üçün açıb mənimsəməsilə kifayətlənmiş olsaydı, bəşəriyyətin inkişafı hansı istiqamətdə getmiş olardı, insanın mahiyyəti isə elə məhz ondan ibarətdir ki, o düşünməyə bilməz, təfəkkür isə yalnız seyretmə və mənimsəmə ilə bağlı deyil. Bundan başqa insan təfəkkürü həmişə xeyir və şərin, fayda və zərərin, rasional və irrasionahn nə olduğunu araşdırmaqla bağlı olmuşdur.

Sual və tapşırıqlar: 1. Maddi və mənəvi həyatın fərqləndirilməsini necə başa düşürsünüz? 2. Maddi sərvətlər deməkdir? 3. Mənəvi sərvət nədir və onlar necə yaradılır? 4. Qədim Yunanıstanda mənəvi sərvətlər və cəmiyyətin mənəvi həyatının inkişafında onların rolu məsələsini açıqlayın.

## §2. Mənəvi həyatın qiymətləndirilməsi üçün istifadə edilən əlamətlər

Cəmiyyətin mənəvi əxlaqi həyat xətti müxtəlif dövrlərin və nəsillərin mənəvi həyatının qarşılıqlı təsiri və asılılığı prinsipi üzərində qurulmuşdur. Qeyd etmək lazımdır ki, mənəvi mədəniyyət heç bir xəzinə və ya sərvətlər anbarı deyil, əgər müqayisə lazımdırsa, bu daha çox əcdadlarımızın bütün səyləri

nəticəsində toplanmış və zənginləşdirilmiş enerjidir. Əsas problem bu enerjini şəxsi istedadın enerjisinə çevirməkdən ibarətdir. Əlbəttə ki, söhbət bu enerjinin bizim hər birimizdə və bizim gördüyümüz işlərdə toplanmasından gedir. Arzular, xəyallar, fantastik düşüncələr–bütün bunlar əsatir, əfsanə, nağıl və bayatılarda cəmlənmişdir. Şifahi xalq ədəbiyyatı tarixi yaddaşı parlaq surətdə nümayiş etdirir. Biz heç bir təhsili olmayan yaşlıların saatlarla bayatı oxuya bilməsinə heyrət etmişik. Bayatılar isə xalq müdrikliyinin mənbəyidir. Əsatir və dastanlar isə həmişə özündə tükənməz xeyirxahlıq və mərhəmət ideyaları daşımışdır. Həmin ideyalar bu və ya digər dərəcədə bizim bütün əməllərimizdə özünə yuva salmışdır.

Müasirlərimizin fizika, kimya, astronomiya və digər elm sahələrindəki kəşfləri keçmiş əsrlərdə əldə edilmiş möhkəm bilik ehtiyatına söykənir. Əsrlər boyu toplanmış mənəvi sərvətlərin sadəcə olaraq mənimsənilməsi deyil, onların müasir yaradıcı insanın, tədqiqatçı və alimin ideyaları ilə mənəvi əlaqəsi yaranır. Beləliklə, toplanmış bütün mənəvi enerji Sizin beyninizdə, yaddaşınızda, fantaziya və arzularınızda özünə yer tapır. Lakin bu enerji hərənin bilik və maraq qabliyyətinə müvafiq surətdə toplanır.

Beləliklə, «cəmiyyətin mənəvi-əxlaqi həyatı anlayışını araşdırarkən biz yeni bir məsələ ilə qarşılaşırıq. Mənəvi-əxlaqi həyatın hansı tərəfləri (atributları) bu həyatın səviyyələrini təyin edir: yüksək ya alçaq, fəal ya passiv, mütərəqqi ya mütənəzzül, təkamül yoxsa inqilab? Bəlkə bu cür ifrat ölçülər heç də düzgün deyil? Bəlkə mənəvi-əxlaqi həyatın çoxtərəfli və müxtəlif olması onun bu cür birmənalı qiymətləndirilməsini rədd edir? Elə bir ölçü, elə bir meyar tapmaq mümkündürmü ki, cəmiyyətin mənəvi-əxlaqi həyatının məzmununu səciyyələndirməyə imkan versin?

Doğrudan da, mənəvi-əxlaqi həyat gözlə görünən şey deyil, çünki bütün vəziyyətlərdə bu, insan ruhunun halıdır, cəmiyyətin mənəvi əhval-ruhiyyəsidir. Mənəvi əxlaqi həyat həmişə Mən və

Sən, Biz və Onlar, Mən və Onlar arasındakı münasibətlərdir və bu münasibətlərin yaratdığı təəssüratlar heç də konkret adamın həyatı ilə məhdudlaşmır. Eyforiya və ya şok, qəzəb və ya şadlıq, fəallıq və ya passivlik, inam və ya inamsızlıq, qorxu və ya əzmkarlıq hallarını siniflər, millətlər–bütövlükdə cəmiyyət keçirə bilər. Bütün bunlar necə deyərlər, mənəvi-əxlaqi həyatın psixoloji səviyyəsidir.

1937-1938-ci illərdə planlı surətdə Azərbaycandan on minlərlə günahsız adam Sibirə sürgün ediləndə qorxu hissi bütün xalqı bürümüşdü. Qorxu hissi isə adamlarda ikiüzlülük, laqeydlilik kimi keyfiyyətlər yaradırdı. 1941-1945-ci illərdə İkinci dünya müharibəsi zamanı xalq qələbəyə inamla yaşayırdı, çünki bilirdi ki, işğalçılara qarşı ədalətli müharibə aparır. Bu gün ermənilərin Azərbaycana elan edilməmiş müharibə apardığı bir vaxtda milli ordumuz yaradılır. Azərbaycan xalqı inanır ki, yalnız peşəkar hazırlığı olan ordu düşməni geri oturda, Vətənimizin sərhədlərinin toxunulmazlığını təmin edə bilər. Bu gün döyüş meydanlarında Azərbaycanın minlərlə igid oğulları döyüşür, onların arasında yaralananlar və Vətən yolunda şəhid olanlar da var. Vətən, onun toxunulmaz və müqəddəs olması hissi Azərbaycan oğullarını sınaq günlərində də qələbəyə ruhlandırır.

Vətən təhlükə altında olanda, xalq işğalçılara qarşı ədalətli müharibəyə qalxanda vətənpərvərlik hissi xüsusi bir qüvvə ilə oyanır. Ağrı və qəzəb artıq bütün millətin şüur və əhvalını bürüyür. Belə şəraitdə milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin yüksəlişi müşahidə olunur. Bunlarla yanaşı cinayətkar ünsürlər də fəallaşır, cinayətkarlıq artır. Həyat şəraitinin gərginliyi çoxalır. Deməli, mənəvi-əxlaqi həyat fəallaşır. XX əsrin axırı XXI əsrin əvvəllərində Azərbaycan tarixi dərsliklərinə Azərbaycanın Milli qəhrəmanlarının adları daxil olacaqdır. Müharibə şəraitində, başqa sözlə, ekstremal hallarda ictimai əhval-ruhiyyəni, mənəvi-əxlaqi həyatın inkişaf meyllərini yalnız ağ və ya qara boyalarla təsvir etmək mümkün

deyil. Sosial gərginliklər dövründə mənəvi-əxlaqi həyat həmişə rəngarəng, çox çalarlı və mürəkkəb olur.

Həyat sərvətlərinə münasibətdə insanları üç qrupa ayırmaq olar. Birinci qrupa daxil olanlar həyatlarının başlıca mənasını sərvət toplamaqda görürlər. Həm də bu yolda bütün vasitələrdən istifadə edirlər. Ailədə piano çalan olmadığı halda piano alıb evə yığanlar, bahalı kitabları alıb oxumadan boylarına, rənglərinə görə rəflərə düzənlər, qızıl, gümüş əşyalar, daş-qaş alıb saxlayanlar məhz bu qrupa aid olan adamlardır.

İkinci qrupa, əks mövqedə duranlar daxildir. Onlar üçün «bu dünya beş gündür», «Süleymana qalmayan dünya heç kimə qalmayacaq", «dünya malına göz dikmək özünü aldatmaqdır » və s. Onlar üçün «al da birdir, şal da», «yağ da birdir, şor da". Bu mövqeyin ifrat formasına «tərki-dünyalıq", «Bəhlul Danəndəlik", «dərvişlik" deyirlər.

Nəhayət, üçüncü qrupa aid olan adamlar üçün maddi və mənəvi həyatın harmoniyası, ahəng və tənasübü yaşamaq və yaratmağın optimal zəminidir. Bu adamlara görə «yemək üçün yaşamaq yox, yaşamaq üçün yemək lazımdır. Onlar üçün maddi sərvətin dəyəri təkcə onun pulla ifadə edilən qiymətində deyil, onların daşıdığı mənəvi məzmun və formadadır.

Sivilizasiyalı cəmiyyətdə maddi və mənəvi həyatın optimal nisbəti zəruridir.

## §3. Mənəvi həyat və keçmiş irs

**Keçmişə münasibət** cəmiyyətin mənəvi-əxlaqi həyatının ayrılmaz hissəsini təşkil edir.

Cəmiyyətin, millət və xalqın başlanğıcı, təşəkkülü, inkişaf və təkmilləşmə tarixi vardır. Keçmişsiz gələcəyin də olmaması haqda hikmətli sözlər hamıya məlumdur. Bəs bu mənada bizim keçmişə münasibətimiz necə olub? Diqqətlə fikir versək, görərik ki, keçmişin mənəvi xəzinəsinə ictimai maraq hakim siyasi sistemdən asılı olaraq müəyyənləşdirilib. Keçmiş SSRİ-də belə

humanist şüar var idi: «SSRİ-də yaşayan millətlərin tərəqqisi və yaxınlaşması”. Bəs bu tərəqqi, bu yaxınlaşma əslində necə baş verirdi?

Keçmiş irsdən ancaq yeni sovet dövlətinin qurulması üçün münasib və sərfəli olan ədəbiyyat seçilirdi. Bir çox adət və ənənələr kəskin tənqidə məruz qalırdı. XIII-XIX əsrlərin bir çox mütəfəkkir filosof və tarixçilərinin əsərlərinə yasaq qoyulmuşdu. Millətin həqiqətən fəxri olan bir çox mütəfəkkirlərin adı dərsliklərə salınmırdı. Beləliklə, XX əsr nəsillərində keçmiş mənəvi xəzinəmiz haqda yanlış, saxta təsəvvür yaradılırdı. Azərbaycanda ədəbi, fəlsəfi və tarixi irsə ifrat dərəcədə birtərəfli münasibət bəslənilirdi. Nadir hallar istisna olmaqla, öyrənilən və tövsiyə edilən humanitar ədəbiyyat siyahısına yalnız ateizm ruhlu kitablar daxil edilirdi. Dindar mütəfəkkirlərin əsərləri ya siyasətimizə uyğun istiqamətdə ixtisar edilir, ya da amansız tənqidə məruz qalırdı. Bu cür antimilli siyasət nəticəsində elm və mədəniyyət xəzinəmizdən xalqımızın fəxri sayılan bir çox mənəvi sərvət inciləri çıxarılmışdır. Kökləri ilə uzaq keçmişə, e. ə. VI minilliyə gedib çıxan müdrik Zərdüştün yaratdığı dini-mifoloji və fəlsəfi abidə “Avesta» buna misal ola bilər.



Xaqani, əsl adı Əfzələddin ibrahim ibn Əli Nəccar Şirvani (1126, Şamaxı yaxınlığındakı Məlhəm kəndi-1199, Təbriz)- Azərbaycan şairi və mütəfəkkiri. Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biridir.

Xaqani Şirvani Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Əsərləri tezliklə Yaxın və Orta Şərq ölkələrinə yayılaraq müasirlərinin nəzərini cəlb etmişdir. Yaxın Şərqə səfərdən qayıtdıqdan sonra Xaqani Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk görkəmli

nümunələrindən hesab edilən “Töhfət ül-İraqeyn» (1157) adlı məsnəvisini yazmışdır Bu əsərdə səfər macəraları ilə yanaşı Yaxın Şərq xalqlarının həyatından, rast gəldiyi alimlərlə görüşlərindən aldığı təəssüratı təsvir etmişdir. Xaqaninin lirik əsərləri, xüsusilə insan mənəviyyatını yüksəldən saf eşqi, məhəbbəti, vəfa və sədaqəti tərənnüm edən qəzəlləri diqqətəlayiqdir.

Bir çox tədqiqatçıların fikrinə görə bu abidəni İrandan şimal-qərbdə (Azərbaycanda, Araz çayı sahilindəki yerlərdə) yaşayan qədim xalqlar yaratmışlar. XVII əsrdən başlayaraq bir çox Avropa alimləri bu abidənin mənşəyini, dilini, yaranma coğrafiyasını diqqətlə öyrənməyə başlamışlar. Bizim ictimaiyyət isə «Avesta»nın tədqiqi və yayılmasına xeyli laqeyd yanaşırdı. Bu o deməkdir ki, biz öz köklərimizə, mənşəyimizə, tarixi yaddaşımıza etinasızlıq göstərmişik. Fərdi və ictimai yaşayış qayda-qanunlarını universallıqla özündə cəmləşdirmiş «Avesta»nın öyrənilməsi hər bir müasirimizi mənən zənginləşdirər, şəxsiyyətinin və mənlik şüurunun formalaşmasına, kömək edə bilər.

«Kitabi-Dədə Qorqud» kimi epik dastan da uzun onilliklər boyu kölgədə qalmışdır. Türkdilli xalqların, o cümlədən Azərbaycan xalqının şifahi xalq yaradıcılığının zirvəsi sayılan bu dastanda biz II-VI əsrlərə, yəni hələ islamaqədərki dövrə aid həyat tərzilə, xalq yaradıcılığının estetik möhtəşəmlik nümunələri ilə rastlaşırıq.

XX əsrin 60-70-ci illərinədək, bizim üçün keçmiş əsrlərin bir çox filosofları, tarixçiləri, yazıçıları naməlum qalmışdılar. XX əsrin 70-ci illərindən başlayaraq fəlsəfə tarixi sahəsində bir çox tədqiqatçılar H.Hüseynov, Z.Göyüşov, Ə.Əhmədov, Ş.Mirzəyeva, C.Mustafayev, Z.Quluzadə, S.Rzaquluzadə, Z.Məmmədov və başqaları Azərbaycanda VIII əsrdən XIX əsrədək bir dövrü əhatə edən zəngin fəlsəfi fikir laylarını açmışlar. Bu sahədə iş indi də davam etdirilir, lakin alimlərimizin əldə etdikləri nəticələr hələ də populyar formada orta və ali məktəblərdə tədris edilmir, geniş oxucu kütləsi

arasında yayılmır. Buradan belə nəticə çıxır ki, əgər bizim öz keçmişimizə münasibətimiz siyasi səbəblər üzündən səthi və bir qədər laqeyd olmuşdursa, deməli cəmiyyət öz həyatını tam dolğunluğu ilə, mükəmməl tərzdə yaşaya bilməmişdir. Biz birtərəfli və natamam inkişafda olmuşuq.

Mənəvi keçmişimizə laqeyd münasibətimiz, keçmiş irsimizdən məhrum olmağımız düşmənlərimizə «bu millət keçmişi olmayan millətdir» söyləməyə əsas vermişdir, siz gələcək nəsillər ərəb, fars və Avropa dillərində olan mənəvi irsimizi əsaslı surətdə öyrənərək Azərbaycan xalqının zəngin fikir irsini bütün dünyaya tanıdacaqsınız.



Makovelski Aleksandr Osi-poviç (1884, Qrodno—1969, Bakı) Azərbaycan filosofudur. Makovelski qədim yunan fəlsəfə tarixi, məntiq və məntiq tarixi, pedaqogika, psixologiya sahəsində, xüsusilə qədim yunan fəlsəfəsində sofistlər, Sokrata qədərki məktəblər, atomistlər və başqaları barədə əsaslı tədqiqat aparmış, onların bir sıra əsərlərini tərcümə etmiş, bunlara şərhlər yazmışdır. Azərbaycanın fəlsəfə tarixinə dair yazdığı əsərlərində Makovelski zərdüştlik, «Avesta», məzdəkilik, Şərqdə peripatetizm, sufilik, XIX əsr ictimai və fəlsəfi fikri kimi məsələləri əhatəli şəkildə tədqiq etmişdir.

Əhmədov Ənvər Mirzəqulu oğlu (1920—1984)—Azərbaycan filosofu, fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi. Elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Azərbaycanın fəlsəfi fikir tarixinin, A.A.Bakıxanovun fəlsəfi dünyagörüşünü tədqiq etmişdir. Azərbaycan maarifçiliyinin fəlsəfəsi, «Orta əsrlər ərəbdilli fəlsəfə monoqrafiyalarının, onlarla elmi məqalənin müəllifidir. Respublikamızda yüksək ixtisaslı fəlsəfə kadrlarının hazırlanmasında böyük xidmətləri olmuşdur.





Mirzəyeva Şükufə Şamil qızı (1924, Ağdamın Gülablı kəndi-1980, Bakı)-Şərqdə fəlsəfə elmləri doktoru olan ilk qadındır. Azərbaycan xalqının estetik fikir tarixi və etika problemləri ilə məşğul olmuşdur. 1944-cü ildə ADU-nun tarix fakültəsinin fəlsəfə şöbəsini, 1947-ci ildə orada aspiranturanı bitirmişdir. 1945-ci ildən Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda işləmişdir. 1967-ci ildən estetika və etika şöbəsinin müdiri idi. Bədii, ədəbi-tənqidi və incəsənətə dair əsərləri var.

Əgər bizim hiss və düşüncələrimizdə mənəvi keçmişimizi mümkün qədər tam və dolğun şəkildə bərpa etmək arzusu yaranırsa, əgər bu gün biz bu cür bərpaya dərin ehtiyac duyuruqsa, deməli hələ hər şey itirilməyib. Başlıcası odur ki, yaddaşımızda əcdadlarımızın yaratdıqlarını keçmişin özünün naminə deyil, hər birimizin ruhi, mənəvi tarazlığı və ictimai proseslərin daha harmonik inkişafı üçün bərpa etmək lazımdır. Azərbaycanda sərt senzura şəraitində belə keçmişə gizli marağını saxlaya bilmiş ziyalılar formalaşmışdır.

XX əsr Azərbaycan opera və simfonik musiqi-tarixində Ü.Hacıbəyov, M.Maqomayev, Q.Qarayev, Niyazi, F.Əmirov, A.Məlikov, C.Hacıyev, kimi sənət korifeyləri yetişmişdir. XX əsr boyunca Azərbaycanın mənəvi həyatı iki, bəlkə də üç mədəniyyətin təsiri altında formalaşmışdır. Qonşu mədəniyyətlərlə (Rus, Avropa, Şərq) ünsiyyətdə olmaq imkanı o mənada müsbət təsir göstərmişdir ki, yaxın və uzaq qonşularımızın keçmiş mədəniyyət və tarixləri ilə təmasda olduqca biz öz köklərimizə və tarixi yaddaşımıza qayıtmaq zərurətini daha dərindən hiss edirdik.

Milli ləyaqət və mənlik şüurunun saxlanılması zərurəti, dünya mədəniyyəti ilə müqayisə arzusu milli «mən»liyin dirçəlişini yaxınlaşdırmağa, onun sonrakı tərəqqi perspektivlərini müəyyənləşdirməyə kömək edən hərəkətverici qüvvəyə çevrilmişdir.



Quliyev Cahid Süleyman oğlu (1928—1991) Azərbaycan filosofu, fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi. 1951-ci ildən ömrünün sonunadək Azərbaycan Pedaqoji İnstitutunda (indiki N.Tusi adma Azərbaycan Pedaqoji Universitetində) çalışmışdır. Elmi-nəzəri və tədris metodikasına aid 25 elmi əsərin müəllifidir. Onun Azərbaycan incəsənətində humanizm probleminə, Ü.Hacıbəyov və Səməd Vurğuna həsr etdiyi fəlsəfi səpkili əsərləri xüsusilə diqqətəlayiqdir. Respublikada fəlsəfə üzrə elmi kadrların hazırlanmasında xidmətləri vardır.

## §4. Qocalara, uşaq və qadınlara münasibət – mənəviyyatın göstəricisidir

Qədim qəbilə-icma quruluşu dövründə, hələ insanların çətinliklə özlərinə qida tapa bildiyi vaxtlar, qida axtarışlarına bütün icma cəlb olunurdu. Əldə edilmiş qida yalnız ovda iştirak edə bilənlər və uşaqlar arasında bölüşdürülürdü. Qocalıb əldən düşənlər isə ənənəyə görə icmadan uzaqlaşdırılırdı. Qədim rəvayətə görə, bir oğul öz qocalmış atasını icmadan uzaqlaşdıraraq bir səhraya gətirir. Bu səhrada qoca kişi tənhalıqda ölməli idi. Oğul atasını oraya çatdırıb geri qayıdır, addım-addım atasından uzaqlaşır. Lakin daxili bir səs onu geriyə qayıdıb, atası ilə bir də görüşməyə vadar edir. Atasına yaxınlaşan oğul onun gülümsədiyini görüb təəccüblənir və nə üçün güldüyünü soruşur. Qoca ona belə cavab verir: ona görə gülürəm ki, gənc çağlarımda elə bu cür, öz atamı buraya sonuncu mənzilə yola salmağımı xatırlayıram.

Bu cavab oğulu çox həyəcanlandırır. O özünün də qocalacağını və öz oğlu tərəfindən həmin səhraya gətiriləcəyini gözləri qarşısına gətirir. Gələcəyi qarşısında duyduğu qorxu onu qoca atasını yenidən icmaya qaytarmağa məcbur edir. O vaxtdan da insanda öz ata-anası qarşısında məsuliyyət hissi yaranmış və dərinləşmişdir.

Rəvayətdən göründüyü kimi, hələ qədimdə insan atalarla oğulların, böyük və kiçik nəsillərin bir-birindən qarşılıqlı asılılığını, qarşılıqlı borcluluğunu öz daxili aləmi ilə dərk etməyə başlayırdı.

Zaman keçir və insanlar bəşəriləşir, yaşamağa və nəsilləri davam etdirməyə kömək edən adət-ənənələrə yiyələnirdi. Bu mənada artıq çoxdan cəmiyyətin mənəvi-əxlaqi həyat «keyfiyyəti» haqda nəticə çıxarmağa imkan verən «beynəlxalq meyarlar» işlənib hazırlanmışdır.

Mənəvi-əxlaqi həyat «keyfiyyəti» dedikdə nə başa düşülür? Burada söhbət ictimai və şəxsi münasibətlərdə istifadə edilən

humanist prinsiplərdən gedir. Adi həyatda humanist prinsiplər ümumiyyətlə deyil, konkret olaraq qoca adamlarla münasibətdə kifayət qədər tətbiq edilirmi? Nəsildən-nəslə keçən valideynlərə hörmət hissi, qocalıb əldən düşmüş və xəstələnmiş valideynlərə himayə və qulluq göstərilməsini də nəzərdə tutur. Yazılmamış əxlaq qanunlarına görə xəstə valideynlərin son günlərinədək onlara yalnız övladları qulluq etməlidir. Adətə görə bunu ya oğul, ya da qız edir. XX əsrin sonuncu rübündə övladların öz qocalmış valideynlərini əlillər və ya qocalar evlərinə verməsi meyli müşahidə olunur.

**Uşaqlara münasibət.** Hər bir cəmiyyətin həyatı, müvəffəqiyyətləri və inkişaf perspektivləri bir çox parametrlərdən–iqtisadi və siyasi sabitlikdən, əxlaqi və hüquqi münasibətlərin yetkinliyindən, həmin cəmiyyət üzvlərinin həyat tərzi və yaşayışının keyfiyyətlərindən asılıdır. Cəmiyyətin gələcəyinin daha xoşbəxt, etibarlı və təhlükəsiz böyüməsini təmin edən amillərdən danışdıqda, uşaqların fiziki və mənəvi həyatının sağlamlıq və təhlükəsizliyinin dövlət səviyyəsində qorunması zərurətini göstərmək lazımdır. Bəs insan cəmiyyətində insan balalarını kimdən və nədən qorumaq lazımdır? İlk növbədə uşağın kiçik yaşlarında rastlaşdığı böyüklərin nadanlığından. Əgər cəmiyyətdə bir yaşınadək uşaqlar arasında ölüm hallarının sayı getdikcə artırsa, məsuliyyətin böyük payı doğum evlərində işləyən həkim-pediatrların üzərinə düşür. Bir yaşında fiziki cəhətdən baxımsız qalmış, vaxtında müalicə olunmamış xəstə uşaqlar 10-15 ildən sonra valideynləri və ümumiyyətlə, cəmiyyət üçün çox çətin problemlər yaradır. Ən başlıcası isə fiziki qüsurlar uşaqda sonradan mənəvi və psixi qusurlar törədir, çünki onlarda naqislik, qüsurluluq kompleksi yaradır. Uşaq öz valideynlərinin nadanlığından da mühafizə olunmayıb. Bu gün bir çox uşaqlar valideynləri sağ ola-ola, uşaq evlərində böyüyür. Bəzi müəllim və tərbiyəçilərin nadanlığı da uşaqlar üçün, onların gələcəyi üçün təhlükə yaradır. Dövlət nəzarəti altına düşməyən uşaqlara

laqeyd münasibət bəsləmək təcrübəsi cəmiyyətin mənəvi həyatına mənfi təsir göstərir.

Nəhayət, uşaqları həm də ekoloji fəlakətlərdən qorumaq vacibdir. Ekoloji tarazlığın pozulması, ətraf mühitin çirkləndirilməsi hələ bərkiməmiş uşaq orqanizminə daha çox ziyan vurur.

Respublikada demokratik münasibətlər quruculuğunun ilk mərhələlərindən böyüklərin uşaqlara münasibət məsələləri də nəzərə alınmalıdır. Dövlətimiz humanist uşaqlıq konsepsiyası yaratmaq məsələsini həll etməlidir.

Cəmiyyətin sağlam mənəvi-əxlaqi inkişafının digər əlamətlərindən biri də ailə ocağının qoruyucusu olan qadına münasibətdir. Sovet hakimiyyəti illərində qadınlara bir sıra hüquq və azadlıqlar (əmək, təhsil almaq, ailə qurmaq və s. hüquqlar) verilmişdi. Lakin qazanılmış azadlıqların qadın həyatına təsiri yalnız müsbət olmamışdır. Belə ki, azadlıq, bir tərəfdən, minlərlə qadının yaradıcılıq imkanlarının açılmasına, digər tərəfdən isə, onların ailə ocağından uzaqlaşmasına gətirib çıxarmışdır. Öz şəxsi keyfiyyətlərini həyatda təsdiq etmək imkanı qazanan qadın vaxt azlığı üzündən ailəyə, uşaqlara daha az diqqət yetirməyə məcbur olur. İşlə ev arasında qalmış qadının uşaqların tərbiyəsi ilə məşğul olmaq imkanı az olur.

Qadının əməyindən hal-hazırda da ağır işlərdə (neft sənayesi, inşaat işləri və s.) istifadə olunur. Bu cür birtərəfli azadlıq öz acı bəhrəsini verir. İldən-ilə uşaq ölümü, cinayətkarlıq və sahibsizlik artır.

Cəmiyyətin çoxcəhətli mənəvi-əxlaqi həyat sahəsinin əsas mənzərəsi belədir. O müxtəlif şəxsi və ictimai həyat sahələrində yaşayan insanların təbii və məqsədyönlü arzu və istəklərindən ibarətdir. Gənc nəsil yaşayıb-yaratdığı cəmiyyətin mənəvi aləminin keyfiyyət və inkişaf meyllərini, tənqidi surətdə dərk etməlidir. Bu cür tənqidi dərketmə, insanın özünü tanıması, kamilləşməsi və saflaşması üçün, insan münasibətlərinin yaxşılaşdırılması üçün zəruridir.

# ŞƏXSİYYƏTİN AZADLIĞI VƏ ZƏRURƏT

## § 5. Azadlıq haqqında müxtəlif baxışlar

Azadlıq nədir? Bu sual bəşər tarixində insanı, xalqı, milləti ən çox düşündürən sual olmuşdur. Bu da təbiidir. Hələ yaranışından müəyyən təbii və sosial məhdudiyyətlərə məruz qalan insan daim azadlıq, onun əldə edilməsi yolları haqqında düşünmüş, bu suala cavablar axtarmışdır. Azadlıq onun ən ülvi məqsədi, amal və arzusu olmuşdur.

Bir qədər də sualı xırdalasaq belə bir tapmaca çıxır ortaya. Görəsən, bu həyatda insanın etdikləri, davranış və fəaliyyəti azaddır, yoxsa onun hər addımı müəyyən səbəb və motivlərlə şərtlənmişdir? İnsan öz hərəkət və davranışlarının yaradıcısıdır, yoxsa mexaniki icraçıdır? O, azadmı davranır, yoxsa müəyyən şəraitə daxil olan müxtəlif amillərin təsirinəmi tabedir? Məsələ fəlsəfi və ictimai fikir tarixində məhz bu şəkildə qoyulmuş və ona cavab verməyə cəhdlər göstərilmişdir.

Əgər sualın qoyuluşuna diqqət yetirsəniz görərsiniz ki, ona iki cür cavab vermək olar, yəni sualın qoyuluşu özü elə bil ki, cavabları da əvvəlcədən nəzərdə tutur. Həqiqətən də cavablar «ya-ya» prinsipilə iki cür verilmişdir. Bəziləri belə hesab etmişlər ki, təbiətdə, cəmiyyətdə və hətta insanın həyatında hər şey, hər hadisə müəyyən qanunauyğunluğa tabe olduğuna görə insanın davranış və hərəkətlərində heç bir azadlıq ola bilməz. Onun bütün həyat yolu və həyat tərzi əvvəlcədən zərurətlə müəyyən edilmiş məcrada və məlum qaydalar əsasında baş verir. Bu mövqeyin tərəfdarlarına deterministlər deyirlər. Gətirdiyimiz bu mövqeyin özü də iki ilkin müddəaya əsaslandığına görə determinizm nöqteyi-nəzəri də iki növə ayrılır: dini-idealist determinizm və materialist determinizm.

Dini-idealist nöqteyi-nəzərin nümayəndələrinin fikrincə dünyanı da, insanı da, cəmiyyəti də Allah və ya əzəli bir ruhi qüvvə yaratdığından insan heç cür azad ola bilməz. O öz

həyatında və fəaliyyətində əzəldən müəyyən edilmiş yolla gedir, bu yoldan sapma, onun pozulması isə insanın azadlığına yox, günah işlətməsinə dəlalət edir. «Yazıya pozu yoxdur", «alnınıza nə yazılıbsa o da olacaq", «taledən qaçmaq olmaz" və s. bu kimi ifadələr söylədiyimiz nöqteyi-nəzəri göstərən sözlərdir.

Materialist deterministlər isə belə hesab edirlər ki, təbiətdə də, cəmiyyətdə də hər şey ciddi obyektiv qanunauyğunluğa tabedir. İnsan da təbiətin bir hissəsi olduğuna görə onun etdiklərinin hamısı həmin qanunauyğunluğa tabedir, orada heç bir azadlıqdan danışmaq olmaz.

Fransız materialisti P.Holbax özünün determinizm mövqeyini sübut etmək üçün belə bir misal gətirir: Qızmar günəş altında yol gedən insan susuzluqdan iztirab çəkir və su axtarır. Birdən yolun kənarında bir bulağa rast gəlir. Aydındır ki, susuzluqdan yanan bu adam su içməyə can atacaq. Onun hərəkəti səbəblə şərtləndiyinə görə azad hesab edilə bilməz. Lakin birdən ona xəbər verirlər ki, bulağın suyu zəhərlənib. «Adam sudan içəcək, ya yox?» sualına Holbax belə cavab verir: Onun sudan içib-içməməsi ona təsir edən səbəbin gücündən asılı olacaqdır. Əgər o adam susuzluğa dözmək üçün özündə qüvvə olduğunu hiss etsə, onda su içməkdən imtina edəcək. Onun hərəkəti bu halda da səbəblə şərtlənəcək və deməli yenə də onun azadlığından söhbət gedə bilməz. Yox əgər, o adam hiss etsə ki, onsuz da susuzluqdan öləcək, onda zəhərlənmiş sudan içəcək ki, bəlkə salamat qalsın. Bu halda da onun hərəkətlərində heç bir azadlıq əlaməti olmayacaq, çünki onun daha güclü səbəbin təsiri altında məhz bu cür hərəkət etməsi aydındır.

Gətirdiyimiz bu nöqteyi-nəzərin çox ciddi mübahisələrə səbəb olan bir hüquqi cəhəti də vardır. Doğrudan da, əgər insan özünün davranış və hərəkətlərində azad deyilsə, amansız tale yazısının, yaxud təbiət qanunlarının əlində sadəcə bir vasitədirsə, onda törətdiklərinə görə insanı məsuliyyətli sayıb cəzalandırmaq nə dərəcədə ədalətlidir.

Məsələn, əgər bir adam oğurluq etmişsə belə çıxmırmı ki,

bu oğurluğu o özü azad surətdə etməmişdir, bu onun alnına yazılmış bir yazıdır, onun taleyidir? Bəs onda cəmiyyət nə üçün onu cəzalandırır?

İkinci indeterminist nöqteyi-nəzərin tərəfdarları isə belə hesab edirlər ki, insan özünün hərəkət və davranışlarında tam azaddır, onu məhz filan cür davranmağa, filan cür hərəkət etməyə vadar edən heç bir şey yoxdur. İnsan nəyi istəyirsə onu da edir. Məsələn, siz, istəsəniz dərsə gedərsiniz, istəməsəniz yox. İstəsəniz filan küçə ilə gedərsiniz, istəsəniz başqa küçə ilə.

Bu fikirdə müəyyən bir həqiqət var. Doğrudan da, əgər insan bir şeyi istəyirsə, onu edə bilər. Lakin buradan iki sual ortaya çıxır. Əvvələn, nə üçün insan məhz filan cür davranmaq, filan cür hərəkət etmək istəyir, başqa cür yox? Bunun özünün bir səbəbi var, ya yox? İkincisi, insanın istədiyi kimi hərəkət etməsinə mane olan bir amil varmı? Varsa bu amilin xarakteri necədir? Bu suallara sonrakı şərhimizdə cavab verməyə çalışacağıq.

İndeterministlər belə bir fikrə əsaslanırlar ki, aləmdə, həm də cəmiyyətdə heç bir hadisə mütləq təkrar olunmursa, deməli, orada nə zərurət, nə də qanunauyğunluq vardır. Aləm təsadüflər yığımından ibarət olan bir xaosdur. Məsələn, cəmiyyətdə baş verən hadisələrin hər biri müəyyən yerdə və müəyyən zamanda baş verir, onu həyata keçirən konkret adamlar olur, hadisələrin təkrarlanmayan axarı, nəticələri, məqsədləri olur. Belədirsə burada qanunauyğunluqdan danışmaq olarmı? Onların fikrincə, əsla yox. Bəs cəmiyyət necə inkişaf edir? İnsanların həyat və fəaliyyətini nə təyin edir?–suallarına cavab verirlər ki, insanlar öz hərəkətlərini, davranışlarını azad surətdə özləri seçirlər. Cəmiyyətin inkişafının meyl və istiqaməti isə görkəmli şəxsiyyətlərin iradəsindən, zəkasından və s.-dən asılıdır.

Görkəmli şəxsiyyətlər, əlbəttə ki, cəmiyyətin həyatında çox böyük rol oynayırlar. Onlar cəmiyətin inkişafını sürətləndirə də bilər, ləngidə də. Cəmiyyətin normal inkişafına kömək edə bilər və əksinə, onu zülmə, ölümə, səfalətə də düçar edə bilər. Lakin

niyə bu belə olur? Hansı halda şəxsiyyətin hərəkətləri azaddır, hansı halda kor-koranə özbaşınalıq və məsuliyyətsizlikdir. İndi gəlin bu suallara cavab verək.

Sual və tapşırıqlar: 1. İnsanların həyatında azadlığın yeri haqqında danışın. 2. Determinizm nədir? 3. İndeterminizm nədir?

## §6. Azadlığın növləri: fiziki, əxlaqi-psixoloji və intellektual azadlıq

**Fiziki azadlıq.** İnsanın fiziki azadlığı o deməkdir ki, onun hər hansı hərəkəti etməsinə heç bir maddi-fiziki maneə yoxdur. Bu mənada azadlıq sərbəstlik, saflıq, aydınlıq sözlərilə eyni məna daşıyır. Məsələn, yol gedən insanın qarşısına çıxan çay, qaya, uçurum onun azadlığını məhdudlaşdırır. Məhz bu mənada da sərbəst axan su, azad quş, azad heyvan ifadələrini işlədirik. Təbiətdə yaşayan, istədiyi yerə uçan, istədiyi yerdə yuva tikib, bala çıxardan quş azaddır. Qəfəsə salınmış quş isə azadlıqdan məhrumdur. Meşədə, cəngəllikdə yaşayan pələng azaddır. Heyvanxanada saxlanılan pələng isə azad deyil. Həbsxanaya salınmış insan öz hərəkətlərində azad deyil, çünki istədiyi yerə gedə bilmir, istədiyini edə bilmir. Ona görə də onu məhkum edən qərarda yazılır ki, filankəs filan müddətə azadlıqdan məhrum edilir. Bu müddət ərzində həmin adam həbsxana rejiminə tabe olmalı, müəyyən edilmiş vaxtda yatmalı, durmalı, tapşırılan işi yerinə yetirməlidir. Məhkumluq vaxtı qurtaranda həbsxanadan çıxan adam haqqında deyirik ki, filankəs azadlığa çıxmışdır.

Bütün siyasi və hüquqi azadlıqlar da fiziki azadlıqlara aiddir. Əgər insan seçmək və ya seçilmək hüququndan məhrum edilmişsə, bu da dolayı yolla fiziki va sitələrlə həyata keçirilir. Seçki komissiyasının üzvləri və ya hüquq mühafizə orqanlarının işçiləri onu seçki otağına: gəlib səsvermə əməliyyatını icra etməyə qoymurlar. Deməli, onun azadlığını məhdudlaşdıran fiziki maneə vardır. Mitinqlərə, nümayişlərə, kütləvi

yığıncaqlara mane olunması da fiziki səbəbə aid edilir. Kütləvi tədbirlərin keçirilməsinin nə qədər qanuni və məqsədəuyğun olması başqa məsələdir. Biz sadəcə faktı qeyd edirik ki, bu halda insanların hərəkətlərini məhdudlaşdıran səbəb dolayı da olsa fiziki səbəbdir.

Milli azadlıq uğrunda mübarizə aparan xalqların azadlığı da fiziki səbəblərlə boğulur. Onların sərvətləri qarət edilir, hüquqları tapdalanır, dilinin, mədəniyyətinin inkişafına əngəl törədilir və bu yolla da azadlıqları boğulur. Bu halda da azadlığı məhdudlaşdıran əsasən fiziki amillərdir.

Bir sözlə, fiziki azadlıq insanın istədiyini etmək imkanını reallaşdırmaq üçün heç bir fiziki, yaxud maddi maneənin olmamasıdır. Deməli, bu mənada o xalqı azad saymaq olar ki, o özünün iradəsilə qəbul etdiyi qanunlar əsasında yaşayır və fəaliyyət göstərir. Adi davranışda və gündəlik həyatda əksər hallarda azadlıq sözündən məhz bu fiziki azadlıq mənasında istifadə edirlər və onun uğrunda da mübarizə aparırlar. Lakin məsələyə bir qədər dərindən və diqqətlə yanaşsaq görərik ki, fiziki azadlıq əsl azadlıq üçün şərt olsa da, hələ tam və əsl azadlıq deyildir. Bunun üçün azadlığı məhdudlaşdıran fiziki məneənin aradan qaldırılmasından daha vacib keyfiyyətlər tələb olunur.

Fiziki mənada insan heç vaxt tam azad ola bilməz. İnsan təbiətdə və müəyyən sosial mühitdə yaşayır. Bu mühitdəki təbiət hadisələri və cəmiyyətdə mövcud olan siyasi, hüquqi, əxlaqi və s. normalar insanın fəaliyyətini həmişə məhdudlaşdıracaq və deməli o həmişə müəyyən şeyləri edə biləcək, müəyyən şeyləri isə edə bilməyəcəkdir. Lakin onun fiziki azadlığının hədləri getdikcə genişlənəcəkdir. Bir zaman havaya qalxmaq insan üçün mümkünsüz bir iş olduğu halda, təyyarə kəşf edildikdən sonra, onun azadlığının hədləri genişləndi və onun havaya qalxması üçün olan maneə aradan qaldırıldı.

Lakin bu məsələnin bir tərəfidir. Onun digər, daha mühüm cəhəti ondan ibarətdir ki, insan qarşısındakı fiziki maneə aradan qaldırıldıqdan sonra istədiyini edə bilərsə, onun nəyi istəməsi və

nəyi istəməməsi nə ilə müəyyən edilir? Məsələn, insan məhkum edildiyi vaxt qurtaranda həbsxanadan çıxır, yəni. o, fiziki cəhətdən azad olur. Təbiidir ki, o yaşamalı, yeməli, içməli, geyməlidir və yaşamaq üçün evi olmalıdır. Başqa sözlə desək, onun müəyyən istəkləri olmalıdır. Bu istəklər çox ola bilər. O yaşaması üçün oğurluq, quldurluq, soyğunçuluq, canilik etmək istəyər, yaxud münasib bir iş tapıb halal pul qazanmaq istəyər, təhsil almaq üçün məktəbə girmək, oxumaq istəyər və s. Bax elə ən çətin sual da burada meydana çıxır. Sadaladığımız bu istəklərin hansını seçməsinin motivi nədir? Nə üçün həbsxanadan çıxanların biri bu istəklərin birini, başqası isə digərini seçir? Nədir bu iradə axınını təyin edən amil?

**İradə azadlığı.** İradə aktı seçmə, istək və hərəkət mərhələlərindən ibarətdir. Hər bir insanın çoxlu arzuları ola bilər. Məsələn, sizlərdən hər biriniz məktəbi qurtarandan sonra ali təhsil almaq, yaxud biznes sahəsində işləmək, istehsalda menecerlik etmək, siyasi fəaliyyət sahəsində işləmək və s. arzulaya bilər. Aydındır ki, bu arzuların hamısını eyni zamanda seçmək və həyata keçirmək mümkün deyildir, onlardan biri seçilməlidir. Məhz bu seçilmiş istək hərəkətə çevrilir. Siz yuxarıda sadaladığımız istəklərdən birini seçərək, onu həyata keçirmək üçün fəaliyyətə başlayırsınız. Deməli, arzu çox olur, bəzən bunlar bir-birindən fərqlənir və ya bir-birinə zidd olur. Məsələn, kinoya getmək və məktəbə getmək arzuları kimi. Nəticədə bu arzulardan biri real istəyə çevrilərək davranış və hərəkətimizin obyekti olur. Biz məktəbə gedirik.

İndi gəlin görək istəyin seçilməsində azadlıq nədən ibarətdir? İstəyin reallaşaraq hərəkətə çevrilməsində azadlıq nədən ibarətdir?

Hər bir istək müəyyən amillər və motivlərlə bağlıdır. Biz hər hansı bir istəyi seçərkən bu amil və motivləri təhlil edir, onların hansının bizim bugünkü niyyət və məqsədlərimizə daha müvafiq olduğunu aydınlaşdırmağa çalışırıq. Aydındır ki, bu amillərin düzgün seçilməsinə və deməli bizim hansı istəyi

seçməyimizə və onu həyata keçirməyimizə iki hal mənfi təsir göstərə bilər; birincisi, bizim orqanizmimizin bioloji və fizioloji vəziyyətinin qeyri-normallığı (xəstəlik, şikəstlik, fitri qüsurlar, dəlilik və s.), ikincisi isə bizim bugünkü idrakımızın aşağı səviyyədə olması. Bunları izah edək.

Yorğan-döşəkdə yatan xəstə adamın nə fiziki, nə iradə azadlığından söhbət gedə bilməz, çünki o həkimlər tərəfindən müəyyən edilmiş xəstəlik rejiminə, ev adamlarının iradəsinə tabedir. Əgər tabe olmayıb bu rejimi pozmağa cəhd göstərsə, məsələn, havaya çıxsa, pəhrizi pozsa və s. xəstəliyi fəsad verib onu öldürə bilər. Deməli, onun hərəkəti azadlıq yox, özbaşınalıqdır. Əgər o, intellektual cəhətdən yüksək inkişaf etmiş bir adamdırsa, onun ağlı motivləri düzgün təhlil edib, optimal istək seçə bilər. Lakin fiziki cəhətdən xüsusi məhdud rejimə tabe olduğundan, onun bu istəyi həyata keçməyəcəkdir.

Başqa bir misala diqqət yetirin. Psixi xəstə olan bir adam evi yandırır, yaxud adam öldürür. Bilirsiniz ki, bu əməllərə görə həmin adam cinayət məsuliyyətinə cəlb edilmir, onu ruhi xəstə kimi müalicəyə göndərirlər. Nəyə görə? Ona görə ki, onun hərəkətində heç bir azadlıq ünsürü yoxdur. O elədiyi hərəkətə heç bir motiv göstərə bilmir, sanki bunlar səbəbsiz və ya xəstə təxəyyülün uydurduğu saxta bir «səbəb» üzündən baş vermişdir. Hərəkətində azadlıq olmadığından dəlilərin əməllərinə görə məsuliyyəti də yoxdur.

İndi də ikinci hala nəzər salaq. Bizim bir sıra arzularımız var. Bunların hansını seçəcəyimizi müəyyən etmək üçün hər birinin həm motivlərini, həm də törədə biləcəyi nəticələri zəkamız araşdırır və iradəmizə hansı istəyin seçilməsi haqqında «göstəriş» verir. Həmin istək də həyata keçirilir. Lakin əgər bizim zəkamız, biliyimiz lazımi səviyyədə deyilsə və istəklə bağlı amil və motivləri düzgün təhlil edərək qiymətləndirə bilmirsə, onda necə? Bu halda bizim davranış və hərəkətimizin azadlığından söhbət gedə bilərmi?

**İntellektual azadlıq.** Burada biz insanın davranış və

hərəkətlərinin başvermə mexanizmini verə bilərik:

arzular və onları —▶ intellekt —▶ istək —hərəkət doğuran motivlər (ağıl) (iradə)

Sxemi şərh edək. Bizim bir sıra arzularımız meydana çıxır: yaxşı geyinmək, evi olmaq, maşını olmaq, oxumaq, yaxşı mütəxəssis olmaq, ailə qurmaq yə s. Bu arzuların hər birinin də motivləri vardır. İnsanın idrakı bu motivləri təhlil edir, onların xeyirli və zərərli tərəflərini «tərəzi qoyub" qarşılaşdırır, sonra müəyyən bir arzunu istək şəklində formalaşdıraraq iradəyə ötürür. Deməli, istəyin iradə aktı kimi formalaşmasının zəruri şərtlərindən biri onun motivlərinin insän tərəfindən obyektiv və düzgün dərk edilməsidir. Lakin hələ bu kifayət deyildir, çünki biz təkcə bununla belə bir suala cavab tapa bilmirik ki, nə üçün xarici motivlər haqqında eyni səviyyəli və eyni dərinlikdə biliyə malik olan iki insan müxtəlif cür hərəkət edir? Bu sualın cavabını insanın xarakterində axtarmaq lazımdır.

Hər bir adamın xarakterinə müəyyən əxlaqi, hüquqi, psixoloji, sosial və s. normalar xasdır. Məhz insanın xarakteri onun ağlının verdiyi nəticələri yozur və istiqamətləndirir: bir insan oğurluq edir, digəri yox. Deməli, insan ağlının ona təqdim etdiyi davranış variantlarını öz xarakterinə müvafiq surətdə seçir. Onun azadlığı da müvafiq davranış və hərəkəti (oğurlamağı, yaxud oğurlamamağı) seçməyində, onun həyata keçirməyindədir. Bu azadlıqdan da onun məsuliyyəti doğur, ya təqdir edilir, yaxud da cəzalandırılır.

İnsanın istəyinin motivləri dedikdə biz onun fəaliyyətinin əsasında duran zərurəti, qanunauyğun əlaqələri başa düşürük. Bu qəbildən olan zəruri əlaqələr nə qədər dərin və geniş öyrənilərsə və davranif fəaliyyətimizdə hər tərəfli nəzərə alınarsa, o dərəcədə bis öz hərəkətlərimizdə azadıq. Azadlıq özümüzü xəyalən təbiət və cəmiyyət qanunlarından, təbii və tarixi zərurətdən asılı saymamağımızdan ibarət deyildir. Bu cür azadlıq insana çox baha başa gəlir. «Nə istəyirəmsə, onu da edirəm" prinsipi hələ azadlıq deyildir. Çünki bu prinsip cavab

vermir ki, niyə filan şeyi, filan hərəkəti yox, başqasını istəyirəm. Azadlıq davranış və hərəkəti, fəaliyyət istiqamətini, məqsədi və ona nail olmaq üçün istifadə edilən vasitələri bilərəkdən seçməkdən ibarətdir.

İntellektual azadlığın üç əsas sahəsi vardır:

Birinci, yaşadığımız təbiətə nəzərən azadlıq. İnsan yaşadığı təbii mühitin ünsürləri və qüvvələrilə daimi əlaqədədir, onlardan öz maddi həyatını təmin etmək üçün istifadə edir. Torpaqsız, havasız, susuz, işıqsız, yağışsız və s. bizim həyatımızı təsəvvür etmək mümkün deyil, Bunların hər birinin də mahiyyət (nədən ibarətdir?), struktur (necə təşkil olunmuşdur?), genetik (necə yaranmışdır?), funksional (necə mövcuddur? necə yaşayır?) qanunları vardır. Əgər biz bu qanunları bilmiriksə, bizim onlarla davranışımız kor-koranə olacaqdır, yəni fəaliyyətimizin nə ilə nəticələnəcəyi haqqındakı təsəvvürümüz dumanlı və qeyri-müəyyən olacaqdır.

Gəlin bir müqayisə aparaq. Hollandiya əkinçiləri səpdikləri mədəni bitkilərdən (pomidor, kartof, tərəvəz və s.) bizim əkinçilərdən dəfələrlə artıq məhsul götürürlər. Bu hamımıza məlumdur. Bəs nə üçün belədir? Hər bir bitkinin bitməsi üçün kimyəvi, biokimyəvi, aqrokimyəvi, temperatur rejimi və s. şərtlər lazımdır. Bizim əkinçilərin bu şərtlər haqqında bilikləri kifayət qədər olmadığından fəaliyyətləri kortəbii xarakter daşıyır və heç bir azadlıq əlaməti yoxdur. Bu sahədə azadlıq ondan ibarət deyil ki, torpaqda istədiyin bitkini səpəsən. Əsl azadlıq bu torpaqda hansı bitkinin yaxşı bitəcəyini, bu bitkinin normal böyüməsinin şərtlərini, onun xəstəliklərini və onlara qarşı mübarizənin yol və vasitələrini bilməkdir. Holland əkinçiləri bu şərtləri daha yaxşı bildiklərindən onların fəaliyyəti azad və səmərəlidir.

Dilimizdə gözəl bir kəlam var: «kor kimdir, nabələd”. Deməli, azad kimdir, bilən. Bu doğrudan da belədir. Nə qədər ki, biz təbiət hadisələrinin mahiyyətini və təzahür formalarını dərk etməmişik onlann quluyuq, elə ki onların mahiyyətini dərk

etdik, idrakımızın həddi çərçivəsində bu qüvvələri və hadisələri özümüzə tabe edib azad oluruq.

İkinci, cəmiyyətə nəzərən azadlıq. Cəmiyyət özünün obyektiv qanunları əsasında inkişaf edən mürəkkəb bir sistemdir. Cəmiyyətdəki tarixi zərurətlər müxtəlif təsadüflər şəklində təzahür etsələr də ümumi inkişafın istiqamətlərini və sürətini təyin edirlər. Cəmiyyətin iqtisadi, siyasi, sosial, hüquqi, əxlaqi və s. qanun və zərurətləri onun inkişafının əsasında durur. Həm də bu qanunauyğunluqlar təbiət qanunlarından fərqli olaraq statistik, yəni ehtimal xarakterlidir.

Cəmiyyətdəki azadlığın da iki səviyyəsi vardır. Birincisi, cəmiyyətin özünün azad cəmiyyət olmasıdır. Xalqın öz müstəqilliyini elan etməsi onun azadlığının şərtlərindən biridir, bu yalnız fiziki azadlıqdır. Bu o deməkdir ki, sənin torpağın, sərvətlərin, siyasətin, mədəniyyətin və s. üzərində başqasının ağalığı, əmri, sərəncamı yoxdur. Lakin bu əsla o demək deyildir ki, bu xalq əsl, mənada azaddır. Əsl mənada azadlıq üçün gərək xalqı idarə edən ourumlar iqtisadi, siyasi, sosial, əxlaqi, mədəni inkişafın istiqamətini, modelini təyin edən qanunları bilsin, onlara əngəl törədə biləcək amilləri əvvəlcədən görərək onun qarşısını ala bilsin. Başqa sözlə, idarəetmə orqanları ictimai inkişafın optimal modelini təyin edərək onu reallaşdırmağın düzgün vasitələrini seçə bilsin. Obyektiv elmi qanunlar əsasında yaşamayan cəmiyyət azad ola bilməz, o hökmən yenidən özünün fiziki müstəqilliyini itirəcəkdir.

İkincisi, isə insanın cəmiyyətdəki azadlığıdır. Cəmiyyətin ihkişafını tənzimləyən normalar, prinsiplər, qaydalar nə qədər optimal olarsa və onlar insan tərəfindən nə qədər dərk edilərsə, insanın cəmiyyətdəki azadlığı da o qədərdir.

Cəmiyyətdəki azadlıq da təbiətə nəzərən olan azadlıq kimi heç zaman mütləq ola bilməz, çünki biz cəmiyyətin inkişaf qanunlarını tamamilə dərk edə bilmərik. Deməli, azadlıq bizim idrakımızın və praktik qabiliyyətimizin səviyyəsilə ölçülür. Azadlıq insanın məsuliyyətilə tənzimlənir.

Üçüncü, insanın özünə nəzərən azadlıq. «özün özünü dərk et!» Qoca Sokratın bu kəlamı həmişə olduğu kimi bu gün də öz məna və əhəmiyyətini tam saxlayır. Hər bir adamın müəyyən əqli qabiliyyəti, əxlaqi, psixoloji keyfiyyətləri, mədəni səviyyəsi, təşəbbüskarlığı və liderlik bacarığı vardır. İnsanı özünü idrak obyektinə çevirərək bu keyfiyyət və xassələrini, ümumi şəkildə desək, xarakterini, kim olduğunu dərk etməlidir. Məsələn, əgər bir insan özünüdərk sayəsində bilsə ki, onun bilik dairəsi və təşəbbüskarlığı, liderlik bacarığının səviyyəsi filan vəzifədə işləməsinə imkan vermir, o gərək həmin vəzifəni öhdəsinə götürməsin.

Deməli, cəmiyyətin və insanın azadlığının bir göstəricisi də insanın sosial həyatda qabiliyyətinə müvafiq pilləni tutmasıdır. Ağılsızı ağıllıya, bacarıqsızı bacarıqlıya, əyrini doğruya rəhbər təyin edən cəmiyyətdə azadlıq ola bilməz. Cəmiyyətdə insanların yeri səhv düşəndə xalqın başına çox müsibətlər gəlir.

Sual və tapşırıqlar: 1. Azadlığın hansı növləri vardır? 2. Fiziki azadlıq nədir? 3. İradə azadlığının ünsürlərini açıqlayın. 4. İntellektual azadlıq və onun sahələri hansılardır? 5. Təbiətə nəzərən azadlığı şərh edin. 6. Cəmiyyətə nəzərən azadlıq nədən ibarətdir? 7. «özün özünü dərk et» kəlamını şərh edin.

## DİN VƏ İCTİMAİ HƏYATDA ONUN ROLU

Bektaşi babalarından birindən soruşublar:

—Allah var?

Deyib:

—Sözsüz var, özü də düz 80 ildir boğuşuruq, həp o deyən olur.

Ac adamın tanrısı olmaz.

Ramakrişna, Hindistan mütafakkiri

Tanrı olmasaydı, onu uydurmaq lazım gələrdi.

Volter (Mari Fransua, Arue), fransız maarifçi filosofu.

Volter:

Tanrı həmişə böyük qoşunların tərəfində durur.

Sufi qadın Rəbiə:

Ya allah, əgər mən cəhənnəmin qorxusundan Sənin qulluğundayamsa, yandır məni o cəhənnəmdə. Əgər cənnətə düşmək arzusuna görə Sənin qulluğundayamsa, qoymazsan mani o cənnətə. Əgər mən Sənə görə Sənin qulluğundayamsa, gizlətmə məndən Öz sönməz gözəlliyini.

Deyirlər **Musa peyğəmbər** İsrail oğulları ilə Allah-təala haqqında söhbət edirmiş. Qəfildən onlardan biri vəcdə gəlib paltarını cırır. Allah peyğəmbərinə təlqin edir ki, ona de: Məndən ötrü ürəyini parçala, paltarını yox.

Tanrı haqqında paradoks:

Tanrı hər şeyə qadirdir. Bəs o elə bir ağır daş yarada bilərmi ki, qaldıra bilməsin?

## §7. Din nədir?

Din ərəbcə, fövqəltəbii qüvvənin və ya qüvvələrin olmasına inam «deməkdir». Həmin qüvvələr təbiət qanunlarına tabe deyil, əksinə, təbiəti də, onun dəyişməsi və inkişafını da təyin edir. Məhz ona görə də fövqəltəbii qüvvə zəkanın gücü ilə dərkedilməzdir, o, insana yalnız dərin etiqad və inamla müyəssər olur.

Dini təsəvvürlərin, inanışların rüşeymləri **bəzi** alimlərin fikrincə peandertalacan gedib çıxır. Dini duyğular, yəni Tanrıya sevgi və ya Tanrıdan qorxu, tövbə etdiyin günahlardan utanıb peşman olmaq və s. ta qədimdən insanların bir-biri ilə əlaqəsində, düşmənlə döyüşlərində, yeni coğrafi əraziləri mənimsəməsində, dövlət qurmasında iştirak edib. Eyni sözləri dini təsəvvürlərə, fikirlərə də aid etmək olar. Dini təsəvvürlərə Tanrını və ya tanrıları, ruhları, mələkləri hansı görünüşdə, hansı biçimdə göz qabağına gətirmək və s. aiddir.

Dünyada çoxlu dinlər var, hərəsində tanrılar və ya ruhlar

haqqında bir cür təsəvvür, bir cür fikir var. Elə dinlər var ki, sadə bir şerə bənzəyirlər, elələri də var ki, yazılmış qalın kitab kimi çoxlu-çoxlu bəndlərdən, fəsillərdən ibarətdir.

Bəs bu qədər bir-birindən fərqli olan dinləri biz niyə bir sözlə–din sözü ilə adlandırırıq? Ona görə ki, bu dinlər bir-birindən nə qədər ayrılsalar da, bir fikirdə birləşirlər: onlar hamısı belə hesab edir ki, bizim gözümüz qabağında duran təbiətdən yuxarıda güc və ya güclər var ki, onlar təbiətdən qüvvətlidirlər, onlar təbiətin qayda-qanununa tabe olmurlar, əksinə təbiət onlara tabe olur.

Bax bu mənada din təbiətüstü qüvvələrə inamdır.

İnsan qayaya baxır, əlini onun kələ-kötür üstündə gəzdirir və bu zaman əlinin altında qayadan başqa heç nə duymursa, burada hələ dindən əsər-əlamət yoxdur. Ancaq əgər insan əlini, üzünü qayaya sürtürsə və bu daşın arxasında gizlənmiş sağaldıcı gücün daşdan keçərək onun halına təsir edəcəyinə inanırsa, duyursa, düşünürsə, burada artıq dini duyğular, dini düşüncələr var.

İnsan qayaların, ağacların, dağların, suların arxasında dağıdıcı, sağaldıcı, ya yaradıcı güclər və ya güc durduğuna inanırsa, bax bu mənada təbiətin üstündə xüsusi güclər dünyasının olmasına inanır, bu, hər hansı dinin əsasını təşkil edir. Lakin bu inanma müxtəlif dinlərdə müxtəlif məzmun və formada ifadə edilir. Əvvələn, onu qeyd edək ki, bir sıra dinlər (xüsusilə, monotheist–təkallahlı dinlər) fövqəltəbii qüvvələrin–allahların, ruhların və ruhlar aləminin real mövcudluğunu qəbul edirlər. Doğrudur, bu real mövcudluq özünü heç bir qeydə alınacaq keyfiyyətdə (eşidilmə, görülmə, hiss edilmə və s.) təzahür etdirmir. Lakin dindarlardan heç kim Allahın varlığına şübhə etmir. Digər dinlər, buna əsaslanır ki, bizim həyatımızı müşayiət edən təbiət hadisələri ilə bizim həyatımızın müxtəlif sahələri arasında əlaqə və asılılıq vardır (magiya, totemizm, mif və s.). Bir başqa dinlər də hesab edir ki, təbiət hadisələrinin özləri fövqəltəbii gücə malikdirlər, bu güc də onların ruhu

vasitəsilə üzə çıxır (zərdüştlik, fetişizm).

Din anlayışı çoxşaxəlidir. Bu anlayışa aşağıdakı cəhətlər daxildir:

1. Fövqəltəbii bir qüvvənin mövcudluğuna inam. Bütün cəhətlərilə bu inam və etiqad dini şüurun məzmununu təşkil edir;

2. Fövqəltəbii qüvvəyə, onun qüdrətinə emosional münasibət. Allaha inanan adam təkcə etiqadla kifayətlənmir, həm də Allaha xoş gedən hadisə və əməllərdən sevinir, bəd hadisə və əməllərdən isə kədərlənir. Emosiyalar dini fanatizm zəminində bir sıra hallarda insan orqanizminin pozulması ilə nəticələnir, bu isə öz növbəsində ən xoşagəlməz əməl və davranışlarla nəticələnə bilir;

3. İnam və etiqadı, onlardan gözlədiyi nəticələri əldə etmək üçün dindar adamın həyata keçirdiyi mərasimlər, ayinlər, davranışlar və s. Məlumdur ki, təbiət hadisələri insanların həyatına iki cür təsir göstərir–müsbət və mənfi. Od yanğın yaratmaqla bərabər insanı isidir, sonralar isə oddan yemək bişirmək üçün istifadə edilir. Su içilir, bitki üçün zəruridir, heyvanların yaşayışı üçün qidadır, lakin eyni zamanda bərk yağış, daşqın, fırtına da su ilə bağlı hadisələrdir. Külək, qar, dolu, zəlzələ və başqa hadisələr də beləcə. Məhz ona görə də insanlar bu qüvvələrlə həm xeyir, həm də şər ruhları əlaqələndirirlər. Xeyir ruhlara öz razılıq və minnətdarlıqlarını bildirmək və onu köməyə çağırmaq üçün, çər ruhları isə qovmaq və uzaqlaşdırmaq üçün insanlar müxtəlif tövbələr, dualar, qurbanlar icra edir, özlərinə əziyyət və işgəncələr verirlər ki, bunlar da dinə daxildir;

4. Nəhayət, dinə mənəvi-əxlaqi davranış norma və qaydaları da daxildir. Lakin nəzərdə saxlamaq lazımdır ki, mənəvi-əxlaqi normalar dinin əsas göstəricilərinə uyğunlaşdığı dərəcədə dini xarakterli olurlar.

Dinlər qəbul etdikləri fövqəltəbii qüvvələrin mahiyyət və xarakterinə görə iki yerə ayrılırlar: **politeist**–çoxallahlı dinlər və **xnonoteist**–təkallahlı dinlər. İbtidai dinlər adlanan politeist

dinlərdə allahlar çoxdur, onlar müxtəlif simalarda–təbiət cismi, təbiət hadisəsi, heyvan, bitki və s. olmaqla yanaşı, müxtəlif fəaliyyət dairələrinə malikdirlər. Xeyir və şər allahları, yağış, dəniz, külək, od və s. allahları. Monoteist dinlərdə isə Allah təkdir, o dünyadakı bütün şeylərin yaradıcısı və öldürücüsüdür. O hər şeyi görür, hər şeyi bilir, eşidir və hər yerdə, hər şeydə mövcuddur.

İndi də gəlin, politeist və monoteist dinləri bir qədər ətraflı nəzərdən keçirək.

Sual va tapşırıqlar. 1. Dinin nə olduğunu izah edin. 2. Din necə yaranmaqdır; 3. Dinlər neçə növ olur?

## § 8. İbtidai-icma quruluşunda politeist dinlər

Dünyanın ən qədim xalqlarından biri də türklərdir və onlarda da qədim dinlərdən biri—totemizm geniş yayılmışdı. «Totem» sözü Şimali Amerika hindilərinin dilindəki «o totem” (yəni «onun soyu, nəsli») sözlərindəndir. Totem dinlərində hər hansı qəbilə, adətən, hansı bir canlını, bəzənsə təbiət hadisəsini, məsələn, filan qayanı və s.-ni özünə əcdad sayır. Yəni belə hesab edir ki, qəbilənin kökünü həmin canlı, həmin hadisə qoyub. Qəbilə öz totem əcdadında xüsusi bir güc duyur, bu güc adi təbii gedişlərdən yuxarıda durur və təbiətdən qəbiləyə gələn təhlükələrdən qəbiləni qoruya bilir.

Sibir türkləri üçün (məsələn, yakutlar, tuvalılar, xakaslar üçün) ayı, canavar, qara qarğa, qartaltotem olubdur. Türklər totemə onqon deyiblər və hər türk qəbiləsi öz kökünü bir onqondan alıb.

Elmi araşdırmalardan aydın olur ki, qədim Azərbaycan türklərində ilan da onqon sayılıb. İlan pirlərinin olması, xalçalarda ilansayağı naxışlar və nağıllarımızda xeyirlə bağlı ağ ilandan danışılınası bu fikri sübut edir, yəni göstərir ki, qədim azərbaycanlılar ilanların bəzilərini müqəddəs sayıblar, hesab

ediblər ki, bəziləri insanlara əsl əcdad qayğısı göstərir.

Nəhayət, qədim türklərin ən məşhur totemlərindən biri də boz qurddur. Onlar boz qurdu şüa ilə göydən enmiş sayıblar, onu da deyək ki, türklər qədimlərdə «boz» sözünü «göy» rəngi bildirmək üçün işlədiblər və göy rəng onlarda müqəddəs sayılıb.

İndiki adamlara totem dinlərini anlamaq çətindir. Necə yəni? Qarğa, şahin balaca quşlardır, onlarda nə güc var ki, onlara təbiətüstü, yəni təbiətdən də çox güclü olan tanrıya oxşar varlıqlar kimi baxasan? Ancaq qədim insanlar bu totemləri, bu canlıları bizim kimi qavramırdılar. Məsələn, Sibirin bir çox xalqları qarğanı kosmik miqyasda iş görmüş, dünyanın yaranmasında nəyisə etmiş quş kimi gördüklərindən onun balaca bədəninin arxasında böyük gücün gizləndiyinə inanırdılar. Əski azərbaycanlılarda bəzi ağaclar totem sayılırdı. İndiki azərbaycanlılar həmin ağacları pir hesab edirlər və inanırlar ki, bu ağaclara sitayiş etsən, qurban kəssən, adamı ən ağır dərddən qurtarar. Görürsünüzmü, bir çoxları üçün ağac adi bir şeydir. Ancaq dindar həmin ağacı təbiətin adiliyindən qırağa çıxan gücün bolluğunda duyub, ona sitayiş edir.

Totemizm bir çox qədim xalqların dini olmuşdur. Qədim Misirdə qoyun, inək, timsah, ilan totemlər idi, ölkənin ayrı-ayrı bölgələrində onların hansınasa sitayiş edilirdi, tanınılırdı. Sonralar misirlilərin bu totemləri onların tanrılar haqqında yaranan təsəvvürlərinə də əlavə olunur və buradan incəsənətlərinə keçir: məsələn, misirlilər tanrıları Anibusu itbaşlı hesab edirdilər, tanrı Qoru şahinbaşlı bilirdilər və onların hər ikisinin heykəlini beləcə düzəldirdilər.

Dinin əski növlərindən biri də şamanizmdir. Türklər şamana qam deyiblər. Şaman dininə görə, görünən təbiətdən o biri tərəf ruhlar aləmidir. Özü də pis və yaxşı ruhlar var, onlar təbiətə girib burada yaxşı və pis işlər görürlər. Şamanlar elə seçmə adamlardır ki, onlar bu təbiətüstü güclərlə danışığa girə bilirlər, onları dünyamıza çağırmağı da, lap zorla gətirməyi də bacarırlar, gətirirlər ki, onların «əli ilə» kimlərisə sağaltsınlar, itmişləri

tapsınlar və s.

Şamançılıq təkcə türklərdə yox, Amerika hindilərində, Afrika xalqlarında da olmuşdur.

Bir çox alimlərimiz Dədə Qorqudu qam, şaman sayır və göstərir ki, sadəcə, sonralar dastanlarımız, yəni «Kitabi-Dədə Qorqud» boyları onun bu şamanlığını unutmağa başlamışdır.

Görürsünüzmü, şamançılıq da və ya şamanizm dini də təbiətdən, onun dolusundan, zəlzələsindən üstdə duran güclərə (ruhlara) inanır və belə hesab edir ki, təbiət bu güclərin əlindədir

Dinin qədim formalarından biri də mifdir. Mif tanrı və ya tanrıyabənzər qəhrəmanlar, dünyanın, xalqların yaranması haqqında rəvayətlər deməkdir. Miflər bir çox qədim xalqlarda olmuşdur. Türklərdə Oğuz xan haqqında təsəvvürlər və əhvalatlar miflərə nümunədir. Mifologiyaya görə Oğuz xan (və ya xaqan) Ay xaqanın (yəni Ay tanrısının) gözlərinin parıldamasından çıxan şüa ilə doğulub dünyaya gəlmişdir. Oğuz doğuluşundan bahadur, yəni pəhləvan, igid olur, cürbəcür qəhrəmanlıqlar göstərir. Bir dəfə səmadan göy şüada düşmüş bir qız görür, onunla evlənir. Sonralar Oğuzun bu qızdan üç böyük oğlu dünyaya gəlir: Gün xaqan, Ay xaqan, Ulduz xaqan. Oğuz başqa bir arvad da alır və ondan üç kiçik oğlu doğulur: Göy xaqan, Dağ xaqan və Dəniz xaqan. Miflərə görə oğuz xalqının yaranışı Oğuzdan və onun altı oğlundan başlayır.

Fikir verirsinizmi, hadisələr tez-tez təBiətüstü güclərlə bağlılıqda baş verir; Oğuz özü Ay xaqanının oğlu olur, arvadı yenə də tanrılar dünyasından göndərilir, oğlanları isə Ay, Göy, Ulduz və s. adlarını almaqla həmin aləmlə əlaqələrini saxlayırlar.

Deyə bilərsiniz ki, axı Ay, Göy, Ulduz təbiətin içində olan şeylərdir, ona görə də təbiətüstü güclərə inam olan din Ayla, Göylə, Dağla bağlantıda yaranmamalıdır.

Ancaq iş orasındadır ki, Ay, Günəş, Göy, Ulduzlar əski qavrayışlarda başqa cür görünürdü. Qədim insanlar bir çox miflərdə onları ilahiləşdirirdi, yəni bu və ya başqa şəkildə onlara

hansısa tanrının gözü, üzü, yaşadığı yer kimi baxırdı, özü də bu tanrılar elə tanrılar idi ki, təbiətdə istədikləri bir çox şeyləri edə bilirdilər. Olsa-olsa təbiətdə onların etdiklərinin, məsələn, dolunu yağdırmasının qarşısını, başqa daha güclü tanrı və ya çox böyük, az qala yarımtanrı olan bahadırlar ala bilirdi. Bu bahadırlar da özlərinə gücü yenə başqa tanrıdan alırdılar. Miflər belə hadisələrlə doludur.

Şumer mifologiyasında rəvayət edilir ki, lap əzəldən təbiət yox idi, tanrı Apsu vardı. Bu tanrının bədəni nəsə qaranlıq, dibsiz qarmaqarışıqlıq idi (xaosdu). Tiamat və Mummu da Apsu ilə birlikdə olan tanrılardı. Sonra yeni tanrılar yaranır və onlar başlayırlar bu qarmaqarışıqlıqla bağlı olan tanrılarla savaşmağa ki, qayda-qanunlu, düzüm-biçimli təbiəti yaratsınlar. Bu savaşda Tiamat öz qorxunc gücü ilə hamını lərzəyə salır, ancaq irəli tanrı Marduk çıxır, söyləyir ki, mən onunla döyüşərəm, ancaq bir şərtlə, Tiamatı öldürsəm, siz məni özünüzə başçı hesab etməlisiniz. Razılaşırlar. Marduk Tiamatı öldürür, sora tanrılar Tiamatm azman, nəhəng dünya boyda olan bədənini parçalayıb bir parçasından Göyü, o biri parçasından Yeri yaradırlar.

Dünyanın yaradılmasından danışan belə miflərə elmdə kosmoqonik miflər deyirlər. Kosmoqonik miflər bir çox xalqlarda ən geniş yayılmış miflərdir. Məsələn, yunan dininə görə ilk dəfə Xaos—qaranlıq qarmaqarışıqlıq vardı. Bu Xaosdan Geya (Yer), Ereb (Qaranlıq), Gecə, Efir, Gündüz, Göy (Uran), Dəniz yaranır. Uranla Geyanın, yəni Göylə Yerin evlənməsindən tanrı Kronos doğulur. Kronos atası Uranı yıxıb, Geyaya evlənir və bundan sonra nəhənglər dünyaya gəlir. Onlardan biri də Zevs olur və nəhayət Zevs də atası Kronosu yenib tanrılıqda onun yerini tutur. Sonra, təbiəti, insanları yaradıb idarə etməkdə Apollon, Poseydon, Heves kimi tanrılara xaqanlıq etməyə başlayır.

İbtidai-icma quruluşunun dinləri totemizm, şamanizm miflərlə bitmir. Əski çağlarda dinin bir forması kimi magiya da olmuşdur. Bir çox cadular, ovsunlar magiyaya aiddir.

Əski dinlər haqqında bir məsələni heç vaxt yaddan çıxartmaq olmaz. Qədim dinlər insanların insan olmasında, insan cəmiyyətlərinin ağıllı nizama, qayda-qanuna salınmasında çox işlər görmüşlər. Dinlərin sayəsində insan təkcə gözünün qabağındakıları yox, onlardan arxada nə dura bilərsə, onları da

pis-yaxşı düşünməyi öyrənməyə başlamışdı. Təbiətüstü güclərə inam olan din ibtidai insanların düşüncələrini Ayda, Günəşdə, Ulduzlarda, cürbəcür heyvanlarda gəzdirib, bütün təbiət boyu fırlatmış və təbiətin özündən də o taya çıxartmışdı. Təbiətdən o tay təkcə yuxarı deyil, həm də yerin altıdır, cisimlərin, olanların, hadisələrin arxası, gizlinidir. Dinlərin sayəsində insan düşüncələri buralardan soraq almağa çalışmış, insan duyğuları həmin soraqlardan can almış və bütün bunların sayəsində insan inkişaf etmişdir.

Bundan başqa qədim dinlər tanrıların, totemlərin adı ilə insanlara nəyi öyrətməyi, nəyi etməməyi öyrətmişdir. Əxlaq başdan ayağa "olar-olmaz" göstərişlərinə əsaslanır. «Savaşda dostu darda qoyub qaçmaq olmaz». Bunu əgər bir qədim insana başqa qədim insan deyirsə, sadəcə yaxşı məsləhət kimi eşidilir. Ancaq, miflər, şamanlar söyləyəndə ki, bunu sizlərə ruhlar, tanrılar əmr edir, onda qədim insan bilirdi ki, yuxarıdan gələn bu göstərişlərə, buyruqlara yaxşı məsləhət kimi yox, ciddi əmr kimi baxmaq lazımdır, çünki onları pozmaqla tanrıların qəzəbinə düçar olmaq olar.

Nəhayət, qədim dinlər insanların real bilik səviyyələri və real praktik imkanları ilə onların daha çox bilmək və daha çox etmək arzuları arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün yaradılmışdır. Təbiət hadisələrini, insanın müəmmalı keyfiyyətlərini bilməyən, lakin bilmək istəyən insanlar onların müxtəlif izahlarını tapıb din şəklində formalaşdırırdılar. Təbiət qüvvələrinin, xəstəliklərin, fəlakətlərin qarşısını ala bilməyən, lakin almaq istəyən qədim insanlar köməyə, bu qüvvələrdən daha güclü olan bir varlığı—tanrıları çağırır və beləcə də dinlər yaranır.

Suallar və tapşırıqlar. 1. Totemizm hansı dinə deyilir? 2. Şamanizm nədir? 3. Miflər və mifik allahlar haqqında bildiklərinizi danışın. 4. Qədim dinlərin insanın inkişafında rolu nədən ibarət olmuşdur?

## §9. Ateistlərlə dindarlığın dialoqu

«Ateizm» yunanca «a-teos», yəni Tanrını danmaq, inkar etmək sözündən yaranıb. Ateistlər çalışırlar sübut etsinlər ki,

təbiətüstü güclər, yəni tanrılar, ruhlar əslində yoxdur və, deməli, din doğrudan da olanlara inam deyil, insanların aldanaraq, yanılaraq doğru olan saydıqları varlıqlara inamdır. Beləliklə, dini düşüncələr, dini duyğular yanlışdırlar.

Dindən cavan olsa da, ateist fikir tarixi xeyli qədimlərdən başlayır. E. ə. II mininci ilin ortalarında misirlilərin çoxu o biri dünyanın olmasına inandığı zaman «Arf açının mahnıları” adında yazı yazılmışdı və bu yazının müəllifi, öləndən sonra o biri dünyaya köçməyi tam yanlış inam sayırdı.



Nəsimi (əsl adı Seyid Əli Şamaxı—1417, Hələb) Azərbaycan şairi və mütəfəkkiri. Hürufiliyin banisi Fəzlullah Nəiminin görüşlərini təbliğ etmişdir. Hürufiliyi yaydığı üçün Suriyanın Hələb şəhərində Misir sultanının əmri ilə diri-diri dərisi soyulmuşdur. İlk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdir.

Nəsimi lirik şairdir. Yaradıcılığa aşiqanə şerlərlə başlayan Nəsimi, sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəl janrının banisi olmuşdur. Həyat və kainatın sirlərini dərk etməyə səy göstərən müasir ardıcıl panteizm (Allahla təbiəti eyniləşdirmək) mövqeyində durur, özündən əvvəlki panteistlər kimi ruhun cansız aləm, nəbatat və heyvanatdan keçərək insana doğru inkişafını qəbul edirdi.

Miladdan qabaq Hindistanda lokayata məktəbi vardı, bu məktəbin öyrədiciləri göstərirdilər ki, ancaq bizim içində yaşadığımız təbiət gerçək dünya (lokayata) var, paraloka (təbiətdənqıraq aləm) yoxdur.

Böyük mədəniyyətlərin, məsələn, Avropa, müsəlman Şərqi,

Çin, Hind mədəniyyətlərinin tarixində görkəmli mütəfəkkirlərin çoxu dinə uyğun yaşamağa çalışsalar da, Tanrının və ya tanrıların varlığına inansalar da, bu həmin mədəniyyətlərdə bəzi görkəmli mütəfəkkirlərin ateist olmasına mane olmayıb. Məsələn, azərbaycanlılarda inam güclü olsa da, XIX yüzillik Azərbaycanı Mirzə Fətəli Axundov kimi ateisti və böyük dramaturqu da yetişdirmişdi.

Tarix boyu filosoflar, dini, dinləri yanlış sayıblar, amma Allaha inanıblar. Elə görkəmli şəxsiyyətlər olub ki, nə dinin, nə də Tanrının doğrudan da olmasını düz saymayıblar və çalışıblar ki, bunu sübut etsinlər. Mirzə Cəlil Məmmədquluzadə dövrünün ruhanilərinə, dindarlarına çox kinayə edirdi, amma o Allahsız adam deyildi. Mirzə Fətəli Axundov isə tam ateist idi.

Bəziləri belə hesab edirlər ki, XX yüzillikdə ateistlər yalnız sovet alimlərinin, sosialist ölkələrinin elm adamları arasında olmuşdur. Ancaq belə deyil. Sovet elmi Bertran Rasseli, Karl Popperi, Jan Pol Saftrı burjua filosofları adlandırıb tənqid edirdi. Onlarsa XX yüzillik Avropa mədəniyyətində ən böyük işlər görmüş adamlardan idi və dinə, Allah-talaya baxışda ateist mövqedə dururdular.

Tarix boyu din və ateizm arasında həmişə barışmaz mübahisələr, çarpışmalar olmuşdur. Tarixdən dindarların ateistləri, ateistlərin dindarları qətlə yetirməsi də bəllidir.

Sual çıxır: ilahiyyat, yəni din haqqında elm həqiqəti açır, yoxsa ateizm?

XIX yüzilliyin böyük filosofu İmmanuil Kant göstərirdi ki, Allahın olmasını da, olmamasını da elmi yolla sübut etmək olmaz. Əslində XX yüzilliyin neopozitivizm adlanan fəlsəfi məktəbi də belə hesab edir ki, din və ateizmin mübahisə etdiyi bir çox məsələlər fizika, kimya kimi elmlərin öyrəndiyi yolla öyrənilə bilməz.

Elə buna görədir ki, mədəniyyət tarixində nə din, nə ilahiyyat, nə də ateizm tam qalib gəlib. Sadəcə tarixi götürsək, görərik ki, bəzi çağlarda hansı dinsə böhrana uğrayıb,

bəzilərində çiçəklənib, bəzi çağlarda ateizmin təsir dairəsi genişlənib, xeyli ağıllı adamlar onun tərəfinə keçib, sonrakı vaxtlarda isə bir çox elm adamları ateizmi yox, dini özlərinə yaxın biliblər. Tarix başqa şeyləri də deyir: elə dövrlər olub ki, ateist düşüncəli sənətkarlar, filosoflar bütün çətinliklərə, həyatlarını gözləyən təhlükələrə baxmadan fikirlərinin üstündə möhkəm durublar, çünki inanıblar ki, bu fikirlərlə xalqlarını ayıldırlar, milli mədəniyyətlərini irəli aparırlar. Elə dövrlər də olub ki, belə fədakarlığı və qəhrəmanlığı dindarlar, ilahiyyatçılar ediblər. Tarixdə din adamlarının xalq yolunda fədakarlığı, şəhidliyi, özünü insanlara həsr etməsi haqda faktlar çoxdur.

Bütün bunlardan sonra belə bir sual doğur: demokratik quruculuqda olan Azərbaycanda dinimizə və ateizmə münasibət necə olmalıdır?

Azərbaycanda din və ateizm arasında mədəni münasibətlər yaradılmalıdır. Hər iki tərəfdə duran adamlar unutmamalıdırlar ki, din və ateizm arasında olan mübahisələr yəqin ki, heç vaxt hansı tərəfinsə tam qələbəsi ilə bitməyəcək. Əvəzində bu mübahisələrdən mədəniyyətimiz udacaq. Çünki ateizm dindarları yaradıcı olmağa, yeni-yeni dərin fikirlər tapmağa məcbur edir. Dindarlar, ilahiyyatçılar belə fikirləri tapanda ateistin tənqidinə də cavab verirlər. O biri tərəfdən dinin tərəfindən edilən tənqid ateisti öz düşüncələrini inkişaf etdirməyə, yeni sübutlar tapmağa məcbur edir.

O ki qaldı adamların nəyi–dini, yoxsa ateizmi seçməsinə, burada bir şey demək olar. Əgər sən dindar olanda əxlaqlı olmağa güc tapırsansa, dünyanın çətinliklərinə mətinliklə dözürsənsə, deməli, yolun dinin verdiyi yoldur. Əgər bütün bunlar ateist olanda sənin üçün asan olursa, deməli, həyat yolun da bu yoldur.

Lakin hər iki halda əqidə, müəyyən yanlış, şər, zərərli əmələ qulluq etməməlidir. Yalançı dindar da, yalançı ateist də eyni dərəcədə təhlükəlidir, çünki hər ' iki halda əqidə, inam qərəzli və ya təmənnalıdır.

## §10. Monoteist (təkallahlı) dinlər

Müasir dünyada dörd monoteist (mono—tək, teos— Allah) din vardır: buddizm, iudaizm, xristianlıq və islam. Əvvəl bu dinlər haqqında bəzi məlumatlarla tanış olaq.

**Buddizm** e. ə. VI-V əsrlərdə Hindistanda meydana gəlmiş dini-fəlsəfi təlimdir. Buddizmdə olan ənənəvi rəvayətə görə bu dini Qautama qəbiləsindən olan Siddhartha adlı bir adam yaratmışdır. Sonralar ona Budda–nurlu, işıqlı adını vermişlər.

Buddizmin əsasını bütün insanların həm iztirab çəkməkdə, həm də xilas olmaqda bərabərliyi ideyası təşkil edir. İnsanın daxilində müstəqil bir mövcudluq kimi ruhu qəbul etməyən buddizmə görə canlı varlığın ölümü dharmanın (hissəcik, ünsür, müəyyən əlamətin daşıyıcısı) bir kombinasiyanın dağılması və başqa kombinasiyanın yaranması deməkdir. Əvvəlki mövcudluq və çevrilmə hallarında olan xeyir və şər əməllərin, günah və xeyirxahlıqların cəmi–karma, yeni yaranan kombinasiyaları da müəyyən edir. İnsan həyatının mahiyyətini isə nirvana təşkil edir. Məhz nirvana halında bütün əziyyət və iztirablar sona çatır və hər cür cismani çevrilmələr tamamlanır. Deməli, insan öz həyatında barışqan və müti, itaətkar və sakit olmalıdır. Belə olarsa, o nirvana (rahatlıq) halına tez çatar... Buddizmdə əsas Allah–Budda ilə yanaşı, tabe allahlar – bodisatvlar da vardır. Əsas allahlar budda Şakya–Muni, gələcək buddası–Maytrei və cənnət Allahı–budda Amutabudur.

Buddizm sonralar digər Şərq ölkələrinə—Çinə, Yaponiyaya, Koroyeya və s. yayılmışdır. Bu Ölkələrdə buddizmin bir çox qolları yaranmışdır.

**İudaizm.** Qədim yəhudilərin rəvayətinə görə qəbilənin əsasını qoyan İehudanın (sonralar luda şəklində deyilmişdir) adı ilə adlandırılan yəhudi dinidir. Bu dinin əsas müqəddəs kitabları Tövrat (5 kitab) və Talmuddur.

İudaizmin təkallahlı bir din kimi formalaşması uzun sürən proses olmuşdur. O təxminən e. ə. II minillikdən e. ə. VI əsrədək

davam etmişdir. İudaizm ilahiyyatçılarınm fikrincə müqəddəs kitablar Allahın öz «elçisi» Moisey (Musa peyğəmbər) vasitəsilə İsrail və İudeya oğullarına «söylədiyi» kəlamlar və buyruqlardır. Bu kitablarda Allah insanların yaşaması üçün zəruri olan qayda-qanunları söyləmiş, onları pis yoldan və günahdan çəkindirmək üçün bir sıra qadağanlar qoymuşdur. Bu ilahiyyatçılarm fikridir.

İudaizmin yə Tövratın elmi tədqiqatçılarının fikri isə başqadır. İudaizmin inkişafında onlar **4** əsas mərhələ ayırırlar: Bibliya dövrü (bu dövr e. ə. VI əsrədək müddəti əhatə edir). Talmud dövrü (bu dövr e. ə. V əsrdən b. e. V əsrinə qədəri əhatə edir), Ravvinlər dövrü (bu dövr orta əsrləri əhatə edir), iudaizmdə islahat dövrü (yeni dövrdən sonranı əhatə edir).

Tövratın (Əhdi-Ətiq) ayn-ayrı fraqmentləri hələ e. ə. XIİİ əsrdə yazılmağa başlayır. E. ə. IX-VIII usrlərdə kitabın məzmununun xeyli hissələrinin əsası ulan Eloxisit və Yaxvistin kitabları yazılır. Nəhayət, e. ə. V əsrdə yazılmış hissələrin hamısı birləşdirilir və hazırda əlimizdə olan variantı yazılır. Güman edilir ki, müəllifləri Yezura ilə Neemiya olmuşlar. Artıq bu son kitabda tək Allah Yahve qəbul edilir, bütün əxlaqlar, nəsihətlər, buyruqlar da onun adından deyilir.

**Xristianlıq.** Hələ Əhdi-Ətiqdə göstərilir ki, insanları törətdikləri şər və günahlardan azad etmək, onları pis yoldan xilas edib Allah yoluna qaytarmaq üçün Yerə Allahın elçisi Messiya (xilaskar) gələcəkdir. Yəhudilər öz vətənlərinin əvvəl Babilistan, sonra Roma tərəfindən zəbt edildiyindən sonra bu xilaskarı gözləyirdilər.

Nəhayət, bu xilaskar Müqəddəs Məryəmin oğlu və eyni zamanda Allahın oğlu sayılan İsa Məsih (İisus Xristos) olmuşdur. Xristianlıq b. e. I əsrində Fələstində yaranmış, IV-V əsrlərdə isə rəsmən qəbul edilmiş dinə çevrilmişdir.

Xristianlığın müqəddəs kitabı Əhdi-Cədid İsa Məsihin həvariləri (apostolları) tərəfindən söylənmiş dörd İncildən (Yevangeliyadan) həvarilərin fəaliyyətinin dini təsvirindən, bəzi həvarilərin məktublarından, bir də Vəhydən (Apogalipsis–axirət

günü haqqında yazı) ibarətdir. Bu kitabda İsa peyğəmbərin dünyaya gəlişindən, onun Allah kəlamını insanlara çatdırmasından, çəkdiyi əziyyət və iztirablardan, öldürülməsi və dirilməsindən, Allahın dərgahına qovuşmasından bəhs edilir. İsa Məsihin möcüzələrindən, Allahın insanlara göndərdiyi buyruqlardan, tövsiyələrdən söhbət gedir.

Xristianlığın 3 əsas qolu vardır: katolisizm, pravoslavlıq, protestantizm. Əhdi-Cədiddə xəbər verilir ki, İsa Məsihin ikinci zöhrü olacaq və insanlar öz əməlləri ilə ona hazır olmalıdırlar.

**İslam** VII əsrdə Ərəbistanda yaranmış dindir. Hazırda dünyada çox yayılmış dinlərdən biridir. Son məlumatlara görə Yer kürəsi əhalisinin I milyarda qədəri islama etiqad edir. Müqəddəs kitabı Qurani-Kərimdir. Quran 114 surədən ibarət olub peyğəmbərimiz Məhəmməd Əleyhissəlamın vəhyləridir. Allahın insanlara öz Rəsulu vasitəsilə bəxş etdiyi tövsiyələr, göstərişlər, buyruqlar, hökmlər ayələr şəklində surələrə daxildir.

Yarandığı gündən İslam sürətlə yayılaraq böyük bir ərazidə yaşayan yüzlərlə xalqların həyat və fəaliyyət tərzinə, dünyagörüşünə, ictimai və sosial vəziyyətinə, insanların davranış və əxlaqına böyük təsir göstərmiş, xalqların dövlət quruculuğunu və hüququnu, mədəniyyətini, əxlaqi və bədii qavranışını, təfəkkürünü istiqamətləndirən bir amilə çevrilmişdir.

İslamın dünyagörüşü xarakterli özül müddəaları bütün mənəvi həyat sisteminə nüfuz etmişdir. Yəqin bu onunla izah edilməlidir ki, İslamın xalqlar və insanlar arasındakı münasibətləri tənzimləyən normaları, onun demokratizmi və əqidə dözümlüyü (yəhudi və xristian dininə inananlara hörməti), elmə, biliyə, müdrikliyə verdiyi yüksək qiymət, ədalət, mərhəmət, insanlıq, doğruluq tələbləri insanların qəlblərində bəslədikləri arzulara tən gəlirdi.

Ümumiyyətlə, dinlər bəşər sivilizasiyası sisteminin çox mühüm ünsürlərindən biridir, deməli, mədəniyyət sistemində öyrənilməlidir. Mədəniyyət sisteminə daxil olan elementlər

(əxlaq,incəsənət və onun növləri, hüquq, elmi bilik, fəlsəfə və s.) bir-birilə həm üfüqi (koordinasiya), həm də şaquli (subordinasiya) əlaqəsindədir. Birinci növ əlaqə sistemində mədəniyyət elementləri bir-birilə qarşılıqlı nüfuzetmə və təsir nisbətində olmaqla ortaq məzmuna malikdirlər. Dinin bu növ əlaqələrini açmaq üçün müqəddəs kitabların məzmununa nəzər salmaq kifayətdir. Bu kitabların hər birinin məzmununu şərti olaraq üç yerə ayırmaq mümkündür: birinci hissə hər bir monoteist dinin əsas ehkamları olan dünyanın Allah tərəfindən yaradılması, iki dünya, cənnət-cəhənnəm və ruhun ölməzliyi ehkamlarını ehtiva edir; ikinci hissəyə dövrün ictimai və elmi bilik nümunələri, inam və zəkanın nisbəti, biliyin və elmin insanın həyat və fəaliyyətində rolu və s. məsələlər daxildir; nəhayət, üçüncü hissəyə müvafiq dövrdə insanın, cəmiyyətin, sosial və siyasi qurumların həyat və fəaliyyətini tənzim edən normalar sistemi daxildir. Xüsusilə, ikinci və üçüncü hissələrə aid materiallarda mədəniyyətin müxtəlif elementlərinin qarşılıqlı nüfuz etməsi, çarpazlaşması və hətta qovuşması aydın görünür. Ümumbəşəri əxlaq və hüquq normalarının dini mənalandırılması, bir sıra bayramların (Novruz, Qurban və s.), məişət mərasimlərinin, adət və ənənələrin konkret dinlə bağlanması da buna misal ola bilər.

İkinci növ əlaqə sistemində isə din təfəkkürün inkişafında əsas mərhələlər olan mifologiya-din-fəlsəfə və elm sisteminin mühüm bir ünsürü kimi çıxış edir. Hər üç mərhələdə müzakirə və həll edilən problemlər eynidir, lakin aydındır ki, məsələlərin səviyyəsi, sübut üsulları və dəlilləri, təfəkkür tərzi və s. müxtəlifdir. Burada müəyyən baxımdan varislik izi və əlaqə görünür. Nəhayət, belə bir cəhətə də diqqət yetirək: mədəniyyət sisteminə daxil olan elementləri nə bir-birinə qarşı qoymaq, nə də onları eyniləşdirmək, qarışdırmaq olmaz. Mifologiyanın, dinin, fəlsəfə və elmin hər birinin bu sistemdə öz yeri, tarixi təfəkkürümüzdə rolu, özünün obyekti və spesifik xüsusiyyətləri vardır.

Sual və tapşırıqlar: 1. Dinlə ateizmin dialoqu hansı məsələlər ətrafında gedir? 2.Monoteist dinlərdən bildiklərinizi danışın. 3. Buddizm nədir? 4.İudaizm nədir? 5. Xristianlıqdan danışın. 6. İslam və onun mədəniyyət sistemindəki yerini açıqlayın.

## § 11. Din və mənəviyyat

İndi də dinlə mənəviyyat arasındakı nisbəti, dinin cəmiyyətin mənəvi həyatında oynadığı rolu nəzərdən keçirək.

İbtidai icma quruluşunun dinləri insanları icazələrə və qadağanlara öyrəşdirmək üçün çoxlu «olarlar» və «olmazlar» qoymuşdur. Ancaq ibtidai insanların dinlərinin buyurduğu yasaqlar (qadağanlar) o qədər əhmiyyətsiz məsələlər haqqında olmuşdu ki, hərdən düşünürsən: bəlkə Allah-taala üçün o çağlarda əsas məsələ insanları ən cod qadağanlara öyrəşdirmək idi? Yəni yasaq etmək, nəyi yasaqlamaqdan vacib idi? insanlar beləcə yasaqlar, qadağanlar çərçivəsində yaşamağa vərdiş edəndən sonra yeni dinlər, yəhudilərin dini İudaızm, sonra isə çoxlu-çoxlu xalqların dini Xristianlıq və İslam gəlir. Bu dinlərdə yasaqlar artıq yüksək əxlaq, mənəviyyat üçün qoyulur. Hərçənd keçmişin bəzi qadağan etmək xatirinə qadağanı həmin dinlərdə az qalır. Məsələn, yəhudilərin müqəddəs kitabının əsası olan Tövratda Allah-taala yəhudilərə qarışıq sapdan, daha dəqiq desək, yun və kətan sapların qarışığından toxunmuş parçadan tikilmiş paltar geyməyi qadağan edir. Nədir bunun mənası? Niyə yalnız ya yun sapdan, ya da kətan sapdan toxunmuş parçadan tikilmiş paltar geymək olar?

Məntiq deyir ki, pis, ziyanlı şeyləri yasaq etmək lazımdır. Tövratda isə Allah-taala ziyansız şeyləri də qadağan edir. Məsələn, başqa örnək: yəhudilərə tapşırılır ki, keçi balasının ətini anasının südündə bişirməsinlər, bir sahədə iki növ toxum səpməsinlər. «Olmaz» deyilən bütün bu şeylərin ziyanının nə olduğunu tapmaq olmur.

Eləcə də bizim dinimizdə donuz ətinin yasaq edilməsi bilmək olmur hansı ziyanın, pisliyin qarşısını alır. Ərəbistanın isti iqlimində donuz ətinin ziyanından danışmağına dəyməz, çünki Afrikanın, Asiyanın bir çox isti yerlərində asanca, qorxusuz, donuz ətini yeyirlər.

İrəlidə dediyimiz kimi, görünür, bu yasaqların bir xeyri var:, onlar insanlara intizamlı olmağı, yəni «olmaz» deyilənləri etməməyi öyrədir. Bütün əxlaq, mədəniyyət isə buradan başlayır. İnsan «olmaz» deyilənlərə əməl etməyi öyrənəndən sonra ona mənəviyyat, əxlaq üçün gərəkli yasaqları buyurmaq olar. Allah-taala belə də edir. Tövratda insanlara tapşırır:

Oğurlamayın.

Yalan danışmayın.

Karın qulağına söyüşlər söyməyin, korun ayağının qabağında əngəllər qoymayın.

Yalandan şahidlik etməyin və s.

Görürsünüzmü, Tövratda Allah insanlara elə şeyləri tapşırır, elə şeyləri qadağan edir ki, bütün bunların sayəsində insanlar bir-birinin gününü qara etmir, nəcib, səmimi münasibətlərə girir. Mənəvilik bax elə bu deməkdir.

Xristianların müqəddəs kitablarında da insanları mənəviləşdirən qadağanlar var. Xristianların gözündə Tanrının oğlu olan İsa Məsih buyurur:

Nəzir-niyaz verəndə qoy sol əlinin etdiklərindən sağ əlin xəbər tutmasın ki, nəzirin xəlvətdə qalsın (yəni İsa buyurur ki, öz yaxşılıqlarınla öyünüb aləmə car çəkmə).

Sənin bədənin üçün şadmanlar gözlərindir. Ona görə də gözlərin təmiz olsa, bütün bədənin işıqlı olacaq.

Qardaşının gözündə niyə çöpə baxırsan, öz gözündəsə tiri görmürsən? Qabaqca öz gözündən tiri çıxar, sonra qardaşının gözündən çöpü çıxararsan.

Hər şeydə insanların səninlə necə rəftar etməsini istəyirsənsə, o cür də sən özün onlarla rəftar et.

İnsanları mənəviləşdirən yasaqlara, buyruqlara Qurani-

Kərimdə də çox rast gəlmək olar:

Ey insanlar, Allahdan qorxsanız, O sizə yaxşı ilə yamanı ayıracaq anlayış verər (burada Allahdan qorxmamaq yasaq edilir, özü də müəyyən sübutla, yəni Allahdan qorxmamağın ziyanı bildirilir, Allahdan qorxmayan yaxşı ilə yamanı ayıran anlayışa sahib olmur).

Zilim ilə yetimlərin malını yeyənlər, sadəcə qarınlarına atəş doldurmaqdadırlar (Zülm edib yetim malım yemək yasaq edilir).

Kim gözəl davranaraq öz mahiyyətini Allaha təslim edirsə, o ən möhkəm gücdən yapışır.

Görürsünüzmü, İudaizm də, Xristianlıq da, islam da Allah-taaladan gələn elə buyruqları verir ki, elə qadağanlar qoyur ki, bunlara əməl edən insan mənəvi insan olur, yəni etdiklərini düşünüb nəyi pis etdiyini anlaya bilir və bundan vicdanı da rahat olur. O davranışına görə Uca Yaradan qarşısında cavabdeh olduğunu düşünüb insanlara yamanlıq gətirən hərəkətlərdən çəkinir.

Eyni ilə insanı yüksək mənəviyyata çatdıran dinlərdən biri də Buddizmdir. Buddizmi yaradan Budda buyururdu ki, insanların bütün əzabları bu dünyanı sevməkdəndir, bu dünya ilə bağlı olub ondan asılı qalmaqdandır. Məsələn, kimisə çox istəyirsən, o xəstələnir, başlayırsan əzab çəkməyə. Var-dövləti sevirsən və onu itirməkdən qorxduğun üçün yenə əzab çəkirsən. Ona görə də müdrik insan bu dünyada onu bağlayan bağları qırmalıdır ki, ondan asılı olmasın və deməli, ondan gələn hər hansı bir əzaba hədəf olmasın. Müdrik adam şüurunu bu dünyanın təsirindən tamam təmizləyə bilir və onda nirvana vəziyyətinə düşər. Nirvana şüurun xoşbəxt halıdır.

Mənəviyyat gətirici dinlər insanı əxlaqlı etmək üçün çox güclü şərtlər qoyur. Birincisi, insana anladır ki, heç bir xəlvət etdiyin pislik və ya yaxşılıq Allah-taaladan gizli qalmır, ikincisi, Tanrının qadağan etdiklərini nə qədər az etsən, yaxşılıqların nə qədər çox olsa, bu dünyadan köçəndə Allah sənin haqqında hər şeyi bildiyi üçün səni mükafatlandıracaq, cənnətə salacaq (yəni

ruhun xoşbəxt bir halda qalacaq).

Ateizm İudaizmi, Xristianlığı, İslamı (Buddizmi qoyaq bir qırağa) onda günahlandırır ki, insanı əxlaqlı etmək üçün onu Allahla qorxuzur. Halbuki əsl əxlaqlı adam kimdənsə qorxduğu üçün yox, yamanlığa nifrət etdiyi üçün yaxşılıqlar edir.

Cavabında din söyləyir: mömin insan Allahdan qorxduğu üçün yox, onu sevdiyi üçün əxlaqlı olur. Yerdə qalanların isə əl-qolunu Allah qorxusu bir az da olsa bağlayır. Çox az adam tapılar ki, imansız olsun, yəni dinə, Allaha inanmasın və bununla əlaqədar yüksək əxlaq sahibi olsun. Bunu ancaq tək-tük adamlar bacarar, ona görə də ateistin təklif etdiyi əxlaqı hamının əxlaqına çevirmək mümkün deyil. Din isə həm seçmə adamlara, həm də çoxluğa əxlaq verir.

Bu yerdə ateizm soruşur: axı, din insanlara əxlaq vermək üçün onları aldadır, olmayan Tanrının xofu ilə və ya olmayan Tanrıya sevgi ilə onları əxlaqlı görmək istəyir. Ancaq çürük sütunlar üstündə dam durmadığı kimi, yalan bünövrə üstündə əxlaq binası da dayanmaz.

Bu yerdə ilahiyyat ateizmdən soruşur: nədən bilirsən ki, dinin Allah-taalanın varlığı haqqında söylədikləri yalandır? Sübut et.

Ateizm cavab verir: əgər Allah varsa, yerə din göndəribsə, niyə hamıya bir din göndərməyib?

llahiyyatçıların cavabı: birincisi, İslama görə İudaizm, Xristianlıq Allaha itaət (islam) olduqları üçün mahiyyətcə islamla eynidirlər. Dinə əməl etməyənlər dinlərini poza-poza onları bir-birindən fərqləndirmişlər.

İkincisi, Əl-Fərabi kimi böyük islam filosofu söyləmişdi: pis din, yaxşı din yoxdur. Hər din tək olan Allaha ayrı bir yoldur: Allah-taala hər millətə onun psixologiyasına, təbiətinə uyğun din verir ki, o özünə doğma yol ilə, bir olan Allaha üz tutsun. Bu baxışı yalnız müsəlman filosofları deyil, yəhudi və xristian ilahiyyatçıları (teoloqları) da qəbul etməyə başlayıblar. Onun üçün də bir vaxtlar Məhəmmədin peyğəmbərliyini, yəni

Allahdan soraqlar alıb insanlara çatdırmasını qəbul etməyən yəhudi, xristian ilahiyyatşünaslığından indi Məhəmmədin də, Buddanın da ilahi vergiyə sahib olduqlarını qəbul edən ruhani alimlər çıxmışdır. Sadəcə, bu yəhudi və xristian mütəfəkkirləri tərəfindən məsələ belə qoyulur: onlar öz xalqlarına yol göstəriblər və bizim də gözümüzdə buna görə ucadırlar.

Gördüyünüz kimi, dini yanlışlığa görə tənqid etmək heç də asan deyil. Ümumiyyətlə, isə dünya mədəniyyəti din, ilahiyyat və ateist baxışlar arasında olan mübahisələr, diskussiyalar və fikir çarpışmaları sayəsində xeyli ucalıqlara qalxmış, əhəmiyyətli nailiyyətlərə çatmışdır.

**Sual və tapşırıqlar:** 1. Dinin mənəviyyatdakı rolunu açın. 2. Qadağanlar və onların insan mənəviyyatını tənzimləməkdə rolu nədədir? 3. Bu məsələyə dinin və ateizmin münasibətini açın.

## İNCƏSƏNƏT VƏ ONUN İCTİMAİ HƏYATDA ROLU

### §12. «Dünyanı gözəllik xilas edəcək

Gözəllik nədir? İncəsənət necə yaranıb? Bugünkü kosmik uçuşlar, atom enerjisi, kompüterlər dövründə incəsənət gərəkdirmi? Neçə illərdir ki, həm incəsənətin nəzəri problemləri ilə məşğul olan sənətsünaslar, həm də praktik sənət adamları, sənətkarlar özləri–rəssamlar, yazıçı və şairlər, musiqiçilər, heykəltəraşlar və digər yaradıcı əmək adamları bu suallara cavab axtarırlar. Lakin ən düşünülmüş, ən dolğun sayılan cavabın özü yeni-yeni suallar doğurur. Görünür incəsənət də əks etdirdiyi həyatın özü kimi sonsuzdur. İncəsənət nədir? Onun müasir həyatda yeri və məzmunu nədir? Forma müxtəlifliyi hansı zərurətdən doğur? İncəsənətin insanın mənəvi fəaliyyətinin

digər sahələrilə (elm, əxlaq, din və s.) əlaqəsi necədir?

Bu sualların hər birinə cavab verməklə biz incəsənətin inkişafına, onun şaxələnməsinə dəstəkçi oluruq.



Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu (1885-1948) – Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətini.n və milli operasının banisi. Ü.Hacıbəyov bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, gizli imzalarla dövrünün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. Ü.Hacıbəyovun 1908-ci il yanvarın 12-də (yeni üsulla 25-ində) Bakıda H.Z.Tağıyevin teatrında göstərilmiş «Leyli və Məcnun» operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. U.Hacıbəyov Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O öz opera və musiqili komediyalarında, eləcə də digər janrlarda Şərq və Qərb musiqi sistemlərinin üzvü vəhdətini yaratmağa nail olmuşdur. Ü.Hacıbəyov müasir Azərbaycan elmi musiqışünaslıgınm əsasını qoymuş, musiqiyə dair çoxlu tədqiqatlar aparmış, məqalələr yazmışdır.

Bu baxımdan insanın başlıca keyfiyyəti ətraf gerçəkliyin gözəlliklərinə nüfuz etməkdən ibarətdir, insanı yaşadığı mühitlə çoxlu görünən və görünməz tellər bağlayır. O, özünə qida və geyim şeyləri əldə edir, evlər, kəndlər, şəhərlər tikir, hərəkətini sürətləndirmək və səmərəliləşdirmək üçün yollar, körpülər, kanallar çəkir, nəqliyyat vasitələri kəşf edir. Bütün bu əməliyyatlarda insan robot kimi hərəkət etmir, şüurlu varlıq kimi

təmasda olduğu aləmə hissi münasibət göstərir, İnsan həm təbiət hadisələrinə–dağa, daşa, ağaca, çaya, dənizə, küləyə, yağışa, qara, qövsi-qüzehə, həm də özünün yaratdığı «ikinci dünya" əşyalarına–evlərə, məbədlərə, ev şeylərinə, maşın və dəzgahlara, şəkil və heykəllərə emosional yanaşır: şənlənir, kədərlənir, zövq alır, ya xoşlamır, gözəl və ya çirkin hesab edir. İnsanın xoşladığı və zövq aldığı nədir? Göz oxşayan rənglər və ecazkar səslər (quşların nəğməsi, yağışın şırıltısı, dənizin xışıltısı, yaşıl yarpaq, qızıl gül, bənövşə və s.), fantastik təbii və ya insanın əlilə yaradılan formalar. Bütün bunları insan öz dilində «gözəl», «gözəllik» sözlərilə ifadə etmişdir.

Gözəllik təkcə təbiət hadisələrinə deyil, habelə insanın xasiyyətinə, davranışına, məşğuliyyət tərzinə də aiddir. Xeyirxah, ülvi, xoşniyyət davranışlar insanın daxili gözəlliyini ifadə etdiyi halda, bədniyyət, alçaq, bədxah davranışlar insan eybəcərliyinin təzahürləridir. İş var ki, insana sevinc, qurur, güc verir, ona mənəvi şərəf gətirir. İş də var ki, insana rəzilət, küskünlük, bədbinlik, ruh düşgünlüyü və inamsızlıq gətirir. Bir sözlə, insan həm özünün, həm də başqasının həyatının və davranışlarının passiv, quru müşahidəçisi, «qeydiyyatçısı" deyil, aktiv qiymətləndiricisi və emosional qəbulçusudur. Bu isə insanın ətraf gerçəkliyə estetik münasibətinin əsasını təşkil edir. Gerçəkliyə estetik münasibətin bu mərhələsi gerçəkliyin və incəsənətin gözəlliklərinin dərk edilməsinin ilkin pilləsidir. Bu pilləni alimlər gözəlliyin biofizioloji əsası adlandırırlar. Gözəllikdən bioloji həzzalma olmasaydı, gözəllik haqqındakı təsəvvürlərimiz də aldadıcı, cılız və yalançı olardı. Bioloji həzz ac adamın doyunca yeməsi, susuzluqdan yanan adamın su içməsinə bənzəyir. Bu normal adam üçün normal haldır. Uşaqlıqdan toxluğun nə olduğunu bilməyən, daim aclıq içində yaşayan, təhqir edilən və alçaldılan adamın yalnız bu cür «həzzalma» ilə yaşamasıdır. Doyunca yemək hissi onun həyatına hakimdir, bütün digər hissləri sıxışdırıb çıxardır.

Təəssüflə qeyd etmək lazımdır ki, həqiqi gözəlliyin dərk

olunması yolunda ilk addımlar atan adamlar bioloji həzzalma səviyyəsindən yüksəyə qalxa bilmirlər. Onlar özlərini necə ali zövqlərdən məhrum etdiklərini ağıllarına belə gətirmirlər. Həqiqi gözəlliyi duymaq üçün adam gərək biofizioloji həzzalmadan həqiqi mənəvi həzzalma səviyyəsinə yüksələ.

Mənəvi sözündəki «mən» ona işarədir ki, bu səviyyədə insan praktik hisslərdən, şəxsi mənafe və mənfəət hissindən yüksəyə qalxır, biofizioloji həzzalmadan azad olaraq mənəvi gözəlliyi duymaq qabiliyyəti qazanır. Belə adamlar meşənin gözəlliyindən əfsunlanarkən, qışda yandırmaq üçün odun doğramaq kimi xalis praqmatik fikirdən uzaq olur. Quşun qəlboxşayan cəh-cəhindən, bülbülün oxumasından zövq alan mənəvi insan onun ətindən bişirilə biləcək ləziz xörəkləri ağlına belə gətirmir. Belə adamlar hətta öz ev əşyalarına belə təkcə rahatlıq baxımından (sözsüz ki, insanın həyatı üçün bu da vacibdir), gərəklilik prizmasından (qırılmasın deyə qiymətli qab-qacağı gizlətmək) yanaşmırlar. Əksinə, onlar üçün əşyaların gözəlliyi, kamilliyi, gözoxşaması, ürəyəyatımlığı daha vacib və estetik cəhətdən daha qiymətlidir.

Əynindəki bahalı geyimi, bər-bəzəyi gözə soxmağa çalışan qadın və kişinin otrafdakılann nəzərində nə qədər cılızlaşdığını sizin çoxunuz dəfələrlə müşahidə etmiş olarsınız, özlərinin «ucuz» hərəkətləri ucbatından belə adamlar gülünc vəziyyətə düşür, başqalarına yuxarıdan baxmaq kimi xudbinlik xəstəliyinə tutulurlar. Dəb dalınca qaçan adamın daxili mənəvi sərbəstliyi olmasa əsl gözəlliyi dərk edə bilməz. Soruşa bilərsiniz ki, bəs modalı geyim lazım deyildirmi? Əlbəttə, lazımdır. Əgər insanın daxili mənəvi aləmi, xarici davranış və danışıq gözəlliyi onun paltarının gözəlliyi ilə tamamlanırsa, o, sözün tam mənasında gözəldir. Tərsinə, bahalı geyim arxasından puç mənəviyyat və kobud davranış büruzə verən insan müqəvvaya bənzər.

Gerçəkliyə təmannasız münasibət insanın daxili azadlığının göstəricisidir. Yalnız daxilən azad olan insan gerçəkliyin gözəlliklərinə, forma ahənginə, hormoniya və simmetriyasına

suyun və küləyin cilaladığı xırdaca ecazkar balıqqulağından tutmuş, adamların bədən əzəmətinə, geyiminə qədər bütün gözəlliklərə, sənət əsərlərinin kamilliyinə qiymət verməyə qadirdir. Gözəllik qanunları ilə gerçəkliyə yanaşmaq, onu görmək və dəyişdirmək bacarığı insanı digər canlılardan fərqləndirən başlıca meyardır.

## §13. İncəsənətin elmdən fərqi nədir?

Uzun illər mübahisə və diskussiyalar doğuran məsələlərdən biri də incəsənətin insan üçün gərəkli olub-olmaması məsələsidir. Bu baxımdan söhbət elmdən gedəndə cavab elə bir ciddi çətinlik törətmir. Elm dünyanı dərk etmək və dəyişdirmək vasitəsidir. Bunun sübutu bizim gündəlik həyatımızda istifadə etdiyimiz əşyalar— televizor, radio, elektrik və s. elmi idrakın təcəssümləridir. Məhz ona görə elm gərəklidirmi? sualını vermək heç kəsin ağlına gəlmir. Cavab aydındır. İncəsənətə gəldikdə isə bu sualın cavabı əyani olmadığı üçün dayaz təfəkkürdə incəsənətin gərəksizliyi təsəvvürü yaranır. İnsan belə düşünür: filan muzeydə filan rəssamın rəsm əsəri asılmışdır. Mən o əsərə baxmadan da yaşaya bilərəm, deməli, incəsənət gərəksizdir. Görək bu doğrudanmı belədir?

Bəşər övladı yarandığı gündən incəsənətin yaşaması və inkişafı üçün böyük enerji, sərvət və istedad sərf etmişdir. Qədim Roma teatrı «Kolizey», qədim yunan Äkropolu və bir çox məşhur qədim tikililər öz gözəlliyi və əzəməti ilə bu gün də insanı heyran qoyur. Bu gün milyonlarla insan incəsənət sahəsində çalışır, yer üzünün əksər əhalisi estetik zövqünü təmin etmək üçün çoxlu vaxt və pul sərf edir. Əgər incəsənət gərəkli deyilsə, bütün bunları necə izah etmək olar? Geyim gözəlliyinə, ev əşyalarının—mebelin, qab-qacağm və s.-nin rənglənməsinə və zərifliyinə, zinət şeyləri istehsalına və məişət dizaynına, avadanlıq və istehsal vasitələrinin gözəlliyinə çəkdiyimiz xərcləri də əlavə etsək ağlasığmaz böyük məbləğ alınar. Bəs nə

üçün bəşəriyyət bu xərclərdən imtina etmir, əksinə, mədəniyyət və incəsənətə, maliyyə ayrılmalarının artırılması məsələsi hamını düşündürür. Cavab birmənalı və aydındır. Çünki incəsənət insanın sosial varlığını şərtləndirən mühüm amillərdən biridir. Cəmiyyət onsuz yaşamaq və inkişaf etmək qabiliyyətini itirə bilər.

İndi görək incəsənət bilavasitə insana nə verir, onun yaşamasında incəsənətin rolu necə başa düşülməlidir? Əvvələn onu qeyd edək ki, insan özünün yaratdığı «ikinci dünyada» mədəni dünyada yaşayır. Bu dünyadakı şeylərin hamısı az və çox dərəcədə insan ağlının və insan əlinin məhsulu olduğu üçün onlarda incəsənətin əlamətləri vardır. Deməli, incəsənət bu və ya digər formada insanın «ikinci dünya»yaratması işində iştirak edir, onu səciyyələndirir. Qədim insanların gözündə ilahiləşən Günəş, Ay, çay dəniz onların taleyində əhəmiyyətli iz buraxmışdır. Qədim rəssamlar insanları heyvan və ya yarımheyvan cildində, heyvanları isə insana-bənzər şəkildə təsvir edirdilər. Əkinçilik insan üçün təkcə toxumu torpağa səpməkdən ibarət deyildi. Təcrübi inamlarına etibar edən insan gördüyü işinin hamısını (ovu, heyvanların əhliləşdirilməsini, əkinçiliyi və s.) səhnələşdirirdi. Qədim tarix kitablarında siz bu səhnələri görmüsünüz. Yazın gəlişi, təbiətin oyanışı, gül-çiçəyin ətri insanın daxilindəki estetik hissləri oyadır. Təzə paltar geyilir, bayram mərasimləri keçirilir, səhnələşdirilmiş oyunlar oynanılır. Bu bayram səhnələrində baharın xeyir gücü şərə, ətalətə, cəhalətə (qış yuxusuna) həmişə qalib gəlir. Novruz bayramımızı, başqa xalqların yeni il bayramlarını yadınıza salsanız fikrimiz əyaniləşər.

Sonrakı mərhələlərdə də insan təbiəti təkcə dərk etməklə kifayətlənmir, özünün estetik hissləri və təsəvvürləri səviyyəsində təbiəti «təkrarlamağa» can atır. Bu yolla da incəsənət əsərləri yaranır. Hər hansı təbiət lövhəsini çəkən rəssam onu heç də olduğu kimi basma kağızından köçürmür. O özünün daxili görünüşünün, daxili aləminin obrazını yaradır.

Rəssamın çəkdiyi şəkildə gördüyümüz təbiət lövhəsi onun gözü ilə görünən lövhədir. Məhz ona görə də bu yeni dünya gerçəkliyi bizə daha yaxın və daha anlaşıqlıdır. Aydın olur ki, bizdə bir dəfə də bilavasitə müşahidə etmədiyimizi görmək, yaşamadığımız anları yaşamaq qabiliyyəti varmış. Nizaminin poemalarına çəkilmiş miniatürlərə baxanda adam özünü təsvir olunan hadisələrin iştirakçısı kimi hiss edir.

Bir çox heyvan və quşların gözü bizimkindən çox-çox iti görür. Lakin bizim gözümüz əşya və hadisələrdəki ahəng və harmoniyanı görmək qabiliyyətilə çox geniş bir aləmi görür.

Bəstəkarın səslər dünyasının harmoniyasını yaratdığı əsərlərə qulaq asarkən biz səsləri çeşidləməyə və ümumi ahəngi tutmağa vərdiş edirik. Sırf fiziki imkanlar baxımından bizim qulaqlarımız bir sıra heyvanlardan çox geridir, lakin bizim qulaqlarımız demək olar ki, kosmik harmoniyanı duyur. Yazıçı insanın keçmişini təsvir etməklə o keçmişi yenidən yaşadır, bizim gələcəyimiz haqqında eyhamlar söyləyir. Ədəbiyyat və incəsənətin köməyilə biz yaxın və uzaq gələcəyimizə nəzər salırıq.

Beləcə, incəsənət insanın ömrünü mənalandırır. O, təbiət və cəmiyyət, cəmiyyətlə fərd, bəşəriyyətlə xalq, millət, insanla insan münasibətlərində cərəyan edən, insan talelərini bağlayan və ayıran telləri duymağımıza kömək edir.

## § 14. İncəsənətin təyinatınm müxtəlifliyi

Hələ qədim zamanlardan düşünən beyinlər incəsənətin ictimai həyatdakı rolu barədə dəyərli fikirlər söyləmiş, onun funksiyalarını araşdırmışlar. Əski dünyanın ensiklopedist mütəfəkkiri olan Aristotelin (Ərəstunun) fikrincə faciənin əsas gücü ondadır ki, o, katarsisə—insan qəlbinin daxilən saflaşmasına, yeniləşməsinə gətirib çıxarır. Bununla filosof nə demək istəyir?

Fərz edək ki, biz dahi Şekspirin bəşəri faciəsi «Otello»nun

tamaşaçılarıyıq. Tamaşa boyu biz pyesin qəhrəmanı Otello ilə birlikdə sevinir, kədərlənir, iztirab çəkirik. Faciənin sonunda Otellonun hiss və həyəcanına qovuşmağımız ən yüksək zirvəyə çatır. Həyəcan və qəzəoimızi gücləndirən bir də odur ki, əsl günahkarın kim olduğunu müəyyən edə bilmirik: açıqürəkli, sadəlövh, hər şeyə inanan Otellomu, qısqanc, alçaq Yaqomu, yoxsa alçaqlığa, şərəfsizliyə, qatılliyə rəvac verən dövrmü?

Alimlərin və sənət adamlarının gəldikləri qənaətlərdən biri budur ki, incəsənət sayəsində insan keçmişi və gələcəyi, yaxını və uzağı, görünəni və görünməyəni, yaşadığı dünyanı və kosmosu öyrənir. İncəsənət bizə yaşadığımız dünyanı və öz dünyamızı, həyatımızın mənasını dərk etməyə kömək edir. Deməli, incəsənət daxili mənəvi kamilləşmə vasitəsidir.

İncəsənət bizim ağlımızı və hisslərimizi, deməli «mən» imizi, şəxsi maraq, mənfəət, qazanc hisslərindən azad edir. Yalnız bu cür adamlar incəsənət əsərləri yarada və onlardan həzz ala, onları qavraya bilərlər. İncəsənətlə təmasda olmaqla insan əxlaqi sağlamlığını, bu vasitə ilə də fiziki sağlamlığını saxlaya bilər. Deməli, incəsənət saflaşdırıcı, təmizləyici və sağlamlaşdırım bir vasitədir.

İncəsənətdə insan gerçəklikdəki rəngləri, səsləri, formaları, əyriləri və s._ «təkrarlamaqla» yeni «varlıq» yeni «dünya»yaradır. Bu dünya tək, fərdi (şəkil, heykəl, musiqi əsəri) olsa da o, insan qavrayışının məhsuludur—filan rəssamın filan hadisəni necə görməsinin ifadəsidir. Deməli, incəsənət insanın özünü reallaşdırmaq, özünüifadə vasitəsidir. Onun yaratdığı dünya zəkasının, hisslərinin, ehtirasının, əxlaqının, göz yaşları və gülüşlərinin qatışığından yaranan bir dünyadır.

Aristotelin (Ərəstunun) katarsisi (saflaşma) gördüyümüz kimi tək faciədə yox, bu və ya başqa dərəcədə incəsənətin bütün növlərinə aiddir.

Deyirlər, incəsənət həyatın inikasıdır. Bu, aydındır. Və ona görə də şərhə ehtiyacı yoxdur. Lakin incəsənətin gerçəkliyi necə əks etdirdiyindən danışmağa dəyər.

Aləmi müxtəlif şəkildə inikas etdirmək olar. Güzgüdə özünüzü, ya başqa bir şeyi görəndə siz inikası görürsünüz. Mahir bir fotoqraf təbiət lövhələrini, evləri, insanları inikas etdirir. Alim müəyyən anlayışlar, kateqoriyalar, qanunlar vasitəsilə dünyadakı əlaqə və asılılıqları, xassə və əlamətləri əks etdirir. Bəs incəsənətdəki inikas bunlardan nə ilə fərqlənir?

Portretçi rəssamların əsərlərində kimin əks olunduğunu müəyyənləşdirmək çətin deyildir. Oxşarlıq çoxdur. Lakin, bəzən kimin çəkildiyini müəyyən etmək olmur. Niyə? Çünki rəssam real bir insanın şəklini çəksə də, onun xarici görünüşü arxasında gizlənən daxili aləmini açmaq üçün zahirdə olmayan xətlər, cizgilər, əlavə edir. Məsələn, Pikassonun rəsmlərində insanlar bəzən dargöz, şişburun, uzunboğaz, bədən üzvləri qeyri-mütənasib verilir. Pikasso insanın mənəvi aləmini görməyə, daxilini açmağa, zahirən heç kəsin müşahidə edə bilmədiyi, görmədiyi məqamlarda əks etdirməyə çalışır. Adi halda normal olan gözləri vahimə halında bərəlmiş, əsəbi halda qıyıq çəkir. Deməli, incəsənət hadisələrin mahiyyətini əks etdirmək vasitəsidir. Bunun üçün incəsənətə xususi “İinza”, «binokl» lazımdır. O da sənətkarın görmə qabiliyyətidir. Sənətkar gözü nəyisə böyütməyi, nəyisə kiçiltməyi, nə isə əlavə etməyi, nə isə çıxartmağı bacarmalıdır. Məhz bunun sayəsində sənət əsəri aləmin «güzgü surəti»deyil, varlığın rəssam görünüşüdür.

Deyirlər ki, incəsənət ən yaxşı tərbiyəçidir. Bu inkaredilməzdir. Lakin ilk təsəvvürə görə incəsənət sanki heç nəyi öyrətmir. Hər halda bir şey aydındır ki, incəsənət nəticəsi bilinməyən darıxdırıcı, dinləyənə əsnəmək gətirən və qurtarmamış yaddan çıxan moizə ilə eyniləşdirilə bilməz.

İncəsənət insana özünü necə aparmaq haqqında heç nə demir. Müasir bədii əsərlərin bəzilərində hətta müsbət və mənfi qəhrəmanları ayırmaq belə olmur. Hamı rəhmli, tez haraya çatan adam təsiri bağışlayır, heç birində bariz çatışmazlıq gözə dəymir. Nəticədə isə hamı gileylidir, bir-birinin xətrinə dəyir, biri digərini günahlandırır. Balaca Çarli özündən qat-qat güclü

və cüssəli rəqiblərini dolayanda biz gülməkdən güclə ayaq üstə dura bilirik. Heç belə gülməli tərbiyə olar? Bu üsulla tərbiyə etmək mümkündürmü? Bəli, mümkündür.



Bir halda ki incəsənət bizi saf, rəhmli və ürəyiaçıq edir, buna şübhə etməmək olar. Həqiqi incəsənət sayəsində həyatda biz başqalarına qarşı səbirli oluruq, onları dinləməyə və başa düşməyə çalışırıq. Ola bilsin ki, bir yeniyetmə bir qədər sərt və kobuddur, acıqlı və xatakardır. Bir sözlə, Andersonun nağıllarındakı «eybəcər ördək balası»nı xatırladır. Lakin onun da böyüyüb «gözəl quşu» olmaq ehtimalı var. Yəqin ki, nağılda ana ördəyin keçirdiyi iztirabların yersiz olduğunu xatırlayırsınız. Ola bilsin, ki, həmin yeniyetməyə qayğı ilə yanaşmaqla onu ürəyiaçıq, etibarlı və safürəkli etmək mümkündür.

Deməli, incəsənətlə təmasda olduqda biz tərbiyələnirik. Bu cür tərbiyə daha ciddi, daha dərindir. Ona görə ki, bizim xarakterimizin lap dərinliyinə nüfuz etməyə qadirdir. İncəsənəti sevən, ona inanan adam təkcə gözəlliyin və harmoniyanın qeyri adi dünyasını fəth etmir. O həm də özünü daha yaxşı hiss edir və bir gün ətrafmdakıları da özünə cəlb etməyə başlayır. Onlarda həm incəsənətə, həm insanlara, həm özlərinə, ən başlıcası isə əsl incəsənətin qeyri-adi gücünə inam yaradır.

Zərdabi Həsənbəy Səlimbəy oğlu (1842, Zərdab—1907, Bakı) — Azərbaycan maarifçi-demokratı, təbiətşünas, publisist və pedaqoq. Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir. 1896-cı ildən ömrünün axınnadək Bakıda yaşamış, şəhər dumasının üzvü olmuş, maarif və mədəniyyətin tərəqqisinə çalışmışdır.

«Əkinçi»qəzetini nəsr etməsi Zərdabinin jurnalistlik fəaliyyətinin ən diqqətəlayiq cəhətidir. Türk dilinaə yazdığı “Torpaq, su və hava”, «Bədəni salamat saxlamaq düstürələməİidir» əsərlərində təbiətşünaslığa dair maraqlı məlumatlar vardır.

## § 15. İncəsənətdə Millilik və bəşərilik

İncəsənət millətin həyatı ilə qırılmaz tellərlə bağlıdır. O, xalqın həyatından, adət və ənənələrindən milli əxlaq və psixologiyasından qidalanır. Milli özünəbənzərlik və milli mənlik hər bir incəsənəti dərin açıqlayır. İncəsənətin köməyilə biz milli keçmişimizə və milli gələcəyimizə, milli şüurumuza və milli gerçəkliyimizə baxa bilirik. İncəsənət bizim hərəkətlərimizi həm zamanda, həm də məkanda tənzimləyir, milli məkan və zaman hədlərini müəyyənləşdirməyimizə kömək edir.

Yuxarıda qeyd etdiyimiz kimi, incəsənət insaniləşdirilmiş varlıqdır. Diqqət yetirsək görərik ki, bu insaniləşdirilmiş varlıq öz təkrarsızlığı, öz nadirliyi ilə başqalarından seçilir. Bu bənzərsizlik hər millətin özünəməxsus həyat tərzindən doğur. Hər millətin öz günəşi və yağışı, öz zülməti və dözülməzliyi, öz tarixi, başqaları ilə döyüşdüyü, qələbə çaldığı və məğlub olduğu, hökmranlıq etdiyi, başqa millətlər arasında öz yerini aradığı anları var. Hər millət öz psixologiyası, çılğınlığı, səbrsizliyi, dözümlülüyü, öz yumoru, gülüşünün təbiəti—necə gülmək, nə vaxt gülmək və nəyə gülmək vərdişlərini, öz düşüncələrini birbaşa və ya dolayı, pərdələnmiş ifadə üslubu və nəhayət, öz həyat tərzinə təfəkkürü ilə seçilir. Bu milli qan, bu enerji, sadaladığımız və sadalaya bilmədiyimiz bütün milli əlamətlər yaradıcı adamın qəlbinə gözəgörünməz tellərlə nüfuz edir, sonra da bütün bunlar sözlərdə, səslərdə, boyalarda əks olunur. Bu prosesi izləmək praktik baxımdan mümkün deyildir. Çünki həm

söz açdığım tellər, həm də saydığımız milli keyfiyyətlər metafora mənasmda işlədilir. Mənası isə odur ki, sənətkar öz vətənində, xalqının arasında, doğma təbiətdə, öz tarixi və zamanı ilə yaşayır, öz milli mədəniyyəti ilə əhatə olunur. Milli mədəniyyət isə onun özündə yaşayır. Təkrarolunmazlığı, sənətkarın istedadı, fərdi bənzərsizliyi ilə bağlamaq doğru deyildir. Şübhəsiz ki, bunlar inkarolunmaz göstəricilərdir. Lakin sənətkarı təkrarsız edən yaradıcı mühitin bənzərsizliyidir, qeyri-adiliyidir.

Fikrimizin açıqlanması, anlaşıqlı olması üçün bir neçə nümunə göstərək.

**İspan rəqsi.** Məşhur ispan flamenqosu («cənub» deməkdir). Bu adı eşitməklə özümüzdən asılı olmayaraq, başqalarının heç hiss etmədiyi bir tərzdə hərəkətə gəlirik, daha doğrusu, rəqs edirik. Çəkmə dabanlarının həzin musiqiyə çevrilən sədasını, sındıra-sındıra süzən rəqqasələrin nəfəsini duyuruq. Sonra rəqs edənlərin qol və ayaqlarının, təpədən dırnağa kimi bədənin incə, düşündürücü hərəkətləri gözümüz önünə gəlir. Xüsusi biçimli və xüsusi rəngli paltarların musiqinin ahənginə uyğun hərəkətlərini, içərisində musiqinin özü yaşadığı rənglərin əlvanlığım görürük. Bir az da düşüncəyə dalsaq özümüzü hansısa qızmar günəşli ispan şəhərlərinin birində, al-əlvan geyimli, musiqiyə uyğun əl çalan ispanlar arasında hiss edirik. Fikirlərimiz bizi başqa səmtə də apara bilər, məhəbbətlə, ehtirasla, xəyanətlə və azad Karmenlə görüşdürə bilər. Beləcə, üçüncü, dördüncü duyğular dünyasını yaşamış olarıq. Bütün hallarda yalnız bir şey tamamilə aydındır: bura İspaniyadır, rəqs isə həqiqi ispan rəqsidir. Bu həqiqətən milli rəqsdir. Onun cazibə gücü və əlvanlığı da milliliyindədir.

Daha bir misal, Ainerika kinosu. Məşhur Amerika «vesterni». Elə bu anda təxəyyülümüzdə bir canlanma, oyanış baş qaldırır. Amerika Qərbi («vest»sözü-qərb deməkdir). Boş səhralar. Kiçik bir şəhər, yaxud səhranın qoynuna atılmış malikanə. Dar dəmir yolu ilə ara-sıra yeriyən qatarlar. Ən

başlıcası isə «vestern» qəhrəmanları—kovboylardır. Üzünün dərisi gündən qarşımış, şlyapasını gözünün üstünə basan, enli gön kəmərinin altında qoşa tapança gəzdirən adamlar. Bunlara yuxudakı kimi laqeydlik, birdən gözlənilməz şimşək partlayışı kimi reaksiya xasdır. Sonra yenə də olimpiya sakitliyi. Bu təsirlər ardıcıllığında hərənin öz «vestern» təsəvvürü formalaşır. «Vestern» janrının elementləri başqa kinomatoqraflara da yad deyil. Elə «Yeddi oğul istərəm» filmində də hadisələr «vestern» səpkisində cərəyan edir. Lakin «vestern» ilk növbədə Amerikaya, Amerika kinosuna xasdır. Burada Amerikanın qərb rayonlarında ilk məskunlaşan adamların yaşayışı öz əksini tapır.

Keçmişin indi yaddaşlarda yaşayan poetik təsvirini də buna misal göstərmək olar. Sırf özünəbənzərlik, milli təkrarsızlıq sayəsində o, başqa xalqlar üçün də cazibədar olub.

Azərbaycan incəsənətində də yaddaqalan nümunələr az deyildir. Onlarsız incəsənətin özünün yaşarlığı şübhəli olardı. Bu milli eposumuz olan «Kitabi-Dədə Qorqududur. Söz sənətimiz, muğamımız, aşıq musiqimiz, xalçalarımız və miniatür sənətimiz bu nadir incisiz ağlabatmazdır.

Eyni sözü klasiklərimiz: Füzuli poeziyamız, yaşadığımız əsrdə Sabir, musiqidə Üzeyir Hacıbəyov haqqındada demək olar. Boyakarlıqda belə simalardan sayılan Səttar Bəhlulzadənin adını çəkməmək olmur. Bu sıranı uzatdıqca uzatmaq olar. Bütün bu bədii varlıqlar (muğamlar, xalçalar) gözəgörünməz qan damarlanyla sanki Azərbaycan xalqının tarixini, mənəviyyatını Özündə cəmləşdirib. Milli sənətimizi yaşadacaq sonrakı nəsil bu incilərdən bəhrələnəcək, onlardan ilham alacaq. Beləliklə Azərbaycan incəsənətinin milli özünəməxsusluğu bu gün də yaşayır, sabah da yaşayacaq.

Ancaq milli incəsənət öz qınında qala, aaş hasarlarla çəpərlənə bilməz. Bir vaxt qədim çinlilər yad xalqlarla təmasa girməməkdən ötrü ölkə sərhəddi boyunca keçilməz sədd çəkdilər. Həqiqətən o vaxlar çinlilər öz qonşularına nisbətən çox inkişaf etmiş, qabağa getmişdilər. Çin səddi isə zaman ötdükcə

bu xalqın mənəvi inkişafına öz mənfi təsirini göstərdi. Böyük Çin Səddi adı ilə tarixə düşən bu səddi indi bir sənət incisi kimi, gələn qonaqlara göstərirlər. «Çin səddi»ifadəsi isə qapalılıq, nadanlıq, çəpərləmə məcazları kimi öz əksini tapıb. Bütün xalqların incəsənəti bir-birinə fəal təsir göstərir. Hətta folklor süjetlərində belə başqa xalqlarla oxşar cizgilər az deyildir. Əgər milli incəsənət dünya təcrübəsindən bəhrələnməsə, inkişaf ləngiyər və tədricən tənəzzülə uğrayar.

Müxtəlif milli incəsənət növlərinin qarşılıqlı əlaqəsi bizim əsrimizdə, güclü informasiya sistemlərinin mövcud olduğu bir şəraitdə daha da yüyrəkləşmişdir. Bu gün hətta «Çin Səddidə bu əlaqələrin qarşısında duruş gətirməkdə acizdir. Milli sənət bu gün nə mürgüləyə, nə də ətalətdə yaşaya bilməz. O, başqalarının təcrübəsini öyrənməli və başqalarına da özünün nəyə qadir olduğunu nümayiş etdirməyi bacarmalıdır. Dünya təcrübəsində incəsənətə təsir edən amillərdən (videofilmlər, kompüter qrafikası, müasir musiqi) bəhrələnməklə bu dinamik inkişafda və intensiv qarşılıqlı təsir şəraitində milli incəsənət öz bənzərsizliyini və özünəməxsusluğunu qoruyub saxlamağı bacarmalıdır. Yalnız belə olduqda incəsənətdə milli ənənələr daha dərin və etibarlı olar.

## XÜSUSİ İCMAL
## İNCƏSƏNƏTİN NÖVLƏRİ

Biz artıq öyrəndik ki, incəsənət gerçəkliyin özünəbənzər əks olunmasıdır, insanın ətraf varlığı və özünü daha dərin dərk etməsi vasitəsidir. İncəsənət vasitəsilə insan mühitə daha yaxşı uyğunlaşır, öz məqsədinə nail olmaq üçün o, təbii materiallardan: torpaqdan, daşdan, ağacdan, tarım çəkilmiş göndən, qamışdan, boyalardan geniş istifadə edir. Bu sıraya insanın səsini, sözünü, üz cizgilərini, bədən üzvlərini və onların hərəkətlərini, bədənin qeyri imkanlarını da əlavə etmək olar. İnsanın təkamülü prosesində beləcə incəsənətin müxtəlif növləri

meydana gəlir. Qayaüstü rəsmlərdən, şər qüvvələrə qarşı inanc kimi qorunan heykəllərdən bədii sənət meydana gəlmişdir. Səslərin təqlid olunması, təbii səsləri təkrarlamaq cəhdi, ibtidai qavallar musiqinin yaranmasına xidmət edib. Dünyanın, canlıların, bitkilərin və insanın yaranması haqqındakı miflərdən, keçmiş haqqındakı nağıl və hekayələrdən ədəbiyyat formalaşıb. İnsanın təkcə sözlərlə yox, intonasiya, mimika, jestlərlə ünsiyyəti, müxtəlif heyvanların hərəkətlərini yamsılaması teatrın özülünü qoyub. Deyəcəklərini sözsüz, öz bədən hərəkətlərilə qaval sədası altında çatdırmaq cəhdindən rəqs, bir qədər sonra isə pantomima və balet meydana gəlib. İncəsənət növlərinin yaranması son nəticədə insan hisslərinin inkişafına gətirib çıxarıb, onun ətraf varlığa bələdliyini asanlaşdırıb.

İstehsalın inkişafı ilə incəsənət daha mürəkkəb materialların və texnikanın təsirinə məruz qalıb. İnsan metal və şüşə istehsal edib, parça toxuyub, kağız əldə edib, əmək alətlərini kamilləşdirib və bunları incəsənətə tətbiq edib. Tarım çəkilmiş sim neçə-neçə simli alətin meydana gəlməsinə səbəb olub. Təkcə tarın, skripkanın, violonçelin, kamançanın, sazın, gitara və kontrabasın adını çəkmək kifayətdir. İnsan çap texnikasına yiyələndikcə kitablar meydana gəlir. Ağac üzərində oyma texnikası inkişaf edir. XIX əsrin axırlarında foto texnikası kəşf olunur, kinomatoqraf və televiziyanın inkişaf yolu başlanır. Bilgisayarların (kompüterlərin) meydana gəlməsilə bilgisayar musiqisi və bədii sənətdə bilgisayar qrafikası yaranır. Bir sözlə, istehsal prosesində əldə olunan bütün nailiyyətlər hökmən incəsənətdə öz əksini tapıb. İncəsənət əsərlərinin əksəriyyəti praktik tətbiq oluna bilmir, həyatda və məişətdə birbaşa təyinatı yoxdur. Lakin incəsənətin elə növləri də var ki, onların praktik təyinatı mövcuddur. Memarlığı götürək. Hər hansı bir tikilini layihələşdirən memar onun məqsədyönlü və rahat olması ilə yanaşı, gözəl olması haqqında da düşünür. Bu mənada memarhq istehsalın və texnikanın inkişafından asılıdır. İncəsənətin müxtəlif növlərinin mövcudluğu onu daha elastik və rəngarəng

edir. İlk növbədə bizim hisslərimiz, daha doğrusu ən ali insani «hisslərimiz»–görmə və eşitmə inkişaf edir. İkinci tərəfdən, bizim duymaq vərdişlərimiz, müxtəlif formalarda təsəvvür etmək qabiliyyətimiz, fantaziyamız güclənir. Üçüncüsü, müxtəlif incəsənət növləri əks etdirməyə (rəngkarlıq, heykəltəraşlıq), bu və ya digər hadisənin necə baş verdiyini izləməyə (ədəbiyyat, teatr, kino), onu olduğu kimi canlandırmağa (kino, televiziya), hissləri və duyğulan sözlər və hisslərlə (poeziya, musiqi) ifadə etməyə qadirdir. Dördüncüsü, incəsənətin inkişafı bizə hər şeyin, hətta adicə plastilinin və rəngli karandaşın da incəsənət materialı olduğunu öyrədir.

İncəsənətin növləri müxtəlif və müstəqil olsa da, bir-birindən ayrılmır. Onlar bir-birilə qırılmaz vəhdətdə, qarşılıqlı zənginləşmədədir. Musiqidə sözlərin köməyilə mahnılar, operalar yaranır. Teatr öz fəaliyyətində rəssamlıqdan istifadə edərək dekorasiyalar qurur. Memarlıq nümunələrinin zənginləşməsi üçün heykəltəraşlıq əsərlərindən istifadə olunur. Misal üçün Bakıdakı Nizami adma Azərbaycan Ədəbiyyatı Muzeyi, M.F.Axundov adma Milli Kitabxana və başqaları bu qəbildəndir.

Müxtəlif incəsənət növlərinin qovuşuğundan yeni, sintetik lıövlər meydana gəlir. Kinoda ədəbiyyat, musiqi, teatr və rəngkarlıq sənəti beləcə qırılmaz vəhdətdədir. Lakin incəsənət növləri nə qədər yaxınlaşsa da, heç vaxt bir-birilə qarışmır. Axı insana görmə, eşitmə, hiss-duyğu gərəkdir. Bu onu yalnız zənginləşdirir. İncəsənət də belədir – insanın gözəlliyini tamamlayır.

Onların bir neçəsi haqda danışaq.

**Ədəbiyyat.** Bəşər mədəniyyəti inkişaf tarixi boyunca özünü sözlə ifadə etmişdir. Sözlə biz məhəbbətimizi və qəlbimizi, sevincimizi və kədərimizi, fərəhimizi və qüssəmizi çatdırırıq. Söz vasitəsilə dostla ünsiyyətdə oluruq, parlamentdə müzakirələr edirik, elmi diskussiyalar, məhkəmə araşdırmaları aparırıq. Sözlə ilahi qüdrətli dini kitablar yazılıb. Sözlə ana

uşağına həyatı, ətraf varlığı dərk etməyi öyrədir.

Ədəbiyyatın və ya söz sənətinin yaranmasının əsas səbəbi odur ki, insan öz həyatı, öz dövrü haqqındakı məlumatı əks etdirmək, yaşatmaq və gələcək nəslə çatdırmaq istəyilə yaşayıb. Əgər insan informasiyanı bir nəsildən-başqa nəslə ötürə bilməsəydi, özü də yaşaya bilməzdi. Bundan əlavə o öz hiss və duyğularını əks etdirməyə və bütün bunların başqalarına da bəlli olmasına bir zərurət duyurdu. Söz və nitq öncə şifahi yolla ötürülür. Ona, görə də insan asan qavranılan və rahat yadda qalan janrlar fikirləşib. Bu gün bizi təəccübləndirən qədim dastançıların: yunanlarda–ransodların, qırğızlarda– manasların, Azərbaycan (oğuz) ozanlarının, aşıqlarının nə qədər söz yadda saxlaya bilməsidir.

Peşəkar yaddaşdan savayı, dastançıların, köməyinə ritm, rifm, ənənəvi poetik, fəndlər; tədqiqatçıların dili ilə desək «poetik düsturlar" gəlir.

Şifahi xalq, yaradıcılığında müxtəlif folklor janrları yaranıb və formalaşıb. Azərbaycan folklorunun bu günümüzə gəlib çıxan dastan və bayatıları, meyxana və qoşmaları, tapmaca və lətifələri, atalar sözləri vardır.

Yazını kəşf etdiyi gündən xalq öz ədəbiyyat nümunələrini, yazıçılar isə əsərlərini yazmağa başlayıb. Əvvəlcə saxsı lövhələrdə, papirusda, sonra da kağız üzərində. Uzun illər yalnız əlyazma şəklində yaşayıb, xəttatların əlilə üzləri köçürülüb, ən qiymətli hədiyyə kimi qorunub. Sonralar çap maşını icad olunub. Beləliklə, ədəbiyyat kitablarında yaşamağa başlayıb. Bu gün dünyada sayagəlməz miqdarda kitab nəşr olunur, ömründə bir dəfə də olsa əlinə kitab götürməyən adam təsəvvür etmək çətindir. Dövlətlərin paytaxtlarında kitablar üçün sanballı milli kitabxanalar tikilir, misilsiz milli sərvət olan kitablar qorunub saxlanılır. Milli kitabxana, kitabların qorunması səviyyəsi birbaşa xalqın mədəni səviyyəsinə dəlalət edir.

Ədəbiyyatın əhəmiyyəti ilk növbədə onunla izah olunur ki, ən incə qəlb döyüntülərindən tutmuş bəşəri müharibələrin qanlı

döyüş səhifələrinədək nə varsa, hər seyi əks etdirə bilir. Fransız yazıçısı O. Balzak əsərlərində XIX əsr Fransa kerçəkliyini, cəmiyyətin bütün təbəqələrini – zadəganları, kəndliləri təsvir edir. Onun əsərlərini oxumaqla Fransanı istəyincə öyrənmək olar. Amerika yazıçısı F.Kuper öz əsərlərində avropalı müstəmləkəçilərin Amerikanı necə zəbt etdiyininin əyani mənzərəsini yaratmış, yerli əhalinin keçirdiyi hissləri ustalıqla qələmə almışdır. Hind xalqının böyük oğlu Kabindrant Taqor bizə yalnız XX əsr Hindistanını deyil, hind ənənələrini, bütövlükdə hind mədəniyyətinin xarakterini açıb göstərir. Azərbaycan şairi M.Ə.Sabir Azərbaycan cəmiyyətinin XX əsrin əvvəlindəki simasını, onun normal inkişafına təsir göstərən amilləri, xalqın keçirdiyi iztirabları, narahatçılığı duymaqda bizə, kömək edir.

Ədəbiyyatın iki böyük qolu var: nəsr və poeziya. Odur ki, yazıçılarımızın bir qrupunu şair, bir qrupunu isə nasir adlandırırıq. Poeziya sanki özgəsinə ünvanlanan hisslərdir. Onu dosta, tanışa, sevgiliyə oxumaq zərurəti duyulur. Şairlər öz şerlərini daha böyük zallarda, çoxsaylı auditoriya qarşısında oxumaqdan həzz alırlar. Şeri hətta özlüyündə ucadan oxumaq, sözlərin səsləşməsinə, poetik nitqin musiqisinə qulaq asmaq istəyirsən. Nəsr əsərləri–roman, povest, hekayə başqa cür oxunanda ürəyəyatımlı olur. Nəsr əsərini oxuyan hər kəs bütün qayğılarını bir yana qoyub, diqqətini cəmləyir, dərin düşünür. Oxu məşğuliyyəti, detektivlərdə olduğu kimi, oxucudan ciddi və diqqətli olmağı tələb edir.

**Təsviri incəsənət.** İncəsənətin bu növü üçün təsvir ilkin şərtdir. Təsvirin boyalarla, rəngli karandaşlarla, rəsm və yaxud heykəltəraşlıq əsərlərində verilməsinin heç bir fərqi yoxdur. Rəsmlər, heykəllər sanki adamların özüdür. Bir-birinə bənzəməyən adamlar kimi, onlar da müxtəlifdir. Məhz bu səbəbdən hər bir sənət əsərinin insan qədər bənzərsizliyi və yeganəliyi var. Həqiqi təsviri sənət əsərinin orijinal adlandırılması bu bənzərsizlikdən doğur. Surət və

reproduksiyalar əsərin istər başqa sənətkar, istərsə də xüsusi mətbəə maşınlarında çoxaldılmasinın məhsuludur.

Rəssam ətrafda gözə dəyən nə varsa, ən müxtəlif vasitələrlə təsvir etməyə qadirdir. Odur ki, təsviri incəsənətdə təbiəti, insan və heyvanları hansı texniki vasitələrlə əks etdirməsindən asılı olaraq rəssamların hərəsinin öz adı var. Fırça və boyalarla rəngkarlar, karandaşla-qrafika rəssamları işləyir.

Rəssam şəkilləri ağac üzərində, karton və mis lövhədə, kətan parça üzərində işləyir. Maraqlı odur ki, rəssamlar yalnız üç rəngin–qırmızı, sarı və göy rənglərin olduğunu iddia edirlər. Bunlar əsas rənglərdir. Yerdə qalanları isə qarışıq sayılır. Çünki əvvəlkilərin qarışığından alınır. Qara rəng bütün rənglərin qarışığı deməkdir. Rəssamlar əksər halda onu rəngin «ölməsi» adlandırırlar. Hər bir rəngin özünün də müxtəlif çalarları var. Rəssamın istedadı onun gözünün daha çox rəng çalarları ölçə bilməsi ilə qiymətləndirilir.

Qrafikaçı rəssamlar şəkil çəkirlər. Onlar bərk materiallarla, quru qrafitlə, rəngli karandaşlarla, tabaşirlə, kömür parçası ilə işləyirlər. Rəngkarlıq əsərlərini boyalarla, qrafikaçılar isə cizgilərlə yaradırlar. Elə qrafika sözünün özü də fransızca «xətt» deməkdir. Heykəltəraş, rəngkarlardan və qrafikaçı rəssamlardan fərqli olaraq lövhə üzərində deyil, məkan daxilində işləyir. Onun əsərləri qranit, mərmər, metal və ağacdan yaranır. Bu təbii materialların keyfiyyəti, cilalanması əsərin uğurlu alınmasında olduqca əhəmiyyətlidir. Heykəltəraş üçün gözlə baxmaq hələ azdır. O, əl vurmaqla materialı duymalıdır. Heykəltəraş öz əsərlərini yonur, ovur, yapır və cilalayır."

**Kino sənəti.** Bizim üçün adi səslənən kino sözü əslində kino sənəti və kinematoqraf anlayışlarının qısaldılmış adıdır. Yunanca « kinema» hərəkət, «qrafo» isə əks etdirmək mənasını bildirir.

Kinonu, sonralar isə televiziya və videonu incəsənətin növləri, yaxud bəşər mədəniyyətinin yeni istiqaməti adlandırmaq olar. 1895-ci ildə Parisdə göstərdikləri ilk seansı

«sinematoqraf» adlandıran Lyumyer qardaşları heç ağıllarına da gətirməzdilər ki, onların kəşfi bəşər mədəniyyətində yeni mərhələnin başlanğıcı olacaqdır. İndi kino istehsalının bütöv bir sistemi yaranıb: buraya adi və kabel televiziyası, vidiokasset və vidiodisklərin hazırlanması, Hollivud tipli kino sənayesi şəhərləri daxildir. Bu günün kino istehsalı iki sahəni: yaradıcı və istehsal sahələrini qovuşdurur.

Belə ki, hər bir kino əsəri çəkiliş qrupunun: ssenari müəllifinin, rejissorun, operatorun, rəssamın, bəstəkarın və aktyorların gərgin və birgə əməyinin nəticəsidir.

Bütün filmlər dörd yerə bölünür: əyləncəli (əvvəllər bədii film deyilərdi; sonradan kino sənətinin bütövlükdə bədii adlandırılması daha düzgündür), sənədli, elmi-kütləvi və cizgi filmləri.

Kino sənətini sintetik sənət növü adlandırırlar. Belə ki, kinoda ədəbiyyat, musiqi, boyakarlıq canlı bir vəhdət təşkil edir. Təsəvvür edin ki, kino bir neçə min il öncə yaransaydı biz qədim yunanların və misirlilərin yaşayış tərzini olduğu kimi görə bilərdik.

Kino sənətinin əsasını kadr, plan və montaj təşkil edir. Adətən, kadr deyəndə bircə kadr yox, operatorun kinokamera ilə ardıcıl lentə köçürdükləri nəzərdə tutulur. Belə çıxır ki, kinokadr çoxsaylı xırda kadrların toplusudur. Hər hansı məzmunu ifadə etmək üçün operator müxtəlif planlar seçir. Plan kadrın təsvir ölçüsüdür. Ümumi planda adam öz boyunda, orta planda qurşağından yuxarı, böyük planda isə yalnız insanın başı kadrda olur. Çəkilişdən sonra çəkilmiş materialların montajı və yazılması prosesi başlanır. Montaj vaxtı müxtəlif epizodlar bir-birilə uzlaşdırılır, orta, ümumi və böyük planlar məzmunun anlaşıqlı və dolğun olmasını əks etdirir. Elə hallar olur ki, yalnız böyük planda personajların hadisələrə münasibəti daha aydın əks olunur.

Kinoya baxmaq mədəniyyətini öyrənmək olduqca zəruridir. Rejissor bəzən rənglərin dəyişgənliyilə qəhrəmanın keçirdiyi

hissləri daha dolğun çatdırmağa cəhd etsə də, biz bunu nəzərdən qaçırırıq. Kinoda qəhrəmanların səsini eşitmək bələ azdır. Kadrda baş verənləri diqqətlə izləmək və dəyərləndirmək tamaşaçıdan diqqətli olmağı, çalarları nəzərdən qaçırmamağı tələb edir. Elə filmlər var ki, yalnız ikinci, üçüncü baxışdan yadda qalır. Belə sənət nümunələri kino sənəti tarixində öz layiqli yerini tutur. Bir çox filmlər isə asan baxılır və baxışdan bir-iki gün sonra unudulur.

**Memarlıq. Dekorativ-tətbiqi sənət. Dizayn.** Söhbət bizim yaşadığımız mühiti yaradan incəsənət növlərindən gedir. Memar bu gün təkcə binaların layihəsini vermir. Küçələrin, xiyabanların, rayon mərkəzlərinin layihələşdirilməsinin ağırlığı da memarların üzərinə düşür.

Bizim hər günümüz memarın yaratdığı mühitdə keçir. Onun rahatlığı bizdə ovqat xoşluğu yaradır. Dekorativ tətbiqi sənət sahəsində çalışanların üzərinə ev əşyalarımızın, mebelin gözoxşar olması kimi **çətin iş düşür.** Həm memarın, həm də dekorativ tətbiqi sənətlə məşğul olan rəssamın işində iki mühüm şərt gözlənilir. Yaşadığımız binalar, təmasda olduğumuz nəsillər, əmək alətləri rahat və gözoxşar olmaqla bərabər, təyinatına tam uyğun gəlməlidir. Bütün bu tələblərin başında estetik gözəllik və kamillik durmalıdır. Əşyanın əhəmiyyəti, gərəkliliyi onun gözəlliyi ilə ayaqlaşmalıdır. Yalnız belə olduqda insan mövcud olduğu məkan daxilində rahat və qayğısız yaşaya bilər.

Yaşadığımız dövrdə meydana gələn sənət növlərindən biri də dizayndır. Onun başlıca vəzifəsi müxtəlif təyinatlı avadanlığın və lap elə adi məişət alətinin rahat və gözəl olmasıdır. Küçələrin bəzədilməsi, reklamlar, işıq effektləri, meydanların tərtibatı dizayn zövqündən asılıdır. Eyni zamanda o, iş otaqlarının, ictimai binaların interyerinin məkan baxımından genişliyinə də diqqət yetirir. Teatr binaları, kinoteatrlar, uşaq evləri, inzibati binalar, xəstəxanalar müxtəlif çeşidli və tanınan olmalıdır. Etiraf etməliyik ki, bu gün

şəhərimiz heç də lazımi tələblər səviyyəsində layihələşdirilməyib. Küçə və meydanlarımız, həyətlərimiz o qədər də ürəkaçan deyil. İnsan yaşadığı mənzilin, binanın və şəhərin gözəlliyi haqda düşünmürsə, özünü yaşadığı cəmiyyətdən kənarlaşdırır, öz-özünə etinasızlıq göstərir. Beləliklə, biz hər cür eybəcərliyə, küçənin natəmizliyinə, həyətin yöndəmsizliyinə vərdiş edirik. Gözəlliyə biganə münasibət cəmiyyətin uğursuzluğuna işarə edən həyəcan siqnalıdır. Əslində isə başqasının, bütövlükdə cəmiyyətin rahatlığı üçün hər kəs özünü borclu bilməlidir.

## İNTİBAH DÖVRÜNÜN TƏSVİRİ SƏNƏTİ. LEONARDO DA VİNÇİ

İntibah (bu dövrü «Renessans»da adlandırırlar) dövrü dünya tarixinin ən mühüm, ən həlledici dövrlərindən biridir. Bu tarixi dövr müsəlman Şərqindən başlayır və sonradan Avropaya keçir. Müsəlman Şərqində intibah XI-XVI yüzillikləri əhatə edirsə, Avropada İntibahın ən yüksək pilləsi XV-XVI yüzilliklərə düşür.

İntibah dövrü dedikdə biz ilk növbədə qədim yunun mədəniyyətinin, elminin və incəsənətinin dirçəlməsi və insanın imkanlarının genişlənməsini nəzərdə tuturuq. İnsan elə bir ictimai qurum yaratmağa çalışır ki, hər şey insanın özündən, onun iradəsindən, təşəbbüskarlığından, inamından asılı olsun. İnsan bir neçə yüzilliyin adət-ənənələrini lağıdır, sosial təbəqələrin çərçivələrini laxladır, keçmiş hökmləri şübhə altına alır. Bu dövr çətin dövr idi, mübarizə ruhlu dövr idi. Mübarizə isə zəifləri sevmir, acizləri kənara atır, düşgünlüyə bəraət qazandırmır. Zəmanə ötkəm, mübariz insan tələb etdi və belə insanları yaratdı.

Bu dövrü və onun insanlarını başa üçün ən yaxşı vasitə incəsənətdir və ilk incəsənətin təsviri növləridir.

Muzeylərdə, sərgilərdə, yaxud nəfis buraxılmış şəkildə

albomlarda İntibah dövrünün təsvirinə baxanda ilk növbədə insan sifətləri yadda qalır. Bu insan sifətlərinin fərdiyyətləri dərhal gözə çarpır. Amma hamısını birləşdirən bir cəhət var– mübarizlik ruhu, qələbə əzmi.

İntibah dövrünün ən məşhur rəssamları Leonardo da Vinçi, Mikelancelo və Rafaeldir. Bu üç dahi rəssam bir dövrdə yaşayıblar, bəzən aralarında açıq-aşkar rəqabət olub, bir-birinin sənətinə qısqanıblar. Bununla belə vaxt keçdikcə məlum olub ki, məhz bu üç nəhəng İntibah dövrü təsviri sənətinin dühalarıdır.

İntibah dövründə insanlar öz məharətini çox vaxt bir neçə peşə sahəsində nümayiş etdirirdilər. Universal insan anlamı ilk növbədə bu dövrə aiddir. Amma bu universalların arasında ən çox seçilən şəxsiyyət varsa bu Leonardo da Vinçidir. Leonardo öz zəmanəsinin bütün peşələrinə yiyələnmiş, bütün biliklərini mənimsəmişdi desək, yanılmarıq. Leonardo rəssam, heykəltəraş, memar, yazıçı, musiqiçi, incəsənət bilicisi, hərbi mühəndis, riyaziyyatçı, botanik və s. olub. Bununla belə Leonardo öz dövrünü qabaqlayıb, çoxlu ixtiralar etmişdi. Onun şəkilləri və çertyojları göstərir ki, Leonardo uçan aparatın texniki həllini tapmışdır. Leonardonun əfsanəvi şöhrəti illər keçdikcə daha da artır.

Leonardonun universallığına baxmayaraq, mədəniyyət tarixində ilk növbədə dahi rəssam kimi məşhurdur. Məlumdur ki, Leonardo bəzi əsərləri üzərində illər boyu çalışırdı. Sifarişçilər təngə gəlirdilər, narazılıqlarını bildirirdilər, amma Leonardo kamilliyə nail olmaq üçün işini davam etdirir.

Leonardonun əh məşhur əsəri «Mono Liza” (Cakonda) idi. Çox güman ki, dünya təsviri sənətində “Mona Liza» qədər sehrli rəsm əsəri yoxdur. Onun haqqında çoxlu əsər yazılıb, sənətşünaslar onun müxtəlif yozumunu veriblər. Bu əsər haqqında xeyli əfsanələr yaranıb, bəzən onda sehrli, ilahi qüvvə görüblər. Amma əslində burada nə möcüzə, nə sehr axtarmaq lazım deyil. Sirrin açarını Leonardonun dahiliyində, onun qeyri-adi işgüzarlığında axtarmaq lazımdır.

Doğrudan da, «Mona Liza” sehrli rəsm əsəridir. Bəsit insan burada adi bir qadın şəkli görəcək, özü də o qədər gözəl olmayan qadın sifəti. Həssas tamaşaçı isə Mona Lizanın sifətindəki sonsuzluğu duyacaq, hiss eləyəcək ki, bu rəsm onun ovqatına cavab verir, kədərini, hissiyyatını duyur.

Leonardonun «Mona Liza” rəsmini təkrar eləmək cəhdləri saysız-hesabsız olub. İndinin özündə Luvrda (bu əsər Fransanın Luvr muzeyində saxlanılır) hər gün bir neçə rəssam Mona Lizanın surətini təqlid edir. Amma surətlər, hətta çox gözəl rəssamlar tərəfindən çəkilən surətlər Mona Liza ilə müqayisədə cansız, bəsit görünür. Mona Lizanın sehrli təbəssümü bu surətlərdə adiləşir, solur. Mona Liza isə canlılara bənzər təkrarsız qalır. Görünür, əsl incəsənətin insan həyatında yeri və mövqeyi məhz bu təkrarsızlıqdadır.

## TƏBRİZ MİNİATÜR MƏKTƏBİ.
## SULTAN MƏHƏMMƏD

Azərbaycan incəsənətinin bir neçə təməl daşı var ki, onsuz incəsənətimiz öz mənliyini itirər, başqa xalqların incəsənətində əriyib gedər. Bunlardan ən vacibləri “Dədə Qorqud dastanları, xalçaçılıq sənəti, muğam, qədim memarlıq abidələri və başqalarıdır. Bu sırada ən mühüm yeri miniatür sənəti tutur..

Çapetmə cihazı ixtira edilməyincə kitablar əlyazmalar şəklində yayılırdı. Xəttatlar qəşəng xətlə mətnləri köçürür, rəssamlar bu mətnlərə təsvirlər (illüstrasiyalar) çəkirdilər. İnsan əliylə yaradılan bu kitablar sənət nümunəsi səviyyəsində qiymətləndirilirdi.

Şərqdə, o cümlədən Azərbaycanda, kitab sənəti başqa sənətlərin mənbəyi sayılırdı. Xəttatların, rəssamların nüfuzu çox yüksək idi. Azərbaycan miniatür məktəbinin ən parlaq səhifəsini Təbriz miniatür məktəbi və onun banisi Sultan Məhəmməd təşkil edir.

XVI yüzillikdə Təbrizdə poeziya və musiqi, memarlıq və xalçaçılıq yüksək səviyyədə inkişaf etmişdi. Şahlar sənətə böyük qiymət verir, hətta özləri də sənətlə məşğul olurdular. Şah İsmayıl Xətayi türk dilində gözəl şerlər yazırdı, onun oğlu Şah Təhmasib miniatür sənətini ustad Sultan Məhəmməddən öyrənirdi. Ümumiyyətlə, Şah Təhmasibin dövründə saray kitabxanası nəzdində bədii emalatxanalar açılmışdı, ən yaxşı xəttatlar, miniatür rəssamları, cildçi ustalar burada fəaliyyət göstərirdilər. Hafizin «Divan», Firdovsinin "Şahnamə", Nizaminin «Xəmsə» kitabları burada yaranmışdır. Bu nadir kitablar indi də dünyanın ən məşhur kitabxana və muzeylərində saxlanılaraq ən qiymətli eksponatlar sayılır. Məhz bu şəraitdə Təbriz miniatür məktəbi inkişaf edərək, öz zirvəsinə çatdı.

Miniatür sənətini indiki dövrdə bədii əsərlərə çəkilmiş illüstrasiyalarla eyniləşdirmək olmaz. Miniatürlər bədii əsərlərdən törəsələr də, əslində müstəqil sənət əsərləri idi.

Miniatür sənətini, kanonik (ənənəvi) adlandırmaq olar. Yəni bu sənət müəyyən qayda-qanun çərçivəsində inkişaf edirdi. Ümumiyyətlə, bu prinsip həm Yaxın, həm Uzaq Şərqin sənətinə, o cümlədən ədəbiyyata, teatra, musiqiyə aid idi. Belə vəziyyət sənətkarı sıxmırdı, əl-qolunu bağlamırdı. Əksinə, varislikdən imtina etmədən o, yeni söz deməyi bacarmalı idi. Deyək ki, şairlər «Leyli və Məcnun", yaxud «Xosrov və Şirin" mövzusunda öz varislərinin əsərlərini öyrənərək, yeni təşbihlər tapmalı idilər, yeni çalarlar aşkarlamalı idilər. Miniatür sənətində varislik güclü idi, hər bir böyük sənətkar bu ənənəni zənginləşdirirdi.

Ustad Sultan Məhəmmədin əsərlərinə baxarkən dərhal miniatür sənətinin ümumi görünüşü nəzərə çarpır. Amma bu rəsmlərə ötəri yox, tələsmədən, diqqətlə, hər bir detala fikir verərək baxsaq, görərik ki, rənglərin harmoniyasında insan, ağac, at və başqa təsvirlərdə Sultan Məhəmmədin müstəsna dəst-xətti var. Deməli, adi həyatda olduğu kimi, sənətdə də çərçivələr müstəqil insanı boğmur, sıxmır, öz imkanlarını nümayiş

etdirməyə şərait yaradır.

Hər bir bədii sənəti başa düşmək, onu duymaq üçün, onun «dilinə» bələd olmaq lazımdır. Əks halda sənətlə lazımi ünsiyyət yaranmır, bədii əsər qapalı qalır, öz sirlərini açmır. Miniatür sənəti ilk baxışda sadə görünür. Rənglər əlvandır, elə bil hər surətin öz rəngi var. Rəsmlərin müstəvidə yerləşməsində (kompozisiyasında) də qəribəlik var. Bütün müstəvi doldurulub—adamlar, atlılar rəsmin aşağı layından yuxarı qalxır və ondan aşağı enir. Doldurulmuş müstəvi naxışa bənzəyir, özü də xalça naxışlarına. Ümumiyyətlə, bu rəsmlər, bu rənglər və bu naxışlar uşaq rəsminə bənzəyir, səmimidir, hətta sadəlövhdür.

Amma məsələ ondadır ki, «uşaq sadəlövhlüyü arxasında düşüncə durur, dəqiqilik durur, riyazi hesablamalara bənzər hesablamalar durur. Bunları nəzərə alaraq məşhur rus rəssamı V.Kandinski deyirdi ki, miniatür sənətində sadəlik az qala primitivlik səviyyəsindədir, amma bununla belə bu sənətin mürəkkəbliyi də insanı çaşdırır, təəccübləndirir, baş gicəldir. Məlum olur ki, bu sadəliyə, səmimiliyə nail olmaq üçün neçə nəsil rəssamlar çalışmalı olmuş və bunların tapıntılarını saxlamaq və sonrakı nəşillərə çatdırmaq üçün xüsusi bədii dil yaratmaq zəruri olmuşdur. Bu keyfiyyəti miniatür sənətinin möcüzəsi adlandırmaq olar.

Təbriz miniatür məktəbi və onun banisi ustad Sultan Məhəmmədin rəsmləri Azərbaycan incəsənətinin ən yüksək zirvələrindən biridir.

## ƏXLAQ VƏ ONUN CƏMİYYƏTDƏ ROLU

Əgər sən başqalarının çəkdiyi əzablara laqeydsənsə,
Sən insan adını daşımağa layiq deyilsən.

*Sədi*

Zəif olanı ayağa qaldırmaq hələ azdır: ona sonra dayaq da olmaq lazımdır.

*Şekspir Vilyam, ingilis dramaturqu*

Bizim ümumi əxlaq qaydalarına hörmətimiz elə məhz əsl məsuliyyət duymaq deməkdir.

*Smit Adam, ingilis iqtisadçısı*

Utancaqlıq hamıya yaraşır, onu dəf etməyi bacarmaq lazımdır. Lakin heç bir zaman onu itirmək olmaz.

*Monteskye Şarl, fransız sosioloqu*

Özünə rəva bilmədiyin bir şeyi, başqasına da rəva bilmə.

*Abbasqulu ağa Bakıxanov*

## § 16. Əxlaq necə yaranmışdır?

İctimai inkişafın uzun və mürəkkəb tarixi boyunca özünü müdafiə instinkti ibtidai insanları bir çox suallara cavab axtarmağa vadar edirdi. İnsanın gəldiyi sirli dünya, kainat, bir tərəfdən onda dəhşət doğurur, digər tərəfdən isə, onu özünə cəlb edirdi. Hər şeyi bilmək arzusu, sağ qalmağa və nəslin davam edəcəyinə ümid bu cür yaranırdı.

Əgər bir anlığa real həyatdan ayrılsaq, ibtidai insanları narahat edən, həyəcanlandıran sualların təxmini dairəsini asanlıqla təsəvvür edə bilərik. Bizim bu gün adi bir hal kimi qəbul etdiyimiz hər şey ibtidai insanda çoxlu suallar doğururdu. Yağış, külək, göy gurultusu, şimşək, bitki və heyvanlar aləmi və s. bütün bunlar ibtidai insan üçün böyük bir sirr olaraq qalırdı.

Dünyanın bəzi sirlərinə insanlar birlikdə, yiyələnirdilər. Həyat özü ibtidai icmanı ümumi davranış qaydalarının zəruriliyinə gətirib çıxarırdı. Artıq təşəkkülünün ilk çağlarından insan iki mühüm məsələ ilə qarşılaşır:

1) Göylə (Allahla) öz münasibətlərini nizama salmaq (onda təbiət bu qədər etibarsız olmaz);

2) Öz vəzifəsini ciddi surətdə yerinə yetirərək, icmanın üzvləri ilə olan münasibətlərini lazımi qaydada saxlamaq.

Bu yolla ümumi qaydalar külliyyatı yaranırdı ki, onlara riayət etmək bəşəriyyətin həyat və fəaliyyətinin normal gedişini təmin edirdi. Beləliklə, əxlaq normaları insanlar arasındakı

münasibətləri tənzim edən bir vasitə kimi əmələ gəlmişdir. Diqqətimizi maraqlı bir tarixi hadisəyə cəlb edək. Müxtəlif mədəniyyətlərə aid olan əsatir, dastan və müqəddəs kitablarda əxlaqi normalara çox böyük əhəmiyyət verilirdi və bu normalara riayət etməmək və ya onlara etinasızlıq göstərmək icma həyatının özülünə qəsd kimi başa düşülürdü.

Bir neçə konkret misalı nəzərdən keçirək.

**Qədim dövrün əxlaq təsəvvürləri.** Qədim misirlilərə görə mənəvi sərvətlərin axtarışı, bu dünyadan daha çox o dünya üçün zəruridir. Qədim misirlinin şüurunda xeyir və digər müsbət keyfiyyətlər dini mərasimlə bağlıdır və onu yerinə yetirəndən. sonra insan o dünyaya buraxılır. Qədim Misirdə yaradılmış **«ölülər kitabı»nın** 125-ci fəslinə müraciət edək: «Budur, nəft sənin hüzurundayam, ədalət sahibi: mən həqiqəti gətirmişəm, mən yalanı qovmuşam. Mən insanlara qarşı ədalətsizlik etməmişəm, mən adam öldürməmişəm, mən haqq işlər əvəzinə alçaqlıq etməmişəm. Cinayət sayılan işlərdən xəbərim olmayıb. Mən şər törətməmişəm...Heç kimə dərd verməmişəm...Taxıl ölçüsünü azaltmamışam, torpaq ölçüsünü kiçiltməmişəm. Çəki daşlarını ağırlaşdırmamışam. Tərəzinin milini qəlpləşdirməmişəm. Körpələrin südünü əllərindən almamışam, mal-qaranı otlaqlardan aparmamışam, Allahın quşlarını tutmamışam, nohurlardan balıqları tutmamışam...

Kitabın bu fəslindən görünür ki, qədim insanın həyatının bütün sahələrində xeyir və şər, halal və haram anlayışları mühüm yer tutur. «Ölülər kitabı” qədim misirli üçün böyük mənəvi – əxlaqi qüdrət mənbəyi idi. Bu kitabdan görünür ki, insanların həyatında xeyirlə şərin qarşılıqlı təsirini tarazlaşdırmaq cəhdi əsas yer tutur:

«Budur, günahsız, qəbahətsiz, şərsiz, məndən pislik gördüyünü deyə biləcək şahidsiz, sizin hüzurunuzdayam. Mən insafla yaşayıram, ürəyimin saflığı ilə qidalanıram...Mən aca çörək, susamışa su, çılpağa paltar, bərəsi olmayana bərə vermişəm. Mənim sözlərim də əllərim də təmizdir...

Qədim Hind fəlsəfəsində, insanın öz «Mən»inə olan marağının aşkar gözə çarpdığı buddizm təlimində mənəvi müdriklik təmsil olunmuşdur. Buddistlər insanı öz fikrini daim öz üzərində, öz daxili aləmi üzərində cəmləşdirməyə çağırırlar. Buddistlərə görə, insanın məziyyətlərini təşkil edən aşağıdakı prinsiplərə yiyələnmək onun üçün olduqca əhəmiyyətlidir:

1. Düzgün baxışlar *(fikirilər)*–düzgün qərar, yanlış fikirlərdən azad olmaq, niyyətlərdən əl çəkmək.
2. Düzgün nitq–düzgün davranış.
3. Düzgün səylər–düzgün həyat tərzi.
4. Fikrin düzgün istiqamətlənməsi–fikrin düzgün cəmləşdirilməsi.

Buddizmin mədəni-psixoloji ənənələri Çin mütəfəkkirləri tərəfindən ustalıqla mənimsənilmişdir və bu daha çox görkəmli filosof və siyasi xadim Konfusiyə aiddir. Qədim Çin filosofu Le-Szı qeyd edirdi ki, «Yalnız ox atmaqda deyil, dövləti və özünü idarə etmək işində də, hər yerdə eyni tərzdə hərəkət etmək lazımdır. Zira aqil varlığı və heçliyi deyil, onların səbəbini dərk edir».

Konfusi (e. ə. 551-479-cu il) Qədim Çinin ən məşhur filosofu və pedaqoqu kimi şöhrət tapmışdı. Bir mütəfəkkir və pedaqoq kimi Konfusinin məqsədi insanları mənəvi kamilliyə və biliklərinin təkmilləşdirilməsinə aparan yolları tapmaqdan ibarət idi. Konfusi cəmiyyət, dövlət və insanla bağlı bir çox sosial problemlərdən bəhs edən «Lun yuy» traktatının müəllifidir. Traktatın çox hissəsi etika problemlərinə həsr edilmişdir və burada «qızıl qayda" əsas yer tutur: "özünə arzulamadığını başqalarına etmə". Bu etik prinsipə bir çox ölkələrin qədim dini kitab və etik təlimlərində rast gəlmək olur. Konfusi qarşılıqlı borc kateqoriyasını (Jen), həyatda müvəffəqiyyət qazanmaq istəyənlər üçün zəruri olan davranış qaydaları kodeksini (Li kateqoriyası) işləyib hazırlamışdır. Bundan başqa, Konfusiyə görə, Li kateqoriyası hər bir insanın bütün ömrü boyu can atmalı olduğu əxlaqi qanunlar külliyatıdır. Konfusinin bir çox fikirləri

və nəsihətləri uzun əsrlər boyu tükənməz müdriklik mənbəyi olmuş, onun ardıcıllarına siyasi və ictimai həyatda müvəffəqiyyətlər qazanmağa kömək etmişdir. Konfusiyə görə, biliklərə mexaniki surətdə yiyələnmək olmaz. Bu, şüurlu surətdə, insanın zəkasından, onun «Mən»indən keçərək baş verməlidir: «Düşünmədən savad almaq mənasızdır, savadsız düşünmək isə təhlükəlidir".

Həyatın mənasının axtarışları, ölümün və ölməzliyin mahiyyətini dərk etmək cəhdləri qədim Şumerdə yaradılmış «Bilqamıs haqda dastan»da çox parlaq şəkildə təsvir edilir. Allahlar Bilqamışə müraciət edərək deyirlər:

«Bilqamıs? Sən hara can atırsan? Gəzsən də kainatı,
Heç vaxt tapa bilməzsən, axtardığın həyatı!
Tanrılar xəlq eləyib insanları yaradanda ölümü insan üçün buyurmuşdular onlar.
Həyatı saxlamışlar özlərinin əlində.

Qədim misirlilərdən fərqli olaraq, babilistanlılar o dünya ilə bağlı irəlicədən müəyyən edilmiş göstərişlərə laqeyd yanaşırdılar. Dostu Enkidunun yasını tutan Bilqamısın ağısı öz mənəvi-estetik təsir qüvvəsi, dərin əxlaqi mənası ilə bizi heyran edir:

Dostum Enkidu üçün mən göz yaşı tökürəm,
Ağıçı arvadlar tək hay salıb hönkürürəm;
Ağır, güclü baltamı, dayağımı, arxamı,
Əyilməz xəncərimi, dözümlü qalxanımı,
Bayram bürüncəyini, cəlallı paltarımı–
Şər iblis, yağı iblis mənim əlimdən aldı!»

Təşəkkül yollarında insan əmək alətləri ilə yanaşı, lazımi və arzu edilən ünsiyyət normalarını da yaradırdı. Bu, həm şüurun, ruhun elementar «aləti», həm də gələcək mənəviyyatın özülü idi. Babilistanlıların şəxslərarası ünsiyyətindəki etibarlılıq, mənəvi dayaq motivləri dərin bəşəri məna kəsb edirdi. İnsan tədricən əxlaqi biliklərə, əxlaqi şüura və əxlaqi əməllərə yiyələnirdi.

Mənəvi aləm ünsürlərinin axtarışı daha qabarıq şəkildə

«xeyirxah fikir-xeyirxah söz-xeyirxah əməl» ardıcıllığında düzülmüş xeyir üçlüyü şəklində qədim İran-Azərbaycan kitabı «Avesta»da əks olunmuşdur.

Əcdadlarımız öz axtarışlarında bütün canlı aləmin bütövlüyü ideyasına, ümumi ilə təkcənin, tamla hissənin əlaqəsi haqda dahiyanə fərziyyəyə gəlib çıxmışlar. Bu onlara insan şüurunu qabaqcadan əhəmiyyətli dərəcədə makrokosmosun xüsusiyyətləri ilə müəyyən edilən mikrokosmos kimi başa düşməyə imkan verirdi. Varlığın zahiri və batini qəbildən olan üç ən mühüm sahəsi burada qarşılıqlı təsir və qarşılıqlı asılılıqdan ibarət olan möhkəm düyün halında birləşmişdir:

Dünya quruluşu–sosial quruluş

– fərdin həyatının nizama salınması

«Avesta»nın ən mühüm tərəfi ondan ibarətdir ki, insanda xeyir və mənəviyyat axtarışları onun daha mükəmməl gələcək qurmaqla bağlı daxili planları ilə əlaqələndirilir:

«Qoy ədalətli quruluş öz təcəssümünü
Bizim xalqımızda, nəsillərimizdə tapsın...
Ey həqiqət, mən nə zaman səni öz
Qəlbimdə və öz xalqımda görəcəyəm.

## §17. Əxlaq normaları və cəmiyyət

Əxlaqın ibtidai cəmiyyətin həyatındakı rolu ondan ibarət idi ki, insan varlığının mənəvi axtarışları sağ qalmaq, yaşamaq üçün zəruri olan şərtlərin axtarışları ilə paralel gedirdi. Çünki ətraf mühit nə qədər çox sual yaradırdısa, insan bir o qədər böyük gərginliklə sağ qalmağa aparan yolları axtarır, «rahat davranış qaydalarına" ehtiyac duyurdu.

İcmadaxili ünsiyyətin ilkin mexanizmi fərdi arzuların məhdudlaşdırılmasına və başqalarının qarşısında borcun formalaşmasına yönəlmiş vərdişlərdən, adətlərdən ibarət idi. Hərəkətlər və əməllər icmada formalaşmış və qərarlaşmış mənəvi dəyərlərdən, borc və vəzifələrdən asılı olaraq

qiymətləndirilirdi. Deməli, əxlaq ən əvvəl bir fərdin digəri qarşısında məsuliyyəti olan yerdə yaranır.

Qarşılıqlı məsuliyyət münasibətləri əxlaqi münasibətlərin mahiyyətini təşkil edir. Sonradan bir nəfərin digəri qarşısında məsuliyyəti və borcu üzərində qurulmuş ictimai tənzimetmə, əxlaqi tənzimetmə kimi müəyyənləşdirilməyə başladı. Əxlaqi vərdişlərə, adətlərə tədricən ictimai münasibətlərin tənzimedicisi olan norma və prinsiplər də əlavə edilirdi. Qədim insan üçün həmin əxlaqi tənzimedicilər odun, taxılın və daş baltanın kəşfindən az əhəmiyyət kəsb etmirdi. Mənəvi vərdiş rüşeymlərini yaratmaq onun üçün taxıl yetişdirmək qədər çətin idi.

Yüzillər keçir, nəsillər dəyişir, bir ictimai-iqtisadi formasiya digərini əvəz edirdi. Bir çox dövlətlər öz siyasi təsisat və hüquq məcəllələrini yaradırdı. Hər bir dövlət öz hüquq qanunlarını və qanunçuluğunu yaradır, bir dövlətin qanunları başqa dövlətin qanunlarından fərqlənir, lakin bütün hallarda qanunçuluq bu və ya digər ölkənin dövlət, quruluşunun spesifikliyini əks etdirirdi. Lakin bütün dövrlərdə və bütün ölkələrdə üzərində hüquq məcəllələrinin yaradıldığı ümumi bir özül vəzifəsini yerinə yetirən sosial amil mövcuddur. Mənəvi, əxlaqi amil məhz bu cürdür. Əxlaq bütün dövrlərdə elə bir aralıq qatı olubdur ki, onun vasitəçiliyi ilə dövlətin atributları, əlamətləri yaradılıb. İctimai şüur forması kimi əxlaqın mahiyyəti də bundan ibarətdir. Əxlaq bu və ya digər dərəcədə bütün ictimai şüur formalarında iştirak edir. Belə bir sual ortaya çıxır: onda bəs dini şüuru necə başa düşməli? Axı yer üzündə insan dərindən inanan, dindar məxluq kimi kök salırdı. Dini şüur zəminində əxlaqi davranış vərdişləri və əxlaqi şüur ünsürləri formalaşırdı. Allahın cəzasından qorxaraq öz arzu və əməllərini məhdudlaşdıran insan öz istək və hərəkətlərini başqa bir insana görə də məhdudlaşdırmağı öyrənirdi. Başqasının qarşısında borcluluq və məsuliyyət hissinin təşəkkülü mömin ruh üçün mövcud olan bu zərurət çərçivəsində baş verirdi.

Əxlaqi qaydalar, norma, və adətlər əslində sonradan çoxölçülü mənəvi istehsal prosesinin başladığı soy fenomeni idi. Hərtərəfli mənəvi axtarışlar spiralı öz başlanğıcında əxlaqi məna axtarışları vasitəsilə açılırdı.

Şərq aləmində də erkən orta əsrlərdə filosoflar (Farabi, İbn-Sina, Nizami, Füzuli və b.) əxlaqın cəmiyyətin həyatındakı rolunu dərindən dərk etmişlər.

XIII əsrdə Azərbaycanın hərtərəfli biliklərə malik olan alimi, mütəfəkkir və siyasi xadim Nəsirəddin Tusinin etik görüşləri üzərinaə bir qədər ətraflı dayanaq. Əxlaqın mahiyyətini araşdıraraq N.Tusi belə hesab edirdi ki, «Əxlaq ruhun lazımi şəraitdə asanlıqla, götür-qoy etmədən və düşünmədən bu və ya digər hərəkəti yaradan vərdişidir. Bəs bu «run vərdişləri»necə aşılanır? Mütəfəkkir belə hesab edir ki, həyat təcrübəsi ruhun, başqasını başa düşmək kimi alicənab əməllərə qadir olmaq dərəcəsinə çatdıran daxili hiss və daxili halını formalaşdırır. Əgər alicənablıqla rəftar etmək vərdişi nəyat təcrübəsi vasitəsilə qazanılırsa, deməli, əxlaq fitri olmur. Əxlaqi adət və normalar konkret tərbiyəçilərin (valideynlər, müəllim, yoldaşlar, yaranmış konkret mənəvi-psixoloji şərait və s.) simasında cəmiyyət tərəfindən aşılanır, tərbiyə edilir. Əxlaqın cəmiyyətin həyatındakı rolunu yüksək qiymətləndirərək, N.Tusi onu «ən nəcib sənət» hesab edir. Bu sənətin başlıca əlaməti peşəkarlıqdır, seçilmiş peşəni tez və məsuliyyətlə yerinə yetirmək bacarığıdır.

Aristotel (e. ə. 384-322) – Qədim Yunanıstanın ensiklopedik mütəfəkkiri, Platon Akademiyasının dinləyicisi, sonradan isə Makedoniyalı İsgəndərin müəllimi olmuşdur. Sonrakı nəsillər, o cümlədən bizim müasirlərimiz, Aristotelin irsindən elmin müxtəlif sahələrinə—məntiq və idrak nəzəriyyəsinə, təbiət elmlərinə, nəhayət etikaya və siyasətə aid dərin və müdrik biliklər əldə edirlər. Etik fəzilət və rəzilətlərin aşağıdakı təsnifatı Aristotelə məxsusdur.

| Fəzilət | Rəzalət | |
|---|---|---|
| | çoxluğu | azlığı |
| 1. Mərdlik | Cəsarət | Qorxaqlıq |
| 2. Mötədillik (həzz almaqda | Nəfsini saxlamama | Ehtirassızlıq soyuqluq |
| 3. Səxavət | İsrafçılıq | Xəsislik |
| 4. Comərdlik | Təkəbbür | Xırdaçılıq |
| 5. Alicənablıq | Məğrurluq | Ürəksizlik Ağciyərlik |
| 6. Adı yoxdur | Söhrətpərəstlik | Söhrətpərəstsizlik |
| 7. Həlimlik | Qəzəb | Mütilik |
| 8. Doğruculuq | Lovğalıq | İstehza |
| 9. Ünsiyyət | Təlxəklik | Kobudluq |
| 10. İltifat | Sitlik | Adı yoxdur |
| 11. Ədalət (tarazlaşdırım) | Ədalətsizlik (çox hissəsini tutmaq, | Ədalətsizlik (həddən çox az |
| 12. Ədalət (ləyaqətinə görə | – | – |
| 13. Ədalət (ümumi fəzilət kimi) | Ədalətsizlik (özünə həddən çox nemət | Ədalətsizlik (ziyanın az hissəsini özünə |

Xoşbəxtlik kateqoriyasını araşdıraraq Aristotel belə bir fikir irəli sürür ki, xoşbəxt adam heç də rəzilətləri olmayan deyil, onlardan azad olmağa çalışandır. Aristotelə görə, səadət ruhun fəaliyyətli olmasındadır. Yalnız «fəaliyyətdə olan ruh insanı kamilliyə aparıb çıxara bilər».

## §18. Əxlaqı təzadlar: xeyir-şər, ədalət-ədalətsizlik

İnsanda əxlaqi keyfiyyətlər öz təbii və ictimai əhatəsini dərk etməyin ilk nişanələri ilə yanaşı əmələ gəlir. Qarşılıqlı vəzifə, mərhəmət, borc, məhəbbət, alicənablıq–bunlar bütün dövrlərdə yazılmamış, qeyri-rəsmi qanunlar idi. İctimai münasibətlər bütün sosial-iqtisadi formasiyalarda bu qanunlar üzrə tənzim edilirdi. Əxlaq normaları məhz ona görə ümumbəşəri səciyyə daşıyır ki, onlar «rahat»dır və əsasən bir insanın digəri qarşısında, qrup, cəmiyyət qarşısında müdafiə olunmağını təmin edə bilirdi. Əxlaqi normalar geniş bəşəri fəaliyyət çərçivəsində insani keyfiyyətlər ölçüsü idi. Məhz buna görədir ki, insan fəaliyyətinin peşəkar xarakteristikaları bütün hallarda əxlaqi (insani) qiymətlərlə də tamamlanır: həssas-laqeyd, xeyirxah-zalım, alicənab-paxıl, səxavətli-xəsis. Lakin «sırf» xeyirxah və ya «sırf» zalım insanlar yoxdur. İnsanda həmişə həm bu, həm də digər keyfiyyətlər toplanmış olur, lakin bu və ya digər şəraitdə insanda «vəhşi» və ya əksinə, humanist keyfiyyət baş qaldırır. Beləliklə, insan münasibətlərinin qazandığı ilk qiymətlər əxlaqi qiymətlər idi və bu ictimai münasibətlərin təkmilləşməsi ilə, şəxslərarası əlaqələr təcrübəsinin çoxalması ilə bağlıdır.

İctimai münasibətlər müxtəlif sosial mexanizmlər vasitəsilə tənzim edilir. İqtisadi qanunlar, hüquqi, dini, dövlətə məxsus təsisatlar, həmçinin qeyri-rəsmi, yazılmamış əxlaq qanunları bu tənzimləyicilərə aiddir. Hüquqi, dini və ideoloji tənzimləyicilərdən fərqli olaraq, əxlaqi norma, adət və vərdişlər ictimai həyatın bütün sahələrində–iqtisadi, hüquqi, dini, siyasi sahələrdə və məişətdə də özünü göstərir. Əxlaq əxlaqi qiymətlər vasitəsilə «göstəriş verir", «tövsiyə edir", «proqnozlaşdırır», «əmr edir". O bizim təhsilimizdə, işimizdə, taleyimizdə iştirak edir, xeyir və şər növbələşərək bizi ömrümüz boyu müşayiət edir. Beləliklə, əxlaqın özgünlüyü onun həyatın hər yerində mövcud olmasıdır.

İqtisadi, hüquqi və siyasi həyatdakı standartlar əsrlər

boyunca yaranır, inkişaf edir və yox olub gedir, əxlaq və əxlaqi münasibətlər sahəsində isə standartlar həmişə öz «dəyərini» saxlayır–bütün dövrlərdə xeyir özündə başqasına kömək, canıyananlıq göstərmək keyfiyyəti daşıyır. Bununla bərabər, əsas əxlaqi tənzimedici kimi xeyir və şər konkret tarixi dövrün izini, özündə saxlayır. Tarixdən bəllidir ki, xalq hərəkatları, üsyanlar, inqilablar ədalətsizlik ən yüksək nöqtəyə çatanda, sosial mühafizənin olmadığı və qanunsuzluğun hökm sürdüyü zaman baş verir. Belə hallarda şərdən şər törəyir və deməli, mövcud şəri məhv etmək üçün şərin tətbiq edilməsi əxlaqi cəhətdən düzgün sayılır. Bu zaman şər cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi olur və buna görə də haqlı sayılır. Belə bir sual yaranır: şərin ümumiyyətlə yox olmasına və ya heç olmazsa artmamasına nail olmaq mümkündürmü? Bu suala cavab verməmişdən əvvəl qeyd etmək lazımdır, ki, cəmiyyət eynicinsli hər şeydə bir-birinə oxşar fərdlərdən deyil, öz genetik, intellektual təmayüllərinə və potensial imkanlarına görə fərqlənən adamlardan ibarətdir. Bundan başqa, cəmiyyətdə sosial cəhətdən faydalı və sosial cəhətdən zərərli, dağıdıcı siniflər, ayrı-ayrı təbəqələr, birliklər, qruplar (formal və qeyri-formal) vardır.

İnsan dünyaya əzəldən nə xeyirxah, nə də zalım gəlir. Lakin o, valideynlərindən, soyundan irsən aldığı müəyyən təmayüllərə, qabiliyyətlərə, imkanlara malik olur. Daxili təmayüllər, meyllər tədris prosesində, əməli fəaliyyətdə, ünsiyyətdə aşkar olur və artıq formalaşmış müxtəlif ictimai və şəxslərarası münasibətlər sistemində reallaşır. Yəni fərdi keyfiyyətlər daşıyıcısı kimi insan artıq uşaqlıq dövründən xeyir və şərlə, ədalət və haqsızlıqla rastlaşır. Əgər insanların xasiyyət, maraq, məqsəd, plan, təsəvvür, həssaslıq və qabiliyyətlərinin də onların özlərinin sayı qədər olduğunu nəzərə alsaq, onda aydın olar ki, xeyir əbədi olaraq şərlə mübarizə aparır. Hər bir insanın həyatında Xeyir və Şər daim mübarizə apararaq yanaşı yaşayır, bəzən isə faciəli surətdə kəsişirlər. Fikir verin ki, məhəbbət, səadət, bədbəxtlik,

alicənablıq və məkrin quruluşunu dahiyanə surətdə dərk etmiş mütəfəkkirlər–Nizami, Dante, Füzuli, Şekspir, öz şəxsi həyat və talelərindən heç də tam razı deyildilər.

Sizin hər biriniz müəyyən sinfi münasibətlərin bərqərar olduğu, müəyyən adət və ənənələrin gözlənildiyi konkret bir cəmiyyətə daxil olursunuz. Deyirlər ki, valideynlər və Vətən seçilmir, onları insana tale bəxş edir. Əgər bu belədirsə, deməli biz öz sosial mənşəyimizi seçmirik, yəni hər birimiz onun «yükünü»də özümüzdə daşıyırıq.

## § 19. Əxlaqda bəşərilik, sinfilik və millilik

Həyat yolunun, düşüncə və həyat tərzinin seçilməsi, bir tərəfdən, genetic irsi xüsusiyyətlərlə, digər tərəfdən isə, mənəvi-psixoloji mühitlə müəyyənləşdirilir.

Əxlaqın sinfiliyi haqqında danışdıqda biz hər şeydən əvvəl, əxlaqi norma, prinsip, adət və ənənələrə 454ris454454 (sinfi) mənşə və vəziyyətdən asılı olaraq münasibət bəslənildiyini nəzərdə tuturuq. Başqa sözlə, sahibkarın «öz»əxlaqı, fəhlənin isə «öz» əxlaqı vardır. Burjuanın əxlaqı ilə siyasətçinin əxlaqı eyni deyil. Əxlaqın sinfiliyi o deməkdir ki, bütün hallarda sinfin, qrupun, korporasiyanın, peşənin maraq, məqsəd yə vəzifələri mövcud ümumbəşəri insanpərvərlik, qarşılıqlı məsuliyyət prinsiplərinə öz təsirini göstərir.



Kazım bəy Mirzə Məhəmmədəli Hacı Qasım oğlu (1802—1870)— XIX əsr türkologiya elminin yaradıcılarından biri, görkəmli şərqşünas alimdir. M.Kazımbəy ömrünün yarım əsrini Rusiyada şərqşünaslıq və türkologiya elminin inkişafına həsr edib. 1849-cu ildən Peterburq universitetində dərs demiş, 1855-ci ildən burada Şərq fakültəsinin ilk dekanı olmuşdur. Professor M.Kazımbəy rus şərqşünaslığının atası sayılır. Onun «Türk-tatar dilinin qrammatikası" (Kazan, 1839) əsəri doğma dilimizin ilk elmi qrammatikası kimi dilçiliyimizin qızıl fonduna daxildir. M.Kazımbəy XIX əsrdə «türk dilinin Zaqafqaziyanın beynəlxalq ünsiyyət vasitəsi» olduğunu göstərmişdir. 110-dan çox elmi əsərin müəllifidir. Bir sıra rus və xarici elmi cəmiyyətlərin fəxri üzvü seçilmişdir.

Qərb burjuaziyası iqtisadi və siyasi təşəkkülü və möhkəmlənməsi prosesində əsl insani münasibətlərin müdafiəçisi rolunda çıxış etmişdir. Burjuaziyanın özünün imtiyazlı vəziyyətdə olmasına mənəvi cəhətdən bəraət qazandırmaq cəhdi öz inqilabiliyi və humanizmi ilə sirayətedici təsirə malik idi. Lakin fəhlə sinfi ilə burjuaziya arasındakı bərabərsizlik artdıqca sinfi münasibətlər kəskinləşirdi. Öz inkişafının ən yüksək zirvəsinə çatnr.ş inhisarçı kapitalizm sinfi ziddiyyətlərin də dərindən kəskinləşməsinə gətirib çıxarır. Sinfi əxlaqın meydana çıxması cəmiyyətdə əxlaq müvazinətinin pozulması demək idi, yəni ictimai nemətlərin bölüşdürülməsindəki ədalətsizliyin ən kəskin böhran, nöqtəsinə qədər gəlib çatdığını göstərirdi. XX əsrin ortalarından başlayaraq iri inhisar birliklərinin nümayəndələri sinfi

ziddiyyətləri azaltmaq məqsədilə şüurlu surətdə istehsalda ictimailəşdirilmiş kapitalın payını artırdılar. Bu isə o deməkdir ki, müəssisənin hər bir əməkdaşı onun səhmdarı olmaq hüququna malikdir. Kapitalizm sistemi özündə sonrakı inkişaf üçün potensial tapa bildi və bununla da sinfi ziddiyyətlərin XX əsrin 60-cı illərinədək artan kəskinliyini azalda bildi.

Bununla bərabər sinif, qrup, konkret şəxsiyyət bütün hallarda həm də milli görüşlərin, maraq, məqsəd, adət və ənənələrin daşıyıcısıdır. Yuxarıda artıq əxlaqın ictimai həyatın bütün sahələrinə nüfuz etməsindən bəhs edildiyindən, əlavə olaraq deyə bilərik ki, milli həyatın tərəflərindən biri də millətin əxlaqi, mənəvi özülü və əxlaqi şüurudur. Millətin əxlaqi şüuru hər şeydən əvvəl onun azadlığa can atması və buna qadir ola bilməsidir. Bəs onda millətin mənəvi azadlığının mahiyyətini necə başa düşməli? Mənəvi azadlıq dedikdə millətin özünə və başqa millətlərə münasibəti nəzərdə tutulur. Milli mənlik şüurunun əxlaqi aspekti müəyyən dərəcədə millətin könüllü surətdə öz üzərinə götürdüyü ictimai-tarixi vəzifəni yerinə yetirir. Millətin mənəvi yetkinliyi onun başqa millətlərə münasibətdə zorakılıq etməməsi və özünə qarşı zorakılığa yol verməməsi ilə ölçülür. Milli şüurun mənəvi özgünlüyü millətin sadəcə olaraq mövcudluğu deyil, onun bəşəriyyətin ictimai həyat tarixində ləyaqətli varlığı məsələsidir.

Milli şüurun əxlaqiliyi millətin başqa millətlərə nisbətən öz mənəvi mahiyyətini təsdiq etmək arzusu və əzmində ifadə olunur. Unutmaq olmaz ki, milli psixologiya özündə mütərəqqi mürtəce və neytral, bitərəf ünsürlər daşıyır. Adamlar bəziləri öz yaradıcılığını başqaları ilə bölüşür, yaxınlarına, qohum və dostlarına dar gündə canıyananlıq göstərir, başqaları isə ətrafdakıları xudbinliklə öz şəxsi maraqlarını ödəmək üçün səfərbər edir. Təkamül dəyişikliyi və inqilabi sıçrayışlar zamanı milli şüur mənəvi-psixoloji sarsıntılara məruz qalır, milli mənlik şüuru yaranır, lakin eyni zamanda ictimai həyatın üzünə mafioz və mürtəce strukturlar çıxır. Bu mənada vahid xarakterli millət

və «ümumiyyətlə» şüur yoxdur.

A.A.Bakıxanov öz yaradıcılığında əxlaq məsələlərinə geniş yer vermişdir. O, insanın gündəlik həyatda-ailədə, yaxın adamlarının əhatəsində işdə istifadə etdiyi əxlaq normalarına böyük əhəmiyyət verirdi. Buna görə A.A.Bakıxanovun etikasını sağlam düşüncənin əsas yer tutduğu əməli etika adlandırmaq olar. Heç də təsadüfi deyildir ki, bununla əlaqədar olaraq filosof, əxlaqın mahiyyətini və insanda əxlaqi hisslərin necə yaranmasını dərk etmək istəyir. İnsan vərdiş, adət və xasiyyətləri biliklərə yiyələnmək və həyat təcrübəsi prosesində əldə edir, buna görə də əməl və niyyətlər ictimai mühitin xüsusiyyətlərilə tutuşdurularaq qiymətləndirilməlidir. Bakıxanovun fikrincə, insanın xasiyyəti həyat təcrübəsi, biliklər, habelə təmayül tərəfindən formalaşır.

Bakıxanovun etikasında insan səadətinin mahiyyəti haqda düşüncələrə geniş yer verilmişdir. Var-dövlət və mənsəb xoşbəxtlik illüziyası yaradır. Əsl xoşbəxtlik isə fiziki və ruhi sağlamlıqdadır. Bəs ruhi sağlamlığın mahiyyətini Bakıxanov necə başa düşür? İnsan ruhun tarazlıqda olmasına can atmalıdır. Buna yalnız o zaman nail olmaq mümkündür ki, insan həyatda orta xətti gözləmiş olsun, yəni ifratçılığa qapılmadan orta vəziyyəti, orta mövqeni tutmağı bacarsın. Mütəfəkkir deyir ki, «Bütün bitkilərin rütubətə ehtiyacı vardır, lakin həddən artıq nəmişlik məhsulu korlayır. Əgər atmosfera, hava qatı olmasa idi, günəşin istisi bütün varlığı məhv edərdi. Dünyada hər şey zəruri olduğu qədər təyin edilibdir.



**Bakıxanov Abbasqulu Ağa, ədəbi təxəllüsü–Qüdsi (1794–1847) – Azərbaycan alimi, maarifpərvər şairi. Bakı xanı Mirzə Məhəmmədin oğludur. Gəncliyində mükəmməl təhsil almış Bakıxanov fars və ərəb dillərini, klassik ədəbiyyatı, ilahiyyatı dərindən öyrənmişdi.**

**1826-29-cu illərdə Rusiyanın İran və Türkiyə ilə müharibələrində, Türkmənçayda Rusiya-İran danışıqlarında iştirak etmişdir. Bakıxanovun fars dilində yazılmış «Gülüstani—İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynadı.**

Bakıxanovun dini, fəlsəfi, əxlaqi baxışları «Riyaz ül-qüds», “Təhzib ül-əxlaq”, «Kitabi nəsayeh”, «Eyn ülmizan» əsərlərində şərh olunmuşdur.

Nəhayət, bəs əxlaqın özünün mahiyyəti nədən ibarətdir? İctimai həyatda əxlaqi münasibətlərin təşəkkülü və təkmilləşdirilməsi haqdakı düşüncələr belə bir fikir söyləməyə əsas verir ki, əxlaq Xeyir və Şərin qarşılaşdırılması vasitəsilə insan münasibətlərini tənzim edən varlığı dərk etmək, onu mənimsəmək üsuludur. Əgər əxlaq normaları cəmiyyət və insanın əməllərini xeyir və şər, ədalət və haqsızlıq nöqteyi-nəzərindən qiymətləndirə bilirsə, onda əxlaqın ictimai həyatda tutduğu yer haqda suala da cavab tapmaq olar. Əxlaqın cəmiyyət həyatında tutduğu yer onun tənzimedici, tərbiyəvi, idrakı, proqnozlaşdırım, motivasiya funksiyaları vasitəsilə müəyyən edilir. Özünün qeyri-rəsmi qanunları və hər şeydən əvvəl, insanların niyyət və əməllərinin qiymətləndirilməsi vasitəsilə əxlaq insan münasibətlərini tənzim edir. Əxlaq adamlarda insaniliyi tərbiyə edir və deməli, cəmiyyətin daha da kamil

olmasına kömək edir.

Sual və tapşırıqlar: 1. Təşəkkülünün ilk çağlarında insanı öz münasibətlərinin əxlaq normaları üzərində qurulması zərurətini dərk etməyə vadar edən nə idi? 2. Filosofların burada tanış olduğunuz etik görüşlərinin ümumi cəhətləri haqqında danışın. 3. Əxlaq qanunları hüquq qanunlarından nə ilə fərqlənir? 4. Nə üçün insan təbiətin və kainatın ayrılmaz hissəsi sıyılır? 5. Əxlaqın mahiyyətini izah edim 6. İctimai həyatda əxlaq hansı funksiyaları yerinə yetirir? 7. Şəxsiyyətin davranışının özü tərəfindən idarə edilməsində borc, məsuliyyət və vicdanın əhəmiyyəti nədən ibarətdir?

## § 20. Ünsiyyət mədəniyyəti

Ünsiyyət prosesində müxtəlif çətinliklər müşahidə olunur. Onların böyük əksəriyyəti sosial-psixoloji xarakter daşıyır. Bu çətinliklər ya müsahiblər üçün müəyyən fərdi psixoloji xüsusiyyətlərin (məsələn, utancaqlıq, qaradinməzlik və s.) səciyyəvi olması ilə bağlıdır, ya da onların arasında özünəməxsus psixoloji münasibətlərin bir-birinə qarşı qərəz, ədavət, düşmənçilik, inamsızlıq və s.-nin gəlməsi nəticəsində meydana çıxır.

Ünsiyyət prosesində bu maneələri necə aradan qaldırmaq olar? Adamların ünsiyyət mədəniyyətini artırmaq, onlara ünsiyyət vərdişləri aşılamaq yolu ilə.

İnsan münasibətlərinin inkişafında ünsiyyət mədəniyyətinin rolu böyükdür. Hələ qədim zamanlardan ‘insanlar bü cəhətə xüsusi əhəmiyyət vermişlər, Qocalarla cavanların, kişilərlə qadınların, oğlanlarla qızların, ərlə arvadın, ana-ata ilə övladların ünsiyyət prosesində qarşılıqlı münasibətləri tənzim edən qaydalar əmələ gəlmiş, qərinələr boyu bərqərar olmuş və tədricən daha geniş məna daşımışdı. İndi də həmin qaydalar ünsiyyət mədəniyyətinin zəruri cəhətlərini təşkil edir.

Ünsiyyət mədəniyyəti davranış mədəniyyəti ilə bilavasitə

bağlıdır. Onları bir-birindən ayırmaq, ayrı-ayrılıqda nəzərdən keçirmək əslində düz deyildir. Qadına gülü necə bağışlayırlar? Qonağı necə qəbul edirlər? Onlarla necə görüşürlər? Bu məqamlarda ünsiyyət mədəniyyəti, davranış mədəniyyətinin, davranış mədəniyyəti isə ünsiyyət mədəniyyətinin şərti kimi özünü göstərir.

Diqqətlə araşdırsaq davranış mədəniyyətinin özü insanlar arasında ünsiyyətin səmərəli olmasına xidmət edir. Onlardan bəzilərmi xatırlayaq.

Pilləkanla yuxarı çıxanda yaxud-aşağı düşəndə kişi qarşıda getməlidir. Əgər qadın nə isə soruşursa, nə haqdasa məlumat verirsə kişi ayaq üstə durmalı və onu diqqətlə dinləməlidir. Taksiyə minəndə kişi maşının qapısını açmalı və qadına kömək etməlidir.

Davranış mədəniyyəti çoxcəhətlidir. Ancaq onun başlıca ölçüləri öz əksini davranış qaydaları və ya etiketlərində 462apir. Onları kiçik yaşlarından öyrənmək lazımdır.

«Etiket» sözü mənşə etibarilə «etika» sözündən əmələ gəlib. Davranış etiketləri mahiyyətcə əxlaq prinsipləri, mənəvi sərvətlərlə bağlıdır.

Oğlanlarla qızlar, kişilərlə qadınlar arasındakı münasibətlərdə məhz bu əxlaqi prinsiplər daha çox məna kəsb edir. İnsanlar ünsiyyət mədəniyyətində əxlaqi ölçülərə daha böyük əhəmiyyət 462apir462 və indi də verirlər. Məsələn, uzun müddət bir-birini görməyən ər-arvad bir cür, bir yerdə işləyən kişi və qadın başqa cür görüşür. IX sinifdə oxuyan oğlanlardan hər hansı biri bu və ya digər halda oğlan yoldaşlarından kiminsə qolundan tuta, əlini onun çiyninə qoya bilər, hətta yeri gələndə, onunla güləşə də bilər. Lakin o, özü ilə bir sinifdə oxuyan qızla belə rəftar edə bilməz. Eyni sözlər qızlara da aiddir.

İnsanların ünsiyyətinin xarakteri–necə salamlaşması, necə görüşməsi (tutaq ki, qucaqlaşıb-qucaqlaşmaması, öpüşüb-öpüşməməsi, bir-birinin qolundan tutub-tutmaması və s.), necə söhbət etməsi onların qarşılıqlı münasibətlərinin səviyyəsi ilə

şərtlənir. Bu baxımdan insan münasibətlərini «yaxınlıq-uzaqlıq» ölçüləri ilə səciyyələndirmək olar.

Əgər belədirsə, onda, bəs yaxın adamlar təklikdə və ya camaatın gözü qarşısında necə görüşməlidir? Biz sevdiyimiz və ya bir sinifdə oxuduğumuz oğlan və qızlarla necə görüşüb söhbət etməliyik.

Ünsiyyət mədəniyyəti baxımından bu sualların əhəmiyyəti aydındır. El-oba həmişə oğlan və qızların özlərini adam içində– ata-ananın, bacı-qardaşın, qohum-əqrəbanın yanında necə aparmasına xüsusi məna vermişlər. Dilim də bu mənada «pərdə» sözündən geniş istifadə olunur. Aqil adamlar oğlan və qızlara öyüd-nəsihət verəndə deyiblər ki, gərək ananın-atanın, bacı-qardaşın, qohum-əqrəbanın yanında pərdə gözləyəsən. Ata-anaların özlərindən də uşaqların yanında pərdə gözləməyi tələb ediblər.

Psixologiyada isə bu anlamda psixoloji məsafə terminindən istifadə olunur.

Psixoloji məsafənin müxtəlif növləri var: ər-arvad arasındakı məsafə **intim,** təzə sevişən oğlan və qız arasında məsafə **şəxsi,** bir sinifdə oxuyan oğlan və qızlar arasındakı məsafə **463apir463,** küçədə rastlaşdığımız oğlan və qızlar arasındakı məsafə isə **kütləvi** psixoloji məsafəyə 463apir463 ola bilər.

Psixoloji məsafə əslində özünəməxsus sərhəddir, rəftar və davranış həddidir. Gərək öz münasibətlərində bu sərhəddi gözləyəsən. Oğlanlarla qızlar təkcə adamların gözü qarşısında deyil, həm də təklikdə öz aralarında pərdə gözləməlidirlər. İntim psixoloji məsafənin ölçülərini şəxsi, 463apir463 və ya kütləvi psixoloji məsafənin ölçülərindən ayırmaq lazımdır. Bu psixoloji məsafə ölçülərindən hər biri üçün özünəməxsus rəftar və davranış tərzi xasdır. Biz kiminlə necə rəftar edəcəyimizi dəqiq bilməliyik. Əgər hər hansı bir qız və ya oğlan bu cəhəti nəzərə almırsa, istər-istəməz öz təmiz adını batırır, bədnam edir.

Bir mühüm cəhəti də qeyd edək. Tutaq ki, hər hansı bir qız

və ya oğlan sevilir. Bu onların özlərini açıq-saçıq aparmasına haqq verirmi? Qətiyyən, yox!

İnsanlar ünsiyyət mədəniyyətinə həssaslıqla yanaşır, bu qaydaların pozulmasını, ilk növbədə əxlaqi ölçülərlə qiymətləndirirlər. Küçədə, şəhər bulvarında və parklarında, kino-teatrlarda özünü açıq-saçıq aparan gənclərdən söhbət düşəndə hiddətlə «şit qızdır", «utanmaz oğlandır» və s. deyir, onların barəsində yaxşı düşünmürlər. Bəzən bu oğlan və qızlar özlərinə haqq qazandırmaq üçün deyirlər: «Biz ki, bir-birimizi sevirik!". Əslində, bir-birini hərarətlə sevən oğlan və qız küçədə özgələrinə və bir-birinə hörmət etməli, məhəbbətlə əyləncənin 464apir464 və daxili tutumunu başa düşməlidir.

Başqa adamla danışanda da onun yaşını, cinsini nəzərə almaq, yaşlı adamlara, qadınlara «Siz» deyə müraciət etmək lazımdır. Adam yalnız özünün həmyaşıd dostuna «Sən»deyə bilər. Oğlanlar qızların və qadınların, qızlar isə oğlanların və kişilərin, eləcə də yaşlı adamların yanında danışarkən həmişə mərifət gözləməlidirlər. Onlara «zəhmət olmasa", «buyurun» deyə müraciət etmək məsləhətdir. Qadından onun yaşını soruşmaq münasib deyildir.

Ünsiyyət mədəniyyəti öz ifadəsini insan münasibətlərinin daxili gözəlliyində 464apir. Nəzakətlilik, təmkinlilik, prinsipiallıq, güzəştəgetmə bacarığı, mehribanlıq, xeyirxahlıq, tərəf-müqabili dinləmək məharəti və başa düşmək arzusu, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq və ürəyi yanmaq, dərdinə şərik olmaq–bunlar ünsiyyət mədəniyyətinin əlifbasıdır. Hamı bu əlifbanı öyrənməlidir. Axı, biz insanlar arasında yaşayırıq, həyatımız da, taleyimiz də bilavasitə onların həyatı və taleyi ilə şərtlənir. Bu hikmətli sözlərin həyati mənası böyükdür: insanlar arasında hər bir adam başqa insanın mənafeyini nəzərə almalı, ona hörmət etməli, qayğı ilə yanaşmalı, sağlamlığı, xoşbəxtliyi bir sözlə, taleyi üçün məsuliyyət daşıdığını bilməlidir. Bunsuz əsl ünsiyyət və davranış mədəniyyəti yoxdur, ola da bilməz.

Tapşırıq.

1. Ünsiyyətin əhəmiyyətini konkret misallarla izah edin.
2. Sosial qrupların növlərini sadalayın. Öz sinfinizi kiçik qrup kimi səciyyələndirin.
3. Rol gözləmələri nədir? Ailədə və məktəbdə şagird roluna hansı tələblər verilir? Sən bu tələbləri necə yerinə yetirirsən? Ürəyində özün-özünə qiymət ver. Sən düz hərəkət edirsən, yoxsa nədəsə səhv edirsən? Əgər səhvlərin varsa, onların aradan qaldırılması yollan barəsində düşün və lazım gəlsə, müəllimlərlə məsləhətləş.
4. Əsl və yalançı yoldaşlıq nə deməkdir? Onları müqayisə edin və qiymətləndirin.
5. Məhəbbəti nə üçün əxlaqi hiss adlandırırlar? Anasının Leyliyə nəsihətini bu baxımdan təhlil edin.
6. “Vuruşanda barışmaq üçün üz saxla»deyimini necə izah etmək olar? Ünsiyyət mədəniyyətinin əhəmiyyətini bu baxımdan aydınlaşdırın.

# DÖVLƏT, HÜQUQ VƏ SİYASƏT

## §21. Dövlətin mənşəyi və mahiyyəti

Siz artıq cəmiyyətin siniflərə necə parçalandığım bilirsiniz. İcma cəmiyyətinin son mərhələlərində əmək məhsuldarlığının inkişafı nəticəsində əlavə (izafi) məhsul meydana çıxır. Baş vermiş üç böyük ictimai əmək bölgüsü sayəsində (ovçuluq və heyvandarlığın əkinçilikdən ayrılması, sənətkarlığın ayrılması və tacirlərin ayrılması) icma rəhbərləri, ağsaqqallar və kahinlər getdikcə artan məhsulu əllərində toplayaraq xüsusi mülkiyyətçiyə çevrilir, onlardan asılı olanları qula çevirirdilər. Sinfi qütbləşmə baş verirdi. Bir qütbdə xüsusi mülkiyyətə sahib olan quldarlar, digər qütbdə isə mülkiyyətdən məhrum olan əhali

kütləsi–qullar yerləşirdi. Quldarlar sayca az, qullar isə çox idi.

Sayca azlıq təşkil edən quldarlar iqtisadi cəhətdən hakim olurdular. Onlarla qullar arasındakı münasibətlər isə mənafe antaqonizminə əsaslanırdı–quldarlar mövcud münasibətləri saxlamaq, qulların əməyi hesabına mülkiyyətlərini artırmaq, yeni yaranmış iqtisadi quruluşu saxlamaq istədikləri halda, qullar onların mülkiyyətini əlindən almaq, yaranmış ictimai münasibətləri dağıtmaq istəyirdilər.

Cəmiyyət getdikcə dərinləşən və gərginləşən ziddiyyətin həlli üçün yollar axtarmalı idi. Əks halda bu ziddiyyət cəmiyyətin özünün məhvinə aparırdı. Bir tərəfdən, cəmiyyətdə yaranmış bu sosial antaqonizmi tənzimləmək, digər tərəfdən isə sürətlə inkişaf etməkdə olan yeni təsərrüfatçılığı və sosial həyatı idarə etmək zərurəti xüsusi bir orqanın, aparatın–dövlət aparatının yaranmasını şərtləndirirdi. Beləcə, sahibkarların iqtisadi hakimiyyətini zorakı vasitələrlə təmin etmək, mövcud sinfi antaqonizmi saxlamaq üçün cəmiyyətdə dövlət yaranır.

Qəbilə təşkilatı bu hökmranlığı təmin edə bilməzdi. Belə bir təşkilat sinfi ziddiyyətlərin barışmazlığı məhsulu və təzahürü olan dövlət oldu.

Dövlətdən əvvəl ictimai hakimiyyətin müxtəlif inkişaf mərhələləri olmuşdur. İbtidai demokratiyanı əvəz edən və ibtidai icma cəmiyyətindəki hakimiyyətin sonuncu mərhələsi olan hərbi demokratiya müharibə funksiyasının bu hakimiyyətə keçməsi ilə əlaqədar meydana gəlmişdir. Hərbiyə əsaslanan hakimiyyətin sonralar irsi xarakter kəsb etməsi və soyğunçuluq müharibələri aparmaq üçün zorakı hərbi aparata arxalanması dövlət mexanizminin əsas uısürlərinin formalaşması üçün şərtlər yaratdı.

Dövlət iqtisadi cəhətdən hökmran sinfin—varlıların sinfi mənafelərini müdafiə və mühafizə edən təşkilat kimi çıxış edirdi. Dövlətin sinfi mahiyyəti rəmiyyətin iqtisadi quruluşu ilə müəyyən edilir. Bu baxımdan tarixdə quldar, feodal, burjua dövlətləri mövcud olmuşdur. Bunların hər birinin də özünün

xüsusi idarə üsulları olmuşdur.

Dövlət siyasi təşkilat kimi istər ölkə daxilində, istərsə onun xaricində çoxcəhətli fəaliyyət göstərir. Dövlətin müxtəlif inkişaf mərhələlərində, sinfi mahiyyətini, sosial rolunu və əsas vəzifələrini ifadə edən çoxcəhətli fəaliyyətinin başlıca istiqaməti onun funksiyası adlanır.

Dövlətin funksiyaları daxili və xarici olmaqla iki yerə ayrılır. Daxili funksiya dövlətin ölkə daxilində fəaliyyəti ilə bağlıdır. Bu funksiyaya məsələn, təsərrüfat-təşkilat, mədəni tərbiyə vəzifələri və s. aiddir. Dövlətin xarici funksiyası xarici uiyasət aləmində onun fəaliyyətinin başlıca istiqamətidir. Xarici funksiyaya başqa ölkələrlə əməkdaşlıq, qarşılıqlı yardım, sülh uğrunda mübarizə, dinc yanaşı yaşamaq* bir-birlərinin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquq normalarına əməl < tməklə dövlətin nüfuzunu yüksəltmək və s. aiddir. Dövlət ictimai həyatın iqtisadi, siyasi, mədəni, hərbi və bütün digər sahələrinə rəhbərlik edir. Lakin dövlətin funksiyası öz məzmununa görə dövlət fəaliyyətinin hər hansı bir sahəsini və ya bütün sahələrini deyil, eyni məzmunlu bir sıra sahələrini, necə deyərlər, yekcins sahələrini əhatə edir. Belə ki, ölkənin təsərrüfat həyatının təşkili sahəsində dövlətin fəaliyyətinin başlıca istiqamətini onun iqtisadi funksiyası, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi sahəsindəki fəaliyyətinin başlıca istiqamətini ölkəni kənar hücumlardan qorumaq funksiyası təşkil edir.

Dövlətin funksiyaları onun sosial təyinatına uyğun olur. Sosial təyinat dövlətin həyata keçirməli olduğu və konkret tarixi şəraitlə şərtlənən məqsəddir. Dövlətin funksiyaları onun inkişafının müxtəlif mərhələlərində dövlətin əsas vəzifələrindən asılıdır. Dövlətin əsas vəzifələrinin dəyişməsi ilə onun funksiyalarının məzmunu da dəyişir.

Dövlətin funksiyaları müxtəlif forma və metodlarla həyata keçirilir. Funksiyaların həyata keçirilməsi formaları dedikdə dövlət fəaliyyətinin hüquq formaları–hüquqyaratma (hüquq

normalarının yaradılması, ləğv edilməsi və ya dəyişdirilməsi sahəsində dövlətin fəaliyyəti), hüquqqoruma (hüquq normalarını pozulmaqdan qorumaq sahəsində dövlətin fəaliyyəti), hüquqicra (hüquq normalarının realizəsi sahəsində fəaliyyət) formaları nəzərdə tutulur. Funksiyaların həyata keçirilməsi formalarını həm də dövlət aparatının tərkib hissələrinin fəaliyyət formasından asılı olaraq qanunverici, icraedici, sərəncamverici, məhkəmə və nəzarət fəaliyyət formaları kimi təsnif etmək olar.

Dövlət funksiyalarının həyata keçirilməsi metodları dövlətin ictimai həyata təsir üsullarıdır. Məcburiyyət metodu və inandırma metodu belə üsullardandır. Məcburiyyət metodu dövlət məcburiyyəti, zorakılıq tədbirlərinin tətbiqi, insanların iradəsinin dövlbt iradəsinə tabeçiliyi deməkdir. İnandırma metodu adamları tərbiyə etmək, onların şüuruna təsir göstərməkdir. Funksiyaların həyata keçirilməsində bu metodlardan istifadə hakimiyyətin mahiyyətindən asılıdır. İnsanların davranışını zorakı surətdə dövlətin iradəsinə tabe etmək metodundan istifadə, mahiyyətcə totalitar və avtoritar dövlətlərə xasdır. Öz mahiyyətinə görə humanist dövlətlərdə hər iki metoddan bir vəhdət halında istifadə edirlər, həm də əvvəlcə inandırma, sonra məcburiyyət tətbiq edilir.

Tipindən və idarə formasından asılı olmayaraq hər bir funksiya bütün dövlət tərəfindən məcburi qaydada icra olunmalıdır. Dövlət idarəetmə orqanı dövlət orqanlarının bir növü, bir hissəsidir. Hər bir dövlət idarəetmə orqanı qanunauyğunluqla təşkil edilir, müəyyən hüquq və səlahiyyətə malikdir, özünəməxsus üsullarla fəaliyyət göstərir. Dövlət idarəetmə orqanları icraetmə və sərəncamvermə fəaliyyətini həyata keçirir, bir qayda olaraq dövlət hakimiyyət orqanları tərəfindən təşkil edilir və öz fəaliyyətləri haqqında onlara' hesabat verirlər.

Sual və tapşırıqlar: 1. Dövlətin mənşəyi və mahiyyəti haqqında nə bilirsiniz? 2. Siniflərin və dövlətin yaranmasını başa düşdüyünüz tərzdə şərh edin. 3. Dövlətin yaranması zərurətini

dərsliyin mətnindəki materiallar əsasında izah edin. 4. Dərsliyin mətnindəki materiallara əsasən dövlətin funksiya və vəzifələrini sadalayın. 5. Dövlətin strukturu və orqanları haqqında nə bilirsiniz? Respublikamızın dövlət strukturu və orqanları haqqında danışın.

## §22. Dövlətin tarixi tipləri və idarə formaları

Dövlət tipi son nəticədə cəmiyyətin iqtisadi quruluşu ilə şərtlənir. Cəmiyyət həyatının maddi əsası olan iqtisadiyyat dəyişdikcə, dövlətin tipi də ona uyğun olaraq dəyişir. Cəmiyyətin hər bir iqtisadi inkişaf pilləsi elə bir zəmin, elə bir baza təşkil edir ki, həmin cəmiyyətin dövlət təsisatları, hüquqi baxışları, incəsənəti, hətta dini təsəvvürləri də bu zəmin, bu baza üzərində inkişaf edir.

Dövlət tipi dedikdə, cəmiyyətin hansı təbəqəsinin dövlət hakimiyyətini əlində saxlaması, hansı iqtisadi quruluşun hökmran olması başlıca vəzifəni yerinə yetirməsi, kimin mənafeyini müdafiə etməsi başa düşülür. Bu baxımdan dövlətin quldarlıq, feodal, burjua və sosialist tipləri məlumdur.

**Quldarlıq dövləti**–dövlətin birinci tarixi tipidir. Bu dövlət ibtidai icma quruluşunun dağılması nəticəsində yaranmışdır. Dövlətin iqtisadi əsasını istehsal vasitələri, habelə qullar üzərində quldarın tam xüsusi mülkiyyəti təşkil edir. Qul quldarın tam mülkiyyətində idi. Qul sahibi qulla istədiyi kimi rəftar edə bilərdi. Tarixdən qulların allahlara, ölən hökmdarlara qurban verilməsi, ölmüş sahibləri ilə birgə diri-diri dəfn edilməsi faktları məlumdur.

Tarixdə ən qədim quldar dövlətlər e. ə. IV minilliyin sonu–III minilliyin əvvəllərində Şərqdə yaranmışdır. Xronoloji ardıcıllıqla götürsək onda Şərqdə quldar dövlətlərini belə sıralaya bilərik: Qədim Misir dövləti (e. ə. IV minilliyin sonu–III minilliyin əvvəlləri; Şumer dövləti (e. ə. III minilliyin

əvvəlləri); Assuriya dövləti (e. ə. III minilliyin ortaları); Hindistan və Çin dövlətləri (e. ə. II minillikdə); Hett dövləti (e. ə. II minilliyin I sonları).

Tarixdə qədim Yunanıstan və Roma dövlətləri I də mövcud olmuşdur.

Quldarlıq dövləti quldarların–cəmiyyətin iqtisadi cəhətdən tam hökmran olan sinfinin təşkilatı idi.

Quldarlıq dövləti çoxcəhətli fəaliyyət göstərir, daxili və xarici funksiyaları yerinə yetirirdi, ölkənin daxilində qayda-qanunu qorumaq, ictimai işləri təşkil etmək, ideoloji təsir tədbirləri və s. quldarlıq dövlətinin həyata keçirdiyi daxili funksiyalara aiddir. Dövlətin xarici funksiyalarına isə öz ərazisini qorumaq və özgə ərazisini işğal etmək aid idi.

Quldarlıq dövlətinin idarə formaları monarxiya və respublika idi. Quldarlıq respublikası özü də iki formada–demokratik və aristokratik respublika formalarında mövcud idi.

Qədim Şərqin bir sıra ölkələrində—Misir, Babilistan, Çin və digər ölkələrdə idarə forması quldarlıq monarxiyası idi. Burada bütün hakimiyyət irsi olaraq keçirdi. Hakimiyyət başında duran monarxın hakimiyyəti qeyri-məhdud idi. Monarxın iradəsi qanun hesab olunurdu.

Quldarlıq demokratiyasının tipik forması Afina idi. Ümumiyyətlə, quldarlıq demokratiyası, bütün tamhüquqlu vətəndaşların (azadların) dövlət hakimiyyət orqanlarının seçilməsində iştirakı ilə xarakterizə olunur. Afinada ali dövlət hakimiyyət orqanları aşağıdakılar idi:

1. Xalq yığıncağı
2. Andlılar məhkəməsi
3. 500-lər şurası

Xalq yığıncaqları tam qanunvericilik və icra hakimiyyətinə malik idi. Yığıncaqlar adətən meydanda, açıq havada, ayda 4 dəfə keçirilirdi. Yığıncaqlarda birqayda olaraq 20 yaşma çatmış Afina vətəndaşı olan kişilər iştirak edə bilərdi. Hər bir yığıncağın öz məqsədi vardı. Qəbul edilmiş qayda üzrə birinci yığıncaqda

seçilmiş hakimiyyət orqanlarının fəaliyyəti müzakirə edilirdi. Əhalinin ərzaq təminatı və müdafiə məsələləri də birinci yığıncaqda müzakirə edilirdi.

Əhəmiyyətinə görə Afinada ikinci hakimiyyət orqanı andlılar məhkəməsi idi. Bir qayda olaraq bu orqana üzvlər püşklə seçilirdi. Andlılar məhkəməsi xalq yığıncaqları ilə öz aralarında qanunvericilik fəaliyyətini bölüşdürürdülər. Qanunvericilik fəaliyyətində son söz andlılar məhkəməsinə məxsus idi.

Üçüncü orqan hesab edilən 500-lər şurası isə xalq yığıncaqlarında müzakirə ediləcək məsələləri, həmin məsələlər üzrə ilkin qərarları, bütün qanunvericilik təklifləri üzrə rəyləri hazırlayırdı. Afinada demokratiya təkcə əmlaka malik olanlara aid idi. Demokratiyanın bəhrəsini ancaq quldarlar görürdülər.

Quldarlıq aristokratik respublikasının bariz nümunəsi Roma idi. Bu cür idarə forması üçün, ali dövlət hakimiyyət orqanlarının bütün azad əhali tərəfindən deyil, yalnız imtiyazlı təbəqə olan patrisilər tərəfindən seçilməsi xarakterikdir. Romada ali dövlət hakimiyyət orqanı senat idi. Senat 300 nəfərdən ibarət olub, qeyri-demokratik yolla seçilirdi. Senatorların siyahısını senzorlar tərtib edirdilər. Yalnız iqtisadi cəhətdən təmin olunmuş, yüksək vəzifəli adamlar senator ola bilərdi. Sonralar senatorluq faktik olaraq irsən keçirdi. Senatın fəaliyyət dairəsinə aşağıdakılar daxil idi: maliyyə, büdcənin təşkili və xərclənməsi, hərbi işlər, işğal olunmuş torpaqların romalılara paylanması, verginin müəyyən edilməsi və yığılması, ümumi nəzarət və s.

Göründüyü kimi, senat Romada tam hakimiyyət forması idi. Roma senatı öz tərkibinə və siyasi təməlinə görə aristokratlardan təşkil olunmuşdu. Ona görə də onlar tərəfindən idarə olunan Roma aristokratik respublika adlanırdı.

Aristokratik respublikanın ali orqanının tərkib dairəsinin əmlak senzinə görə daha da daralması, oliqarxik respublika formasının yaranmasına gətirib çıxarırdı.

**Feodal dövlətinin** iqtisadi əsasını torpaq üzərində

feodalların tam mülkiyyəti təşkil edir. Feodalizm cəmiyyətində əsas aparıcı siniflər–torpaq sahibləri–feodallar və təhkimli kəndlilər idi. Təhkimli kəndlinin özünün təsərrüfatı, onu becərmək üçün aləti var idi. Lakin kəndli qanunla feodalın torpağına təhkim olunurdu və bir sıra mükəlləfiyyətlər yerinə yetirməli idi.

Feodal dövləti öz mahiyyətinə görə iri torpaq sahiblərinin təhkimli kəndlilər üzərində siyasi diktaturası idi.

Feodal dövlətinin daxili funksiyalarına torpaq və istehsal vasitələri üzərində iri torpaq sahiblərinin xüsusi mülkiyyətini, daxili qayda-qanunu qorumaq və s. daxil idi. Xarici sahədə feodal dövləti özgə ərazilərini tutmaq və öz ərazilərini kənar hücumlardan qorumaq funksiyalarını yerinə yetirirdi.

Feodal dövlətinin əsas idarə formaları müxtəlif növlü monarxiya idi. Monarxiya yunanca təkhakimiyyətlilik mənasını verir. Burada ali dövlət hakimiyyəti tam və ya qismən, tək dövlət başçısının–monarxın əlində cəmlənirdi.

Feodal parçalanması dövrü üçün erkən monarxiya xarakterikdir ki, burada mərkəzi hakimiyyətin zəifliyindən dövlətdə bir çox müstəqil və ya yarımmüstəqil qurumlar mövcud idi. Belə qurumlar ərbdə knyazlıqlar, hersoqluqlar, senyoriyalar və s., Şərqdə isə xanlıqlar sultanlıqlar, əmirliklər və s. adlanırdı.

Feodal dövlətinin idarə formasının tarixən r.onuncu tipi mütləq monarxiya olmuşdur ki, bu da Feodal parçalanmasının aradan qalxması və mərkəzi dövlətin yaranması prosesinin başa çatması dövrünə təsadüf edir. Mütləq monarxiyada ali hakimiyyət qeyri-məhdud şəkildə bir şəxsə–monarxa məxsusdur. Xalq isə nə qanunvericilik fəaliyyətində, nə də idarəetmədə iştirak etmir.

Feodalizm dövründə özünəməxsus xüsusiyyətlərə malik olan dövlətlər–şəhər-dövlətlər mövcud olmuşdur. Şəhər-dövlətlərdə respublika idarəetmə forması müəyyən edilirdi, hakimiyyət isə əhalinin yuxarı təbəqəsinə məxsus idi. Şəhər-dövlətlər bir qayda olaraq ticarət yollarının üzərində yaranırdı.

Burada sənət və ticarət yüksək inkişaf edirdi. Şəhər-dövlətlərə misal olaraq Venesiya, Genuya, Florensiya və s. i göstərə bilərik.

Feodalizmin Şərqdə özünəməxsus çalarları var idi. Kəndlilərin feodallardan asılılığı Qərbdəki qədər ağır deyildi. Əgər Qərbdə kəndlilər feodaldan tam asılı idilərsə, Şərqdə, o cümlədən Azərbaycanda, bu asılılıq özünü töycü şəklində göstərirdi.

Azərbaycanda feodal tipli dövlətlər III əsrdən yaranmağa başlamışdır. Artıq Azərbaycan ərəb xilafəti tərəfindən zəbt edildikdən sonra feodal münasibətləri başlıca münasibətlərə çevrildi. XII-XIII əsrlərdə Atabəylər dövləti, XV əsrdən isə Şirvanşahlar dövləti, uzun zaman mövcud olmuş Alban aövləti öz feodal müstəqilliklərini qoruyub saxlamışdılar. XVI əsrdə Azərbaycanda ən qüdrətli, mərkəzləşmiş feodal dövləti– Səfəvilər dövləti idi. XVII əsrin sonundan – XIX əsrin əvvəllərinə qədər Azərbaycanda bir sıra xırda və iri xanlıqlar mövcud olmuşdur.

Burjua dövləti feodal mütləqiyyəti və feodal münasibətlərinə qarşı yönəldilmiş burjua inqilabları nəticəsində yaranmışdır. Bu inqilabların gedişində burjuaziyanın zadəganlarla kompromisə getdiyi yerlərdə burjua dövləti konstitusiyalı monarxiya formasını alır. Burjuaziyanın sözün tam mənasında siyasi hökmranlıq qazandığı yerlərdə isə dövlət respublika formasında çıxış edirdi.

Konstitusiyalı monarxiya özü də iki yerə ayrılır:!

1. Dualist konstitusiyalı monarxiya.
2. Parlamentli konstitusiyalı monarxiya.

**Dualist monarxiyada** icra hakimiyyəti monarxın əlində cəmlənir. Qanunvericilik hakimiyyəti isə hüquqi cəhətdən parlamentə məxsusdur. Başqa sözlə, parlament monarxa tabedir. Hal-hazırda Küveytdə! dualist monarxiya idarə forması mövcuddur.

**Parlamentli monarxiyada** dövlət hakimiyyətinin bütün sahələrində monarxın hakimiyyəti məhduddur. O öz formal

səlahiyyətini müstəqili olaraq həyata keçirməkdən məhrumdur. İcra hakimiyyətini parlament həyata keçirir. Parlament hökumətin fəaliyyətinə nəzarət edir. Seçkilərdə qalib gəlmiş partiyanın lideri hökuməti təşkil edir. Konstitusiyalı monarxiya idarə formasının mövcud olduğu ölkələrə misal olaraq Böyük Britaniyanı, Danimarkanı, Yaponiyanı, İsveçi, Norveçi göstərəli bilərik.

**Sosialist dövləti** adlandırılan dövlət tipi cəmiyyət tarixinin son dərəcə qısa bir dövründə–1917-ci ildən 1991-ci ilədək mövcud olmuşdur.! Çində və Kubada hələ də sosialist dövlət tipi mövcuddur. Tarixdə proletariat diktaturası adı ilə tanınmış, sonralar ümumxalq dövləti adı almış bu dövlətdə hakim partiya olan Sovet İttifaqı Kommunist Partiyası bütün hakimiyyəti öz əlinə almışdı. Bu partiya 74 il ərzində demokratiya pərdəsi altında, zor və silah gücünə yüzlərcə millət və xalqları öz əsarətində saxlaya bilmişdir. İkinci dünya müharibəsi ərəfəsində və ondan sonra dünya sosializmi sistemi yaradılmışdır. Sosializmin mövcudluğu dövrü–cəmiyyət tarixində sürətlə silahlanma dövrü kimi xarakterizə edilir. Sosialist dövlətinin son məqsədi kommunizm qurmaq olduğu halda nə üçün üz-özünə parçalanıb dağıldı? Bu quruluşun yaranması və mövcudluğu həmişə qəsbkarlıq və zorakalıqla müşayiət olunmuşdur. Mövcud olmuş sosializm cəmiyyətində dövlət əmlakının oğurlanması və rüşvətxorluq onun ayrılmaz xüsusiyyətlərindən birinə çevrilmişdir. Həmin cəmiyyətdə nə əxlaq, nə din, nə də hüquq öz funksiyalarını yerinə yetirə bilməmişdir. Kütləvi repressiyalar, bütöv xalqların öz tarixi vətənlərindən sürgün olunması həmin cəmiyyətin daxili təbiətindən doğurdu. Göründüyü kinai, adını xalq hakimiyyəti qoymuş, lakin bütün fəaliyyətini məhz xalqın əleyhinə çevirmiş bu quruluş qısamüddətli ömrünü başa vurmuşdur.

Mövcud olmuş sosializm cəmiyyətində hakimiyyət strukturu aşağıdakı formada fəaliyyət göstərirdi: Sovet İttifaqı Kommunist Partiyası, SSRİ Ali Soveti, Müttəfiq

Respublikaların Ali Sovetləri, Muxtar Respublikaların Ali Sovetləri, Diyar xalq deputatları Sovetləri, Vilayət xalq deputatları Sovetləri, Muxtar vilayətlərin xalq deputatları Sovetləri, Muxtar mahalların xalq deputatları Sovetləri, Şəhər xalq deputatları Sovetləri, Rayon xalq deputatları Sovetləri, şəhərlərdə rayon xalq deputatları Sovetləri, Kənd və ya qəsəbə xalq deputatları Sovetləri.

SSRİ Konstitusiyası ilə Sovetlərin hakimiyyəti təsbit olunsa da əsas hakimiyyət Sovet İttifaqı. Kommunist Partiyasına məxsus idi. Aşağıdan yuxarıya qədər bütün mərhələlərdə cəmiyyəti yalnız kommunistlər idarə edirdilər. Bir sözlə, bütün qanunverici və icraedici orqanlar əslində onların əlində cəmlənmişdir.

«Respublika» latın sözü olub «res»–iş, «publikus»–ictimai, ümumxalq deməkdir. Respublika elə bir idarə formasıdır ki, burada bütün ali dövlət hakimiyyəti orqanları ya seçilir, ya da ümummilli nümayəndəli idarələr tərəfindən təşkil edilir. Tarixən respublika antik dövrdə Avropada monarxiyanın antipodu kimi meydana gəlmişdir. Respublika idarəetmə forması müasir dövrdə daha geniş yayılmışdır.

Respublika idarə formasının iki əsas növü fərqləndirilir:

1. Prezidentli respublika
2. Parlamentli respublika

Dövlət başçısının və hökumət başçısının səlahiyyətlərinin prezidentin əlində cəmlənməsi prezidentli respublikanın fərqləndirici xüsusiyyətidir. Azərbaycan, Rusiya, ABŞ, Argentina, Meksika, Braziliya və s. dövlətlərdə prezidentli respublika idarə formasından istifadə edilir. Prezidentli respublikada prezident qeyri-parlament üsulu ilə seçilir. Hökumət də bu qayda ilə təşkil edilir. Prezidentin parlamenti buraxmaq hüququ yoxdur.

**Parlamentli respublika.** Respublika idarə formasının digər növü parlamentli respublikadır. Parlamentli respublikada ali dövlət hakimiyyət orqanlarının əsasını formal olaraq

parlamentin hökmranlığı prinsipi təşkil edir. Hökumət siyasi fəaliyyətinə görə parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Prezidentli respublikadan fərqli olaraq hökumət yalnız parlament çoxluğuna malik olduqda (2 palatalı parlamentdə aşağı palatanın) hakimiyyətdə qalır. Çoxluğu itirdikdə hökumət istefa verməli olur. Parlamentli respublikalarda hökumət yalnız parlament yolu ilə hakim partiyaya, yaxud partiyalar koalisiyasına mənsub olan deputatlardan təşkil olunur. Parlamentli respublikada baş nazir vəzifəsi mövcuddur və o, hakim partiyanın, yaxud müxalifətçi partiyaların lideri olur. Parlamentli respublika idarə formasından istifadə edən ölkələrə misal olaraq AFR, Portuqaliya, Hindistan, İtaliya, Yunanıstan, İrlandiya, İslandiya və s.-ni göstərə bilərik.

**Dövlət quruluşunun formaları.** Quruluşuna görə dövlətin üç forması var:

Unitar

1. Federativ
2. . Konfederativ

**Unitar dövlət** elə bir milli dövlət quruluşudur ki, burada dövlət inzibati-ərazi vahidlərinə bölünür. Uni**tar** dövlətdə bir konstitusiya, dövlət hakimiyyətinin bir ali nümayəndəli orqanı, bir hökumət olur. Bəzi hallarda unitar dövlətin tərkibinə muxtariyyət statusu olan ərazi vahidləri də daxil ola bilər. Unitar dövlətlərə misal olaraq Azərbaycam, Fransanı, İtaliyanı, İspaniyanı göstərə bilərik.

**Federasiya** sözünün hərfi mənası birləşmə, ittifaq deməkdir. Bir qayda olaraq çoxmillətli dövlətlərdə mövcud olan dövlət quruluşu formasıdır.

Federasiya hüquqi cəhətdən müəyyən siyasi müstəqilliyi olan dövlət qurumlarından ibarət mürəkkəb ittifaq dövlətidir. Federasiya dövlətini təşkil edən dövlət qurumları Federasiyanın subyektləridir və onların özlərinin ərazi-inzibati bölgüsü var. Federativ dövlətdə ikisistemli ali dövlət hakimiyyət orqanları var: federal orqanlar və federasiya üzvlərinin müvafiq orqanları.

Federal orqanlar öz səlahiyyət və funksiyalarını bütün dövlət ərazisində həyata keçirirlər. Federasiyanın subyektləri müxtəlif ölkələrdə müxtəlif adlar daşıyır. Məsələn, ABŞ-da ştatlar, Kanadada əyalətlər, İsveçrədə kantonlar və s. ABŞ, Kanada, Rusiya, İsveçrə, Braziliya federativ dövlətlərdir.

**Konfederasiya**—müəyyən məqsəd üçün müvəqqəti birləşən dövlətlər ittifaqıdır. Konfederasiya üzvləri öz suverenliyini saxlayırlar. Burada federal orqanlar var. Amma bu orqanların qəbul etdiyi qərarlar o vaxt qüvvəyə minə bilər ki, onu ittifaqın bütün üzvləri təsdiq etmiş olsun. Konfederasiyanın təşkilində dəyişiklik ancaq onun bütün üzvlərinin razılığı ilə ola bilər.

**Siyasi rejim** dedikdə dövlət hakimiyyətinin hansı üsul və metodlarla həyata keçirilməsi başa düşülür. Siyasi rejim dövlətin siyasi vəziyyətini, formasını xarakterizə edir. Ən çox istifadə olunmuş siyasi rejim formalarından totalitar, avtoritar və demokratiya rejimlərini göstərə bilərik.

**Totalitar** rejimdə nə hakimiyyətə, nə ideologiyaya, nə hakim partiyaya qarşılıq ola bilməz. İctimai həyatın bütün sahələri bir mərkəzə tabedir. Keçmiş SSRİ-də olduğu kimi.

**Avtoritar** rejim vətəndaşların hüquq və azadlıqlarının tam və qismən boğulması, partiya və təşkilatların fəaliyyətinin kəskin şəkildə məhdudlaşdırılması və ya tam ləvği, dövlət hakimiyyətində seçkili orqanların rolunun heçə endirilməsi, bütün hakimiyyətin dövlət başçısının və ya hökumət başçısının əlində cəmlənməsi ilə xarakterizə olunur.

**Demokratiya**—yunan sözü olub hərfi mənası xalq hakimiyyəti deməkdir. Demokratik rejimdə hakimiyyət mənbəyi xalq hesab edilir. Demokratik rejim aşağıdakı prinsiplərə görə siyasi rejimin digər formalarından fərqlənir:

—azlığın çoxluğa tabeliyi,

—bütün vətəndaşların bərabərliyi,

—qanunvericilikdə təsbit olunmuş siyasi və sosial hüquq və azadlıqların olması,

—əsas dövlət orqanlarının və vəzifəli şəxslərin seçkili olması və seçicilər qarşısında onların hesabat verməsi;

—bütün vətəndaşların cəmiyyətin və dövlətin idarə olunmasında bərabər iştirak etmək hüququ;

—təyin edilməklə yaradılan dövlət orqanlarının və qulluqçularının seçkili orqanlar qarşısında məsuliyyət daşıması və onların nəzarəti altında olması;

—dövlət fəaliyyətində aşkarlığın olması.

Demokratik rejim iki formada həyata keçirilir:

1. Nümayəndəli demokratiya
2. Birbaşa demokratiya

Nümayəndəli demokratiyada əsas qanun və qərarlar səlahiyyətli seçkili idarələr tərəfindən qəbul edilir.

Birbaşa demokratiyada isə əsas qanun və qərarlar vətəndaşlar tərəfindən qəbul edilir. Bunun reallaşması ümumxalq sorğusu (referendum) yolu ilə olur.

Sual və tapşırıqlar: 1. Dövlətin tarixi tipləri və idarə formaları haqqında nə bilirsiniz? 2. Monarxiya, aristokratiya, oliqarxiya və demokratiya anlayışlarını tarixi faktlar və materiallar əsasında izah edin. 3. Konstitusiyalı monarxiya, respublika, parlamentli respublika anlayışlarını tarixi materiallar əsasında şərh edin. 4. Dövlət quruluşunun tarixi formaları—unitar, federativ, konfederativ anlayışlarını izah edin. 5. Siyasi, totalitar, avtoritar, demokratik rejim anlayışlarını konkret misallar əsasında şərh edin.

## § 23. Hüquqi dövlət anlayışı və onun əsas cəhətləri

Hüquqi dövlətin yaradılması yaşadığımız cəmiyyətin ardıcıl demokratikləşdirilməsi prosesini başa çatdırmalıdır. Hüquqi dövlətin xarakteristikası üçün əsas odur ki, qanunun aliliyi, işdə təmin edilsin. Heç bir dövlət orqanı, vəzifəli şəxs, kollektiv, siyasi partiyalar, ictimai təşkilatlar, heç bir adam qanuna tabe olmaq vəzifəsindən azad edilmir. Vətəndaşlar öz dövləti qarşısında məsuliyyət daşıdıqları kimi, dövlət hakimiyyəti də vətəndaşlar qarşısında məsuliyyət daşıyır. Belə ki, vətəndaşların hüquqları hakimiyyətin və onun nümayəndələrinin hər cür özbaşınalığından möhkəm qorunmalıdır.

Hüquqi dövlətin əsas cəhətlərindən biri də hakimiyyətin dəqiq bölüşdürülməsi prinsipinə əməl edilməsidir. Yəni qanunvericiliyin, icra aparatının və məhkəmənin cəmiyyət həyatında müstəqil rolu müəyyənləşməklə hakimiyyətin bölünməsinin başa çatdırılmasıdır. Hüquqi dövlətdə hüququn qorunmasının dəqiq mexanizmi yaradılmalı və işə salınmalıdır. Belə ki, ali hakimiyyət orqanlarının qanunvericilik fəaliyyəti – respublikada Konstitusiya rejiminin möhkəmləndirilməsinə və ictimai münasibətlərin çox mühüm sahələrini tənzimləyən Azərbaycan Respublikası qanunlarının rolunun yüksəldilməsinə, «qanunla qadağan olunmayan hər şeyə icazə verilir” prinsipinin ardıcıl həyata keçirilməsinə yönəldilmiş fəaliyyəti böyük əhəmiyyət kəsb edir.

Hüquqi dövlətin mühüm cəhətlərindən biri də qanunvericiliyin məcəllələşdirilməsi və sistemləşdirilməsi, ictimai həyatın humanistləşdirilməsi və demokratikləşdirilməsi, eləcə də hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsidir. Planlaşdırma, maliyyə, vergi və təsərrüfat münasibətləri, ətraf mühitin mühafizəsi, əmək, mənzil, pensiya və digər məsələləri tənzimləyən normalarda mühüm dəyişikliklər edilməsidir. Eləcə də cinayət, inzibati, prosessual

və islah-əmək qanunvericiliyinin müasir tələbə uyğunlaşdırılmasıdır.

Hüquqi dövlətdə şəxsiyyətin hüquqi müdafiəsinə çox böyük diqqət yetirilməlidir. Adamların siyasi, iqtisadi, sosial hüquqlarının və azadlıqlarının həyata keçirilməsinin təminatları möhkəməndirilməlidir. Hüquqi dövlət hər bir vətəndaşın dövlət və cəmiyyət qarşısında məsuliyyətini artırmalıdır.

Hüquqi dövlətin digər cəhətlərindən biri də demokratik cəmiyyət sistemində ədalət məhkəməsinin rolunu yüksəltməkdir. Mühakimə icraatının əsaslarının–bəhsləşmə, aşkarlıq, təqsirsizlik prezumpsiyasına sözsüz əməl edilməsi, istər ittihamedicilik meylinin, istərsə də Azərbaycan Respublikasının qanununa qəsd etmiş adamlara üzgörənlik edilməsinin yolverilməzliyi kimi əsasların həyata keçirilməsinin təminatlarının xeyli möhkəmləndirilməsidir. Məhkəmənin nüfuzu yüksəldilməli, hakimlərin sözsüz müstəqilliyi və ancaq qanuna tabe olması təmin edilməli, onların fəaliyyətinə qarışmağa və məhkəməyə hörmətsizliyə görə məsuliyyətin konkret dərəcələri müəyyən olunmalıdır. Məhkəmələr üçün daha uyğun səlahiyyət müddəti müəyyən edilməsi hakimlərin müstəqilliyini möhkəmlətməyin təminatlarından biri olmalıdır. Ədalət məhkəməsinin obyektivliyinin, xalq iclasçılarının rolunun və məsuliyyətinin artırılması məqsədilə məhkəmədə daha mürəkkəb işlərə baxılarkən iclasçıların sayı artırılmalıdır.

Hüquqi dövlət anlayışının digər cəhətlərindən biri də prokurorluğun məsuliyyətinin qətiyyətlə yüksəldilməsi, Azərbaycan Respublikasında qanunların icrasına, bir cür başa düşülməsinə və tətbiq edilməsinə ciddi göz qoymalı olan prokuror nəzarətinin möhkəmləndirilməsi, qanunçuluğun pozulması hallarına qarşı əzmlə mübarizə aparılmasıdır. Prokurorların müstəqilliyinin daha da möhkəmləndirilməsi, hər hansı şəkildə onlara təzyiq göstərmək və onların fəaliyyətinə qarışmaq hallarının istisna olunması bu vəzifəyə xidmət etməlidir.

Polisin işinin yaxşılaşdırılmasına, daxili işlər orqanları əməkdaşlarının mədəniyyətinin və peşə əriştəsinin yüksəldilməsinə və əhali ilə əlaqələrinin möhkəmləndirilməsinə diqqət yetirilməlidir. Müstəntiqlərin peşə məsuliyyətini yüksəltmək, onların fəaliyyətinin qanuniliyinin hüquqi təminatlarnı möhkəmləndirmək xüsusi zərurət təşkil edir.

Hüquqi dövləti yaratmağın ən mühüm cəhətlərindən biri də əhalinin bütün sosial təbəqələrinin yüksək hüquqi şüura və hüquq mədəniyyətinə yiyələnmələridir. Bu da hüquqi təhsilin təşkili sahəsində səmərəli tədbirlər görülməsini tələb edir.

**Konstitusiya** (latın sözü olub «quruluş, təsisat» deməkdir)—dövlətin əsas qanunudur. Konstitusiya həmin ölkənin ictimai-iqtisadi quruluşunun əsasını, idarəetmə formasını və dövlət quruluşunun formasını, şəxsiyyətin hüquqi vəziyyətini, mərkəzdə və yerlərdə hakimiyyət və idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətini, ədalət̀s mühakiməsinin seçki sistemini və onun əsas prinsiplərini təsbit edir. Konstitusiya həmin ölkənin hüquq sistemini təşkil edən digər normativ aktlara nisbətən ali hüquqi qüvvəyə malikdir. Bütün normativ aktların Konstitusiyaya uyğun olmasını konstitusiya nəzarəti orqanları həyata keçirir.

Bir çox ölkələrin təcrübəsində konstitusiya layihələri müəyyən üsulla işlənib hazırlanır və qəbul edilir. ABŞ-ın ilk konstitusiyası təsisat məclisi tərəfindən işlənib hazırlanmış, sonra isə ştatların konventləri tərəfindən ratifikasiya (təsdiq) edilmişdir. Fransada qüvvədə olan konstitusiya layihəsi (1958) konstitusiya komitəsi tərəfindən hazırlanmış və referendum yolu ilə bəyənilmişdir.

Keçmiş SSRİ-də 1918, 1924, 1936 və 1977-ci illərdə konstitusiyalar qəbul edilmişdir. Bunlara uyğun olaraq müttəfiq respublikalarda da konstitusiyalar hazırlanır və qəbul etdirilirdi.

Hüquq ədəbiyyatında formasına görə iki növ konstitusiya var: yazılmış, yəni müəyyən sxem üzrə qurulmaqla vahid sənəd kimi tərtib edilmiş konstitusiya. İkincisi, yazılmamış, yəni bir

çox parlament qanunlarından, məhkəmə presedentlərindən, adətlərindən ibarət olan konstitusiya. Adi parlament qanunlarına nisbətən daha mürəkkəb qaydada dəyişdirilən konstitusiya sabit sayılır.

**Qanunun aliliyi.** Qanun sözün geniş mənasında normativ hüquqi aktların, dövlət tərəfindən müəyyən edilmiş ümumi məcburi qaydaların məcmusudur. Hüquqi mənada qanun dövlət hakimiyyətinin ali nümayəndəli orqanı tərəfindən, yaxud əhalinin bilavasitə iradəsi ilə qəbul edilmiş, ən yüksək hüquqi qüvvəyə malik olan və ən mühüm ictimai münasibətləri nizamlayan normativ aktdır. Qanun dövlətin hüquq sisteminin əsasıdır. Müstəqil hüquq mənbəyi kimi qanun qədim dövrlərdən yaranmış və müasir dövrdə geniş yayılmışdır. Qanun ali hüquqi qüvvəyə malikdir. Qanunun ali qüvvəsi həm o deməkdir ki, bütün dövlət orqanlarının aktları qanuna uyğun olmalı, tələbləri verilməli və icrasına xidmət etməlidir, yəni qanun qüvvəsinə malik olmalıdır. Qanuna zidd hüquqi akt etibarsızdır.

Hüquqi dövltin formalaşdırılması ilə əlaqədar respublikada keçirilən hüquq islahatı cəmiyyət həyatının bütün sahələrində qanunun aliliyini təmin etməlidir. Demokratiyanın inkişafı əsasında hüquq qaydalarının qorunması və işləməsi mexanizmləri hazırlanmalıdır.

Qanunun hamı üçün bərabərliyi o deməkdir ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində Azərbaycan vətəndaşlarının hüquq bərabərliyi təmin edilir.

Azərbaycan Şərq dünyasında qadınların elm, mədəniyyət və incəsənət sahələrində fəaliyyətinə görə birinci yeri tutur. Azərbaycanda bütün millətlər bərabərhüquqludur. Burada heç bir irqi ayrıseçkiliyə yol verilmir. Azsaylı xalqların seçmək, seçilmək hüquqları var. Hər bir xalq öz dilində ibtidai təhsil alır, mədəni nailiyyətlərdən bərabərcəsinə istifadə edirlər.

Azərbaycanda hüquqların məhdudlaşdırılması, irqi və milli əlamətlərə görə vətəndaşlar üçün bilavasitə və ya dolayı

üstünlüklər müəyyən edilməsi, eləcə də irqi və ya milli müstəsnalığın və ya etinasızlığın hər hansı şəkildə təbliğ olunması qanunla cəzalandırılır.

**Qanun və əqidə.** Əhalinin bütün təbəqələri arasında qanunun əqidəyə çevrilməsi hüquqi dövləti yaratmağın və yaşatmağın mühüm şərtlərindən biridir. İnkişaf etmiş dövlətlərin əhalisinin çox böyük əksəriyyətində qanun artıq əqidəyə çevrilir. Məhz belə şəraitdə qanunun aliliyi təmin edilir. Əxlaq qaydalarının davranışımızdakı rolu nə qədər yüksəkdirsə, qanunçuluğun da rolu bir o qədər yüksək olmalıdır. Qanunlar hamı tərəfindən eyni cür qəbul edilməli və ona riayət olunmalıdır.

**Dövlət və şəxsiyyət. Vətəndaşlıq.** Vətəndaşlıq— şəxsin siyasi və hüquqi cəhətdən konkret dövlətə mənsubiyyətidir, dövlətlə onun hakimiyyəti altında olan şəxs arasında qarşılıqlı münasibətdir. Dövlət vətəndaşa hüquqlar verir, onu xaricdə müdafiə edir, öz himayəsinə götürür, öz növbəsində vətəndaş dövlətin qanunlarına və digər göstərişlərinə sözsüz əməl edir və dövlət tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirir. Bu hüquq və vəzifələrin məcmusu vətəndaşın siyasi-hüquqi statusudur və bu status onu xarici vətəndaşlardan və vətəndaşlığı olmayan şəxslərdən fərqləndirir.

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan vətəndaşlarına hüquqlar və azadlıqlar—əmək hüququ, istirahət hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, təhsil hüququ, mədəni nailiyyətlərdən istifadə etmək hüququ, digər hüquqlar və azadlıqlar verir, həm də bu hüquq və azadlıqlara təminat verir. Eləcə də Azərbaycan vətəndaşlarına vicdan azadlığı, elmi, texniki və bədii yaradıcılıq azadlığı verilib. Vətəndaşlar dövlət işlərində iştirak etmək, deputat seçmək və seçilmək hüququna malikdirlər.

Azərbaycan vətəndaşlarına konstitusiya ilə hüquq və azadlıqlarla yanaşı konstitusiya vəzifələri də verilib. Belə ki, Azərbaycan Konstitusiyasına və qanunlarına riayət etmək,

birgəyaşayış qaydalarına hörmət etmək; seçmiş olduğu ictimai faydalı fəaliyyət sahəsində vicdanla çalışmaq; milli sərvətləri və xalq mülkiyyətini qoruyub saxlamaq və möhkəmləndirmək, Azərbaycan dövlətinin mənafeyini qorumaq; onun qüdrətinin və nüfuzunun möhkəmlənməsinə kömək etmək; Vətənə sədaqətli olmaq; digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə hörmət etmək; cəmiyyətin və xalqın əleyhinə olan əməllərə qarşı barışmaz olmaq; təbiəti mühafizə etmək, onun sərvətlərini qorumaq; tarixi abidələrin və digər mədəniyyət sərvətlərinin qorunub saxlanması qayğısına qalmaq; valideynlərin qeydinə qalmaq, onlara yardım göstərmək, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında əsgəri xidmət—Azərbaycan vətəndaşlarının şərəfli vəzifəsidir.

Şəxsiyyəti təsdiq edən başlıca sənəd Azərbaycan vətəndaşı pasportudur. Bu pasport 16 yaşı tamam olmuş bütün Azərbaycan vətəndaşlarına müddətsiz verilir. Pasport hər bir adama təkcə onun böyük hüquqlara malik olmasını deyil, həm də onun vəzifələrini, öz davranışı üçün cəmiyyət qarşısında məsuliyyətini xatırladır.

Ləyaqətli vətəndaş olmaq üçün hər bir məktəbli səylə oxumağa, özünü nümunəvi aparmağa, şagirdlər üçün qaydalara əməl etməyə borcludur.

Məktəblilərin şəxsi məsuliyyəti onların yaşları ilə əlaqədar olaraq artır. Gənc vətəndaş boya-başa çatdıqda onun nəinki 'hüquqları genişlənir, həm də üzərinə düşən vəzifələr də artır. Şagirdin yaşı artdıqca o daha şüurlu olmalı və öz əməlləri üçün daha artıq şəxsi məsuliyyət daşımalıdır.

Artıq 11 yaşından etibarən hər bir məktəbli qayda-qanunu dəfələrlə ciddi surətdə pozmasına *görə* məcburi qaydada (yəni onun və valideynlərinin arzusundan asılı olmayaraq) xüsusi məktəbə, 14 yaşından etibarən isə—xüsusi texniki peşə məktəbinə göndərilə bilər. Həmin təlim-tərbiyə müəssisələrində şagirdlərin saxlanılması üçün onların valideynlərindən müəyyən edilmiş qaydada haqq alınır.

14 yaşından etibarən hər bir yeniyetmə bir sıra cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilə bilər.

15 yaşından etibarən yeniyetmə öz hərəkəti ilə vurduğu zərərə görə əmlak məsuliyyəti daşıyır.

İşə qəbul olunmuş, yetkinlik yaşma çatmayan şəxs əmək intizamına ciddi riayət etməyə borcludur.

16 yaşına çatmış hər bir adam cinayət məcəlləsində göstərilən bütün cinayətlər üçün, habelə inzibati xətalar üçün cavabdehdir.

Gənc nəslə diqqət və etimadı, gənclərin hərtərəfli inkişafı barəsində qayğını hər cəhətdən və dolğun şəkildə əks etdirən konstitusiyamız hər bir adamın qarşısında Azərbaycanın ləyaqətli vətəndaşı olmaq vəzifəsini qoyur.

**Sual və tapşırıqlar:** 1. Hüquqi dövlətin mahiyyətini və əsas cəhətlərini şərh edin. 2. Konstitusiyanın cəmiyyətin həyatındakı rolu haqqında nə bilirsiniz? 3. Qanunun aliliyi, onun hamı üçün bərabərliyi, eləcə də qanun və əqidə anlayışlarını necə başa düşürsünüz? 4. Dövlət və şəxsiyyət, vətəndaşlıq, vətəndaşların əsas hüquqları, azadlıqları və vəzifələri haqqında bildiklərinizi danışın. 5. Vətəndaşlıq cəmiyyəti, vətəndaşların dövlət və cəmiyyət qarşısında məsuliyyəti, dövlətin cəmiyyət və vətəndaşlar qarşısında məsuliyyəti haqqında bildiklərinizi şərh edin. Bu münasibətlərdəki qarşılıqlı əlaqənin əhəmiyyətini ayrıca qeyd etməyi unutmayın.

## §24. Azərbaycan Cümhuriyyətinin yaranması və fəaliyyəti

**Azərbaycan Cümhuriyyətinin yaranması.** XIX əsrin I rübündə Rusiya-tran müharibəsinin yekunu olaraq 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinə görə Azərbaycan torpaqları iki imperiya arasında parçalandı–şimal torpaqları rus imperiyasına, cənub torpaqları isə İran imperiyasına düşdü. Bu zamandan etibarən Azərbaycan xalqı özünün azadlıq ideyasını

müəyyən formalarda yaşadır, onu reallaşdırmaq üçün addımlar atırdı. Lakin bu ideya, azadlıq arzusu az qala yüz il xalqın qəlbində bəslədiyi bir ideal olaraq qalıb.

1917-ci ilin fevralında çar Rusiyasında baş verən burjua-demokratik inqilabının qələbəsindən sonra Zaqafqaziyada siyasi proseslər özünəməxsus inkişaf yolu ilə cərəyan edirdi. Lakin bu dəvrdə nə Zaqafqaziya üzrə xüsusi komitə, nə də Zaqafqaziya Komissarlığı mövcud siyasi vəziyyəti sabitləşdirmək, müəyyən axara salmaq iqtidarında idi. 1918-ci ilin aprelində yaradılmış müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının da bölgənin üç əsas millətinin mənafeyini qorumaq işində aciz qaldığı üzə çıxdı. Azərbaycan, Gürcüstan və Ermənistandan olan seym nümayəndələri isə müxtəlif vacib məsələlərə münasibətdə bir-birinə tam zidd mövqelər tuturdular. Vahid dövlət qurumunda birləşdiklərinə baxmayaraq, onların arasında olan münasibətlər əslində çox kəskin xarakter daşıyırdı; Azərbaycanda isə böhranlı vəziyyət hətta o dərəcəyə çatmışdı ki, onun Azərbaycan yurdu kimi qalıb-qalmaması məsələsi həll olunurdu.

1918-ci ilin aprelində təşkil olunmuş Bakı quberniyası Xalq Komissarları Sovetinin rəhbərləri Azərbaycan xalqına öz müqəddəratını təyin etmək hüququnu rəva görmür, hətta başçıları S.Şaumyan «Azərbaycan» sözünü qəbul etməkdən imtina edirdi.

1918-ci il may ayının 26-da gürcü nümayəndələri seymi tərk edir və müstəqil Gürcüstan Demokratik Respublikası elan edirlər. Bundan sonra regiondakı siyasi vəziyyət dəyişir. Seymin Azərbaycan deputatları mayın 27-də Azərbaycan Milli Şurasını yaratdılar. Milli Şuranın sədrliyinə Türk Demokratik Federalistlər Partiyası "Müsavat"ın lideri M.Ə.Rəsulzadə, müavinliyə H.Ağayev seçildilər.

Qafqaz sərdarının Tiflisdəki sarayında toplanmış Milli Şuranın 28 may tarixli iclasında 24 səslə (2 nəfər əleyhinə) Azərbaycanın müstəqilliyi haqqında aşağıdakı İstiqlal

bəyannaməsi elan edildi: «1918-ci ilin mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası Azərbaycan istiqlalı Rusiya və Osmanlı imperiyası arasındakı müharibənin dayandırılması, eyni zamanda ölkə daxilindəki görünməmiş anarxiyanın ləğvi ilə bağlı olan Azərbaycanın mövcud siyasi durumu, Azərbaycan xalqlarını düşdükləri ağır vəziyyətdən qurtarmaq üçün Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın öz dövlət orqanizmini yaratmaq zərurətini qəti surətdə tələb edir. Buna görə də xalq seçkiləri ilə seçilmiş Azərbaycan Milli İslam Şurası bildirir:

I. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir.

II. Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik Cümhuriyyətdir.

III. Azərbaycan Cümhuriyyəti bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.

IV. Azərbaycan Cühuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.

V. Azərbaycan Cümhuriyyəti öz ərazisi daxilində yaşayan millətlərə azad inkişaf üçün geniş imkanlar verir.

VI. Müəssislər məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında xalq seçkiləri ilə seçilmiş Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumət durur.

Sonra Milli Şura bitərəf F.Xoyskiyə AC-nin müvəqqəti hökumətini təşkil etməyi tapşırır və Nazirlər Şurasının tərkibi təsdiq edilir. May ayının 30-da Azərbaycanın öz istiqlalını elan etməsi o zamankı dünyamızın əsas siyasi mərkəzlərinə–İstanbul, Berlin, Vyana, Paris, London, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristianiya (indiki Oslo), Kopenhagen və

Tokioya aşağıdakı radioteleqramla bəyan edilir: «Xarici işlər nazirinə. Gürcüstanın çıxması və Federativ Zaqafqaziya Respublikasının dağılması ilə Azərbaycan Milli Şurası 1918-ci ilin may ayının 28-də Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın istiqlaliyyətini elan etmiş, Azərbaycan Cümhuriyyətini yaratmışdır. Deyilənləri nəzərinizə çatdıraraq, zati-alinizdən bu barədə hökumətinizə xəbər vermənizi rica edirəm. Mənim hökumətim müvəqqəti olaraq Yelizavetpol şəhərində yerləşir. İmza: Xoyski, Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri.

Beləliklə, Azərbaycanın şimal hissəsində milli dövlətin bərpa edildiyi, burada islam və türk dünyasında ilk demokratik idarə üsulunun bərqərar olunduğu və Azərbaycan türklərinin də müqəddəratını özlərinin təyin etmək istəkləri dünyaya bildirildi.

1918-ci ilin may ayının 28-də İstiqlal bəyannaməsi ilə Azərbaycan Milli Şurası müstəqil Azərbaycan Cümhuriyyətinin yarandığını dünyaya bildirdi. İstiqlal bəyannaməsinin sonuncu maddəsinə əsasən müəssislər məclisi çağrılanadək bütün Azərbaycanın idarəsi başında Milli Şuranın durduğu, müvəqqəti hökumətin onun qarşısında məsuliyyət daşıdığı göstərilirdi.

**AC-in Azərbaycanın ərazi bütövlüyü və milli ordunu yaratmaq sahəsində fəaliyyəti.** Çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsi yeni yaranmış Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında sərhədlərin müəyyənləşməsində kəskin ziddiyyətlərin meydana çıxmasına səbəb oldu. Azərbaycan hökuməti işə başladığı ilk günlərdə qanunlara müraciət edərək, sərhəd məsələsində mürəkkəb vəziyyətin yaranmasının qarşısını almaq və mehriban qonşuluq münasibətləri bərqərar etmək məqsədilə respublikaların ərazisini elan etməmişdən qabaq üçtərəfli danışıqlarda bu məsələni müzakirə edib, razılaşma əldə etməyi təklif edirdi.

Azərbaycan Milli Şurasının səlahiyyətli nümayəndəsi ilə erməni Milli Şurası arasındakı danışıqların nəticəsi Azərbaycan

Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında müzakirə olundu. Aleksandropolu (Gümrünü) Türkiyənin tutması ilə bağlı Ermənistan hökumətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsi nəzərdən keçirildi. Azərbaycanla Ermənistan arasında konfederasiya ehtimalını nəzərə alaraq, Azərbaycan Milli Şurası səs çoxluğu ilə İrəvan şəhərini Ermənistan (Ararat) Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı. Lakin Milli Şuranın bəzi üzvləri bu qərara etiraz etmiş, onun (qərarın) İrəvan quberniyasının müsəlman əhalisinin gələcək taleyi üçün təhlükə yaradacağı ehtimalından narahat olduqlarını göstərmişdilər. B.Rzayev Milli Şurada təmsil olunmuş irəvanlılar adından demişdi: «Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik, bizi—erməni respublikası ərazisində qalanları da unutmayasınız".

Bu dövrdə Ermənistan hökuməti bütün gücü ilə keçmiş İrəvan quberniyasının yerli qeyri-erməni əhalidən təmizləmək prosesinə başladı. 1918-ci ilin ilk aylarında dağıdılmış 300 türk (azərbaycanlı) kəndinə İrəvan, Yeni Bəyazid, Eçmiədzin, Sürməli və b. mahallarda yerlə-yeksan edilmiş onlarla yeni kənd əlavə olundu. Onların əhalisi nizami qoşun tərəfindən ya qətlə yetirildi, ya da başqa yerlərə pənah aparmağa məcbur edildilər. Həmin ilin avqust ayının təkcə son iki həftəsi ərzində bu mahallarda 50 kənd viran edilmişdi. İxtiyarında olan nizami dəstələrə güvənərək Ermənistan hökuməti milli-ərazi bölgüsü məsələsində Azərbaycan hökumətini qabaqlayıb, onu fakt qarşısında qoymağa, gələcək müzakirələrin gedişinə bu yolla təsir göstərməyə çalışırdı.

Gürcü hökumətinin başçısı Ramişvili Azərbaycanla Gürcüstan sərhədlərinin keçmiş Yelizavetpol (Gəncə) və Tiflis quberniyalarının ərazisi üzrə müəyyən olunması haqqında bəyanat vermişdi. Bu bəyanata uyğun olaraq gürcü hökuməti iyun ayının əvvəllərində Borçalı mahalına gürcü və alman hərbi dəstələri göndərdi, eyni zamanda bu dəstələrə Poylu körpüsünə qədər dəmiryol xətti boyu ərazini tutmaq əmri verdi. Yerli əhali

yeni yaranmış AC-in öz hakimiyyətini Borçalıda təsbit etməsini tələb edirdi. Azərbaycan hökuməti əhalinin başdan-başa azərbaycanlılardan ibarət olduğu və keçmiş Yelizavetpol quberniyasına bitişik Borçalı mahalının orta zonasının, Tiflis mahalının şərqi (Qarayazı) və Sığnaq mahalının cənub-şərqinin taleyinə biganə deyildi. İyun ayının 14-də Azərbaycan hökumətinin xarici işlər naziri öz notasında Borçalı, Qarayazı və Sığnaq mahallarına gürcü-alman hərbi hissələrinin yeridilməsi ilə buranın Gürcüstana qatılmasına qəti etirazını bildirib, bu problemin siyasi yolla həlli tərəfdarı olduğunu göstərirdi. İyul ayının 20-də gürcü hökuməti Qarayazıda olan Azərbaycan hərbi hissələrini 24 saat müddətində buradan çıxarmaq haqqında ultimatum verdi. Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri bir daha bu məsələni siyasi yolla həll etmək təklifini irəli sürərək göstərirdi ki, «iki respublika arasında sərhədlər məsələsi hələ həll edilməmişdir”...

Ermənilər Sürməlini, Naxçıvanı, Axalkələki, Borçalını, Qazaxı, Qarabağı və Zəngəzuru istəyirdilər. Belə bir şəraitdə Azərbaycana nizami ordu lazım idi. Azərbaycan hökumətinin iyun ayındakı qərarına əsasən Azərbaycanda hərbi vəziyyət elan edildi. Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu»adlandırıldı, burada xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısamüddətli kurslar açıldı, məcburi hərbi mükəlləfiyyət haqqında fərman verildi. Ancaq bütün bunların kifayət etməyəcəyini və ordunun yaranmasının hər şeydən əvvəl vaxt tələb etdiyini nəzərə alaraq Nazirlər Şurasının sədri F.Xoyski Türkiyə hökumətindən bir diviziya həcmində real hərbi yardım göstərilməsini xahiş etdi. Hərbi yardım xahişi Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq haqqında müqavilədə öz əksini tapdı.

Türkiyə qoşunları Azərbaycan korpusu ilə Qafqaz İslam Ordusu adı altında birləşdi və Nuru paşanın komandanlığı altında Göyçay ətrafında 120 döyüşə girdi. Sentyabrın 15-də— Qurban bayramı günlərində Azərbaycan hissələri Bakıya daxil

oldu. Bakı uğrunda ağır döyüşlərdə mindən artıq təkcə Türkiyə əsgəri və zabiti qurban getdi. Yerli əhalidən olan şəhidlərin sayı isə 5 mindən çox idi.

Azərbaycanın xilaskarı və müttəfiqi Türkiyə dünya müharibəsində məğlub olmuşdu və öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqazdan çəkməli idi. Nuru paşa və silahdaşları Azərbaycan vətəndaşlığını qəbul edib, Azərbaycan Ordusunun təşkili işini davam etdirmək istəyirdilər.

Millətin təhlükəsizliyini və Vətənin ərazi bütövlüyünü qoruya biləcək milli ordunun yaradılması işi xüsusi diqqət və böyük vəsait tələb edirdi.

1919-cu il üçün nəzərdə tutulmuş dövlət büdcəsində ordunun yaradılmasına 399,4 milyon manat ayrılırdı ki, bu da büdcənin 24%-inə bərabər idi.

Məhdud imkanlara malik olmasına baxmayaraq, hərbi nazirlik böyük əzmlə ordu hissələrinin təşkili işinə girişdi. 1919-cu ildə 25 minlik nizami milli ordu yaratmaq vəzifəsi irəli sürüldü.

**Azərbaycan Cümhuriyyəti parlamentinin** ilk təsis iclası 1918-ci il dekabr ayının 7-də Bakıda (o vaxt Tağıyev qız məktəbinin, indi isə Salman Mümtaz adma əlyazmalar İnstitutunun binasında) oldu.

Parlament dövlət dili statusuna malik olan Azərbaycan dilindən istifadə edirdi. Qeyri-yerli əhali nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ xüsusi müzakirə olunmuş və qərar qəbul edilmişdi. Qərara əsasən parlamentin rəsmi dili Azərbaycan dili elan olunmuş, başqa millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi.

Azərbaycan Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində özünün aşağıdakı himnini qəbul etmişdi:

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN HİMNİ

*Musiqisi* ***Ü. Hacıbayovun,*** *sözləri* ***Ə. Cavadındır.***
Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni! .
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu.
Sən olasan gülüstan,
Sənə hər dəm can qurban!
Sənə bir çox məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

AC-ni mövcudluğu dövründə yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət bayraq milli bayraq hesab edildi. Mavi rəng türklüyü, qırmızı müasirliyi, demokratikləşməyi, yaşıl isə islamçılığı göstərirdi.

ÄC özünün gerbini yarpaq və sünbüllərlə haşiyələmiş üç dairənin içərisindəki səkkizbucaq ulduz üzərində əks etdirilmiş alov rəmzi şəklində müəyyənləşdirmişdi.

Müəssislər Məclisinə seçkilərə hazırlıq işləri 1920-ci ilin aprel ayında genişləndi. Seçkilər aprelin 20-nə təyin edildi. Ancaq ölkənin xarici siyasi vəziyyətinin kəskin surətdə dəyişməsi Azərbaycanda Müəssislər Məclisinə seçkilərin keçirilməsinə mane oldu. Parlament aprelin 27-dəki sonuncu

iclasında fakt qarşısında qalaraq Azərbaycan K(b)P, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və mərkəzi fənlə konfransı adından verilmiş ultimatuma cavab olaraq, hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında qərar çıxardı. Ultimatumda gələcək hakimiyyət orqanı haqqında deyilirdi ki, «azad şəkildə toplanacaq Azərbaycan Şuraları Hökumətin idarə şəklini təyin edəcəkdir”...

Nəticə olaraq qeyd edək ki, Rusiyanın 72 minlik XI ordusunun zirehli qatarlar qrupu 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Azərbaycan sərhədini adlayıb sürətlə Bakı üzərinə hərəkət etməyə başladı. Azərbaycan ordusunun kiçik dəstələri XI ordunun hücumunun qarşısını ala bilmədi. Hərbi nazir vəzifəsini icra edən general Şıxlinski (Mehmandarov xəstə idi) minalanmış körpülərin partladılması əmrini ləvğ etdi. Azərbaycan K(b)P, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və mərkəzi fəhlə konfransı hakimiyyəti təslim etmək haqqında Azərbaycan parlamentinə ultimatum verdilər. Hakimiyyətin dinc yolla təslim ediləcəyi təqdirdə 6 şərtə riayət ediləcəyi, o sıradan Azərbaycan ordusunun buraxılmayacağı vəd edilirdi. Lakin çox keçmədən Azərbaycan ordusu hissələri ləvğ edildi...

73 ildən sonra—1991-ci ilin 18 oktyabrında Azərbaycan parlamenti Azərbaycan Respublikasının dövlət istiqlaliyyəti haqqında konstitusiya aktını qəbul etməklə 1918-ci il istiqlaliyyətini yenidən bərpa etdi.

Sual və tapşırıqlar: 1. Azərbaycan xalqının istiqlaliyyət uğrunda mübarizəsini xronoloji ardıcıllıqla şərh edin. 2. Rusiyadakı fevral-burjua demokratik inqilabının qələbəsindən sonra Zaqafqaziyada ictimai-siyasi vəziyyəti konkret faktlarla izah edin. 3. Yeni yaranmış AC-in ərazi bütövlüyünü qorumasını izah edin. 4. Ordunun yaranması və təşkili sahəsində nə kimi tədbirlər həyata keçirilirdi? 5. Azərbaycan parlamentinin təşkili və fəaliyyətini açıqlayın. 6. Azərbaycan Cümhuriyyətinin marşı (himni), bayrağı və gerbi haqqında nə bilirsiniz?

## § 25. Azərbaycan respublikasının hüquq sahələri

**Hüquq sahəsi.** Oxşar ictimai münasibətləri nizamlayan xüsusiləşmiş hüquq normaları və institutlarına hüquq sahəsi deyilir. Hüquq sahəsi hüquq sisteminin əsas bölməsi olmaqla, ayrı-ayrı hüquq institutlarından əmələ gəlir. Hüquq normalarının, institutlarının və onlara müvafiq olan hüquq münasibətlərinin bir sahədə birləşməsi müəyyən ictimai münasibətlərin xüsusiyyətindən irəli gəlir, xüsusi hüquqi rejimə, yəni onların özünəməxsus metodla və mexanizmlə nizamlanmasına olan obyektiv zərurəti ifadə edir. Dövlət hüququ və inzibati hüquq, ailə hüququ, əmək hüququ, mülki hüquq və cinayət hüququ, mülki prosessual hüquq ən mühüm hüquq sahələridir. Bəzi hüquq sahələri yarımsahələrə bölünür. Təsərrüfat hüququ, təbiəti mühafizə hüququ, kənd təsərrüfatı hüququ, dəniz hüququ və s.

**Dövlət hüququ.** Azərbaycan Respublikası hüququnun əsassahəsini—dövlət hüququ—konstitusiya hüququ təşkil edir. Hüququn bu sahəsinə hüquq ədəbiyyatında Əsas qanun, Ana qanun da deyilir. Hüququn bir sahəsi olan dövlət hüququ Azərbaycan Respublikasının ictimai quruluşunun və siyasətinin əsaslarını, Azərbaycan vətəndaşlarının hüquqi vəziyyətini, onların hüquqlarını, azadlıqlarını və vəzifələrini, Azərbaycanın milli dövlət quruluşunu və onun dövlət orqanları sistemini möhkəmləndirən dövlət hüquq normalarının məcmusudur. Dövlət hüquq normaları Azərbaycan Respublikasının siyasi və iqtisadi sistemini müəyyən edir, sosial inkişaf və mülkiyyət sahəsində, xarici siyasət və vətənin müdafiəsi sahəsində dövlətin fəaliyyətini gücləndirir, dövlətlə şəxsiyyət arasındakı qarşılıqlı münasibətləri tənzimləyir. Dövlət hüququ Azərbaycanda yaşayan bütün xalqların və millətlərin, eləcə də muxtar respublikanın hüquqi vəziyyətini müəyyən edir. Dövlət Hüquq normalarında ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının, ədalət məhkəməsi orqanlarının sistemi, Onların yaradılması

qaydası və fəaliyyətinin ümumi prinsipləri, seçki sistemi təsbit edilir.

Dövlət hüququ xarakterli normalardan ibarət olan hüquqi aktlar Azərbaycan Respublikasının dövlət hüququnun mənbəyidir. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları Azərbaycan dövlət hüququnun əsas mənbəyidir.

Azərbaycan Ali Sovetinin (Milli Məclisinin), Azərbaycan Nazirlər Kabinetinin, eləcə də Naxçıvan MR-nın Ali Məclisinin, Naxçıvan MR Nazirlər Kabinetinin müvafiq qanunları və qərarları dövlət hüququnun mənbəyi ola bilər.

**Əmək hüququ.** Azərbaycan Respublikasında əmək–əmək qabiliyyətli hər bir vətəndaşın ən mühüm konstitusiya vəzifəsidir.

Əmək hüququ fəhlə və qulluqçu kimi işləyən vətəndaşların əməyilə bağlı vətəndaşlarla dövlət müəssisələri, kooperativ və digər fərdi müəssisələr arasında yaranan münasibətləri tənzimləyir.

**Ailə hüququ** – hüququn bir sahəsi olmaqla nigah və ailə münasibətləri əsasında yaranan şəxsi və əmlak münasibətlərini nizama salır. Azərbaycan Respublikasının Konstitusiyası ailənin dövlət tərəfindən müdafiə edildiyini elan etmişdir. Qüvvədə olan nigah və ailə qanunvericiliyinin əsas müddəaları təsbit edilmişdir.

**Mülki hüquq.** Azərbaycan Respublikasının hüquq sahələrindən biri olan mülki hüquq əmtəə-pul formasından istifadə ilə şərtlənən əmlak münasibətlərini və ilk növbədə onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini nizamlayır.

**İnzibati hüquq.** Azərbaycan Respublikasının inzibati hüququ –dövlət idarəetməsi prosesində yaranan münasibətləri tənzim edir.

**Cinayət hüququ** da hüququn bir sahəsidir. Cinayət hüququ – hər hansı hərəkəti və ya hərəkətsizliyi Azərbaycan dövlətinin cinayət hesab etdiyini və bu cinayətin edilməsinə görə hansı cəza

nəzərdə tutulduğunu müəyyən edir.

**Azərbaycan Respublikasının hüquq sahələri:**

a) Dövlət (Konstitusiya) **hüququ**
b) Əmək hüququ
v) Mülki hüquq
q) Ailə hüququ
ğ) İnzibati hüquq
d) Cinayət hüququ

Sual və tapşırıqlar: 1. Azərbaycan Respublikasının hüquq sahəsinin mahiyyətini izah edə bilərsinizmi? *2.* Azərbaycan Respublikasının hüquq sahələrini sadalayın. 3. Həyati faktlarla hər bir hüquq sahəsinin ayrı-ayrılıqda cəmiyyətimizin həyatındakı rolunu əsaslandırın.

## § 26. Azərbaycan respublikasının inzibati hüququ

İnzibati hüquq-dövlət idarəetmə orqanlarının təşkili və icra-sərəncam fəaliyyəti prosesində əmələ gələn ictimai münasibətləri nizamlayır. İnzibati hüquq normaları icra-sərəncam fəaliyyətini həyata keçirən dövlət orqanlarının təşkili (yaradılması, yenidən qurulması və ləğvi) qaydasını, bu orqanların və onların qulluqçularının, habelə vətəndaşların, dövlət təşkilatlarının, kooperativ təşkilatların, müəssisə və idarələrin dövlət idarəetmə sahəsində vəzifələrini və hüquqlarını müəyyən edir.

**Xalq təsərrüfatı idarəçiliyinin əsasları. Xalq maarifi, elm, mədəniyyət, səhiyyə və sosial təminat sahəsində idarəçilik,** inzibati Hüquq cəmiyyətin siyasi, iqtisadi, elmi-texniki, sosial-mədəni həyatının inkişafına kömək edir, ictimai asayişin gözlənilməsini və mühafizəsini, Azərbaycan Respublikasının müdafiə qüdrətinin və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edir.

İnzibati hüquq münasibətlərinin obyekti əksər hallarda

insan münasibətləri, insan fəaliyyəti və davranışıdır. Təşkilati–əmlak xarakterli münasibətlərdə inzibati hüquq münasibətlərinin obyekti müəyyən əmlakdır. .

İnzibati hüquq sistemi ümumi və xüsusi hissədən ibarətdir. Ümumi hissə dövlət .idarəetməsinin bütün sahələrini nizamlayan aşağıdakı normalardan ibarətdir: inzibati hüquq sistemi və mənbələri, inzibati hüquq subyektləri, dövlət idarə-etmə prinsipləri, onun orqanlar sistemi, idarəetmə fəaliyyətinin formaları, metodları və s. Xüsusi hissəyə ayrı-ayrı idarəetmə sahələrindəki ictimai münasibətləri nizamlayan inzibati hüquq normaları aiddir: planlaşdırma, uçot, maliyyələşdirmə və maddi-texniki təchizat, sənaye, əsaslı tikinti, kənd təsərrüfatı, nəqliyyat və s. Sosial-mədəni quruculuq, xalq maarifi, elm, mədəniyyət, səhiyyə, sosial-təminat, inzibati-siyasi idarəetmə (müdafiə, milli təhlükəsizlik, ictimai asayişi mühafizə, ədliyyə). İnzibati hüququn həm xüsusi, həm də ümumi hissələrinə dair qanunvericilik aktları Azərbaycan Ali Soveti və ya Milli Məclisi tərəfindən işlənib hazırlanır, qəbul edildikdən sonra icra üçün Nazirlər Kabinetinə və Prezident aparatına verilir. Nazirlər Kabineti həmin qanunlar əsasında fəaliyyət üçün qərarlar və sərəncamlar hazırlayaraq müxtəlif nazirliklərə və dövlət komitələrinə göndərir.

**İnzibati hüquqpozma və inzibati məsuliyyət.** İnzibati hüquq dövlət idarəetmə prosesində əmələ gələn münasibətləri tənzim edir. İnzibati hüquq münasibətlərinin xüsusiyyəti ondan ibarətdir ki, bu münasibətlərdə hökmən müəyyən dövlət vəzifələrini yerinə yetirən, hökmlü səlahiyyətlərə malik olan dövlət idarəetmə orqanı (məsələn, icra hakimiyyəti yanında həddi-buluğa çatmayanların işləri üzrə komissiya) iştirak edir. Həmin dövlət idarəetmə orqanı, məsələn, vətəndaşı təhsil ocağına, qəbul etdirə bilər, mənzilə köçmək üçün order verə bilər, şikayəti həll edə bilər, inzibati məsuliyyətə cəlb edə bilər və s. Məsələn, vətəndaş motosiklet sürmək hüququna 16 yaşından, avtomobil sürmək hıququna isə 18 yaşından malik ola

bilər. Bu qayda yeniyetmələrin özlərinin və digər adamların həyatını, sağlamlığını, mənafelərini qorumaq zərurəti, habelə nəqliyyat vasitələrinin yüksək təhlükə mənbəyi olması ilə izah edilir. Motosiklet və avtomobil sürmək hüququ yalnız müəyyən edilmiş imtahanları vermiş şəxsə verilir. Sayca çox olan inzibati hüquq normalarından biz yalnız inzibati hüquqpozmalara (bunları çox vaxt xata adlandırırlar) görə məsuliyyət müəyyən edən normalarla tanış olacağıq.

Bir neçə misalı nəzərdən keçirək. Vətəndaş sərxoş vəziyyətdə küçəyə çıxır, o, gəlib-gedənlərə sataşır. Onu polis idarəsinə gətirir və cərimə edirlər.

Sürücü avtomobili müəyyən edilmiş yürüş həddindən artıq sürətlə sürür. Buna görə də o, Dövlət Avtomobil Müfəttişliyi (DAM) tərəfindən cərimə olunur.

Bunların hamısı inzibati hüquqpozmalardır (inzibati xatalardır). Belə xatalar çox olur: ictimai asayişin, pasport rejiminin, yol hərəkəti qaydalarının, yanğın təhlükəsizliyi qaydalarının, sanitariya və gigiyena qaydalarının pozulması və s.

Nə üçün inzibati xata törədilməsinə görə adamı məsuliyyətə cəlb edirlər? Hər şeydən əvvəl, ona görə ki, onun hərəkəti dövlətə, cəmiyyətə, əhalinin cansağlığına zərər vurur.

**İnzibati xata** (qəsdən və ya ehtiyatsızlıq üzündən edilmiş inzibati xata–konkret, hüquqi aktla müəyyən edilmiş davranış qaydasının təqsirli hərəkətlə pozulması deməkdir. Məsələn, sürücü maşını ya bilə-bilə ya da sürətölçənə baxmadığından, yəni ehtiyatsızlıq üzündən yüksək sürətlə sürür. Birinci halda onun hərəkəti qəsdən, ikinci halda isə ehtiyatsızlıq üzündən qaydanı pozmaq hesab edilir.

İnzibati xatalara görə on altı yaşına çatmış şəxslər məsuliyyətə cəlb edilirlər.

Elə hallar da olur ki, inzibati xata müəyyən şəraitlərdə cinayət kimi qiymətləndirilir. Məsələn, yol hərəkəti qaydalarının pozulması ağır nəticələrə səbəb olmadıqda inzibati xata hesab

edilir. Əgər belə bir xata nəticəsində adam həlak olmuşsa, ya da başqa cür ağır nəticələr baş vermişsə bu halda hüquq pozuntusu cinayət hesab edilir. Yol qəzası piyadanın təqsiri üzündən baş verən hallarda yalnız sürücü deyil, eyni zamanda piyada da cinayət məsuliyyəti daşıyır.

**İnzibati tənbehin növləri.** İnzibati tənbeh vətəndaşları qanunlara riayət, birgəyaşayış qaydalarına hörmət ruhunda tərbiyə etmək, habelə həm hüquqpozan şəxs, həm də digər şəxslər tərəfindən yeni hüquq pozuntuları törətməyin qarşısını almaq məqsədilə tətbiq olunur.

Qanunla aşağıda göstərilən inzibati tənbeh növləri müəyyən edilmişdir:

Xəbərdarlıq—inzibati xata törətmiş adama dövlət tərəfindən edilən ehtiyat tədbiridir.

Cərimə—miqdarı qanunla müəyyən edilən pul tənbehidir. Məsələn, 14 yaşından 16 yaşmadək yeniyetmələr tərəfindən edilmiş xırda xuliqanlığa görə onların valideynləri cərimə oluna bilərlər.

tslah işləri—tənbeh tədbirləri daimi iş yerində əmək haqqının 20%-ə qədəri tutulmaqla iki aylıq müddətədək tətbiq edilir.

inzibati həbs—15 günədək bir tənbeh tədbiri kimi xırda xuliqanlıq və bəzi digər xatalar edilməsinə görə və ya polis işçisinin qanuni sərəncamına və ya tələbinə qəsdən tabe olmamağa görə tətbiq edilə bilər.

Müəyyən əmlakın müsadirə edilməsi, xüsusi hüquqlardan məhrum edilmə (məsələn, avtomobil sürmək hüququndan məhrum edilmə) tədbirləri də inzibati tənbeh növlər indəndir.

Sərxoş vəziyyətdə xata törətmək inzibati hüquqpozmaya görə məsuliyyəti ağırlaşdıran hallardan biridir.

**Xırda oğurluğa və xırda xuliqanlığa görə inzibati məsuliyyət.** İnzibati məsuliyyət dövlət əmlakının və ictimai əmlakın xırda oğurluğunu etmiş şəxsə, həm də onun hərəkəti cinayət məsuliyyəti doğurmadığı halda tətbiq edilir.

Dövlət əmlakının və ictimai əmlakın hər hansı şəkildə oğurlanması mülkiyyətə qəsd edilməsi, əxlaqa və qanuna zidd hərəkət deməkdir.

Xırda xuliqanlıq ictimai yerlərdə nalayiq sözlərlə söyüş söymək, vətəndaşlara sataşmaq, onları təhqir etmək və ya ictimai asayişi və adamların rahatlığını pozmaq və digər bu qəbilli hərəkətləriehtiva edir. Belə hərəkətlər mahiyyətcə cinayət xarakteri daşıdığı halda, inzibati xata sayılır və bu hərəkətləri edən şəxslər inzibati qaydada cərimə ilə, və ya 15 gün müddətinə həbslə cəzalandırılırlar. Sərxoşluq, ədəbsizlik, səbatsızhq, adamlara hörmətsizlik çox hallarda xuliqanlığa və digər hüquq pozğunluqlarına gətirib çıxarır.

**Spirtli içkilərdən sui-istifadəyə görə inzibati məsuliyyət.** Sərxoşluğun adamların cansağlığına, ailəyə, uşaqların tərbiyəsinə, dövlətə və cəmiyyətə vurduğu zərərin ümumən ölçüsünü təyin etmək çox çətindir. Spirtli içkilər içmək məsuliyyət hissini zəiflədir, çox vaxt cinayətlə nəticələnir. Xuliqanlıq hərəkətlərinin 90%-i, ağır bədən xəsarətlərinin, soyğunçuluğun və quldurluq qəsdlərinin 85%-i, adam öldürmələrin 75%-dən çoxu sərxoş halda edilən cinayətlərdir. Sərxoşluq istehsalata çox böyük ziyan vurur, işə gecikmələrə, işburaxmalara, digər şəkildə əmək intizamının pozulması hallarına, qəzalara və adamların həlak olmasına səbəb olur.

Ona görə də bu bəlaya qarşı mübarizədə Azərbaycan dövləti müvafiq qanunlar, o sıradan inzibati tənbeh tədbirlərindən də istifadə edir.

Hüquq və əxlaq normaları, həyat tərzimiz, milli adət və ənənələrimiz, islam dini qaydaları spirtli içkilər içməyə qarşı yönəldilmişdir.

Qanun on altı yaşmadək yeniyetmələrin spirtli içkilər içməsi, onların sərxoş halda ictimai yerlərdə görünməsi faktının özünü hüquqpozma kimi qiymətləndirir. Buna görə yeniyetmələrin valideynləri və onları əvəz edən şəxslər cərimə olunurlar.

Qanun sərxoşluğa aludə olan yaşlılara da ciddi yanaşır. Məsələn, spirtli içkilər içməyə və sərxoş halda ictimai yerlərdə görünməyə görə tənbeh verilir. İl ərzində eyni cür hüquqpozma təkrar olunduğu, həm də üçüncü dəfə törədildiyi təqdirdə daha ciddi surətdə cəzalandırılır. Spirtli içkilər içməyə və sərxoş halda istehsalata gəlməyə görə xeyli cərimə nəzərdə tutulmuşdur.

Qanun sərxoş halda nəqliyyat vasitələrini idarə etməyi, habelə bunların idarə olunmasının sərxoş şəxslərə verilməsini qadağan edir. Belə şəxslər üç ilə qədər nəqliyyat vasitələrini idarə etmək hüququndan məhüm edilirlər. Sürücülərin sərxoşluq vəziyyətini müəyyənləşdirmək üçün tətbiq edilən şəxsi müayinədən boyun qaçırma da hüquqpozma hesab edilir və ciddi cəzalandırılır.

Qanun yetkinliyə (həddi-buluğa) çatmayanları sərxoşluğa sövq edənləri də cəzasız qoymur. Belə yaşlılar, onların hərəkətləri öz xarakteri etibarilə cinayət məsuliyyətinə səbəb olmadığı təqdirdə, böyük məbləğdə cərimə olunurlar.

**Təbiəti mühafizə qaydalarının pozulmasına görə inzibati məsuliyyət.** Vətəndaşın konstitusiya ilə müəyyən edilmiş borcu təbiəti qorumaq, onun sərvətlərini mühafizə etməkdir.

Ölkəmizdə qanunsuz olaraq meşələri qırmağa, qanunsuz ov etməyə, qanunsuz balıq tutmağa və təbiətə ziyan vuran digər hüquqpozmalara görə məsuliyyət müəyyən edilmişdir. .

Təbiətin qorunması və onun sərvətlərindən səmərəli istifadə olunması ən mühüm dövlət vəzifəsi və hər kəsin borcudur.

Azərbaycanda xüsusi dövlət orqanları yaradılmışdır ki, bunlar təbiətin mühafizəsi qaydalarına əməl olunmasına nəzarət edirlər. Məsələn, meşə təsərrüfatı orqanları meşələri qoruyur, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını yoxlayırlar. Su ehtiyatlarının mühafizə olunmasına, balıq ehtiyatlarının qorunmasına nəzarət edən orqanlar və digər mühafizə orqanları da vardır. Təbii sərvətlərə qəsdetmə xatalarına görə həmin orqanlar cərimə edir, digər inzibati

tənbehlər verirlər.

Ölkəmizdə təbiəti könüllü mühafizə cəmiyyəti üzvlərinin böyük bir ordusu fəaliyyət göstərir. Məktəblilər 16 yaşına çatdıqda bu cəmiyyətə üzv ola bilərlər. Bir çox şagirdlər yaşıllıq aləminin və mavi aləmin səyyar keşikçiləri sıralarında təbiəti mühafizə edirlər.

**Yanğın təhlükəsizliyi. Qaydaların pozulmasına görə inzibati məsuliyyət.** İstehsalatda **və** məişətdə yanğın təhlükəsizliyi qaydalarına əməl edilməməsi dövlətə və vətəndaşlara çox böyük ziyan vura bilər. Planetimizdə yanğınların ümumi sayı ildə 5,5 milyona çatır, yəni hər 5 saniyədən bir haradasa yanğın baş verir. İndi yanğınlar vuran ziyan ildə milyard manatlarla hesablanır, onun qurbanları isə on minlərlə adam olur.

İctimai və xüsusi əmlakı yanğından qorumaq üçün ölkəmizdə yanğın təhlükəsizliyi qaydaları qüvvədədir ki, bunlara Azərbaycanın bütün vətəndaşları əməl etməlidirlər.

Yanğın təhlükəsizliyi qaydalarının pozulmasına görə dövlət yanğın nəzarət orqanları o halda cərimə edə bilərlər ki, bu pozulmalar cinayət məsuliyyəti doğurmur.

Yanğınların qarşısının alınmasında, yanğın təhlükəsizliyi qaydalarının izah edilməsində gənc yanğınsöndürən drujinaları böyük iş aparırlar.

**Tarix və mədəniyyət abidələrinin korlanmasına və ya məhv edilməsinə görə inzibati məsuliyyət.** Tarix və mədəniyyət abidələri xalqımızın milli sərvətidir. Tarixi abidələrin və digər mədəni sərvətlərin qorunması və saxlanması Azərbaycan vətəndaşlarının borcu və vəzifəsidir.

Məktəblilər abidələrin qorunmasında, bədii əhəmiyyəti olan əşyaların və digər mədəniyyət sərvətlərinin aşkara çıxarılmasında fəal iştirak edirlər.

Tarix və mədəniyyət abidələrinin məhv edilməsi, dağıdılması və ya xarab edilməsi hüquqpozma hesab olunur. Tarix və mədəniyyət abidələrini xarab etməyə və ya məhv

etməyə görə, həm də bu hərəkətlər cinayət məsuliyyəti doğurmadığı təqdirdə, vətəndaş cərimə oluna bilər.

Sual və tapşırıqlar: İnzibati hüquq anlayışını izah edin. 2. Xalq təsərrüfatının idarəçiliyində inzibati hüququn rolu nədən ibarətdir? 3. İnzibati hüquqpozma və inzibati məsuliyyət haqqında nə bilirsiniz? 4. İnzibati xata anlayışını aydınlaşdırın. 5. İnzibati tənbehin növlərini sadalayın. 6. Xırda oğurluğa və xırda xuliqanlığa görə inzibati məsuliyyət haqqında nə bilirsiniz? 7. Spirtli içkilərdən sui-istifadəyə, təbiəti mühafizə qaydalarının pozulmasına, eləcə də yanğın təhlükəsizliyi qaydalarının pozulmasına görə adamlar hansı inzibati məsuliyyətlərə cəlb edilə bilərlər? 8. Təbiətin, eləcə də tarix və mədəniyyət abidələrinin mühafizəsi sahəsində özünüzün və yoldaşlarınızın iştirakını zəruri hesab edirsinizmi?

## § 27. Təsərrüfat hüququ. Təbiətin mühafizəsi

**Təsərrüfat hüququ** dedikdə təsərrüfat fəaliyyətinin həyata keçirilməsi və ona rəhbərlik qaydaları, təşkilatlar, habelə onların bölmələri arasında yaranan təsərrüfat münasibətlərini nizamlayan hüquq normalarının məcmusu başa düşülür. Təsərrüfat hüququ səmərəli və faydalı təsərrüfatçılığı təmin etməyə yönəldilmişdir və iqtisadiyyatın təşkilinin zəruri vasitəsidir.

Təsərrüfat qanunvericiliyində təsərrüfat hüququ normalarına geniş yer verilir. İqtisadiyyatın ayrı-ayrı sahələrini və təsərrüfat fəaliyyəti növlərini nizamlayan normaların məcmusu olan təsərrüfat hüququ təsərrüfatçılığın prinsiplərini, formalarını və metodlarını, müəssisələrin, birliklərin və təsərrüfata rəhbərlik edən orqanların hüquqi vəziyyətini, iqtisadiyyatda əmlakın hüquqi rejimini, planlaşdırmanın hüquqi formalarını, təsərrüfat müqavilələri və digər öhdəliklər sistemini, təsərrüfat münasibətlərində məsuliyyəti müəyyən edir. Ümumi xarakterli normalarla yanaşı, təsərrüfat hüququnda konkret xarakterli normalardan da istifadə edilir: norma –

tapşırıq, səlahiyyət haqqında normalar, texniki-iqtisadi normalar və s. Onların yerinə yetirilməsi həm sanksiyalarla, həm də maddi həvəsləndirmə tədbirlərilə təmin edilir. Təsərrüfat hüququ normalarının özünəməxsus xarakteri bu normaların qəbul edilməsi qaydasını da müəyyən edir.

Müasir dövrdə təsərrüfat qanunvericiliyinin təkmilləşdirilməsi, baş idarələr tərəfindən verilən təlimatların sayının azaldılması, təsərrüfat münasibətlərində qanunçuluğun möhkəmləndirilməsi zəruridir.

**Təbiətin mühafizəsi** əlverişli təbii şəraitin qorunub saxlanılmasına və bərpasına yönəldilmiş dövlət tədbirləri və ictimai tədbirlər sistemidir.

İndiki nəslin və gələcək nəsillərin xeyrinə olaraq torpağın, yerin təkinin, su ehtiyatlarının, bitki və heyvanlar aləminin mühafizəsi, onlardan elmi cəhətdən əsaslandırılmış qaydada, səmərəli istifadə olunması, havanın və suyun təmizliyinin qorunması, təbii sərvətlərin bərpasının təmin edilməsi və insanı əhatə edən mühitin yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür.

Ətraf mühitdən səmərəli istifadə üçün torpaq qanunvericiliyinin əsasları, su qanunvericiliyinin əsasları, meşə qanunvericiliyinin əsasları, «Heyvanlar aləminin mühafizəsi və ondan istifadə haqqında”, «Atmosfer havasının mühafizəsi haqqında” qanunlar qəbul edilmişdir. Yerin təki haqqında qanunvericilik əsaslarını inkişaf etdirmək üçün müvafiq məcəllələr və digər qanunvericilik aktları qəbul edilmişdir. Səhiyyə haqqında qanunvericilik əsaslarında əmək şəraitini, əhalinin məişət və istirahətini təmin edən sanitariya-gigiyena tədbirləri müəyyən edilmişdir.

Təbiətin mühafizəsi işində elmi-texniki nailiyyətlərdən ləng istifadə edilməsi nəticəsində ətraf mühitin vəziyyəti təşviş doğurur. Bununla əlaqədar, iqtisadi, hüquqi və tərbiyəvi xarakterli daha qəti tədbirlərin görülməsi zərurəti yaranmışdır. Ətraf mühitin, ekoloji vəziyyətin yaxşılaşdırılması haqqında

qəbul edilmiş proqramların sözsüz yerinə yetirilməsi vacibdir.

İnsan ömrünün uzadılması, onun sağlam və gümrah böyüməsinin təmin edilməsi, müxtəlif xəstəliklərin qarşısının alınması üçün, birinci növbədə Vətənimizin yaşıl örtüyünü genişləndirmək, suyun, havanın təmizliyi qeydinə qalmaq lazımdır. Çünki təbiətdəki bütün canlıların təmiz su ilə saf havaya həmişə ehtiyacı var. Belə bir sual çıxır: bəs bunları kim etməlidir? Cavab qısadır: Hamımız.

Hər bir insan öz gündəlik fəaliyyəti dairəsində təbiətlə qarşılaşır. Bəziləri təbiət deyəndə hardasa üfüqün «o tərəfində” dağları, dağlardan başlanıb gələn çayları, şəhərdən uzaq meşələri və s. nəzərdə tutur. Halbuki təbiət elə bizim həyətimizdən, yaşadığımız küçədən başlayır. Təbiətə münasibət özünü bu başlanğıcda büruzə verir: həyətində neçə ağac əkmişən, küçənin təmizliyi üçün nə etmisən? Şəhərdə sanitariya qaydalarını pozanlara qarşı mübarizə aparmısanmı? Bu suallar hamımızı düşündürməlidir.

Təbiətdə tarazlığın pozulması bəşərin varlğını təhlükə qarşısında qoyur. İnsan öz-özünün keşikçisi olmalıdır. Heç bir başqa canlı onun harayına çatmayacaqdır. Təbiətin qayğısına qalmaq hamımızın borcudur. Təbiətə münasibətdə sağlamlaşdırma tədbirlərin həyata keçirilməsində gecikmək bizim bu günümüzü və gələcəyimizi təhlükə altına qoymaq deməkdir.

Sual və tapşırıqlar: 1. Təsərrüfat hüququ anlayışını şərh edin. 2. Təsərrüfat hüququnun yerini və rolunu həyati faktlarla izah edin. 3. Təbiətin mühafizəsi anlayışını şərh edin. Şərhinizi həyati faktlarla əsaslandırın. 4. Təbiətin mühafizəsinin əhəmiyyəti nə üçün vacibdir?

## § 28. Azərbaycan respublikasının əmək hüququ

**Əmək hüququ anlayışı.** Əmək hüququ Azərbaycan Respublikasının hüquq sahələrindən birini təşkil edir. Əmək

hüququ müəssisələrdə, idarələrdə, təşkilatlarda fəhlə və qulluqçuların əməyini nizamlayan hüquq sahəsidir. Əməyin tətbiqi sahəsində fəhlə və qulluqçuların müəssisə, idarə və təşkilatlarla münasibətlərini tənzim edir, zəhmətkeşlərin istehsalatın idarə edilməsində və fəaliyyət göstərməsində iştirakı ilə bağlı müəssisə, əmək kollektivi və həmkarlar ittifaqı komitəsi arasındakı münasibətləri nizamlayır, əmək mübahisələrinə baxılmasını müəyyənləşdirir.

Əmək hüququ hər bir Azərbaycan vətəndaşının konstitusiya hüququdur. Əmək hüququ Azərbaycan Əmək qanunları məcəlləsi ilə nizamlanmışdır.

**Əmək hüququ sistemi.** Hüququn bu Hüquq onun hissələrini, bölmələrini, institutlarını təşkil edən eyni cür hüquq münasibətlərini və yaxud hüquq münasibətinin eyni cür tərəflərini nizama salan müəyyən qanunlara bölünür. Bu cür bölgü hüquq ədəbiyyatında əmək hüququ sistemi adlandırılır. Əmək hüququ sisteminin düzgün şərhi təcrübədə hüquq normalarının düzgün öyrənilməsinə və tətbiqinə kömək edir.

**Əmək hüququnun mənbələri.** Adətən, «mənbə» dedikdə nəyəsə başlanğıc verən şey, nəyinsə hardan alındığı və yarandığı başa düşülür. Dövlətin hüquqyaratma fəaliyyəti ümumməcburi davranış normasına–qanuna çevrilir. Hüquqi aktların ifadə üsulları və formaları hüququn mənbəyi adlandırılır. Əmək hüququnun mənbəyini Azərbaycan Respublikasının Konstitusiyası, eləcə də əmək hüququ normalarını tənzimləyən külli miqdarda müxtəlif normativ aktlar təşkil edir.

**Əmək hüququ münasibətləri** istehsal münasibətlərini nizama salır və mülkiyyət münasibətlrini möhkəmləndirir, eləcə də maddi məzmuna malikdir.

**Əmək müqaviləsi** zəhmətkeşlərlə müəssisə, idarə və təşkilatlar arasında elə sazişdir ki, bu sazişə görə zəhmətkeş daxili əmək intizamı qaydalarına tabe olmaqla müəyyən ixtisas, dərəcə və ya vəzifə üzrə iş görməyi öhdəsinə götürür. Müəssisə, idarə, təşkilat, kooperativlər isə əməkçiyə əmək haqqı verməyi

və əmək qanunvericiliyində, kollektiv müqavilədə və tərəflərin sazişində nəzərdə tutulmuş şərtləri təmin etməyi öhdəsinə götürür. Əmək müqaviləsi əvəzli müqavilədir. Azərbaycan Əmək qanunları məcəlləsinə əsasən fəhləni və ya qulluqçunu işə qəbul etmiş müəssisə (idarə), yaxud təşkilat ona əməyinin miqdarına və keyfiyyətinə görə əmək haqqı verməlidir. Əməyin başlıca şərtləri–iş gününün müddəti, əmək haqqının miqdarı,– əməyin mühafizəsi və s.–əmək qanunvericiliyilə müəyyən edilir.

Xüsusi qanunlarla nəzərdə tutulmuş hallardan başqa, ictimai mənşəyinə, keçmişdə özünün və ya qohumlarının məhkum olunmasına və s. görə vətəndaşı işə götürməmək qanunsuz olduğuna görə qadağandır. İşə qəbul zamanı vətəndaşların cinsi, irqi, milli mənsubiyyətindən və dinə münasibətindən asılı olaraq hüquqlarının bilavasitə və ya dolayısı ilə məhdudlaşdırılmasına və ya xüsusi imtiyazlar müəyyən edilməsinə əsla yol verilmir. 16 yaşma çatmış hər bir vətəndaş əmək müqaviləsi bağlaya və əmək hüququnu həyata keçirə bilər.

Yaşı 16-dan az olan şəxslərin işə qəbul edilməsinə yol verilmir. Müstəsna hallarda 15 yaşına çatmış yeniyetmələr işə qəbul oluna bilərlər. Ümumiyyətlə isə 15 yaşdan 16 yaşa qədər olan yeniyetmələr yalnız həmkarlar ittifaqının fabrik, zavod yerli komitəsinin razılığı ilə briqada və yaxud fərdi şagirdlik qaydasında istehsal təhsili almaq məqsədilə işə qəbul oluna bilərlər.

Yaşı 18-dən az olan şəxslər işə qəbul olunarkən və 18 yaşına çatanadək hər il mütləq tibbi müayinədən keçməlidirlər. 18 yaşına çatmış şəxslər isə yalnız ticarət müəssisələrində və ərzaq şəbəkəsi təşkilatlarında, yeyinti müəssisələrində, uşaq idarələrində, sanatoriyalarda, istirahət evlərində, habelə ağır işlərə və əmək şəraiti zərərli olan yerlərdə işə qəbul olunarkən tibbi müayinədən keçirlər.

Həddi-buluğa çatmamışların əmək hüquqları həddi-buluğa çatmışlarm əmək hüquqlarına bərabərləşdirilir. Lazım gəldikdə yeniyetmələrin iş şəraiti dəyişdirilə də bilər. Ağır işlərdə və

əmək şəraiti zərərli və ya təhlükəli olan işlərdə, habelə yeraltı işlərdə yaşı 18-dən az olan şəxslərin işləməsi qanunla qadağan olunur. Qısaldılmış, iş günü müddətində işləyən, yaşı 18-dən az olan fəhlə və qulluqçulara əmək haqqı tam iş günü işləyən fəhlə və qulluqçuların aldıqları əmək haqqı qədər verilir.

Yaşı 18-dən az olan işəmuzd işləyən fəhlə və qulluqçuların əməyi yaşlı işçilər üçün müəyyən edilmiş işəmuzd qiymətlər üzrə ödənilir, yaşlı işçilərin iş günü müddətinə nisbətən onların gündəlik iş müddətinin qısaldığı vaxt üçün onlara tarif dərəcəsi üzrə əlavə haqq verilir.

Yaşı 18-dən az olan fəhlə və qulluqçuları gecə işlərinə, iş vaxtından artıq işlərə və istirahət günlərində işə cəlb etmək qadağan olunur.

Ağır işlərdə və əmək şəraiti zərərli olan işlərdə, habelə bəzi yeraltı işlərdə (qeyri-fiziki işlərdən, yaxud sanitariya və məişət xidməti işlərindən başqa) qadın əməyinin tətbiqi qadağan edilir. Xüsusi zərurətlə bağlı olan xalq təsərrüfatı sahələri istisna olmaqla, qadınların gecə işlərinə cəlb edilməsinə yol verilmir.

Hamilə qadınların və südəmər uşağı olan qadınların gecə işlərinə, iş vaxtından artıq işlərə, istirahət günlərində işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yol verilmir.

Tibbi rəyə uyğun olaraq hamilə qadınlar əvvəlki iş üzrə orta qazancı saxlamaqla hamiləlik dövründə başqa, daha yüngül işə keçirilirlər. Südəmər uşağı olan analar və bir yaşına çatmamış uşağı olan qadınlar əvvəlki işi görə bilmədikləri halda, uşağa süd verdiyi bütün vaxt ərzində və ya uşaq bir yaşına çatanadək əvvəlki işi üzrə orta qazancı saxlanmaqla başqa işə keçirilirlər.

Ümumtəhsil məktəblərini, texniki peşə məktəblərini vö texniki məktəbləri bitirmiş gəncləri, habelə yaşı 18-dən az olan başqa şəxsləri işə və istehsalat təliminə qəbul etməkdən ötrü bütün müəssisələr və təşkilatlar üçün bron (möhlət) müəyyən edilir.

**İş vaxtı və istirahət vaxtı.** İş vaxtı və iş günü anlayışları arasında müəyyən fərqlər var. İş vaxtı müəyyən edilmiş elə bir

vaxtdır ki, onun ərzində fəhlə və qulluqçu müəssisənin (idarənin) daxili əmək qaydalarına əsasən ona tapşırılmış işi yerinə yetirməlidir. Əmək hüququna əsasən iş günü normal müddətli, qısaldılmış və natamam ola bilər. İş günü əməyin müddətinin əsas universal və həm də təyinedici ölçüsüdür. Yerdə qalan iş vaxtı vahidləri isə (iş həftəsi, ay və s.) iş günlərindən əmələ gəlir. İş vaxtı qanunla müəyyən edilmişdir. Müdiriyyətin və işçinin razılığı ilə iş vaxtını nə uzatmaq və nə də qısaltmaq olar. Ölkəmizdə iş vaxtının nizama salınması iki başlıca məqsəd güdür: bir tərəfdən əməyin, zəruri mühafizəsi, ictimai, siyasi və mədəni həyatda iştirak etmək üçün zəhmətkeşlərə zəruri vaxtı təyin etmək, digər tərəfdən isə hər bir işçinin cəmiyyətə zəruri həcmdə əmək sərf etməsini təmin etmək.

Bununla həm zəhmətkeşlərin istirahət hüquqları, həm də iş vaxtından səmərəli və məhsuldar istifadə etməsi təmin edilir. Məhz buna görə də Azərbaycan dövləti işçini qanunsuz olaraq iş vaxtından artıq işlətməyə yol vermir: işə gecikmək, vaxtından qabaq işdən çıxıb getmək, iş vaxtından səmərəsiz istifadə etmək və s. hallarla mübarizə aparır.

İş vaxtı o vaxta deyilir ki, bu müddət ərzində zəhmətkeşlər özlərinin və ölkələrinin xeyrinə öz yaradıcı əmək qabiliyyətini həyata keçirirlər. Müəssisə və təşkilatların müdiriyyətləri, habelə fabrik, zavod, yerli həmkarlar komitələri həmin normanı– yəni müəyyən edilmiş iş vaxtına dürüst riayət olunmasını təmin etməlidir. Müdiriyyət istehsal prosesini elə təşkil etməlidir ki, boş dayanma olmasın.

Əmək qanunvericiliyinə görə iş vaxtı normalaşdırılmış və normalaşdırılmamış (sözün şərti mənasında) iş vaxtına (iş gününə) bölünür. Normalaşdırılmış iş vaxtı öz növbəsində normal, qısaldılmış və tam olmayan iş vaxtına (gününə) ayrılır. İş vaxtının əsas forması olan normal iş günü fəhlə və qulluqçuların əksəriyyəti üçün müəyyən edilmişdir.

Müəssisələrdə, idarələrdə, təşkilatlarda fəhlə və

qulluqçuların iş vaxtının normal müddəti gündə 7 saat, həftədə 41 saatdır. Bu, altı iş günü və bir istirahət günü olan iş həftəsi üçün normal müddətli iş vaxtı (günü) hesab olunur.

Əməyin mühafizəsi məqsədilə iş vaxtının qısaldılmış müddəti də müəyyən edilmişdir. Müddəti 7 saatdan az olan iş günü qısaldılmış iş günü hesab olunur. İş vaxtının qısaldılmış müddəti aşağıdakı kimi müəyyən edilmişdir: a) 16 yaşından 18 yaşadək olan fəhlə və qulluqçular üçün respublika korlar cəmiyyətlərinin tədris-istehsal emalatxanalarında və dövlət müəssisələrində işləyən korlar (görmə üzrə I və II qrup əlillər) üçün, ali məktəblərin professor-müəllim heyəti üçün gündə 6 saat, həftədə 36 saat; b) əmək şəraiti zərərli olan işlərdə çalışan, fəhlə və qulluqçular üçün həftədə ən çoxu 36 saat; v) 15 yaşından 16 yaşmadək olan şəxslər üçün, habelə iş şəraiti xüsusilə ağır olan sexlərdə çalışan fəhlə və qulluqçular üçün gündə *4 saat,* həftədə 24 saat. Bundan əlavə həkimlər, bağça və körpələr evlərinin tərbiyəçiləri üçün də iş vaxtının qısaldılmış müddəti müəyyən edilmişdir.

Azərbaycanda aşağıdakı günlər hər il bayram günləri kimi qeyd edilir. Milli Məclis qərara alıb ki, aşağıdakı bayramlar istirahət günü elan olunmaqla qeyd edilsin:

**1yanvar**—Yeni il günü

**Novruz bayramı**—bayram axşamı və bayram günü qeyd edilməklə (2 gün),

**28May**—Respublika günü,

**Qurban bayramı,**

**Orucluq bayramı,**

**9 Oktyabr**—Azərbaycan Ordusu günü,

**18 Oktyabr**—Dövlət müstəqilliyi günü,

**17 Noyabr**—Milli dirçəliş günü,

**31 Dekabr**—Dünya azərbaycanlılarının həmrəylik günü.

**Təminatlar və kompensasiyalar (əvəz)**—Azərbaycan əmək qanunları məcəlləsilə seçkili vəzifələrə seçilənlərə, ixtisaslarını artırmağa göndərilənlərə, donorlara, ixtiraçı və

səmərələşdirici fəhlə və qulluqçulara təminatlar və əvəzlər nəzərdə tutulur. Çoxuşaqlı və aztəminatlı ailələrə, pensiyaçılara, tələbələrə dövlət pullu ödəniş qaydası ilə əvəzlər ödəyir.

**Əmək intizamı** əmək prosesində insanlar arasında yaranan ictimai əlaqə formasıdır.

**Əməyin mühafizəsi** iş prosesində zəhmətkeşlər üçün normal və təhlükəsiz texniki və səhiyyə şəraiti yaratmaq üçün görülən tədbirlər məcmusudur. Əmək şəraitinin yüngülləşdirilməsi və sağlamlaşdırılması, istehsalat zədələri və xəstəliklərinin səbəblərinin aradan qaldırılması mühüm dövlət vəzifəsidir.

İstehsalat qurğuları, avadanlıqlar, texnoloji proseslər sağlam və təhlükəsiz əmək şəraitini təmin edən tələblərə cavab verməlidir. Bu tələblər ərazidən və istehsalat binalarından səmərəli istifadə olunmasını, texnoloji proseslərin düzgün təşkil edilməsini, işləyənlərin zərərli əmək şəraitinin təsirindən mühafizə olunmasını, istehsalat binalarının və iş yerlərinin sanitariya-gigiyena normalarına uyğun şəkildə saxlanmasını sanitariya – məişət binaları tikilməsini nəzərdə tutur.

**Qadın əməyinin mühafizəsi.** Əmək mühafizəsi normaları fəhlə və qulluqçuların cinsindən asılı olmayaraq, hamı üçün eyni formada həyata keçirilir. Lakin istehsalatda çalışan qadınların orqanizminin fizioloji və bioloji xüsusiyyətlərini nəzərə alaraq onlar üçün, xüsusilə də hamilə və südəmər uşağı olan analar üçün yeni normalar müəyyən edilmişdir.

Ağır işlərdə və əmək şəraiti zərərli olan işlərdə, habelə bəzi yeraltı işlərdə (qeyri-fiziki işlər, yaxud sanitariya və məişət xidməti işləri istisna edilməklə) qadın əməyinin tətbiqi qadağan olunur. Qadınların gecə işinə cəlb edilməsinin xüsusi zərurətdən irəli gəldiyi və buna müvəqqəti tədbir kimi icazə verildiyi hallar istisna olmaqla, qadınların gecə işlərinə cəlb olunmasına yol verilmir.

Əmək qanunvericiliyinə görə hamilə qadınları, südəmər uşağı olan anaları, səkkiz yaşınadək uşağı olan qadınları

razılıqları olmadan ezamiyyətə göndərmək olmaz.

Hamilə qadınları və 12 yaşınadək uşağı olan qadınları işdən sonra müəssisədə növbətçi təyin etmək qadağan olunur.

**Gənclərin əməyinin mühafizəsi.** Gələcəyimiz olan gənclərin əmək mühafizəsinə xüsusi qayğı göstərilməlidir.

16 yaşına çatmamış gənclərin işə götürülməsinə icazə verilmir. Lakin 16 yaşına çatmış gənclər müstəsna hal kimi həmkarlar komitəsinin razılığı ilə işə qəbul oluna bilərlər.

18 yaşına çatmamış gənclər işə qəbul olunandan sonra 18 yaşına çatanadək hər il tibbi müayinədən keçməlidir. Gənclər gecə işlərinə, iş vaxtından sonrakı işlərə, istirahət və bayram günləri işə cəlb oluna bilməzlər. Onlar iş vaxtının qısaldılmasına baxmayaraq əmək haqqını tam alırlar. Məzuniyyətləri isə onların arzusundan asılı olaraq, ilin istənilən vaxtı bir təqvim ayı verilir.

**Əməklə təhsilin birləşməsi.** Ali və onta isxtisas məktəblərində, texniki peşə məktəblərində axşam və qiyabi təhsil alan vətəndaşlara qanunla müxtəlif güzəştlər müəyyən olunmuşdur.

Axşam və qiyabi məktəblərdə təhsil alan işçilər ikinci və üçüncü kursa keçdikdə müəssisənin müdiriyyəti onu ixtisası üzrə işə keçirməli, əgər müəssisənin özündə həmin ixtisas yoxdursa, müəssisənin tabe olduğu yuxarı təşkilatın vasitəsilə və özünə tabe olan təşkilatda ixtisası üzrə işlə təmin etməlidir.

Təhsil məzuniyyəti xarakter və məzmununa görə başqa məzuniyyət növlərindən fərqlənir. Bu məzuniyyət dövlət tərəfindən təhsil üçün verilən xüsusi məzuniyyətdir və yalnız təhsillə əlaqədar olaraq ali məktəblərin müdiriyyəti tərəfindən müəyyən edilmiş qaydada ildə bir və ya iki dəfə verilməlidir. Tədris məzuniyyətini başqa vaxta keçirmək olmaz, ancaq tədris vaxtı verilməlidir.

İstehsalatdan ayrılmadan ali və orta ixtisas məktəblərinin axşam və qiyabi şöbələrində təhsil alan işçilərə aşağıdakı formada məzuniyyət verilir.

1. İstiqamətverici mühazirələrdə iştirak etmək, laboratoriya işləri görmək, zaçot və imtahanları vermək üçün axşam şöbələrinin birinci və ikinci kurslarına 20 təqvim günü məzuniyyət verilir.

2. Axşam şöbələrində təhsil alan işçilərə üçüncü və sonrakı kurslarda ildə 30 təqvim günü, qiyabi şöbələrdə təhsil alanlara isə ildə 40 təqvim günü məzuniyyət verilir.

3. Dövlət imtahanlarına hazırlaşmaq üçün ildə 30 təqvim günü məzuniyyət verilir.

4. Diplom layihəsini və ya diplom işini müdafiə etmək üçün 4 ay məzuniyyət verilir. Tədris ili ərzində layihəsinə və diplom işinə başlamaq və ya dövlət imtahanı vermək üçün altıgünlük iş həftəsi olan işçilərə əmək haqqı 50% saxlanılmaqla həftədə bir istirahət günü verilir. Lakin əmək haqqı dövlət tərəfindən müəyyən olunmuş minimum əmək haqqından az olmamalıdır. Beşgünlük iş həftəsində işləyənlərin göstərilən istirahət vaxtından istifadə etməsi onların iş növbəsinin müddətindən asılı olaraq dəyişir.

**Əmək mübahisələri** müdiriyyətlə fəhlə və qulluqçular arasında əmələ gələn mübahisədir. Əmək mübahisələri müxtəlif səbəblərdən yarana bilər: birincisi, əmək hüquq normalarının düzgün tətbiq olunmaması, əmək şəraitinin yaxşılaşdırılmaması, yeni normativlərin tətbiq olunmaması və s., ikincisi, müdiriyyətlə işçinin əmək hüquq normalarını müxtəlif cür anlaması və bildiyi kimi tətbiq etməsi, üçüncüsü, qanunda boşluğun olması, yəni hüquq normalarının köhnəlməsi və nəhayət, əhalinin hüquq mədəniyyətinin aşağı səviyyəsi.

Əmək mübahisələrinin həlli üçün xüsusi hüquqi aktlar qəbul olunmuşdur. Müdiriyyətlə işçi arasındakı əmək mübahisələrini iki qrupa bölmək olar: birincisi, iddia xarakterli mübahisələr, ikincisi isə iddia xarakterli olmayan mübahisələr. Birinci qrupa qanunsuz olaraq işdən çıxarma, başqa işə keçirmə, iş vaxtından əlavə işin əmək haqqı, ezamiyyət xərclərinin ödənilməsi, xüsusi geyimlərin, mühafizə ləvazimatının verilməməsi,

boşdayanmada əmək haqqının verilməməsi, zərərin ödənilməməsi və s. aiddir.

İkincisi iddia xarakterli olmayan mübahisələrdir. Buraya plan və normaların tətbiq olunması, işçilərə mükafatın verilməsi, səmərə və ixtiranın tətbiqi, əmək haqqı sisteminin seçilməsi, istehsal normativlərinin təsdiqi, kollektiv müqavilənin bağlanması, normalaşdırılmamış sahənin müəyyən olunması və s. daxildir.

**Dövlət sosial sığortası.** Sosial sığorta xalqın rifahını, mədəniyyətini və səhhətini daha da yaxşılaşdırmaq və inkişaf etdirmək üçün dövlət və həmkarlar ittifaqları tərəfindən həyata keçirilən tədbirlər sistemidir. İctimai sığorta məcburi qaydada həyata keçirilir, yəni ictimai sığortanı həyata keçirən orqanlar fəhlə və qulluqçulara qanun əsasında sığorta təminatı verməli və xidmət göstərməli, bütün müəssisə və idarələr isə sığorta haqqını ödəməlidirlər.

**Pensiyalar.** Azərbaycan Respublikasının 23 sentyabr 1992-ci il tarixli «Vətəndaşların pensiya təminatı haqqında" qanunu özünün demokratik və humanist xüsusiyyətləri ilə səciyyələnir. Bu qanun 1993-cü il yanvarın 1-dən qüvvəyə minmişdir. Qanun vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə onların Azərbaycan Respublikası Konstitusiyasında müəyyən olunmuş maddi təminat hüququna zəmanət verməklə vahid dövlət pensiya sistemini müəyyən edir.

Qanunla Azərbaycan Respublikası vətəndaşlarının, eləcə də digər dövlətlərin Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin pensiya təminatı məsələləri tənzimlənir.

Qanunla fəhlələrin, qulluqçuların, kolxozçuların fərdi əmək fəaliyyəti və sahibkarlıqla məşğul olan şəxslərin və digər kateqoriyalardan olan zəhmətkeşlərin pensiya təminatı üçün bərabər normalara və şərtlərə zəmanət verilir, əmək qabiliyyəti olmayan vətəndaşların sosial pensiya almaq hüququ təmin edilir.

Qanun dolanacaq xərcləri dəyişdikdə pensiya məbləğlərinin də müntəzəm surətdə dəyişdirilməsi yolu ilə pensiyaçıların sosial müdafiəsinə təminat verir.

Azərbaycan Respubliksınm ərazisində dövlət pensiya təminatı ilə yanaşı, müxtəlif ictimai və şəxsi pensiya təmiatı sistemləri də mövcud ola bilər. Bu sistemlərin fəaliyyəti müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

Qanunun ümumi müddəalar bölməsi 11 maddədən ibarətdir. Bu bölmədə pensiya təminatı hüququ, dövlət pensiyalarının növləri—əmək pensiyaları, sosial pensiyaların məzmunu əks etdirilib. Belə ki, əmək pensiyası hüququ olan şəxslər, hərbi qulluqçular və onların ailə üzvlərinin pensiya təminatı, pensiyalara Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə əlavələr, sosial pensiya almaq hüququ olan şəxslər, eləcə də pensiya seçmək, pensiya təyin olunması üçün müraciət, pensiyaların ödənilməsi üçün vəsait, pensiyaların vergilərdən azad edilməsi kimi məsələlər təsbit olunub.

Qanunun əmək pensiyaları və yaşa görə pensiyalar bölməsində göstərilir ki, yaşa görə pensiya hüququna aşağıdakılar malikdir:

kişilər 60 yaşına çatdıqda və azı 25 il iş stajı olduqda,

qadınlar 55 yaşma çatdıqda və azı 20 il iş stajı olduqda.

Həmin bölmədə əmək şəraitinə görə güzəştli pensiyalar, çoxuşaqlı anaların və uşaqlıqdan əlil olanların analarının pensiyaları, korların, liliputların və cırtdanboyların pensiyaları, müharibə əlillərinə yaşa görə' pensiyaların müəyyənləşdirilməsi əks etdirilib.

Qanunun əlilliyə görə pensiya hissəsi xüsusilə diqqətəlayiqdir. Burada əlillərin pensiya təminatı kompleks şəkildə nəzərə alınmışdır. Qanunun ailə başçısını itirməyə görə pensiyalar hissəsində zərər çəkmiş ailələrə qayğı göstərmək üçün qanunun bütün qüvvəsindən istifadə edilmişdir.

Qanunda xidmət illərinə görə pensiyaların müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Eləcə də

əmək pensiyaları təyin edildikdə iş stajının hesablanması, pensiyaların hesablanması qaydaları, vətəndaşların bəzi kateqoriyaları üçün pensiyalar, sosial pensiyalar, pensiyaların təyin edilməsi, ödənilməsi kimi məsələlər əks etdirilmişdir.

Qanunda pensiyaların ödənilməsi, qanunun qüvvəyə minməsi ilə əlaqədar əvvəl təyin edilmiş pensiyaların yenidən hesablanması qaydası da açıqlanmışdır.

Qanun Naxçıvan Muxtar Respublikasının pensiya fondunun, yerli hakimiyyət orqanlarının, əmək kollektivlərinin, pensiyaçıların maddi təminatı sahəsindəki hüquqları ilə tamamlanır,

Sual və tapşırıqlar: 1. Əmək hüququ anlayışının sistemini və mənbələrini şərh edin. 2. Əmək müqaviləsi, iş vaxtı və istirahət vaxtı anlayışlarını izah edin. 3. Azərbaycanda hansı bayram günləri iş günü hesab olunmur? 4. Əmək haqqı, təminatlar və kompensasiyalar haqqında nəyi bilirsiniz? 5. Əmək intizamı, əməyin mühafizəsi anlayışları haqqında danışın. 6. Azərbaycan Respublikasının əmək hüququ qadınlara, gənclərə, təhsil alan fəhlə və qulluqçulara nə kimi hüquqlar və güzəştlər müəyyən etmişdir? 7. Əmək mübahisələrinin həlli qaydalarını şərh edin. 8. "Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikası qanunun ümumi müddəaları haqqında nə bilirsiniz? 9. Dövlət sosial sığortası haqqında danışın. 10. Pensiyaçıların indeksasiyalaşdırılmasını necə başa düşürsünüz?

## § 29. Azərbaycan respublikasının mülki hüququ

**Mülki hüquq və mülki hüquq münasibətlərinin iştirakçıları.** Adamlar hər gün öz məişətlərində, ərzaq malları və başqa şeylər alırlar, kinoya, teatrlara gedirlər, kitabxanadan kitablar götürür, oxuyandan sonra onları geri qaytarırlar və s.

Bu vaxt onların heç ağlına belə gəlmir ki, bununla onlar mülki hüquq normaları ilə tənzim edilən münasibətlərə, başqa cür desək mülki hüquq münasibətlərinə girirlər.

Vətəndaşla ticarət müəssisəsi, ictimai iaşə və məişət xidməti müəssisələri arasında əmələ gələn münasibətlər mülki hüquq münasibətlərinin çox geniş yayılmış növüdür.

Mülki hüquq münasibətləri qanuna əsasən hüquqi şəxslər hesab edilən təşkilatların (birliklərin, müəssisələrin, idarələrin) özləri arasında da, məsələn, binaların tikilməsi, yüklərin daşınması və digər məsələlərin həll edilməsi ilə əlaqədar olaraq əmələ gəlir.

Deməli, mülki hüquq münasibətləri vətəndaşlar arasında, təşkilatlarla vətəndaşlar arasında və təşkilatlar arasında əmələ gələ bilər.

İndi də bu münasibətlərin nə ilə əlaqədar əmələ gəldiyini aydınlaşdıraq. Bizim misallardan görünür ki, hüquqi münasibətlər müəyyən bir əmlakla əlaqədar olaraq əmələ gəlmişdir. Məhz əmlak münasibətləri, yəni pul qiymətinə malik olan maddi nemətlərlə əlaqədar münasibətlər mülki hüquq münasibətlərinin əsas və daha geniş yayılmış növüdür. Bundan əlavə ad, şərəf, ləyaqətlə və bəzi şəxsi qeyri-əmlak nemətləri ilə əlaqədar olaraq əmələ gələn qeyri-əmlak münasibətləri də mülki hüquq münasibətlərinə aiddir. Deməli, mülki hüquq–əmlak münasibətlərini və bəzi şəxsi qeyri-əmlak münasibətlərini tənzim edir.

Mülki hüquq münasibətlərinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, bu münasibətlərin iştirakçıları bir-birinə tabe deyildirlər. Mülki hüquq münasibətlərində təşkilatın tutduğu vəziyyət eynilə vətəndaşın tutduğu vəziyyət kimidir, qanun onları bir növ bərabərləşdirir. Mülki hüquq münasibətlərinə onlar bir qayda olaraq azad surətdə, öz iradəsi, öz arzusu ilə daxil olurlar.

Vətəndaşın mülki hüquqları və vəzifələri ümumiyyətlə, onun malik olduğu hüquqların və vəzifələrin heç də hamısı deyildir, bunların yalnız mülki hüquq normaları ilə nəzərdə tutlmuş olan bir hissəsidir. Vətəndaş mülki hüquqlardan və vəzifələrdən başqa, artıq bildiyimiz kimi, bir sıra başqa

hüquqlara da malikdir.

Mülki hüquq normalarının tətbiqetmə zəruriliyi həmin normaların pozulduğu hallarda, pozulmuş hüquqları bərpa etməyin və ya bunları təsdiq etməyin lazım gəldiyi hallarda meydana çıxır.

Mülki hüquqlar və vəzifələr qanunla nəzərdə tutlmuş əsaslar olduğu təqdirdə meydana gəlir, dəyişilir və xitam edilir. Belə əsaslara şifahi və yazılı müqavilələr (razılaşmalar), məsələn, alğı-satqı, məişət birovuzu, daşıma, bağışlama, habelə digər razılaşmalar aiddir.

«Müqavilə» sözünü eşitdikdə, adətən, çoxlu paraqraflardan və maddələrdən ibarət, imza və möhürlə təsdiqlənən mürəkkəb bir sənəd haqda təsəvvür yaranır. Daşınmaz əmlakın, məsələn, bir mülkün satın alınması barədə müqaviləni keçmiş əyyamda heç də əbəs yerə, «qəbalə» («kupçi kağızı») adlandırmırdılar.

Bəzi müqavilələr üçün yazılı forma elə indi də vacibdir. Lakin müqavilələrin əksəriyyəti şifahi tərzdə bağlana bilər.

Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi, dəyişilməsi və ya xitam edilməsi ilə bağlı olan hərəkətlər əlaqədar şəxsin özü tərəfindən, ya da onun vəkil etdiyi nümayəndəsi vasitəsilə edilə bilər. Nümayəndənin hərəkət etməli olduğu hallarda marağı olan şəxs, onun adından hərəkət etmək üçün həmin nümayəndəyə yazılı şəkildə etibarnamə verməlidir. Bu ehtiyac müxtəlif səbəblər üzündən yarana bilər (məsələn, xəstələndikdə, yaşadığı yerdən müvəqqəti olaraq getdikdə və s.).

**Mülki hüquq və mülki fəaliyyət qabiliyyəti.** Mülki hüquq qabiliyyətinə, yəni mülki hüquqlara və vəzifələrə malik olma qabiliyyətinə bütün vətəndaşlar, habelə hüquqi şəxslər malikdirlər. Vətəndaşın mülki hüquq qabiliyyəti onun doğulduğu gündən başlayır və ölümü ilə qurtarır. Mülki hüquq qabiliyyətini müəyyən bir əmlak üçün əldə edilmiş olan hüquqdan ayırmaq lazımdır.

Mülki hüquqlara malik olan şəxslərdən heç də hamısı öz hüquqlarını müstəqil surətdə həyata keçirə bilmir. Məlumdur ki,

şəxsin düşünülmüş tərzdə hərəkət etmək, öz üzərinə vəzifələr götürmək qabiliyyəti müəyyən yaşa çatdığı andan əmələ gəlir. Bununla əlaqədar qanun mülki fəaliyyət qabiliyyəti anlayışını və onun həcmini müəyyənləşdirir. Şəxsin öz hərəkətlərilə konkret mülki hüquqlar əldə etmək və özü üçün mülki vəzifələr yaratmaq qabiliyyətinə mülki fəaliyyət deyilir.

Fəaliyyət qabiliyyətinin həcmi, hər şeydən əvvəl, vətəndaşın müəyyən yaşa çatması ilə əlaqədardır. Yaş əlamətinə görə vətəndaşları üç qrupa ayırmaq olar:

1. **18** yaşma çatmış vətəndaşlar tam fəaliyyətlidirlər;
2. On beş yaşından on səkkiz yaşınadək şəxslər qismən fəaliyyət qabiliyyətlidirlər, yəni onlar mülki hüquqi əqidələri öz valildeynlərinin, onları övladlığa götürənlərin və ya himayəçilərinin razılığı ilə bağlaya bilərlər. Onlar müstəqil surətdə yalnız xırda məişət müqavilələri bağlaya bilər, öz qazancları və ya təqaüdləri haqda sərəncam verə bilər, özlərinin müəlliflik və ixtiraçılıq hüquqlarını həyata keçirə bilərlər. Lakin on beş yaşından on səkkiz yaşınadək olan şəxs öz qazancını və ya təqaüdünü səmərəsiz xərclədikdə, o, müəyyən edilmiş qaydada bunları müstəqil xərcləmək hüququndan məhrum edilə bilər.
3. On beş yaşınadək uşaqlar və yeniyetmələr müstəqil surətdə yalnız xırda məişət müqavilələrini (məsələn, kinoya bilet almaq və s.) valideynlərin və yaşlıların razılığı və ya tapşırığı ilə yerinə yetirirlər. Onlara mənsub olan əmlaka onların adından valideynləri, övladlığa götürənlər və ya qəyyumlar sərəncam verirlər.

Qanunda aydın göstərilir ki, on beş yaşına çatmayan uşaq tərəfindən bağlanılan məişət müqavilələri (xırda məişət xarkterli müqavilələrdən başqa) etibarsızdır. Ona görə də həddi-buluğa çatmayan on beş yaşından on səkkiz yaşınadək şəxs tərəfindən bağlanan məişət müqavilələri məhkəmə tərəfindən ləvğ edilə bilər.

**Mülkiyyət hüququ**—mülkiyyət münasibətlərini, yəni

adamlar arasında istehsal vasitələrinə və digər maddi nemətlərə sahiblik, istifadə və sərəncam vermə ilə əlaqədar olan münasibətləri tənzim edir. Sahiblik hüququ–əmlaka bilavasitə malik olmaq, ona təsir etmək imkanına malik olmaq deməkdir istifadə–əmlakdan xeyir əldə etmək, onun köməyilə müəyyən tələbatı ödəmək, ondan qanuna zidd olmayan tərzdə fayda götürmək deməkdir. Əmlaka sərəncam vermək əmlakın necə deyərlər, «taleyini müəyyən etmək» (əmlakı satmaq, onu bağışlamaq, bütünlüklə sərf etmək və s.) deməkdir.

Nənəsinin velosiped bağışladığı Aydın həmin velosiped üzərində mülkiyyət hüququ əldə etmiş olar. Aydın velosipedi öz otağında saxlayır (bu əmlaka sahiblik hüququdur), velosipedi sürür (bu əmlakdan istifadə etmək hüququdur). Sonra Aydın həmin velosipedi müvəqqəti istifadə üçün öz əmisi oğluna verir, yəni o özünün əmlaka sahiblik hüququnu və əmlakdan istifadə etmək hüququnu əmisi oğluna verməklə, özünün velosiped üzərində sərəncam vermək hüququnu həyata keçirmiş olur. Daha sonra Aydın valideynlərinin razılığı ilə velosipedi yoldaşına satır, yəni özünün sərəncam vermək hüququnu reallaşdırır. Bu halda Aydın özünün velosiped üzərində (yəni konkret bir əmlak üzərindəki) mülkiyyət hüququnu itirir və satdığı velosipedin əvəzində aldığı pul üzərindəki mülkiyyət hüququ əldə edir.

**Öhdəliklər.** Mülki hüquqda müqavilə öhdəliklərini və ziyan vurulması nəticəsində əmələ gələn öhdəlikləri bir-birindən fərqləndirirlər. Müqavilə öhdəlikləri müqavilə bağlanması nəticəsində əmələ gəlir.

Vətəndaşlar çox hallarda özlərinin maddi və mədəni tələbatlarının ödənilməsinə yönəldilmiş olan müqavilələr (məsələn, alğı-satqı, bağışlama, borcalma, məişət birovuzu, mənzil icarəsi, sərnişin və yük daşınması, əmlakın saxlanması və s. barədə) bağlayırlar.

Müqavilə iştirakçılarının hüquqları və vəzifələri qanunla və iştirakçıların özlərinin arasında əldə edilmiş, sazişlə müəyyən

olunur. Məsələn, alğı-satqı müqaviləsinə əsasən satıcı əmlakı alıcının sahibliyinə verməlidir, alıcı isə əmlakı öz mülkiyyətinə qəbul etməli və bunun əvəzində müəyyən məbləğ pul verməlidir. Malların vətəndaşlara kreditə satılması üçün xüsusi qaydalar mövcuddur.

Əgər bir şəxs qanunsuz hərəkətlərilə digər şəxsə əmlak ziyanı vurmuş olarsa, ziyan vuran şəxs ziyan çəkmiş şəxsə ziyan vurulmuş əmlakın dəyərini ödəməlidir. Şəxsin səhhətinə xəsarət yetirmiş olduqda isə ziyan çəkənin müalicəsi üçün xərcləri, onun əmək qabiliyyətini itirməsi və ya şikəstliyi nəticəsində itirdiyi qazancını ödəməlidir. Əgər zərər əkən şəxs ölərsə, müqəssir həlak olanın ailə üzvlərinə onların dolanması üçün vəsait verməlidir.

15 yaşına qədər uşağın və yeniyetmənin vurduğu ziyana görə onun valideynləri və ya onları əvəz edən şəxslər məsuliyyət daşıyırlar. 15 yaşından 18 yaşnadək olan həddi-büluğa çatmayanlar, məktəbin və ya başqa bir idarənin nəzarəti altında olarkən, vurduqları ziyana görə məktəbin və ya başqa bir idarənin üzərinə məsuliyyət qoyula bilməz.

**Mülki hüquqların həyata keçirilməsi.** Mülki hüquqların həyata keçirilməsi–mülki qanunvericiliklə nəzərdə tutulan hərəkətlərin yerinə yetirilməsi deməkdir. Misalımızda Aydın ona bağışlanmış velosipedin üzərində şəxsi mülkiyyət hüququna bu velosipedi özü sürməklə və ya öz yoldaşlarına sürməyə icazə verməklə həyata keçirir.

Qanuna görə mülki hüquqların həyata keçirilməsi bunların cəmiyyətdəki təyinatıha zidd olmamalıdır.

Vətəndaşlar və təşkilatlar öz hüquqlarını həyata keçirərkən, vəzifələrini yerinə yetirərkən, qanunlara riayət etməli, birgəyaşayış qaydalarına və cəmiyyətin əxlaq prinsiplərinə hörmət etməlidirlər.

Sual və tapşırıqlar: 1. Mülki hüquq hansı münasibətləri tənzim edir? 2. Özünəxidmət mağazasından mal alarkən müqavilənin bağlanmasının hansı hərəkətlərdə ifadə olunduğu

barədə danışın. 3. Həddi-büluğa çatmayanların mülki fəaliyyət qabiliyyəti nədən ibarətdir? 4. Gün ərzində nə kimi mülki nüquq münasibətlərində olduğunuzu söyləyin. 6. Əmlak mülkiyyətinin səlahiyyətlərini sadalayın. 6. Həyati misallarla mülki hüquq münasibətlərindən irəli gələn öhdəlikləri şərh edin.

## §30. Azərbaycan Respublikasının ailə hüququ

**Ailə hüququnun vəzifələri.** Ailə adamların öz aralarında nikahdan, qohumluqdan, uşaqları övladlığa və tərbiyələndirməyə götürməkdən irəli gələn hüquq və vəzifələrlə bağlı ittifaqıdır. Azərbaycan ailəsi qarşılıqlı yardım və qayğı, kollektivçilik, məhəbbət və dostluq, borc və vicdan, qarşılıqlı hörmət və etimad münasibətlərilə səciyyələnir.

Ailədə münasibətlər, hər şeydən əvvəl, əxlaq normalarına əsaslanır. Bu münasibətlər ailənin möhkəmliyinin və xoşbəxtliyinin qorunub saxlanmasında birinci dərəcəli rol oynayır. Möhkəm ailə cəmiyyətin ən mühüm özəklərindən biridir.

Azərbaycan dövləti, nikah və ailənin böyük əhəmiyyətini nəzərə alaraq, nikah-ailə münasibətlərini tənzim edən ailə hüququ normalarını müəyyən edir.

Azərbaycan ailə hüququnun ən mühüm vəzifələri: ailəni getdikcə daha da möhkəmlətmək, ana və uşaqların mənafeyini müdafiə etmək, ailədə qarşılıqlı məsuliyyət hissi tərbiyə etməkdən ibarətdir. Qadın və kişinin hüquq bərabərliyi, milliyyətindən, irqindən və dinə münasibətindən asılı olmayaraq ailə münasibətlərində vətəndaşların hüquq bərabərliyi, ana və uşağın mənafeyinin hər cəhətdən mühafizə olunmasına dövlət qayğısı–bunların hamısı ailə hüququnun əsaslarını təşkil edir.

**Nikah bağlama qaydası və şərtləri.** Nikah qadının və kişinin qarşılıqlı məhəbbət, dostluq və hörmət hisslərinə əsaslanan, ailə yaratmaq məqsədi daşıyan və müvafiq dövlət orqanlarında qeydə alman könüllü ittifaqı deməkdir. Nikah

ailənin əsasıdır–onun ictimai əhəmiyyəti də elə bundadır. Cəmiyyətdə kişi ilə qadının könüllü ittifaqını, nikah bağlanılmasında onların tam azadlığını təmin edən şərait yaradılmışdır.

Nikaha daxil olan şəxslərin qarşılıqlı razılığından əlavə, bir vacib şərt də onların nikah yaşına çatmalarıdır. Azərbaycanda nikah yaşı kişilər üçün 17 yaş, qadınlar üçün 16 yaş müəyyən edilmişdir.

Ər-arvaddan heç biri özünün birtərəfli hərəkətləri ilə nikah ittifaqını poza bilməz. Hətta, əslində ailə dağılmış olsa və ər-arvadın ayrılmağa razılığı olsa belə, hüquqi cəhətdən nikah-məhkəmə yolu ilə və ya vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat orqanları (WAQ) tərəfindən onun pozulmasının rəsmiləşdirildiyi günədək öz qüvvəsində qalır. Qanun nikahın hökmən dövlət orqanlarında qeydiyyatdan keçirilməsini tələb edir. Bu qaydanın müəyyən edilməsi yalnız dövlətin və ictimaiyyətin mənafeyi üçün deyil, həm də ər-arvadın və onların uşaqlarının hüquqlarını və mənafeyini mühafizə etmək üçün vacibdir. Dövlət qeydiyyatı nikah bağlanmasında zoru və məcburiyyəti istisna etməklə könüllülük prinsipinə təminat verir. Ər-arvadın hüquqları və vəzifələri yalnız qeydiyyatdan keçirilmiş nikah nəticəsində əmələ gəlir.

Nikah rayon (şəhər) vətəndaşlıq vəziyyəti aktlarının qeydəalma şöbələri (büroları) tərəfindən, kənd yerlərində və qəsəbələrdə isə kənd və qəsəbə yerli icra hakimiyyətlərində qeydə alınır. Nikahın qeydə alınması, adətən, nikaha daxil olmaq istəyənlərin bu barədə ərizə verdikləri gündən bir ay sonra aparılır.

Nikahın bağlanması təntənəli şəraitdə, hökmən nikaha daxil olmaq istəyənlərin şəxsi iştirakı ilə, həm də onların arzusu ilə dəvət olunmuş şahidlərin, qohumların və tanışların iştirakı ilə keçirilir.

**Ərlə arvadın hüquq və vəzifələri.** Nikahın bağlanması ilə ər-arvad üçün şəxsi və əmlak hüquqları ilə vəzifələri əmələ gəlir.

Ər və arvadın hüquqi vəziyyəti qadının və kişinin ailə münasibətlərində bərabər hüquqlara malik olması haqqında konstitusiya müddəası ilə müəyyən edilir.

**Ər və arvad bərabər şəxsi hüquqlara malikdirlər.** Nikah bağlanan zaman evlənənlər öz arzusu ilə ümumi bir familiya kimi ərin və ya arvadın familiyasını seçirlər, ya da onlardan hər biri nikaha qədər daşıdıqları familiyalarını saxlayırlar.

Ailənin bütün həyati məsələləri ər və arvad tərəfindən qarşılıqlı razılığa əsasən birlikdə həll olunur. Onlardan hər biri özünə məşğələ, peşə və yaşayış yeri seçməkdə azaddır.

**Ər və arvad həm də bərabər əmək hüquqlarına malikdirlər.** Onlar nikahda olduğu müddət ərzində əldə etdikləri əmlaka bərabər hüquqda sahiblik edir və onun üzərində sərəncam verirlər. Onlardan hər hansı birinin qazancı az olduqda, ev təsərrüfatını apardığına, uşaqlara baxdığına, xəstəliyinə, təhsil aldığına və s. görə qazancı heç olmadığı hallarda belə, onların əmlaka olan hüquqları bərabərdir. Nikahda olduqları dövrdə ər-arvadın əldə etdikləri əmlakı bölüşdürmək lazım gəldiyi hallarda onlara çatacaq pay bərabər olmalıdır.

Ər və arvad bir-birinə maddi cəhətdən kömək göstərməyə borcludurlar.

**Valideynlərlə uşaqların hüquq və vəzifələri.** Ərlə arvad arasında münasibətlər ailə münasibətlərinin ən mühüm hissəsidir. Uşaqların meydana gəlməsi ilə ailə münasibətlərində yeni mərhələ yaranır. Valideynlərlə uşaqlar arasında, qardaşlarla bacılar arasında, nəvələrlə baba-nənə arasında yeni münasibətlər əmələ gəlir.

Ailə hüququ valideynlərin, uşaqların və ailənin digər üzvlərinin hüquq və vəzifələrini müəyyən edir.

Valideynlərlə uşaqların qarşılıqlı hüquq və vəzifələrinin əsasını uşaqların öz valideynlərindən doğulması təşkil edir. Rəsmi surətdə övladlığa götürülən uşaqların da hüquq və vəzifələri valideynlərlə doğma uşaqlar arasındakı hüquq və vəzifələrə bərabər tütulur.

**Qəyyumluq** Azərbaycanda vətəndaşların şəxsi əmlak mənafelərinin müdafiəsinin hüquqi formalarından biridir. Qəyyumluq yetkinlik yaşına çatmayan Uşaqlar üzərində, ruhi xəstə, yaxud kəmağıl şəxslər üzərində təyin edilir. Yalnız yetkinlik yaşma çatan, qanunla qəyyumluq funksiyasını öz üzərinə götürən şəxs qəyyum ola bilər. Qəyyum himayədə olan şəxsə zəruri məişət şəraiti yaratmalı, ona qayğı göstərməli, müalicəsini təmin etməli, hüququnu qorumalıdır.

Qəyyumluqda olanların əmlakı başqa ərazidə olduqda həmin əmlakın üzərində qəyyum təyin edilə bilər.

**Valideynlərin hüquqları, vəzifələri və məsuliyyəti.** Qadınla kişinin ailə münasibətlərində hüquq bərabərliyi prinsipinə müvafiq olaraq ata və ana öz uşaqları üzərində bərabər hüquq və vəzifələrə malikdirlər. Uşaqların tərbiyəsinə aid olan bütün məsələlər valideynlər tərəfindən qarşılıqlı razılıq əsasında həll edilir. Həddi-büluğa çatmyan uşaqların hüquq və mənafeyini mühafizə etmək öz uşaqlarının qanuni nümayəndələri, olan valideynlərin üzərinə düşür.

Valideynlərin əsas vəzifələrindən biri həddi-büluğa çatmayan uşaqların, həm də əmək qabiliyyəti olmayan və madai köməyə ehtiyacı olan həddi-büluğa çatan uşaqlarını saxlamaqdan ibarətdir. Valideynlər tərəfindən bu vəzifə yerinə yetirilmədiyi hallarda, məhkəmənin qərarı ilə onlardan uşaqları saxlamaq üçün vəsait, yəni aliment alınır.

Həddi-büluğa çatmayan uşaqların valideynləri olmadıqda, onları saxlamaq vəzifəsi digər qohumların–babanın, nənənin, qardaşın, bacının, habelə atalığın və analığın üzərinə qoyula bilər.

**Uşaqların vəzifəsi.** Uşaqlar öz valideynlərinin qayğısına qalmağa, onlara yardım göstərməyə borcludurlar. Bu mənəvi borc müəyyən hallarda, yəni uşaqlar həddi-büluğa çatmış olduqları, onların valideynlərinin isə əmək qabiliyyəti olmadığı və maddi köməyə ehtiyacı olduğu hallarda həm də hüquqi vəzifəyə çevrilir.

Əksər hallarda uşaqlar öz valideynləri qarşısındakı borcunu yaxşı başa düşür və bu borcu könüllü surətdə yerinə yetirirlər. Böyük yaşlı uşaqlar öz vəzifələrini yerinə yetirməyə etinasızlıq göstərdiyi təqdirdə, valideynlərin saxlanması üçün məhkəmə onlardan aliment alınması barədə qərar çıxara bilər. Yaşlı uşaqların öz valideynlərini saxlamaq üçün vəsait verməkdən boyun qaçırması cinayət hesab edilə bilər.

Valideynlərə qayğı göstərilməsi təkcə maddi cəhətdən yardım etməkdən ibarət deyildir. Valideynlər üçün ən böyük fərəh və ən yaxşı yardım onların övladlarının xeyirxah işləri və müvəffəqiyyətləridir, uşaqlarının əsl insan kimi yetişmələrini hiss etmələridir. Valideynlərlə uşaqlar arasındakı əlaqələrin möhkəm olması cəmiyyətimizin ən mühüm qüvvət mənbələrindən biridir.

Sual və tapşırıqlar: 1. Ailə hüququ haqqında nə bilirsiniz? 2. Azərbaycan Konstitusiyası ilə dövlət tərəfindən ailəyə yardımın nə kimi formaları nəzərdə tutulur? 3. Nikahın dövlət qeydiyyatından keçməsinin vacibliyini sübut edin. 4. Uşaqların tərbiyəsi sahəsində valideynlərin hüquqları və vəzifələri nədən ibarətdir. 5. Valideynlər barəsində uşaqların vəzifələri nədən ibarətdir?

## §31. Azərbaycan respublikasının cinayət hüququ

**Cinayət hüququ** Azərbaycan Respublikasının hüquq sahələrindən biri olub, hansı hərəkəti və ya hərəkətsizliyi Azərbaycan dövlətinin cinayət hesab etdiyini və bu cinayətin edilməsinə görə nə kimi cəzaların nəzərdə tutulduğunu müəyyən edir.

**Cinayət hüququnun vəzifəsi** Azərbaycanın ictimai quruluşunu, onun siyasi və iqtisadi sistemini, mülkiyyətini, şəxsiyyəti, vətəndaşların hüquq və azadlıqlarını, respublikanın bütün hüquq qaydalarını cinayətkar qəsdlərdən qorumaqdır.

**Cinayət.** Azərbaycan Respublikasının ictimai quruluşuna,

onun siyasi, iqtisadi sisteminə, mülkiyyətinə, şəxsiyyətə, vətəndaşların siyasi, əmlak, əmək və başqa hüquq və azadlıqlarına qəsd edən, cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik), habelə Azərbaycanın dövlət hüquq qaydalarına qəsd edən, cinayət qanununda nəzərdə tutulan sair ictimai təhlükəli əməl cinayət hesab edilir.

**Cinayətkarlıq** ümumi anlayış olub, hər hansı bir ərazidə, bu və ya digər dövrdə edilən bütün cinayətlərin məcmusunu əhatə edir. Cinayətkarlıq özüniin ümumi strukturu, dinamikası ilə (bu və ya başqa dövr ərzində səviyyəsinin dəyişilməsi), ayrı-ayrı cinayətlərin nisbəti və s. ilə səciyyələnir.

Cinayətkarlıq tarixən şərtləndirilmiş hadisədir. **O,** cəmiyyətin inkişafının müəyyən dövründə xüsusi mülkiyyətin meydana gəlməsi ilə yaranmışdır.

**Caza anlayışı və onun növləri.** Cəza törədilmiş cinayətə görə cinayətkara qarşı görülən tədbirdir. Eyni zamanda cəza məhkumları islah etmə və onları əməyə vicdanla yanaşma, qanunlara dürüst əməl etmə, cəza subyektini birgəyaşayış qaydalarına hörmət ruhunda yenidən tərbiyələndirmə, habelə həm məhkumlar tərəfindən, həm də sair şəxslər tərəfindən yeni cinayət törədilməsinin qarşısını almaq məqsədi daşıyır.

Cinayət etmiş şəxslərə aşağıdakı cəzalar tətbiq edilə bilər: 1) azadlıqdan məhrumetmə, 2) sürgün, 3) köçürmə, 4) azadlıqdan məhrum etmədən islah işləri, 5) müəyyən vəzifələri tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə, 6) vəzifədən çıxarma, 7) cərimə, 8) ictimai məzəmmət.

Müddətli xidmətdə olan hərbi qulluqçulara həmçinin intizam batalyonuna göndərmə cəzası da verilə bilər. Aşağıdakı cəza növləri də var:

—əmlak müsadirəsi,

—hərbi və ya xüsusi addan məhrumetmə,

—valideynlik hüquqlarından məhrumetmə.

Mövcud qanunçuluğa görə, cinayət etmiş şəxs cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır. Cinayət cəzası yalnız məhkəmənin hökmü ilə tətbiq edilə bilər.

**Cinayətdə iştirakçılığa görə məsuliyyət.** Qədim Yunanıstanda əfsanəvi məhkəmə allahı Femida bir əlində tərəzi, o birində qılınc təsvir olunmuşdur. Bu rəmzi təsvir o demək idi ki, allah cinayətkarın təqsirini ölçərək qılıncı işə salır, yəni cəza məsələsini həll edir.

Deməli, lap qədim zamanlardan belə, cəza təqsirkarın etmiş olduğu cinayətin nəticəsi kimi meydana gəlmişdir.

Cinayətlər həm bir şəxs tərəfindən, həm də bir neçə şəxs tərəfindən, yəni birgə iştirakçılıqla edilir. Qanuna əsasən «iki» və ya daha çox şəxsin cinayət etməkdə qəsdən birgə iştirakı – **iştirakçılıq** hesab edilir. İştirakçılıq tərzində edilmiş cinayət daha təhlükəli hesab olunur və buna görə daha ciddi cəzalandırılır. Məsələn, bir qrup şəxs tərəfindən edilən soyğunçuluq təkcə bir şəxs tərəfindən edilən soyğunçuluqdan daha ağır cinayətdir. Lakin cinayətdə iştirakçılıq dərəcəsi müxtəlif ola bilər. Bu cəhətdən cinayət iştirakçıları icraçılara, təşkilatçılara, təhrikçilərə, köməkçilərə ayrılırlar.

**İcraçı** cinayəti bilavasitə icra etmiş olan şəxsdir.

**Təşkilatçı** cinayəti təşkil etmiş və ya həmin cinayətə rəhbərlik etmiş şəxsdir.

**Təhrikçi** digər iştirakçıları cinayət etməyə, məsələn, hədələmə, dilətutma yolu ilə sövq edən şəxsdir.

**Köməkçi** cinayətə kömək etmiş şəxsdir. Cinayətkara cinayət vasitələrini və cinayətin izlərini, cinayətkarlıq yolu ilə əldə edilmiş əşyaları gizlətməyi qabaqcadan vəd etmiş şəxs də köməkçi hesab olunur.

Əlbəttə, cinayətin törədilməsində bu iştirakçıların hamısı heç də həmişə iştirak etmir. Qanun iştirakçıları fərqləndirərək, cinayətin edilməsində onlardan hər birinin iştirakının xarakterini və iştiraketmə dərəcəsini nəzərə almağa imkan verir.

İştirakçılardan heç biri yalnız cinayəti təşkil edən şəxsin

«əmrini yerinə yetirib» bəhanəsilə özünü məsuliyyətdən azad edəcəyinə ümid bağlaya bilməz. Eləcə də «cinayəti özü etməyib, o ancaq cinayətin edilməsini məsləhət görüb» bəhanəsilə də heç bir kəs məsuliyyətdən yaxa qurtara bilməz. İştirakçıların hər biri birgə etdikləri cinayətə görə müvafiq məsuliyyət daşıyır.

**Zəruri müdafiə** Azərbaycan dövlətinin mənafeyini, ictimai mənafeyi, özünü müdafiə edən şəxsin və ya başqa bir adamın şəxsiyyətini və ya hüquqlarını ictimai təhlükəli qəsddən qorumaq üçün edilən hərəkətlərdir. Belə bir müdafiənin qanunla yol verilmiş zəruri müdafiə hesab edilməsi üçün aşağıdakı şərtlər gözlənilməlidir:

— hücum və ya hücum hədəsi aldadıcı yox, gerçək olmalı;

— hücum və ya onun hədə-qorxusu insanın həyatı və səhhəti, cəmiyyətin və dövlətin mənafeyi üçün təhlükəli olmalı;

— hücum dəf edilən zaman ziyan yalnız qəsd edənə vurulmalı, həm də bu ziyan hücum anında və ya bilavasitə hücumun ardınca vurulmalı;

— müdafiəolunma zəruri müdafiə həddini aşmamalıdır.

Qəsdin xarakterinə və təhlükəlilik dərəcəsinə uyğun gəlməyən özünümüdafiə zəruri müdafiə həddini aşmaq hesab olunur.

Nəzərə almaq lazımdır ki, özünü müdafiə edən şəxs hücumla əlaqədar olaraq əmələ gəlmiş ruhi həyəcan vəziyyətində olarkən təhlükənin xarakterini hər dəfə dəqiq müəyyən edə bilmir və buna görə də hücuma müvafiq olan müdafiə vasitələrini seçə bilmir. Qanun özünü müdafiə edənin mənafeyi keşiyində durur və müəyyən edir ki, bu halda özünü müdafiə edən məsuliyyət daşımır.

Qanun həm də hazırlanan hücumdan müdafiə olunmağa icazə verir, çünki çox hallarda, böyük rus sərkərdəsi A.V.Suvorov demişkən «ləngimə ölümə bərabərdir".

**Son zərurət.** Qanun müəyyən edir ki, cinayət əlamətlərinə uyğun gəlsə də, son zərurət vəziyyətində edilmiş hərəkətlər cinayət deyildir. Burada iki şərtə riayət olunması vacibdir: 1.

Dövlətin mənafeyini, ictimai mənafeyi, vətəndaşların şəxsiyyət və hüquqlarını qorxu altına alan təhlükə həmin anda başqa bir vasitə ilə aradan qaldırıla bilməzdisə; 2. Vurulmuş zərər qarşısı alınmış zərərdən daha az əhəmiyyətli olmuşsa.

**Cinayəti başa çatdırmaqdan könüllü imtina etmək.** Üç nəfər öz aralarında sözləşirlər ki, mağazadan mal oğurlasınlar. Onlardan ikisi qapını sındırmağa başlayır, üçüncüsü isə bu hərəkətlərin iyrəndiyini dərk edərək, öz cinayətkar niyyətindən imtina etmək qərarına gəlir, ona görə də cinayət yerindən qaçır. Yerdə qalanlar isə mağazadan malı oğurlayırlar. Həmin qaçan şəxs cinayət məsuliyyəti daşımır. Ona görə ki, o oğurluq etməkdən könüllü imtina etmişdir.

**Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinin xüsusiyyətləri.** 16 yaşı tamam olandan etibarən hər bir şəxs cinayət törətməyə görə qanunda nəzərdə tutulmuş qaydada cavab verməlidir.

Lakin bir sıra cinayətlərə görə 14 yaşından etibarən cinayət məsuliyyəti daşımır. Bu cinayət hərəkətlərinə adam öldürmə, qəsdən bədənə və səhhətə xəsarət yetirilməsi, zorlama, quldurluq, soyğunçuluq, oğurluq, qatı xuliqanlıq, habelə dövlət əmlakını, ictimai əmlakın və vətəndaşların şəxsi əmlakının qəsdən məhv edilməsi və ya korlanması, odlu silah oğurlanması, döyüş sursatı və ya partlayıcı maddələr oğurlanması və s. kimi cinayətlər aid edilir.

Sadalanan cinayətin xüsusiyyəti ondan ibarətdir ki, belə hərəkətlərin ictimai təhlükəli olmasını 14 yaşlı yeniyetmələr də dərk edirlər. Təəssüf ki, 14-16 yaşlı yeniyetmələr onların cinayət məsuliyyətinə cəlb oluna biləcəklərini heç də həmişə bilmirlər. Sorğular göstərir ki, cinayət törətmiş yeniyetmələrdən bir çoxu belə hesab edir ki, «azyaşlı» olduqlarına görə qanun qarşısında cavab verməyəcəklər. Ancaq cinayət məsuliyyətinə cəlbolunma yaşım bilməmək bəhanəsi, yəni qanunu bilməmək bəhanəsi onları cəzadan azad etmir.

14 yaşına çatmamış yeniyetmə cinayət törədirsə, məsələn,

oğurluq edirsə, onda həmin yeniyetmə barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər və ictimai təsir tədbirləri tətbiq edilir.

**Tərbiyəvi xarakterli məcburi tədbirlər.** Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət cəzası əvəzinə qanunla müəyyən edilmiş tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq oluna bilər. Bu tədbirlər sırasına təhqirə görə üzr istəmək, xəbərdarlıq, təhsil aldığı və ya işlədiyi kollektivin nəzarətinə vermək, yeniyetmənin davranışına nəzarət edəcək xüsusi ictimai tərbiyəçi təyin etmək və s. aid edilir.

Məhkəmə həddi-büluğa çatmayan şəxs tərəfindən edilmiş cinayətin ictimai təhlükəli olmadığını və cinayət cəzası tətbiq edilmədən islah olunmasını mümkün hesab etdiyi təqdirdə, onun barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edə bilər. Məhkəmə, işi həddi-büluğa çatmayanların işləri üzrə komissiyaya da göndərə bilər. Həddi-büluğa çatmayanların işləri üzrə komissiyanın tərbiyəvi xarakterli məcburi tədbirləri aşağıdakı hallarda tətbiq etmək ixtiyarı vardır:

— 14 yaşınadək yeniyetmə ictimai təhlükəli hərəkət etdiyi təqdirdə;

— 14 yaşdan 16 yaşadək yeniyetmə, yalnız 16 yaşına çatdıqdan sonra cinayət məsuliyyəti daşıyacağı ictimai təhlükəli hərəkət etdiyi təqdirdə;

— cinayət etmiş olan 14 yaşından 18 yaşınadək həddi-büluğa çatmayan şəxs barəsində cinayət işi qaldırmaqdan imtina edildiyi və ya onun barəsində işə xitam verildiyi və həmin iş həddi-büluğa çatmayanların işləri üzrə komissiyaya göndərildiyi təqdirdə;

—yeniyetmə cinayət hesab olunmayan (məsələn, xırda xuliqanlıq, təhsildən işdən qəsdən boyunqaçırma və digər hallar) ictimai zərərli hərəkət etdiyi təqdirdə.

Bütün hallarda tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməsində məqsəd yeniyetməni xəbərdar etmək, onu vaxtında bəd əməl törətməkdən çəkindirmək, onun cinayətkarlıq yoluna

qədəm qoymasına yol verməməkdən ibarətdir.

**Cinayət məsuliyyətini yüngülləşdirici hallar.** Müqəssirin cinayət əməlini vaxtında dayandırması, onun qarşısının alınmasına kömək etməsi, günahkar kimi hüquq mühafizə orqanlarına gəlməsi və törətdiyi cinayət üçün peşmançılığını etiraf etməsi–bunların hamısı məsuliyyəti yüngülləşdirən hallardır. Bu zaman cinayətkar cinayət məsuliyyətindən azad edilmir, lakin məhkəmə cəza təyin edərkən onun belə davranışına məsuliyyəti yumşaldan hallar kimi baxır.

Məsuliyyəti yüngülləşdirən halların hansı vəziyyətlərdən ibarət olduğu cinayət qanununda göstərilir.

**Cinayət məsuliyyətini ağırlaşdıran hallar.** Cinayət məsuliyyətini ağırlaşdıran hallar sırasına—bir qrup şəxs tərəfindən cinayət edilməsi və əvvəllər cinayət etmiş şəxs tərəfindən təkrarən cinayət törədilməsi aid edilir.

Belə hallara həm də həddi-büluğa çatmayanların cinayət törətməyə təhrik edilməsi və onların cinayətdə iştiraka cəlb edilməsi daxildir.

Xuliqanlıq və bir çox digər cinayətlər, adətən, sərxoş vəziyyətdə törədilir. Ona görə də qanun sərxoş halda olan şəxs tərəfindən cinayət edilməsini, həm də bu cinayət zərərçəkənin bədən xəsarətinə, ölümüm, ya da əhəmiyyətli dərəcədə maddi və mənəvi ziyana səbəb olduğu təqdirdə məsuliyyəti ağırlaşdıran hallara aid edilir. Sərxoşluğa görə güzəşt yoxdur.

**İnsan həyatı və səhhəti əleyhinə cinayətlərə görə məsuliyyət.** İnsan həyatı əleyhinə edilən cinayətlər ən təhlükəli cinayətlər hesab olunur. Cinayət məsuliyyətini ağırlaşdıran hallarda qəsdən adam öldürməyə görə qanun 15 ilədək müddətə azadlıqdan məhrum edilməsini və ya ölüm cəzası verilməsini nəzərdə tutur.

Həm qəsdən, həm də ehtiyatsızlıqdan bədənə xəsarət yetirilməsi insanın səhhəti əleyhinə törədilən cinayətlərə aid edilir.

**Hərəkətin təhlükəsizliyi və nəqliyyatdan istifadə**

**qaydalarının pozulmasına görə məsuliyyət.** Nəqliyyatın və piyadaların hərəkətinin təhlükəsizliyi üçün yol hərəkəti qaydalan qəbul edilmişdir. Həmin qaydalarda sürücülərin və piyadaların vəzifələri müəyyən edilmiş və hərəkətin təhlükəsizliyini təmin edən tədbirlər nəzərdə tutulmuşdur. Bu qaydalara riayət etmək–bütün piyada və sürücülərin vacib vəzifəsidir. Yol hərəkəti qaydalarının pozulmasına görə təqsirkar olan şəxslər, adətən, inzibati qaydada cəzalandırılır. Lakin bəzən hərəkət qaydalarının pozulması cinayət məsuliyyətinə səbəb ola bilər.

Nəqliyyat vasitəsi ətrafdakılar üçün yüksək təhlükə mənbəyidir, sərxoş sürücülər isə bu təhlükəni daha da artırırlar. Ona görə də nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması bir çox hallarda cinayət hesab edilir. Hərəkət qaydalarının pozulmasına görə cinayət məsuliyyəti aşağıdakı hallarda əmələ gəlir:

a) sərxoş vəziyyətdə olan adam nəqliyyat vasitəsini il ərzində təkrarən idarə etdikdə;

b) nəqliyyat vasitəsi, sərxoş vəziyyətdə olan, həm də «a» bəndində göstərilən cinayətə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən idarə edildikdə;

c) avtobaza, qaraj işçiləri, başqa məsul şəxslər sərxoş vəziyyətdə olan sürücünün nəqliyyat vasitəsini idarə etməsinə yol verdikdə, həm də bu ağır nəticələrə səbəb olduqda.

**Yanğın təhlükəsizliyi qaydalarının pozulmasına görə,** adətən, inzibati məsuliyyətə cəlb edilirlər. Cinayət məsuliyyəti aşağıdakı hallarda əmələ gəlir:

a) qəsdən yandırma yolu ilə dövlət əmlakını və ictimai əmlakı məhv etdikdə, həm də bu insan tələfatına, böyük ziyana səbəb olduqda;

b) dövlət əmlakı və ya ictimai əmlakı ehtiyatsızlıqdan məhv etdikdə, insan tələfatına, başqa ağır nəticələrə səbəb olduqda, meşə massivləri, məhv edildikdə;

c) qəsdən yandırma yolu ilə, və ya odla ehtiyatsız

davrandıqda vətəndaşların əmlakı məhv edildikdə.

**Qanunsuz olaraq silah, döyüş sursatı və ya partlayıcı maddələr gəzdirilməsinə, saxlanılmasına, əldə edilməsinə, hazırlanmasına və ya satılmasına görə məsuliyyət.** İcazə olmadan odlu silah, döyüş sursatı və ya partlayıcı maddələr hazırlanmasına, gəzdirilməsinə, saxlanılmasına, satılmasına görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Qanuna əsasən soyuq silah gəzdirməyə yalnız silahın milli kostyuma məxsus olduğu halda və ya ovçular cəmiyyətinin üzvlərinə icazə verilir. Lakin bu halda da belə silahlar daxili işlər orqanlarında hökmən qeydiyyatdan keçirilir. Qanunun bu tələblərini bilməmək cinayətə gətirib çıxarır.

Qanunsuz saxladığı odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri könüllü surətdə təhvil verən şəxs cinayət məsuliyyətindən azad edilir.

**Azərbaycan cinayət prosesi anlayışı və onun mahiyyəti.** Azərbaycan cinayət prosesi—cinayət işləri üzrə ədalət məhkəməsinin vəzifələrinin yerinə yetirilməsinə yönəldilmiş, demokratik prinsiplər əsasında qanunla müəyyən edilmiş prossesual formada həyata keçirilən, təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət işlərinin başlanması, istintaqı, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyətdir. Bütün bu fəaliyyət Azərbaycan Respublikasının Cinayət-Prossesual Məcəlləsi ilə nizama salınır.

Azərbaycan Cinayət-Prossesual Məcəlləsi cinayət prosesinin məzmununun cinayətləri tezliklə və bütünlüklə açmaqdan, təqsirli şəxslərin müəyyən edilməsi və onların ədalətli surətdə cəzalandırılmasından ibarət olduğunu qeyd edir və bu fəaliyyətin dövlət orqanları içərisində yalnız təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən həyata keçirildiyini müəyyənləşdirir.

Deməli, Azərbaycan cinayət prosesinin məzmununu cinayətkarlıqla mübarizə orqanlarının—təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlurmnı fəaliyyəti təşkil edir.

Eləcə də cinayət prosesinin məzmununa cinayət işinin başlanması, istintaqa məhkəmədə baxılması və həll edilməsi üzrə həmin orqanların fəaliyyətə başlaması ilə əlaqədar meydana gələn müəyyən hüquq münasibətləri də daxildir. Huquq münasibətləri cinayət-prosessual fəaliyyəti həyata keçirən dövlət orqanları arasında, dövlət orqanları ilə cinayət işinin istintaqı və məhkəmədə baxılması ilə bağlı olaraq işə cəlb edilən ayrı-ayrı vətəndaşlar və ictimai təşkilatlar arasında əmələ gəlir. Belə münasibətlər ictimai münasibətlərin bir növü olub, cinayət-prossesual hüquq normaları ilə tənzim edildiyi üçün cinayət-prossesual münasibətləri adlanır.

Beləliklə, Azərbaycan cinayət prosesi cinayət işləri üzrə ədalət mühakiməsinin vəzifələrinin yerinə yetirilməsinə yönəldilmiş və qanunla müəyyən edilmiş, prossesual formada həyata keçirilən təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayət işlərinin başlanması, istintaqı, məhkəmədə baxılması və həll edilməsi üzrə fəaliyyətindən, bu fəaliyyətdən yaranan cinayət-prossesual münasibətlərdən ibarətdir.

Sual və tapşırıqlar. 1. Azərbaycan Respublikasının cinayət hüququ və onun vəzifələrini izah edin. 2. Cinayət, cinayətkarlıq və cəza anlayışlarını şərh edin. 3. Cinayətdə iştirakçılığın növləri barəsində danışın. 4. Zəruri müdafiə və zəruri müdafiə həddini aşma anlayışı haqqında nə bilirsiniz? 5. Con zərurət haqqında bildiyinizi söyləyin. 6. Cinayəti başa çatdırmaqdan könüllü imtina etmək barədə nə bilirsiniz? 7. Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinin xüsusiyyətləri haqqında danışın. 8. Cinayət məsuliyyətini yüngülləşdirən və ağırlaşdıran hallar haqqında nə bilirsiniz? 9. Cinayət edilməsinə görə məsuliyyətin labüdlüyünü şərh edin. 10. Azərbaycan cinayət prosesi anlayışı və onun mahiyyəti haqqında danışın.

## §32. Qanun, qanunçuluq, hüquq qaydası və intizam.

**Azərbaycan Respublikasının hüquq mühafizə orqanları.**

**Hüquq** qanunların ümumi məcmusudur. Hüququn əsas təyinatı adamların davranışının, onlar arasındakı münasibətlərin tənzimçisi olmaq deməkdir.

**Qanun** sözün geniş mənasında normativ hüquqi aktlar, dövlət tərəfindən müəyyən edilmiş ümumi-məcburi qaydalar sistemidir. Qanun dövlət hakimiyyətinin ali nümayəndəli orqanı tərəfindən, yaxud əhalinin iradəsi ilə qəbul edilmiş, ən yüksək hüquqi qüvvəyə malik olan və ən mühüm ictimai müasibətləri nizamlayan normativ aktdır. Qanun dövlətin hüquq sisteminin əsasıdır. Müstəqil hüquq mənbəyi kimi qanun ali hüquqi qüvvəyə malikdir. Yeni qanun qəbul edilməsi, adətən həmin məsələlərə dair mövcud olan başqa aktların ləğvi, yaxud dəyişdirilməsi ilə nəticələnir. Qanunun ali qüvvəsi həm də o deməkdir ki, bütün dövlət orqanlarının fəaliyyəti qanuna uyğun olmalıdır. Qanuna zidd hüquqi akt etibarsızdır.

**Əxlaq və hüquq.** Hüquq da, əxlaq da adamların davranış qaydalarıdır. Hüquq və əxlaq qaydalarının tələbləri bir çox hallarda bir-birinə uyğun gəlir. Əxlaq, ya da mənəviyyat— cəmiyyətdə qəbul edilmiş xeyrə və şərə, şərəfə və vicdana, borca və ədalətliyə aid baxışları ifadə edən davranış qaydaları sistemidir. Əxlaq normalarına riayət edilməsi dövlət məcburiyyəti ilə deyil, ictimai rəyin gücü ilə, ictimai təsirlə, adamları inandırmaq yolu ilə təmin edilir. Hüquq normaları isə dövlət tərəfindən müəyyən edilir, bu normaların yerinə yetirilməsində lazım gəldikdə dövlət məcburiyyəti tədbirlərindən də istifadə oluna bilər. Deməli, hüquqla əxlaqda fərqli cəhətlərlə yanaşı, oxşar cəhətlər də var.

**Qanunçuluq bütün** dövlət orqanları tərəfindən, bütün müəssisələr, idarələr, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar

tərəfindən qanunların şərtsiz və dəqiq icra olunması deməkdir. Vətəndaşın davranışı qanunun tələblərinə uyğun olmalıdır. Qanunun tələblərinə riayət etməyin zəruri şərti—qanunları yaxşı bilməkdir. Bizim ölkəmizdə hər yeni qanuna dair əhaliyə geniş məlumat verilir. Respublikamızda qanunçuluq Azərbaycan dövlətinin və ictimai təşkilatların fəaliyyətinin hüquqi əsasıdır.

Qanunçuluq tələb edir ki, hüquq normalarına hamı tərəfindən ciddi əməl olunsun. Vəzifəli şəxslər, dövlət orqanları və təşkilatlar tərəfindən bu normalar praktikada, həyatda düzgün tətbiq edilsin.

Bütün ölkə ərazisində vahid qanunçuluq olmalıdır. Demokratiya qanunçuluğu möhkəmlətməyin çox mühüm vasitəsi, möhkəm qanunçuluq isə demokratiyanın ayrılmaz hissəsi olmalıdır.

Cinayətkarlığa və başqa hüquq pozuntularına qarşı mübarizədə qanunların bütün qüvvəsindən istifadə edilməsi dəyişməz vəzifə olaraq qalır.

**Azərbaycanda qanunçuluq** qanunvericiliyin təkmilləşdirilməsilə, tərbiyə işilə, hamı tərəfindən hüquqi normaların köklü surətdə yerinə yetirilməsilə, hüquqpozmaların qarşısının alınması ilə, hüququ pozan şəxslər barəsində ictimai təsir tədbirlərinin və ya dövlət məcburiyyəti tədbirlərinin tətbiq olunması ilə təmin edilir.

Cəmiyyətin mənafeyini və vətəndaşların hüquqlarını qoruyan qanunlara ən ciddi surətdə əməl edilmədən cəmiyyətimizin inkişafının normal gedişini təsəvvür etmək mümkün deyildir.

Hüquq pozuntularının qarşısının alınması qanunçuluğun təmin edilməsində başlıca istiqamətdir. Azərbaycan qanunlarına dəqiq əməl olunmasının təmin edilməsi üçün yalnız bu və ya başqa hüquq pozuntusunun aşkar edilməsi, bunların edilməsində təqsirkar olan şəxslərin üzə çıxarılması və onların cəzalandırılması kifayət deyildir.

**Hüquq qaydası** ictimai qaydanın əsas tərkib hissələrindən

biridir. İctimai həyatın müxtəlif sahələrini nizamlayan və öz aralarında xarakterinə və adamların davranışına təsir vasitəsinə görə fərqlənən müxtəlif növ sosial normaların həyata keçirilməsi nəticəsində hüquq qaydası əmələ gəlir. Hüquq qaydası dövlətdə müəyyən edilmiş qaydada qəbul edilən normalarla nizamlanır. Hüquq qaydası qanunçuhığa əməl olunması, subyektiv hüquqların təmin edilməsi və həyata keçirilməsi, bütün vətəndaşlar, orqanlar və təşkilatlar tərəfindən hüquq və vəzifələrinə əməl olunmasının gerçək səviyyəsi ilə səciyyələnir.

**Siyasi mədəniyyət.** Vətəndaşın siyasi mədəniyyəti ictimai-siyasi fəaliyyət sahəsində onun şəxsiyyətinin sosial cəhətcə qiymətləndirilmiş inkişaf səviyyəsidir. Eyni zamanda siyasi mədəniyyət şəxsiyyətin siyasi davranışının, qabiliyyət və bacarığının yüksək səviyyəsidir. O, xalqımızın mənafeyini müdafiə edən dövlətimizin siyasətini başa düşmək, ona kömək etmək, onu qiymətləndirmək, təbliğ etməkdə ümumazərbaycan mənafeyini ifadə edən vətəndaşlıq məsuliyyətində təcəssüm edir.

**Hüquq mədəniyyəti.** Tarixi inkişaf gedişində əldə edilmiş və yenidən təkrar olunan hüquq sərvətlərinin məcmusu hüquq mədəniyyəti adlanır. Daha geniş mənada hüquq mədəniyyəti hüququn cəmiyyətin ümumi mədəniyyətilə bağlı olmasını və bu mədəniyyətin cəmiyyətin hüquq sistemində ifadə olunması səviyyəsini bildirir. Hüquq mədəniyyəti siyasi mədəniyyətlə sıx bağlıdır. Hüquq mədəniyyəti qüvvədə olan hüququn, qanunçuluğun, ədalət məhkəməsinin, hüquq düşüncəsinin səviyyəsilə, ictimai şüurun hüquqa münasibətilə müəyyən edilir. Vətəndaşın hüquq mədəniyyəti onun öz hüquqlarını və azadlıqlarını həyata keçirməsi üçün, habelə öz vəzifələrini yerinə yetirməsi üçün mühüm şərtdir.

**Hüquq normaları** ayrı-ayrı şəxslərin, orqanların və təşkilatların qarşılıqlı münasibətlərini nizamlayan qaydadır. Bu qayda dövlət tərəfindən sanksiyalaşdırılır və dövlət məcburiyyəti ilə təmin edilir. Hüquq normalarının nizamlayıcı

rolu hüquq subyektinin normaya uyğun hərəkət etməsində və yaxud başqa şəxslərdən bu cür davranışı tələb etməsində ifadə olunur.

**Hüquqi şüur dedikdə** cəmiyyətdə mövcud olan hüquq sisteminin siniflər, sosial qruplar, ayrı-ayrı şəxslər, ümumiyyətlə, bütün ictimaiyyət tərəfindən dərk edilməsi dərəcəsi nəzərdə tutulur. Hər bir şəxsin sosial və mədəni keyfiyyətlərindən asılı olaraq, yəni qiymətləndirmə, hər hansı bir məsələyə şəxsi münasibəti, digər əqli və psixoloji keyfiyyətlərindən asılı olaraq hüquqi şüur formalaşır.

Lakin qeyd etmək lazımdır ki, ictimai hüquqi şüur öz-özünə yaranmır. İctimai hüquqi şüur cəmiyyətin qanunauyğun inkişafı əsasında hər hansı bir mənafeni ifadə edən görkəmli alimlər, ideoloqlar, siyasi xadimlər və hüquqşünas alimlər tərəfindən yaranır.

**Hüquq sistemi** milli hüququn quruluşudur, öz mahiyyətinə və ictimai həyatda təyinatına görə bu quruluş müxtəlif hüquqi elementlərin vəhdətindən ibarət olan bir sistemdir. Sistemin iri və nisbətən müstəqil hissəsi sahə adlanır ki, buraya, adətən keyfiyyətcə həmcins ictimai münasibətləri nizamlayan normalar daxildir.

Hüququn sahələrə bölünməsinin meyarları hüquqi nizamlama predmeti və metodudur. Hüquq normalarının təsir göstərdiyi ictimai münasibətlər hüquqi nizamlama predmetidir. Belə ki, əmlak, ailə, əmək, maliyyə və s. münasibətlər hüquqi cəhətdən nizamlanır. Hüquqi nizamlama metodu hüququn ictimai münasibətlərə təsir göstərməsi üsuludur. Hüquq adamların davranışına hökmlü tələblərlə və onlara qanun çərçivəsində öz hüquq və vəzifələrini müəyyən etməklə təsir göstərir.

**Hüquq sahəsi** oxşar ictimai münasibətləri nizamlayan xüsusiləşmiş hüquq normaları və institutlarıdır. Hüquq sahəsi hüquq sisteminin əsas bölməsi olmaqla, ayrı-ayrı hüquq institutlarından əmələ gəlir. Hüquq normalarının, institutlarının

və onlara müvafiq olan hüquq münasibətlərinin bir sahədə birləşməsi müəyyən ictimai münasibətlərin xüsusiyyətindən irəli gəlir, xüsusi hüquqi rejimə, yəni onların özünəməxsus metodla və mexanizmlə nizamlanmasına olan obyektiv zərurəti ifadə edir.

Dövlət hüququ və inzibati hüquq, mülki hüquq və cinayət hüququ, mülki-prosessual hüquq ən mühüm hüquq sahələridir. Bəzi hüquq sahəsi yarımsahələrə bölünür. Təsərrüfat hüququ, təbiəti mühafizə hüququ, kənd təsərrüfatı hüququ, dəniz hüququ və s. kompleks sahə təsisatları da mövcuddur.

**Hüquq münasibəti** hüquq normaları ilə nizamlanan, iştirakçıları subyektiv hüquq və vəzifələr daşıyan ictimai münasibətlərdir. Hüquq münasibəti qanunda müəyyən edilmiş hüquqi faktlardan əmələ gəlir. Hüquq münasibəti eyni vaxtda həm konkret iradəvi münasibətlərin nizamlanması forması, həm də onların həyata keçirilməsidir. Hüquq münasibəti iştirakçılar tərəfindən nəzərdə tutulmuş hüdudlarda mövcud olan iradəvi münasibətdir.

Hüquq münasibəti tərkibinə görə 3 ünsürdən ibarətdir: hüquq münasibətinin subyektləri, hüquq münasibətinin məzmunu, hüquq münasibətinin obyekti.

Hüquq sahələrinə görə hüquq münasibətləri konstitusion, inzibati, əmək, mülki, torpaq, maliyyə, cinayət-prosessual növlərə ayrılır. Yönəldiyi obyektə görə əmlak hüquq münasibəti və şəxsi hüquq münasibətləri fərqəndirilir.

**Azərbaycan Respublikasının hüquq mühafizə orqanları.** Dövlət ictimai həyatın hüquqi əsaslarının möhkəmləndirilməsi, qanunçuluğa dönmədən əməl edilməsi, ictimai asayişin qorunması üçün hüquq mühafizə orqanlarını, məhkəməni, prokurorluğu, ədliyyə, daxili işlər və milli təhlükəsizlik orqanlarını yaradır.

**Azərbaycanda məhkəmə** ədalət mühakiməsi orqanıdır. O, qanunlara dönmədən riayət olunmasının təmin edilməsində mühüm rol oynayır. Azərbaycan Respublikasının

konstitusiyasına müvafiq olaraq Azərbaycanda ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir.

Ədalət mühakiməsi mülki işlərə və cinayət işlərinə qanuna tam uyğun olaraq baxılması və həll edilməsi üzrə məhkəmənin fəaliyyəti deməkdir.

Hakimlər və xalq iclasçıları müstəqildirlər və yalnız qanuna tabedirlər. Hakimlərə işi necə həll etmək barəsində heç kəs göstəriş verə bilməz.

Azərbaycanda məhkəmə prosesləri açıq aparılır, yəni məhkəmə prosesində vətəndaşlar da iştirak edə bilərlər. Prosesin gedişi barədə materiallar qəzetlərdə dərc edilə, radio ilə verilə, televiziya ilə göstərilə bilər.

Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Müttəhimin müdafiə hüququ təmin edilir.

Cinayət işi üzrə məhkəmə iclasında hakim, prokuror, müdafiəçi, müttəhim, zərərçəkən şəxs (iddiaçı) iştirak edir.

Lazım gəldiyi halda məhkəməyə şahidlər dəvət olunurlar. Şahid məhkəmə tərəfindən baxılan cinayət işi barəsində müəyyən məlumatı olan şəxsdir. Şahidin vəzifəsi ondan ibarətdir ki, bildiyi faktlar barəsində məhkəməyə məlumat versin. Şahid mühakimə icraatında mühüm simadır, insanın taleyi bir çox hallarda şahidin ifadəsindən asıh olur. Əgər şahid gördüyü və eşitdiyi faktlar barəsində məlumat verməyib susarsa, ya da öz ifadəsində hər hansı bir faktı təhrif etmiş olarsa, onda təhlükəli bir cinayətkar cəzadan kənarda qala bilər, ya da təqsirkar olmayan bir şəxs cəzalandırıla bilər. Qanunda yalan ifadə verməyə görə və ya ifadə verməkdən imtina etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

Müttəhim məhkəmənin çıxardığı hökmdən razı qalmadıqda yuxarı məhkəmə orqanlarına şikayət ərizəsi verə bilər. Yuxarı məhkəmə işə baxmağa borcludur. Prokurorun hökmə protest vermək ixtiyarı vardır.

**Ədliyyə orqanları** təşkilati cəhətdən məhkəmələrə, vəkillər

idarəsinə və digər ədliyyə idarələrinə ümumi rəhbərliyi həyata keçirir. Ədliyyə orqanları həm də əhalinin hüquqi tərbiyəsi üzrə aparılan işi əlaqələndirir.

Qanunçuluğun təmin edilməsində, vətəndaşların hüquqlarının mühafizə olunmasında notarius orqanları mühüm rol oynayırlar. Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün vəkillər kollegiyası fəaliyyət göstərir.

**Prokuror** latın sözü olub, «qayğısına qalıram”, «təmin edirəm”, «qarşısını alıram» deməkdir. Azərbaycan Respublikasının baş prokuroru və onun tabeliyində olan prokurorlar dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada yerinə yetirilməsinə ali nəzarəti həyata keçirirlər. Baş prokuroru prezident təyin edir.

Prokurorluq orqanları vahid mərkəzləşdirilmiş sistem təşkil edir. Aşağı prokuror yuxarı prokurora tabedir.

Prokuror cinayət işi üzrə məhkəmə iclasında iştirak etməklə nəzarət edir ki, prosesin iştirakçılarından heç biri qanunun tələblərindən kənarda qalmasın, müttəhimlərin və digər vətəndaşların qanuni hüquqları pozulmasın. Dövlət ittihamçısı belə bir nəticəyə gəlsə ki, mühakimə olunan şəxsin təqsiri sübut edilməmişdir, onda o, həmin iş barəsində ittihamdan imtina etməyə borcludur. Məhkəmənin hökmü qanuna zidd olduğu təqdirdə prokuror həmin hökm barəsində protest verməlidir.

Prokuror mərkəzi və yerli dövlət idarə orqanlarının qanunsuz qəran barəsində də protest verməyə borcludur. Məhkəmə orqanları kimi prokurorluq da vətəndaşların sosial-iqtisadi, siyasi və şəxsi hüquqlarının və azadlıqlarının keşiyində durur, dövlət təşkilatlarının, ictimai təşkilatlarının hüquqlarını, qanuni mənafelərini mühafizə edir.

**Daxili işlər orqanlarının** üzərində aşağıdakı vəzifələr qoyulmuşdur: ictimai asayişin dövlət mülkiyyətinin, vətəndaşların və təşkilatların hüquqlarının və qanuni mənafelərinin mühafizə olunmasını təmin etmək, cinayətlərin

qarşısını almaq və bunları aşkara çıxarmaq, hüquq qaydalarını pozanları islah etmək və yenidən tərbiyələndirmək, yol hərəkəti qaydalarını və yanğın təhlükəsizliyi qaydalarını təmin etmək və s.

Daxili işlər orqanlarının tərkib hissəsini Azərbaycan polisi təşkil edir. Azərbaycan polisinin bütün fəaliyyəti qanunçuluğa son dərəcə ciddi əməl olunmasına əsaslanır. Polis öz fəaliyyətində əmək kollektivlərinin, ictimai təşkilatların köməyinə və müdafiəsinə arxalanır. Daxili işlər orqanlarının həddi-büluğa çatmayanların işi üzrə inspeksiyaları uşaq nəzarətsizliyinin və hüquqpozmalarının qarşısının alınması sahəsində iş aparırlar.

Polis işçilərinin, vətəndaşların şəxsiyyətini təsdiq edən sənədini yoxlamaq, qanunla nəzərdə tutulan hallarda yaşayış binalarına, mənzillərə daxil olmaq, şəxsin üzərinə cərimə qoymaq və digər inzibati təsir tədbirlərini tətbiq etmək, inzibati hüquq pozğunluqları etmiş şəxsləri polis idarəsinə gətirmək və tutmaq ixtiyarı vardır. Polis işçilərinə həm də cinayət edilməsində şübhəli olan şəxsləri qanuna müvafiq qaydada tutmaq və həbsdə saxlamaq, sürücülərin avtomotonəqliyyat vasitələrini idarə etmək hüququna dair vəsiqələrini yoxlamaq, sərxoş vəziyyətdə olan və ya hərəkət qaydalarını kobudcasına pozan şəxsləri nəqliyyat vasitələrini idarə etməkdən kənarlaşdırmaq hüquqları və digər hüquqlar verilmişdir. Qanunda nəzərdə tutulmuş müstəsna hallarda polis işçilərinin son tədbir kimi silah işlətmək ixtiyarı da vardır.

Öz xidməti vəzifələrini yerinə yetirərkən polis işçisinə müqavimət göstərmək cinayət hesab edilir.

**Milli Təhlükəsizlik Nazirliyi** cəmiyyətimizi və dövlətimizi düşmən kəşfiyyatının təxribat və fitnələrindən qoruyur. Nazirliyin əməkdaşları qanunlara ciddi riayət edərək, düşmən ünsürləri ifşa etmək, hər cür pozuculuq, təxribat və terror fəaliyyətinin kökünü kəsmək sahəsində böyük iş aparırlar.

Sual və tapşırıqlar: 1. Qanun və aanunçuluq anlayışlarını

ayrı-ayrılıqda şərh edin. 2. Hüquq qayaası, hüquq mədəniyyəti, hüquq normaları, hüquqi şüur, siyasi mədəniyyət, hüquq sistemi, hüquq sahəsi və hüquq münasibəti anlayışlarını bir-bir izah edin. 3. Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarının-məhkəmənin, prokurorluğun, daxili işlər, ədliyyə və milli təhlükəsizlik orqanlarının funksiya və vəzifələri haqqında danışın.

## § 33. Beynəlxalq hüquq. BMT-nin 1948-ci il dekabr ayının 10-da qəbul etdiyi «İnsan hüquqlarının ümumi bəyannaməsi”.

**Beynəlxalq hüquq** dövlətlər və beynəlxalq münasibətlərin digər subyektləri arasındakı siyasi, iqtisadi, mədəni və b. münasibətləri nizamlayan normalar sistemidir.

Müəyyən tarixi dövrdə dövlətlərarası münasibətlərin inkişafımn xarakteri və səviyyəsi beynəlxalq hüququn məzmununu və inkişaf dərəcəsini müəyyən edir; beynəlxalq hüquq isə öz növbəsində dövlətlərarası münasibətlərə təsir göstərir.

Müasir beynəlxalq hüquq bütün dövlətlər tərəfindən qəbul edilmiş və onlar üçün məcburi olan prinsip və normalardan ibarətdir. Beynəlxalq hüququn bəzi normaları isə ayrı-ayrı dövlətlər üçün məcburidir və məhəlli əhəmiyyətə malikdir. Lakin bu cür məhəlli normaların, habelə iki və daha çox dövlətin müqavilə öhdəliklərinin hüquqi və etibarlı olması üçün onlar mütləq beynəlxalq hüququn ümumən qəbul edilmiş prinsiplərinə müvafiq olmalıdır. Beynəlxalq hüquq beynəlxalq əlaqələr subyektlərinin fəaliyyət və davranışının ümumi və ən mühüm qaydalarını, beynəlxalq qanunçuluğun rəhbər əsaslarını da ehtiva edir. Beynəlxalq hüququn əsas prinsipləri Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) Nizamnaməsində təsbit edilmişdir.

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipini hamı tanıdığı üçün müstəmləkə ölkələrinə və

xalqlarına azadlıq verilməsi haqqında 1960-cı il BMT nizamnaməsinə uyğun olaraq həm dövlətlər, həm də öz müqəddəratını təyin etmək hüququnu hələ həyata keçirməmiş xalqlar və millətlər müasir beynəlxalq hüququn subyektləridir. Yaranması və fəaliyyəti beynəlxalq hüququn əsas prinsiplərinə zidd olmayan bəzi beynəlxalq təşkilatlar da beynəlxalq hüququn subyekti sayıla bilər.

Dövlətlərin öz öhdəliklərini pozması beynəlxalq hüquq məsuliyyətinə səbəb olur.

**BMT-nin 1948-ci il dekabr ayının 10-da qəbul etdiyi «İnsan hüquqlarının ümumi bəyannaməsi".** 1948-ci il dekabrın 10-da BMT Baş Məclisi «İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul etdi. Bəyannamə preambuladan və 30 maddədən ibarətdir. Bəyannamə BMT Nizamnaməsinin «İnsan hüquqlarına və irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamının əsas azadlıqlarına hörmətin həvəsləndirilməsində və inkişaf etdirilməsində» dövlətlərin əməkdaşlığı haqqında maddəsini inkişaf etdirmiş və konkretləşdirmişdir. Bəyannamədə beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq hamı tərəfindən əməl olunmalı əsas insan hüquqları və azadlıqları müəyyən edilmişdir. Bəyannamənin I maddəsində deyilir: «Bütün adamlar öz ləyaqəti və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların zəkası və vicdanı vardır və bir-birinə münasibətdə qardaşlıq ruhunda hərəkət etməlidirlər".

Bəyannamədə vətəndaşların elementar şəxsiyyət, vətəndaşlıq və siyasi hüquqları, habelə sosial-iqisadi hüquqları da hamının əməl etməli olduğu insan hüquqları sırasına aid edilir. Bəyannamənin III maddəsində göstərilir: «Hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var".

Bu hüquqlar Bəyannamənin digər müddəalarında tamamlanır. IV maddədə qeyd edilir ki, «Heç kəs qul, yaxud asılı vəziyyətdə saxlanmamalıdır; köləlik və qul alverinin hər cür halları qadağan edilir. V maddədə yazılır:» Heç kəs işgəncəyə, yaxud qəddar, qeyri-insani, yaxud şəxsiyyətini alçaldan

münasibət və cəzaya məruz qalmamalıdır. IX maddədə deyilir: «Heç kəsi əsassız şəkildə həbs etmək, tutmaq, yaxud sürgün etmək olmaz”. Şəxsi həyatın, ailə həyatının toxunulmazlığı ilə əlaqədar bəyannamənin XII maddəsində yazılır: «Heç kəsin şəxsi və ailə həyatına əsassız olaraq müdaxilə etmək, onun evinin, məktublaşma sirrinin, yaxud şərəfinin və adının toxunulmazlığına əsassız olaraq qəsd etmək olmaz. Hər bir insanın belə müdaxilə və qəsddən qanuni müdafiə hüququ var”.

Hər bir adamın qərəzsiz məhkəmə tərəfindən müdafiə olunması hüququ bəyannamənin 8, 10, 11-ci maddələrində qeyd edilir. 8-ci maddədə qeyd olunur ki, hər bir insanın konstitusiyanın, yaxud qanunun ona verdiyi əsas hüquqların pozulması hallarında bu hüquqların səlahiyyətli məhkəmələrlə bərpası hüququ vardır. 10-cu maddədə qeyd olunur: «Hər bir insanın özünün hüquqları, vəzifələri və ona qarşı irəli sürülən cinayət ittihamının əsaslı olub-olmaması müəyyənləşdiriləndə tam bərabərlik əsasında, onun işinə müstəqil, qərəzsiz məhkəmənin açıq və ədalətin bütün tələblərinə əməl edilməsi ilə baxılmaq hüququ vardır». 11-ci maddədə isə yazılır ki, hər bir insanın cinayət törətməkdə ittiham olunanda təqsiri məhkəmə istintaqının qanuni yolla sübut etməsinə qədər təqsirsiz sayılmaq və istintaq zamanı müdafiə olunmaqdan ötrü bütün imkanlarla təmin olunmaq hüququ var.

Bəyannamədə şəxsiyyətin əsas hüquqları ilə yanaşı insanın siyasi və mülki hüquq və azadlıqları da geniş şərh edilir. Məsələn 18-ci maddədə qeyd olunur: «Hər bir insanın fikir, vicdan və din azadlığı hüququ var: dinini, yaxud əqidəsini dəyişmək azadlığı və dininə, yaxud əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək, təlimdə, ibadətdə, dini və ritual ayinlərdə kütləvi, yaxud xüsusi qaydada iştirak etmək azadlığı bu hüquqa daxildir. 20-ci maddədə isə qeyd olunur ki, 1. «Hər bir insanın dinc yığıncaqlar və cəmiyyətlər azadlığı hüququ var; 2.Heç kəs hər hansı cəmiyyətə daxil olmağa məcbur edilə bilməz.»

Hər kəsin öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququ və gizli səsvermə yolu ilə ümumi və bərabər seçki hüququ haqqında bəyannamənin 21-ci maddəsində yazılır: «l. Hər bir insanın birbaşa, yaxud azad şəkildə seçilmiş nümayəndələri vasitəsitə ölkənin idarə olunmasında iştirak etmək hüququ var. 2. Hər bir insanın öz ölkəsində dövlət xidmətinə keçməkdə bərabərlik hüququ var. 3. Xalqın istəyi dövlət hakimiyyətinin əsası olmalıdır; bu istək vaxtaşırı və saxtalaşdırılmamış işçi görsənməlidir. Həmin seçkilər ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə, yaxud səsvermə azadlığını təmin edən digər eyni mənalı formaların vasitəsilə keçirilməlidir.

Sərbəst yerdəyişmə və özünə yaşayış yeri seçmək hüququ haqqında 13-cü maddədə göstərilir: «1. Hər bir insanın sərbəst hərəkət etmək və hər bir dövlətin hüdudları daxilində özünə yaşayış yeri seçmək hüququ var. 2. Hər bir insanın hər hansı bir ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var».

14-cü maddədə sığınacaq hüququ haqqında göstər ilir : “1. Hər bir insanın təqibdən yaxa qurtarmaq üçün başqa ölkələrdə sığınacaqdan istifadə etmək hüququ var. 2. Təqib həqiqətən qeyri-siyasi cinayətə, BMT-nin məqsəd və prinsiplərinin ziddinə olan hərəkətlərə əsaslananda bu hüquqdan istifadə oluna bilməz”.

Vətəndaşlıq hüququ haqqında bəyännamənin 15-ci maddəsində qeyd olunur: «1. Hər. bir insanın vətəndaşlıq hüququ var. 2. Heç kəs əsassız olaraq vətəndaşlıqdan çıxmaq, yaxud vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz”.

Bəyannamənin 17-ci maddəsində əmlaka sahiblik hüququ haqqında göstərilir: 1. «Hər bir insanın həm təkbaşına, həm də başqaları ilə birlikdə əmlak hüququ var. 2. Heç kimi əsassız yerə öz əmlakından məhrum etmək olmaz”.

Nikah bağlamaq və ailə qurmaq haqqında 16-cı maddədə

qeyd olunur: «l.Yetkinlik yaşına çatmış kişilərin və qadınların heç bir irqi, milli, yaxud dini məhdudiyyət olmadan nikah bağlamaq və ailə qurmaq hüququ var. Onlar nikah bağlayanda nikah müddətində və nikahı pozanda eyni hüquqlardan istifadə edirlər. 2. Nikah yalnız hər iki tərəfin sərbəst və tam razılığı əsasında, bağlana bilər. 3. Ailə cəmiyyətin təbii və əsas özəyidir, onun cəmiyyət və dövlətdə müdafiə olunma hüququ var".

Lakin mülki, siyasi hüquq və azadlıqlar bəyannamədə sxematik, mücərrəd formada şərh edilmişdir. Bəyannamədə sadalanmış bütün hüquqlar bərabərlik prinsipinə əsaslanır. Bunula əlaqədar 2-ci maddədə qeyd edilir: «Hər bir insan bu bəyannamədə elan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır, irqinə, dərisinin rənginə, cinsinə, dilinə, siyasi, yaxud digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülkiyyətinə, silki, yaxud digər vəziyyətinə görə heç bir fərq qoyulmamalıdır. Bundan başqa, həmin insanın məxsus olduğu ölkənin, yaxud ərazinin müstəqil, yaxud öz suverenliyində digər məhdudiyyəti olmadığından asılı olmayaraq, siyasi, hüquqi və beynəlxalq statusuna görə heç bir fərq qoyulmamalıdır".

Bəyannamənin 7-ci maddəsində yazılır: «Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanunla bərabər şəkildə qorunmaq hüququna malikdirlər. Bütün insanların bu Bəyannaməni pozan hər hansı bir ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə çağıran hər cür təhrikçilikdən bərabər qorunmaq hüququ var".

Bəyannamənin qəbul edilməsi mühüm beynəlxalq hadisə oldu. O, insan hüquqlarının müdafiəsi sahəsində müxtəlif sosial-iqtisadi quruluşlu dövlətlərin əməkdaşlığının mümkün olmasını sübut etdi.

Sual və tapşırıqlar: 1. Beynəlxalq hüququn mahiyyətini və məzmununu şərh edin. 2. Siz hansı beynəlxalq təşkilatları tanıyırsınız? 3. Tanıdığınız beynəlxalq təşkilatların fəaliyyəti haqqında danışın. 4. BMT-nin «İnsan hüquqlarının ümumi bəyannaməsi» haqqında nə bilirsiniz?

# XÜSUSİ İCMAL

## *Dövlət va tarixi şəxsiyyət:* Makedoniyalı İsgəndər, Yuli Sezar, Babək, Əmir Teymur, Şah İsmayıl, I Pyotr, Napoleon Bonapart, M.Ə.Rəsulzadə

*Dövlət tarixi şəxsiyyət.* Xalq kütlələri tarixi Srosesin həlledici qüvvəsidir. İstehsalı da, müharibələri də, inqilabları da son nəticədə xalq kütlələrinin iştirakı həll edir. Bu həqiqəti heç kəs inkar edə bilməz. Bəs bu həqiqət tarixi şəxsiyyətlərin rolunu inkar edirmi? Əsla yox. Tarixi proseslərə rəhbərliyi, onun istiqamətini, sürətlənməsi və ya ləngiməsini məhz tarixi şəxsiyyətlər həyata keçirir.

Gəlin görək bu önəmli tarixi vəzifələri yerinə yetirən şəxsiyyətlər kimlərdir? Kimə böyük şəxsiyyət deyirlər və nə üçün?

Böyük şəxsiyyətlər və ya görkəmli şəxsiyyətlər birinci növbədə cəmiyyətin inkişaf meyllərini, qanunauyğunluqlarını, tələbatlarını yaxşı bilmək əsasında onun perspektiv inkişafını görən, mövcud quruluşun nöqsanlarını, böhranlarını təhlil etməklə onların dəf edilməsini məqsəd qoyan və həyata keçirən dövlət, partiya, hərəkat, sosial proses liderlərinə deyilir. Görkəmli şəxsiyyətlər ictimai həyatın, siyasi qüvvələr və. mənafelər şəbəkəsinin, elmi biliyin mənəviyyatın nəbzini həssaslıqla duyur, onların axarını düzgün məcraya yönəltməyə qadir olurlar. Adi insanların baş çıxara bilmədikləri mürəkkəb şəraitdən çıxış yollarını onlar öz əqli və şəxsi qabiliyyətlərilə tapa bilirlər.



*Çingiz xan* (1167-1227) – Moğal imperatorluğunun təməlini soymuş böyük türk hökmdarı. O, Çini, Xarəzmi və bütün Türküstanı zəbt etmişdir. 1206-cı ildə Onon çayı sahilində monqol noyonların (feodalların) qurultayında Çingiz xan adı ilə bütün tayfaların xanı seçilmişdir. O, xarici siyasət sayəsində ona tabe olan ərazilərin hüdudlarını genişləndirmək xətti yeritmişdi. 1207-11-ci illərdə Sibir və Şərqi Türküstan xalqları tabe edilmiş, 1211-27-ci illərdə cənub və qərb istiqamətlərində aramsız yürüşlər nəticəsində Mərkəzi Asiya, Şərqi İran, Şimali Çin işğal olunmuşdu. Bu müharibələr nəticəsində zəifləmiş monqol dövləti XIII əsrdə tənəzzül etmişdi. Çingiz xan 1226-cı ildə Si-Sya dövlətinə yürüş etmiş, 1227-ci ilin avqustunda həmin dövlətin ərazisində, Konsuda vəfat etmiş, əski türk moğol adətincə öldüyü yer gizli saxlanmışdır.

Lakin məsələ bununla bitmir. Burada çox vacib məsələlərdən biri bu irsiyyətlərin öz qabiliyyətlərini həsr etdikləri məqsəd və əmin məqsədə nail olmaq üçün seçib istifadə etdikləri vasitələrdir. Əgər qarşıya qoyulan məqsəd və seçilən vasitələr mütərəqqidirsə, nəvatidirsə onları həyata keçirən görkəmli şəxsiyyətlərə mütərəqqi şəxsiyyətlər deyilir. Məqsəd və vasitələr mürtəcedirsə, onları reallaşdıran şəxsiyyətlərə mürtəce şəxsiyyətlər deyilir.

Bunu açıqlamaq üçün gəlin iki tarixi şəxsiyyəti—Na-Soleonla Hitleri müqayisə edək: hər ikisi böyük dövlətlərin başçısı olub, hər ikisi qəsbkarlıq müharibələri aparıb, bu müharibələrdə milyonlarla insan qırılıb, minlərlə şəhərlər, kəndlər yandırılıb xarabalıqlara çevrilib. Lakin Napoleonun bir şəxsiyyət kimi fəaliyyətinin nəticəsi bütün Avropada feodal

quruluşunun məhvi, onun yerinə daha mütərəqqi burjua quruluşunun yaranması olmuşdur. Hitlerin məqsədisə digər xalqları məhv etmək, mövcud dövlətləri əsarət altına salmaq, irqçi dünya imperiyası yaratmaq, mürtəce faşist idarə üsullu bir dövlət yaratmaq olmuşdur.



*Şeyx Şamil* (1796-1871)–1834-1859-cu illərdə 125 milyonluq rus imperiyasına qarşı 25 il mübarizə aparmışdır. 1835-ci ilin yayında imam seçilmiş və o vaxtdan dağlıların azadlıq mübarizəsinə başçılıq etmişdir. 40-cı illərdə Şamil çar qoşunları üzərində bir neçə ərə qələbə qazanmışdır. 1853-cü ildə Şamil Zaqatala qalasına hücum etmiş, lakın müvəffəqiyyət qazanmayıb geri çəkilmişdi. 1859-cu ilin avqustunda general Baryatinskinin 360 mimik ordusu hücuma başladı. Şamil 400 müridlə Qunib aulunda mühasirəyə düşdü və avqustun 26-da təslim oldu. O, ailəsi ilə Kaluqaya göndərildi. 1870-ci ildə Şamilə Məkkəyə ziyarətə getməyə icazə verildi. Lakin o, Məkkəyə çatmamış Mədinədə vəfat etdi.

Bu dövlətdə almanlar hakim olmalı, dig xalqlar isə işçi qüvvəsi kimi istifadə edilməliydi. idi özünüz onları müqayisə edin. Görkəmli şəxsiyyətləri tarixi prosesin özü yaradır. Cəmiyyətin qanunauyğun prosesində, zamanın müəyyən anında az-çox əhəmiyyətli sosial hadisələrin baş verməsi üçün obyektiv şərait yaranır. Proses özü onu həyata keçirə biləcək, ona rəhbərlik edə biləcək şəxsiyyəti də yetişdirir. Məhz kimin bu liderlik roluna keçəcəyi təsadüfi olsa da, rəhbər şəxsiyyətin yaranması zəruridir. Burjua quruluşunun İnqilabi yolla qərarlaşması bir zərurət kimi yetişmişdi. Onu həyata keçirə biləcək görkəmli şəxsiyyət də zəruri surətdə yaranmalı idi.

Napoleon olmasa idi həmin rolu bir başqa şəxsiyyət həyata keçirəcəkdi.

Görkəmli şəxsiyyətlərin tarixi prosesdəki rolunu əyaniləşdirmək və konkretləşdirmək üçün gəlin bir neçə şəxsiyyətin həyat və fəaliyyətilə tanış olaq.

### *Makedoniyalı İsgandər*



Makedoniyalı Isgəndər e.ə. 356-cı ilin iyulunda anadan olmuşdur. O, qədim dünyanın görkəmli sərkərdəsi və aövlət xadimidir. Makedoniyalı İsgəndər Aristotelin şagirdi olmuşdur. E. ə. 336-cı ildə atası II filippin ölümündən sonra hakimiyyətə keçmiş, Yunanıstan, Frakiya və Illiriyada Makedoniya hakimiyyətinə qarşı baş vermiş üsyanları yatırmış, Makedoniyada hakimiyyət uğrunda mübarizəyə son qoymuşdu. E. ə. 334-cü ildə Kiçik Asiyaya hücum etmiş, qoşunu sayca az olsa da Qranik çayı yaxınlığında Əhəməni ordusunu ağır məğlubiyyətə uğratmışdır. E. ə. 333-cü ıldə artıq bütün Kiçik Asiya Makedoniyalı İsgəndərə tabe idi.

E. ə. 333-cü ilin noyabrında tsgəndər Kilikiyadakı İss şəhəri yaxınlığındakı növbəti döyüşdə III Daranın sayca makedoniyalılardan 3 dəfə çox olan ordusunu məğlubiyyətə uğratdı. Bu qələbədən sonra Aralıq dənizi sahili şəhərləri Makedoniyalı İsgəndərin hakimiyyətini tanıdılar. .

E. ə. 332-331-ci illərin qışında. Makedoniyalı İsgəndər Misiri döyüşsüz ələ keçirmiş, isgəndəriyyə şəhərinin psasını qovmuşdur. E.ə. 331-ci ilin yazında Makedoniyalı İsgəndərin yürüşlərinin ikinci mərhələsi başlandı. Mesopotamiyada, Erbil şəhəri yaxınlığında baş vermiş avqamela vuruşması III Daranın böyük ordusunun (bu orduya Atropatın başçılığı altında alban, sakasen, kaspi və b. qədim Azərbaycan tayfalarının döyüşçü dəstələri də daxil idi) məğlubiyyəti ilə qurtardı. III Dara

Midiyaya qaçdı. İsgədərin ordusu cənuba hərəkət edib Babil, Suz və s. səhərləri tutdu, Əhəmənilər dövlətinin paytaxtı Peı epol müqavimətsiz təslim oldu. O, e.ə. 327-ci ildə. Mərkəzi Asiyaya, Hindistana hərbi yürüşlər təşkil etmiş və qələbələr qazanmışdı.

E. ə. 328-cı ildə İsgəpdərin 10 ilə yaxın davam edən Şərq yürüşü başa çatdı, isgəndərin yürüşləri nəticəsində sərhədləri qərbdə Balkan yarımadasına, şərqdə Hindistana, cənubda Misir və Afrikanın bir hissəsinə, şimalda Qara dənizə qədər uzanan böyük bir dövlət yarandı. Onun yaratdığı yeni dövlət Əhəmənilər dövlətinə nisbətən mütərəqqi idi. İsgəndərin hərbi yürüşləri, Qədim Yunanıstanın hərb sənətinin yüksək mərhələsi olmuşdur. O, falanqanın həmlə qüvvəsini artıraraq, sıxlığını çoxaltmış, süvari qoşunu ordunun qəti zərbə və manevr qüvvəsinə çevirmiş, yeni tipli süvaridən istifadə etmiş və s. mühüm yeniliklər həyata keçirmişdir.

Makedoniyalı İsgəndər e. ə. 323-cü ildə ölmüşdür.

İsgəndərin yaratdığı imperiya onun ölümündən sonra dağılsa da, bütün dünya alimləri qeyd edirlər ki, bu imperiyanın sayəsində qədim yunan elmi və mədəniyyəti, incəsənəti, fəlsəfəsi imperiyanın ərazisində yaşayan bütün xalqlara çox dərin təsir etmiş, bu ölkələrdə ictimai-siyasi və elmi fikrin inkişafını xeyli sürətləndirmişdir.

Həmçinin o dövr üçün mütərəqqi olan yunan təsərrüfat üsulu və növləri yunan hərbi qaydaları və ordu quruluşu, yunan ictimai-siyasi və xüsusilə də dövlət quruculuğu elementləri ətraf ölkələrə də yayıldı. Dünya elmi və mədəniyyətinin inkişafı üçün bu göstərilənlərin çox böyük rolu olmuşdur.

### *Qay Yuli Sezar*



Qay Yuli Sezar e.ə. 102, bəzi müəlliflərə görə isə, 100-cü ildə Romada anadan olmuşdur. O, Romanın dövlət və siyasi xadimi, sərkərdə, yazıçı idi. Patrisi nəslindəndir. E. ə. 73-cü ildə hərbi tribun, 68-ci ildə Kvestor (müxtəlif dövlət vəzifələrini icra edən məmur)

*Babək*

seçilmişdir. Siyasi vəziyyətini möhkəmləndirmək və konsul seçilmək üçün e. ə. 60-cı ildə Qney Pompey və Mark Krassla ittifaqa girmişdi (I-ci Triumvirat). Konsul seçildikdən sonra (e.ə. 59-cu ildə) dövlət quruluşunun möhkəmlənməsi və bəzi sosial problemlərin həllinə yönəldilən bir sıra qanunlar vermişdir. Qalliya yürüşləri zamanı (e.ə. 58-51-ci illərdə) Yuli Sezar bütün Qalliyanı işğal edə bilmişdir. E. ə. 49-45-ci illər Romada vətəndaş müharibəsində Pompeyin və onun siyasi müttəfiqlərinin qoşunlarını darmadağın edir və Roma dövlətinin başçısı olur. Yuli Sezar diktator, konsul, daimi tribun hakimiyyətindən və s. səlahiyyətlərdən istifadə edirdi. Bütün hakimiyyəti əlində cəmləşdirən Yuli Sezar əslində monarx idi. O, bir sıra siyasi və iqtisadi islahatlar keçirmiş, güclü dövlət aparatı yaratmışdı. Yuli Sezarın tədbirləri köhnə Roma respublika rejimi tərəfdarları olan əyanların güclü müqavimətinə səbəb oldu. Q.L.Kassı, Y.Brutun başçılığı ilə ona qarşı suiqəsd təşkil edildi və o. e. ə. 44-cü ilin martın 15-də senatın iclasında öldürüldü.

Babək



Babək əl-Xürrəmi görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimidir. O, Ərdəbilin Bilalabad kəndində təqribən 795-ci ildə, bəzi müəlliflərə görə isə 798-ci ildə, anadan olmuşdur. Uşaq ikən yetim qalmış Babək əvvəlcə çobanlıq edir, sonra isə Təbrizə gedib usta yanında şagird durur. Bir təsadüf nəticəsində xürrəmilərin başçısı Cavidanla tanış olur və Cavidan onu öz qəsrinə aparır. Cavidanın ölümündən sonra Babək xürrəmilərin başçısı olur. Xttrrəmilər Xilafəti ciddi surətdə narahat etməyə başlamışdılar. Babəkin rəhbərliyi dövründə isə bu hərəkat daha da gücləndi. Babək Azərbaycanda islamdan əvvəl mövcud olan qayda-qanunları bərpa etməyə çalışırdı. Birincisi, o özünün müsəlman olmayan Babək (P pak) adını bərpa etdi, ikincisi allahın insan surətində görünməsi nəzəriyyəsini elan etdi; üçüncüsü, ruhun bır cisimdən başqa bir cismə köçdüyünə inanırdı və dördüncüsü, bu əqidədə idi ki, İsanın qeyb olan ruhu çox sonralar qayıdacaqdır. Xürrəmilərin dini-işıq və zülmətin simvolu olan iki böyük mənəvi qüvvəyə, yəni xeyir və şərəf inama əsaslanırdı.

Babək Əmin və Məmun qardaşlarının xilafət taxtı üzərindəki daxili mübarizələrindən istifadə etdi. 816-cı ildən xürrəmilərin başçısı olan Babək Bəzzi özünün paytaxtı etdi. Babəkin iyirmi ildən artıq başçılıq etdiyi mübarizədə Bəzz alınmaz bir qala oldu, iyirmi illik mübarizə dövründə xilafətin 6 ordusunu, bunlardan Yəhya ibn Muazz, İsa ibn Məhəmməd, Zureyq ibn Əli, Əhməd ibn Cüneyd və b.-nın ordularını darmadağın etmişdir. 835-ci il iyunun 3-də Xəlifə Mutəsim Bizans qoşunları ilə vuruşmada öz hərbi məharətini göstərən sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarğı müharibə

edən qoşunların baş komandanı təyin etdi.

Babək ərəb ordusunun bir hissəsinin Azərbaycandan çıxarılmasına nail olmaq məqsədilə Bizans imperatoru Feofilə xilafətə qarşı ittifaq bağlamağı təklif etmişdi. 837-ci ildə imperator ərəblərə qarşı qoşun göndərdisə də, bu Azərbaycanda mübarizənin nəticəsinə təsir göstərmədi. Bu halda ərəblər Bizansla sülh bağlayıb xilafətin bütün qoşunlarını xürrəmilərə qarşı göndərdi. Üsyançıların şiddətli müqavimətinə baxmayaraq, ərəb qoşunları 837-ci ildə Bəzz qalasını ələ keçirə bildi. Babək kiçik bir dəstə ilə mühasirədən çıxaraq Araz çayını keçib Arana gəlir. Lakin Şəki (indiki Ermənistanın Sisiyan rayonu) hakimi Səhi ibn Sumbatın xəyanəti nəticəsində ərəblər Babəki ələ keçirdilər. 838-ci il yanvarın 4-də Babək və qardaşı Abdulla Samirə şəhərinə aparıldılar. Xəlifə Mütəsim Babəki işgəncə ilə edam etdirdi.

***Əmir Teymur***



Əmir Teymur Mərkəzi Asiyanın dövlət xadimi və böyük sərkərdəsi idi. O, 1336-cı ildə indiki Qaşqadərya vilayətində anadan olmuşdur. Teymurun atası Bərlas qəbiləsinin rəisi olduğuna görə oğlunun zəkalı və əqidəli bir şəxs olmasına diqqət yetirirdi. Hələ kiçik yaşlarında ikən Teymur Quran oxumağı bacarır, müəllimi və məsləhətçisi Seyid Bərəkənin öyüdlərini dinləyir, yazıb-oxuyur, ovu, at üstündə cəng etməyi, şahmat oynamağı sevirdi. 1361-ci ildə Teymur Moğolustan dövlətinin banisi Toğluk Teymurun yanında xidmətə girmiş və Qaşqadərya vilayətini idarə etmişdir.

Döyüşlərin birində sağ dizindən ciddi surətdə yaralanandan sonra Topal Teymur ləqəbini almışdır. Səmərqənd və Bəlx hakimi Hüseynlə ittifaq bağlayıb uzun müddət Toğluk Teymura

və onun oğlu İlyas Xocaya qarşı mübarizə aparmışdır. 1366-cı ildə Teymur və Hüseyn Səmərqənddə sərbəaarilər üsyanını yatırtdılar. Hakimiyyət uğrunda mübarizədə 1370-ci ildə Hüseynə qalib gələn Teymur Əmir» titulu qəbul edərək Mavəraünnəhri tək idarə etməyə başladı. Səmərqənd dövlətin paytaxtı oldu. 1380-ci ildə Teymurun yürüşləri genişləndi. 1386-cı ildə o, Sultaniyyəni tutub, Təbrizə, Naxçıvana, Karsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa hücum etdi. 1387-ci ildə Salmas, Ürmiya və Marağadan keçib Gilana, oradan Səmərqəndə qayıtdı. Teymur sonralar «beşillik» (1392-ci ildən) və "yeddiillik» (1399-cu ildən) yürüşləri zamanı da Azərbaycana hücum etdi. Cəsur sərkərdə kimi şöhrətlənən Teymur həm də çox incə siyasətçi idi. Uzaqgörənliyi) səmimiliyi, dosta vəfası, igidliyi sayəsində o, özünə güclü_ əhatə yarada bilmiş və bütün Mərkəzi Asiyanın qüdrətli hakiminə çevrilmişdi.

Uzun mübarizədən sonra Teymur Qızıl Orda xanı Toxtamışı məğlub etmiş, xanlığın paytaxtı Saray Bərakəni tutmuşdu. 1398-ci ildə tək-tək hökmdarlara nəsib olan bir zəfər də çalmışdı. Dehlini ələ keçirmişdi. 1400-01-ci illərdə Sivas, Dəməşq və Bağdadı tutmuşdu. 1400-02-ci il Ankara vuruşmasında Avropanı lərzəyə salmış ildırım Bəyazidin hərbi qüvvələrini darmadağın etmişdi (Şirvanşah ibrahim və Şəki hakimi Sidi Əhmədin hərbi dəstələri Teymur tərəfində vuruşurdu). Teymurun əli çatdığı yerlərdən tutmadığı bircə ölkə Çin idi. Buna görə də ömrünün 72-ci ilində özünün bütün hərbi qüvvələrinin başında Çin səfərinə çıxdı. Lakin hələ Mərkəzi Asiya hüdudlarını aşmamış möhkəm sətəlcəm oldu və 1405-ci İl fevralın 17-də öldü.

Teymur ələ keçirdiyi ölkələrdə elm-sənət adamlarına, sənətkarlara, tacirlərə toxunmazdı. Dünyanın ən məşhur sənətkarlarını imperiyanın paytaxtı Səmərqəndə göndərir və bu gün dünyanı heyran qoyan məşhur Səmərqənd ab lələr! in ucaldılmasını nəzarət altında saxlayırdı. Fəth etdiyi ölkələrdən

nadir kitabları, əlyazmalarını Səmərqəndə göndərirdi, ölərkən vəsiyyət etmişdi ki, onu Səmərqənddə müəlliminin ayaqları altında dəfn etsinlər. Əmir Teymur böyük və geniş bir ərazidə türk-islam dövləti yaratdı. Bu dövlət öz qüdrəti ilə orta əsrlərdə bütün Yaxın Şərqi lərzəyə salmışdı.

***Şah İsmayıl Xatayi***



Şah İsmayıl Xətayi 1487-ci ilin iyul avında anadan olmuşdur. O, Səfəvi hökmdarlarından olan Şeyx Heydərin oğludur. Anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızıdır. Şeyx Heydərin ölümündən sonra Ağqoyunlu hökmdarı Sultan Yaqub 1488-ci ildə kiçik yaşlı İsmayılı anası və qardaşları Sultanəli və İbrahimlə birlikdə həbs etdirdi. Sultan Yaqubun ölümündən sonra Rüstəm Mirzənin əmri ilə Şeyx Heydərin oğlanları 1402-ci ildə həbsdən azad olundular. Rüstəm Mirzə hakimiyyətdə möhkəmləndikdən sonra Səfəvi şahzadələrini aradan götürməyə çalışdı. Böyük qardaşı Şeyx Sultanəli İsmayılı Ərdəbila göndərdi. Bir müddət Ərdəbildə və Rəştdə Bizlənəndən sonra Şah İsmayıl Gilan hakimi Mirzə Əlinin sarayına aparıldı. 1499-cu ilin avqustunda Şah İsmayıl özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan bir neçə qızılbaş tayfa başçısı ilə şiələrdən ibarət qosun toplamaq üçün Ərdəbilə yollandı. Lakin Ərdəbil hakimi qızılbaşlara mahaldan çıxmağı əmr etdi. Qışı Ərçivanda keçirən Şah İsmayıl 1500-cü ilin yazında şamlı və rumlu tayfalarından, habelə Qaradağ və Talış əhalisindən ona qoşulmuş iki minə yaxın qızılbaşla Ərzincana gəldi. Burada qızılbaş tayfalarından, habelə Qaradağ sufilərindən yeddi min tərəfdar toplayıb 1500-cü ilin axırında Şirvana hücum etdi, şirvanşahın qoşunlarını

məğlubiyyətə uğratdı. Döyüşdə şirvanşah Fərrux Yaşar öldürüldü. Qızılbaşlar 1501-ci ilin yazında bir neçə günlük mühasirədən sonra Bakını tutdular. Gülüstan qalasında möhkəmlənmiş Şirvan qoşunlarını mühasirəyə aldılar. Lakin Ağqoyunlu Əlvənd Mirzənin hücuma keçdiyini eşidən qızılbaşlar mühasirədən əl çəkərək Naxçıvan istiqamətində hərəkət etdilər. Şərur düzündə baş vermiş döyüşdə yeddi minlik qızılbaş ordusu otuz minlik Ağqoyunlu ordusunu məğlubiyyətə uğratdı. 1501-ci ilin payızında Təbrizə daxil olan Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. Şah İsmayıla tabe olmaqdan boyun qaçıran Ağqoyunlu hökmdarı Muradla 1503-cü il iyun ayının 21-də Həmədan yaxınlığındakı döyüş də qızılbaşların qələbəsi ilə qurtardı. Sonrakı illərdə Şah İsmayıl bütün İranı, Xorasanı, Ermənistanı, İraqı Səfəvilər dövlətinə qatdı. Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrildi. Şah ismayıl kənd təsərrüfatını dirçəltmək, sənətkarlığı, ticarəti inkişaf etdirmək, xarici ölkələrlə iqtisadi əlaqələri genişləndirmək siyasəti yürüdürdü. O, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırdı.

Qonşuluqda Səfəvilər kimi qüdrətli dövlətin yaranması Osmanlı dövlətini narahat edirdi. 1514-cü il avqustun 23-də I Sultan Səlimin başçılıq etdiyi Osmanlı ordusu Maku yaxınlığındakı Çaldıran düzündə baş vermiş döyüşdə qızılbaşları məğlubiyyətə uğratdı. Sonrakı illərdə Şah İsmayıl Şəki hakimliyini, Şirvanşahları, gürcü çarlarını Səfəvilərdən asılı vəziyyətə saldı. Şah İsmayıl Şəkiyə növbəti səfərdən Ərdəbilə qayıdarkən 1524-cü ilin mayın 23-də vəfat etdi. Yerinə oğlu Təhmasib keçdi.

Şah İsmayıl “Xətayi» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində gözəl əsərlər yazmışdır. «Dəhnamə» poeması və fəlsəfi «Nəsihətnamə» məsnəvisi, anadilli Azərbaycan epik şerinin ilk nümunələrindəndir.

### *I Pyotr*



I Pyotr 1672-cİ ilin iyun ayında anadan olmuşdur. O, rus çarı Aleksey Mixayloviçin kiçik oğlu idi. Fiziki cəhətdən möhkəm, ağıllı, iradəli, amansız bir adam idi (1718-ci ildə oğlu barədə ölüm hökmünə razılıq vermişdi). Uşaqlıqdan ev təhsili almış, saray ustalarının köməkliyi ilə çoxlu peçə öyrənmişdi. 1882-ci ildən 1696-cı ilə qədər Rusiyanı qardaşı Ivanla birlikdə idarə etmişdi. 1697-98-ci illərdə Rus diplomatik nümayəndələrinin Qərbi Avropaya göndərilmiş Böyük Səfirliyinə başçılıq etmişdi. Rusiyanın Qərbi Avropa ölkələrindən geriliyini aradan qaldırmaq üçün mühüm islahatlar keçirmişdi. O, Rusiya üçün müvəffəqiyyətli xarici siyasət yeridirdi. Azov səfəri (1695-1696) nəticəsində Şimal müharibəsindəki qələbədən sonra (1700-1721) Rusiya Avropanın böyük dövlətləri sırasına daxil oldu.

1703-cü ildə I Pyotr Sankt-Peterburqun əsasını qoydu. O, nizami rus ordusunun, hərbi dəniz donanmasının yaradıcısıdır. Sənayenin inkişafına, kanallar və yollar çəkilməsinə xüsusi diqqət yetirmişdir. Pyotrun idarəçilik sahəsindəki islahatları (senat, kollegiyalar. quberniyalar yaradılması) ölkədə hakimiyyətin mərkəzləşməsin daha da gücləndirmişdi. Mədəniyyət və maarif sahəsində də böyük islahatlar keçirmişdi. Onun dövründə Rusiya Elmlər Akademiyası (1725-ci ildə), müxtəlif məktəblər, ilk rus muzeyi (1719), teatr və s. yaradıldı. Onun siyasəti zadəganların mənafeyinə uygun idi. I Pyotr 1722—23-cü illərdə Xəzərsahili vilayətlərə işğalçı yürüş etdi. Bu yürüş nəticəsində Dərbənd, Bakı və s. yerləri tutdu. O, 1725-ci ildə vəfat etmişdir. I Pyotr Rusiya tarixinə mütərəqqi dövlət və hərbi xadim kimi daxil olmuşdur.

## *Napoleon Bonapart*



Napoleon Bonap Fransanın dövlət xadimi və istedadlı sərkərdəsidir. O, 1769-cu ildə Korsikada müflisləşmiş zadəgan ailəsində doğulmuşdur. Briyenn və Parisin hərbi məktəblərində təhsil almışdır. Fransa maarifçiliyinin qabaqcıl ideyaları ruhunda tərbiyə alan Napoleon Böyük Fransa inqilabını rəğbətlə qarşılamış, 1792-ci ildə Yakobin klubuna daxil olmuşdu. 1793-cü ilin dekabr ayında Tulonun azad edilməsində göstərdiyi şücaətinə görə 24 yaşlı kapitan briqada generalı rütbəsinə layiq görüldü. Yakobinlərlə əlaqəsinə görə 1794-cı ilin sentyabrında həbs edilmiş, 1795-ci ilin sentyabrında isə ordudan tərxis olunmuşdu. Lakin monarxist sui-qəsdinə qarşı mübarizənin rəhbəri Barras 1795-ci ilin oktyabrında onu özünə köməkçi götürmüş və Napoleon az sonra diviziya generalı rütbəsinə layiq görülmüşdür. Napoleon 1798-99-cu illərdə Misirə qarşı hərbi yürüşə başçılıq etdi. Direktoriyanın böhranı şəraitində səfəri yarımçıq qoyaraq Parisə qayıtmış, iri burjuaziyanın köməkliyi ilə 1799-cu ilin noyabr ayının 9-10-da dövlət çevrilişi edərək ölkədə konsulluq formasında hərbi-burjua diktaturası yaratmışdı. 1804-cu il mayın 18-də özünü Fransa imperatoru elan edərək, ölkəni qəsbkar müharibələrə cəlb etdi. 1812-ci ildə Napoleon üzərində rus ordusunun qələbəsi Avropanı Fransa ağalığından xilas etdi.

Leypsiq yaxınlığında 1813-cü il oktyabr ayının 16-19-dakı məğlubiyyətdən sonra Napoleon imperiyası tam iflasa uğradı. Fransa əleyhinə 6-cı koalisiyaya daxil olan müttəfiq qoşunları Parisə daxil olduadan sonra Napoleon hakimiyyətdən əl

çəkməyə məcbur oldu. 1814-cü il aprel ayının 6-da imperator rütbəsini saxlamaqla onun üçün ayrılmış Elba adasına sürgün edildi. Napoleon 1815-ci ilin martında yenidən Fransaya qayıdaraq hakimiyyəti ələ keçirdi. Lakin Vaterloo vuruşmasında qəti məğlub olaraq iyunun 22-də hakimiyyətdən kənar edildi və ömürlük Müqəddəs Yelena adasına sürgün edildi və 1821-ci ildə orada vəfat etdi. Napoleon istedadlı sərkərdə böyük fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət kimi Fransa tarixində özünə layiqli yer tutmuşdur.

### *Məmmədəmin Rəsulzadə*



Məmmədəmin Rəsulzadə 1885-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. Kəndin hörmətli adamlarından olan atası axund Hacı Molla Ələkbər oğlunu dövrünün zəkalı adamlarından biri kimi görmək istəyirdi. Məmmədəmin əvvəlcə ev təhsili almış, Quranı mükəmməl öyrənmişdi. 16 yaşında o, S.M.Şənizadənin müdir olduğu ikinci rus-türk məktəbində, bir müddət də Bakı texniki məktəbində oxumuşdur. Lakin onu ən çox siyasi mübarizə, xalqı qəflət yuxusundan oyadıb, düçar olduğu xəstəliyi anlatmaq istəyi maraqlandırırdı.

1902-ci ildə 18 yaşlı Məmmədəmin Rəsulzadə ilk siyasi təşkilatını “Müsəlman gənclik təşkilatı”nı yaratdı. Bu, vahid proqramlı, işıqlı məqsədə xidmət edən siyasi qurum idi.

1903-cü ildən başlayaraq M.Ə.Rəsulzadə Tiflisdə çıxan “Şərqi-rus» qəzetində özünün siyasi mövzuda yazdığı məqalələrini çap etdirməyə başlayır. Siyasi məqalələrlə yanaşı,

onun «Şərqi-rus»da «Muxəmməs» adlı şeri də dərc olunur. 1908-ci ildə Rəsulzadənin «Qaranlıqda işıqlar" pyesi tamaşaya qoyulur. Elə həmin ildə daha bir pyesi– "Nagəhan bəla»nı yazır.

1911-ci ildə Bakıda «Müsavat" (ərəbcə «bərabərlik» deməkdir) adlı partiya yarandı. M.Ə.Rəsulzadənin liderlik etdiyi «Müsavat» neçə-necə azərbaycanlının sevimli idealına çevrilib onu özünə vurğun etdi. «Müsavat» azərbaycanlıların başı üzərində üçrəngli aylı-ulduzlu istiqlaliyyət atəşini yandırdı. 1915-ci ildə «Musavat»ın orqanı olan «Açıq söz" qəzeti nəşrə başladı. Rəsulzadə «Açıq söz»dəki məqalələrində haqq işi uğrunda mübarizəyə çağırırdı. Nəhayət, 1918-ci il 28 may günü gəlib çatdı. Məmmədəmin Rəsulzadə basda olmaqla ilk müstəqil Azərbaycan Cümhuriyyəti yaradıldı. 28 may Azərbaycan xalqına «sənin yer üzündə yaşamaq haqqın var!» fikrini aşıladı. 28 May yüz ildən yuxarı əsarət altında qalıb tarixi qaranlıqda yatan bir xalqı dünyanın iyirmi üç böyük aövlətinə tanıtdı. 1918-ci il dekabrın 7-də ilk Azərbaycan parlamentinin açılışında, o, bu münasibətlə xalqını təbrik etdi. M.Ə.Rəsulzadənin, eləcə də onun məsləkdaşları Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Əhməd Ağaoğlunun və b. qurub-yaratdıqları Azərbaycan Cümhuriyyəti 23 ay yaşadı. Ancaq 1920-cı il 27 apreldə bu azadlıq işığını amansızcasına söndürdülər. XI rus ordusu Bakıya daxil oldu. M.Ə.Rəsulzadə və onun silahdaşları xaricə mühacirət etdilər. O, Azərbaycandan kənarda da azad Azərbaycan uğrunda mübarizədən əl çəkmədi. 1955-ci il martın 6-da Ankarada vəfat etdi. Doğma vətənini hər şeydən çox sevən M.Ə.Rəsulzadə son nəfəsində belə "Azərbaycan! Azərbaycan! Azərbaycan!" dedi.

Sual və tapşırıqlar: 1. İnkişaf etmiş demokratik cəmiyyətdə şəxsiyyətin hərtərəfli inkişafını təmin etmək üçün konstitusiya ilə vətəndaşlara nə kimi hüquqlar, vəzifələr və azadlıqlar verilməlidir? 2. Görkəmli şəxsiyyətlər tarixin hansı inkişaf mərhələlərində meydana gəlirlər? 3. Tarixi şəxsiyyətlərin cəmiyyət həyatındakı rolu haqqında fikrinizi açıqlayın. *4.* Tarixi

şəxsiyyətlər hansı xüsusiyyətlərə malik olurlar? 5. Sizə məlum olan tarixi şəxsiyyətlərin hansını sevirsiniz? Sevirsinizsə nə üçün? 6. Azərbaycan Respublikasının Konstitusiyasında şəxsiyyətin hərtərəfli inkişafı üçün hansı hüquqlar, vəzifələr və azadlıqlar verilib?

**Kitabın içindəkilər**

GİRİŞ 370

**İNSAN VƏ CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI**

**CƏMİYYƏTİN RUHİ-ƏXLAQİ HƏYATI NƏDİR?**

§1. Maddi və ruhi həyat sahələrinin ayrılması şərtidir.............371

§2. Mənəvi həyatın qiymətləndirilməsi üçün istifadə edilən əlamətlər ........................................................................376

§3. Mənəvi həyat və keçmiş irs........................................379

§4. Qocalara, uşaq və qadınlara münasibət – mənəviyyatın göstəricisidir...................................................................385

**ŞƏXSİYYƏTİN AZADLIĞI VƏ ZƏRURƏT**

§ 5. Azadlıq haqqında müxtəlif baxışlar ..............................388

§6. Azadlığın növləri: fiziki, əxlaqi-psixoloji və intellektual azadlıq . .......................................................................391

**DİN VƏ İCTİMAİ HƏYATDA ONUN ROLU**

§7. Din nədir? ...................................................................399

§ 8. İbtidai-icma quruluşunda politeist dinlər .........................402

§9. Ateistlərlə dindarlığın dialoqu .......................................406

§10. Monoteist (təkallahlı) dinlər .........................................410

§ 11. Din və mənəviyyat.....................................................414

Oğurlamayın....................................................................415

Yalan danışmayın............................................................415

**İNCƏSƏNƏT VƏ ONUN İCTİMAİ HƏYATDA ROLU**

§12. «Dünyanı gözəllik xilas edəcək ...................................418

§13. İncəsənətin elmdən fərqi nədir? ...................................422

§ 14. İncəsənətin təyinatınm müxtəlifliyi ...............................424

§ 15. İncəsənətdə Millilik və bəşərilik ..................................428

**XÜSUSİ İCMAL**

Incəsənətin növləri ..........................................................431

İntibah dövrünün təsviri sənəti. Leonardo da Vinçi ..........439

Təbriz miniatür məktəbi._Sultan Məhəmməd ..................441
Əxlaq və onun cəmiyyətdə rolu....................................443
§ 16. Əxlaq necə yaranmışdır?......................................444
§17. Əxlaq normaları və cəmiyyət .................................448
§18. Əxlaqı təzadlar: xeyir-şər, ədalət-ədalətsizlik ............452
§ 19. Əxlaqda bəşərilik, sinfilik və millilik......................454
§ 20. Ünsiyyət mədəniyyəti..........................................461

**DÖVLƏT, HÜQUQ VƏ SİYASƏT**

§21. Dövlətin mənşəyi və mahiyyəti ..............................465
§22. Dövlətin tarixi tipləri və idarə formaları ...................469
§ 23. Hüquqi dövlət anlayışı və onun əsas cəhətləri..........479
§24. Azərbaycan Cümhuriyyətinin yaranması və fəaliyyəti 485

**AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN HİMNİ**

§ 25. Azərbaycan respublikasının hüquq sahələri.............494
§ 26. Azərbaycan respublikasının inzibati hüququ ...........496
§ 27. Təsərrüfat hüququ. Təbiətin mühafizəsi ..................503
§ 28. Azərbaycan respublikasının əmək hüququ ...............505
§ 29. Azərbaycan respublikasının mülki hüququ...............516
§30. Azərbaycan Respublikasının ailə hüququ .................522
§31. Azərbaycan respublikasının cinayət hüququ.............526
§32. Qanun, qanunçuluq, hüquq qaydası və intizam. .........536
§ 33. Beynəlxalq hüquq. BMT-nin 1948-ci il dekabr ayının 10-da qəbul etdiyi «İnsan hüquqlarının ümumi bəyannaməsi”..544

**XÜSUSİ İCMAL**

*Dövlət va tarixi şəxsiyyət:* Makedoniyalı İsgəndər, Yuli Sezar, Babək, Əmir Teymur, Şah İsmayıl, I Pyotr, Napoleon Bonapart, M.Ə.Rəsulzadə ........................................................549

Redaktoru *Nahad Əliyev*
Bədii redaktoru *Eldar Cəlilov*
Rəssamı *Azər Cabbarlı*
Texniki redaktoru *Nisə Nağıyeva*
Korrektoru *Aləmzər Zabir qızı*

Yığılmağa verilmiş 08.02.94. Çapa imzalapmış 20.09.94.
Kağız formatı 84x108732. Ofset çapı. Ofset kağızı N» 2.
Məktəb qarnituru. Fiziki çap vərəqi 6,0. Şərti çap vərəqi 10,08.
Uçot nəşr vərəqi 10,03. Tirajı 60000. Sifariş

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin
«öyrətmən» nəşriyyatı

Bakı, 370073, Şəhriyar küçəsi, 6.
"Öyrətmən" nəşriyyatının kompüter
mərkəzində
*iradə Hüseynova* yığmış və
*Nikolay Şvarov* səhif ələmişdir

*İnsan və cəmiyyət*
*(Orta ümumtəhsil məktəblərinin*
*11-ci sinfi üçün dərslik)*
Bakı-»Öyrətmən»-1994